AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# ATALAR SÖZLƏRİ

BAKI - 2013

**LAYİHƏ RƏHBƏRİ:** **Muxtar KAZIMOĞLU (İMANOV)**
filologiya üzrə elmlər doktoru

**Tərtib edəni və**
**ön sözün müəllifi:** **MƏTANƏT YAQUBQIZI**
filologiya üzrə fəlsəfə doktoru

**Redaktoru:** **İSRAFİL ABBASLI**
filologiya üzrə elmlər doktoru,
professor

**Rəyçilər:** **Seyfəddin RZAYEV**
filologiya üzrə elmlər doktoru,
**RZA XƏLİL**
filologiya üzrə fəlsəfə doktoru,
**AFAQ XÜRRƏMQIZI**
filologiya üzrə fəlsəfə doktoru

**Atalar sözləri.** Bakı, "Nurlan", 2013, 476 səh.

folklorinstitutu.com

A 3202050000 Qrifli nəşr
098 - 2013

© Folklor İnstitutu, 2013

# MİLLİ PAREMİOLOJİ FONDUN YENİ TƏQDİMAT SƏVİYYƏSİ

Atalar sözləri zamanından, məkanından, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün dünya xalqlarının folklor yaradıcılığının ayrılmaz tərkib hissəsidir. Ümumiyyətlə, dünyanın istisnasız olaraq heç bir xalqının etnokosmik düşüncə sistemini atalar sözlərindən qıraqda və ümumən atalar sözləri olmadan bir bütöv halında təsəvvür etmək mümkün deyildir. Bu cəhət atalar sözlərinin ümumən milli poetik düşüncənin, milli ictimai şüur və psixologiyanın mühüm struktur hadisəsi olduğunu göstərməklə yanaşı, ona münasibətdə biz keçmiş postsovet ölkələri alimlərinin baxışlarının da bütöv olmadığını ortaya qoyur. Atalar sözlərinin bütün janr mahiyyəti və ümumən semantik təbiəti folklora yalnız şifahi ədəbiyyat paradiqmasında yanaşmış sovet keçmişindən qalma ənənə olaraq bu gün də sırf bədii janr kimi tövsif olunur. Halbuki atalar sözlərinin sözlü folklor kimi bədii funksiyası onun milli mədəniyyət sistemində yerinə yetirdiyi funksiyanın yalnız formal tərəfini, qılafını, cildini, şəklini ifadə edir. **Atalar sözləri istənilən etnik mədəniyyət tipində bütün zamanlar boyunca vahid və dəyişməz funksiya kimi kollektiv təcrübə və biliyin ötürülmə və yaşama vasitəsi olmaq vəzifəsini yerinə yetirmişdir.** Onun poetik strukturunun bütün bədii keyfiyyətləri etnokosmik düşüncənin şifahi kodunun özünəməxsusluğunu inikas edir. Bu baxımdan, atalar sözləri onları bədiiləşdirən, estetikləşdirən, bədii-estetik funksiyasından qabaq onu kommunikativ-ideoloji hadisə kimi şərtləndirmiş funksiyanın reallaşma vahididir. Belə bir funksiyanın reallaşma rejimi toplumun düşüncəsinin əsasında mifoloji düşüncə modelinin dayandığı kosmoloji çağ olmuşdur. Məhz kosmoloji çağda atalar sözləri toplumun ictimai-ideoloji, əxlaqi-idraki, ailə-məişət və s. qatlarının davranış modellərini özündə daşıyan və sakrallaşdıran mətnlər idi. Bu davranış modellərinin etnik-mədəni sistem səviyyəsində universallığı onlarda daşınan, ötürülən informasiyanın bəşəriliyindən, kollektivin ümumiləşmiş təcrübə

və biliyindən gəlirdi. Hər bir etnosun təcrübəsi kollektiv yaddaşda ümumiləşir. Ənənənin şifahiliyi prinsipi ilə qurulan və işləyən kollektiv yaddaşın hər bir fərd tərəfindən mənimsənilməsinin və ötürülməsinin vasitələrindən biri də atalar sözləri idi.

Atalar sözlərinin Azərbaycan etnokosmik varlığında bütün zamanlarda oynadığı bu funksiya Oguz-İslam epoxasında "Atalarun sözü Qurana girməz, amma Quran yanınca yalın-yalın yalışur" ehkamı ilə milli düşüncədəki yerini daha da funksionallaşdırır. Bu funksiyanın aktuallığı milli toplumun atalar sözlərində yaşayan milli davranış formullarına günlük ehtiyacı ilə təsdiq olunduğu kimi, zamanla çap olunan atalar sözləri topluları ilə də üzə çıxır. Müəyyən zaman ritmi ilə çap olunan atalar sözləri kitabları cəmiyyətin bu janra olan ehtiyacını ifadə edir. Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan folklorunun toplanması və regional strukturunun tədqiqinə öz qiymətli töhfələrini vermiş folklorşünas Mətanət xanım Abdullayevanın tərtib edərək oxucuların ixtiyarına verdiyi bu atalar sözü toplusu da istisna olmayıb, bu janrın milli düşüncə sistemi üçün aktuallığını nəzəri və praktiki planda bir daha təsdiq edir.

Atalar sözlərinin toplanması ilə bir çox görkəmli Azərbaycan folklorşünasları məşğul olmuş, hətta bunların içərisində Əbülqasım Hüseynzadə kimi bütün ömrünü atalar sözlərinə həsr etmiş folklorşünaslar da olmuş və nəticədə bu janrın sanballı milli mətn korpusu yaranmışdır. Qeyd edək ki, həmin mətn korpusunun yaranmasında özünün davam etməkdə olan toplayıcılıq fəaliyyəti ilə M.Abdullayeva da iştirak etməkdədir. Bu cəhətdən, oxuculara təqdim olunan bu yeni kitab akademik standartlı nəşr kimi, atalar sözlərinin mövcud milli mətn korpusuna istinad etməklə onun yeni tərtib-təqdimat üsulunu özündə gerçəkləşdirir.

Bu kitab bir çox xüsusiyyətləri ilə diqqəti cəlb edir. Toplu haqqında ilk olaraq onu demək olar ki, burada Azərbaycan atalar sözlərinin mövcud fondu, demək olar ki, bütövlükdə əhatə olunmuşdur. Azərbaycan folklorşünaslıq elminin üç əsr (XIX-XXI) çərçivəsində gerçəkləşmiş paremioloji fəaliyyət təcrübəsi özü-

nün həm praktiki (toplama), həm də nəzəri (tədqiqat) ənənələri ilə kitabda əks olunmuşdur. Belə ki, M.Abdullayeva bu janrın milli folklorşünaslıqdakı tərtib-nəşr ənənələrinin bütün müsbət nəticələrini tətbiq etməyə çalışmışdır. Digər tərəfdən, tərtibçi artıq zəngin biblioqrafiya halına gəlmiş Azərbaycan atalar sözü fondunu bu yeni nəşrdə dolğun şəkildə əhatə etməyə çalışmışdır. Bu isə heç də asan olmayan işdir. Belə ki, keçən müddət ərzində çoxlu sayda atalar sözü nümunəsi çap olunmuşdur. Bu mətn fondunun yaradılması tarixi proses olmuş, fərqli epoxalardan keçmişdir. Belə ki, XIX əsrin ikinci yarısından toplanılan atalar sözləri həmin dövr rus folklorşünaslığının təcrübi ənənələrinə istinad etməklə, demək olar ki, dövrün qabaqcıl beynəlxalq ənənəsini inikas edirdi. Həmin çağda atalar sözlərini toplamış ziyalılar üçün bu janr bütün hallarda milli mədəniyyətin və milli düşüncənin mühüm tərkib hissəsi idi. Lakin XX əsr sovet epoxasında bu janra münasibət dəyişdi. O, ilk növbədə milli əsaslarından məhrum edildi. Sovet ideoloqları çox yaxşı bilirdilər ki, hər bir xalqın atalar sözləri həmin xalqın mənsub olduğu etnosun bütün etnokosmik kimlik sxemləri və davranış formullarını özündə yaşadır. Atalar sözlərini bu statusda toplamaq və çap etmək rus-slavyan kimliyindən başqa bütün başqa kimliklərə düşməncəsinə yanaşan sovet ideoloqlarının düşüncəsinə zidd idi. Ona görə də onlar bütöv folklor mətnlərinə münasibətdə olduğu kimi, atalar sözlərinin də çapına ciddi ideoloji çərçivə qoymuşdular. Bu çərçivədən qırağa çıxmaq, digər qəliblərdən istifadə etmək folklorşünaslara həyatı bahasına başa gəlirdi. Bundan dolayı milli kimliyi, Azərbaycan xalqının etnokosmik stereotiplərini, o cümlədən dini-milli stereotipləri özündə yaşadan atalar sözləri birmənalı şəkildə çıxdaş edilir, kənara atılır, hətta zamanla "Allahsız yerdə otur, amma böyüksüz yerdə oturma", "Allah yıxan evi qızlar tikər" kimi saxta mətnlər də yaradılırdı. Bu, biz nəsil folklorşünasların da içindən keçdiyi XX əsr sovet folklorşünaslığının öz reallığıdır. Bu reallığı özündə əks etdirən "70 illik" təcrübə ilə işləmək hər bir tədqiqatçıdan, o cümlədən

artıq öz sahəsi üzrə sanballı mütəxəssis olan M.Abdullayevadan böyük səriştə və peşəkarlıq tələb edirdi. Toplunu nəzərdən keçirdikcə göstərilən keyfiyyətləri hər bir səhifədə müşahidə etməmək, görməmək olmur.

Düşünürük ki, kitabda tətbiq olunmuş **tarixi sinxronlaşdırma** üsulu da bəhs etdiyimiz amil və keyfiyyətlərdən irəli gəlir. Bu üsulun milli folklorşünaslığımızda məqsədli tətbiqinə, demək olar ki, rast gəlinmir: spontan təcrübələri var. M.Abdullayeva isə bu topluda sözü gedən metoddan məqsədli şəkildə istifadə etmişdir. Düşünürük ki, kitabın əsas məziyyətlərindən biri kimi, həmin üsula toxunmaq yerinə düşər.

Bilirik ki, atalar sözləri epoxal xarakterli janrdır. Hər dövrün atalar sözlərində öz zamanının fiziki və mənəvi təcrübəsi öz əksini tapır. Bu zaman əski olanla yeni olanın münasibəti atalar sözü janrının poetik struktur özünəməxsusluğu çərçivəsində reallaşır. “Yeni olan” yeni zamanın təcrübəsində meydana çıxan məzmun hadisəsi kimi “köhnənin” qəlibinə – formasına oturur. Hər bir xalqın dili məhdud və məlum sayda səs-əlifba qəliblərinə oturduğu və bütün leksik baza bu məhdud-məlum fonem qəliblərinin kombinasiyası olaraq yarandığı kimi, etnosun bütün mənəvi və fiziki təcrübəsi də atalar sözlərinin məlum və məhdud sayda olan qəliblərinə oturur. Etnik stereotiplər məzmunca dəyişə bilir, lakin onların struktur sxemləri sabit qalır. Bu cəhətdən bir etnosun müxtəlif zamanlarda meydana çıxan atalar sözləri məzmunca bir-birini inkar edə bilər, lakin bu halda onların formal struktur qəlibi yenə də eyni olaraq qalır. Məsələn, atəşpərəstlik ideologiyasının paremiləri islam ideologiyasında qəbul olunmur, ziddiyyətə girir. Lakin məzmunca zidd olan paremilər eyni qəlibdə təqdim olunur. Yəni məzmun qatında bir ideoloji vahidi (Avesta mənşəli obrazı) zidd ideoloji vahid (islami obraz) əvəz edə bilər, lakin formal poetik strukturda heç bir əvəzlənmə baş vermir. Eləcə də atalar sözlərində Tanrı-Allah paralelizmini və əvəzlənməsini yada salaq. Bu cəhətdən M.Abdullayeva cəsarətli bir addım ataraq fərqli epoxaların atalar sözlərini bir top-

luda təqdim etmişdir. Burada cəsarət amili toplunun fərqli oxucu səviyyələrində yarada biləcəyi fərqli reaksiyalarla bağlıdır. Belə ki, müxtəlif dövrlərin bir-birini inkar edən atalar sözləri təəccüb, çaşqınlıq yarada bilər. Lakin bu cəhət mütəxəssisə tarixi-müqayisəli yanaşma üçün qiymətli material verir. Bu da öz növbəsində toplunun akademik statusunu ortaya qoymaqla onun elmi əhəmiyyəti nümayiş etdirir.

Bu kitab elmi nəşrin standartları əsasında hazırlanmışdır. İstifadə olunmuş bütün qaynaq və ədəbiyyatlar göstərilmiş, müasir olmayan leksika və dialekt vahidlərini əhatə edən lüğət verilmişdir. M.Abdullayeva kitaba məzmunlu müqəddimə yazmış, burada kitabda tətbiq olunmuş bütün paremioloji norma və prinsiplər şərh olunmuşdur.

Elə hesab edirik ki, 90-a yaxın qaynaq üzərində illərin zəhmətini əhatə edən bu kitab elmimizdə öz sözünü deyəcək, həm mütəxəssislər, həm də atalar sözünün tükənməz hikmətinin vurğunları üçün qiymətli hədiyyə olacaqdır.

**Seyfəddin RZASOY**
**Filologiya elmləri doktoru**

# ETİK SƏRHƏD

Atalar sözləri əslində öz kiçik görüntü çevrəsindən çıxıb daha dərin qatlara qədər gedən ibrətamiz ifadələrdir. Atalar sözləri insanları daima nəzarət çərçivəsində saxlayan, tərbiyə edən etik normalar sistemi, əxlaq kodeksidir – desək, yanılmarıq. Atalar sözləri insan həyatının, demək olar ki, bütün sahələrini əks etdirən folklor janrlarından biridir.

"Atalar sözü timsalında xalq öz zəkasının və dilinin ülviyyətinə, kəsərinə sığınmışdır; hər kəlam bir növ "tabu"dur; istənilən gümandan, sualdan azaddır; hər fikri, hər etik əxlaqi tövsiyəsi dərin daxili inamla qəbul olunan pozulmaz qanundur. Çünki xalq əzəl-binadan öz atalar sözlərini yazılmamış müqəddəs kitabın ayələri tək qavramışdır[1]."

İnsan həyatını etik normalar çərçivəsinə salan, etik sərhəddə mənimsənilən atalar sözləri ta qədimdən məişətimizə daxil olmuş, bu gün də qiymətli söz inciləri kimi öz dəyərini itirməmişdir.

Atalar sözləri bir çox digər folklor janrları kimi real mühitin gerçək fakt və hadisələri nəticəsində yaranır. Daha sonra həmin nümunələr doğulduğu mühitdə müxtəlif yeni məna çalarları qazanır. Məsələn, bu gün tez-tez işlətdiyimiz "Ayağı nərdivana bir-bir qoyarlar"[2] nümunəsi, təbii ki, ilkin variantda övladına və ya nəvəsinə nərdivanla çıxıb-düşmək qaydasını izah edən ata-ananın və ya nənə-babanın söylədiyi adi bir cümlə olmuşdur. Bəlkə də ilk dəfə bu cümləni quran şəxsin heç ağlına da gəlməyib ki, bu deyim nə vaxtsa atalar sözü kimi işlənəcək. Sadəcə həmin şəxs nərdivanla çıxıb-düşən övladına belə bir məsləhət vermişdir ki, pillələri bir-bir addımla, ayağını nərdivana bir-bir qoy, əks halda yıxıla bilərsən və ya tez yorularsan. Daha sonra

---

1. S.Əlizadə. Müdrikliyin sönməyən işığı. Müqəddimə. Oğuznamə. Bakı-"Yazıçı"-1987., səh:11

2. Marağayi Abbasqulu. Əmsali–Türkanə (Atalar sözləri və xalq məsəlləri). Bakı –"Yazıçı" - 1992

bu cümlə mənaca genişlənmiş və həyat yolunda yüksəlməyin, məqsədə çatmağın, hədəfi əldə etməyin ümumi qaydasına çevrilmiş və nəhayət, müxtəlif simvolik məna çalarları ifadə etmişdir.

Yuxarıdakı nümunədə olduğu kimi, bəzi atalar sözləri ilk baxışdan anlaşıqlı və aydın dərk olunandır. Bəziləri zahiri görüntü qatında anlaşıqlı olsa belə, işlənmə məqamında sakrallaşır. Bəzi atalar sözləri də vardır ki, həm zahiri görüntü qatına görə, həm də işlənmə məqamına görə sakral sfera atributu mahiyyəti daşıyır.

Bu və digər səbəblərdən irəliləyərək təqdim edilən kitabda toplanmış nümunələri mənşəyinə, işlənmə sferasına, tipinə və məzmununa görə qruplaşdırmaq potensial olaraq mümkündür. Ancaq qarşıya çıxan bir sıra problemlər bizi bu fikirdən daşındırdı. Çünki təsnifat zamanı bir qrupa, tipə, mövzuya daxil edəcəyimiz eyni bir nümunə istər forma baxımından, istərsə də məna baxımından müxtəlif mövzu kontekstinə daxil ola bilər. Ona görə də çoxsaylı təkrarların və böyük bir xaosun yaranma ehtimalı ortaya çıxır. Bu da, təbii, ki, oxucu kütləsi üçün çox yorucu ola bilərdi.

Ən ideal halda nümunələrin həm xronoloji ardıcıllıqla, həm də əlifba ardıcıllığı ilə verilməsi daha yaxşı olardı. Ancaq müəyyən səbəblər üzündən kitabı tərtib edərkən sadəcə əlifba sırası ilə sistemə salmağı məqsədəuyğun hesab etdik. Çünki əgər yeni yaranan nümunəni yox, tarixi ardıcıllığa görə ilkin variant kimi götürdüyümüz yazılı abidələrdəki nümunələri kitaba daxil etsək, o halda mətndəki dəyişikliyi, sonrakı inkişafı itirə bilərik. Fikrimizi nümunələrlə əsaslandırmağa çalışaq.

Əgər XIV-XV əsr abidəsi "Oğuznamə", XVI-XVII əsr abidəsi "Əmsali-türkanə"-də nəşr olunmuş bir nümunəni ilkin variant kimi – "Əl-əldən üstündü"[1] - şəklində götürsək, onda f.e.n. Hamid Qasımzadənin tərtib etdiyi kitabda verilən – "Əl-əldən üstündü, ərşə kimi" – örnəyinin "ərşə kimi" hissəciyi itəcəkdi.

---

1. Marağayi Abbasqulu. Əmsali–Türkanə (Atalar sözləri və xalq məsəlləri). Bakı –"Yazıçı" - 1992

Buna görə də bəzi hallarda xronoloji ardıcıllıq yuxarıda qeyd etdiyimiz kimi bu şəkildə bizdən asılı olmadan pozulmuşdur.

“Doğruya zaval yoxdu” – yenə də “Əmsali-türkanə” abidəsi ilkin mənbə kimi götürülməsinə baxmayaraq, f.e.n. Hamid Qasımzadənin tərtib etdiyi kitabda verilən – “Doğruya zaval yoxdu, çəksələr min divana” nümunəsində “çəksələr min divana” hissəciyi itə bilərdi, beləcə də unudulub gedərdi.

“Əkinini göyikən yeyən xırman vaxtı ac qalar”[1] – nümunəsi Cənubi Azərbaycan folkloru antologiyasında “Əkinini sütül yiyən xırman vaxtı sülənər”[2] şəklində verilmişdir. Biz bu iki nümunəni (belə nümunələr çoxdur) də çox oxşar olmasına baxmayaraq kitaba daxil etməyi məqsədəuyğun bildik.

Bəzən mətnlərdə söz, ya da rəqəm dəyişikliyi nəzərə çarpır. Çalışmışıq ki, bu örnəkləri azacıq dəyişiklik olmasına baxmayaraq, olduğu kimi nümunələrin sırasına daxil edək. Çünki bu gün bizə kiçik bir dəyişiklik kimi görünə bilən bu fərq gələcək tədqiqatçılarımız üçün ciddi bir mənbə ola bilər. Məsələn, “Əmsali-türkanə” abidəsində – “Dəvə degiləm, iki yerdən boğazlanım” – nümunəsində verilən iki rəqəmi Göyçə folklorunda – “Dəvə döyüləm, yeddi yerdən boğazlanım” [3] nümunəsində yeddi rəqəmi ilə əvəzlənib.

Kitaba daxil edilən örnəklərə diqqət verdikdə regional ünsürlərlə daha çox qarşılaşırıq. Mətni söyləyən söyləyici hansı bölgəni təmsil edirsə, nümunəyə həmin bölgənin möhürünü vurur və bu nümunəni özününküləşdirir. Məsələn, aşağıda verilən

---

1. Atalar sözü. Azərbaycan folklorunun ilkin nəşrləri seriyası. Tərtib edəni: Məmmədvəli Qəmərli. Transfonoliterasiya və sözlüyün müəllifi: R. Xəlilov. Ön sözün müəllifi: İ. Abbaslı. Elmi redaktoru: Hüseyn İsmayılov. Bakı - “Səda” - 2003

2. Güney Azərbaycan folkloru. I kitab (Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanmış folklor örnəkləri). Toplayan: Məmmədəli Fərzanə. Elmi redaktoru və ön sözün müəllifi: f.e.d., prof. İsrafil Abbaslı. Tərtib edən: f.ü.f.d. Sönməz Abbaslı. Rəyçilər: f.ü.f.d., dos. Rza Xəlilov, f.ü.f.d. Əziz Ələkbərli. Bakı – “Elm və təhsil” - 2013

3. AFA. III cild. Göyçə folkloru. Bakı - “Səda” - 2000

birinci və ikinci nümunənin söyləyiciləri yaşadığı bölgədə qoz və fındığın olduğuna istinad edirsə, üçüncü nümunəni söyləyən söyləyici yaşadığı ərazidə bitən palıd ağacını örnəyə əlavə edir. Bu baxımdan bu örnəklərin hansının ilk yarandığını və hansı bölgədə yarandığını söyləmək çətindir. Belə hallarda yalnız xronoloji ardıcıllığa əsaslanaraq təxmini ilkin mənbə seçirik. Yuxarıda qeyd etdiyimiz kimi bəzən məlum səbəblərə görə bu xronoloji ardıcıllığı pozmağa məcbur oluruq. Məsələn, f.e.n. Hamid Qasımzadənin tərtib etdiyi "Atalar sözü" kitabında, Hənəfi Zeynallının əlyazmasında – "Dəlinin başında qoz ağacı olmaz"; Şəki-Zaqatala folklorunda – "Dəlinin başında fındıq ağacı olmaz, qoz ağacı olmaz" – nümunələrində fındıq, qoz ağaclarının bu region üçün, Göyçə, Ağbaba[1] folklorunda – "Dəlinin başında palıd ağacı olmaz" – nümunəsində verilən palıd ağacının isə bu region üçün xarakterik olduğu təsdiq edilir.

Bəzən də eyni mənanı verən nümunələrdə sadəcə dialekt ünsürləri vasitəsilə bir qədər rəngarənglik yaranır:

"Minarə başında cöviz durmaz"[2];

"Minarə başında girdəkan dayanmaz"[3];

"Minarə başında qoz dayanmaz"[4].

Yuxarıda qeyd etdiyimiz bu nümunələrdən başqa, artıq atalar sözlərinə çevrilmiş, dilimizdə ümumişlək olan bir qisim məsəl və deyimlər də vardır ki, onları da bu kitaba daxil etməyi zəruri bildik.

Maraqlı faktlardan biri də nümunələrdə dual mövqedən çıxışdır. Söyləyicinin biri nümunədə bir fikri təsdiqləyirsə, digəri ona əks mövqedə durur. Məsələn:

---

1. AFA. VIII cild. Ağbaba folkloru. Bakı - "Səda" - 2003
2. Zeynallı Hənəfi. Azərbaycan atalar sözü. Bakı-1926. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
3. Çernyayeviski A.O. Vətən dili. əvvəlimci cild - Tiflis – 1898. Atalar sözü. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
4. Atalar sözü. Toplayanı: Əməkdar mədəniyyət işçisi Əbülqasım Hüseynzadə. Tərtib edəni: f.e.n. Hamid Qasımzadə. Elmi redaktoru: f.e.d. Bayram Tahirbəyov. Bakı - "Yazıçı" – 1985

“Aşağıdan yuxarı gələndə xeyir olmaz”[1].

“Aşağıdan yuxarı gələndə xeyir olar”[2].

“Əgrini tox gördüm, doğrunu ac”[3].

“Əgrini tox görmədim, doğrunu ac”[4] və s.

Belə fərqlilikləri doğuran səbəb nümunələrin mənşəyi və situativ məqamlardır.

Müxtəlif bölgələrdə işlənən deyimlər, məsəllər bəzən artıq o bölgələr üçün o qədər ümumişləklik qazanmışdır ki, atalar sözləri səviyyəsinə yüksəlmişdir. Məsələn:

“Lobyalı aşın boyadı, İsanı yuxudan oyadır”.

“Lobyalı aş, keçəl Dadaş, get gəlirəm yavaş-yavaş”.

“Nehrəzi qaynarlayırsınız”[5]?! və s.

Birinci və ikinci nümunədən də bəlli olur ki, Şəki-Zaqatala bölgəsində lobya ilə hazırlanan plov o qədər ləzzətlidir ki, onsuz keçinmək mümkün deyildir. Üçüncü nümunədən çıxan nəticə belədir ki, gələn qonağa o qədər çay təklif olunur ki, nəticədə bu nümunənin yaranması labüd olur. Bu nümunənin müxtəlif variantları mövcuddur. Tovuz - Qazax bölgəsi üçün də ümumişlək olan – “Çaya bir az da kartof at” - nümunəsi fikrimizi bir daha aydınlaşdırmağa imkan verir. Belə nümunələr real mühitin göstəriciləridir. Atalar sözləri toplu şəklində çap olunduğu kimi məsəl və deyimlərin nəşri də çox vacib və önəmlidir.

İndiyə qədər tərtib olunan bir çox kitablarda atalar sözləri müxtəlif janrlarla qarışdırılır, Aşağıda verilən nümunələrin

---

1. Marağayi Abbasqulu. Əmsali–Türkanə (Atalar sözləri və xalq məsəlləri). Bakı–“Yazıçı”-1992; Marağayi Abbasqulu. Əmsali–Türkanə (Türk atalar sözləri). Bakı – “Qartal”- 1996

2. Atalar sözü. Bakı-“Yazıçı”-1985

3. Zeynallı Hənəfi. Azərbaycan atalar sözü. Bakı-1926. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

4. Zeynallı Hənəfi. Azərbaycan atalar sözü. Bakı-1926. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

5. AFA. Şəki-Zaqatala folkloru. XIIIc. Bakı - “Səda” - 2005

bəzilərini atalar sözləri kimi qəbul etmək, ümumiyyətlə, mümkün deyil. Məsələn:

"Dar küçədən keçmərəm, çadramı yellətmərəm, adımı qız qoymuşam, dul kişiyə getmərəm"[1] – mollanəsrəddinçilərdən bir satirik şeir nümunəsi;

"Əvvəl döyək, sonra yeyək"[2] – rəvayət;

"Darayı, səni yeyər hər ayı"[3] – atmaca;

"Dəyirmana girdi köpək, dəyirmançı vurdu kötək, bilmirəm, kəpək yedi, köpdü köpək, ya da ki, kötək yedi, köpdü köpək"[4] – yanıltmac;

"Aldada bilməmiş dünyanın varı, bir məslək eşqiylə yaşayanları"[5] – S.Vurğundan;

"Anası cibinə qənbər qoyur"[6] – inanc (rəvayətli);

"Ağa Nəzərəm, belə gəzərəm, bir yumruğa qırxın əzərəm"[7] - hərbə-zorba (rəvayətli);

"Adam qabağına çıxartmalı deyil"[8] – deyim;

"Adın nədi – Rəşid, bir de, bir eşit"[9] – cırnatma;

"Adın nədi Daşdəmir, yumşalısan, yumşalı"[10] – cırnatma;

---

1. Atalar sözü. Bakı -"Yazıçı" - 1985
2. Yenə orada
3. Yenə orada
4. Yenə orada
5. Yenə orada
6. Yenə orada
7. Atalar sözləri. Toplayanı: Kəlvin kənd məktəbinin müəllimi Mahmudbəy Mahmudbəyov. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil; Atalar sözü. Bakı - "Yazıçı" - 1985; AFA. İrəvan folkloru. Xc. Bakı - "Səda" - 2004; AFA. Ic. Naxçıvan folkloru. Bakı - "Sabah" - 1994
8. Atalar sözü. Bakı - "Yazıçı" - 1985
9. Atalar sözü. Azərbaycan folklorunun ilkin nəşrləri seriyası. Tərtib edəni: Məmmədvəli Qəmərli. Bakı - "Səda" - 2003; Atalar sözləri. Toplayanı: Kəlvin kənd məktəbinin müəllimi Mahmudbəy Mahmudbəyov. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

1. Mümtaz Salman. Atalar sözü və məsəllər. F 24/s. v. 80 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil; Zeynallı Hənəfi. Azərbaycan atalar sözü. Bakı - 1926. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

"Dayımın qurd dayısı"[1] – deyim (qohumluq mənasında);
"Allah ağzından eşitsin"[2]! – alqış;
"Allah qotur versin, dırnax verməsin"[3] – qarğış;
"Atası evlənməmiş oğlu bazara gedir"[4] - tapmaca (cavabı: üzüm);
"Ay müştəri, müştəri, qızıldandı dişləri"[5] – bazar deyimləri;
"Bu gün çərşənbədi, qəlbimə düşən nədi"[6] tapmaca (cavabı: dələmə, pendir);
"Evində dəlik, belində yara, yar sirrini ellərdə ara" [7] – tapmaca (cavabı: hambal)
"Aya deyər: Sən çıxma, mən çıxım, günə deyər: Sən çıxma, mən çıxım"[8] – nağıllarda işlənən medial formul[9];

"Əzizim Vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə
Ölməyə Vətən yaxşı" [10]– bayatı;

"Burdan vurram qılıncı,
Dəhnədən çıxar ucu"[11] – tapmaca (cavabı: ildırım)

"Sufra muraddır" [1] - yuxu yozumu və s.

---

1. Mümtaz Salman. Atalar sözü və məsəllər. F 24/s. v. 80 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil; Zeynallı Hənəfi. Azərbaycan atalar sözü. Bakı - 1926. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

2. Yenə orada

3. Yenə orada

4. Yenə orada

5. Yenə orada

6. Zeynallı Hənəfi. Azərbaycan atalar sözü. Bakı - 1926. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

7. Atalar sözü. Bakı - "Yazıçı" - 1985

8. Yenə orada

9. Bu qeydə görə f.ü.e.d. O.Əliyevə təşəkkür edirik.

10. Atalar sözü. Bakı - "Yazıçı" - 1985

11. Atalar sözü. Bakı - "Yazıçı" - 1985; AFA. VI kitab. Şəki folkloru. II c. Bakı – "Səda" – 2002

1985-ci ildə f.e.n. Hamid Qasımzadə tərəfindən tərtib olunmuş "Atalar sözləri" kitabına yazılmış "Tərtibçidən" adlanan məqalədə ayrı-ayrı müəlliflərin atalar sözləri barədə fikirlərinə müraciət olunmuş və bu müəlliflərin bəzi janrların da atalar sözlərinə daxil olunduğu fikri qeyd edilir. Həmin kitabda Nizami, Füzuli və başqa şair və yazıçılarlmızdan aforistik kəlamların, digər janr nümunələrinin də atalar sözləri kimi qəbul edilərək kitabda verildiyi göstərilir. Ancaq biz çalışmışıq ki, atalar sözləri adı altında verilmiş qeyri janrları təqdim olunan kitaba daxil etməyək.

Bəzən nümunələrin ya düzgün yazılmamasından, ya da düzgün oxunmamasından qəlib variant səhv nəşr olunmuşdur.

Nümunələrə diqqət edək:

"Öküzün qaşqasına dögərlər" nümunəsi – "Öküzün qaşqasını qovallar"[2] şəklində;

"Olan yerdən öləcək" nümunəsi – "Olan yerdən olacaq"[3] şəklində;

"Baş sındı börk içində, qol sındı yeng içində"[4] nümunəsi

"Baş sınar bel içində, qol sınar kürk içində"[5] şəklində işlənmişdir.

---

1. Oğuznamə. Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi: Samət Əlizadə. Elmi redaktoru: Mirzə Rəhimov. Rəyçi: f.e.n. Kamil Vəliyev. Bakı - "Yazıçı" - 1987

2. Mümtaz Salman. Atalar sözü və məsəllər. F 24/s. v. 80 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil; Atalar sözü. Bakı - "Yazıçı" - 1985; Zeynallı Hənəfi. Azərbaycan atalar sözü. Bakı - 1926. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil; Atalar sözləri. Toplayanı: Kəlvin kənd məktəbinin müəllimi Mahmudbəy Mahmudbəyov

3. Zeynallı Hənəfi. Azərbaycan atalar sözü. Bakı - 1926. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil; Atalar sözü. Azərbaycan folklorunun ilkin nəşrləri seriyası. Tərtib edəni: Məmmədvəli Qəmərli. Transfonoliterasiya və sözlüyün müəllifi: R. Xəlilov. Ön sözün müəllifi: İ. Abbaslı. Elmi redaktoru: Hüseyn İsmayılov. Bakı - "Səda" - 2003

4. Marağayi Abbasqulu. Əmsali–Türkanə (Atalar sözləri və xalq məsəlləri). Bakı – "Yazıçı" - 1992

5. Atalar sözü. Bakı - "Yazıçı" - 1985

Belə naqis nümunələr indiyə qədər nəşr olunmuş bir çox kitablarda həddən artıq çoxdur. Təqim olunan kitabda isə biz çalışmışıq ki, həmin nümunələrin ilkin və düzgün hesab etdiyimiz  qəlib variantlarını diqqət önünə çəkək.

Bir şeyi də nəzərə çatdırmaq istərdik ki, qeyri-etik ifadələr işlənmiş atalar sözlərini tərtibə daxil etmədik. Birincisi, söyləyicilər tərəfindən söylənsə belə, bu tip nümunələr geniş oxucu kütləsi üçün nəzərdə tutulmamalıdır. İkincisi, tədqiqatçılar üçün nəzərdə tutulsa belə, görəsən bu nümunələr hansı prizmadan tədqiqat obyektinə çevrilə bilər?! Etik normalara zidd olan bu tip nümunələr, bizcə, insanlarda ikrah hissi doğuraraq onları özünü nəzarətdən çıxarır. Üçüncüsü, əgər bu nümunələrin çap olunması doğrudan da vacibdirsə, tamamilə ayrı şəkildə bir sıra adamlar üçün nəşr oluna bilər. Məsələn, rus dilində olan bəzi internet saytlarında küçə folkloru: küçə atalar sözləri adlanan bir bölüm vardır. Bu bölümün içərisinə də bir neçə mərhələdən ibarət atalar sözləri (1) Söyüşlü atalar sözləri və məsəllər; 2) Söyüşlü, senzurasız atalar sözləri; 3) İyrənc atalar sözləri; 4) Ədəbsiz atalar sözləri və s.)[1] yerləşdirilmişdir. Lazım gəldikdə axtarış vasitəsilə bu nümunələri tapıb oxumaq mümkündür. Bizcə, bu qəbildən olan atalar sözlərini müvafiq internet saytında yerləşdirmək daha məqsədəuyğun olar. Əslində elmi araşdırmaçılar üçün nəzərdə tutulan bu kitabı hamının oxuya biləcəyini nəzərə alaraq buraya daxil edilən hər bir örnəyi saf-çürük etməyə çalışmışıq.

Oxucuların diqqətinə təqdim olunan bu kitabda həm indiyədək ayrıca kitab, jurnal və toplu kimi çap olunmuş 90-a yaxın mənbədə, müxtəlif əlyazmalarda mövcud olan atalar sözləri öz əksini tapmışdır. Kitabı tərtib edərkən oraya daxil etdiyimiz örnəkləri olduğu kimi saxlamağa, onlara heç bir xələl gətirmədən ilkin variantını qorumağa çalışdıq.

Mətnlərin yanında mötərizədə verilmiş rəqəm göstəriciləri həmin nümunənin götürüldüyü mənbəni, səhifənin sonunda

---

1. www google. az// search? q= похабные пословицы 8lrlz

verilmiş çıxarışlardakı rəqəm göstəriciləri isə təkrar, oxşar və ya çox cüzi dəyişikliklərlə özünə yer almış nümunələrin qaynaqlarını göstərir.

Verilən örnəklərdə başa düşülməyən sözlərin – qədim türk sözlərinin, ərəb-fars sözlərinin, dialekt sözlərin lüğətini tərtib etdik. Lüğətdə istifadə etdiyimiz mənbələri də kitabın sonuna əlavə etdik.

Kitabın ərsəyə gəlməsində f.e.d., prof. İsrafil Abbaslının dəyərli məsləhətləri, dəstəyi, f.ü.f.d. Oruc Əliyevin qeydləri, əlyazmaların əski əlifbadan transfonoliterasiya edilib bizə təqdim olunmasında əvəzsiz xidməti olan f.ü.f.d., dos. Rza Xəlilin, QƏXTMT-dən seçilmiş örnəklərin əldə olunmasında f.ü.f.d. Tahir Orucovun, qədim türk sözlərinin lüğətinin hazırlanmasında lüğətlərin əldə olunması üçün Əlyazmalar İnstitutunda bizim üçün şərait yaradan professor Azadə xanım Musayevanın, əski türk sözlərinin lüğətdən tapılmasında bizə yaxından yardım edən f.ü.f.d. Şəlalə Hümmətlinin, mətnlərin kompyuterdə yığılmasında institutumuzun əməkdaşları Aynur Mustafayevanın, Vildan Əsgərovanın xidmətləri danılmazdır. Bu işdə əməyi keçən bütün insanlara ayrı-ayrılıqda minnətdarıq.

**Mətanət YAQUBQIZI**
**filologiya üzrə fəlsəfə doktoru**

**A**

Abad kənd tüstüsündən bəlli olar[1]. (1)
Abad yerin bülbülü, xarabanın bayquşu. (1)
Abanın qədri yağışda məlum olar. (1)
Abbasını bəyənməyən beş şahını çıxardar[2]. (28)
Abdal at mindi, özünü bəy sandı. (1)
Abdal düyündən – toydan, uşaq oynamaqdan usanmaz. (1)
Abdal nə bilir ki, heyva kaldı. (1)
Abdal nə bilür şiti. (49)
Abdal ol, səni görən dəlü sansun. (75)
Abdaldan paşa olmaz, taxtadan maşa. (1)
Abdalın qarnı doyunca, gözü qapıda olar. (1)
Abır harda, çörək orda[3]. (1)
Abır istəsən çox demə, sağlıq istəsən çox yemə. (41)
Abırı kimdən öyrəndin? - Abırsızdan. (14)
Abırlı abrından qorxar, abırsız nədən qorxar? (1)
Abırsızdan abrını saxla[4]. (28)
Abidi şeytan başdan çıxardar. (18)
Ac acı aldı, acdan ləlöyün törədi. (1)
Ac acı doluyar, tox toxu yalıyar. (15)
Ac adam acıqlı olar. (40)
Ac adam özünü oda vurar[5]. (2)
Ac adam yol kəsər. (9)
Ac aman bilməz. (1)
Ac ayı oynamaz[6]. (2)
Ac bayıra qaçar, yalavac evə girər[7]. (1)

---

Aşağıda göstərilən nümunələr oxşar və ya tam bir-birinin eynisi olmaqla aşağıdakı mənbələrdə də yer almışdır:

1. (40)
2. (83), (1), (11)
3. (6), (12)
4. (83), (29), (1)
5. (83)
6. (83), (1)
7. (13)

Ac bəydən tox it yaxşıdı[1]. (1)
Ac deyər, doymazam, tox deyər, acmazam[2]. (81)
Ac doğrar, tox yeyər. (1)
Ac donuz darıdan çıxmaz[3]. (44)
Ac elə bilir, hamı acdı, tox elə bilir, hamı toxdu[4]. (5)
Ac əlinə düşəni yeyər, tox ağzına gələni deyər. (1)
Ac əsnəyər, tox gərnəşər. (33)
Ac eşşək atdan bərk qaçar. (16)
Ac evə gəlür, yalıncıq yabana gedər[5]. (75)
Ac ilə dost olayım dersən, qarnın doyur. (75)
Ac köpək özünü aslana vurar. (1)
Ac qalmaq borclu olmaqdan yaxşıdı. (1)
Ac qatuq istəməz, yuxu yasduq[6]. (49)
Ac qazanar, tox yeyər. (1)
Ac qılıca çarpar[7]. (2)
Ac qudurğan olar, yalavac – oynağan[8]. (1)
Ac qurd aslanı basar. (1)
Ac qurd sürünün ortasına girər. (1)
Ac qoyun, viran dəyirman sahibinə baş ağrısıdır. (1)
Ac ol, dinc ol[9]. (75)
Ac ölməz, gözü qaralar, borclu ölməz, üzü saralar. (1)
Ac özünü oda vurar. (1)
Ac tavuq kəndüyi taxıl bazarında görər. (75)
Ac tavuq duşunda daru görər[10]. (49)
Ac toxun üzünə baxmaqla doymaz. (1)

---

1. (15), (18)
2. (83), (2), (1), (11)
3. (83), (1)
4. (83), (1), (11)
5. (1), (13)
6. (75)
7. (83), (43), (5), (1), (9), (10)
8. (17)
9. (83), (5)
10. (44), (83), (28), (5), (1)

Ac toyuğun yumurtası tərs düşər. (1)
Ac, yalavac qudurğan olar[1]. (2)
Aca doqquz yorğan örtüblər, genə yuxuluya bilməmiş[2]. (2)
Aca nə halal, nə haram?! (1)
Aca ürək vermə, çörək ver. (9)
Acam - quyruq acıyam, bağır - öfkə acı deyiləm[3]. (14)
Acan gedər, susuyan gələr[4]. (83)
Acanda çobana yetiş, yorulanda sarbana[5]. (49)
Acdan ummaq olmaz. (1)
Acdan xeyir gəlməz. (49)
Acgöz adam açıq gözdən kiprik qopardır. (1)
Acı ayran nəhrə dibində, qara kişmiş bəylər cibində. (10)
Acı bibəri qurt yeməz. (7)
Acı danışan şirin söz eşitməz. (15)
Acı dil yarası qılınc yarasından pis olar[6]. (1)
Acı işlətmə, toxi təprətmə[7]. (49)
Acı söz ürək bulandırar. (1)
Acı sözü bir batman bal ilə yemək olmaz. (1)
Acığı gələn su içər[8]. (1)
Acığı udanın ağzı bal dadar. (26a)
Acığın əvvəli dəlilik, axırı peşmançılıq. (1)
Acığın gəlir çəpər çək, xoşun gəlir qalyan çək. (5)
Acığnan dövlət yola getməz[9]. (83)
Acığnan itirərsən, səbirnən gətirərsən. (15)
Acın arzusu bir qarın çörəkdi. (18)

---

1. (83), (81), (1), (18)
2. (83), (1)
3. (9)
4. (11), (13)
5. (1)
6. (12)
7. (83), (1)
8. (83), (14)
9. (1)

Acın evində nə od olar, nə ocaq. (1)
Acın gözü çörəkdə, toxun gözü hənəkdə olar. (40)
Acın haramidən nə baki[1]? (2)
Acın imanı olmaz[2]. (49)
Acın işi onmaz. (75)
Acın qurşağında çörək durmaz[3]. (2)
Acın nəyi var, yalavaca versin. (79)
Acından dəyirmana baxır, kibirriyinnən şahıd almır. (18)
Acından günorta durur, bığını yağ ilə burur. (1)
Acından ölüb cənnətə gedincə, toxluqdan ölüb, cəhənnəmə get. (1)
Acını dadmayan şirini bilməz. (1)
Acıqla qalxan ziyanla oturar[4]. (2)
Acıqlı başda ağıl olmaz[5]. (2)
Acıqlı dilənçinin torbası boş qalar. (1)
Aciz adam qorxaq olar. (1)
Acla əcəli yetən birdir. (1)
Aclıq adama oyun öyrədər[6]. (2)
Aclıq ayıya darayı toxudar[7]. (83)
Aclıq bir il gedər, minnət – min il[8]. (1)
Aclıq ilə toxluğun arası bir parça çörəkdi. (1)
Aclıq yavanlıq istəməz, yuxu da yastıq. (34)
Aclıqda darı çörəyi halvadan şirin olar. (1)
Acmış eşşək qatırdan yeyin gedər[9]. (2)
Aça külbə səgirdən ətmək yegdir. (75)
Açarın gücü qıfıldan zor-zor. (83)

---

1. (83)
2. (2), (83), (1), (14)
3. (28), (83), (5)
4. (83)
5. (81), (83), (1)
6. (28) (83), (81), (1), (14)
7. (43a), (1)
8. (14)
9. (83), (1)

Açıq ağız aç qalmaz[1]. (75)
Açıq başa qoz dəyər, örtülməsə tez dəyər. (10)
Açıq qaba it dəyər[2]. (55)
Açıq qapını döyməzlər. (1)
Açıq süfrə təklif istəməz. (1)
Açıq süfrənin bir eybi var, örtülü süfrənin – yüz eybi[3]. (1)
Açın könlü toyarsa, gözi toymaz[4]. (75)
Açla işləmə, toqla dəpərtmə[5]. (75)
Açlığı yoxsul çəkər. (75)
Ad adamı bəzəməz, adam adı bəzəyər[6]. (1)
Ad ilən işlər kişi, bir pula dəgməz adsuz kişi. (49)
Ad işlər, işi sən işləməzsən. (75)
Adam ac olanda pendir-çörək də ləzizdir. (1)
Adam adama gərəkdi, tosbağaya xanəsi[7]. (83)
Adam adamdır, olmasa da pulu, heyvan heyvandır, atlas olsa da çulu. (1)
Adam adamı bir kərə aldadar[8]. (2)
Adam adamın rəhmanı, adam adamın şeytanı. (1)
Adam altdan söz, qazan altdan köz[9]. (49)
Adam dilinnən, heyvan başınnan. (9)
Adam əbləhi şatir olur, it əbləhi tazı. (49)
Adam gərək Ömərə də ağlasın, Əliyə də. (1)
Adam gözləməklə səbirli olar. (1)
Adam hər düşməndən bir ağıl öyrənər. (1)
Adam işi böyüdər, iş adamı böyütməz. (1)
Adam qanda isə, qədəm andadır. (75)

---

1. (49), (2), (31), (81), (83), (1)
2. (1)
3. (49), (40a), (1)
4. (2), (81), (83), (1)
5. (49), (83), (1)
6. (11)
7. (81), (2), (31), (83), (30)
8. (81), (83), (1)
9. (1), (12)

Adam qocalanda ikinci dəfə uşaq olur. (1)
Adam oğlanına nə issi yarar, nə sovuq yarar. (75)
Adam oğlının əli gövhərdir. (75)
Adam öz tayını tapmasa, günü ah-vay ilə keçər[1]. (59)
Adam özünü bir acıyanda gözlər, bir giciyəndə. (1)
Adam pulu bir dost üçün qazanar, bir də düşmən üçün. (1)
Adam pulu qazanar, pul adamı qazanmaz. (1)
Adam sözünü adama deyər[2]. (2)
Adam torbanı dibindən silkələməz. (14)
Adam var, dağı gürznən dağıdar, adam var, söznən. (9)
Adam var, dayaz gəzər, adam var, dərin gəzər. (1)
Adam var, gödən dağıdır, qurdun adı bədnamdır. (55)
Adam var, gözdən qızar, adam var, sözdən qızar. (33)
Adam var, heçə dəgməz. (49)
Adam var ki, adamların naxşıdır, adam var ki, heyvan ondan yaxşıdır[3]. (28)
Adam var ki, rəhmət aparar, adam var ki, lənət aparar. (1)
Adam var ki, yemək üçün yaşayır, adam var ki, yaşamaq üçün yeyir. (1)
Adam var, qal ilən qövm yayar, adam var, ağça ilə pul yayar. (50)
Adam var, dağı gəz, adam var, yağı gəz. (18)
Adam odur, «Dur get»i «Buyur əyləş»dən tez başa düşsün. (1)
Adam oğlu hiyləgərdir, kimsə bilməz fəndini. (1)
Adama eyilik yaramaz. (75)
Adama eyilik yetər. (75)
Adama söykənmə – ölər, divara söykənmə – uçar. (1)
Adamı adam eyləyən paradı, parasız adamın yüzü qaradı[4]. (83)
Adamı başdan, ağacı yaşdan[1]. (83)

---

1. (1)
2. (81), (83)
3. (83), (5), (1)
4. (1)

Adamı bədbəxtlik tutanda dəvə üstündə böv vurar. (1)
Adamı dindir, sonra qiymətini ver. (1)
Adamı qeyrət işlədər, dəyirmanı – su[2]. (1)
Adamı sözüylə, atı yerişiylə tanıyarlar. (36)
Adamı sözündən tutarlar, heyvanı buynuzundan. (1)
Adamın adamı ola, o da adam ola. (11)
Adamın adı çıxınca, canı çıxsa yaxşıdı[3]. (83)
Adamın alaçası işində, heyvanın alaçası dişində. (1)
Adamın axmağı pəhlivan olar. (55)
Adamın ayağından çəkən çox olar. (1)
Adamın başına nə gəlsə, dilindən gələr[4]. (44)
Adamın bir özü, bir sözü. (1)
Adamın dəlisi daşa güc eylər, öküzün dəlisi – başa. (1)
Adamın dinməzindən yaramaz koxa tikdilər. (83)
Adamın güzərgə yeri çox olar, yatalqa yeri bir. (9)
Adamın iti yaxşı olsa, çaqqal gəlib samanlıqda yuva bağlamaz. (79)
Adamın kiçiyi oluncax donuzun böyüyü olsan yaxşıdı. (18)
Adamın ölümü – mollanın bayramı. (1)
Adamın sözü doğru olanda qılınc kimi daşdan keçər. (1)
Adamın təhnədə çörəyi tək olmasın[5]. (83)
Adamın üz qaralığını üzə vurmazdar. (9)
Adamın yerə baxanından, suyun lal axanından[6]. (83)
Adamların qorxusunnan doğru demək olmur, Allahın qorxusunnan yalan[7]. (5)
Adamlığı adamdan istə, xoş ətri – qızılgüldən. (1)
Adamlıq pulla deyil, bazarda satılmaz. (1)
Adamun əti yenməz, dərisi geyilməz. (75)

---

1. (5)
2. (10)
3. (1)
4. (28), (67), (46), (83), (1)
5. (1)
6. (1)
7. (83), (1)

Adəm oğlanı yaşadıqca canı tatlu olur. (75)
Adət qanun deyil, amma qanun qədər hökmü var. (1)
Adımı güvəc qoy, ocaq üstə qoyma. (1)
Adımı sənə qoyum, səni yana-yana qoyum. (83)
Adın anılsın bir çürük qoz ilə. (1)
Adını çıxart, get dəyirmanda otur[1]. (1)
Adını qoydu Haqverdi, özü haqqı vermədi. (18)
Adlu kişi adından qorqar, adsız kişi Tanrıdan qorqmaz. (75)
Aftafa düzəldən bilir, lüləyini hardan qoyur. (14)
Aftafa görməyən xorruyar. (14)
Aftan olsun, oftan olsun, dək oğlana qaftan olsun. (75)
Ağ at arpa yeməz[2]. (55)
Ağ ata binmə, oğlan bəgə qulluq etmə. (75)
Ağ ayranı itə tökərlər, qara mövücü cibə tökərlər[3]. (81)
Ağ divara hansı rəngi yaxsan, tutar. (1)
Ağ evi görüb, qara evi yandırmazlar[4]. (1)
Ağ ərik, sarı ərik, dərərik görərik[5]. (9)
Ağ əsvab ləkə tutmaz. (33)
Ağ gün ağardır, qara gün qaraldır[6]. (83)
Ağ gün – balta sapı, biri sındı - birini tax. (1)
Ağ itin pambıq satana ziyanı var[7]. (2)
Ağ libas tez çirklənər[8]. (2)
Ağ pul qara gün üçündü[9]. (2)
Ağ qoyunı görənlər içi dolu yağ sanur. (75)
Ağ qoyunun yunu, qara qoyunun boyun əti qiymətli olar. (40)

---

1. (14)
2. (83), (77), (5), (14), (16)
3. (83), (1)
4. (15)
5. (17)
6. (1)
7. (55), (1)
8. (81), (83)
9. (28), (83), (1)

Ağ üzdə qara xal ziynətdi, qara üzdə ağ xal nikbət[1]. (43a)
Ağ yarma qara gün üçündü. (49)
Ağa borc eylər, nökər xərc[2]. (83)
Ağa çox deyingən olsa, nökər üzünə ağ olar. (33)
Ağa deyir sür dərəyə, sür dərəyə[3]. (2)
Ağa durub, ağacan durub. (1)
Ağa gətirər navala, xanım tökər çuvala[4]. (1)
Ağa ilə xanım savaşdı, arada nökərin canı çıxdı. (1)
Ağa nədi, qul nədi, üzünə durdu nədi? (18)
Ağa sezdisə nökər də bezdi. (8)
Ağa toxdu, nökərə bir çörək yoxdu. (1)
Ağac acı, can şirin[5]. (5)
Ağac ata binənin övrəti boş olur. (75)
Ağac bəndə arxadı, yaxşı oğul kəndə. (11)
Ağac dibindən su içər[6]. (83)
Ağac əkənin ömrü uzun olar. (1)
Ağac əyildi, sındı, igid əyildi, öldü. (33)
Ağac kölgəsiz olmaz, insan sevgisiz. (1)
Ağac körpə olanda qara yeldən qoruyarlar. (1)
Ağaç qurdundan, hasar xayından xərab olur. (75)
Ağac qurur, dövran dönür. (75)
Ağac meyvəni dəyənə qədər böyüdər. (1)
Ağac naziklikdən, insan yoğunluqdan. (14)
Ağac nə qədər bar gətürür, başı alçaqdadur[7]. (49)
Ağac olan yerdə budağ sınar. (83)
Ağac səmtinə yıxılar[8]. (2)
Ağac sınanda baltalı da gələr, baltasız da. (1)

---

1. (83), (1)
2. (1)
3. (83), (54), (17), (1)
4. (83), (33), (11)
5. (83), (1)
6. (10), (1)
7. (2), (28), (59), (64),(31), (83), (55), (1)
8. (83), (58), (6)

Ağac tutan baş yarandan çoxdu. (1)
Ağac yaş ikən əyilər. (1)
Ağac yeyən sıpa xırmana gəlməz. (12)
Ağaca çıxan keçinin dala baxan oğlağı olar. (1)
Ağacdan təndir, girdudan övliya. (36a)
Ağacı acı, dambulu şirin[1]. (83)
Ağacı çox olan kəndin məzarı az olar. (1)
Ağacı kəsərsən, dibinə düşər[2]. (83)
Ağacı qurd içindən yeyər[3]. (44)
Ağacı uzun kəs, dəmiri gödək. (18)
Ağacın iki başı var[4]. (83)
Ağacın yemişini ye, qabuğunu soyma[5]. (2)
Ağacın yumşağını qurd yeyər. (14)
Ağaclı ağacını götürdü, suçlu suçunu başa düşsün. (14)
Ağaclı kəndi sel basmaz. (1)
Ağacun qurdı özündən törər. (49)
Ağalıq pul çoxluğundan deyil. (1)
Ağalıq verimlədir, igidlik – vurumla. (1)
Ağam bir xatın aldı, davanı satın aldı[6]. (46)
Ağanın malı çıxar, nökərin canı[7]. (2)
Ağanın nökərə vədi dəryada balıq sövdasıdı. (40)
Ağanın qazandığı var, kasıbın qazancı tər olar. (40)
Ağanın pis günü toy, kasıbın pis günü vay olar. (40)
Ağası gücdü olanın qulu ası olar[8]. (5)
Ağaş yıxılmasın; baltalı da yüyürür, baltasız da. (9)
Ağaya ağa desən gülməyi gələr, nökərə nökər desən ağlamağı gələr. (1)

1. (5)
2. (5)
3. (2), (57), (83), (5), (1)
4. (1)
5. (83)
6. (83), (1), (14)
7. (5), (83), (55), (14)
8. (1)

Ağaya söz anlatmaq – dağı yerindən oynatmaq. (1)
Ağbirçəklü sınduran qapunun səsi çıxmaz. (49)
Ağda nə var ki, kirə də nə verə? (14)
Ağı gördün, qaranı unutdun. (1)
Ağıl ağıldan süyüşüklü olar[1]. (9)
Ağıl başda, ləl daşda olar. (40)
Ağıl başın böyüklüyündə deyil. (1)
Ağıl da camaldan azar. (9)
Ağıl ağıldan ötgündü[2]. (2)
Ağıl ilə həya ekiz qardaşdır, birini itirsən, o birini tapa bilməzsən. (40a)
Ağıl qaldırar, nəfs yandırar. (40)
Ağıl saqqalnan olsaydı, keçidən böyük alim olmazdı. (16)
Ağıl sözün gövhəri, söz ağılın cövhəridi. (40)
Ağıl var, pul yox, pul var, ağıl yox. (1)
Ağıl yaşda olmaz, başda olur[3]. (2)
Ağıla gələn başa gələr. (9)
Ağılın çox olsa da, ağılsıza da gənəş. (12)
Ağıllı adam üz ağardar, ağılsız göz. (40)
Ağıllı araba ilə dovşan ovuna gedər. (1)
Ağıllı balaca yekə cahildən yaxşıdı[4]. (1)
Ağıllı baş bəlasız olar, doğru yol – qərəzsiz. (1)
Ağıllı baş hər şeydən mənfəət götürər[5]. (67)
Ağıllı bildiyini söyləməz, dəli söylədiyini bilməz. (1)
Ağıllı bir dəfə aldanar[6]. (1)
Ağıllı bu ili fikirrəşir, ağılsız – bu günü. (15)
Ağıllı deyər: bu gün işlərəm, sabah oynaram, tənbəl deyər: bu gün oynaram, sabah işlərəm. (14)

---

1. (13), (12)
2. (55), (1)
3. (51), (56), (83), (5), (1)
4. (18)
5. (1)
6. (33), (15)

Ağıllı düşmən ağılsız dostdan yaxşıdı[1]. (59)
Ağıllı dostunu hər zaman xatırlar, ağılsız isə işi düşəndə. (1)
Ağıllı ədəbi ədəbsizdən öyrənər. (1)
Ağıllı fikir edincə, dəlinin oğlu olar[2]. (44)
Ağıllı fikirləşincə dəli oğlunu evləndirər[3]. (2)
Ağıllı fikirrəşincə dəli çayı keçir. (4)
Ağıllı fikirrəşincən dəli yükünü tutuf getdi. (18)
Ağıllı gördüyünü, ağılsız eşitdiyini söylər. (14)
Ağıllı gözündən, axmaq sözündən bilinər. (40)
Ağıllı imandan, yalançı böhtandan yapışar. (40)
Ağıllı işinə baxar, cahil dişinə[4]. (1)
Ağıllı işləyər, axmaq baxar. (12)
Ağıllı kamal axtarar, cahil – mal[5]. (1)
Ağıllı qadın kişinin sağ biləyidi. (52)
Ağıllı qoca arısından danışar, ağılsız qarısından. (8)
Ağıllı qız xınalı quzu kimidi. (40)
Ağıllı oluf xalxın dərdini çəkincə, dəli ol, qoy xalx sənin dərdini çəksin[6]. (9)
Ağıllı özünü qınayar, ağılsız yoldaşını. (12)
Ağıllı söz qüvvədə bir ordudan da ötədi. (40)
Ağıllı toy edincə, dəlinin oğlu bazara gedər. (11)
Ağıllı yoxsul varlı axmaqdan yaxşıdı. (1)
Ağıllının əli işlər, ağılsızın dili. (40)
Ağıllınız kimdür? Qabaqdakı zincirri[7]. (5)
Ağıllısı Xıdır Nəbi dəyirmanda qatıx üyüdür. (18)
Ağıllıya işarə, nadana kötək[8]. (44)
Ağılsız baş ayağa dinclik verməz. (6)

1. (49), (44), (76), (83), (59)
2. (83)
3. (83)
4. (15)
5. (12)
6. (14)
7. (12), (77), (83), (18)
8. (83)

Ağılsız baş əlindən səfil ayaq nələr çəkər. (14)
Ağılsız baş yəsinə donquz otardar. (18)
Ağılsızın iynəsi gödək, sapı uzun olar. (18)
Ağın adı var, qaranın dadı[1]. (55)
Ağır ayax başa dəyər, yüngül ayax daşa. (9)
Ağır basıcaq yeyni qalqar[2]. (75)
Ağır başlu olanın hörməti ziyadə olur. (75)
Ağır qalqınça yeyin uçar. (75)
Ağır qazan gej qaynar. (12)
Ağır otur, batman gələsən[3]. (49)
Ağırlayanı ağırlarlar. (75)
Ağırlıq iki başdandı. (75)
Ağırlıq qızıl qala, yüngüllük başa bəla. (7)
Ağırlığın yer götürər, ruzisin Allah yetirər. (83)
Ağız balaca da olsa, ordan böyük söz çıxır. (36)
Ağız deyəni əl desə, gədə də bəy olar. (10)
Ağız ilə qulağın arası dörd barmaqdı. (1)
Ağız ilə plov olmur, yağnan dügü gərək[4]. (44)
Ağız torba deyil ki, büzəsən. (1)
Ağız yandıran aşı qaşıq tanıyar. (1)
Ağız yeməyinə, yüz utanmaz. (49)
Ağız yeyər, göz utanar[5]. (3)
Ağıza dad, qarına şivən[6]. (49)
Ağızdan burun yaxın, qardaşdan qarın yaxın. (33)
Ağızdan çıxan başa dəyər[7]. (46)
Ağızdan çıxan söz geri qayıtmaz. (12)
Ağızı buladın harama – kəşkülü doldur qalama. (1)
Ağızlara söz olduq, ayaqlara toz. (11)

---

1. (83), (1)
2. (49)
3. (2), (81), (83), (5)
4. (64), (5)
5. (50), (83), (1)
6. (54), (9), (17), (18)
7. (28), (2), (81), (83), (1)

Ağla halıma, ağlıyım halına. (17)
Ağladan qatda əglən, güldürən qatda əglənmə. (49)
Ağladan yanında otur, güldürən yanında oturma. (14)
Ağladanın yanınca get, vacibin dalınca. (9)
Ağladım, başarmadım, güldüm günüm keçirtdim. (83)
Ağlama ölü içün, ağlağıl dəlü içün. (75)
Ağlamaginən gözlərim, verməsən də almayacaqsan[1]. (46)
Ağlamağın dalı gülməkdi. (14)
Ağlamaq da köül xoşluğı iləndü. (49)
Ağlamaq fayda verməz. (1)
Ağlamaq da damaq çağlığı istər. (39)
Ağlamaqla borc ödənməz. (33)
Ağlamaqla günah bağışlanmaz. (1)
Ağlamaqla nəsnəmi olur? (3)
Ağlamaxnan ölü dirilməz. (13)
Ağlamayana əmcək yoxdu[2]. (49)
Ağlar gözdən, bir də saxta sözdən özünü gözdə. (15)
Ağlarsa anam ağlar, qalanı yalan ağlar[3]. (2)
Ağlayan, gülənə xeyir verməz. (1)
Ağlayanda elə ağla ki – əzizi ölən kimi, güləndə elə gül ki – əzizi gəlmiş kimi. (1)
Ağlayanın bir dərdi var, gülənin – beş[4]. (2)
Ağlı olan qışın qeydinə yayda qalar. (33)
Ağlını eşşək ağlına verərsən, çəkər arpa zəmisinə. (2)
Ağlınla gör, qəlbinlə eşit. (1)
Ağlıyanın bir dərdi var, gülənin – iki. (15)
Ağrı gedər, adət getməz. (1)
Ağrılarda göz ağrısı, hər kişinin öz ağrısı[5]. (37)
Ağrımayan baş yastığa gəlməz[1]. (55)

---

1. (83)
2. (30), (31), (37), (61), (2), (83), (5), (1)
3. (1)
4. (83)
5. (83), (1), (9), (11)

Ağrımayan başa dəsmal bağlamazlar[2]. (46)
Ağrımayan dişə kəlbətin nə lazım?! (1)
Ağrımaz baş qəbirdə olar. (1)
Ağrıyan dişi çəkmək gərək. (49)
Ağsağ at qalur, yağır at səmirür, yürüyüşı tatlu olur. (75)
Ağsaqqal sözünü axıra saxlar. (1)
Ağsaqqalsız ev olmaz, paccahsız ölkə. (15)
Ağzı əyrini boynunun ardınnan tanıyallar[3]. (9)
Ağzı əyrini təndirə saldılar, didi – odun höyüşdü. (52)
Ağzı əyrinin əyrisini qabur düzəldər. (18)
Ağzı əyriyə arpa çörəyi bəhanədi. (18)
Ağzı göyçəyin ağzına qaşığı ölçüsüz düzəldəllər. (18)
Ağzı göyçəyin üzü göyçək olmaz. (18)
Ağzı yırtığın ağzına yamax tapılmaz. (18)
Ağzım nə yeyif ki, üzüm nə utana[4]. (9)
Ağzım yediyi aşı gözüm tanıyır. (9)
Ağzıma aş, qarnıma – daş. (1)
Ağzımı yandırmağa görə aş olaydı, başımı yarmağa görə daş olaydı[5]. (83)
Ağzına bax, tikə götür[6]. (83)
Ağzına plov dəyənin dili şirin olar. (9)
Ağzında mərcimək iyiməz. (83)
Ağzında yaxşı yer eləmisən – əgər bağban armud versə. (1)
Ağzını ətə öyrətmə, altını ata. (46)
Ağzını işə salınca, başını işə sal. (10)
Ağzını süd yandıran ayranı üfürüf içər[7]. (9)
Ah yerdə qalmaz. (1)
Ahıl ilə daş daşı, cahil ilə bal yemə[1]. (83)

---

1. (1)
2. (83), (77), (1)
3. (18)
4. (12)
5. (14)
6. (46), (1)
7. (13)

Ahıla gedən quyrux yeyər, cahıla gedən yumrux[2]. (46)
Axacaq qan damarda durmaz. (14)
Axan su yolu tapar. (5)
Axar su gedər, qalmaz. (1)
Axar su murdar götürməz. (12)
Axçanı axça qazandırar. (54)
Axdı qan, çıxdı can. (83)
Axıllı urasd olmaz, dəli də əğınnan gələr. (78a)
Axır-axır, çıxar paxır. (13)
Axırda gulən yaxşı gülər. (1)
Axırı fəna olacaq işi heç başlama. (1)
Axırkı peşmanlıq fayda verməz[3]. (2)
Axmağa zor, qaraya sabun kömək etməz. (45)
Axmağın başında fındıq ağacı olmur, qoz ağacı olmur. (18)
Axmaq adam öz səhvini düz bilər, ağıllı düzəldər. (1)
Axmaq adam oğurluq keçi ilə gəzməyə çıxar. (1)
Axmaq adamdan dağ da qorxar. (1)
Axmaq axmağı tapar. (1)
Axmaq baş bəlalı olar. (1)
Axmaq başın bəlasını ayaqlar çəkər. (1)
Axmaq da sükut edəndə ağıllı görünər. (1)
Axmaq köpək qaysavadan pay umar. (14)
Axmaq özünə düşməndi, özgəyə necə dost olar[4]. (44)
Axmaq özünə düşməndi, özgəyə necə dost olsun. (83)
Axmaq qarğanın yumurtası lax çıxar. (1)
Axmaq qonaq ev sahibini ağırlar. (3)
Axmaq yığar, ağıllı yeyər. (1)
Axmaqlar olmasaydı, ağıllılar məhv olardı. (1)
Axmaz su iylənər. (12)
Axçalı adamdan dağlar da qorxar. (1)

---

1. (33)
2. (83)
3. (30), (62), (83)
4. (1)

Axsaq at yügrək olar. (16)
Axsaq eşşəyin kor nalbəndi olar. (55)
Axsaq it ova getməz, tutsa da buraxmaz. (1)
Axsaq qoyuna nə dağ, nə aran? (1)
Axsaxsız sürü olmaz. (18)
Axsax heyvanı kəsən dəli, dəli heyvanı saxliyən axmaxdı. (11)
Axşam bazarı sabaha yumdur. (75)
Axşam olsa yat, sabah olsa, get[1]. (75)
Axşam oduna gidən çoq olar. (83)
Axşam qızartısı sabaha yaydır, səhər qızartısı axşama vaydır. (1)
Axşam səbri xeyir olar. (83)
Axşamadək yoldaş olıcağa, quşluğadək göymək gərək. (75)
Axşamdan sonra gələn qonağın yeyəcəyi soğandır. (1)
Axşamın işini sabaha qoyma[2]. (2)
Axşamın sirrini dan bilər. (1)
Axşamın soyuqluğu ilkindidən məlum olar. (39)
Axşamın xeyrindənsə sabahın şəri yaxşıdır[3]. (2)
Axşamnan kotan qoşur, savaha cüt də çıxmır. (9)
Axtaran mövlasını da tapar, bəlasını da. (2)
Axtaran tapar[4]. (44)
Axtaran tapar, yoğuran yapar. (33)
Axtarmaqla deyil, rast gəlmək iləndür[5]. (49)
Axund mollanı bəyənməz, molla axundu, seyid də hər ikisini. (1)
Axund özü edər, özgəyə «eləmə» deyər. (1)
Axundun minbər üstə gözü dörd olar. (1)
Axurda yatanla saman satan qardaşdır. (1)
Aj adamın gözünə yuxu getməz. (17)

---

1. (28), (64), (83)
2. (56), (1)
3. (83)
4. (2), (56), (1)
5. (1)

Aj dəvə qanqala cumar. (9)
Ajlığında eldən yeyər, toxluğunda eldən deyər. (9)
Al almaya daş atan çox olar. (1)
Al ilə arslan tutulur, güc ilə köçən tutulmaz. (75)
Al malın yaxşısını, çəkmə heç qayğısını. (1)
Al malını, gör halını. (1)
Al qapıda, sat qapıda.[1] (1)
Al, ver deyiblər, al vermə deməyiblər[2]. (2)
Al – utanma, ver – qorxma. (1)
Ala çatı tutunca, dartan öküz çəkincə. (18)
Ala itin balası da ala olar. (18)
Ala qarğa çox bildigündən duzağa düşər[3]. (49)
Ala qarğa məəm toyuğumdu, nə yumurtdasını görrəm, nə cücəsini. (18)
Ala qarğa suya düşsə də qaz ola bilməz. (1)
Ala qarğada alımım olsun, almazsam, ölümüm olsun[4]. (75)
Alacağı bir piltə, pambığın batmanın soruşur. (1)
Alacağın qarğa, verəcəyin qırğı. (1)
Alan alıb varlanıb, satan satıb aldanıb[5]. (1)
Alan olmasa, satan da olmaz. (1)
Alan satandan umar[6]. (75)
Alanın gözü olsa, satan acından ölər. (1)
Alçağın çörəyindənsə, acından ölmək yaxşıdır. (1)
Alçaq eşək yüklətməgə qolaydır. (75)
Alçaq yer igidi xar göstərər. (1)
Alçaq yerdə dəpəcik kəndözini tağ sanur. (75)
Alçaq yerdə yatma, sel aparar, hündür yerdə yatma, yel aparar[7]. (1)

---

1. (9)
2. (81), (83), (1)
3. (9)
4. (49), (50), (55)
5. (16), (14)
6. (1)
7. (6)

Aldatdım - deyən özü aldanar. (1)
Aldığı bir ignədi, dəmirin yoxlayır[1]. (83)
Aldığını alar, verəcəyini verməz. (1)
Aldığını bilmir, udduğunu bilir. (12)
Aldığını verməyən, aradığını tapmaz. (1)
Aləm aləm ilədi, keçəl başı ilə. (1)
Aləm aləmlə olsa, keçəl xalam ilədi[2]. (83)
Aləm geyər çit tuman damaqlı, mən geyirəm kətandan yamaqlı. (1)
Aləm işlər, el öyünər, qılınc kəsər, qol öyünər. (1)
Aləmdə hər şey yandı, filankəsin çöpünün ucu da yammadı. (18)
Aləmə adət oldu, bizə bidət. (1)
Aləmə çırax yandıran özü çıraxsız qalar. (1)
Aləmə don tikir, özünə xiştək tapmır. (1)
Aləmə iman verdim, özüm imansız qaldım. (1)
Aləmə it hürər, bizə çaqqal[3]. (83)
Aləmə masqara olmaqdansa, meydan süpürgəçisi olmaq yaxşıdı. (33)
Aləmə oğruyam, sənə ki doğruyam. (83)
Aləmi dağlar, balası qalar ağlar. (18)
Aləmi plov tutsa, ala qarğa xörəyin bilər. (1)
Aləmin malı mülkü, Qəmbərin yırtıq kürkü. (1)
Alət işlər, əl öyünər, qılınc işlər, qol öyünər. (33)
Alət işlər, ər ögünür. (75)
Alıcı quşa nə Vətən? (49)
Alıcı quşun dimdiyi əgri olur[4]. (54)
Alığ aşıranın, alığını aşırarlar. (40)
Alım ilə borç ödənməz[5]. (75)

---

1. (1), (15)
2. (5)
3. (1)
4. (1)
5. (1)

Alınan qalar. (55)
Alış-veriş misqalla, dostluq – xalvarla. (1)
Alim elminə əməl eyləyən gərək. (49)
Alim olmaq asandı, adam olmaq çətin[1]. (62)
Alimin yanında dilini saxla. (1)
Alimsiz ölkə başsızdı. (9)
Alqışın dibi yağdı, qarğışın dibi qan. (8)
Allafın işi alaf satmaqdı, istər ata tök, istər eşşəyə. (16)
Allah adama ya ağıl verər, ya dövlət[2]. (83)
Allah bacadan tökməz, gərək özün çalışasan. (1)
Allah bağına baxar otun verər, dağına baxar suyun. (39a)
Allah bir kəsə qəzəb eləmək istəsə əvvəlcə onun ağlını başından alar. (1)
Allah bir yandan bağlasa, bir yandan açar. (1)
Allah bir, söz bir[3]. (83)
Allah dağına baxar, qar verər[4]. (2)
Allah dərdi çəkənə verər, ağını yalayana. (14)
Allah dəvəyə qənəd versəydi, damı, daşı dağıdardı[5]. (5)
Allah diyən namurad qalmaz. (10)
Allah doğruya yardı. (11)
Allah eşşəgə buynuz versə idi, dünyanı dağıdardı. (83)
Allah əli hamu əllərdən ucadı[6]. (83)
Allah əyməyəni bəndə əyə bilməz. (14)
Allah haqqı nahaqqa verməz[7]. (83)
Allah hər kəsə bir gün borcludu. (1)
Allah ilanın əməllərini bilib, ayaqlarını qarnında yaradıb[8]. (1)

1. (31), (83), (5), (1)
2. (1)
3. (1)
4. (83), (54), (5), (1), (9), (13)
5. (83), (14)
6. (43a), (1)
7. (1)
8. (12)

Allah insana bir ağız, iki qulaq veribdi, bu da bir söyləyib, iki eşitmək üçündü. (1)
Allah istəyən danaya qurt dəgməz[1]. (83)
Allah min dərd verib, min bir dərman. (1)
Allah ona verdigi canı ala bilmir. (83)
Allah öldürmədigin kimsə öldürəməz. (75)
Allah paxıla pay verməz, versə də qarnı doymaz. (1)
Allah qardaşı qardaş yaradıb, kisələrini ayrı. (1)
Allah qismətinə qane olan qəni olar[2]. (2)
Allah qonağının öz qisməti var. (1)
Allah sağ gözü sol gözə möhtac eyləməsin[3]. (2)
Allah var, rəhmi də var[4]. (49)
Allah verdikcə, bəndə gümana düşər. (1)
Allah verən sənin kimi olar, sən verən mənim kimi. (1)
Allah verəndə bacadan da tökər. (83)
Allah verəndə daş üstə də verir. (11)
Allah verəndə erkəgdən də verər. (83)
Allah verəndə verər, əbləh qayğıdan ölər. (55)
Allah verməyənə peyğəmbər neynəsin. (83)
Allah verməz quluna, qalar vuruna-vuruna[5]. (1)
Allah vuran ağacın səsi çıxmaz. (1)
Allah yetirər, bəndə itirər. (18)
Allah-allah diməyincə işlər önməz[6]. (3)
Allah-allahla donuz darıdan çıxmaz. (14)
Allaha əl çatmır, padşaha söz. (33)
Allaha inanmayana bəndələr də inanmaz. (83)
Allahdan buyrux, ağzıma quyrux. (83)
Allahdan gələn pay kəsilməz. (78a)

---

1. (28), (83), (1)
2. (83)
3. (75), (83), (1), (14), (11)
4. (1)
5. (11)
6. (75), (49)

Allahdan qorxmayan kafirdi. (14)
Allahı arada gör, hər işə düz bax. (1)
Allahı çağıran məhrum qalmaz[1]. (28)
Allahın meyli olsa, qara daşı göərdər. (78a)
Allahın yarası da var, çarəsi də. (1)
Allahsız yerdə otur, böyüksüz yerdə oturma[2]. (2)
Allah-taala meslahat olseydi, bi dənə özüyçün ortaq yaradardı. (18)
Alma ağacından alma düşər, armud ağacından armud[3]. (43a)
Alma arvad malını, gündə pozar halını. (18)
Alma arvadın dulunu, dalıynan gələr qulunu, satar soyar pulunu, ayrı qoyar malını[4]. (18)
Alma kürən, satma kürən, İllah da ki, qaşqa kürən. (18)
Alma kürən, satma kürən, yüz kürəndən bir kürən, ona da etibar yoxdur. (1)
Alma öz ağacından uzağa düşməz. (1)
Alma saruyı, satma saruyı, məgər tavarun qulanı ola. (75)
Alma şəhərli qızı–«hamam» deyər, ağlar, alma kəndli qızı – «xırman» deyər, ağlar. (1)
Almadığın heyvanın quyruğundan tutma[5]. (44)
Almağa alıcı quşdu, verməyə kor yapalax[6]. (9)
Almanı gögə atdun, yerə gəlincə Allah kərimdi[7]. (49)
Almanı say ye, armudu soy ye[8]. (1)
Almaq aldatmaqdur, vermək mərdlik. (49)
Almaq qolay, vermək gücdür[9]. (75)
Almaq yaxşıdur, vermək qarın ağrısı[1]. (49)

---

1. (83)
2. (49), (83), (1), (12)
3. (83)
4. (46), (83), (1)
5. (83), (1)
6. (14)
7. (1)
8. (17), (14)
9. (49), (9)

Almazı palçığa atsalar, yenə almazdı[2]. (60)
Alp ər ərdən adın yaşırmaq eyib olur. (3)
Alp ərə qorxu vermək eyib olur. (3)
Alplar birlə uruşma, begler birle turuşma. (3)
Alt dəgirman güclü olur. (83)
Altdan gedər irini, heç kəs bilməz sirrini. (79)
Altı toyuğun bir xoruzu gərəkdi. (1)
Altın alma, alqış al. (55)
Altını görmədiyin qabdan su içmə. (1)
Altmışında at minmək öyrənən qiyamət meydanında çapar. (1)
Altmışında zurna öyrənən qəbirdə çalar[3]. (83)
Altun əli bıçaq kəsməz. (75)
Altun qiymətin sərraf bilür[4]. (75)
Alveri pul eyliyir, davanı qılıc. (18)
Aman deyənə əl qaldırmazlar. (1)
Aman deyənin boynunu vurmazlar. (1)
Amana gələn boyunu qılınc kəsməz. (43a)
Ana bala ucundan canını oda yaxar. (1)
Ana evin dirəyidir. (1)
Ana haqqı–Tanrı haqqı.[5] (3)
Ana kimi yar olmaz, Vətən kimi – diyar. (39a)
Ana qəlbi kövrək olar. (1)
Ana qızına taxt verər, ata oğluna – baxt. (1)
Ana olanda kişi anası ol. (1)
Ana südünə haram qatmaq olmaz. (12)
Ana tökəni bala yığar. (1)
Analı qız, bəlli qız, anasız qız dəli qız. (34)
Analı qızın bədəni böyüyər, anasız qızın sözü[1]. (46)

---

1. (1)
2. (1)
3. (5), (1)
4. (1)
5. (1)

Analı qızın işi görünər, anasız qızın dişi![2] (1)

Analı uşağın ürəyində yağ, anasız uşağın ürəyində dağ olar. (40)

Anam da bacım kimi, qolları sicim kimi[3]. (46)

Anam elə çox bilir ki, kündəni xırda tökür, atam elə çox bilir ki, ikisini birdən yeyir. (1)

Anan, bacın kimdir? – Yaxın qonşum. (33)

Ananın canı övladdadır. (1)

Ananın keçdiyi körpüdən qızı da keçər. (1)

Anası çıxan ağacı, qızı budaq-budaq gəzər[4]. (49)

Anası durmuşikən dayəsinin bağrı çartlayır. (55)

Anası gülünü dərif, balası gülabını çəkir. (41a)

Anasın gör, qızın al, qıyısın gör, bezin al[5]. (75)

Anasından qabaq düşən qulunu qurt yiyər. (83)

Anasını – atasını dinləməyən övlad üzəngiyə yatmayan at, qapıda saxlanan it. (1)

Anasının ərköyün oğlu hambal olar[6]. (10)

Anasız dana özünə qurd gətirər. (9)

Anasız uşaq evdə xar olar, atasız uşaq - çöldə. (1)

Anavı alanın yanında dur, balta çalanın yanında durma. (46)

Andıran anıq, qurbağa tanıq. (75)

Andun iki başı olur[7]. (50)

Anız basdın, qar basdın. (75)

Anlamaz anlamazdur, qulağın da kəsəsən. (49)

Anlamaza hörmət edərsən, deyər, məndən qorxdu. (4)

Anlamaza yumruq düyünlə söz qandır. (1)

Anlayan adama qul olasan. (1)

Anlayan bir qıldan anlayar[1]. (44)

---

1. (83), (1), (10), (18)
2. (9), (14)
3. (83), (18)
4. (54), (5), (1)
5. (49), (54), (83), (5), (1), (11)
6. (1), (12)
7. (1), (12)

Anlayan düşmən anlamaz dostdan yaxşıdır. (1)
Anlayan özü qanar, anlamayanı yüz qandır. (1)
Anlayana bir bəsdir, anlamayana min azdır. (28)
Anlayana bir söz bir kitabdır. (1)
Anlayana bircə milçək də sazdır, anlamayana – zurna-qaval da azdır. (1)
Anlayana da can qurban, anlamayana da, dad yarımçıq əlindən. (1)
Anlayana qul ol, anlamayana ağa da olma[2]. (2)
Anlayana tükcə yaxşılıq, anlamayana – atlas arxalıq. (1)
Anlayanın quluyam, anlamıyanın ağası[3]. (83)
Anlayannan daş daşı, anlamazla bal yemə. (83)
Anquran eşşəgin başına urarlar. (49)
Aparanda el aparar, yel aparar, sel aparar. (55)
Apardığını qaytarmayanın qiyməti apardığı qədərdi, apardığını qaytaranın qiyməti yoxdu. (1)
Aksak it ova getməz, dutsa da burakmaz. (36a)
Aqçan eyüyə ver, yavuz səni görməsün. (75)
Aqçanın yüzi olmaz. (75)
Aqçasına qıyan yeyər boranı. (49)
Aqçayı tavara ver, assıyı Allahdan um. (75)
Aqil anılar, axmaq tanılar, qarağı sanılar, önəki bara yeyir. (75)
Aqil həmişə şad olur. (49)
Aqil olan ədavətə qurşanmaz. (49)
Aqil özgə rahətindən ötri özün azara salmaz. (49)
Aqsaq yürügən olur. (75)
Ar igidin bəlasıdır. (1)
Ara sözü ev yıxar[4]. (1)
Araba cırıldamaqdan ban cırıldayır. (83)

---

1. (49), (2), (62), (83), (1)
2. (81), (83), (1)
3. (17)
4. (10)

Araba ilə dovşan tutur. (1)
Araba qırılanda yol göstərən çox olar. (1)
Araba qoş, çarxa dur, mərd igidə arxa dur. (1)
Arabanı at aparmaz, arpa aparar. (1)
Arabanı göndərrəm oduna, gətirsə odundu, gətirməsə, özü odundu. (1)
Arabanı ölç, darvazanı tik. (1)
Arabanın yanıynan, mərd adamın dalıynan. (19)
Arada ala çatı olmasa, qurd qoyunnan otduyar. (9)
Aralayıcıya yara əksik degil. (75)
Aralıq malı arada yeyilər. (1)
Aralıq oyunu aralıqda olar. (1)
Aralıqda danışmaq ev yıxar. (83)
Aranda xırmandan oldum, yaylaqda buğdadan. (39a)
Aranda qalan qarının qarğışı tutar olar. (16)
Aranda tutdan oldum, dağda quruddan[1]. (6)
Arayışın qo, rəvişin gör. (75)
Araz aşığınnandı, Kür topuğunnan[2]. (83)
Araz axır, gözün baxır, mən aldadıcam, sən allanma[3]. (18)
Araz! Altını da bilirəm, üstünü də[4]. (81)
Ardınca padşahı da söyərlər. (1)
Arğ arınar, ad arınmaz. (75)
Arı şirəyə dolanar. (2)
Arı yalançını sancar. (1)
Arığ atın hünəri çoxdu, amma yeriməyi yoxdu. (9)
Arığa batman da yükdü[5]. (2)
Arığa çibin də çoxdu. (18)
Arığa dərisi də yükdü. (9)
Arığın qoruxda nə işi var, vurub qıçını sındıralar. (11)

1. (9), (14)
2. (5), (1), (6)
3. (46), (2), (1), (83)
4. (83)
5. (30), (83), (5)

Arığın nəyi var ki, cırığa da nə verə. (17)
Arığın toyı bitməz. (75)
Arını bilməyən itinin adını Gümüş qoyar. (14)
Arını duman, insanı iman yola gətirər. (1)
Arının eşşəyində bal olmaz. (18)
Arının şahı şah olsa, balı Bağdaddan gələr. (18)
Arının şan çəkməsi memarı utandırar. (9)
Arının tikanının gördüm, balından əl çəkdim[1]. (83)
Arıq ata quyruğu da yükdü[2]. (83)
Arıq ata yük çatmazlar. (1)
Arıq atda təpər çox, yeriməyə hünər yox[3]. (1)
Arıq mal öz köyşənində kökələr. (79)
Arıq öküzə bıçaq olmaz. (1)
Arıx adam xayın olar. (18)
Arif ol, suyı talib iç. (75)
Arif olan buluddan da nəm çəkər. (1)
Arif olan ğəm yeməz. (49)
Arif tərif istəməz. (14)
Arifə işarət, nadana kötək[4]. (49)
Arifsən bir gül yetir, xoyradsan yüklən yüri. (75)
Arxasız ər qoşun yenməz (3)
Armud ağacından uzaq düşməz. (1)
Armud ağzıma, sapı Savalana. (83)
Armud devşürmə, istəyüp alursan. (75)
Armud vaxtında dəgər, xəstənin könlü tələsər[5]. (83)
Armudun sapı var, üzümün çöpü. (1)
Armudun yaxşısını meşədə ayı yeyər[6]. (2)
Arpa əkdim, buğda, darı çıxdı. (1)

---

1. (1)
2. (1)
3. (10)
4. (33)
5. (1)
6. (83), (1)

Arpa əkən arpa biçər, buğda əkən buğda. (1)
Arpa əkən buğda biçməz[1]. (2)
Arpa qızılın yanna gəlməz, əmə qızıl arpanın yanına gələr. (9)
Arpa unun yoxdursa, dadlı dilin də yoxdu?! (1)
Arpa unundan paxlava olmaz. (1)
Arpa verilməyən at qamçı gücü ilə yeriməz[2]. (2)
Arpa yemiş at mənzil kəsər[3]. (83)
Arpanı sütül, buğdanı ötür. (4)
Arpanın dəni qızıldı, samanı - gümüş. (1)
Arpaya qatsan at yeməz, kəpəyə qatsan it. (14)
Arpıyı, buğduyu pişdi, indi də kərdiyara düşdü. (9)
Arqalı köpək qurt dutar, arqasız köpək çingin oynadur. (75)
Arsız kişidən ərsiz arvad yaxşıdı. (10)
Arsız qocalmaz. (1)
Arsıza üz göstərsən, yaxandan yapışar. (1)
Arsızın üzünə tüpürüblər, «yağış yağır» demiş[4]. (1)
Arslan olursa dəxi, bir kişi bir şəhərə neyləsün. (75)
Arsuz yer altında gərək. (49)
Arşın gətir, bez apar, çuval gətir, qoz apar. (1)
Artıq aş – ya qarın ağrıdar, ya baş. (1)
Artıq etmək baş yarar. (54)
Artıq xərc ev yıxar. (49)
Artıq qazanc cib yırtmaz. (1)
Artıq mal göz çıxarmaz. (83)
Artıq tamah daş yarar, daş qayıdar baş yarar. (1)
Artıq tikə baş yarar[5]. (44)
Artıq yağın şorbaya nə zərəri? (Yağ aşı korlamaz). (1)
Artıq yemək haramdı. (1)
Aruğlığ eyib olmaz. (49)

---

1. (49), (83), (15)
2. (81), (83), (1)
3. (1)
4. (13)
5. (49), (28), (2), (31), (83)

Arunın zəhərin görməyən, balun qədrin bilməz. (49)
Arvad aldın bir bəla, ondan oldu bir bala, bəladı bəla. (83)
Arvad almamış övlad arzusu eləmə. (1)
Arvad, at, bağ həmişə sahibini taza istər. (83)
Arvad bənnadır, kişi fəhlə. (14)
Arvad evi tikər, arvad evi yıxar. (55)
Arvad evin dirəyidi. (12)
Arvad evinə girənin qapısı alçax olar. (9)
Arvad iki olanda ev süpürülməmiş qalar. (1)
Arvad ilə at – igidin bəxtinə. (1)
Arvad keçi olsa, bir əvi ayranı eylər. (41a)
Arvad kəc qabırğadır. (39)
Arvad kişinin qoltuq saatıdı. (1)
Arvad qaldıran qanı, padşah qaldırammaz. (7)
Arvad qohumu şirin olar. (1)
Arvad malı alcaq qapıdı, bir girəndə alnına dəyər, bir çıxanda. (1)
Arvad malı başa toqmaq kibi dəyər. (83)
Arvad malı – qab dəsmalı. (1)
Arvad olan yerdə dava olar. (9)
Arvad papaq kimi başdan-başa qoyulmaz[1]. (55)
Arvad şeytana papış tikər. (1)
Arvad üzlü kişidən, kişi üzlü arvaddan əlhəzər[2]. (46)
Arvad var, ev dayağıdır, arvad var, qab boyağıdır. (25)
Arvad var, ev yığar, arvad var ev yıxar. (1)
Arvad yıxan evdən Allahın xəbəri yoxdu. (1)
Arvad yıxmayan ev min il tikili qalar[3]. (2)
Arvad yuxusu yalan olar. (1)
Arvad tikən evi fələk də yıxa bilməz. (26a)
Arvad tufanı başlayanda Nuhun tufanı yaddan çıxar. (8)
Arvad tutan yolun axırı yoxuşa dirənər. (41)

---

1. (1)
2. (83), (1)
3. (83)

Arvaddan vəfa, zəhərdən şəfa[1]. (2)
Arvaddan yetim qalmax, anadan yetim qalmaxdan betərdi. (11)
Arvadı ahıl gözü ilə, atı – cahıl gözü ilə. (1)
Arvadı ar saxlar, bostanı bar. (1)
Arvadı bəd olanın saqqalı tez ağarar[2]. (46)
Arvadı ər saxlar, bostanı vər. (7)
Arvadı əri saxlar, pendiri dəri[3]. (37)
Arvadı gözəl, atı yorğa ilə yoldaş olma. (1)
Arvadı tənbəl olan kişinin işi əngəl olar. (40)
Arvadın axır hiyləsi ağlamaqdı[4]. (1)
Arvadın biri – əla, ikisi – bəla. (1)
Arvadın xırtdəgi olmaz[5]. (83)
Arvadın isməti – ərin izzəti[6]. (46)
Arvadın qoçağın al: işli çıxdı baxtınnan, işsiz çıxdı baxtınnan[7]. (46)
Arvadın pisdi, boşa. (54)
Arvadın saçları uzun olar, ağlı gödək[8]. (46)
Arvadın yalağı səməni qoyar, kişinin yalağı baqqal dükanı açar. (39)
Arvadın yediyi geydiyi kimi olsa, vay kişinin halına[9]. (46)
Arvadlar hamısı ağappaq, dəlisini seçmək olmaz, qarğalar hamısı qaraqura qarısın seçmək olmaz[10]. (83)
Arvadnan atı əmanət vermə. (83)
Arvadsız ev, susuz dəyirman. (1)

---

1. (83)
2. (81), (83), (1)
3. (5), (83), (1), (12)
4. (15)
5. (1)
6. (83), (1), (15)
7. (83)
8. (83)
9. (83)
10. (46)

Arvat dalıynan gəzən ata mimməz. (18)

Arvat qohumu ocax başında, kişi qohumu çaxçax başında. (18)

Arvat var, arpadan aş eylər, arvad var kişini külbaş eylər. (10)

Arvat var, at Balaxanım, arvat var, dabanı çatdax, arvat var, balağı batdax. (18)

Arvat var, göydə uçan durnadı, arvat var, yerdə bitən bal-badı, arvat var, ala eşşəkdən yorğadı. (18)

Arvat var, qıldırım qıp, arvat var, holdurum hop, arvat var, şıldırım şıp. (18)

Avrat darda qaydadı, haydadı, huydadı, vaydadı, toydadı. (18)

Arvatnan tamah yıxmıyan öy illərəcən tikili qalar. (9)

Arvatsız kişi, urvatsız kişi. (9)

Arxa su gələnə qədər qurbağanın canı çıxar[1]. (6)

Arxa su gəlib, ümüd var, bir də gələr[2]. (5)

Arxalı köpək qurd basar[3]. (2)

Arxalıya arxa olma, yamax sayallar, arxasıza arxa ol, da-yax sayallar. (9)

Arxasından kəsər, ətəyinə calayar (yamar). (1)

Arxı hoppanmamış hop demə[4]. (14)

Arxlar axar, çay olar. (1)

Arzu arzudan doğar. (1)

Arzu bir, ümid iki. (1)

Arzu eyib olmaz. (49)

Arzu geniş, ömür qısa. (1)

Arzu quyudu, doldurmaq olmaz. (1)

Arzunun sonu yoxdu. (1)

Asanı qoyub çətinə düşmə[5]. (2)

---

1. (1)
2. (83)
3. (49), (28), (29), (37), (5), (1)
4. (10)
5. (83)

Asıl azmaz, sağ yeməz. (75)
Asılında olan tırnağında bəlirdür. (75)
Aslan ağzından şikar alınmaz. (1)
Aslan dişinə, kişi işinə güvənər. (40)
Aslan ənigi yenə aslandır. (3)
Aslan gücünə tülki neyləsün? (49)
Aslan öləndə də aslandı. (1)
Aslan qocalanda başına çaqqallar toplaşar. (1)
Aslan qocalanda siçan dəlməyin güdər[1] (3)
Aslan qocalanda üz – gözünə qarışqa daraşar. (1)
Aslan tülkü kölgəsində yatmaz. (1)
Aslan yatağından (yatışından) bəlli olar. (1)
Aslanın balası aslan olar. (1)
Aslanın nə erkəyi, nə dişisi? (1)
Aslanın qorqusu qarışqadan olar[2]. (83)
Asta atın təpiyi bərk dəyər. (1)
Asta gedən mənzil kəsər (Asta gedən çox gedər). (1)
Asta gedən yorulmaz, yüyürən yolda qalar[3]. (1)
Asta vur - rasta vur. (34)
Astanın işi qalmaz, xəstənin işi qalar. (1)
Aş bişirənə, iş bacarana. (38)
Aş daşanda çömçə baha olar[4]. (2)
Aş olsun, əl başdan gələr. (1)
Aş tuz ilə, tuz uran ilə[5]. (75)
Aş vermişəm, aşımı ver, yaş vermişəm, yaşımı ver. (17)
Aş yeyənin qaşığı belində olar. (1)
Aşağıdan yuxarı gələndə xeyir olar. (1)
Aşağadan yuxarı gələndə xeyir olmaz. (49)
Aşağı tükürərəm saqqal, yuxarıya tükürərəm bığdır[1]. (54)

---

1. (1)
2. (1)
3. (83)
4. (6)
5. (49), (1)

Aşağıda oturmursan, yuxarıda da yerin yoxdu[2]. (83)
Aşbaz aşbazlığın artırıb, südlü aşa soğan doğrayır. (4)
Aşdı – bişər, işdi – düşər. (1)
Aşı bişirən yağ olar, gəlinin yüzü ağ olar[3]. (37)
Aşı çölməkdə bişirən tez qayrar. (75)
Aşı yox, rövzə tutar, işi yox, namaz qılar. (1)
Aşığa sinək avazı saz gəlür. (75)
Aşığı dastanda, bostançını bostanda sınarlar. (41)
Aşığı toyda, molluyu vayda. (9)
Aşığı uduzub cürünə güvənir. (83)
Aşığın beş gün dovranı olar. (83)
Aşığın molladan, mollanın da sazdan zəhləsi gedir. (33)
Aşığın qılıncı – qalxanı bir sazıdı, bir sözü. (1)
Aşığın sazı boynunda, sözü boğazında. (1)
Aşığın sözü qurtaranda «yarım, yarım» çağırar[4]. (5)
Aşığın tökdüyünü şəyirdi döşürər. (40)
Aşın cuyuqluğu dənin yoxsulluğundadı[5]. (2)
Aşına görə gərək duası. (75)
Aşından yemədim, tüştüşündən kor oldum. (83)
Aşını yiyir, altınnan palazı çəkir. (18)
Aşınnan yemiyəcəksən, tüstüsünnən niyə kor olasan? (9)
Aşıq bildiyini ayağı altına yığsa başı buluda çatar. (12)
Aşıq deyər: - qocalmazdım, olmasaydı toy axırı. (1)
Aşıq dəm gətirər, molla qəm. (40)
Aşıq el atasıdı. (1)
Aşıq gördüyünü çağırar[6]. (37)
Aşıq ilə mollanın heç olmaz şad arası. (83)
Aşıq üz görən yerdə yatağandı, qalağan[7]. (83)

---

1. (46)
2. (1)
3. (55), (83), (1)
4. (83), (1)
5. (83), (1)
6. (5), (1)
7. (13), (9)

Aşıqınki haynandı, mollanınkı vaynan. (83)
Aşiq olan divanə olar. (1)
Aşiq olan kor olar. (1)
Aşiq sözlə təsəlli tapar. (1)
Aşiqə Bağdad uzaq deyil. (1)
Aşiqə söz dəyməz, çirkinə göz[1]. (1)
Aşiqi ağladan gülməz. (1)
Aşiqlər söylər, ariflər rəndələr. (49)
Aşiqliq rusvalıqdur. (49)
Aşkar düşmən gizli dostdan yaxşıdı. (1)
Aşna-aşna, çıxdı ocaq başına[2]. (83)
Aşpaz dükançıdı: az verərsən - az yeyərsən, çox verərsən – çox yeyərsən[3]. (83)
Aşpazdan küsən evinə ac gedər[4]. (49)
At addımına görə yox, adamına görə tanınar. (15)
At adına üyüdüb özü yeyir. (55)
At almağa cahıl, qız almağa ahıl göndər[5]. (83)
At alanda aulla, arvad alanda qohumla məsləhətləş. (18)
At almamış nal alır. (14)
At almamış töylə tikir. (1)
At almamış noxta davası edir. (1)
At almamışdan axurunu bağlayır[6]. (2)
At arıq, mənzil uzaq, at at olunca yiyəsi mat olar. (1)
At at ilə yola gedər, söz arpa kəsməkdədir. (1)
At at olunca yiyəsi mat olar. (55)
At atı ya tövlədə tanıyar, ya da yolda. (1)
At bulunar, əyər bulunmaz. (75)
At çapduğun sənün olsun, ırqaşına bərk yapuş. (49)

---

1. (15)
2. (1)
3. (1)
4. (39)
5. (14)
6. (81), (83)

At dırnağından – insan qulağından. (1)
At doğan güni atdur, oğul doğan güni oğul[1]. (49)
At düşürdügi vaqt timar gərəkdir, köşək düşürdügi vaqt timar gərəkdir, eşək düşürdügi vaqt qazma gərəkdir. (75)
At ələ gələr, meydan ələ girməz[2]. (49)
At ətnən, igid donnan. (9)
At evdən olıcaq ögdül olmaz. (75)
At getdi, örkəni də apardı. (1)
At görəndə axsayır, su görəndə susayır[3]. (6)
At gözündən tanınar, kişi sözündən. (39a)
At ilən qatır təpişür, aralıqda eşşəg ölür[4]. (49)
At işləməsə, ər öyünməz[5]. (3)
At işlər, eşşək dişlər[6]. (1)
At izi it izinə qarışmaz. (1)
At meydanında eşşək anqırmaz[7]. (2)
At mıxı qoparar, bir yerə, beş özünə dəyər[8]. (12)
At minən atasını tanımaz. (1)
At minən atdan yegin gərək. (16)
At minənin, ev oturanın, don geyənin. (1)
At minənin tanır. (49)
At minənindi, qılıç bağlayanın[9]. (2)
At minicisinə görə kişnər. (1)
At miniş ögrədər, don yeriş. (39)
At minməyən at minsə, çapa-çapa öldürər. (1)
At olmayan yerdə eşşək də atdır. (28)
At öldürməyən baytar olmaz. (1)

---

1. (9)
2. (83), (1)
3. (15)
4. (1)
5. (49)
6. (5)
7. (55), (1)
8. (14)
9. (2), (81), (83), (5), (1)

At öləndə itlərün bayramı olur[1]. (49)
At öləndə yəhəri qalar, adam öləndə adı[2]. (62)
At ölənəcən otlar. (1)
At qaçarda, quş uçarda. (13)
At qaçdı, yəhəri də apardı[3]. (1)
At qaçır, üstündəki öyünür. (9)
At qatır doğub, nəsli pozulub. (1)
At qırq qırav yeyimdə toyar. (75)
At tapıldı, yəhər tapılmadı. (1)
At təpər, qatır təpər, arada eşşək ölər. (1)
At təpügin at götürür[4]. (49)
At yeriməklə yol alar, insan bilməklə[5]. (2)
At yerinə eşək bağlama[6]. (75)
At yorulanda iyəsinə təpük atar. (49)
At yüyəni ilə satılar. (1)
At yüyənsiz olmaz, bağ baxımsız. (1)
At oğurlanandan sonra axur nəyə gərəkdi? (1)
Ata-ana adamın kiçik Tanrısıdı. (2)
Ata-ana ikinci Allahdır. (83)
Ata-ana sözünə baxmayan külxanda yatar. (1)
Ata-ana taxt yaradıb, bəxt yaratmayıb. (39)
Ata-ana tərbiyə etməyəni həyat tərbiyə edər. (1)
Ata-ana verdügi könüllü, Tanrı verdügi doyumluqdur. (75)
Ata-ananın qoca vaxtında oğul əlindən tutar. (1)
Ata, arvada etibar yoxdu. (2)
Ata-ata kamandar, görə-görə gözçi. (49)
Ata-ata avçı, görə-görə görçü. (39)
Ata-ata – atıcı, minə-minə – minici. (1)

1. (44), (2), (28), (5)
2. (74), (83), (2), (1)
3. (9)
4. (44), (28), (2), (43a), (54), (83), (1)
5. (83), (1), (9)
6. (1)

Ata-baba qədrini baba olsan bilərsən, bacı-qardaş qədrini yalqız qalsan bilərsən.(6)

Ata baxallar, başına noxta taxallar. (9)

Ata baxma, dona baxma, içindəki cana bax[1]. (30)

Ata bilgisi ilə adam adam olmaz[2]. (2)

Ata buğda ilən dolduran damı, oğul samanıylan doldurmaz. (49)

Ata çörəyi – meydan çörəyi, oğul çörəyi – zindan çörəyi[3]. (1)

Ata gözdü, oğul – gözün işığı[4]. (1)

Ata güc, adama ağıl lazımdır. (1)

Ata haqqı övlada mirasdı. (1)

Ata qabaqdan yanaş, itə daldan. (1)

Ata qamçı, eşşəyə – biz. (1)

Ata qarğışı övladı tez tutar. (12)

Ata qırx yaşında qiymət versən, qiyamət meydanında sanarsan. (1)

Ata malı mal olmaz, özün qazanmaq gərək[5]. (2)

Ata malı uşağı yanşaq eylər. (49)

Ata malına göz dikən nalsız qalar. (1)

Ata malını dərc elə, ona görə də xərc elə. (1)

Ata mindi, atasını tanımadı, atdan düşdü, atı tanımadı. (1)

Ata nal çaxıldığını görəndə qurbağa ayağını uzatdı. (1)

Ata nə töküfsə, oğul onu döşürüf. (78a)

Ata-oğul savaşdı, əbləh ona inandı[6]. (46)

Ata oğlundan ötəri mülkündən keçdi, oğul atadan ötəri kürkündən keçmədi.(34)

Ata oğula bağ qıydı, oğul ataya salxım da qıymadı. (83)

Ata olmaq asandı, atalıq öyrənmək çətin[7]. (1)

---

1. (74), (75)
2. (83)
3. (12)
4. (10)
5. (83), (1)
6. (1), (2)
7. (10)

Ata olmayan ata qədrini bilməz[1]. (63)
Ata öyü qızı ağıllı da edər, dəli də. (18)
Ata palan, eşşəyə yəhər  yaramaz. (12)
Ata sənəti oğula mirasdır. (75)
Ata yumaqlanar, oğul budaqlanar[2]. (1)
Atadan dönən zatından dönər. (40)
Atadan qalan mal yanan şama bənzər, əriyib qurtarar. (1)
Atadan yetim – bir yetim, Anadan yetim – 7 yetim, Ata-anadan yetim – 8 yetimdi. (18)
Atalar nə əkiblər, oğullar onu biçiblər. (1)
Atalar sözü - ağlın gözü. (33)
Atalar sözin dutmıyan yabana atılur[3]. (75)
Atalar sözü bazarda satılmaz. (1)
Atalar sözü hikmətdir. (1)
Atalar sözü mühakimə olunmaz. (1)
Atalar sözü öyüddür bizə. (1)
Atalar sözünün başı vicdan qorxusudur. (1)
Atalar sözünün hər biri dastandır. (1)
Ataların səpdiyi oğullara mirasdır. (1)
Atalarun sözi Qurana girməz, amma Quran yanınça yalın-yalın yalışur[4]. (75)
Atam elə fəndgirdi ki, kündələri sayır, anam elə fəndgirdi ki, kündələri kəsir. (1)
Atam evində balıq başı, ərim evində toyuq aşı. (1)
Atama yataq saldım, gəldi qalayçı yatdı. (1)
Atamı, anamı atmışam, bircə səni tutmuşam. (1)
Atamı, anamı itirdim, özümü sənə yetirdim. (1)
Atamı öldürmüşəm, goruna and içməyə. (46)
Atamın ölümü üçün deyiləm, qorxuram əzrayıl evimizi tanıyar. (4)

---

1. (46), (2), (83)
2. (10), (15)
3. (1)
4. (1)

Atan soğan, anan sarımsaq, hardan oldun gülməşəkər?! (1)
Atan xəşəm, anan sazan, hardan oldun azadmahı. (39a)
Atana hörmət elə, oğlun sənə hörmət edər. (1)
Atana necə baxarsan, övladın da sənə elə baxar! (1)
Atanın duası, ananın ahı[1]. (1)
Atanın kəsbi oğula halaldı. (1)
Atanla atamı deyincə özünlə özümü de![2] (55)
Atası düz yerdə gəzə bilmir, balası şumda şıllaq atır[3]. (2)
Atası evində az qalıb, bir az da at üstə saxlayın. (1)
Atası ölən öksüz qalmaz, anası ölən öksüz qalur[4]. (75)
Atasın bitməz işi genə dayısına qaldı. (54)
Atasını tanımayan Allahını tanımaz. (83)
Atasına xeyri olmayanın kimə xeyri olur?[5] (2)
Atasına oğuldur, anasına qul. (1)
Atasız uşaq – damsız ev. (1)
Atdan at olar, eşşəkdən qoduq. (1)
Atdan düşən ölməz, eşəkdən düşən ölər. (75)
Atdan düşən yenə atlanar. (1)
Atdan düşənə – yorğan-döşək, eşşəkdən düşənə – məzar. (1)
Atdan düşmək bir eyib, eşşəyə minmək iki eyib. (1)
Atdan düşsən də addan düşmə[6]. (1)
Atdan düşüb eşşəyə minməzlər. (1)
Atdan enər, ayağını üzəngidən çıxartmaz. (1)
Atdan qalanı öküzə verərlər. (1)
Atdan yıxılan yük üstə, eşşəkdən yıxılan daş üstə. (17)
Atdar ölüb, itdərin bayramıdı. (83)
Atdı atını sazdıyır, atsız qıçını. (9)
Atdım göyə fındığı, nəyimə lazım nə qaldığı, nə sındığı. (14)

---

1. (83)
2. (1), (13)
3. (83)
4. (1)
5. (1)
6. (15)

Atı arpasıyla talaşdurma. (75)
Atı atası ilə tanıyarlar, qatırı anası ilə[1]. (1)
Atı atın yanına bağlarsan xasiyyətindən götürər[2]. (2)
Atı atın yanında bağlarsan, xan görər, deyər: birini bağışla mənə. (1)
Atı bəzəmədilər, yəhəri isə məhv etdilər. (48)
Atı birində bəslə, ikisində gözlə, üçündə min, dördündə oldu at, olmadı sat. (39a)
Atı dostun kibi bəslə, düşmanın kibi bin[3]. (75)
Atı görsə atnandı, iti görsə itnəndi. (18)
Atı qamçı aparmaz, arpa aparar. (1)
Atı meydan tanur, iti urarsan iyəsinə qısılur. (49)
Atı minərlər, qızı sevərlər. (26a)
Atı torbalı dalaşdırır. (14)
Atı uduzub, çuluna güvənir. (39)
Atı ürkən zurnaçıdan, qızı olan halvaçıdan qorxar. (18)
Atıcı atar, tayını tapar[4]. (7)
Atıcı vurur, kürd oynayır, bir oynayan bir də oynayır. (14)
Atılan daş göydə qalmaz. (45)
Atılan qəcələyə tikan batar. (19)
Atılan ox geri qayıtmaz[5]. (75)
Atıldı, mindi eşşəyə, bayaq da ayağı yerdə idi, indi də. (1)
Atıldın irəli düşəsən, vurdun geri düşdün. (1)
Atım var, qanadım var. (12)
Atın ağzına baxıb arpasını verərlər[6]. (1)
Atın arığı döyüş günü bəlli olar. (1)
Atın arığına qarı deyərlər, igidin arığına dəli. (1)
Atın axmağı bədöv olar. (55)

---

1. (83)
2. (29), (31), (55), (83), (5), (1)
3. (2), (83), (1)
4. (83)
5. (2), (81), (83), (1)
6. (14)

Atın axmağı yorğa olar, itin axmağı tula[1]. (1)
Atın cilovu yəsinin əlində gərəkdi. (18)
Atın dörd ayağı var, o da büdrəyir. (16)
Atın qisməti doqquzdu: birini yeyər, səkkizini sahibinə qaytarar. (1)
Atın sevən bir avuç əksik verər. (75)
Atın ürkəyi, oğlun qorxağı. (14)
Atın yüyrək isə min çap. (1)
Atına binüp atın arayanlardan olma. (75)
Atını bağla dirəyə, sonra Tanrıya tapşır. (1)
Atını minən cilovlar. (1)
Atla igidin məkanı olmaz. (1)
Atlas nə qədər köhnə olsa da, patava olmaz[2]. (49)
Atdı ilə piyadənin yoldaşlığı olmaz. (83)
Atdının piyadədən xəbəri olmaz[3]. (83)
Atlı qonaq sığışdı, itli qonaq sığışmadı. (14)
Atlılar atın çapar, dayçalar deyər: - Mən də varam. (1)
Atlının qabağına piyada çıxmaz. (1)
Atlının qaydası piyadaya gülməkdir[4]. (16)
Atnan arvadı başsız buraxmazdar. (18)
Atun yüksəgin al, şayəd çayı binüp keçməlü olasan. (75)
Atovi, anovi görməsəydim, özüvə xan deyərdim[5]. (46)
Av vuranın dəgil, yeyənindi. (83)
Avamların azarı, mollaların bazarı. (1)
Avara qonaq ev yiyəsini də avara edər[6]. (1)
Avarələr yeri meyxanədir. (75)
Avazın yaxşı gəlir, oxuduğun «Quran» olsa? (1)
Avçı avda, yolçu yolda gərək. (63)

1. (17)
2. (1)
3. (1)
4. (1)
5. (1)
6. (10)

Avınmaq arpaya-buğdaya yaraşur, əzəcığı assıdır. (75)
Avırı kimdən aldın? - Avırsızdan. (12)
Avırı verib dirilik suyu almazdar. (9)
Ay bənimlə olsun, yulduzdan nə bak[1]. (49)
Ay bulud altında qalmaz. (1)
Ay doğar, aləm görər. (18)
Ay görmüşün ulduza nə minnəti?! (1)
Ay işığına it hürər[2]. (55)
Ay işığını gündən alar. (1)
Ay öz-özünü bəyənmiş, qoy səni el bəyənsin. (18)
Ay var ikən yıldıza nə minnət? (75)
Ay yerinə günəş gecə gəlməz. (39a)
Ayağ olmasa iriz haradan olar. (43a)
Ayağa düşməyən başa çıxmaz. (1)
Ayağa eşq yolunda çalı ilməz. (75)
Ayağı ilə gələnə ölüm olmaz. (1)
Ayağı ilə gəlib başı ilə gedəcək. (1)
Ayağı nərdivana bir-bir qoyarlar[3]. (49)
Ayağıma yer eliyim, gör sənə neyniyim? (9)
Ayağına daş toxunsa, məndən bilər. (1)
Ayağını yorğanına görə uzat[4]. (32)
Ayağlu büdrər, dillü yanılur. (49)
Ayamında düşər şənbəyə Novruz. (5)
Ayaq büdrəməsi dil büdrəməsindən yaxşıdır. (1)
Ayaq dəyməyən daş olmaz, bəla görməyən baş. (1)
Ayaq getməsə, əl götürməz. (2)
Ayaq girməyən, yerə baş girməz. (1)
Ayaq üstə ölmək diz üstə yaşamaqdan yaxşıdır. (1)
Ayaqla gələn qonağı atla yola salarlar. (1)
Ayaqqabı dar olıcaq, cəhan genligi neyləsün. (75)

---

1. (5), (15), (18)
2. (1)
3. (2), (28), (30), (56), (1)
4. (54), (1)

Ayaqqabı dar olanda dünya başa zindan olar. (1)

Ayazda yatmiyən eşşək tolanın qədrini bilməz. (10)

Ayda ildə bir namaz, onu da şeytan qoymaz[1]. (55)

Ayda ildə bir tamaşa, onda da göz qamaşa. (1)

Aydınlıq olmayıca kişinin bindügi atmıdur, eşəkmidür, məlum olmaz. (75)

Aydınlıqda yaşayan çox yaşayar. (1)

Aygır alma, eyü dostunla düşman olursan: yunduna istər, verməzsən. (75)

Ayı adamı öz yuvasında boğmaz. (1)

Ayı gör, oruc dut, ayı gör, bayram et. (75)

Ayı görəndə aynandı, günü görəndə günnəndi. (18)

Ayı gücünə güvənər, tülkü hiyləsinə. (33)

Ayı ilə bir çuvala girmə. (1)

Ayı meşədən küsüb, meşənin xəbəri yox[2]. (2)

Ayı qanar, abid qanmaz. (1)

Ayı qandı, ayrım qanmadı. (14)

Ayı yuvasına sığmaz, quyruğuna xəlbir bağlar. (1)

Ayı yuvasında qoz axtarır. (39a)

Ayıb söyləyənin, ayıbını söyləyərlər. (14)

Ayıblı ayıbdan utanmaz. (18)

Ayıblı ayıbını bilseydi, başına kilim örtərdi[3]. (18)

Ayıdan xarrat olmaz. (1)

Ayın on beşi qaranqu isə, on beşi aydunluqdur[4]. (49)

Ayıq it ələ düşməz. (83)

Ayını əvvəlcə öldür, sonra dərisin sat[5]. (43a)

Ayını ləpirindən tanıyarlar, tülkünü quyruğundan. (39a)

Ayının boğazına su çıxanda balasını ayağının altına alar. (1)

Ayıya dayı deyərəm, darım yetişincə. (9)

---

1. (1)
2. (5), (1), (12)
3. (1)
4. (55), (83), (13)
5. (1)

Ayıya dayı deyir – işi xatirinə[1]. (1)
Ayıya qaval çalmaq öyrədir. (1)
Aylığ oturma, aylığ işlə. (75)
Aynaya baxan öz camalını görər. (1)
Ayran ağdı nehrə dibində, qara kişmiş bəylər cibində[2]. (75)
Ayran içdim, xətaya düşdüm. (83)
Ayran içməyə gəlmisən, için niyə acıyır? (18)
Ayran içməyə gəlmisən, yoxsa ara açmağa?! (1)
Ayrana getməyə utanmaz, çanağını dalında gizlədir[3]. (44)
Ayranı yox içməyə, körpü axtarır keçməyə. (1)
Ayranın qaymağı olmaz. (18)
Ayranın toxluğu qapıdan aralanana kimidir. (40)
Ayrı qardaş, yad qonşu[4]. (2)
Ayudan qaçup, donuza uğrama. (75)
Ayunun oyunu armud üstədür[5]. (49)
Ayrı qardaş yad qonşu. (83)
Az ağrı, asan ölüm[6]. (49)
Az çox yanına gedər. (49)
Az danış, yaxşı danış. (1)
Az gey ki, çox yeyəsən. (49)
Az gəzən qoyun quyruq bağlar. (16)
Az idi ac adam, bir ikisi də düşdü bacadan[7]. (55)
Az idi arıx-urux, budu gəldi dabanı cırıq. (83)
Az idi arıq-uruq, biri də gəldi boynu yoluq[8]. (1)
Az ilən çoxun oynı olmaz. (49)
Az iş çox sözdən yaxşıdır. (67)
Az işdən çox iş çıxar.[1] (2)

---

1. (11)
2. (1)
3. (2), (83), (1)
4. (46), (1), (11)
5. (1)
6. (11)
7. (83)
8. (10)

Az qanan həkim can düşmənidi, az qanan molla din düşməni. (18)

Az söylə, çox eşit. (49)

Az söylə, uz söylə. (75)

Az sədəqə çoq bəla savar. (75)

Az təmə çoq ziyan edər. (75)

Az var kı, çoxa qələbə eylər. (2)

Az ver, çoq yalvar, arığın toyı uzar. (75)

Az ver, çox yalvar, çox ver yalvarma! (1)

Az verirsən azdırır, çox verirsən qızdırır. (18)

Az ye, öz çörəyini ye. (1)

Az ye, saz ye, çox yemək xəstəlikdir. (38a)

Az yeyən rahat görər, çox yeyən cərahət. (49)

Az yeyər – arıqlar, çox yeyər – zarıldar. (1)

Az yiyir küsür, çox yiyir qusur. (10)

Az yeyərəm – görmərəm həkimi, düz dolannam – görmərəm hakimi. (1)

Az yiyən mələkdi, çox yiyən hələkdi. (18)

Az olsun, nəqd olsun. (1)

Aza dedilər:-hara gedirsən? Dedi:-Çoxun yanına[2]. (1)

Aza qane ol, çoxu Allahdan istə. (1)

Aza qane olmayan çoxa yetişməz[3]. (2)

Azacıq aşım, ağrımaz başım[4]. (2)

Azana yol göstərsən, sənə yön örgədər. (18)

Azançı çəkər soyuğu, molla yeyər toyuğu. (1)

Azar batman-batman gələr. (1)

Azar da kasıbı tapar. (18)

Azar tənbəllikdən bezardır. (1)

Azarladım – ölmədim, üzüldüm–öldüm. (1)

Azarlı arvadı əri istəməz. (55)

---

1. (49), (83)
2. (14)
3. (1)
4. (75), (49), (28), (37), (51), (1), (11), (12)

Azarlı yanında armud yemə[1]. (77)
Azarlının qorxusu öləcəndir. (1)
Azarlıq olsun, bezarlıq olmasın[2]. (50)
Az-az ye, həmişə ye. (1)
Azdan az olar, çoxdan çox. (1)
Azdan az qırılar, çoxdan çox. (83)
Azı bilməyən, çoğı heç bilməz[3]. (75)
Aznan çoxun oyunu olmaz. (1)

**B**

Baba vardan ver, olmasa hardan ver. (22)
Baba, baba didilər, var-yoxunu yidilər. (10)
Babadan hikmət – nəvədən xidmət[4]. (1)
Babanın əlindən nəvə tutar. (1)
Babanın üzünü ağardan nəvəsi olar. (1)
Babasına uyan atasının oğlu döyül[5]. (46)
Bablı babı ilə, atlası qabı ilə. (83)
Bablı babı ilə, su qullabı ilə. (1)
Bablı babın tapmasa günü ax-vaxla keçər[6]. (2)
Bacaran bal yeyər. (1)
Bacarana baş qurban[7]. (28)
Bacarıq ağlın nişanəsidi. (1)
Bacarırsan aslan ol, tülkü olmaq asandı. (1)
Bacarmadığın bir işi «bacararam!» demə. (1)
Bacarsan hamının yükünü sən daşı. (1)
Bacan əgri isə, tüstünü düz çıxar. (49)
Bacı ki, evdən çıxdı, ixtiyarı səndən çıxdı. (1)
Bacı oğludur, haqq almaz, dayıdır, quzunun dişisini verər. (1)

---

1. (1)
2. (1)
3. (31), (1)
4. (6)
5. (83)
6. (49), (46), (1)
7. (83), (1)

Bacı oğludur, haqq almaz, dayıdır, dişi verməz. (4)
Bacı oğlunu dayısı tanıdar, bacı qızını xalası. (1)
Bacı qardaşdan ötrü canını oda yaxar. (12)
Badaxsız işini badağa salma. (9)
Badnan gələn badnan gedər. (1)
Bağ alma, bağlanarsan, dağ alma, dağlanarsan, qoyun al, yağlanarsan. (1)
Bağ bağbansız olmaz, dəvə sarbansız. (1)
Bağ bağbanundur. (49)
Bağ çəpərsiz olmaz. (12)
Bağ olmayan yerdə böyürtikən bitər. (83)
Bağ salan barın yeyər. (1)
Bağ satıb, dağ alıb. (1)
Bağa bağ deməyiblər, bax deyiblər. (1)
Bağa bağban lazımdı, qoyuna – çoban. (1)
Bağa bax, barını gör. (1)
Bağa bax üzüm olsun, yeməyə üzün olsun. (1)
Bağa baxarsan bağ olar, baxmazsan dağ olar[1]. (2)
Bağa qınınnan çıxdı, qınını bəgənmədi[2]. (83)
Bağa özün çəkə bilməz, evin dalına alar. (83)
Bağa yol gidə bilməz, dayüsını da dalına götürər[3]. (83)
Bağa yol yeriyə bilməz, xalası qızını da dalına alar. (55)
Bağanı ya öldür, ya dalısı üstə qoy. (1)
Bağban bir gül üçün min xara xidmətkar olar. (1)
Bağban eşşəyi bir ildən artıq saxlamaz. (12)
Bağban əli dəyməyən bağı alaq basar, qadın əli dəyməyən evi qəm-kədər.(8)
Bağban tələsər, armud vaxtında yetişər. (1)
Bağbanın bar vaxtı qulağı ağır eşidər. (1)
Bağbanın könlü olsa, nə gəlib bağda bara. (33)
Bağçı, bağın qıydı, bağban salxım da qıymadı[1]. (83)

---

1. (83), (1)
2. (1), (6)
3. (1)

Bağda ərik badam oldu, gədalar adam oldu. (18)

Bağda ərik var idi, salam əleyk var idi, bağda ərik qurtardı, salam əleyk qurtardı[2]. (2)

Bağda gülə baxarlar. (1)

Bağdadda eşşək bir xiyar qiymətindədi, amma onu gətirmək gəmi qiymətindədi. (47)

Bağdakı bağbanın maludu. (5)

Bağı bağban yeyər, qoyunu – çoban. (15)

Bağı susuzduğu, bağbanı əməyi yandırar. (9)

Bağında gül var ikən – gül üzünə, bağında gül qurtardı – kül üzünə. (1)

Bağlı aslanı dovşanlar da saymaz. (33)

Bağlı qapıya xəta dəyməz. (1)

Bahadır oldur ki, kəndü nəfsin öldürə. (75)

Bahalıqda çörəyin əsirgəyən, ucuzluqda yalqız qalar[3]. (49)

Bax mənə bir gözlə, baxım sənə iki gözlə. (1)

Baxdın yarın yar deyil, tərgin qılmaq ar deyil. (41)

Baxdın yatdı, sən də yat. (9)

Baxıl uçmağa girməz. (75)

Baxma deyənə, bax dediyinə. (1)

Baxmaq kirayə istəməz. (1)

Baxmaq var diləməkdən artuqdur. (50)

Baxmaqla qarın doymaz. (1)

Baxmaqla öyrənmək olsa, itdən qəssab olar. (1)

Baxtını götür, bazara çıx. (9)

Baxşış var, tümən-tümən, hesab var, qəpik-qəpik[4]. (83)

Bakılı cüt danışar, Şəkili qaş-gözlə, Dərbəndli kəllə ilə. (1)

Bal barmaxda, yağ dırnaxda. (17)

Bal da yesə dirilməz. (9)

Bal deməklə ağız tatlu olmaz[1]. (75)

---

1. (1)
2. (37), (28), (83), (5), (1)
3. (1)
4. (2)

Bal ilən duz acısın çəkməyən ər degil. (49)
Bal istədin, bəlaya düşdün[2]. (5)
Bal olma kı, hamı səni yeyə, zəhər olma kı, hamı sənə tüpürə. (15)
Bal tutan barmağın yalar[3]. (75)
Bal tutanda arısı Şamdan gələr. (1)
Bal verən çiçəyi arı tanıyar. (1)
Bala bağır ətidi[4]. (1)
Bala baldan şirindi[5]. (2)
Bala bəlasuz olmaz. (49)
Bala istiyən, bəlasını da istəmək gərək. (46)
Bala quşun ağzı böyük olar. (1)
Bala uğrunda ata-ana can qoyar. (29)
Balaca ağaca çıxıb böyük budaq sirkələyir. (83)
Balaca balta ilə böyük ağac da yıxılar. (12)
Balacanın dərdi də balacadı. (1)
Balalı ev bazardı, balasız ev məzardı. (41)
Balalı qarğaya pay düşməz[6]. (1)
Balasız da ağlar, balalı da. (1)
Balçı qızı - daha şirin. (1)
Balçının var bal tası, odunçunun baltası. (1)
Baldız elə baldızdı, bacısı sağ olsun. (1)
Balı da sənin, bəlası da[7]. (5)
Balı dibindən, yağı üzündən. (1)
Balı əli uzun olan yeməz, qismət olan yeyər. (1)
Balı olana doşab satmazlar. (1)
Balığı haçan tutsan, təzədi[8]. (49)

---

1. (28)
2. (83), (1), (12), (13)
3. (49), (2), (28), (83), (5), (1)
4. (14)
5. (28), (46), (1), (14)
6. (13)
7. (1)
8. (1)

Balığı ya öldürdün, ya sudan qırağa qoydun[1]. (55)
Balığın başı simizin tatlu olur. (75)
Balığın böyüyü tabaq altındadı. (1)
Balığın dərisi, toyuğun gerisi. (55)
Balığın ömri sudan çıqıncadır[2]. (75)
Balıx dəryada böyüyər. (9)
Balıq balasını da ovlar. (1)
Balıq balasını udmasa, dəryanı balıq tutar. (1)
Balıq balığı yer, balıqçı ikisini bilə yer. (75)
Balıq başdan qoxar. (2)
Balıq başından iylənər, camış ayağından. (1)
Balıq bilməsə, xalıq bilür. (49)
Balıq dedi: «Çox söz deyərdim, amma ağzım su ilə doludu» . (47)
Balıq dəryada olar. (55)
Balıq istəməyən quyruğundan dutar. (49)
Balıq istiyən gönni suya qoyar. (5)
Balıq kimi qulağı şırşırdadı. (1)
Balıq nə dəklü suda isə iki gözi tışradadır. (75)
Balıq suda gəzər. (49)
Balıq suda, gözü dışarıda. (3)
Balıq suda ikən bazarlıq olmaz. (1)
Balıq sudan çıxsa, canı çıxar[3]. (49)
Balıq tora düşəndən sonra ağlı başına gələr. (1)
Balıq tutan suyu bulanıq istər. (1)
Balın yoxdu, bal kimi dilin olsun. (1)
Balını yadlar yeyir, mən çəkirəm bəlasın. (14)
Balını ye, arısını soruşma. (1)
Balsız şanda arı durmaz. (1)
Balta ağac kəsməzdi, ağac sapı olmazdı. (37)
Balta dəyməyən ağacdan ağac olmaz. (1)

---

1. (1)
2. (44), (28)
3. (5)

Balta görməyən bağ meşə olar. (1)
Balta öz sapını kəsməz. (1)
Balta yaxşı baltadı, hayıf kı, sapı söyüddəndi. (9)
Baltanı ağaca vurduqca deyər: Sapım səndədi. (14)
Baltanın sapında varsa, ağzında da var. (9)
Baqqal daşdan kəsər, siçan baqqaldan. (1)
Baqqal ölülərin borcun dirilərə yüklər. (1)
Baqqal, qəssab – hər ikisi bir hesab. (1)
Banlayan toyuq mollaya düşər. (1)
Bar gətirən ağaca balta çalmazlar. (14)
Bar verən ağaca daş atmazlar. (1)
Bar vermiyən ağacı kəsəllər. (13)
Barıt ilə odun dostluğu olmaz. (Barıt ilə odun nə aşnalığı?!) (1)
Barlı ağacın başına dolanarlar. (1)
Barmağın beşi də bir deyil. (2)
Barmağın hansını kəssən, ağrısı birdi[1]. (46)
Barmaq-barmaq oğurlayan qarış-qarış oğurladar. (43a)
Barsız ağac mərifətsiz adamdur. (49)
Barsız bağ qarsız dağ kimidir. (40)
Basdırdığı ölü özünnən qavax gəldi. (12)
Basılan kürəşə doymaz. (75)
Basılanı əzməzlər. (1)
Baş ağır, papaq yüngül gərək. (1)
Baş ağrıyanda Allah yada düşər. (1)
Baş ayağa rahatlıq verməz. (12)
Baş-başa verməyincə, daş yerindən qopmaz. (1)
Baş bədəndən ayrı heçdir. (12)
Baş bədənin tacıdır, gözlər onun qaş-daşı. (1)
Baş bostanda bitməz. (1)
Baş dağçan olsa, dibi qılcandı. (83)
Baş dilin bəlasın çəkər. (18)
Baş əsən olsa, börk bulunmazmı olur? (3)

---

1. (1)

Baş əyməklə baş ağrımaz. (1)
Baş gedicək payidar olmaz ayaq[1]. (75)
Baş kəsənin, yaş kəsənin, daş kəsənin axırı olmaz. (39)
Baş qovğalu gərək. (49)
Baş olsun, börk tapılar (Baş sağ olsun, papaq tapılar). (1)
Baş namərd əlindədir, nə kəsir, nə bağışlayır. (1)
Baş nə çəksə dilin ucunnandı. (13)
Baş ol, istərsən lap soğan başı ol. (1)
Baş sındı börk içində, qol sındı yeng içində[2]. (49)
Baş ürəkdən su içər. (1)
Baş vermək olar, gizlin sirri açmaq olmaz[3]. (62)
Baş vurmaq ilə baş ağrımaz. (83)
Baş yoldaşı yoxdur, aş yoldaşı çoxdur[4]. (49)
Başa düşənə milçək səsi, düşməyənə zurna-qaval. (1)
Başa yazılan gəlür, əbləh tasadan ölür. (75)
Başaçığın qaçacağı papaqçı dükanıdı[5]. (2)
Başbilənsiz iş olmaz. (1)
Başda oturan bəy olmaz[6]. (2)
Başda tük olsun, daramağa nə var? (1)
Başdakı başa gəlür. (49)
Başdakı su sular, arxadakı and içər. (9)
Başdan gedən papaq bir də qayıtmaz. (55)
Başdan papaq aparan küləkdən kol-kosa heç nə olmaz, amma sərv sınar. (33)
Başdı başın saqlasın, bən başımdan bezmişəm. (83)
Başı baş edən - ayaq, ayağı ayaq edən - dayaq. (1)
Başı başına, başmağı ayağına. (1)
Başı boş olanın sözü baş olmaz. (15)

---

1. (46), (83), (1)
2. (1)
3. (1)
4. (1)
5. (75), (49), (1)
6. (28), (83), (1)

Başı daşdan-daşa dəyməyincə ağlı başına gəlməz. (1)
Başı Əhlətə dəyməsə olmaz[1]. (46)
Başı hində, ağılı gendə. (18)
Başı yeddi yerdən yarılmayıbsa - tərəkəmə deyil. (16)
Başıma bəladı, dalıma şələ. (18)
Başımı kəs, xatirimə dəymə. (1)
Başımı sındır, məzənnəmi sındırma. (1)
Başın böyüklüğu yiyəsinə domuz güddürür[2]. (83)
Başın tükü ayağına salama gəlib. (1)
Başın yekəligi dövlət, ayaq yekəligi nəqabətdir[3]. (44)
Başına gələn başmaqçıdır[4]. (75)
Başına gələn bilər. (1)
Başına iş düşəndə qurbağa da yorğa gedər. (36)
Başında dövləti yoqdur ol kişinin kim, qopduğı yerdə qala. (75)
Başını eyləmə daz, hər daz bir taledə olmaz. (1)
Başını kəsibdir, saqqalın darar[5]. (49)
Başını yarıb, ətəyinə qoz tökür[6].(33)
Başıva daş da salsan, uca yerdən sal. (39)
Başladığın işi yarıda buraqma. (2)
Başlanmış iş, yarı olmaq deməkdi. (1)
Başlar ayaq olub, ayaqlar baş. (79)
Başmağından xeyir görən patavasından çəkər. (1)
Başmağını geyə bilərsən, yerişini yeriyə bilməzsən. (1)
Başmaq ayağa dar olsa, armaq gərək. (49)
Başmaq cütdənəndə bilinər[7]. (5)
Başmaq palçıqsız olmaz[8]. (2)

---

1. (1)
2. (46)
3. (1)
4. (49), (2), (76), (83), (5), (1)
5. (11)
6. (54), (1), (6), (14)
7. (83), (1)
8. (5), (39),(1)

Başmaqçının başmağı olmaz, börkçünün börkü. (83)
Başmaqçının başmağı yırtıq olar[1]. (2)
Başqa dəriyə girən ulağın quyrux, qulağını kəsəllər. (9)
Başqası başqasının itiyini fışqırıxnan gəzər. (9)
Başqasına köynək oldun, mənə barı xiştək ol. (1)
Başqasına pislik edən özünə etmiş olar. (1)
Başqasının əlilə aş yeyənin qarnı doymaz. (1)
Başsız leşgər basılqan olur. (49)
Batan saman çöpündən yapışar. (48)
Batil batili kəsər, haqq ikisini də. (49)
Batman qara daşdan, yaxşılıq iki başdan. (1)
Bayırı kaşi – çini, içərisi toyuq hini. (1)
Bayırım özgəsini yandırar, içim özümü. (83)
Bayquş başın tək istər. (49)
Bayquş xarabalığı gülüstana dəyişməz. (1)
Bayquş gündə üç sərçə yeyər. (1)
Bayquş necədirsə, şöhrəti də elədi. (47)
Bayquş viranələri sevər. (75)
Bayquşun da dar olmasın qəfəsi. (1)
Bayquşun ruzisi ayağında gedər. (1)
Baylığa iyəvən kişi yoxsulluğa tez irər. (75)
Bayluğa tələsən, yoxsulluğa tez duşər. (49)
Bayram sümüyü ilə köpək kökəlməz[2]. (2)
Bayramnan sonra qırx kötük yanır. (17)
Bazar ata-ana tanımaz. (1)
Bazar baqqalsız, meşə çaqqalsız olmaz. (1)
Bazar bazara irməz. (75)
Bazar çörəyi çox olsun, bazarda olsun. (1)
Bazar içində it qulağı kəsmək olmaz. (83)
Bazar köpəyi sürü gözləməz. (33)
Bazar quruldu, hesab duruldu. (1)
Bazar şeytan evidir[1]. (49)

---

1. (81), (83), (1)
2. (81), (83), (1)

Bazar yansın, amma mənə bir manat qazanc olsun. (1)
Bazara gedər – yağış yağar, dəyirmana gedər – qırğın olar. (1)
Bazara girdin, gözü qıpıq, sən də ol, gözü qıpıq[2]. (83)
Bazara pulsuz gedən, göra imansuz gedər[3]. (49)
Bazarda bez ucuz olanda adam özünü öldürməz. (1)
Bazarı oğruya tapşır. (55)
Baxmaqla öyrənmək olsaydı, sallaqxanadakı itlər qəssab olardı. (14)
Baxtı gətirənin xoruzu da yumurtar. (12)
Baxtı satın almaq olmaz. (12)
Baxtını götür, bazara çıx. (12)
Bekarlıqdan culfalıq. (83)
Belə deyirəm dədəm ölür, elə deyirəm anam. (9)
Belə matahın var, Cəfərabad bazarına apar. (83)
Belə oturan arvaddan oğul doğulmaz. (54)
Belə şıllaq atan madyan qulun saqlamaz. (83)
Belə yatan öküz yük götürməz. (1)
Beş barmağın beşi də bir deyil[4]. (5)
Beş barmaq tən olmaz. (49)
Beş də beş, beş buçuq da beş. (75)
Beş gün yaraq, bir gün gərək[5]. (55)
Beş ilin öküzü, qırx ilin qazısın aldadır. (1)
Beşdə alacağım yoq, üçdə verəcəyim[6]. (83)
Beşə dözən, on beşə də dözər. (83)
Beşini sanan ilətməz eşqi başa, səlamət gözləyən varmaz savaşa. (75)
Bez alırsan Mosuldan al, qız alırsan əsildən al. (41)
Bez qoqsa, issi burnına tez qoqar. (75)

---

1. (1)
2. (9), (13)
3. (83)
4. (3), (75), (83), (13)
5. (1)
6. (1)

Bəd at özün gözlər, yaxşı at igidi. (1)
Bəd övlad xətaya ürcah olar. (1)
Bəd xəbər uçur, xoş xəbər – yatır. (15)
Bədbəxt ova çıxdı, dağları duman aldı. (1)
Bədən başa deyir: - Saxla məni, saxlayım səni. (1)
Bədən qocalar, könül qocalmaz. (1)
Bədənini təmiz saxla, qəfil əcəl gələr. (1)
Bədəsil əvvəlində vəfa göstərür, sonunda cəfa. (49)
Bədəsildən əsil olmaz, gidə qızdan xanım[1]. (83)
Bədəsildən yaxşılıq ummaq olmaz. (49)
Bədəsili başa çəkərsən, sürüşər ayağa düşər. (1)
Bədnəzərdən Allahın da xəbəri yoxdu. (17)
Bədrəng də bir rəngdi. (83)
Bəg dedügin nə, bəgənmədügin nə? (49)
Bəg nəzərindən düşən, haqq nəzərindən düşər. (49)
Bəg oldun haylığı neylərsən, bay oldun bəgligi neylərsən. (49)
Bəg verən atın dişinə baxmazlar[2]. (49)
Bəgə vermə, paşaya ver, əyərə vermə, qaşaya ver. (75)
Bəgi el yavuz edər, qışı yel yavuz edər. (75)
Bəglən irişən başdan olur, dağ ilən irişən maldan. (49)
Bəglər xəşmi Tanrı xəşmindən artıqdır. (75)
Bəglərün bir əli od olur, bir əli su. (49)
Bəhanəçiyə bəhanə əskik olmaz. (1)
Bəhslə Həccə gedən yollarda sərgərdan olar. (1)
Bəxtəvər o kəsdir ki, yurdu yaşıl donludu. (33)
Bək ilə qonax olanın darvazası gen gərək[3]. (83)
Bək oğlu gördüm, tamaha düşdüm. (83)
Bəxşeyiş var tümən-tümən, hesaf var mısqal-mısqal. (9)
Bəxşiş atın dişinə baxmazlar. (1)
Bəxşiş bəxşiş gərək, satu satu gərək. (75)

---

1. (1)
2. (44), (2), (28), (83), (1)
3. (5)

Bəxşiş bəglərdə olur. (75)
Bəxşiş var xalvarla, hesab var dinarla. (1)
Bəxt, ağıl bir adamda olsa, o adam tacir olar. (9)
Bəxt dönəndə burunun suyu gözə damar. (1)
Bəxt kəsəni qılınc kəsməz. (9)
Bəxti yar olanın yar sarar yarasını. (1)
Bəxti yox idi, bədbəxtliyi kömək elədi. (1)
Bəxtim olsa idi, anadan qız olardım[1]. (77)
Bəxtimin bərgəştligindən şəkkər alsam duz olur, yay günü hamama gitsəm balta kəsməz buz olur[2]. (83)
Bəxtin gətirəndə bədbəxtliyini yaddan çıxartma. (1)
Bəxtini buzda sına, oğulda, qızda sına[3]. (1)
Bəla bəla gətirər. (1)
Bəla çəkməyincə bal yeyinməz. (75)
Bəla dildəndür. (49)
Bəla gələndə «gəlirəm» deməz. (1)
Bəladan qaçan bəlaya düşər. (1)
Bəlasını mən çəkdim, səfasını ellər. (1)
Bəlaya səbir gərək. (1)
Bəlaya səbr edən muradın tapar. (49)
Bələdçiliyə gedən yorulmaz. (1)
Bələdçiyə yol göstərməzlər. (1)
Bələdsiz yola çıxan yolun azar. (1)
Bəli də söz düzəldər, yox da. (12)
Bəli diyən bənd olır. (49)
Bəlkəni əkərsən, çuğundur bitər. (83)
Bəlkəni əksən bitməz. (83)
Bəlkəyə heç nə vermirlər. (1)
Bən nə vaqt ölürsəm, qiyamət ol gün qopar. (75)
Bən utanınca sofram utansun. (75)
Bəndə bəndəyə neylər, Xuda gözdən salmasa[1]. (2)

---

1. (83), (1)
2. (1)
3. (18)

Bəndi selə vermə[2]. (81)
Bənizi qaçan həkimə qaçar. (40)
Bərəkət axır zamanda ya ulu şəhərdə, ya ulu tağlarda qala. (75)
Bərəkət harda var? – Böyüklü yerdə. (1)
Bərəkət hərəkətdədür[3]. (49)
Bərəkət ondu, onu da düzlük. (1)
Bərəkətin bir yanı xırmandı. (1)
Bərk adamnan alınan yumurtanın sarısı olmaz. (19)
Bərk dutan, bərk olur. (50)
Bərk gedən tez yorular. (12)
Bərkdən bir çıxar, boşdan iki. (1)
Bəslə it ənigin, axır baldırın yırtar. (75)
Bəsləmə qarğayı, axır gözün çıqarır[4]. (75)
Bəsləsən atlas olar tut yarpağından. (1)
Bəşər şeytansız olmaz. (1)
Bəy dediyin hansı, bəgənmədigin hansı[5]. (2)
Bəy elədim səni, bəyənmədin məni. (9)
Bəy evindən küt gəldi, dalınca da it gəldi. (1)
Bəy ilə bəy dalaşdı, nökərin başı yarıldı. (1)
Bəy ilə bostan əkənin tağı çiynində bitər[6]. (2)
Bəy ilə dalaşmaq dirəklə güləşməyə bənzər. (1)
Bəy ilə dost olanın tövləsi dolu olar, samanlığı boş. (1)
Bəy mənim arxam, mən kimnən qorxam. (9)
Bəy verən atı sonulamazdar. (78a)
Bəyə bel bağlayanın heybəsi çiynində gərək. (1)
Bəyə inanma, suya dayanma[7]. (1)
Bəyin əli cibindən çıxınca, kasıbın canı çıxar. (1)

---

1. (83), (1)
2. (83)
3. (1)
4. (1)
5. (46), (1), (17), (13)
6. (83), (1)
7. (75)

Bəyin kölgəsindən it kölgəsi yaxşıdı. (1)
Bəylər aparan malım yox, şeytan aparan imanım. (18)
Bəzən az tamah çox ziyan verər. (1)
Bəzən dəli də ağıllı söz deyir. (1)
Bəzən dirilər ölülərə həsəd aparır. (1)
Bəzən düz yerdə də insan büdrəyir. (1)
Bəzənmisən bu gündəsən, bəzənməsən nə gündəsən?! (1)
Bəzənnəm xatundan qorxuram, bəzənmənəm ağadan. (50)
Bəziyər vəzir edər, soyundurar, rəzil edər. (9)
Bıçaq öz qının kəsməz[1]. (49)
Bıçaq yarası sağalar, söz yarası sağalmaz. (1)
Bıçaq zarafat sevməz. (67)
Bıçaxçıda bıçax tapılmaz. (9)
Bığ saqqaldan qabaq çıxıb. (1)
Bığdan götürüb saqqala qoyur[2]. (46)
Bığı buraxmısan, saqqala salam vermirsən[3]. (83)
Biçənin üzünü tikən ağardar. (9)
Biçimsiz bir libası biçimli geymək hünərdi. (1)
Biçinçi haqqını yerdən götürər. (1)
Bidöv at arpasın arturar. (49)
Bidöv at özünə qamçı yetirməz. (49)
Bihudə hərəkət bel sındırar. (1)
Bikar oturmaqdan bikara işləmək yaxşıdı. (1)
Bikar sözü ilə arvad alma. (1)
Bikardan hamı bezar olar. (1)
Bikarlıq kürlük gətirər[4]. (1)
Bildigini əldən buraqma[5]. (83)
Bildir yediyim bir əncil imdi gödənim incidir[6]. (83)

---

1. (1)
2. (83), (9)
3. (1)
4. (83)
5. (1)
6. (1)

Bildirçinin bəyliyi darı savuluncadı[1]. (2)
Bildiyindən danış, bilmədiyin səni güdaza verər. (1)
Biləkli birini yıxar, bilikli minini. (9)
Bilən az diyər, bimiyən yüz. (10)
Bilən bir söz deyər, amma düz deyər. (12)
Bilən söyləməz, söyləyən bilməz. (1)
Bilənə bilməyən tay deyil. (1)
Bilənə bir tikə, bilməyənə min tikə[2]. (83)
Bilənin də başına dönüm, bilməyənin də, dad yarımçıq əlindən. (1)
Bilici olma, əkinçi ol. (9)
Bilik ağlın aynasıdı. (1)
Bilik insanın bəzəyidi. (1)
Bilikli adam az danışar. (25)
Bilindügi yerdə at ğəribdir, bilinmədügi yerdə ər ğəribdir. (75)
Bilmədiyin işə başını soxma. (1)
Bilmədükün kişiylə yoldaş olma. (75)
Bilmək olmaz – kəsilməmiş qarpızdır. (1)
Bilməmək eyib deyil, soruşmamaq eyibdir. (1)
Bilməzə bulut yükdür. (75)
Bilməzəm demək can qolayıdur. (75)
Bilməzin dəyirmanını Allah işdədər. (9)
Bilməzsən, bir bilürdən sor[3]. (75)
Bilmirəm - baş ağrıtmaz. (1)
Bilmiş yek, bilmədük kişidən yeg" (3)
Bilsəm babam öləcək, qulaq dolusu darıya satardım[4]. (5)
Bin aşçı, bir başçı. (75)
Bin atın var isə, enişdə in, bir atın var isə yoquşda bin[5]. (75)

---

1. (83), (28), (5), (1)
2. (1)
3. (1)
4. (1)
5. (15)

Bin çuqullu bir çıplağı soyamaz. (75)

Bin haramdan bir halal yegdir, bin tanıqdan bir iqrar yegdir. (75)

Bin il yerdə yatan bir duaya möhtacdır. (75)

Bin il yerdə yatmaqdan bir kərə peyğəmbərə salavat gətürmək yegdir. (75)

Bin məni, bin mərifət bir pazlamac qatında mat olur. (75)

Bin ölç, bir kəs. (75)

Bin qarğa ötməkdən bir şahin ötdügi yegdir. (75)

Bin qoyunlu babadan bir yaz küsüklü ana yegdir. (75)

Bin səlam-əleykdən bir əleyk-əs-səlam yegdir. (75)

Bin tədbiri bir təqdir bozar. (75)

Bin verəsidən bir nəqd yegdir. (75)

Bin yil yaraq, bir gün gərək. (75)

Bindüklü bindügi Buraq sanır. (75)

Binə bir söylə, birə bin söyləmə. (75)

Binin gör, birin al. (75)

Biqərəz söz daşdan keçər. (49)

Bir abam var ataram, harda olsa yataram. (1)

Bir abbası verdik dindirdik, bir manat verib susdura bilmədik. (1)

Bir ac qudurğan olar, bir tox[1]. (2)

Bir acı bin bəlgilü soyamaz. (75)

Bir acıyanda özünü saxla, bir giciyəndə. (1)

Bir adam ki, səhər yalan danışdı, axşamacan yalan danışar. (1)

Bir adam qayda qalsın ki, arvadı öləndə qız baldızı olmasın[2]. (46)

Bir adam öz xəsdəsinə baş çəkmirsə, xaxa can-can deməyin nə faydası? (18)

Bir adamı tanımaq istəsən, ya ortaq ol, ya yola çıx. (1)

Bir adamın payı iki adamı ac qoyar[3]. (1)

1. (83), (1)
2. (83)
3. (9), (10)

Bir adamın payın özgəsi yeyə bilməz. (1)
Bir adamla dost olmaq istəyirsənsə, onun dostuna bax. (1)
Bir ağaca çıxanda hamı budaqları silkələmə. (1)
Bir ağacdan bel də olur, kürək də[1]. (1)
Bir ağacın kölgəsində bir sürü yatar[2]. (5)
Bir ağızdan çıxan min ağıza yayılır[3]. (52a)
Bir ahıllıqda, bir cahillikdə. (83)
Bir axurdan at da yeyər, eşşək də. (1)
Bir alma bin aqçaya olursa, qabın soy, bin xiyar bir aqçaya olsa, qabın soyma. (75)
Bir almağın bir qaytarmağı da var. (1)
Bir almanın əvəzi bir at olar. (9)
Bir anaya bir qız, bir kəlləyə iki göz. (1)
Bir arxa ki su gəldi, ümid var bir də gələ[4]. (49)
Bir arxdan min at su içər. (1)
Bir at sərgərdanlıq mayasıdur. (49)
Bir at, beş götür. (1)
Bir ata toquz oğul bəsləyər, amma toquz oğul bir babayı bəsləyəməz[5]. (75)
Bir ata, bir də arvada inanmaq olmaz. (83)
Bir atı gətirincə, yeddi nəğməni tamam eləyir. (16)
Bir atıb iki vurur. (1)
Bir atım barıtı var imiş. (1)
Bir barmaq qatıqdan ötrü tuluğu yırtma. (1)
Bir baş bir dəriyə sığmaz. (1)
Bir baş haraya olsa sığışar. (1)
Bir baş idi, dörd ayaq, gəlin aşırdı bayaq[6]. (46)

---

1. (18)
2. (83), (1), (9), (11)
3. (1)
4. (28), (5), (1)
5. (49), (33), (1), (4)
6. (83), (1)

Bir baş yaxşıdı, iki baş honnan yaxşıdı, İki göz görür, dördü honnan yaxşı görür. (18)

Bir başa bir börkdən artuq baş ağrıdar. (49)

Bir başa bir qoz yetər. (1)

Bir başa iki qapaz ağır olar[1].(43a)

Bir başcı yuz işçidən artuqdur. (49)

Bir bidölvlətün yüz dövlətlücə güci olur[2]. (49)

Bir bilürdən qorq, bir bilməzdən qorq. (75)

Bir bilürə tanış, bildügün işlə. (75)

Bir-bir dinlə, həmişə dənlə. (1)

Bir-bir yığılar min olar, dama-dama göl olar (3)

Bir-birinə çörək borc verərlər. (1)

Bir-birinin bəsinə, qılını yolar tərsinə[3]. (83)

Bir birədən ötrü yorğanı yandırmaq olmaz[4]. (2)

Bir böhtan min ziyana bərabərdi. (1)

Bir bu gün iki sabahdan yaxşıdı. (1)

Bir budağa çıxıb, min budağ sirkəliyir. (83)

Bir buğda əkməsən, min buğda biçməzsən. (1)

Bir bulud ilə qış olmaz. (1)

Bir büdrəyən atun boynun urmazlar. (49)

Bir cür deyir, başqa cür eliyir (sözdə bir, əməldə ayrı). (48)

Bir çalımla ağaç kəsilməz. (75)

Bir çeynəm saqqızın var, çeynə yapışdır alnına. (1)

Bir çılpağı yüz cəbbəli soya bilməz. (1)

Bir çırağın işığına qırx adam əyləşər. (1)

Bir çiçək ilən yaz olmaz. (49)

Bir çörək bir çörəyə daldadır[5]. (37)

Bir çörək özün ye, birin də Allah yolunda ver. (1)

Bir dadan peşman, bir – dadmayan. (1)

---

1. (49), (1)
2. (50)
3. (1)
4. (83), (1)
5. (1)

Bir dağarcıq dəni var, boş dəyirman axtarır. (1)
Bir dağarcıq unum var, yeddi qara günüm var. (1)
Bir dana bir naxırın adını batırar. (1)
Bir dana iki dana olsa bəsləræm. (1)
Bir daş altda, bir daş üstə[1]. (83)
Bir daş at, ya bir qaya sal. (1)
Bir daşla divar olmaz. (1)
Bir daşla doqquz qoz düşməz. (1)
Bir de, bir eşit[2]. (49)
Bir dedilər, on eylə. (1)
Bir deyənin oluncax, min yeyənin olsun. (9)
Bir də cavan olsaydım, sahibi –təcrübə olardım. (1)
Bir də gəlin ollam, oturduğumu, durduğumu billəm[3]. (46)
Bir dəfə gəldin, yoldaş, iki dəfə gəldin, qardaş. (1)
Bir dəfə görmək min dəfə eşitməkdən yaxşıdır[4]. (57)
Bir dəlidən yeddi məhəlləyə zərər dəyər. (1)
Bir dəlü bir daş quyuya salsa, yüz aqil çıxara bilməz[5]. (49)
Bir dəlü özi içün yüz ağılluca bilür. (49)
Bir dəmirdən nal da olar, nizə də. (1)
Bir dirhəm min eybi örtər. (1)
Bir doğru ki, yalana oxşar, onu danışma. (12)
Bir don geymək gərək ki, yamalığı tapıla. (49)
Bir dost min ildə qazanılar. (1)
Bir əl əkər, iki əl biçər. (1)
Bir əldə iki qarpız dutmaq olmaz[6]. (49)
Bir əldən səda çıxmaz[7]. (49)
Bir əli bağda, bir əli dağda. (1)
Bir əli ilə verir, bir əli ilə alır. (1)

---

1. (1)
2. (1), (12)
3. (83), (1)
4. (1), (12)
5. (54), (83), (5), (1), (12)
6. (44), (2), (48), (54), (83), (1), (38), (12)
7. (1)

Bir əli ki kəsmək olmaz, öpüb başa qoymaq gərək. (49)
Bir əli od, bir əli su[1]. (83)
Bir əli yağda, bir əli balda[2]. (83)
Bir əlin nəsi var, iki əlin səsi var! (1)
Bir əlində düyün düyünlənməz. (1)
Bir əlnən torpax cannanmaz. (9)
Bir əqilli baş min baş saqlar[3]. (83)
Bir ev adam yığılır, güc doğana düşür. (49)
Bir evdə iki hava olmaz[4]. (44)
Bir evdə ki kölə-qaravaş olmıya, ol evin bərəkəti olmaz. (75)
Bir evdə şadlıq, bir evdə şivən. (1)
Bir fəslin bir meyvəsi olar[5]. (31)
Bir fikir nə qədər qarşılıq görsə, o qədər tərəqqi edər. (1)
Bir gecəlik söhbətin doqquz ay mabədi var. (1)
Bir gecənin oğrusu on illik molladan çox bilir. (1)
Bir gecənin qonağı, yüz gecənün yüzağluğudur. (49)
Bir gələn bir də gələr. (1)
Bir gəmi dolanar, bir qız dolanmaz. (1)
Bir gəmidə iki pişgah olmaz. (1)
Bir gəmini iki rəis batırar. (1)
Bir gör görüş, bir gör biliş. (75)
Bir gördün yoldaş, iki gördün qardaş[6]. (55)
Bir görür, iki istəyir. (1)
Bir göz iki göz gördüyünü görə bilməz. (1)
Bir gözə bir dünya sığışar. (1)
Bir gözü alça dərir, bir gözü gavalı.(6)
Bir gözü alça dərir, biri səbətə tökür. (1)
Bir gözü yatır, bir gözü baxır. (1)

---

1. (1), (9)
2. (1)
3. (1)
4. (83)
5. (30)
6. (9), (14)

Bir gözümü ağladır, bir gözümü güldürür[1]. (83)
Bir gül ilə bahar olmaz[2]. (44)
Bir gün bir il doyuzdurar. (9)
Bir gün duz yediyin yerə qırx gün salam ver[3]. (1)
Bir gün olar bəxt oyanar. (1)
Bir gün qalmış isə, qış qışlığın eylər[4]. (49)
Bir günlügə tavşan dərisi də qatlanur (75)
Bir günlük bəglik də bəglikdür[5]. (75)
Bir günlük yola çıxsan, bir həftəlik tədarük gör. (1)
Bir igidün payı iki igidi ac qoyar. (49)
Bir ilana, bir də xana bel bağlama. (1)
Bir inad, bir murad. (1)
Bir inəyin sutü, bir adamın işi. (18)
Bir iş başlamayınca qurtarmaz. (1)
Bir iş bitməyincə, o biri işi başlama. (1)
Bir iş tut ki, aqibəti xeyir olsun. (1)
Bir iş var, iki əməl[6]. (83)
Bir işdə özünə on mənfəət varsa, xalqa bir zərər, o işi başlama. (1)
Bir işi başlayandan əvvəl axırını fikir eylə. (1)
Bir işi iki eyləmə. (75)
Bir işin əvvəlinə bax, bir də axırına. (1)
Bir it hürməklə karvan qayıtmaz. (1)
Bir iti iki daşla vurur. (1)
Bir iynə deşiyinnən bir dəvə boyda soyux gələr. (9)
Bir karqa birlə kış kelməs. (3)
Bir kecənün qonağı, yüz kecənün yüzağluğudur. (50)
Bir kənddə iki darğa olmaz[7]. (1)

---

1. (1)
2. (2), (30), (73), (1)
3. (6), (14)
4. (50)
5. (49), (50), (5), (83), (1)
6. (1), (9), (17)
7. (11)

Bir kəndin ki, koxası mürdəşir ola, heç olar ki, orda xeyir ola. (14)

Bir kişi kim at səkirdə, kəndüyi salaca bilsün. (75)

Bir kişi kim gəmiyə binə, kəndüyi tənəşir taxtası üstündə bilün. (75)

Bir kişinin adı çıqıncayadək göni çıqar. (75)

Bir kişinin payını iki kişi yesə, ikisi də ac qalar. (1)

Bir könüldə iki məhəbbət olmaz[1]. (1)

Bir kötük üstə çox çırpılar doğranar. (9)

Bir qapıda iki dilənçi olmaz. (1)

Bir qaranquşla bahar olmur. (47)

Bir qarına iki minnət götürmək olmaz. (49)

Bir qaşıq ilə doqquz abdal keçinər. (1)

Bir qaşıq qan bitirdügin dərilün ellər biturməz. (75)

Bir qaşıx su da adam boğar. (41a)

Bir qazanda iki kəllə qaynamaz[2]. (44)

Bir qazandur, bir çömçə. (49)

Bir qəlbi tikə bilməyəcəksən, niyə sındırarsan?! (1)

Bir qəpik xəsisin bir dişidi. (1)

Bir qız – bir oğlanındı[3]. (46)

Bir qoca yeddi oğula əvəzdi. (1)

Bir qorxaq bir ordunu pozar. (1)

Bir qoyun ağ da doğur, qara da. (12)

Bir qoyundan iki dəri çıxmaz[4]. (1)

Bir qoyundan sürü olmaz. (1)

Bir qoz üçün daş atmazlar. (1)

Bir qul iki ağaya qulluq eyləyə bilməz. (49)

Bir qulağın dar eylə, bir qulağın darvaza. (1)

Bir quş bir qutuya sığınar. (9)

Bir loğma bir daş aşırır[1]. (1)

---

1. (12)
2. (83), (1)
3. (83), (1)
4. (6)

Bir manatlıq eşşəyin yarım manatlıq da qoduğu olar. (1)
Bir meşəyə od düşsə, quru da yanar, yaş da. (1)
Bir mıx bir nalı, bir nal bir atı, bir at bir əri, bir ər bir eli qurtarır. (1)
Bir misqal ət yüz eybi örtər. (1)
Bir müştəri üçün dükan açılmaz. (1)
Bir napakdan, bir də köpəkdən. (83)
Bir naxırın adını bir dana xarablar[2]. (2)
Bir nəfər işlər, on biri işlər. (1)
Bir nəqd yüz nisyəyə dəyər. (1)
Bir nəzər bin nəzər. (75)
Bir olan iki olar, iki olan üç. (83)
Bir olsun, pir olsun. (83)
Bir oynuyan bir də oynuyur. (9)
Bir ox iki quşa dəyməz. (15)
Bir ölkədə iki hökmdar olmaz. (1)
Bir ölümə çara yoxdu. (13)
Bir öyəcin başınnan iki toğlunun başı böyük olar. (11)
Bir papaqlı bir evi bəslər. (1)
Bir piyalə qatıq kərə kimi, bir başmaq verdi sələ kimi. (83)
Bir pula doqquz hamam tikilməz. (1)
Bir saman çöpü dəvənin belini əzər. (1)
Bir sənnən böyüyü, bir də sədən kiçiyi dinlə[3]. (14)
Bir sərəncam, qırx nəsihətdən yaxşıdı. (1)
Bir söyləmək toquz çeynəməkdən qour. (75)
Bir su ki, səni aparır, deynən Arazdı. (1)
Bir sürçən atın ayağın kəsməzlər. (75)
Bir sürüyə bir qurd yetər. (1)
Bir şəm ki həqqdən yana, hiç bad ilə sönməz[4]. (83)
Bir şeyi verib pis olunca, verməyib pis ol. (1)

---

1. (9)
2. (1)
3. (1)
4. (1)

Bir şeyin önünə baxma, sonuna bax. (14)
Bir şeyin qiyməti, o şey əldən gedəndən sonra bilinər. (1)
Bir tabaq kütüm olsa, biri sənə yoxdu ala köpək. (83)
Bir talada iki aqsaq ceyran olmaz[1]. (83)
Bir taş ilə iki quş urulmaz[2]. (75)
Bir tavuğun başı sədəqəsi bir yumurdadır. (75)
Bir taxtda iki padşah divan eyləməz. (83)
Bir tək arı bir yığın çibindən yaxşıdı. (1)
Bir tikə çörək on il yadda qalar. (1)
Bir tikəni bilməyən, min tikəni də bilməz[3]. (44)
Bir tikənin qırx il haqqı var[4]. (1)
Bir tilo bir eyüyə irgirir. (75)
Bir torba dəni var, beş dəyirmana üyütməyə gedir. (1)
Bir toyuq bir yumurta qoyunca, yeddi məhəlləyə eşitdirər. (1)
Bir toyuq ki, yumurta üstündə oturdu (bir inək ki, qarnında bala gəzdirdi), ona bıçaq yoxdu. (1)
Bir tövlədə at da olar, eşşək də. (1)
Bir uşağın ağlı gördüyü işlərdən məlum olar. (1)
Bir ürəyi iki yerə bölmək olmaz. (1)
Bir var Koroğlu, bir də var kor kişinin oğlu. (1)
Bir vermə, bir də istər, yatmağa yer də istər. (1)
Bir vermə, iki dilər. (49)
Bir verməyincə iki almaq olmaz. (49)
Bir vur deyən min vurandan yaxşıdır[5]. (55)
Bir yanda ağlayır, bir yanda gözünün yaşını silir. (1)
Bir yandan bağlayan, bir yandan açar. (1)
Bir yastıqda iki baş, il başında üç baş. (1)
Bir ye, bir Allah yolunda ver. (1)
Bir yedügin bilməyən, min yedügin bilməz. (49)

---

1. (9)
2. (1)
3. (30), (5), (1), (9), (14)
4. (39), (14), (10)
5. (1)

Bir «yeməzim» deyəndən qorq, bir «oturmazım» deyən-dən qorq[1]. (75)
Bir yerə girməzdən əvvəl oradan nejə çıxacağını düşün. (9)
Bir yürəkdə iki sevgi olmaz. (83)
Bir ziyan min öyüddən artıqdır[2]. (55)
Bir ziyan, min böhtana səbəb olar. (1)
Birə bir diyiblər, birə iki diməyiblər. (83)
Birə də hu dı, minə də hu dı[3]. (83)
Birə dözən, minə də dözər[4]. (83)
Birə min demiş, bir-bir vermiş, yenə bazar pozulmamış. (1)
Birə şıllaq atdı, dəvənin gözünü çıxartdı. (1)
Birə yetən ikiyə də yetər. (75)
Birəgü əli yüzündə olmasun dersən, dilini tut. (75)
Birəgü ipilə quyuya girmə. (75)
Birəgü sözin birəgüyə demək qolay olur. (75)
Birəgü tauşanı birəgüyə böyük gəlur. (75)
Birəgü yumruğın yeməyən kəndü yumruğın bozdu-dağın sanır. (75)
Birəgünün beş aqçalıq yayın çəkməkdən beş yüzlıq qılıncın çəkmək yegdir. (75)
Birəni ayağından nallayır[5]. (83)
Birənin bir batman yağı var özgənin (öz daşı) tərəzisilə. (55)
Birənin qanını aldın, canını aldın[6]. (1)
Birəsinin beş batman yağı var. (1)
Biri acından şalvarını satırdı, dedilər : - Nisyə verərsənmi? (1)
Biri bilmiyən, mini də bilməz. (9)
Biri işlər, on biri dişlər[7]. (1)
Biri itər, yüz biri bitər. (1)

---

1. (83), (1), (41)
2. (1), (9)
3. (1), (14)
4. (1)
5. (1)
6. (9)
7. (10)

Biri köprü tapmır keçə, biri su tapmır içə. (6)
Biri od olanda biri su olar. (1)
Biri ölməsə, biri doğulmaz[1]. (45)
Biri vardı gecədən, biri də düşdü bacadan. (6)
Biri yazar, biri pozar. (1)
Biri yeyər, on biri baxar, qiyamət onda qopar[2]. (1)
Biri yıxıldı, biri dikəldi. (1)
Birin gör fikir eylə, birin gör şükr eylə[3]. (83)
Birin gördün gözü qıpıq, səndə ol gözü qırpıq. (54)
Birinci addımda lovğalanan ikinci addımda yıxılar. (1)
Birindən soruşdular: - Haralısan? Dedi: - Evlənməmişəm. (1)
Birini evə qoyan yox idi, soruşdu: - Çuxamı hardan asım? (1)
Birini yandırır, birin qandırır[4]. (1)
Birini ye, birini yemə, birini de, birini demə. (1)
Birini yeyir, birini də başı altına qoyur. (1)
Birinin əli, o birinin dili işləyir. (1)
Birisi atlas geyinmiş damaqlı, birisi tapmayır tuman yamaqlı. (1)
Birisi minə bağlıdı, mini də birisinə[5]. (83)
Birlik harda, dirilik orda. (1)
Birlikdən qüvvət doğar. (1)
Birlü binliyə küsəməmiş. (75)
Bişincə gözləyən, düşüncə də gözləyər[6]. (10)
Bişmiş aşa su salmaq olmaz[7]. (49)
Bitdi nə yarağım, qaldı saqqal darağım[8]. (83)
Bitli əlin qoynuna apardı, ac gümana düşdü. (39)
Bitə acıqlanıb köynəgini yandırma[1]. (55)

---

1. (2), (83), (1)
2. (14)
3. (1)
4. (18)
5. (83)
6. (4)
7. (1)
8. (1), (2)

Bitməz iş olmaz. (75)

Biz ağa nökəriyik, badımcan nökəri dəgilik[2]. (83)

Biz çörək vermədik çörək istəyək, biz çörək verdik ki, çörəkli olaq. (1)

Biz gəldik gəlin görməyə, gəlin getdi təzək yığmağa. (1)

Biz gülünü dərdik, siz gülabını çəkərsiz. (1)

Biz ondan yoğurt umuruq, o sizdən ayran istəyir. (1)

Biz yağış istiyirdik, dolu yağdı. (9)

Bizə çatdı, dəyirman yatdı. (10)

Bizə gələn bizə oxşar. (83)

Bizə yetişən keçəlin saçı dabanından oldu[3]. (83)

Bizim eşşək əvvəldən quyruqsuz idi. (1)

Boğaz boydan aşağıdı[4]. (9)

Boğaz Tanrı yarğılasın deməz. (75)

Boğaz üzənin boğazını üzərlər. (40)

Boğaz yediyini istəməz, göz gördüyünü istər. (1)

Boğazı böyük olanın dostu olmaz[5]. (1)

Boğulan it dişini göstərməz. (9)

Boğuşan köpəyin yarası əskik olmaz. (1)

Bol-bol yeyən, bəl-bəl baxar. (1)

Borc alan ağlaya-ağlaya gələr, gülə-gülə gedər. (1)

Borc alan bicdi, borc verən gic[6]. (83)

Borc almaq başlanan yerdə dostluq pozular. (1)

Borc başdan aşıcaq yenən qaz ilə tavuq olur. (75)

Borc borcdu, qırmızı tuman da bir borcdu. (83)

Borc durar, xərc durmaz. (1)

Borc eyü günə qalmaz. (75)

Borc gəmiyə bənzər, gəldikcə böyüyər. (1)

---

1. (10)
2. (5)
3. (1)
4. (13), (14)
5. (9)
6. (1), (14)

Borc igidi əridər. (49)
Borc ilə alınan köynək adamı təmiz saxlamaz. (1)
Borc ilən çaxır içən iki xumar olur[1]. (50)
Borc ki, oldu yüz, gir içində süz[2]. (2)
Borc qaldıqca balalar. (14)
Borc odlu köynəkdi. (12)
Borc verənin dili uzun olar. (1)
Borc verməklə tükənər, yol getməklə. (1)
Borc yaddan çıxmaz. (1)
Borc yaxşı günə gəlməz. (1)
Borca elə giriş ki, tez qaytara biləsən. (1)
Borcdan qorxan qapısını gen açmaz. (1)
Borcı istə, əlinə girməsün. (49)
Borclu borclunun sağlığın istər[3]. (49)
Borclu qəm dəryasında üzər. (49)
Borclu ölməz, bənzi sararır[4]. (75)
Borcludan bir kuzə al, vur yerə sındır[5]. (55)
Borclunu çox darıxdırma, danar. (1)
Borclunun duaçısı borc verəndi. (1)
Borcluyı alımlu udar. (75)
Borcsuz yoxsul bəgdən yegdir[6]. (75)
Borcu həmişə kəm ver, qaytarmasa peşman olmazsan. (1)
Borcun qapısı açıxdı. (13)
Borcun səsi çıxmır, ancaq yatmağa da qoymur. (12)
Borcun yoğ isə, boyın ol[7]. (75)
Borcunu verən dövlətlidir[8]. (2)
Bostana dadanan eşşəgin qulağı və quyruğu olmaz[1]. (83)

---

1. (1)
2. (83), (1)
3. (2), (83), (1)
4. (1)
5. (83), (1)
6. (1)
7. (83)
8. (81), (83), (1)

Bostana girən parsuq yabanı özünə qəbul eylər[2]. (83)
Bostançının kar vaxtıdı[3]. (1)
Bostançının sovğatı kəlik[4] olar. (83)
Bostançıya kəlik satma[5]. (75)
Bostanda yemiş olanda, bostançı kar olar[6]. (83)
Boş anbar, boş dağarcıq, ha ölç, ha ölç[7]. (2)
Boş çanağı dolu çanağa verməzlər. (28)
Boş çanax dolu çanağı tökər[8]. (9)
Boş çuval bucaqda qalar.(6)
Boş damardan qan çıxmaz. (1)
Boş durana şeytan gülər. (1)
Boş durunca düşməninə daş daşı[9]. (2)
Boş dutan bərk yeyər. (49)
Boş eşşək dəyirmana getməz. (1)
Boş eşşək yorğa gedər. (83)
Boş qab səs salar. (12)
Boş qazan qaynamaz. (1)
Boş sözdən fayda yoxdur. (1)
Boş sözlə qarın doymaz. (1)
Boş süfrəyə nə bismillah?! (1)
Boş sünbülün başı yuxarı olar. (12)
Boş torba ilə at dutmazlar[10]. (29)
Boş torbaya at gəlməz. (1)
Boş tüfəngdən iki adam qorxar[11] . (83)

---

1. (5), (1)
2. (1)
3. (14)
4. (1)
5. (1)
6. (5)
7. (81), (83), (1)
8. (12)
9. (83), (1)
10. (83), (1)
11. (1), (12)

Boşdan bir çıxar, bərkdən iki[1]. (49)
Boyaqxana küpünü azdırma. (1)
Boylaya-boylaya gəz, dərinə düşməyəsən. (49)
Boynum sındı, yerini almaz[2]. (2)
Boynunu bitlər yeyir, çörəyini itlər. (1)
Boyu böyük olanın qiyməti böyük olmaz. (1)
Boyu uzun hər çəpərdən boylanar. (18)
Boyu uzun qadının ağlı gödək olar. (45)
Boyun olsun, boyunduruq tapılar. (1)
Boyuna baxma, bacarığına bax. (1)
Boyunduruq bilir, öküz nə çəkir. (33)
Boyunduruqdan qaçan öküzü kəsərlər. (1)
Boyunu görməmiş, xalatını biçmə. (12)
Boyuva arxeyin olma, boy gəndəlaşda da var. (18)
Boz at da öldü, Murtuzalı bəy də. (1)
Boz tula gedər, boynuyoğun gələr. (1)
Böhtan insanı öldürür. (12)
Böhtana düşən odsuz yanar[3]. (1)
Böhtançının qəvrində yovşan bitər. (9)
Börək olmasın, börək çağlı ət olsun. (18)
Börkçünün börkü olmaz, kürkçünün kürkü[4]. (43a)
Börkünü qoy qabağına – fikir elə. (1)
Böylə qəm, böylə kədər, böylə gələr, böylə gedər[5]. (2)
Böyügin tanımayan, şükrisin tanımaz[6]. (49)
Böyüh loxma ud, böyüh söz danışma! (15)
Böyük – evin qibləsidi. (1)
Böyük ağacın kölgəsi böyük olar. (1)
Böyük ağacın kölgəsində min qoyun yatar. (1)

---

1. (83), (1)
2. (81), (83)
3. (11)
4. (1)
5. (83), (1)
6. (2), (83)

Böyük başın böyük ağrısı var[1]. (75)
Böyük başını kiçik işə qatma[2]. (55)
Böyük-böyük danışma, başına gələr. (1)
Böyük böyüklüyünü bilməsə, kiçik kiçikliyini bilməz. (1)
Böyük dağın dumanı da böyük olar. (1)
Böyük damın böyük də qarı olar. (55)
Böyük danışanı kiçik götürər. (1)
Böyük daş götürmək vurmamaq əlamətidi. (1)
Böyük dərd böyüyün yoldan azmasıdı. (1)
Böyük donanınca dügün tufaqı savılur. (75)
Böyük gözün nuru olmaz. (1)
Böyük insan işindən tanınar. (1)
Böyük qapının böyük də halqası olar. (1)
Böyük qarğa nə ötərsə, küçük qarğa anı ötər. (75)
Böyük qayıq böyük də yer tutar. (47)
Böyük nə eyləsə, kiçik onu götürər. (1)
Böyük olanın qursağı gen gərəkdi. (1)
Böyük sözünə baxmayan uluya-uluya qalar[3]. (83)
Böyük tikə boğaz yırtar[4]. (49)
Böyükdən də böyük var. (1)
Böyüklə böyük, kiçiklə kiçik. (1)
Böyüklər ilən əkilən xiyar əgri bitər. (49)
Böyüklər kini, dəvə kini. (49)
Böyüklər sözi daş kərtügidir. (49)
Böyüklərin qayğısı çox, sevinci az. (26a.)
Böyüklərdə güc olur, yalan olmaz[5]. (49)
Böyüklərlə böyük ol, kiçiklərə göstər yol. (1)
Böyüklük kərəm iləndür. (49)
Böyüksüz evdə xeyir-bərəkət olmaz. (1)

---

1. (49), (50), (55), (1)
2. (1)
3. (1), (9)
4. (1)
5. (83), (5)

Böyüksüz sallaqxana itidi. (9)
Böyüyə böyük deyiblər, kiçiyə kiçik. (1)
Böyüyə hörmət elə, sən də böyüyəcəksən. (1)
Böyüyün sözü kiçik üçün bir çıraxdır. (11)
Böyüyün sözünə baxmayan gəzə-gəzə qalar. (1)
Böyüyün üzünə ağ olanı torpaq götürməz. (1)
Böyüyünü ayaxlıyan Allahını ayaxlıyar. (13)
Böyüyünü tanımayan qibləsini də tanımaz. (1)
Bu arşına bez verməzlər[1]. (55)
Bu canın o cannan nə xəbəri! (15)
Bu cibindən çıxarıb o cibinə qoyur. (1)
Bu da dağarçığını sürüyüb çuvallar cərgəsinə qoyur. (14)
Bu darı o aclığa çatmaz. (83)
Bu daş, bu tərəzi. (83)
Bu dərdi gora aparmaq olmaz. (1)
Bu dərə mənim, o dərə sənin. (1)
Bu dünya bir dəyirmandı, udar bir gün bizi. (1)
Bu dünyada maldan, mülkdən bir ağıllı baş yaxşıdı, anlamayan kəllədən, bir qara daş yaxşıdı. (1)
Bu dünyadan xəbəri yox, o dünyadan danışır. (1)
Bu dünyanın uju qalıf, insannarın biji. (9)
Bu dünyayı ərənlər əql ilə bulmuşlardır.(3)
Bu əl o ələ köməkdi. (1)
Bu əli verəni o əli bilməz. (1)
Bu əlin rənci, bu ələ haramdı[2]. (83)
Bu evin çırağının işığı o evə düşməz[3]. (83)
Bu Göyçə balığıdı, seç apar. (9)
Bu gülməyin bir ağlamağı da var. (54)
Bu gün balta itirən sabah da xalta itirər. (40)
Bu gün dünyadı, sabah axirət. (1)
Bu gün gəlib keçdi, sən sabaha bax. (1)

---

1. (1)
2. (46)
3. (1), (9)

Bu gün mənə isə, sabah da sənədi[1]. (2)
Bu gün nəqd, sabah nisyə. (1)
Bu gün qızını döyməyən sabah dizini döyər[2]. (46)
Bu gün sən deyərsən, sabah sənə deyərlər. (1)
Bu gün var, sabah yox. (1)
Bu gün yarına irməz. (75)
Bu gün ye, sabaha qismət nə olsa. (1)
Bu gündən sabahı gör. (1)
Bu günün cigərin sabahın qavurmasına dəyişmərəm. (83)
Bu günün yarını var, yarının bir xoş güni vardır[3]. (75)
Bu hələ hərbəsidi, zərbəsi daldadı. (1)
Bu ilki sərçə bildirki sərçəyə civ-civ öyrədir[4]. (2)
Bu iş dəryada balıq sövdəsidır. (83)
Bu meçidə bu namaz da çoxdu. (83)
Bu meydan bədoy meydanıdı, burda yabılar quyruq bular. (1)
Bu necə bostançıdı, dəymişini qoyar, kalını dərər. (1)
Bu pəhriz nə, bu Lahıc turşusu nə?! (1)
Bu qız yaxşı qızdı, ərə gedəndən sonra bax, bu gəlin yaxşı gəlindi, birini doğandan sonra bax. (1)
Bu yatış sənünlədi, bu duruş bənimlədi. (83)
Bu zaman – bax-öyrən zamanıdı. (1)
Buçağacan qonşu qızı idim, indi oldum ev qızı, ev gəlini. (1)
Buçuğa kömmə parasın verməzlər. (75)
Buçuq gilə taxıla nə iki gözlü dəgirmən gərək? (75)
Budaqdan düşən alma ağacın dibinə düşər. (1)
Budaqlu ağacı urcasına sürmə. (75)
Budur qanun ki, sevdilər sevəni, könüldən savdılar gözdən savanı. (75)
Bugünki fürsəti danlaya qoyma[5].(49)

---

1. (28), (83), (1)
2. (1)
3. (49)
4. (45), (83), (1)
5. (44), (28), (67), (83), (5), (1)

Bugünki öpgə danlakı quyruğundan yegdür[1]. (49)
Bugünki yumurta sabahkı toyuqdan yaxşıdır. (28)
Buğda çörəgi qarın dələr. (49)
Buğda çörəginin buynuzu olar[2]. (2)
Buğda olmayan yerdə darını gözə təpərlər[3]. (83)
Buğdam var demə, anbara tökməyincə, övladım var demə, evlənməyincə. (1)
Buğdanın ucbatından acı otlar da su içər. (1)
Buğdasını sütül yeyən xırmanda ac qalar. (1)
Buğday ətməginə nə qatıq?! (75)
Buğday ətmək yoğ isə, buğda dilün də mi yoqdur[4]? (75)
Buğdayı qonşuna sat, çörəgin bilə yeyəsən. (75)
Buxarının əgriliginə baxma, tüstünün düz çıxmağına bax[5]. (83)
Bulağ başından bulanar[6]. (2)
Bulağı tikənə rəhmət, sökənə lənət deyərlər. (16)
Bulamac dana qalsa dil ögrənür[7]. (49)
Bulamac dəliyə qaldı[8]. (54)
Bulamanı bulama, buladıqca yalama[9]. (1)
Bulanıq suda balıq tutulmaz. (1)
Bulanıq suda boy vermə, boyun irməz. (75)
Bulaq gərək yerindən bulaq ola. (1)
Bulaq öz gözünü kor istəməz[10]. (1)
Bulaq öz yerində, ulaq öz yerində. (1)
Bulaq özü tərpənməz, el-obanı ayağına gətirər. (1)

---

1. (2), (83), (9), (13)
2. (81), (83)
3. (81), (1)
4. (49), (55), (83), (1), (14)
5. (1)
6. (75), (81), (83)
7. (50)
8. (1)
9. (12)
10. (9), (14)

Bulax gözünnən durular. (13)
Bulud altından çıxan gün, yaşmaq altından çıxan üz[1]. (1)
Buluddan çıxan gün, yaşmaq altdan çıxan dil adamı yandırar. (79)
Buludu külək oynadar, ağlı kəm olanı fışdırıq. (1)
Bulut yelkənə sığmaz-girməz. (75)
Bulutlu gündə könül qaradır. (75)
Bun dəmində qaçmaq da ərlikdəndir. (75)
Bun dəmində qapuyı yar, odun olsun. (75)
Bunda yatar, handa hürər. (49)
Bundan Fatıya dirlik olmaz. (54)
Buqçu ol, kərki olma. (49)
Burada ala qarğa balalamaz. (1)
Burada mənəm, Bağdatda kor xəlfə[2]. (83)
Buraxılan ox geri qayıtmaz. (59)
Burda dəli azıydı, biri də o taydan keşdi. (9)
Burda dəvə yükü ilə itər. (1)
Burda dilənir, orda zəkat verir. (1)
Burda vurur qılıncı, fələkdə oynar ucu[3]. (1)
Burnu çirkli quzu buynuzu burma qoç olar. (1)
Burun çirkli olmaqla kəsib atmazlar[4]. (46)
Burun, qulaq başa sədəqədir[5]. (37)
Burun yüzdən düşməz[6]. (75)
Bustan musahəbət götürməz. (49)
Butraq diküp buğday umma. (75)
Buynuz qoça yük olmaz. (49)
Buynuz sonra çıxar, amma qulağı keçər. (1)
Buynuz umup, qulaqın çıqma. (75)

---

1. (14)
2. (5)
3. (11)
4. (83), (1)
5. (55), (83)
6. (49), (46), (83)

Buynuz üçün gedən qulaqsız qayıdar. (36)
Buynuzlu quzu kəlləsi ilə canavara meydan qurar. (1)
Buynuzsuz qoçun qisası buynuzlu qoçda qalmaz. (1)
Buyuran bilməz, hazırlayan bilər. (1)
Buyuran yorulmaz. (12)
Buyurannan doyuran yorulmaz. (9)
Buyurannan yatan yorulmaz. (18)
Buyur-buyurla iş keçməz. (1)
Buyurduğu qulluğa bax, verdiyi haqqa. (1)
Buz nazik yerdən sınar. (6)
Buz üstə çıqmış danaya dönüb[1]. (83)
Buzdamacın qırxın yedim, qarnım ac, yuxa beşin yedim tıxa-tıxa. (83)
Buzov qazuğda bağlu gərək. (49)
Buzovu olandan ağartı gizlətmə. (16)
Buzu gün əridər, insanı xəcalət. (1)
Bülbül gülü sevər, insan vətənini. (1)
Bülbül viranədən ötməz, bayquş viranədən getməz. (1)
Bülbülə qızıl qəfəsdən kol dibi xoş olar. (1)
Bülbülü qızıl qəfəsə salmışlar, «vay, vətən!» demiş. (1)
Bülbülün çəkdiyi dil bəlasıdı. (1)
Bünyadsuz bina süst olur. (50)
Bütünü kəsmə, paraya dəymə, doğra, doyunca ye[2]. (1)

**C**

Cahan içində hop əşya səbəbdir, səbəbsiz nəsnə yoqdur, bu əcəbdir. (75)
Cahıl ilə daş daşı, ahıl ilə yemə aşı. (83)
Cahıla gedən keyf çəkər, ahıla gedən of çəkər. (83)
Cahıllıqda həlimlik, qocalıqda səlimlik[3]. (83)
Cahil axırda tula quyruğu xınalar. (1)

---

1. (1)
2. (11)
3. (1)

Cahil dirilərin ölüsüdü[1]. (1)
Cahil ilə bal yemə, ahıl ilə daş daşı[2]. (2)
Cahil ilə çıxma yola, gətirər başına min bir bəla. (1)
Cahil özünə düşməndi, başqasına necə dost ola bilər?![3] (1)
Cahil vaqtsız xorus kibidir. (75)
Cahildə söz əglənməz, gümbəzdə qoz[4]. (49)
Cahildən qorx, dəlidən qorxma. (1)
Cahilə qoşulan cahil olar. (1)
Cahilə söz qandırmaq, dəvəyə xəndək atdırmaq kimidi. (1)
Cahili cahillər mədh eylər. (1)
Cahilin ağlı başında yox, gözündə olar. (12)
Cahilin ibadətindən alimin yuxusu yaxşıdı. (4)
Cahilliyi uzadan ya tula quyruğu xınalar, ya camadar olar. (1)
Calaq etmək əl zəhmətidir. (75)
Camaat sevəni Allah da sevər. (12)
Camadarın şahlığı hamamçılıqdı[5]. (44)
Camal gedər, kamal qalar. (1)
Camala baxma, kamala bax. (13)
Camış balağın görəndə anqırur. (49)
Camış hənəyi göz çıxardar. (1)
Camış ilə gəzən dananı qurd yeyər[6]. (2)
Camışın balasının quyruğu ağ olar. (83)
Can alan baxışından bəlli olar. (1)
Can baladan şirindi. (1)
Can bazarda satılmaz. (1)
Can bustanda bitməz. (75)
Can can üçün yanar, yadın harası yanar? (46)
Can cannan tışqarı[7]. (83)

---

1. (12)
2. (1)
3. (12)
4. (1)
5. (83)
6. (81), (28), (83), (16)
7. (1), (14)

Can de, can eşit[1]. (2)
Can deməklə can əskilməz[2]. (1)
Can deyən çox olar, can verən olmaz. (1)
Can qolayın kəhəl bilür. (75)
Can sağlığı – dünya varlığı. (1)
Can sənin, cəhənnəm Tanrının[3]. (5)
Can şirin olar[4]. (2)
Can verərsən boz sərçəyə ver, qaranquş gəldi-gedərdi. (1)
Can verirsən qardaşa ver, min il keçsə yad olmaz. (1)
Can verməyən canana yetməz. (49)
Can yüki ağır olur. (75)
Cananı sevən canından keçər[5]. (2)
Canavar canavarın dərisini çıxarmaz. (48)
Canavar öldü, ailəsi qoç yeyə bilmədi. (48)
Canavar özü hürmür, iti hürməyə məcbur edir. (45)
Canavar tək qalanda başına çaqqallar yığışar. (1)
Canavardan qorxan meşəyə girməz.(33)
Canbaz ipdə gəzər, balıq suda. (1)
Candan qonşu payı olmaz. (1)
Candır çəkər, qandur qaynar. (49)
Canı canın yolunda deyən çox olur, qoyan –az. (1)
Canı nədi, cəsədi nə olsun?! (1)
Canı yanan eşşək atdan yeyin gedər. (1)
Canım qurban yaxşı qonaq, gəl ocağa bir də qonaq[6]. (1)
Canımı da alsun gülə-gülə al[7]. (83)
Canın boğazındadırsa, öskür çıxsın. (1)
Canında olmasa candarlamaq neyləsün. (49)
Canlıdan qada əskik olmaz. (12)

---

1. (56), (83), (1)
2. (12), (13)
3. (14), (83), (1)
4. (83)
5. (83), (1)
6. (46)
7. (1)

Carmana car, koxaya xəbər. (83)
Cavan baş, bir çanaq qandır[1]. (83)
Cavan əvvəl göyü görər, sonra yeri. (12)
Cavan işə, qoca aşa. (12)
Cavan işlər, qoca dişlər. (1)
Cavan qocaya, qoca cavana bel bağlar. (12)
Cavanlar yeyənnən sonra, qocalar yatannan sonra sağlam olar. (12)
Cavanlıq gözəllikdi, onu boyamaq artıqdı. (1)
Cavanlıq soltanlıqdı, bacarsan saxla. (1)
Cavanlıqda daş daşı, qocalıqda ye aşı. (1)
Cavanlıqda qocalığa güc saxla, pullu gündə pulsuz günə pul saxla, savaşanda barışmağa üz saxla. (1)
Cavanlıqda pul qazan, qocalıqda qur qazan[2]. (83)
Cavanlıqda zəhmət çəkən, qocalıqda möhnət çəkməz. (1)
Cavannıx geri qayıtmaz. (12)
Cavannıxda bəzəmmədim, hayıf mənə, qojalıxda bəzənirəm, ayıf mənə. (12)
Cayıllıqda dövran sürək, qocalıqda dövran bizə yar olmaz. (83)
Ceviz qabığı qarın doydurmaz. (1)
Ceyran qovan çiçəyə batar, donuz qovan – lehməyə. (1)
Ceyranın yügürməgin gördüm, imdidən tövbə etdim[3]. (83)
Cəzasız cürm sahibi çox olar. (1)
Cəbbə-cövşən qəza oxun saxlamaz. (49)
Cəddində olan cəhrəsini əyirər.(20)
Cəfa çəkməyən rahat görməz[4]. (49)
Cəfasını mən çəkdim, səfasını yad gördü. (1)
Cəhalət bir bəladır, hər yanadan işin sarpın gözədir. (75)
Cəhalət səfalət doğurar. (1)

---

1. (1)
2. (1)
3. (1)
4. (56), (1), (33), (12)

Cəhd çarıx yırtar, iş odu haqqa var[1]. (5)
Cəhd eylə dost qazan, düşmən ocaq başındadır[2]. (44)
Cəhd ilən bir işdə bulun, sənlü də olır, sənsiz də. (49)
Cəhd çaruq yırtar, çomaq çorluya dəyər. (49)
Cəhənnəmə gedən özünə yoldaş axtarar. (1)
Cəhənnəmə gedən yoldaşını çox istər[3]. (83)
Cəhənnəmə gidən gələr, müştərinin gidəni gəlməz[4]. (83)
Cəhənnəmə girsə, üzü qızarmaz. (1)
Cəhənnəmin qapısın mal-dövlət açar. (3)
Cəhrə əyirsən – don geyərsən. (1)
Cəmiri bir söyləyincə qolaylar, iki söylər. (75)
Cəmrinin oğlı on iki olur, ğəninin atı on iki olur. (75)
Cənnət də bu dünyadı, cəhənnəm də. (1)
Cənnət ələ girməsə, cəhənnəmə şükür. (49)
Cənnəti isdəmiyən olmaz, günahı qoysa. (18)
Cənnəti istəmədi, cəhənnəmə də getmədi, qaldı yolda sərgəndar. (18)
Cənnətin yazlığı, cəhənnəmin qışlığı[5]. (83)
Cərgədən qalan qotur olar[6]. (46)
Cəsarətdi hücum qələbənin yarsına bərabərdi. (18)
Cəsur olana çomax da silahdı. (12)
Cəvahir cında içində olur[7]. (2)
Cəvahirin qiyməti var, amma sözün qiyməti yoxdur[8]. (2)
Cəvahirin qiymətini sərraf bilər, nə bilər hər divanə. (1)
Cəvahirə kuf yapışmaz. (75)
Cəyil nə bilir, əhil nə çəkir?! (18)

---

1. (55), (77), (12), (17)
2. (1)
3. (5)
4. (1)
5. (1)
6. (83), (5), (1)
7. (83), (1)
8. (83), (1)

Cəyillih uçan tərlandı, tutmax olmaz, əhillih köhnə çuldu, satmax olmaz. (18)

Cəyilliyə mal saxla, qocalığa can saxla. (18)

Cığala Tanrı verməz, versə də qarnı doymaz. (1)

Cır at getdiyi yolu görər, tuş at bərənin o üzünü görər. (9)

Cırcırama cırtdadı, ortasınnan partdadı. (18)

Cida ilə qulağa pambıq yeritmək olmaz. (1)

Cidanı cibdə gizlətmək olmaz. (83)

Cidanı çuvala qoymaq olmaz[1]. (49)

Cidanı oğurlayan yerin eylər[2]. (49)

Ciki mənim –biki mənim, alçı dursa –sənin bəxtinə. (1)

Cin ayrı, şeytan ayrı. (83)

Cin bismillahdan qorxar. (1)

Cinə börk tikər, şeytana –papış. (26)

Cins cinsə əsər eləməz[3]. (44)

Cins cinsinə meyl edər[4]. (55)

Cins madyan balasın döşündə saxlar. (1)

Cismin qidası –yemək, ruhun qidası –oxumaq. (1)

Civin boşsa, sözün keçməz. (12)

Civində ki, yüzdük var, kovxa yanında düzdük var. (9)

Comərd deməklə maldan etdilər, igid deməklə candan etdilər. (1)

Comərd əli darluğa düşməsün, namərd mal yiyəsi olmasun. (49)

Comərd əlin dutan namərddür. (49)

Comərd vergisini xeyirlidən, xeyirsizdən əsirgəməz. (1)

Comışdan qoruxçu olsa, qurddan çovan olar. (9)

Cöngə öküz olunca yiyəsi donquza dönər[5]. (83)

Culfa kəfənsiz ölər[1]. (2)

---

1. (2), (31), (30), (5),(1)
2. (50), (2), (55), (54), (83), (1)
3. (81), (83)
4. (1)
5. (1)

Cücə ağgünlü olsaydı, toyuq əmcəkli olardı. (1)
Cücə həmişə ində qalmaz. (49)
Cücə səbət altında qalmaz[2]. (83)
Cücəni güz sayarlar[3]. (49)
Cücəyə bəglik verdilər, anasın eşşəgə mindirdi[4]. (49)
Cümə günü, bazar, onu da yağış pozar. (1)
Cümə şənbədən uzundu. (1)
Cümə yağdı, şənbə açar. (79)
Cürətti şəhər alar, kəm cürət küncdə qalar. (83)
Cütçü yağış istər, yolçu quraqlıq. (1)
Cütə gedən öküz gözündən tanınır[5]. (54)
Cütə getməyən öküzü ətlik adına satarlar. (1)
Cütə gitməyən öküzün olsun, işə gitməyən oğlum[6]. (83)
Cüzvü küllüyə tabedi. (83)

## Ç

Çabalamaq fayda verməz. (49)
Çağa yavrının ağzı böyük olur. (75)
Çağırram eldən ayıb, çağırmaram it itdi[7]. (83)
Çağırılan yerə ar eyləmə, çağırılmayan yeri dar eyləmə[8]. (55)
Çağırılmamış qonaq ev yiyəsinə yükdü. (12)
Çağırılmamış qonağı köpəklər qarşılar. (1)
Çağırılmamış qonaq süpürülməmiş yerdə oturar[9]. (1)
Çağlı gözəllər qarımaz. (75)
Çahar atdım, şeş gəldi, yenə fələk uddu məni[10]. (1)

---

1. (81), (83)
2. (5), (1)
3. (44), (2), (28), (29), (31), (37), (68), (73), (83), (5), (1)
4. (50)
5. (55), (1)
6. (9)
7. (49)
8. (75), (83), (1)
9. (6)
10. (4)

Çaxır içən malın yeyir, bəng yeyən ağlın yeyir, tiryək yeyən ömrün[1]. (49)
Çaxır içən mən, keflənən sən. (83)
Çaxır paxır açandı. (1)
Çaxırı iç şir böyrü yırtmağa, içmə qarğalar gözünü dəlsin. (1)
Çaxırı keçiyə versən, qurda dava dilər. (49)
Çaxırı lala versən, lal dil açar. (1)
Çaxırı töksən keçinin boğazına, varıb dağları aşar[2]. (83)
Çaxırı töksən siçanın boğazına, pişikdən pasport istər. (1)
Çaxmağını çax, papağımı tapım. (1)
Çaxmaq məndən, qov səndən. (1)
Çaxmaq olmayınca daş od verməz. (49)
Çaqqal ənigi qurd olmaz, əsli qurd gərək. (33)
Çaqqal göləndə toyuq qaqqıldar[3]. (83)
Çaqqal var göydən çıxarur, qurdun adı bədnamdur[4]. (49)
Çaqqaldan çox çarıq aparan olmaz, yenə ayaqları yalındı. (1)
Çaqqalın hayıfını baqqallar çıxır. (1)
Çaqqalın yuxusuna toyuq gələr. (1)
Çaqqalla toyuğun dostluğu ölümlə bitər. (18)
Çala-çala çalağan olar[5]. (49)
Çala-çala havaya düşüb. (1)
Çalağan göydə dolanar, cücənin ürəyi bulanar. (1)
Çalan olsun, oynayan tapılar. (1)
Çalğı olan yerdə, oynamaq da olar. (1)
Çalğı toyun yaraşığıdı. (1)
Çalışan əli bıçaq kəsməz. (1)
Çalışan qazanar. (1)
Çalışanı ac, tənbəli tox görən yoxdu. (1)
Çalışgilən dost qazan, düşman ocaq başındadı. (83)

---

1. (1)
2. (1)
3. (1)
4. (37), (83), (1), (11), (17)
5. (83), (6)

Çalışqan atın boynu muncuqlu olar. (1)
Çalışqan dəvə zınqrovlu olar. (1)
Çalışqan hər nəyə əl vursa qızıl olar[1]. (68)
Çalışmaq başmaq yırtar. (49)
Çalışmaq təqdir qabağında iti səmərdür. (49)
Çalışmayan ac qalar. (1)
Çalma elin qapısını çaqçaqla, el qapını döyər toxmaqla. (33)
Çanağında bal olsun, arısı gələr Bağdaddan. (1)
Çanax başa girəndə, bil ki, hamam vaxtıdı. (1)
Çapalaq quş yuvasını kəndü bozar. (75)
Çapar yorğa olubdur, gördügin kor at degil. (49)
Çapqınçı olsan da insafı əldən vermə. (1)
Çapuk quş iki ayağından tutulur. (75)
Çarəsiz dərd olmaz. (1)
Çarəsiz dərdə loğman da acizdi. (1)
Çarığına baxma, ürəyinə bax. (1)
Çarığında əsirgəyən patavasında tapar[2]. (83)
Çarığını əsirgəməyən patavasın da qoyar üstünə. (34)
Çarıxlını mən bəyənmirəm, çəkməli məni bəyəmmir. (18)
Çarıxçını saymırlar, çəkməlini sayırlar. (14)
Çarıq çamursuz olmaz. (37)
Çarıq tapan dolağın da tapar. (1)
Çarşaf altında hamı arvad gözəldi[3]. (83)
Çarvadara yol göstərməzlər. (1)
Çaş biri iki görər[4]. (2)
Çatana çatır, çatmayana da daş atır. (12)
Çay aşağı axıtdım, çay yuxarı axtardım. (1)
Çay bir olar, çeşmə min. (1)
Çay da öz yatağını dəyişər. (12)
Çay daşı hamar olar. (12)

---

1. (70)
2. (49), (1)
3. (1)
4. (81), (83), (1)

Çay daşırsa keçmə, dayan, su yatanı gözdə. (11)
Çay görməmiş ətəyini çırmalama[1]. (3)
Çay həmişə qızıl alma gətirməz[2]. (9)
Çay quşu ayağından tutular. (1)
Çay quşu çay daşı ilə vurular. (1)
Çay quşu çay daşında yuva qurar. (12)
Çay yanında quyu qazımazlar. (1)
Çaya çat, sonra çırman[3]. (1)
Çaya çatmamış çarığını çıxardır. (83)
Çaya su gələnəcən qurbağanın canı çıxar. (34)
Çayır yeddi il leylək yuvasında qaldı, yerə düşdü, bitdi. (1)
Çeşmə ümman yaradar. (1)
Çeynə, tükür yoldaşdan qalma[4]. (75)
Çeynənən saqqız çürüyər[5]. (2)
Çəkən öküzün burnuna vurallar. (9)
Çəkilən zəhmət hədər getməz. (1)
Çəkişməyim dersən, ödənc aqça ver. (75)
Çəkişməyincə bərkişməz[6]. (49)
Çəkmə çəkə bilməzsən, bərkdir fələğin yayı. (77)
Çəkmə namərd minnətin, get səhrada dolan gəz. (1)
Çəkmə, çəkmə bu dərdi, çəkən bilər bu dərdi. (1)
Çəkməlidən çək bəri, çarıxlıdan töybəli. (18)
Çəkməyən nə bilir sevda dərdini?! (1)
Çənə yorulmasaydı, adam hey yeyərdi. (1)
Çəpərin gözü var, divarın qulağı. (11)
Çərçi başındakını satar. (33)
Çərçi kisəsindəkini sanar. (1)
Çərçi qızı munculu olar. (1)

---

1. (1)
2. (14)
3. (11), (83)
4. (49)
5. (5), (13), (14), (18)
6. (83), (12)

Çərçinin ana-atası ayaqları altındadı. (1)
Çərçinin nəğməsi yox, nərəsi çox. (1)
Çərçinin xırda andı bir gün özünə qənim olur[1]. (2)
Çərxün gərdişündən qafil olmamaq gərək. (49)
Çətini ölənəcəndi. (1)
Çınqı balacadı, odu böyük. (12)
Çırağa bir qaç piy, yüz öpüşdən artuqdur. (49)
Çırağın başı kəsilməsə işıq verməz. (83)
Çırağın yağı çoq olicək yanmaz. (75)
Çıraq dibi qaranqu olur[2]. (75)
Çıraq dibinə işıq salmaz. (83)
Çırpının qurusu təndirdə, insanın qurusu həyatda yanar. (18)
Çıxan can geri gəlməz. (3)
Çıxar qız, çıkdan baxar[3]. (46)
Çıxmağun düşməgi var. (49)
Çıxmayan cana ümüd çoxdur[4]. (55)
Çıxan ay doğuşunnan bəllidi. (13)
Çıxan qan damarda durmaz[5]. (5)
Çibin mırdar degil, könül bulandırur[6]. (49)
Çibin qana yığışar[7]. (49)
Cibin şirinə yığılar. (83)
Çiçək çox olan yerdə arı da olar, bal da. (1)
Çig bişincə pişmiş həqqə irər. (75)
Çim sel önün dutmaz. (49)
Çinara nə qədər su versən, meyvə verməz. (1)
Çinardan tir olmaz, söyüddən pir, əzgildən badam, nadannan adam. (11)
Çiraqla küləyin nə dostluğu? (18)

---

1. (83), (1), (11)
2. (49), (2), (1)
3. (83)
4. (83), (5)
5. (83), (1)
6. (28), (29), (83), (1), (11)
7. (28), (29)

Çirkaba daş atma, üstünə sıçrayar. (1)
Çirkin burada dur, gedim gözəl axtarım. (9)
Çirkin dövlətli qızını atası adına alarlar. (1)
Çirkin özün gizlədər, göyçək budala gəzər[1]. (54)
Çirkin yuyunmaqla gözəl olmaz. (1)
Çirkinə gözəl desən, quyruq bular, gözələ çirkin desən, dodaq yalar. (75)
Çirkinlik Allahdan, yüz yumamağın nədən? (83)
Çiy noxud ağızda islanmaz. (1)
Çiy süd əmənnən eylik gözdəmə[2]. (13)
Çiy süt içənin çiy ədası olar. (37)
Çoban ata bincək kəndüzini bəg sanur. (75)
Çoban çox olanda qoyunu qurd yeyər. (1)
Çoban dayağı ilə, gəlin duvağı ilə. (1)
Çoban itini, igid atını, axmax kişi arvadını tərifləyər. (11)
Çoban naharda savaşsa, şamda barışar. (16)
Çoban sovqatı suluqdur. (49)
Çobana vermə qızı, ya qoyun güddürər, ya quzu. (1)
Çobanı özündən olanın qoyunu dişi doğar[3]. (1)
Çobanın gedənə haıyfı gələr, qurdun qalana. (18)
Çobanın könli olsa erkəcdən peynir dutar[4]. (49)
Çobanın oynağanı ələ düşməz. (16)
Çobansız qoyunu qurd yeyər[5]. (1)
Çobansız sürü olmaz. (1)
Çobansız sürü yolu azar. (1)
Çox ağaclar kökündən doğranıb. (1)
Çox and içənin andına inanmazlar. (1)
Çox arpa atı çattadır. (1)
Çox bilən quş dimdiyindən tələyə düşər[1]. (1)

---

1. (55), (83), (1)
2. (11)
3. (16)
4. (2), (83), (5), (16)
5. (15)

Çox bilən tez qocalar. (1)

Çox bilib, az danışmaq cavanın yaraşığıdı[2]. (45)

Çox bilirsən, az danış[3]. (2)

Çox çalışan çarıx yırtar, iş odu həqqə vara[4]. (83)

Çox danışmaq gümüş olsa, az danışmaq qızıldır. (77)

Çox doğrı var ki, yalan ondan yeydür. (49)

Çox əyilmə, baxallar, çox uzamma, asallar. (18)

Çox gülməh asandı, çox susmax – çətin. (15)

Çox qarışqa bir fili öldürər. (14)

Çox qoyunu canavar yedi, bizi kimi yunu dağılan olmadı. (16)

Çox müşdərisi olan mətahın alıcısı olmaz. (18)

Çox ömür edən çox bilməz, çox oxuyan çox bilər. (51)

Çox söz var ki, iyəsinə düşməndür. (49)

Çox sövunma, sevincək olarsan. (83)

Çox söz yalansız, çox pul haramsız olmaz. (6)

Çox şirin olma ki, səni yaliyəllər, çox da acı olma ki, tulliyəllər. (11)

Çox varlanmaq və çox danışmaq insanı məhv edər. (1)

Çox ver, az yalvar. (1)

Çox yalan danışan özünə də inammaz. (18)

Çox yatma, çox yatmaq zehni kütləşdirir. (38a)

Çox yemək adamı az yeməkdən qoyar[5]. (2)

Çoxdan çox olar, azdan az. (55)

Çoxu Allahdan istəmək gərək. (49)

Çoq aqçadan çoq dil yegdir. (75)

Çoq ətməgi öksüz ögünə qo. (75)

Çoq gəzən çoq görər. (75)

Çoq gülən çoq ağlar[1]. (75)

---

1. (11)
2. (83), (1)
3. (28), (29)
4. (29), (31), (2)
5. (31), (54), (83)

Çoq hürən it dutmaz. (83)
Çoq qoyundan çoq quzu olar. (83)
Çoq sevdügünə çoq varma. (75)
Çoq sevmə, usanırsan. (75)
Çoq söyləməkdə fayda olsaydı, qissəxon aydardı. (75)
Çoq söyləyən çoq yanılur[2]. (75)
Çoq söz Qurana yaraşır[3]. (75)
Çoq taş qaldıran ya yılana uğrar, ya çayana. (75)
Çoq yaşayan çoq bilməz, çoq gəzən çoq bilür[4]. (75)
Çoq yemək heyvan sifətidür. (75)
Çolaq at seyidə nəzirdi. (1)
Çolaq ayağa daş dəyər. (1)
Çolaq koru görəndə öz halına şükür eylər. (1)
Çomağın iki başı var. (12)
Çomaq çürlənindi, qada birlənin. (2)
Çomaq uçmaqdan çıqmışdır. (75)
Çovan çomaqsız, qadın qılıxsız olmaz. (12)
Çovan var aparıb-gətirir, çoban var – otarıb gətirir! (15)
Çovur ocağa, bas bucağa. (83)
Çökən yurdun qədrini düşən yurdda bilərlər. (55)
Çölməgə verə-verə çıxar qazan bahası[5]. (2)
Çölmək çölməkə köti qara der. (75)
Çölmək-çölməyə qara dedi, sacayağ utanduğundan tənnürə. (49)
Çölmək dığırlanıb qapağın tapar[6]. (2)
Çölməkdə ət qalmadı, çuğundur baş qovzadı. (49)
Çölü aləmi yandırır içi özgəni. (37)
Çölün daşı, çölün quşı. (49)

---

1. (2), (83), (5)
2. (28), (29), (83)
3. (49)
4. (49), (2), (28), (29), (59), (54), (83)
5. (49)
6. (13)

Çömçə ilə içdin doymadın, yalamaqilə doyacaqsan? (83)
Çömçə quyruğuna yapışan yağlı yerindən yeyər. (83)
Çöp altda dəyirman tikir. (18)
Çör-çöplə yanan ocağın istisi olmaz. (12)
Çörəgin uzalduğı yegdir. (75)
Çörəh verdim yetimə, əl uzatdı ətimə. (18)
Çörək açanı qılıç açmaz[1]. (2)
Çörək alın təriylə qazanılır. (12)
Çörək basan ayağa düşər. (83)
Çörək xörəyin başıdı. (83)
Çörək itirən çörək tapmaz. (83)
Çörək Qurandan irəlidi. (14)
Çörək süfrənin şahıdır. (12)
Çörək tapmaz yeməgə, itinin adını «gümüş» qoyar. (83)
Çörək tapmaz yeməgə, turp axtarar gəgirməgə. (83)
Çörək verərsən, çörək verərlər, daş atsan, daş atarlar. (36)
Çörəyə qatsan, it yeməz, arpaya qatsan, at yeməz. (83)
Çörəyi bol olanın tüstüsü gür çıxar. (16)
Çörəyi çörəkçiyə ver, bir çörək də artıq ver[2]. (2)
Çörəyi tək yeyən yükünü özü çəkər. (6)
Çörəyin başı bismilla, ayağı əlhəmdülilla. (83)
Çörəyin dadı ağızdadı. (83)
Çörəyin dadını cütçü bilər. (6)
Çubuq yaş ikən əymək gərək. (49)
Çuvalın ağzını aşsan, divi görsənər. (9)
Çuvux divi şirin olar. (12)
Çünki oldun dəyirmançı, çağır gəlsin dən haray[3]. (5)
Çürügün zora nə tabı?[4] (2)
Çürük baqlanın kor alıcısı olur. (75)
Çürük qoza qabığı neyləsin. (6)

---

1. (81), (83), (28), (29)
2. (56), (37), (5), (28), (29), (83)
3. (83)
4. (83)

Çürük taxta mıx götürməz. (6)
Çürüntü aşı qarun doyurmaz. (49)

**D**

Dabbaq xoşladığı dərini yerdən yerə vurar. (1)
Dad dadıycan, duz da dadıycan. (1)
Dadammışdan al, tamarzıya ver. (12)
Dadanan dayanmaz, yığdıqca da doymaz[1]. (1)
Dadanan qudurandan pis olar. (1)
Dadanandansa quduran yeg[2]. (49)
Dadananla qudur anı saxlamaq olmaz. (1)
Dadanannan quduran bir olur[3]. (54)
Dadanıbsan dolmaya, bəlkə bir gün olmaya[4]. (2)
Dadlı dil ilanı yuvasından çıxardar. (74)
Dadlı söz dinlənər, dadsız söz əsnədər. (1)
Dadmaqdur, doymaq degil[5]. (49)
Dadmaqla mal tükənməz. (1)
Dadmamısan qaz ətini, nə biləsən ləzzətini? (1)
Dadsız şorbaya duz da kar eləməz. (1)
Dağ ağrı çəkdi, nə doğdu? – Siçan. (1)
Dağ başı duman olar. (1)
Dağ başı dumandan qurtarmaz, insan başı yamandan. (1)
Dağ başına qar yağar. (12)
Dağ başına qış gələr, insan başına – iş. (15)
Dağ başında xırman qurma, sovurarsan, yel aparar, sel yanında dəyirman qurma, üyüdərsən, sel aparar. (1)
Dağ bizim, ceyran bizim, ovçu burda nə axtarır? (1)
Dağ çiçəyindən ilan ağu çəkər, arı bal. (33)
Dağ da olsan dağa daldalan. (1)

---

1. (83)
2. (75)
3. (83)
4. (28), (29), (54), (83), (5), (1), (6), (14)
5. (1), (50)

Dağ dağa arxadı. (1)
Dağ dağa qovuşmaz, adam adama qovuşar[1]. (3)
Dağ dediyin ucalıqdı, ucalıq. (1)
Dağ gəlməsə, abdal gələr[2]. (83)
Dağ iti gəldi, bağ itini qovaladı. (1)
Dağ quşu dağda, bağ quşu bağda uyuşar. (33)
Dağ nə qədər uca olsa, üstündən yol aşar[3]. (49)
Dağ selinnən çay olmaz. (9)
Dağ səfasız olmaz, gözəl vəfasız. (1)
Dağ suları dağdan gələr. (1)
Dağ üstə maral gəzər. (1)
Dağ üstəki tısbağa çöldəki gomuşdan böyük görünər[4]. (83)
Dağ var təpəyə dirək. (9)
Dağ yıxılmasa dərə dolmaz. (1)
Dağa desən oğrudu, başını əgər[5]. (2)
Dağa duman gələndə sürü arxacda gərək. (16)
Dağa yağsa – çöl abadan, çölə də yağsa – çöl abadan. (1)
Dağarcıq çuvaldan böyük oldu[6]?! (1)
Dağarcuğluya növbət yoxdur. (49)
Dağarcuq ikməgi qarın doyurmaz. (49)
Dağda qurutdan, aranda tutdan olar. (9)
Dağdağannan dağ, börütgənnən bağ olmaz. (18)
Dağdan gələn dağa gedər. (1)
Dağdan gəlir dağ arabası, heç kim onu mindiyi yox, culfa toxur nazik bezi, heç kim onu geydiyi yox. (1)
Dağdan hey götürüb desən ki, «çoxdu», bir də görərsən ki, dağ özü yoxdu. (1)
Dağı daş bəzəyər, insanı baş. (12)

---

1. (49), (2), (81), (28), (29), (64), (76), (83), (1)
2. (1)
3. (76), (1)
4. (1)
5. (83)
6. (12)

Dağı külək yeyər, insanı böhtan. (12)
Dağılan çanax dolmaz. (11)
Dağın dərdi də dağ boydadı[1]. (1)
Dağın varı qar, soyun varı davar. (40)
Dağın vüqarı, əlin qabarı. (18)
Dağına baxar, qar verər, bağına baxar, bar verər. (1)
Dağıtmayınca yığmaq olmaz. (49)
Dağlar yalan götürməz. (1)
Dairənin nə başı var, nə ayağı. (1)
Dal ətəyini kəsip, qabax ətəyinə calıyır. (18)
Dalaşan köpək xoralı olar. (1)
Daldan atılan daş topuğa dəgər[2]. (2)
Daldan gələn əldən (aldan) gəlsə, hər fağır padşah olur. (28)
Dam dirək üstə durar[3]. (49)
Dam dirəksiz olmaz, tövlə kürəksiz. (1)
Dam uçdu, kalafası qaldı. (1)
Dama-dama göl olur, dada-dada heç[4]. (49)
Damara görə qan alınır[5]. (2)
Damara sığmayan qanı neştərləyərlər. (33)
Damazlığını yeyən tamarzı qalar. (1)
Dambatdığınnan şahad almır. (9)
Damcı bir şey deyil, ancaq daşı deşir. (67)
Damda verər azanı, yerdə sayar qazanı. (1)
Damdan dama gəzən köpəyin beli sınar (qırılar). (1)
Damdan düşənin halını damdan düşən bilər. (1)
Damdan düşsə, pişik ayağı üstə düşər. (1)
Damı çox olanın qarı da çox olar. (55)
Dana alan dadanur. (49)
Dana böyür, çulu böyüməz.[1] (2)

---

1. (9)
2. (54), (83), (1)
3. (83), (9)
4. (2), (28), (64), (81), (54), (37), (5), (83), (1)
5. (83), (1)

Dana buzov yurdunda qalmaz. (49)
Dana oynar, mıxını bərgidər[2]. (83)
Dana tövla mıxını qopartsa, bir yerə vurar, bir özünə[3]. (9)
Danacuq damın tanur. (49)
Danaçı qızınnan ğəlin olmaz. (13)
Danalı dalda qalmaz. (9)
Danalı darıxmaz. (13)
Danalı inəkdən sağım olmaz. (1)
Danışana dil vermir, yeriyənə yol. (83)
Danışanı adam bilir, hürəni – it. (1)
Danışanın danışığına baxma, əqlinə bax. (83)
Danışıq dananı qurda verər[4]. (2)
Danışıqlu aş datlu olur, dəm düşəndə olma lal. (49)
Danışıram da pis olur, danışmıram da. (1)
Danışmağnan plov bişmir, ona yağ və düyü lazımdı. (45)
Danişməndin lanusəllimi, ışıqlarun iyvallası, sufilərin «xeyr ola»sı dükənməz. (75)
Danişməndin sərmayəsi kitabdır. (75)
Danişməndlər verməк sevməz, almaq sevər. (75)
Dannamaxdan dan eşşəyinə döndərdi. (9)
Dar yerə min dost yerləşər, bir düşmən yerləşməz. (1)
Dara düşəndə Allah-Allah, dardan çıxdı qulağı sallax. (18)
Darğanın qapısı açıq olanda köpəgin yuxusu gələr. (83)
Darı cadı çatdadı, yedim qarnım partdadı. (18)
Darımızı yeyib, üzümüzə xortdayır. (1)
Darıya girən də özü, xorulduyan da. (18)
Darıya girən donuz, yabanı özünə qəbul eylər[5]. (2)
Darıycan əri olanın Tanrıycan hökmü olar. (1)
Dartıf yıxmağa nə var, qaldırıf tikmək çətindi. (12)

---

1. (55), (54), (83)
2. (1)
3. (13), (15)
4. (83), (1)
5. (28), (83), (5), (1)

Darvaza qapısın bağlamaq olar, xalqın ağzını bağlamaq olmaz (1)

Darvazadan keçməyən iynə gözündən keçər. (1)

Daş altından su yeriyir. (1)

Daş anbara uçar. (18)

Daş atdı alma sala, daşı başına düşdü. (9)

Daş bir yerdə qalanda göyərər. (1)

Daş, baş, yaş kəsənin ömrü gödək olar. (18)

Daş daş sındurur[1]. (49)

Daş daşa, dırnaq daşa, siz savaşa, biz tamaşa. (83)

Daş daşa söküşür. (49)

Daş daşa söykənsə divar olur[2]. (49)

Daş dəyənə bəllidir, yol – gedənə[3]. (1)

Daş düşdü, ya dingildədi birdir. (55)

Daş düşdügi yerdə ağırdır[4]. (49)

Daş düşdüyü yerdə qalar[5]. (83)

Daş kəsənə toxunsa, vay kəsənin halına, kəsən daşa toxunsa, vay kəsənin halına. (1)

Daş quyuya düşən kimi düşdü[6]. (83)

Daş olma, baş ol. (1)

Daş üstə əkin olmaz[7]. (49)

Daş yumşalar, düşmən yumşalmaz. (1)

Daş yürəgli düşmənin bağrını yarar həmavarlıq. (83)

Daşa dedilər niyə daş oldun, dedi: daşı gördüm, daş oldum. (7)

Daşdan qopar, yoxdan qopmaz. (1)

Daşı daşa, başı başa vurarlar. (1)

Daşın kiçiyinnən qorx, uşağın kiçiyinnən qorxma. (18)

---

1. (1)
2. (1)
3. (49)
4. (2), (44), (45), (83), (9)
5. (1)
6. (1)
7. (1)

Daşın xırdası böyüməz, adamın xırdası böyüyər[1]. (83)
Daşınma su ilə bağ salınmaz. (1)
Daşınma su ilə dəyirman işləməz. (1)
Datlu sözin datlu cavabı olur. (49)
Dava acı, səmərəsi şirin[2]. (83)
Dava-dalaşdan bir büküm halva yaxşıdı. (14)
Dava günündə igid gərək daldalanmasın. (1)
Dava üçün bir qazı, isbat üçün on şahid. (1)
Dava yoxluqdan, töyvə toxluqdan. (52)
Davaçün qazi olsa, yar içün Allah[3]. (49)
Davada ağac aradakına dəyər. (1)
Davada aradakının gözü çıxar[4]. (83)
Davada halva paylamazlar. (1)
Davada qılıncı borc verməzlər. (1)
Davadan xali olmaz, ərəb bəyi zəngənə. (83)
Davakarın şah olsa, ərizəni Allaha yaz. (1)
Davalı yerdə ot bitməz[5]. (1)
Davan yoxsa mülk al, işin yoxsa dəgirman sal. (49)
Davanı gökdə axtarır, yerdə əlinə düşür[6]. (83)
Davanı iki dəfə salmaq nahaqdı. (1)
Davanı qılıc aralar. (83)
Davanı qılınc kəsər, sevdanı pul[7]. (37)
Davanın çeşinsi cidildi. (83)
Davasını bilməyənə şahid olma. (1)
Davşanın yügürməgin gördüm, ətindən umud kəsdim[8]. (83)
Day yeriməsə, abdal yerür. (49)
Dayağı dağ olanın başı göylərdə olar. (1)

---

1. (1)
2. (1)
3. (1)
4. (1)
5. (9)
6. (1)
7. (1)
8. (50)

Dayanan su tez iylənər[1]. (83)
Dayça at olunca yiyəsi mat olar[2]. (1)
Dayça nə qədər bərk qaçsa, arabanı çəkən atdı, at! (1)
Dayı görmüyən elə bilər Şakkulu da bir dayıdı[3]. (46)
Dayı tikən körpünü su aparmaz. (1)
Dayısı olan dayısına güvənər. (1)
Dayıynan dağ dolan, əmiynən bağ dolanma[4]. (46)
Daz daznan yatdı, daz da naz atdı. (9)
Daz keçəldən xoşlanar. (1)
Dazın daza baxdığı, dazın da naz atdığı. (8)
Dazın istədiyi qara saç olar. (1)
Dedi-qodu ev yıxar, qoyma-qoyma çanax tökər[5]. (9)
Dedilər bir ağız ağla, demədilər camaatı başına yığ! (1)
Dedilər: - Əzrail uşaq paylayır. Dedi: - Özünkü özünün olsun, mənimkinə dəyməsin. (1)
Dedilər: - Qar yağacaq. Dedi: - Dayanmışam titrəməyə. (1)
Dedilər: - Qardaşın necə adamdır? Dedi: - Qonşu olmamışam. (1)
Dedilər: - Qazanda qaynadan gəlir! Dedi: -Vay halıma! (1)
Dedilər: -Yığışın köçürük! Çoban çomağını çiyninə qoydu. (1)
Dedim eşidəsən, demədim öyrənəsən[6]. (1)
Dedim, bir ağız ağla, demədim, elləri güldür bizə. (83)
Dediyin deyir, dediyini gedər-gəlməz vaxta saxlayır. (1)
Dediyindən dönərsən, el dönər səndən, demədiyini tutarsan, el tutar səndən! (1)
Demə babam yoxsuldu, can sağlığı dövlətdi. (1)
Demək asandı, yerinə yetirmək çətin. (1)

---

1. (1)
2. (6), (17)
3. (83), (2), (1)
4. (83), (1)
5. (12)
6. (12)

Demək olmur ki, gözün üstə qaşın var. (1)

Deməsən, eşitməzsən. (1)

Deməyə otammayan yiməyə də otammaz. (18)

Desələr ki, göydə toy var, arvadlar nərdivan axtarar. (1)

Devlət aytmış: «Dövlətsizə devlət olaydım», dövlətlüdən qaçup qurtulımazım. (75)

Devlətsizin evindən devlətlünün yurdı yegdir. (75)

Deyəcəyini fikir eylə, söylə[1]. (28)

Deyən ağılsız olsa eşidən gərək ağıllı ola. (1)

Deyən çoxdur, eşidən olsun gərək. (49)

Deyən ğafil isə, dedirdən ğafil degil[2]. (49)

Deyilən söz geri qayıtmaz. (1)

Deyilmiş sözdən deyilməmiş yaxşıdı. (1)

Deyingən dinə bilməz, dinməsə dözə bilməz. (1)

Deyirəm, dilim yanır, demirəm, ürəyim. (1)

Dədələrdən budur ögüt, dəgirmanı özün yügüt. (49)

Dədəm mənə kor deyib, hər yetənə vur deyib. (1)

Dədəsi öldü - dedi: “Vaxtı çatmışdı“; dəvəsi öldü - dedi: “Belim sındı“. (16)

Dədəsindən nə gül dərdim ki, balasından gülab çəkim? (1)

Dədəsini görməsə şahlıq iddiası eylər[3]. (2)

Dəgirman bildigin eylər, çax-çax başın agrıdur[4]. (49)

Dəgirman iyəsi dənlənmiş. (49)

Dəgirman növbət ilən[5]. (49)

Dəgirmana gedəndən sonra ulağ verən çox olu[6]. (83)

Dəgirmançı qızın ərə verdı, arvadun da üstəlik. (49)

Dəgirmançıya acığ eləyən, çuvalın boş aparur[7]. (49)

---

1. (56), (1)
2. (1)
3. (83), (1)
4. (44), (28), (29), (37), (55), (83), (5), (1)
5. (83), (5)
6. (1)
7. (1)

Dəgirmanda dənim yox, şahad üstə başımı nəyə yarırsan[1]. (83)

Dəgirmandan dən gedər, oğul sənün yan gedər. (49)

Dəgirmənçi qızlıq (qıtlıq) görməz. (75)

Dəgirməndə unluğın süpürüncə xırman yerində süpürgən bir artıq çal. (75)

Dəgirmənə gedən un ügüdər, evdəki növbət sayar. (75)

Dəgülmək eşəgə yaraşur. (75)

Dəhnəni dərin qazı, suyu gur gəlsin. (1)

Dək duranın dəvəcə assısı vardır. (75)

Dəli adam paxıl adamnan yaxşıdı. (9)

Dəli ağlamaz, ağıllı gülməz. (1)

Dəli aydan qorxar. (1)

Dəli bağlayanı ağıllı aça bilməz. (1)

Dəli başına dövlət quşu qonub. (1)

Dəli demiş, ağıllı inanmış. (1)

Dəli deyingən olar. (1)

Dəli dəlidən xoşlanar, molla halvadan[2]. (2)

Dəli dəlini görəndə çomağını gizlər[3]. (44)

Dəli dəlini görməsə, özünə yığışmaz. (9)

Dəli dəliyə qoşular, dəyənək göydən yağar[4]. (1)

Dəli dəliyə yoldaş olar. (18)

Dəli dost qəlbi qara, mən belə dostu neylərəm?! (1)

Dəli dostun olunca ağıllı düşmənin olsun[5]. (2)

Dəli dövran sürər, ağıllı vaxt gözlər[6]. (1)

Dəli elsiz, el dəlisiz olmaz. (1)

Dəli ilə dövlətli, ikisi də bildiyini eylər. (1)

Dəli ilə sərxoşun meydanı birdi. (1)

---

1. (5), (1)
2. (44), (81), (83), (1), (15)
3. (49), (2), (55), (54), (81), (83)
4. (9), (15), (14)
5. (74), (29), (83), (1), (9)
6. (9)

Dəli ilə tapmaqdansa ağıllı ilə itirmək yaxşıdı. (1)
Dəli inəgin dəli bizovu olar[1]. (83)
Dəli qazının yazdığını ağıllı qazı pozmaz. (1)
Dəli qırmızı sevər, gic sarı[2]. (83)
Dəli qız dayısından yaşınar. (1)
Dəli qız evdə qalmaz. (1)
Dəli quyuya bir daş salar, yüz ağıllı fikirləşib çıxarda bilməz[3]. (2)
Dəli ol, baxtun olsun[4]. (83)
Dəli öz ağlını yüz ağıldan üstün bilər. (18)
Dəli öz evin yıxar, dələduz öz elini. (26a)
Dəli öz xeyrini, şərini bilsə, niyə adına dəli deyirlər? (14)
Dəli öz zərərini güdər. (1)
Dəli özü deyər, özü də gülər. (1)
Dəli özünə bir dəli yoldaş tapdı, elə bildi ki, çox ağıllıdı. (1)
Dəli sərxoşdan qorxar. (1)
Dəli sevinər ki bayram gəlir. (28)
Dəli tərəkəməni görəndə ağıla gələr. (16)
Dəli utanmaz, yiyəsi utanar[5]. (83)
Dəli üçün qanun yoxdu. (12)
Dəlicə qızdan dəlicə gəlin olar. (1)
Dəlidən ağıl ummaq olmaz. (1)
Dəlikli muncuq yerdə qalmaz. (3)
Dəlilər dünyanı əkdilər, ağıllı indi cüt qoşur. (1)
Dəlilik ilə verdiyini biclik ilə alandı. (55)
Dəlini apardılar toya, dedi: bura bizim evdən yaxşıdı[6]. (2)
Dəlini yüz öyrət, yenə öz bildiyini elər. (14)
Dəlini zəncirlə yox, tədbirlə tutarlar. (1)

---

1. (1)
2. (44), (55), (5), (1)
3. (83), (1)
4. (1)
5. (1)
6. (1)

Dəlinin ağıllısı utanur. (49)

Dəlinin başında palıd ağacı olmaz ha, dəlinin dilini dəli bilər[1]. (12)

Dəlinin dilinə pəhriz yoxdu. (1)

Dəlinin düşünməsinə, toyuğun eşələnməsinə dərman yoxdu. (1)

Dəlinin eşşəyi də dəli olar. (1)

Dəlinin nə toyu olsun, nə bayramı[2]. (83)

Dəlinin sözü, sərxoşun gözü[3]. (1)

Dəlinin ürəyi dilindədi, ağıllının dili ürəyində. (1)

Dəlisi olan hər gün ağlar. (14)

Dəliyə ağıl, qaraya sabun kar eləməz. (1)

Dəliyə bir hava bəsdi[4]. (83)

Dəliyə daş atma, başına daş yağdırar. (1)

Dəliyə dedilər: Nə üçün dəli olmusan? Dedi: Ağıllıların dərdini çəkməkdən! (1)

Dəliyə dəli kimi cavab verməzlər. (1)

Dəliyə dəyənək verməzlər. (1)

Dəliyə gündə bayram[5]. (54)

Dəliyə halva, gicə bal neyləsin[6]. (2)

Dəliyə iş buyur, o sənə ağıl öyrətsin. (1)

Dəliyə qorux-qaytak yoxdu. (9)

Dəliyə qoşulma, səni də dəli edər. (1)

Dəliyə sorğu olmaz[7]. (55)

Dəliyə toy da birdi, vay da. (9)

Dəliyə yel ver, əlinə bel ver[8]. (55)

Dəliyə yüz öyrət, öz bildiyini eylər. (1)

---

1. (83), (1), (9), (13), (18)
2. (1)
3. (9)
4. (1)
5. (2) , (28), (29), (83), (5), (1)
6. (81), (83), (1)
7. (1)
8. (54), (83), (5), (1), (17)

Dəliyə zabitə yoqdu. (83)
Dəlləkliyi bizim başımızda öyrənir[1]. (83)
Dəlü alaca sevər. (75)
Dəlü andığın ayıdar. (75)
Dəlü başın ayağı ğəribdir. (75)
Dəlü dedi, əbləh inandı. (49)
Dəlü dəlüyi sevər, danişmənd uluyı sevər. (75)
Dəlü öküz gücin bilməz. (49)
Dəlü uslanınca uslu işini biturər. (75)
Dəlü yanıldı, tökdi sanadı. (49)
Dəlüdən doğrı xəbər[2]. (49)
Dəlüdən uslu xəbəri al. (75)
Dəlüklü taş yerdə qalmaz[3]. (75)
Dəlüyə bağ neyləsün, eşəkə bağ neyləsün. (75)
Dəlüyə mal neyləsün, gicə qavut. (49)
Dəlüyə nə ögüt ver, nə qaqısun. (75)
Dəlüyə ögüt versən, «tikən irişmədik bənümlə» deyər. (75)
Dəlüyi qaqıtma, azır. (75)
Dəlüyi zəncir usladur. (75)
Dəm ğənimətdür. (49)
Dəm ilən görmək gərək. (49)
Dəm söhbət, dəm ixtilat. (83)
Dəmi dəm gətürür, ğəmi ğəm[4]. (49)
Dəmir ayaq, dəmir çarıq, dəmir diş. (1)
Dəmir ki var, döydükcə uzanar[5]. (1)
Dəmir nəmdən, insan qəmdən çürüyər[6]. (1)
Dəmir özünü öydü, eşşək nalı düzəltdilər. (9)
Dəmir şişnən dağlıyır, sarı yağnan yağlıyır. (9)

---

1. (1)
2. (2), (83), (5), (1)
3. (49)
4. (55), (1), (9), (13), (14)
5. (9)
6. (15)

Dəmirçi nə bilir qızıl nədir? (1)
Dəmirçi özünü öydü, dəmiri soyux döydü. (9)
Dəmirçi yanından keçən qığılcım yeyər. (1)
Dəmirçidə bıçaq tapılmaz . (1)
Dəmirçinin ömrü tax-taxla, leyləyin ömrü lağ-lağla keçər. (1)
Dəmiri çox döyərsən itilənər, əlini kəsər. (14)
Dəmiri dəmir kəsər[1]. (55)
Dəmiri isti-tsti döyərlər[2]. (1)
Dəmiri pas yeyər, insanı kin. (9)
Dəmli hara gedər? -Dəm ardınca. (83)
Dəmür qapunun ağac qapuya işi düşər[3]. (49)
Dəmürçidə buxov olmaz. (49)
Dəmüri dəmür kürədən çıxarur[4]. (49)
Dəni məndən yeyir, başqa yerdə yumurtlayır. (1)
Dəniz dalğasız, qızlar sevdasız olmaz. (1)
Dəniz dalğasız, kişi xatasız olmaz. (15)
Dəniz ləpəsini sahilə çırpbasa, ürəyi sakit olmaz. (18)
Dəniz olup taşma, əlündən gəlməyəcək işə tolaşma. (75)
Dəniz tufansız olmaz. (1)
Dənizdə balıq sevdası olmaz. (1)
Dənizdə batan saman çöpündən yapışar. (1)
Dənizə getsə dənizi qurudar. (1)
Dənizi qaşıqla qurutmaq olmaz[5]. (47)
Dənizin suyu çayda olsa, aləmi başına götürər. (18)
Dərd ağladar, eşq söylədər. (1)
Dərd bir idi, iki oldu. (1)
Dərd bir olsa, çəkməyə nə var?! (1)
Dərd bir olsa, dirilməgə nə var? (83)
Dərd bir olsa, dürləmək nə gərək. (49)

---

1. (1)
2. (9)
3. (44), (83)
4. (55), (1), (12)
5. (39a), (1)

Dərd bir olsa, yeriyər. (1)
Dərd bir ülgücdür, udsan yaralar, atsan yaxalar. (1)
Dərd çəkənə gərəkdi. (1)
Dərd dərd üstündən gələr. (1)
Dərd dərdə bənzəməz. (1)
Dərd dərdə dəyər, sızlar. (1)
Dərd dərdi açar. (1)
Dərd gedər, yeri boş qalar. (1)
Dərd getməz, dəyişər. (1)
Dərd gələndə xalvar ilə gələr, çıxanda misqal ilə! (1)
Dərd gəzər, dərman arar. (1)
Dərd götürənin, söz ötürənindi. (26a)
Dərd olsun, söz olmasın. (1)
Dərd var gələr keçər, dərd var dələr keçər! (1)
Dərd verən dərman verür[1]. (49)
Dərdi Allah eləsinə versin ki, dərmanını tapsın. (55)
Dərdi çəkənə verəllər. (12)
Dərdi çəkər dərdəcər, eybi çəkər eybəcər. (14)
Dərdi dağa verdilər, götürmədi, ancaq insan götürdü. (12)
Dərdi kim çəkər - kəməcər, söyüşü kim deyər - eybəcər. (12)
Dərdimi dağa desəm, dağ əriyər, şam yanar, şölə çəkər, piltə yanar, yağ əriyər. (1)
Dərdimiz hardan əyan olsun bizim dərdsizlərə, dərdlilər yaxşı bilir aləmdə dərdin qiymətin. (1)
Dərdin yoxdu söylən, borcun yoxdu evlən[2]. (1)
Dərdini dərd bilənə söylə. (1)
Dərdini gizləyən davasını bulamaz[3]. (2)
Dərdini qoy dərdim üstə, onu da mən çəkərəm[4]. (83)
Dərdini unut, sözünü unutma. (1)
Dərdli deyincək olur[1]. (49)

---

1. (83), (5) , (1)
2. (14)
3. (81), (83), (1), (15)
4. (1)

Dərdli dərdinin dərmanını axtarar. (1)
Dərdlini dindirmə, özü dillənər. (1)
Dərdsiz baş olmaz. (1)
Dərdsiz könüldə məhəbbət yük açmaz[2]. (49)
Dərə xəlvət, tülkü bəy[3]. (44)
Dərəni, təpəni sel bilir, yaxşını, yamanı el bilir. (1)
Dərənün, divarun qulağı var. (49)
Dərgahın qapısı açıq olanda köpəyin yuxusu gələr[4]. (2)
Dərilməmiş güldən dəstə bağlamaq olmaz. (1)
Dərin çaylar səssiz axar. (12)
Dərin dərya dibindən çalxanar. (40)
Dərin quyunun suyunu bulandırmax olmaz. (9)
Dərin mənalar qısa sözdə olar. (12)
Dərin su bulanmaz. (1)
Dərin suya niyə girirsən ki, Xıdır Nəbini çağırasan. (55)
Dərmansız dərdin dərmanı bimarlıqdı. (1)
Dərviş olan şahlıq iddiası eyləməz. (1)
Dərviş dilriş olar. (1)
Dərviş qarnı doyunca, gözü yolda qalar. (14)
Dərviş məscidə girməz, bazarda meydan qurar. (1)
Dərviş odur ki, dünyanı tərk edə, fəqir odur ki, dünya onu tərk edə. (1)
Dərviş öz evin çiginində gəzdirər[5]. (83)
Dərviş yabısı hər evin yolunu tanıyar. (1)
Dərvişə bir şey verməmisən, kəşkülün bəs niyə sındırırsan? (1)
Dərvişi təkyədə, sərxoşu meyxanada axtar. (1)
Dərvişin fikri nə isə, zikri də odur[6]. (1)

---

1. (44), (2), (38), (81), (83)
2. (1)
3. (2), (28), (29), (83), (5)
4. (83), (5), (1)
5. (1)
6. (14)

Dərvişlik birdir, iki degil, dəgmələr çəkməz yüki degil. (75)
Dərya görünən yerdə qətra təməvvüc eyləməz[1]. (55)
Dərya göz qaraldar, yalan üz. (40)
Dərya it ağzı ilən murdar olmaz. (49)
Dəryadakı balıq, göydəki quş satılmaz. (1)
Dəryaya bir daş at, ya bir qaya sal. (1)
Dəryaya daş atmaqla suyu bulanmaz. (1)
Dəryaya getdi, bomboş gəldi. (18)
Dəryaya qətrə neylər. (49)
Dəryaz işlər, qol öyünər. (1)
Dərzi öz yırtığını yamamaz. (1)
Dərzi yaxası cırıq olar, başmaqçı ayağı yalın. (6)
Dərzin az oldu, xirməni böyük aç. (83)
Dərzinin iynə boydana döyləti olar. (18)
Dərzinin mayası iynə-sapdı. (1)
Dərziyə köç dedilər, iynəsini yaxasına sancdı[2]. (83)
Dəstədən ayrı düşən quşun səsi havadan yox, tavadan gələr. (9)
Dəstəmazsız namaz olmaz. (1)
Dəstini qıran da bir, suyu gətirən də bir. (1)
Dəvacın danişmənd isə, yarıcın Allah olsun. (75)
Dəvasuz dərdün dərmanı arsızlıqdur. (49)
Dəvayı eşək kibi sürmək gərək. (75)
Dəvə adın satar, eşşək odun. (1)
Dəvə asta gedər, çox gedər. (1)
Dəvə balasını damda bəsləməzələr, böyüyəndə damdan çıxa bilməz. (18)
Dəvə bir fikir eyləsə, sarban ikisini eylər. (1)
Dəvə bostana girəndə elə bilir, onu heç kim görmür. (1)
Dəvə böyükdü, ot yeyər, şahin kiçikdi ət yeyər. (1)
Dəvə böyüksə, yükü də böyükdü. (1)
Dəvə buynuz axtarırdı, qulaqdan da oldu. (1)

---

1. (1)
2. (30), (76), (5), (1), (49)

Dəvə çəkicək yer bulur. (75)
Dəvə dizin bəyənər, hərə özün. (34)
Dəvə degüləm, iki yerdən boğazlanum[1]. (49)
Dəvə döyüləm ki, yeddi yerimnən boğazdanam. (9)
Dəvə durdu dam yıqdı[2]. (83)
Dəvə gördünmü desələr, köşəgin də görmədim di. (75)
Dəvə gördünmü, körpü də görmədim. (5)
Dəvə gözünü yumar girər pambığa, deyər məni heç kim görmür[3]. (2)
Dəvə Xançobanda olar[4]. (83)
Dəvə inildəməkdən, yükü inildiyir. (9)
Dəvə irağa baxar, qatır dırnağa. (13)
Dəvə itirib balasını gəzir. (45)
Dəvə kimi böyüksən, qulağı qədər ağlın yoxdu. (1)
Dəvə kinli olar. (1)
Dəvə köşəyə uymasa, köşək dəvəyə uyar. (1)
Dəvə qulağından asılmaz. (1)
Dəvə minənin eşşəyi yanında olar. (1)
Dəvə nə böyük, qulağı nə küçük. (75)
Dəvə nə qanır, nərdivan nədi?! (1)
Dəvə nə qədər arıq olsa, dərisi eşşəyə yükdü[5]. (1)
Dəvə nə qədər uzaq getsə, qatarını gözlər. (1)
Dəvə oynayanda qar yağar[6]. (44)
Dəvə öldü, eşşəyə zülüm oldu. (6)
Dəvə ölər, yükü qalar, xoruz ölər, tükü qalar. (1)
Dəvə ölsə dərisi bir yükdü, toyuq ölsə dərisi bir çəngə tükdü[7]. (83)
Dəvə ölsə dərisi eşşəgə yükdür[1]. (49)

---

1. (83)
2. (1)
3. (81), (83), (1)
4. (1)
5. (83)
6. (2), (5), (1), (14)
7. (1)

Dəvə öz əgrisin bilməz. (49)
Dəvə palçığa batdı, milçək onu çıxartdı. (1)
Dəvə satan bir il dövlətli olar, dəvə alan bir il kasıb. (16)
Dəvə satan köşək ala bilməz. (49)
Dəvə tanımasa, ovsarı tanıyar. (1)
Dəvə yavuq otlar, uzağ qözlər[2]. (49)
Dəvə yıldi, üstdən ğərbili al. (49)
Dəvəci ilə dost olanın darvazası gen gərək. (85)
Dəvələr dəngə gidib, vay dəng içün. (83)
Dəvəni aparan eşşəkdi. (1)
Dəvəni dağdan uçurdan bir çəngə otdu. (1)
Dəvəni eşşəyin quyruğuna bağlayır. (1)
Dəvəni əvvəl bağla, sonra Tanrıya ismarla[3]. (72)
Dəvəni hara çağırırlar? –Ya meşəyə oduna, ya Gilana düyüyə. (39a)
Dəvəni xəlbir ilə suvarır[4]. (2)
Dəvəni itirib, köşəyi axtarır. (1)
Dəvəni ovlamazlar. (1)
Dəvəni palaz altında gizlətmək olmaz. (1)
Dəvəni satan köşək ala bilməz, köşəgi satan eşşək[5]. (2)
Dəvəni toya çağırdılar, ağlayaraq dedi: Ya odun çatacaqlar, ya da su daşıyacaqlar. (39a)
Dəvəni yatırmasan, yüklənməz[6]. (2)
Dəvəni yük, insanı həya üzər. (18)
Dəvəni yükü ilə, sarbanı ipi ilə. (1)
Dəvəçi ilə dost olan darvazasını uca edər[7]. (44)
Dəvədə qalağına qane ol. (75)
Dəvədən böyük fil var[1]. (49)

---

1. (2), (29), (31)
2. (55), (54), (83), (16)
3. (2), (74), (54), (83), (1)
4. (83), (1)
5. (83), (1)
6. (28), (29), (81), (83)
7. (2), (83), (1), (16), (12)

Dəvədən düşüpdür, hüt-hütdən düşməz[2]. (49)

Dəvədən yıxılan pambıq üstə düşər, eşşəkdən yıxılan – daş üstə. (1)

Dəvənin ayağı altında qarışqa əzilməz. (1)

Dəvənin kini – ilanın kini. (1)

Dəvənin qanadı olsa, bir koma abad qalmaz[3]. (77)

Dəvənin quyruğu olunca, qarışqanın başı olmaq yaxşıdı. (7)

Dəvənin nəri, kişinin əri. (14)

Dəvənin yemədiyi ot, ya başını ağrıdar, ya qıçını. (1)

Dəvəquşu yükə gələndə qanadlarını göstərər. (1)

Dəvət var, çomaqdan artıqdır, dəvət var, uçmaqdan artıqdır. (75)

Dəvətə icabət gərək. (1)

Dəvətsiz gələn qonaq quru yerdə oturar. (1)

Dəvətsiz qonağı köpək qarşılar. (1)

Dəvəyə bax, su qavı gəti. (9)

Dəvəyə binüp yara basma. (75)

Dəvəyə dedilər: - Boynun əyridi ? Dedi: -haram düzdü ki, boynum düz olsun?[4] (1)

Dəvəyə didilər: eniş yaxşıdı, yoquş? Dedi: Lənət hər ikisinə[5]. (83)

Dəvəyə dedilər: əlindən nə gəlir? Dedi: yaxşı kəlağayi toxuyuram. Dedilər: elə əl-ayağından bəllidir. (55)

Dəvəyə didilər ki, səni xan çağırır. Dəvə cavab verdi: Xan məni niyə çağırar, ya dəərmana göndərəcək, ya da ki, suya. (18)

Dəvəyə minməmişdən qabaq yırğalanmaq öyrənir. (1)

Dəvəyə nəl yoq. (75)

Dəvəyə qanqal lazım olsa boynunu yüz yerdən uzadar[6]. (2)

---

1. (44), (83), (1), (9)
2. (83), (5), (1)
3. (1)
4. (5)
5. (1)
6. (81), (83), (1)

Dəvi qarımaz. (75)
Dəyənək dəlinin, süpürgə gəlinin. (1)
Dəyirman iki daşdan, məhəbbət iki başdan. (1)
Dəyirmanım hər cür dən üyüdür. (9)
Dəyirmançı ac qalmaz, meşəbəyi üşüməz. (36)
Dəyirmançının şahidi kömbəçi olar. (1)
Dəyirmanın boğazı boş qalsa, daş daşı sürtər. (1)
Dəyirmanın boğazına ölü salsan, diri çıxar[1]. (1)
Dəyirmanın yaraşığı torba-çuvaldı[2]. (44)
Dəyirmannan gəlirdim, unumu su apardı. (9)
Dəymə tazıya, qaçar qazıya. (1)
Dığ-dığ qardaşı qardaşdan ayırar. (1)
Dımbılı ələk, dımbılı sac, əlim xəmir, qarnım ac. (1)
Dıraz adamın ağılı da nataraz olar. (40)
Didardan doymaq olmaz. (49)
Dikbaşdıxnan yıxılanın əli ələ çatmaz. (9)
Dil adamı bəyan eylər[3]. (2)
Dil ağrısından qol ağrısı yaxşıdı. (1)
Dil ağrıyan dişə dəyər. (1)
Dil Allahın qapanıdı, hər nə qoysan götürər[4]. (46)
Dil başa böyük bəladı. (2)
Dil başı güdaza verər. (1)
Dil başı saxlar (1)
Dil başun düşmənidür[5]. (49)
Dil bir, qulax iki. (9)
Dil dildən qalmaz geri. (75)
Dil eybəcərliyi bədən eybəcərliyindən betərdi. (12)
Dil ilə dost olanın ağzın ara, könlün al. (1)
Dil ilə olan, zor ilə olmaz. (1)

---

1. (12)
2. (2), (83), (5), (1)
3. (46), (28), (83)
4. (83)
5. (1)

Dil ki, var, ətdəndi, hara döndərsən dönər. (1)
Dil ögündə yoquş olmaz. (75)
Dil padşahın, söz arvadın. (9)
Dil sümüksüzdü, amma sümüyü sındırar[1]. (1)
Dil ustası, iş xəstəsi. (9)
Dil ürəyin açarıdı. (1)
Dil var bal gətirər, dil var bəla gətirər[2]. (76)
Dil yanılar, doğrusunu deyər[3]. (1)
Dil yarası, il yarası. (6)
Dil yarası qılınc yarasından yamandı. (1)
Dildə bir şey deyib, ürəkdə başqa şey tutma. (1)
Dildən acı, dildən şirin şey yoxdu. (1)
Dildən bal da damar, zəhər də. (12)
Dildən dilə yol olur. (49)
Dildən gələn əldən gəlsə, kasıb-kusub varlanar. (1)
Dildən gələn əldən gəlsin, hər fağır padşah olar. (61)
Dildi, nə qoruğu var, nə qaytağı[4]. (46)
Dilənçi bir olsa dirilməgə nə var. (83)
Dilənçi salam almaz. (1)
Dilənçi saxlayan salam olur. (81)
Dilənçi torbasından çörək yeməzlər. (1)
Dilənçidən pay umur. (9)
Dilənçinin yığdığını it aparar. (9)
Dilənçinin yüzi qərə, torvası toludur[5]. (75)
Dilənçilikdən səylik yaxşıdı, səylikdən də ölüm. (9)
Dilənçiyə bir verərsən, bir də istər, sabahacan yatmağa yer də istər. (1)
Dilənçiyə xiyar verdilər, əyridi deyə almadı. (1)
Dilənçiyə torbası ağırlıq eləməz. (1)

1. (83), (49)
2. (46), (83), (18)
3. (13)
4. (83)
5. (49), (2), (83), (81), (9), (13)

Dilənməyə nə var, çətini bir dəfə əl aşmaxdı. (9)

Dilərsən aləmdə dinc olasan, nə verəsiyə verəsən, nə ödənc alasan. (75)

Dili acı olana bal da kömək eləməz. (18)

Dili ilanı yuvasından çıxardar. (1)

Dili xoş olanın havadarı çox olar. (1)

Dili varsa, dilçəyi də var. (1)

Dilin bəlasıdı uzunçu olmaq, ariflər işidi, sükuta dalmaq. (1)

Dilin kilidi dişdir. (40)

Dilin olmasaydı, qarğalar dimdikləyərdi[1]. (1)

Dilin zəkatı xeyir söyləməkdi[2]. (9)

Dilində öd olanın hər şeyi acı olar. (1)

Dilindəkin tullama, özaa düşman qazanma. (7)

Dilini bilməyən anasın tanımaz. (1)

Dilini dinc qoyanın başı bəlasız olar. (12)

Dilini saxlayan salamat olur[3]. (2)

Dilini tut, divanı ud. (1)

Dilini uzun eyləyən, başını bəlaya salar. (1)

Dilini zəbt edən başını qutarar[4]. (46)

Dilləri – qoyun, işləri – oyun. (46)

Dilsüzdən pəltək yegdir. (75)

Dilün gəmügi yoq. (75)

Din bəndələri paklığa çağırır. (38a)

Dinc ayağa heç nə dəyməz. (1)

Dindən çıxsan da eldən çıxma. (1)

Dindirmə dəmirçini dərd alar içini. (55)

Dindirmə Fatıyı, çəkif tökər kutuyu. (78a)

Dini dinara satmaq olmaz[5]. (2)

Dini dinara satan, dindən də olar, dinardan da[1]. (83)

---

1. (18)
2. (13)
3. (83), (1)
4. (28), (29), (83)
5. (83)

Dini olmayanın imanı da olmaz. (1)
Dini yeyib, imanı dalına atıb. (1)
Dinindən dönən imanından dönməz. (1)
Dinməyənin bir dinəni olar. (1)
Dinsizə imansuz gərək[2]. (49)
Dinsizin ağzını imansız yumar. (3a)
Dinsüzə dinin bildürmək öksüzə ton geyürmək kibidir. (75)
Diri dirinin dərdini çəkər. (1)
Diri it ölü aslandan yaxşıdır[3]. (55)
Diridən ölülük yaxşıdı. (1)
Diriligündə ölüm yarağın eylə, sağluğunda xəstəlıq yarağın eylə. (75)
Dirilik ğənimətdür. (49)
Dirini öldürmək olur, ölüni diriltmək olmaz[4]. (49)
Dirini ölüyə dəyişməzdər. (12)
Diriyə də rəhmət var, ölüyə də. (14)
Diriyə dirlik gərək[5]. (49)
Diriyə hay verməz, ölüyə halva[6]. (83)
Dirlik birlikdədür. (49)
Diş qurdalamaqla qarın doymaz. (1)
Diş ilən, dırnaq ilən yığub, ağız ilən yemək gərək[7]. (49)
Diş nə qədər şirin olsa da ağrıyanda çıxarıb tullayırlar[8]. (46)
Diş verən dişlək də verər[9]. (46)
Diş yox ikən dodaq vardı[10]. (46)
Dişi arslan da arslandır. (75)

---

1. (1)
2. (2), (83), (1)
3. (1)
4. (1)
5. (55), (83), (1), (14)
6. (1)
7. (76)
8. (83)
9. (83), (1)
10. (83)

Dişilər bustan kibi olur. (75)

Dişin ağrır, çək qutar, qonşun pisdi, köç qutar, halın pisdi, öl qutar[1]. (83)

Dişin varkən, malını ye. (9)

Dişinin qədrini bilməyən çənəsiz qalar. (1)

Dişsiz ağızın damağı yara bağlar. (9)

Divan haqqa da baxar, nahaqqa da. (1)

Divan ilə divanlıq eləmək olmaz. (1)

Divana çəkən qarışqa fildən güjdüdü. (9)

Divanə yalquz gedipdür. (49)

Divanəyə qələm yoqdur[2]. (75)

Divanxana qapısı, girəndə darvaza olar, çıxanda iynə gözü. (1)

Divanxana qapusu girəndə darvazadı, çıxanda ignə gözü. (83)

Divar binadan qayim olur[3]. (49)

Divar əyilən tərəfə yıxılur. (49)

Divar qulaqlı olar. (83)

Divarı nəm yıxar, insanı qəm[4]. (1)

Divarın dalı da qürbətdi. (1)

Divarın iki üzün yıxmazlar. (1)

Divarların qulağı, qapıların gözü var. (57)

Diyən Xalıx döyül, didirən Xalıxdı. (10)

Diz ağrısını can çəkər. (1)

Dodağın qalınlığına baxma, sözün zərifliyinə bax. (1)

Dodurlu eşşək də ərik gətirərdi. (18)

Dodurlu hara, Bodurlu hara. (40)

Dodurlu qaxac yeyər, qaxınc yox. (40)

Dodurlu öyülər, söyülməz. (40)

Dodurlunun hənəyi kələk kəsər. (40)

---

1. (83)
2. (49)
3. (5), (1)
4. (1)

Dodurlunun dediyini Bodurlu deyə bilməz. (40)
Dodurlunun səpdiyi toxum şörəkətdə olar. (40)
Dodurlunun uğuru ör olar, sonu dör olar. (40)
Doğa doqqaza, xaşıl Xaşmaza, yayma yaylağa. (18)
Doğa doqqazacan, qatıqlı aş darvazayacan[1]. (83)
Doğan tavuq doğmaz övrətdən yaxşıdır[2]. (44)
Doğrı bax, doğrı al. (49)
Doğrı deyənün yeri olmaz. (49)
Doğrı deyəni yeddi kənddən qovarlar. (85)
Doğrı gedən yol azmaz. (49)
Doğrı söz açı olur[3]. (49)
Doğrıluq şah qapusı. (49)
Doğru büdrər, amma yıxılmaz. (1)
Doğru danışanın papağı yırtıq olar. (83)
Doğru deyən olsaydı, yalançı usanardı. Avara qalanlar dəxi bir söz də qanardı. (1)
Doğru dikəlincən yalan dünyanı udar. (18)
Doğru dil daş yarar. (12)
Doğru diyənin başı keçəl olur[4]. (5)
Doğru dostluq qərəzsiz olur. (28)
Doğru elə bilər, hamı doğrudu, əyri elə bilər, hamı əyridi. (1)
Doğru qapıdan gələndə, yalan bacadan qaçar. (14)
Doğru ol, asan yol ilə get. (1)
Doğru sarsılar, amma yıxılmaz. (14)
Doğru söylə, at min, çap. (1)
Doğru söz dostluğu pozar. (1)
Doğru söz etiraz götürməz. (1)
Doğru sözdə boynum qıldan incədi. (54)
Doğru sözü zarafata salıb deyərlər. (1)
Doğru tutulmayınca oğru tutulmaz. (1)

---

1. (81), (1)
2. (46)
3. (44), (5), (1)
4. (83), (1)

Doğru yalanı qovar. (1)
Doğru yolu görürkən, əyri yoldan gəlmiyəlim. (3)
Doğru yolda yıxılan tez qalxar[1]. (1)
Doğruluq dost qapısı, oğruluq düşmən çatısı. (18)
Doğruluq ən böyük oğruluqdu. (83)
Doğruluq insanı heç vaxt utandırmaz. (1)
Doğruluqla dost qapısını dolan, gəz, öz evindi. (1)
Doğruya zaval yoxdu, çəksələr min divana[2]. (1)
Dolan qoyunum, dolan, borc verən gələr, ya səni aparar, ya məni. (1)
Dolanmağa yad ölkə, ölməyə vətən yaxşı. (1)
Dolaşan qurd ac qalmaz. (1)
Dolu civdənsə, dolu baş yaxşıdı. (9)
Dolu çanağı boş çanağa urmaq olmaz. (49)
Dolu dəryaya yağar. (1)
Dolu quyuya it düşməz. (1)
Dolu tüfəng birni qorxudar, boş iksini[3]. (5)
Dolunu yeyib, boşa təpik atır[4]. (83)
Don dedi: - Mən gedirdim, məni yamaq saxladı. (1)
Don hər kimin əndamına gərək. (49)
Don tapmaq asandı, dost tapmaq çətin. (1)
Donqanın donqasını qəbir düzəldər. (55)
Donmuş eşşəgi basmaq olmaz. (83)
Donuz xort-xortunu böyügündən ögrənər. (83)
Donuzdan toğlu doğulmaz. (1)
Donuzun başı ağır olsa da, leşi çəkər. (1)
Doqquz döşəkli baba, axırı quru yerdə can verir[5]. (83)
Doqquz gün əcirə on gün sadağa lazımdı. (1)
Doqquzu verən onu da verər. (1)

---

1. (9)
2. (49), (75), (83)
3. (83), (1), (15)
4. (1)
5. (1)

Doqquzun yeri göynüyür. (9)
Doqquzunda nə isə doxsanında da odu. (1)
Dorbiye girən donquz yabanı qəbul edər. (37)
Dost ağlar, düşmən gülər. (1)
Dost arası pak gərək. (1)
Dost arası sözsüz olmaz. (1)
Dost-aşna çox olar, düşərgə bir olar. (12)
Dost başa baqar, düşmən ayağa baqar[1]. (75)
Dost bir, düşmən on bir. (1)
Dost dar gündə tanınar. (1)
Dost – dost, müamilə rast. (75)
Dost dosta arxa olar. (1)
Dost dosta tən gərək, tən olmasa gen gərək. (1)
Dost dostdan kənar olmaz, aralıqda mərdimazar olmasa. (1)
Dost dostın əksiginə qalmaz. (49)
Dost dostun aynasıdı. (İrəvan)
Dost dostun eyibini üzünə deyər. (1)
Dost dostun sağlığın istər. (49)
Dost dostunun malını yeyər. (55)
Dost evin sil-süpür, amma düşmən evinə getmə. (9)
Dost əskiyicək Tanrı yenisin verür. (75)
Dost gələr, düşmən gedər. (1)
Dost gəlişi bayram olar. (1)
Dost gəlməyincə yaramaza satılma. (75)
Dost haqqını tapdalamazlar. Tapdalayan pis adam olar. (38a)
Dost ilən bazar, dostluğu pozar. (49)
Dost qazan, düşməni nənəm də doğar. (1)
Dost məni ansın bir çürük ceviz ilə[2]. (2)
Dost məni bir qoz ilən ansun, o da puç. (49)
Dost məni yad eyləsin bir gülöyşə nar ilə. (1)
Dost min olar, candan dost olan bir. (1)
Dost olan eyib görməz. (49)

---

1. (2), (83), (5), (1), (9)
2. (1)

Dost öyündə baş yuyallar, düşmən öyündə dırnaq kəsəllər. (18)

Dost sevinər, düşmənin gözü çıxar. (1)

Dost sirrini dost bilir[1]. (2)

Dost üzdən bəlli olar, düşmən - gözdən. (1)

Dost yolunda boran olar, qar olar. (1)

Dost yolunda əzaba düşənin el içində üzü ağ olar. (1)

Dost ziyankar olmaz. (1)

Dost zülümkar olmaz, ziyankarlardan dost olmaz. (18)

Dosta alqış, düşmənə qarğış. (1).

Dosta borc pul vermə, hər ikisi əldən gedər. (1)

Dosta dost, düşmənə düşmən kimi bax. (1)

Dostam səninlə, pulun qurtaranacan! (1)

Dostdan gələn ziyanı, düşmənin sərinə yazarlar. (18)

Dostdan belə sirrini saxla. (1)

Dostdan özünü qoru, düşmənlə hesablaşmağa nə var?! (1)

Dostdan yaman gəlməz[2]. (49)

Dostla dağı tez aşmaq olar. (1)

Dostluğa dağlar da, dənizlər də mane ola bilməz. (1)

Dostluğa min adam azdur, düşmənligə bir adam çox[3]. (49)

Dostluğu birdən pozma, bəlkə bir də dost oldun. (1)

Dostluğun telini kobudluqla qırma, bir də bağlasan düyünü qalar. (1)

Dostluq düzlükdədi. (1)

Dostluq göstərməklə düşmən əzilməz. (1)

Dostluq həmişə qalib gələr. (1)

Dostluq həyat vəsiqəsidi. (1)

Dostluq savaşmayınca bərkişəməz. (75)

Dostluq üç almadı: gah ikisi səndə, biri məndə, gah ikisi məndə, biri səndə[4]. (83)

---

1. (83)
2. (1)
3. (59), (72), (1)
4. (1)

Dostluq varduğunca bərkişür, məgər içində çürüklüki ola. (75)
Dostluqla tutub, düşmənliklə yıxar. (1)
Dostsuz insan – qanadsız quş. (1)
Dostu düşünməyən, düşmənə dönər. (12)
Dostu el olanın, dövləti bol olar. (12)
Dostu yatanda, düşməni satanda sına. (18)
Dostuq, cibimiz ayrı. (1)
Dostun atdığı daş baş yarmaz[1]. (1)
Dostun dost olsun, hesabın dürüst. (1)
Dostun əskisinə, həmmamın əskisinə, sücinin əskisinə nəsnə irməz. (75)
Dostun ilə ye-iç, satu-bazar eyləmə[2]. (75)
Dostun önündən, düşmənin ardından. (49)
Dostun rizqin düşman kibi ye. (75)
Dostun üzünü evində gör. (1)
Dostun versə qum, sən onu ovcunda yum. (1)
Dostun yoxsa axtar, tapdın – qoru. (1)
Dostuna borclu olma. (1)
Dostuna ödənç aqça vermə, istədügün vaqt məhəbbət miqrasla kəsilir. (75)
Dostunu ağladıb, düşmənini güldürmə. (1)
Dostunu mənə de, deyim sən kimsən. (1)
Dostunun dostu sənin də dostundu. (1)
“Dov” deməgə tovdaq gərək. (75)
Dovşan balasına üççə gün süd verər. (14)
Dovşan dağda, suyu ocaqda. (1)
Dovşan dağdan küsmüş, dağın xəbəri yox. (1)
Dovşan dərisi bir təpügə dözər. (49)
Dovşan feyz alanda kənd qırağında gəzər. (1)
Dovşan kiçik, qulağı böyük. (1)
Dovşan nə anasını əmip, nə də gözü yoldadı. (18)

---

1. (14)
2. (2), (28), (29), (61), (83), (5), (1), (9)

Dovşan nə qədər qaçarsa, o qədər də yatar. (1)
Dovşan öz yatağında ovlanar. (1)
Dovşan yatduqca səgrədür. (49)
Dovşana deyir, qaç, tazıya deyir, tut. (1)
Dovşanı qova-qova ayının üstünə çıxartma. (9)
Dovşanı tutunca tazıya «atam» deyərlər. (1)
Dovşanın gümanı ayaqlarına gələr. (1)
Dozanqurdu ol, gözə gir[1]. (55)
Dozanqurdunun da balası özü üçün əzizdi. (1)
Dögmə kimsənün qapusın, dögməsinlər qapunı[2]. (49)
Dögülən öz kisəsindən dökülər. (83)
Döldə çıxan, ildə çıxmaz. (9)
Döləngicə kündə taqsan toğan olmaz. (75)
Dönən övrət, sapan keçi. (75)
Dönmüş eşşəgi basmaq olmaz[3]. (81)
Dörd göz bir övlad üçündü. (1)
Dörd məzhəb, beşinci kötək. (75)
Dört divarı yoq, qoz ağacından qapusı var. (75)
Dövlət adama ayağı ilə gəlməz. (1)
Dövlət ağıllının nökəridi, axmağın ağası. (1)
Dövlət başa bəladı. (1)
Dövlət başa, quzğun leşə qonar[4]. (83)
Dövlət başçısı sayıx olmalıdı. (9)
Dövlət bir il gedər, töhmət min il. (55)
Dövlət degilmi qarıya – yigit yanınca yürüyə? (75)
Dövlət dəniz suyu kimidi, içdikcə susadır. (1)
Dövlət əl kiridi, yusan gedər, yumasan getməz. (9)
Dövlət gəldi yat, dövlət getdi yat! (49)
Dövlət haqq canibindəndür. (49)
Dövlət istirsən, arxa ver arxa, bir olur astana, bir baba. (49)

1. (1)
2. (28), (29), (2), (54), (5), (1), (13)
3. (83)
4. (1)

Dövlət kimə yar olsa durur. (75)
Dövlət qəza yanındadır. (75)
Dövlət qulluğu göyərçinə bənzər, qonar, uçar. (1)
Dövlət malı nə odda yanar, nə suda batar. (1)
Dövlət sirrini dövlət bilər. (1)
Dövlət yegdir əqldən-usdan dəxi, dövlətə görə bitər bağla bustan dəxi. (75)
Dövlətdə dəvə, övlatda nəvə[1]. (83)
Dövlətə bel bağlama. (1)
Dövləti abıra çəpər edərlər. (1)
Dövlətin də düşər-düşməzi olar. (1)
Dövlətin ən yaxşısı ağıldı. (1)
Dövlətli kasıb olsa qırq il iyi gitməz, Kasıb da dövlətli olsa qırq il iyi gitməz[2]. (83)
Dövlətli oğul qopsa – ocağının közüdür, dövlətsiz oğul qopsa – ocağının külidir.(3)
Dövlətli öldü - hamı bildi, kasıf öldü – heç kəs. (12)
Dövlətli yanını qaşıyanda kasıb eylə bilər pul verir[3]. (83)
Dövlətlidən xeyir, kordan mazarat. (83)
Dövlətlinin balası un dəyirmanından gələni gözlər; kasıbın balası çörəyin təndirdən çıxmağını gözləməz. (16)
Dövlətlinin dili uzun olar. (1)
Dövlətlinin iti yatmaz. (1)
Dövlətliyə bəli, kasıba dəli deyirlər[4]. (44)
Dövlətliyə saxsı lazım olsa, kasıb kasasını sındırar. (1)
Dövlətlü evin tütüni əksik olmaz. (75)
Dövlətlü evin qonuğı-qoyuluşı gəlür. (75)
Dövlətlü kişinin övrəti ölur, dövlətsiz kişinin əyrəti ölür, bəlkə kəndü ölür. (75)
Dövlətlüdən dövlət gördün, məzərrat[1]! (49)

---

1. (1)
2. (1)
3. (1)
4. (5), (58), (83), (1)

Dövlətlüdən yatluluq gəlməz. (75)
Dövlətlünün evi tütünundən bəllüdur. (75)
Dövlətlüyə nə mal, bidövlətə nə mal! (49)
Dövlətsizə kəndü bəlası yetər. (75)
Dövlətsizə kimsə dövlət olmaz. (75)
Dövlətsizin oğlı olmaqdan dövlətlünün qulı olmaq yegdir[2]. (75)
Dövranı sürən sürsün, hər kəsin macalı var[3]. (83)
Döy qurbağaya aşıq olar. (55)
Döyən qalır qıraqda, döyülən tutulur. (1)
Döyən, söyən ərim yox, yel aparan unum var. (1)
Döyəni ağac ilən götürürlər. (49)
Döyər, söyər - yetimi ağlamağa da qoymaz. (9)
Döylətdi dağda da qərif döy. (9)
Döyməni xanım yeyər, kəpəyi yetim. (1)
Döymür, tozunu çırpır. (1)
Döyükmək xofluluq əlamətidi. (40)
Döyülən ilə deyən bir deyil. (1)
Döyülənin cibindən gedər. (1)
Döyülməmiş düyüdən aş olmaz[4]. (83)
Döyülməmiş soyulmaq bir sulu namazdı[5]. (2)
Dua oxumaqla donuz darıdan çıxmaz. (1)
Duaçıdan duayı armağan um. (75)
Duanı biz eləmişik, yağış gör hara yağır? (1)
Dul arvad ağ kalağayıdı, toxunma, ləkə düşər. (1)
Dul arvad evdə oturmaz. (1)
Dul arvad kişiyə gedəndə gecəyarısı peşman olar[6]. (46)
Dul arvad yetim saxlar, naxırçıya minnət qoyar[7]. (83)

---

1. (5), (1)
2. (49)
3. (1)
4. (55), (37)
5. (83)
6. (83), (18)
7. (5)

Dul arvad yuxuda ikinci ərini görər. (1)
Dul arvaddı, amma yetimlərə atadı[1]. (83)
Dul arvadı qız adına almazlar. (1)
Dul arvadın boxçası qoltuğunda olar. (1)
Dul arvadın divarı alçaq olar. (1)
Duman alçaqdan qalxar, ucanı gözlər[2]. (49)
Dumanlı gözə hər şey bulanıq görünər. (1)
Dumansız çən olmaz. (1)
Dumbul görər oynar, mehrab görər ağlar. (1)
Dumbulla gələn zurna ilə gedər. (1)
Duran öküz yatan öküzün başına batırar. (1)
Duran yatanın payını yeyər. (1)
Durna görsən qış, leylək görsən yaz gələr. (16)
Durnanın başçısını vurarlar. (1)
Durub getdik qışlağa, ümid qaldı yaylağa. (1)
Duz-çörək itməz. (1)
Duz-çörəyin qədrini bilmək gərək. (1)
Duz kimi hər aşa girər. (1)
Duz yerinə buz yalama[3]. (54)
Duzdan ləziz, sudan əziz bir şey yoxdu. (1)
Duzu yeyib, duz qabını sındırma[4]. (83)
Duzunu gimrik eyləyən çörəyini də fətir eylər. (1)
Dügün aşı borcdur. (75)
Dügün domrovsuz olmaz. (75)
Dügün issi iyüməz, dügünci eyür. (75)
Dügündə devlət keçər, bayramda yügrək keçər. (75)
Dükançının saqqalı özünə əngəldi. (1)
Dün ğəribindir. (75)
Dün ilə yürüyən sabah sevinür. (75)
Dün uzunun pasiban bilür. (75)

---

1. (46), (1)
2. (1)
3. (49), (55), (1)
4. (1)

Dünən yediyini bu gün yadından çıxarıb. (1)
Dünən yumurtadan çıxıb, bu gün bizə cip-cip öyrədir. (1)
Dünən yumurtadan çıxıb, bu gün qabığını bəyənmir. (1)
Dünəni demə, bu günü de. (1)
Dünənki işinə sağ ol, bu günkü işindən danış. (1)
Dünənki məzənnəyə yoldaşım da hazırdı. (1)
Dünya - qazan, biz - çömçə. (1)
Dünya axirət məzrəsidür. (49)
Dünya arsızındı, dodağı barsızındı. (55)
Dünya bala dönsə də, ala qarğa öz yeməyin bilər. (1)
Dünya beş gündü, beşi də qara. (1)
Dünya bir qərarda qalmaz. (49)
Dünya bir nərdivandı, biri çıxar, biri düşər. (1)
Dünya bir pəncərədi, hər gələn baxar, gedər. (1)
Dünya bir yağlı quyruqdu, yeyə bilənə nuş olsun. (1)
Dünya bir yorğun oydür, hər gələn bir dəm oylar[1]. (5)
Dünya bunyat olanı, qazı sünnət olanı. (83)
Dünya çalışanların əlindədi. (1)
Dünya dediyin bir bağdı, hər gələn bir ağac əkib gedər. (1)
Dünya gedib ucu qalıb, adamların bici qalıb[2]. (83)
Dünya girsə araya, qul qaçan tapuya yaraya? (75)
Dünya gör-götür dünyasıdı. (1)
Dünya xali degildi. (83)
Dünya işinin madarı yoxdu, heç kimsəyə etibarı yoxdu. (1)
Dünya quyruğı uzundur. (49)
Dünya malı dünyada qalur[3]. (49)
Dünya tükənər, düşmən tükənməz. (1)
Dünya üç gündür: bir anadan olan günü, biri oturan günü, biri də ölən günü. (83)
Dünya varına güvənmə. (1)
Dünya yansa, bir tükü də yanmaz. (1)

---

1. (83), (1)
2. (1)
3. (2), (83), (1)

Dünya yaz ikən qış tədarükünə bax. (1)
Dünya yeyənə quyruqdu. (83)
Dünya yeyənindür. (49)
Dünyanın bir üzü gecədi, bir üzü gündüz. (39a)
Dünyaca gözəlliyin olunca, zərrəcə bəxtin olsun. (1)
Dünyada bir pislik qalar, bir də yaxşılıq. (1)
Dünyada ən zor iş anlamaza söz anlatmaqdı. (1)
Dünyada hər an mərdə arxalan. (1)
Dünyada hər işə qarşı sayıx olanın başı uca olar. (9)
Dünyada hər kəs öz haqqına razı olsa, dava olmaz. (1)
Dünyada hər şey satılıb-alınır, bir namusdan başqa. (1)
Dünyada hər zaman mərdə arxalan. (14)
Dünyada iki şəxs heç vaxt dost olmaz: biri qanan, biri qanmaz. (1)
Dünyada oğul toyundan şirin heç nə ola bilməz. (1)
Dünyada ölüm olmasa, adam adam ətin yerdi. (75)
Dünyada pulsuz – axirətdə imansız. (1)
Dünyada üç şey gördüm: oldum, evləndim, öldüm[1]. (83)
Dünyadan kam almaq olmaz. (49)
Dünyadı, hancarı dutsan keçər. (83)
Dünyanın ən bəxtiyar insanı kimsəyə möhtac olmayandı. (1)
Dünyanın ən böyük nеməti can sağlığındadı. (1)
Dünyanın işin hər tür dutsan, öylə gedər[2]. (83)
Dünyaya dayanma, varına inanma. (1)
Dünyaya kimsə qalmaz. (49)
Dünyaya mərhəmət paylananda köpəyi uğuz yuxsu basar. (18)
Dürlü yalanın adını eşq qomışlar, eşqi çəkən kişilər dostu xəlvət bulmuşlar. (75)
Düşdə dögür//dügür ağırdur. (75)
Düşi görəndə degil, yorandadır. (75)
Düşman çox olanda qaçmaq da mərdlikdi[1]. (83)

---

1. (1)
2. (1)

Düşman gözi kor olur. (75)
Düşman zəif olsa da, ehtiyatı əldən buraqma[2]. (83)
Düşmana quyu qazınca dosta ev tikərəm[3]. (83)
Düşmanı kənarda gəzmə, düşman evin içindədi. (9)
Düşmanın beləsinnən isə dostun silləsi yaxşıdı. (83)
Düşmən adama «qadan alım» deməz. (1)
Düşmən düşmənə qəzəl oxumaz. (1)
Düşmən düşmənin halına qalmaz. (1)
Düşmən ətək altından çıxar. (1)
Düşmən qaçarkən qarğalar cürətlənər. (1)
Düşmən qarışqa da olsa, sən onu fil say[4]. (1)
Düşmən səni daş ilə, sən düşməni aş ilə[5]. (2)
Düşmən yaxandan tutanda it ətəyindən tutar. (1)
Düşməndən dostlıq ummaq, od ilən suyı bir yerə yığmaqdur. (50)
Düşmənə fürsət verən kəmfürsət olar. (40)
Düşmənə qalib gəlmək üçün onun gözlərinə dik baxmaq lazımdı. (18)
Düşmənə sahib çıxan düşmən sayılır. (1)
Düşmənə varanda ürəyində nifrət, əlində tüfəng, dosta varanda ürəyində məhəbbət, əlində çörək. (1)
Düşməni bas, hər yol ilə bassan, bas! (1)
Düşməni elə vur ki, bir də özünə gəlməsin. (1)
Düşməni həqir sayma. (49)
Düşməni ocaq başında tanı. (14)
Düşməni yumşaqlıqla dost edən ağıllıdı. (1)
Düşmənin güni sağışlu olsun. (75)
Düşmənin işi başlanmasun, başlanıcaq tez təmam olur. (75)
Düşmənin ömri qar ömri kibi ola. (75)

---

1. (2)
2. (2), (1)
3. (1)
4. (9)
5. (49), (28), (29), (1), (18)

Düşmənün dost olmağı bir fürsət buluncadur. (50)
Düşmənün kiçigi bəlanun böyügidür. (49)
Düşmənün qarınca isə, xar bilmə. (49)
Düşünən baş boş qalmaz. (40)
Dünya boynu yoğunundu. (1)
Düyümüz olseydı, qonşudan yağ da alıf aş bişirərdox. (10)
Düz adam düzdə qalar. (14)
Düz ağacı ocağa qoymazlar. (1)
Düz danışanı utandırmaq olmaz. (1)
Düz danışanın dostu az olar. (12)
Düz danışanın papağının yanı yırtıq olar[1]. (83)
Düz danışanla dost ol, səni tərifləyənlə yox. (1)
Düz dərindən buz yalar. (50)
Düz divar uçmaz. (12)
Düz gəlmisən – düz get, qız gəlmisən – qız get. (1)
Düz oldu – ox, əyri oldu – yay. (1)
Düz söz acı olar. (1)
Düz söz daşdan da keçər. (12)
Düz söz poladı kəsər. (12)
Düz tanımayınca əyri tanımaz. (1)
Düz yerdə gəzə bilmir, şumda şıllaq atar[2]. (2)
Düz yol gedən yorulmaz[3]. (2)
Düz yolun yolçusu azmaz. (1)
Düzəldi əysik gərəyimiz, qaldı saqqal darağımız. (9)
Düzəndə min, enişdə yedəyin çək, dikdə qabaq sal, yeriməsə, mən zamin[4]. (1)
Düzənlik qanda isə, bərəkət andadır. (75)
Düzgün iş daşı dələr. (9)
Düzlük haqq qapısıdı, düz dur, düz otur. (18)
Düzlük uzanar, qırılmaz. (1)

1. (13)
2. (83)
3. (55), (83)
4. (83), (6)

**E**

Ehtirasın həyası olmaz. (12)
Ehtiyac adamı oğru eliyər. (13)
Ehtiyac igidi də sarsıdar. (12)
Ehtiyat ehtiyacdan doğar. (12)
Ehtiyat igidin yaraşığıdı[1]. (48)
Ehtiyat şərtdəndir[2]. (83)
Ehtiyatı əldən vermə. (1)
Ehtiyatlı qoyunu qurd yeməz. (1)
Ehtiyatlı oğulun anası ağlamaz[3]. (12)
Ehtiyatlılıq baş ağrısı gətirmir. (48)
Ejgahançılıxdan culfaçılıx. (18)
El ad başına yığılar. (7)
El adamı igid deyə candan edər, comərd deyə maldan. (1)
El ağzı, çuval ağzı[4]. (2)
El ağzı çuval ağzı deyil ki, bağlayasan[5]. (83)
El ağzı faldı[6]. (83)
El ağzı ilə quş tutmazlar[7]. (1)
El ağzı ilə şorba içilməz. (1)
El ağzı kəramətdi. (1)
El ağzı yel ağzı. (1)
El ağzına baxan, qarısını tez boşar. (1)
El ağzına düşən xeyir görməz. (12)
El ağzında bir sözün yüz rəngi var. (1)
El ağzını bağlamaq olmaz. (1)
El arasında it quyruğu kəsməzlər. (1)
El arxası çəmən olar[8]. (2)

---

1. (1)
2. (5), (1)
3. (1)
4. (1), (12), (13)
5. (1)
6. (5), (1), (12)
7. (15)
8. (81), (83)

El atan daşı qalxızmaq olmaz. (1)
El atanı ər atar, el tutanı ər tutar. (1)
El atanı haqq da atar[1]. (1)
El atduğı daş uzaq gedər[2]. (75)
El ayranı yanğını soyutmaz. (1)
El baylu-yoxsullu olur. (75)
El bərəkallahı qarın cırar. (1)
El çalan zurnanın səsi uzaqdan gələr. (1)
El dağlara dayanıb, çıraqlı indi oyanıb. (1)
El dəli olsa, mollaya gidər, molla dəli olsa kimə gidər[3]. (83)
El dəlisin çölə atmaz[4]. (49)
El dəlisiz olmaz. (1)
El dəlüsin aldatmaz. (75)
El dəlülü, uslulu olur. (75)
El dutduğı qabaqcaq hasil olmaz. (75)
El el ilə keçinmiş, qardaş qardaş ilə keçinməmiş. (1)
El el ilə, dəyirman yel ilə. (1)
El el üstə sığışar, ev ev üstə sığışmaz[5]. (2)
El elə dayandı, qeyli-qal indi oyandı[6]. (49)
El elin aynası, batmanı, tarazısı. (1)
El elin itkisini bayatı oxuya-oxuya axtarar. (1)
El elin örtügi olur. (49)
El eybin sana söyləyən sənin eybini də elə söylər[7]. (75)
El əməyini yeyən sinirə bilməz. (9)
El gözü aydın görər. (1)
El gözü sərrafdı[8]. (83)
El gözü tərəzi olar[1]. (2)

---

1. (9)
2. (49), (1), (9), (12), (15)
3. (5), (1), (49)
4. (46), (83), (14)
5. (37), (1), (6), (33), (12)
6. (17), (50)
7. (1), (15)
8. (1)

El gözü uzağı görər. (9)
El gözündən düşən boy atmaz[2]. (1)
El gözündən düşən gözsüz qalar. (52a)
El gözüylə dünya görünməz. (1)
El gücü, sel gücü. (32)
El hara, sən də ora[3]. (1)
El hər qalın bostan qırağına gəlməz. (1)
El hümmətlə, quş qanadla. (1)
El içün ağlayanın gözi yaşı dügiməz. (75)
El içində əmioğlu, əmioğlu içində qardaş. (1)
El içində itün quyruğın kəsmə. (83)
El içində qatı söyləmə, divar ardında qul olur. (75)
El içində, öl içində[4]. (2)
El igidləri ilə tanınar. (1)
El ilə bir ağla, el ilə bir gül. (1)
El ilə gələn qərə gün dügündür[5]. (75)
El ilən duran yıxılmaz, əl ilən verən saxlamaz. (50)
El insanın şöhrətidi. (9)
El ipilə quyuya düşən quyuda qalar (1)
El keçdüki köprüdən sən də keç[6]. (75)
El köçər, ədət köçməz. (13)
El qabağı, yel qabağı. (1)
El qalxdı, sən də qalx. (1)
El qapısı həkim qapısı. (1)
El qapısı, həm gec, həm güc açılar. (1)
El qarğıyan ağac bar verməz. (12)
El qarımış, törəsi qarımamış. (49)
El qazanı ilə aş qaynamaz[7]. (1)

---

1. (83), (5), (1), (12)
2. (15), (18)
3. (12)
4. (83), (1), (9), (12), (15), (13)
5. (49), (2), (55), (81), (83), (1)
6. (1), (7)
7. (15)

El qədrini el bilər. (12)
El qızına inanmaq olmaz. (1)
El malı ilə dost qazanılmaz. (1)
El malına göz dikən gözsüz qalar[1]. (1)
El malına göz tikmə, özün qazan, özün ye. (1)
El malını qoru, öz malın kimi. (1)
El namusu elə düşər. (1)
El nəğməsini eldən öyrənərlər. (1)
El od başına yığışar. (1)
El ögünə kim keçər. (75)
El öz dəlisini yaxşı tanıyar. (1)
El sağolunu qazandın, el sağolundan özünü gözlə. (1)
El salan körpüdən hamı keçər. (1)
El saxlayanın elcə ağlı olur, ev saxlayanın evcə. (49)
El sevəni aləm sevər. (1)
El səsi haqq səsi. (1)
El söyən ağac quruyar. (18)
El sözü ata nəsihətidi. (1)
El sözü atalar sözüdü. (1)
El sözü yalan olmaz. (12)
El sərrafdı, eyüyi-yatluyı bilür. (75)
El şamı daim yanar. (1)
El tikəni aləm yıxa bilməz. (12)
El üçün ağlayan gözdən olur[2]. (49)
El üfürdü, sel köpürdü. (6)
El üzünə namaz qılanın arxası Allahdı[3]. (46)
El və mərifət gözəlliyi həmişəlikdir. (70)
El yağı, aləm yağı, sən də mana bir yağı. (9)
El yandıran şamı söndürməh olmaz. (15)
El yanında eşşək quyruğu kəsmə, kimi deyər qısadı, kimi deyər uzun. (33)

1. (15)
2. (2), (83), (28), (9)
3. (83)

El yaxşılığın unutma. (1)
El yelimlü bitiyi oqur. (75)
El yiyəsiz qalanda donuz təpəyə çıqar. (83)
El yolunda baş qoyan qazanar el hörmətin. (52a)
El yumruğunu görməyən öz yumruğunu batman sayar. (1)
Elə arxalanan igidin arxası yerə dəyməz. (52a)
Elə kor deyənin özü kor olar. (7)
EIə verən ögeydi, özün dutsan yey idi. (49)
Elçi çox olar, qismət bir. (1)
Elçisi gülüm olanın başına külüm olar[1]. (2)
Elçiyə ölüm yoxdur[2]. (49)
Eldə söz çoq olur[3]. (75)
Eldə olan bəydə olmaz. (1)
Eldən ayrı düşəni tülkü də yeyər. (12)
Eldən dərs alan Loğman olar. (1)
Eldən qalan min il qalır. (49)
Eldən üzülən, əldən üzülər. (9)
Elə ağız əyənin ağzı əyilər. (9)
Elə arxalanan igid başa çatar. (1)
Elə bağın belə də meyvəsi olar. (9)
Elə bir daşdı ki, götürən də peşmandı, götürməyən də. (1)
Elə çömçənin belə də qazanı olar. (1)
Elə çobanın belə də sürüsü olar. (1)
Elə dalaş ki, barışanda utanmayasan[4]. (76)
Elə danış yalanı, dingildəsin qalanı. (55)
Elə don geymək gərək ki, yamağı evdə tapıla. (1)
Elə edən sənə də edər. (1)
Elə eləmə körpü qala çayın o tayında. (54)
Elə gedən əliboş qayıtmaz. (1)
Elə hürəyən itdən belə zınqıldayan tula olar. (1)

---

1. (2), (83)
2. (83)
3. (1)
4. (13)

Elə iş tut ki, içindən qənbərqulu çıxmasın. (1)
Elə iş tut, nə şiş yansın, nə kabab. (55)
Elə iynə sancmaq istəyən əvvəlcə özünə sancar. (1)
Elə keçəl deyil ki, qartmağı yerə tökülə. (1)
Elə ki, gəlir yaylağın axırı, açılır çoxunun paxırı. (16)
Elə köç, köçünə dana, buzoy qatışmasın. (5)
Elə qoşulan eldən ayrılmaz. (12)
Elə tikə götür ki, uda biləsən. (12)
Elə uyan övrətin boşar. (75)
Elə ye ki, həmişə yeyəsən[1]. (2)
Elə yerdə oturma ki, altına su çıxa[2]. (2)
Elə yerdən yıxılım, heç yerim ağrımasın. (14)
Elə zılxın belə qazanı olar. (1)
Eli kəndüna usatma. (75)
Eli ürküt, arxasına bax[3]. (46)
Eli olmayanın dili də olmaz. (1)
Elimə qalsın, gülümə qalmasın. (1)
Elin gücü, tufan gücü. (1)
Elin gücü, yelin gücü, selin gücü güclü olar. (1)
Elin mərdi olsa, dərdi olmaz. (9)
Elin sözü əvvəl-axır düz olar. (1)
Elin sözünə baxan ac qalmaz. (1)
Elin tutduğu quşun quyruğu qısa olar. (1)
Elindən ayrılanı qurd yeyər. (14)
Ellər bizə, biz ellərə[4]. (46)
Ellər köçür, dağlar qalur[5]. (49)
Ellər min yaşar, bəklər yüz. (50)
Ellərə gülən canım, indi olmuşam el gülüncü[6]. (14)

---

1. (28), (1), (83)
2. (49), (83), (1), (12)
3. (83), (9), (14)
4. (83), (1)
5. (1)
6. (1)

Elm oxumaq, ignə ilə gor qazımaq. (83)
Elm adama zinətdi. (1)
Elm ağlın çırağıdı[1]. (1)
Elm bir xəzinədi, nə qədər sərf edərsən, o qədər artar. (1)
Elm xərclənər, artar, sərvət xərclənər, azalar. (12)
Elm insana böyük mirasdı. (1)
Elm mərtəbəsi uca olar. (1)
Elm öyrən, beşikdən qəbrəcən. (1)
Elm para ilə yox, çalışmaq ilə ələ gələr. (1)
Elm var ki, rəndədi, adamı hamarlayır. (1)
Elm var-dövlətdən yaxşıdı. (47)
Elm zəhmət ilə ələ gələr. (1)
Elmdə qısa yol yoxdur. (12)
Elmin kökləri ajı, meyvəsi şirindi. (9)
Elminə əməl etməyən alim əlində çıraq gəzdirən kora bənzər. (1)
Elmli adam cürətli olar. (1)
Elmli qazıya şahat (şahid) lazım degül[2]. (83)
Elmsiz adam ruhsuz cəsəd. (1)
Elmsiz adam, gərəksiz ağacdır. (12)
Elnən gələn qara gün toy-bayramdı[3]. (9)
Elsiz adam gücsüz olar. (12)
Elti əyrisi, balta əyrisi[4]. (9)
Elün ağzı yıprağ olur. (75)
Elün ağzında mərçimək ıslanmaz. (75)
Elün dilini kimsə tutmaz. (75)
Enişdən yoquş yegdir. (75)
Enişin yoxuşu, yoxuşun da enişi var. (1)
Enişsiz adam Məşhədə də yetər. (75)
Enəmədigin yerə çıqma. (75)

---

1. (12)
2. (1)
3. (12)
4. (12)

Erkəgi hal aparmaz. (83)
Erkək aslan şirdi, dişi aslan şir deyil?! (1)
Erkək atın çulu cırıq gərəkdir[1]. (55)
Erkək eşşək yanında qodux gəzdirməz. (17)
Erkək eşşəyin altında bala axtarır. (1)
Erkək itin qarnı tox gərək[2]. (2)
Erkək quş ötər, dişi quş yuva tikər. (1)
Erkək quşun yuvası olmaz. (1)
Erkək sığır mələməz. (49)
Erkək qoyun qurban içündür. (75)
Ertə köçərin deyü, kösəgin ocağa yaqma. (75)
Ertəki tənədən bu günki tutmac yegdir. (75)
Ertəykən əkən erkən də biçər. (1)
Ertəyə qalan bəladan qorqma. (75)
Eş eşi göstərər. (75)
Eşəgə ayıtmışlar: «Nə qatı yürürsən?!» Ayıtmış: «Bizləngicim bilür». (75)
Eşəgə səməri yük olmaz. (75)
Eşəgə güci yetməyən səmərin dögər[3]. (75)
Eşəgə gücün yetməsə, qoduğun urma. (75)
Eşəgi issi dedügi yerə bağla[4]. (75)
Eşəgin su keçməsi kəm olur. (75)
Eşəginə gücün yetməsə, palanın dögmə. (75)
Eşəgün dişini, kosanın yaşını, Allahın işini yenə Allahdan qeyri kimsə bilməz. (75)
Eşəgün ölümi itə dügündür. (75)
Eşəgün yoğ isə, bəg evinə var. (75)
Eşəgün yoğ isə, güyəgün də mi yoq? (75)
Eşək eşəkdən qalıcaq ya quyrığı, ya qulağı[5]. (75)

---

1. (1), (14)
2. (83), (1)
3. (2), (54)
4. (18)
5. (49)

Eşək mənzil alur, səgirdən yolda qalur. (75)

Eşək quyruğı kibi olma, yəni art, əksilmə, taş, - dögülmə. (75)

Eşək yorğasına at yetməz. (75)

Eşəkə atlas çul ursan, yenə eşəkdir[1]. (75)

Eşəki dügünə oqumuşlar: «Ya su yoqdur, ya odun yoq» demiş. (75)

Eşələnən toyux ac qalmaz. (18)

Eşəyin bərk bağla, andan Tanrıya ısmarla. (75)

Eşidən ağır kərək. (50)

Eşidən görənə xəbər verir. (1)

Eşidib parağı qırxarlar, amma bilmir necə qırxarlar[2]. (44)

Eşidif bay olmadı. (9)

Eşik qar, içəri dar[3]. (1)

Eşitdiyini unut, gördüyünü demə. (1)

Eşitmək görməyə bənzəməz. (1)

Eşitmək istəmədiyini özgəsinə eşitdirmə. (1)

Eşq ağladar, dərd göynədər. (1)

Eşq bir dəryadı, üzmək bilməyən bu dəryada boğular. (1)

Eşq börk içinə turusa zınq-zınq edər. (75)

Eşq iradət ilədir. (75)

Eşqin tərs-avandı olmaz[4]. (83)

Eşşəg eşşəgi borc qaşur[5]. (49)

Eşşəg getdi quyruq gətürə, qulağun üstə qoydu. (49)

Eşşəg ölümi yoncada. (49)

Eşşəg peyğam ilən su içməz. (49)

Eşşəgə anğırtı xoş gələr[6]. (83)

Eşşəgi işə tutmaz, odundan, sudan eylər. (49)

---

1. (18)
2. (83), (16)
3. (9)
4. (1)
5. (5), (12), (16)
6. (5)

Eşşəgi minmək gərək, ata yetincə[1]. (49)
Eşşəgi ya oduna istərlər, ya suya[2]. (49)
Eşşəgi yavaş görən, quşa minər. (49)
Eşşəgin anğırmağından isə qoduğun işqırmağı. (83)
Eşşəgin ayağı suda olsa fısdılıq nəyə lazımdır. (83)
Eşşəgin bozdu, dəgirmana getmir[3]. (83)
Eşşəgin böyügü tövlədədi[4]. (83)
Eşşəgin doğduğu qabağınca. (55)
Eşşəgin qayım bağla, Tanrıya tapşur. (49)
Eşşəgüm ölmə, yonca bitüncə[5]. (49)
Eşşək ağnıyar küllükdə, nəinki tünnükdə. (9)
Eşşək aldım, qatır çıxdı[6]. (83)
Eşşək anqıranda itin başı ağrıyar[7]. (54)
Eşşək anqırar, tayını tapar[8]. (2)
Eşşək at yerini verməz, ciyər ət yerini. (1)
Eşşək at oldu, ancaq eşşək kimi qaldı. (48)
Eşşək belə o eşşəkdi, amma çulun dəğişib. (83)
Eşşək bir yerdə palçığa batsa, ölsə də o yerə girməz. (83)
Eşşək böyük, palanı kiçik. (1)
Eşşək dağda ölər, sorağı evə gələr. (1)
Eşşək də ot yeyir, ancaq onun əti yeyilmir. (45)
Eşşək eşşəyə uzunqulaq deyər. (1)
Eşşək işlər, at yeyər[9]. (50)
Eşşək kölgəsinə təpik atar. (55)
Eşşək küsüb arpadan, arpanın xəbəri yoxdu. (18)
Eşşək Məkkəyə getməklə hacı olmaz. (1)

---

1. (2), (5), (1), (9), (16), (13)
2. (83), (1)
3. (2), (1)
4. (2)
5. (38)
6. (1)
7. (1)
8. (9), (13)
9. (2), (54), (83)

Eşşək nə bilir xurmanın dadını? (1)
Eşşək nə bilir, zəfəran nədi? [1] (5)
Eşşək nədi, döşək nədi? (1)
Eşşək olasan tükün bu narınlıqda. (83)
Eşşək palçığa batanda iyəsindən güclü olmaz[2]. (49)
Eşşək palçığa batandan sonra yol göstərən çox olar. (1)
Eşşək palçığa bir dəfə batar[3]. (83)
Eşşək qaçıb, palanı qalıb. (1)
Eşşək satan at ala bilmiyitdi. (11)
Eşşək sürən, qəbahətinə qatlanur. (50)
Eşşək şıllaq atmasa, qoduğu atmaz. (18)
Eşşək tapılanda yük vuran çox olar. (1)
Eşşək tozda ağnıyanda həvəsi gələr. (83)
Eşşək uçannan sonra yol qayirmə. (10)
Eşşək üçün yasın oxunmaz. (55)
Eşşək üstdə qəmə bağlayana gülərlər. (1)
Eşşək üstdən düşən olmuşdu, heç bunun kimisi olmamışdı. (1)
Eşşək yük altında anqırmaz. (1)
Eşşəkdən adınalıq umur[4]. (83)
Eşşəkdən düşüb ata minərlər, yoxsa atdan düşüb eşşəyə minməzlər. (83)
Eşşəklər arpa yeyir, at həsrətdir samana. (1)
Eşşəyə dedilər, mərfətini göstər, yıxıldı külə, ağnadı[5]. (5)
Eşşəyə küllük, bülbülə güllük. (9)
Eşşəyə min, bəxtin açılsın. (1)
Eşşəyə minib, eşşəyi axtarır. (1)
Eşşəyə qantarğa taxmağnan at olmaz. (11)
Eşşəyə qızıl çatmaqla qiyməti olmaz. (39a)

---

1. (83), (1)
2. (1), (9)
3. (1), (14)
4. (18)
5. (83), (1), (9), (16), (14), (11)

Eşşəyə qızıldan noxta taxsan, yenə adı eşşəkdi. (1)
Eşşək qulağından aqsamaz. (75)
Eşşəyi minir, palanı tərifliyir. (9)
Eşşəyi öldürüb nalı üçün axtarır[1]. (81)
Eşşəyi yoldan çıxaran bir dəstə otdu. (9)
Eşşəyin adı eşşəkdi, axmaq isə eşşəkdən pisdi. (47)
Eşşəyin arpası artıq düşəndə, yiyəsinə şıllaq atar. (1)
Eşşəyin anqırmayanı olmaz. (1)
Eşşəyin başı xonçada durmaz. (18)
Eşşəyin başını yumaqla yağış yağmaz. (12)
Eşşəyin buynuzu çıxmayıb, deyir ki, hələ qoduğam[2]. (14)
Eşşəyin buynuzu olsa, bir öküz sağ qalmaz. (77)
Eşşəyin canı yananda atdan bərk qaçar. (1)
Eşşəyin çulunu çöyür diyəndə qarnının altına çöyürür. (18)
Eşşəyin dilinnən atı söyür. (9)
Eşşəyin duası müstəcəb olsaydı, çarvadar yolda ölərdi. (1)
Eşşəyin hesabı başqa, eşşəkçininki başqa. (1)
Eşşəyin qulağını kəsməklə köhlən olmaz. (1)
Eşşəyin qulağını uzadan uzadıb. (1)
Eşşəyin quyruğu kimi, nə uzanır, nə qısalır. (1)
Eşşəyin üzünü yuyanda külək qopar. (1)
Eşşəyin yaşından, çərçinin daşından baş çıxartmaq olmaz. (1)
Eşşəyin yükü ağır olanda yiyəsi aparar. (1)
Eşşəyin yükü yüngül olanda oynamağı gələr. (1)
Etdükin etmək ərlik degildir. (75)
Ev alan bir il kasıb olar. (83)
Ev alma, qonşı al[3]. (75)
Ev ayranı acı olur[4]. (49)
Ev bizə qaldı desənə, halva bişibdi yesənə. (1)

---

1. (83)
2. (49), (11)
3. (60), (23), (1)
4. (1)

Ev bizim, sirr bizim[1]. (83)
Ev böyüksüz olmasın. (1)
Ev buzovundan öküz olmaz[2]. (3)
Ev dağılsa tiri qalar, kalafa uçsa yeri. (1)
Ev hesabıylan bazar hesabı dürüst gəlməz. (49)
Ev kisədən qalıb. (83)
Ev qalıb əyriyə, həm yeyə, həm səyriyə. (12)
Ev nəkatsuz olanda, burun suyu gözə damar. (49)
Ev oğrusun dutmaq olmaz[3]. (49)
Ev oğrusuna it hürməz. (37)
Ev sahibi müsafirin xidmətkarıdır. (60)
Ev satan bir il dövlətdi olar. (83)
Ev satan qırx gün pullu olar, ev alan qırx gün pulsuz[4]. (55)
Ev sözsüz, gor əzabsız olmaz. (49)
Ev susuz olmaz, meşə çaqqalsız. (83)
Ev susuz, kor qəzəbsiz olmaz. (83)
Ev şamdan işıqlanar, baş – bilikdən. (1)
Ev təzə, divar təzə, ələyim, səni hardan asım? (1)
Ev tikən balta çöldə qalar. (1)
Ev yıxanın evi yıxılar[5]. (2)
Evdə bir qazan asarlar. (26a)
Evdə danışılan çöldə keçməz. (12)
Evdə dingnən dəyirmandan başqa hər şey olar. (14)
Evdə div olur, çöldə divanə. (1)
Evdə gəlinim olsun, bayırda yeznəm[6]. (46)
Evdə iki arvad olanda ev süpürülməmiş qalar[7]. (83)
Evdə qonaq olanda uşağa acıqlanmazlar. (1)
Evdə oturanda kiçik qız, ərə gedəndə böyük qız. (5)

---

1. (1)
2. (49), (2), (83), (1), (13)
3. (83)
4. (14)
5. (83)
6. (83), (1)
7. (5)

Evdə öz başını bağlaya bilmir, toyda gəlin başı bağlayır. (1)
Evdə pulu yoqdu, zır-zırı çoqdu. (83)
Evdəki hesab bayıra çıxmaz. (1)
Evdəki hesab bazarda rast gəlməz. (75)
Evdən çıxan qız cıqqadan baxar. (49)
Evdən qabaq qonşu axtar. (1)
Evdən yaxşı yurd yoxdur. (12)
Evdən yola düşən bərkəyə düşməz. (13)
Evdir, aşağısı da olar, yuxarısı da. (1)
Evə girirəm - qarı döyür, bayıra çıxıram – Tanrı. (1)
Evi abad edən arvaddır. (1)
Evi abad al, bağı – bərbad. (1)
Evi tikilmiş al, övrəti bilmiş[1]. (44)
Evi yoxdu, qapı axtarır. (1)
Evin bərəkəti ocağındadır. (1)
Evin bəzəyi ocaqdır. (1)
Evin böyüyü buyruqda, kiçiyi – qulluqda. (1)
Evin dar olsa da, ürəyin geniş olsun. (12)
Evin iti ol, kiçiyi olma. (1)
Evin kiçiyi olunca, donuz otaranın böyüyü olasan. (14)
Evin kiçiyi oluncax, qapının iti ol. (13)
Evin minarə dibində olsa da, qulağın səs eşitməz. (1)
Evin ürəyi ocaq, elin ürəyi bulaq. (12)
Evin yaraşığı gəlindir. (1)
Evin yaraşığı uşaqdır, süfrənin yaraşığı qonaq. (1)
Evin zibilini küçəyə atmazlar. (1)
Evin olsun avardan, od düşsün gilavardan. (1)
Evin xoruzu, bayırın toyuğu. (5)
Evində yatır, yuxuda Həzrəti Süleymanı görür. (1)
Evində yox urvalıq, könlündən keçər darğalıq[2]. (83)
Evində yoxdu gecəlik, gönlündən keçər xocalıq. (2)

---

1. (83)
2. (5)

Evinə varduğun vaqt adam ol, evünə gəldüki vaqtın yenə sən adam ol. (75)

Evini yaxşı saxla qəfil qonaqdan, canını yaxşı saxla qəfil əcəldən. (2)

Evlənən evdar olar. (1)

Evlənən göz-qulaqda olar. (1)

Evlənənlə ev tikənin köməkçisi çox olar. (1)

Evlənmək su içmək deyil. (1)

Evlər damı isti sacdır, davam gətirən oturar. (1)

Evlərə gedən qızın başı qovğalı olar. (1)

Evlərə gedən qızın dili altında qənd gərək. (1)

Evlərə gedən qızın qulaqları kar, dili lal, gözləri kor gərək. (1)

Evli evdə yatar, qərib harda axşamlar?! (1)

Evli evində gərək. (1)

Evlənən bir kərrə ox deyir, ölüncəyədək ah deyir. (75)

Evsizə qız verməzlər. (1)

Evün canı adamdır. (75)

Evün çoğ isə, çalu tıq. (75)

Evün malın dərc eylə, ona görə borc eylə. (49)

Ey cüt yatan bəxtəvər, demirsən bir tək də var. (1)

Ey əmmamə, gör qayış nə çəkir? (1)

Ey fələk, batmanı eylədin çərək, hamıya verdin qovun, qarpız, mənə verdin yelpənək. (1)

Ey özü-özünü bəyənmiş, qoy səni el bəyənsin. (1)

Ey zər, Allah deyilsən, amma eyiblərə pərdə çəkənsən. (1)

Eyib eləmə eybəcərin eybinə, eyib edirsən öz eybinə eybi yox. (1)

Eyib kim eylər, eybəcər, soğanı kim yeyər, dərdəcər. (83)

Eyib tapır özgəyə, bir baxmayır güzgüyə. (1)

Eyibini bilən eyib eyləməz. (1)

Eyiblü tavar issində yaraşır. (75)

Eyibsiz bir Allah. (75)

Eyibsiz dost axtaran dostsuz qalar[1]. (44)
Eyibsiz gözəl olmaz, ay üzündə də ləkə var. (1)
Eyibsiz yar istəyən yarsız qalur[2]. (75)
Eyiligi eylə, dənizə buraq: balıq bilməzsə, xalıq bilür. (75)
Eyiligə eyilik ödünc kibidir. (75)
Eyilik də edərsən kəndünə, yaramazlıq da edərsən kəndünə. (75)
Eyilik etdügün kişinin şərrindən qorq. (75)
Eyilügə eyilik olsa, öküzə bıçaq urulmazdı. (75)
Eylə dirilmək gərək ki, ölmək ola. (49)
Eylə eylə ki, şorçu bir də bazara gəlsin[3]. (83)
Eylə müsəlman oldun ki, atanın xaçını da tanımadın. (83)
Eyləyən qurtulur, deyən qurtulmaz. (49)
Eyliyi başa qaxmazdar. (9)
Eyməçiyə doşab göstərməzlər. (1)
Eyni ağaşdan sovrux kürəyi də olar, peyin kürəyi də. (18)
Eyü alan aldanmaz, yaramaz alan aldanur. (75)
Eyü bəhasından qalmaz. (75)
Eyü çəri evün ögünə uğramasun. (75)
Eyü dostuna yurd göstərmə. (75)
Eyü dostunla yavuz olma. (75)
Eyü görməgin muzdı çoq olur. (75)
Eyü kəndüyi göstərər; öldür ki, doğru söyləyə. (75)
Eyüdən yaramazlıq gəlməz. (75)
Eyülərlə otur, eyü olasan. (75)
Eyüməklə eyümək məlamət göstərər, qıl təhəmmül kim, səlamət göstərər. (75)

## Ə

Əbanın qədri yağmurda bəlli olur. (33)
Əbləhdə söz əylənməz. (49)

---

1. (2), (28), (83), (1)
2. (1), (15)
3. (1), (14)

Əbləh çəkişgən olur. (75)
Əbləh kahal olmaz. (75)
Əbləh odu, dünya üçün qəm yeyər: Tanrı bilir – Kim qazana, kim yeyə[1]. (5)
Əbləh odu, öz çörəgin yiyə, özgənin sözünü danışa. (83)
Əbləh saqalın sığar. (75)
Əbləhə cavab - susmaqdı. (12)
Əcəl Allahdan gələr. (83)
Əcəl atını minif köndələn tutur. (12)
Əcəl gəldi, baş ağrısı bədənə. (7)
Əcəl gəldi dabana, baş ağrısı bahana[2]. (14)
Əcəl gələndə soruşmaz ki, oğul-uşağın neçədi. (1)
Əcəl gəlməsə, xəta yeriməz[3]. (2)
Əcəl qapını döyməmiş gəlir. (12)
Əcəl öz vaxtında gələr. (1)
Əcəl vədə irməyincə kimsə ölməz. (3)
Əcəl verməz macal. (1)
Əcəldən başqa hər şeyə çarə tapılar. (1)
Əcələ çarə yoxdu. (1)
Əcələ ilə yol gedən yolda qalar. (1)
Əcələ şeytandandır. (75)
Əcəli çatan ilan yola çıxar. (36)
Əcəli yetişməmişdi, təbibi qarşu gəldi. (39)
Əcəllə əcəlli söyləşər. (75)
Əcəlsizə ölüm yoq. (75)
Əcinnədən qoşun, rəiyyətdən şah olmaz. (39)
Ədavət evə də kasıflıx gətirər. (12)
Ədəb bazarda satılmaz. (1)
Ədəbi ədəbsizdən öyrən[4]. (2)

---

1. (49), (77), (83), (1), (18)
2. (1)
3. (83)
4. (83), (1)

Əgər varındı, aləm yarındı, əgər yoxundu, elnən aran yoxundu[1]. (83)

Əgin geydügin istəmə, boğaz yedügin istə. (49)

Əgri ağaç yönəligin qomaz. (75)

Əgri düşmən dost olmaz. (49)

Əgri düzü bəgənməz, bu da bizi bəgənməz[2]. (83)

Əgri əglənüb doğrı danışmaq gərək. (49)

Əgri otur, toğru söylə[3]. (75)

Əgri-bügri yol toğrulur. (75)

Əgrini tox gördüm, doğrunu ac. (83)

Əgrini tox görmədim, doğrunu ac[4]. (83)

Əgrinün meydanı olmaz[5]. (49)

Əhd-peymanı sındırmazlar. (1)

Əhkam zamanla dəyişər. (1)

Əkdim, biçdim sarımsaq, xeyrini gördü qurumsaq[6]. (83)

Əkdiyini biçərsən. (55)

Əkən biçər, qonan köçər. (75)

Əkən biçər, əkməyən nə biçər[7]?! (1)

Əkən bilməz, biçən bilər. (1)

Əkən bir, biçən bir, yeyən on bir. (1)

Əkən yolu görməz. (1)

Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş[8]. (5)

Əkənlə əkməyən xırmanda ağlar. (1)

Əkiblər yemişik, əkərik yeyərlər[9]. (83)

Əkin əkmiyən biçin vaxtı ağlıyar. (12)

Əkinçi cütündə gərək. (1)

---

1. (1)
2. (1)
3. (28), (29), (31), (2), (64), (54), (83), (1)
4. (28), (29)
5. (1)
6. (1)
7. (49)
8. (28), (31), (1)
9. (1)

Əkinçi ol, kəsici olma. (9)

Əkinçi yağmur istər, yolçu quraqlıq, hər ikisinin muradı yerinə yetər. (1)

Əkinçinin döşəyi qara torpaq, yastığı qara daş. (1)

Əkinçinin qarnını yarmışlar, qırx dənə bahar çıxmış. (1)

Əkində, biçində olmayanın süfrədə üzü olmaz. (1)

Əkinini göyikən yeyən xırman vaxtı ac qalar[1]. (2)

Əkinini sütül yiyən xırman vaxtı sülənər. (26)

Əkmə bitməyən yerdə, can ver itməyən yerdə. (1)

Əkməgi əkməgçiyə, bir əkməg də üstəlik. (49)

Əkməgin yalquz yeyən, tayın dişilən tutar. (49)

Əkməsən, biçməzsən[2]. (1)

Əkməyən başaq dürər. (49)

Əkməyən saqqalın yolar. (1)

Əqil başda ikən evin abadan. (83)

Əqil əqildən ötgündü. (83)

Əqilli bizi tapmaz, dəli bacadan baxar[3]. (83)

Əqilli bizi tapmaz, dəli zəncirin qırar, gələr. (83)

Əqilli qəm yeyər, dəli qamçı[4]. (83)

Əqillimiz Xıdır ağa, barmağını saldı bardağa. (83)

Əqlini eşşək əqlinə verərsən, çəkər arpa zəmisinə. (83)

Əqrəb etməz əqrabaya əqraba etdiyini. (1)

Əqrəbin xasiyyəti sancmaqdır. (1)

Əl ağıza yaman sağnamaz. (49)

Əl beş barmaqdı, hərəsi bir boyda[5]. (46)

Əl çomaqlının keçisidi. (1)

Əl də sizin, ətək də sizin. (1)

Əl əldən hökm edər[6]. (46)

---

1. (83)
2. (9)
3. (1)
4. (83), (1)
5. (83), (1)
6. (1)

Əl əldən qalmaz, dil dildən. (1)
Əl əldən ötgündü![1] (2)
Əl əldən üstündü, ərşə kimi[2]. (1)
Əl ələ ovarsan, səs çıxar. (49)
Əl ələ verməklə dağı dağ üstə qoymaq olar. (1)
Əl əli tanur[3]. (49)
Əl əli yuyur, iki əl yüzi yuyur[4]. (75)
Əl gözdən uzaq, dil başdan. (1)
Əl ilə çözüləcəki dişinə bıraqma[5]. (75)
Əl ilə qoduğun əlli yil durur[6]. (75)
Əl ilən hər nə versən, o sənə gəlür. (49)
Əl ilən qabaq açuq gərək. (49)
Əl işdər, baş buyurar[7]. (46)
Əl kəsənin əlini kəsərlər. (1)
Əl quzusunnan sürüyə qoç olmaz. (17)
Əl mənim, ətək sənin, ya əlimi kəs, ya ətəyini. (1)
Əl mərd olar, göz namərd. (1)
Əl mizan, göz tərəzi. (1)
Əl oğurruyur, ürək əsir. (12)
Əl pəhləvanı olma, dil pəhlivanı ol. (9)
Əl tutanın əlini tutarlar. (1)
Əl tutar, göz görər. (1)
Əl tutmaq Əlidən qalıb. (2)
Əl uzadılan yerə ayaq uzadılmaz. (1)
Əl uzanan yerə dil uzanmaz. (1)
Əl üstə çox əllər var[8]. (2)
Əl ver, əppək yeyək. (9)

---

1. (81), (83), (1)
2. (49), (75)
3. (1)
4. (49), (44), (2), (37), (28), (31), (64), (76), (5), (83)
5. (49)
6. (1)
7. (83), (1)
8. (81), (83), (1)

Əl verir, ətək vermir. (1)
Əl yananda ağıza təpəllər[1]. (46)
Əl yarası tez gedər, kök salar dil yarası. (1)
Əldəki ağac çoturru olar. (18)
Əldəki sərçə göydə üçan göyərçincə yeydür[2]. (14)
Əldən ələ gedəndə pulu sayarlar. (1)
Əldən gedən ələ gəlməz. (1)
Əldən qalan əlli gün qalur[3]. (50)
Əldən tutan az olar, ayaqdan çəkən çox. (1)
Əldəqayrılma göz günortayacan görər. (18)
Ələ batan tikandı, dərilən çiçək utandı. (9)
Ələ də yetir, əlləzə də. (14)
Ələ gələn qazancdı. (1)
Ələgi ələnib, xəlbiri göydən asılıb[4]. (2)
Ələk var, hələk var. (2)
Ələkçinin qıl verəni yanında olar. (1)
Ələkçinin qıl verəni zurnaçının züy tutanıdı. (9)
Ələkçinin şirçisi, ayğır atın qamçısı. (1)
Əl-ələ, könül həqqə. (49)
Ələməyə unu yoxdu, pişirməyə xamırı. (9)
Ələnməyən buğdadan əppək çıxmaz. (9)
Ələnmiş ələnib, ələnməmişi göydə qalıb. (1)
Ələyi ələyib qıçından asıb. (1)
Əli armuda yetməz, atası xeyrinə bağışlar. (49)
Əli boş, çörəyi duzsuz. (1)
Əli boş olanın üzü də qara olur[5].(2)
Əli böyüklər ətəyindədi. (1)
Əli daş altındadı. (12)
Əli ələ vurarsan səs çıqar, yalquz əldən səs çıxmaz[1]. (83)

---

1. (1), (12)
2. (1)
3. (76), (54), (83)
4. (83), (1)
5. (81), (83), (1), (12)

Əli gətirər, dili itirər. (12)
Əli xəmirliyə çörək borc verməzlər. (1)
Əli ilə xəmir ovar, gözü ilə dana qovar. (1)
Əli ilə qoyan hamıdan yaxşı bilər[2]. (1)
Əli ilə verdiyini ayağı ilə ala bilmir. (1)
Əli iynəli gündə təzə, əli iynəsiz ildə təzə. (10)
Əli kösöylə sən, otu yanan mən. (12)
Əli papağını Vəli başına qoyur, Vəli papağını Əli başına[3]. (83)
Əli təzənə tutmur, adını aşıq qoyub. (40)
Əli yanan ağzına təpər[4]. (2)
Əliaçıqdan bir çıxar, simicdən beş. (84)
Əlibağlını hər kəs döyər. (1)
Əlidən də olduq, Vəlidən də[5]. (55)
Əliəyrinin əlini kəsərlər. (1)
Əlifin hecası var, gündüzün gecəsi. (15)
Əlim çatmayan armud babamın xeyratına. (1)
Əlim xəmir, qarnım ac, ağzıma dad, qarnıma vay[6]. (14)
Əlimdən tutan yox, dalımdan itələyən çox. (1)
Əlimə nə verdin ki, başıma calayım. (1)
Əlimi qaldırsam əllisi, başımı qaldırsam tellisi. (1)
Əlimlə verdiyim qavağıma gəldi. (12)
Əlin aşda ikən gözün işdə olsun. (75)
Əlin əldə, qəlbin eldə. (9)
Əlin harama qatırsan, barı boluna qat. (83)
Əlin ilə qoymadığın şeyə dəymə. (1)
Əlin rəhmi könlün rəhmidi. (1)
Əlin vurub dizinə, indi gəlib özünə[7]. (83)

---

1. (50), (1)
2. (12)
3. (1)
4. (83), (18)
5. (83), (1), (12)
6. (83)
7. (1)

Əlin yağlısa çək öz başına, başın yağlısa sox ocağa[1]. (83)
Əlində ələk, belində lələk, belə gəlinə belə də gərək. (1)
Əlində qılış tutuf, kölgəsinnən qorxur. (9)
Əlindən gəlsə adamı bir qaşıq su ilə boğar[2]. (7)
Əlindəki düyünü dişinə salma[3]. (2)
Əlindəki sərçəni qoyub, turac dalınca qaçma. (39a)
Əlindən iş gəlməyən uzun danışar. (1)
Əlinə bel ver, altınnan yel ver. (9)
Əlinə gələni ələkdən keçirir. (1)
Əlinə zurna veriblər. (1)
Əlini qoy ürəyinin başına, sonra danış. (1)
Əlinin xəmiri ilə erkək işinə qarışır[4]. (83)
Əlinnən iş tutur, dişinnən quş. (9)
Əlisi dəli, Vəlisi dəli, qırılmışın hamısı dəli[5]. (55)
Əlivə gələn qazancdı. (46)
Əlləşən güləşənə verir, güləşən əlləşənə. (83)
Əlli əlli üstə, bu da bir əlli üstə[6]! (2)
Əlli arxın suyunu gündə bir arxa calayır. (1)
Əlli iki atanın oğluna söz qandırmaq olmaz. (1)
Əlli ildi yolçuluq eyləyirəm, cumə axşamını mənə göstərir. (83)
Əlli illik eşşəginə dəgirmanın yolun ögrədir[7]. (83)
Əlli yaşında dana, indi düşüb meydana. (1)
Əllisini xırmanda, qırxını ormanda qoyuf. (9)
Əmanət mal qüvvətli olur. (83)
Əmanətə binən tez enər[8]. (75)
Əmanətə xəyanət olmaz[1]. (31)

1. (1), (49)
2. (1)
3. (55), (9)
4. (1)
5. (83), (1), (12)
6. (1)
7. (1), (16)
8. (1)

Əmək çəkənin əməyi itik, dizi sıyrıq qalmaz. (40)
Əmək xoşbəxtliyin açarıdır. (1)
Əmək insana şöhrət gətirir. (12)
Əmək insanın ziynətidir. (1)
Əmək itməz. (50)
Əmək qızıl bilərzikdir. (1)
Əmək sərvət mənbəyidir. (1)
Əməkçi ol, dilənçi olma. (9)
Əməklə becərilən acı sarımsax baldan şirindi. (12)
Əməl azmasa fəda yeriməz[2]. (44)
Əməl pəhlivanı yıxar. (9)
Əməli olmayan alimin sözləri təsirsiz qalar. (1)
Əməli-saleh olan çatar mətləbə. (1)
Əməlsiz sözdə təsir olmaz. (1)
Əmə-səmə inanma, əmsiz-səmsiz də qalma. (75)
Əməyə hörmət et ki, hörmətini artırsın. (1)
Əməyi sevənin qapısını xoşbaxlıx döyər. (44)
Əmi qızıynan əmi oğlunun kəbini göydə kəsilib[3]. (46)
Əmiyə qaldı, dəmiyə qaldı[4]. (9)
Əmiyə qalan gəmirə qalar, dayıya qalan dəmirə. (19)
Əmzik quzu iki ana əmər. (12)
Ən ağır daşı su damcı-damcı damıb dələr. (15)
Ən ağır iş özünü dərk etməkdi, ən asan iş başqasına öyüd verməkdi. (12)
Ən böyük dərd nadanlıqdır. (1)
Ən böyük dövlət dostluqdur. (1)
Ən böyük hədiyyə kitabdır. (1)
Ən böyük igidlik sözü üzə deməkdir. (1)
Ən böyük məhəbbət düzlükdədir. (1)
Ən böyük nemət can sağlığıdır. (1)

---

1. (29), (60), (83), (1)
2. (83), (1)
3. (83), (1), (12)
4. (10), (14)

Ən böyük sərvət ağıldır[1]. (1)
Ən çətin övlad nəvədir. (15)
Ən xoşbəxt dəqiqələr, yaxşılıq etdiyin dəqiqələrdir. (1)
Ən yaxşı yol düzlükdü. (12)
Ənənəyə sədaqət – gələcəyə inamdır. (1)
Ənliklə sürmə çox olanda qaşa da yaxarlar, gözə də. (1)
Ənsədən atan topuğa dəyər. (49)
Əppək əldə edilməyincə su içərlər. (1)
Əppəyi qatıqla uyuşduran heç vaxt ac qalmaz. (1)
Ər axar çaydı, arvad isə bənd. (1)
Ər altında at olur, qeyrət altında ar. (1)
Ər-arvad ipəkdi, araya girən köpək. (39a)
Ər-arvad savaşdı, əbləhlər inandı[2]. (5)
Ər arvadın tacıdı. (1)
Ər atanı el atar, ər tutanı el dutar. (83)
Ər başından bun gedər, tağ başından tuman gedər. (75)
Ər başından dövlət, dağ başından duman əskik olmasın. (1)
Ər bir, Allah bir. (9)
Ər bunalmayıncaq mərd irməz. (75)
Ər comərdin, ər nakəsin ozan bilir. (3)
Ər çöldə olsun, çörəyi evdə. (1)
Ər çörəyi ər boğazında qalmaz. (1)
Ər çörəyi ər yanında borc olar. (1)
Ər də düşər qərə bəxtə, övrət də düşər qərə bəxtə. (75)
Ər divarın çölü, arvad divarın içidi. (12)
Ər dövləti ər öldürər. (75)
Ər eldəndi, oğul beldəndi, aralıqda qardaş tapılmaz[3]. (83)
Ər evi, ədəb evi[4]. (49)
Ər evi, gor evi. (14)
Ər ər gərək, övrət övrət gərək. (75)

1. (12)
2. (83)
3. (46), (1), (6), (15)
4. (1)

Ər ərdən qaçıçaq qaravaş olur. (75)
Ər əri sınar, münafiq Tanrıyı sınar. (75)
Ər əri yoldaşlıqda, ev evi qonşılıqda. (49)
Ər əsən gərək, əyər atı həlak edər. (75)
Ər gedər, adı qalur. (75)
Ər gəlsə, qıyu artar, övrət gəlsə, qu artar. (75)
Ər gərək, tez gərək[1]. (46)
Ər ğeyrətçün toğar. (75)
Ər hümməti ilə, quş qanadı ilə. (1)
Ər xəstəlığı yoxsullıq nişanıdır. (75)
Ər ipək sapdı, düyün düşsə açılmaz. (1)
Ər kişinin ər oğlu olar. (1)
Ər qanda otursa, sədr oldur. (75)
Ər qara gərək, at Turı gərək. (75)
Ər qararı, könli qararmaz. (75)
Ər qazancin «ayır» deməz. (50)
Ər qazancın ayru yeməz[2]. (49)
Ər qərədən qorqar, övrət aqdan qorqar. (75)
Ər qocalar, könül qocalmaz. (1)
Ər qoqusı eldən-elə gedər. (75)
Ər ləğəbilə anılur. (75)
Ər malına qıymayınca adı çıxmaz. (3)
Ər od olar, arvad su. (1)
Ər olan evdə oturmaz. (75)
Ər olan meydanda gərək. (49)
Ər olan rizqin taşdan cıqarur. (75)
Ər olan sonun gozlər. (49)
Ər oldur ki, bun dəmində buluna. (75)
Ər oldur ki, yüzi suyın satun ala. (75)
Ər ondur, toquzı tondur. (75)
Ər oyunı üçədəkdir. (75)
Ər öldü, arvad boşdu[1]. (46)

---

1. (83)
2. (1)

Ər ölmuş, qanun ölməmiş. (75)
Ər tavarı açıq gərək. (75)
Ər tayıya bənzər, it ataya bənzər. (75)
Ər tutanı el tutar, ər atanı el atar. (9)
Ər ünlü, övrət udsuz olur. (75)
Ər yapışından bəllüdür. (75)
Ər yumuşağın ər yer, ağac yumuşağın qurd yer. (75)
Ərdəbil bir şəhərdi, hər kəsin öz vəkili[2]. (83)
Ərdəbil bir şəhərdi, hər kəsən üzü gülü. (83)
Ərdəmin başı dildir. (3)
Ərdəmsizdən uğur uzaq olar. (3)
Ərə bir hünər yetər. (75)
Ərə gedən gora gedər. (14)
Ərə gedən qızların dili altında qənd gərək. (1)
Ərə gedəndə böyük qız, işə gedəndə kiçik qız[3]. (43)
Ərə getdi tayım-tuşum, yerdə qaldı yassar başım[4]. (5)
Ərə getmək asandı, ər donu tikmək çətin. (1)
Ərə güvənmə, çöpə söykənmə. (33)
Ərə yetmək var, basub ötmək yoxdur. (49)

Ərəb igirmibeşlik tapdı didi: «nə olaydı, bir dava kağızı tapaydım». (83)

Ərəb öldü, qan düşdü. (1)
Ərəb toyunca yeyir, türk ölüncə yeyir. (75)
Ərənlər nəqdə dua qılmışlar. (75)

Ərənlər tağa yürü demiş, yürüməmiş, kəndüləri yürümüş. (75)

Ərənlərə eşik ara iş məlumdur. (75)
Ərənlərin ardı, ögi bir olur. (75)

Ərənlərin xərcinə, övrətlərin əməlinə, oğlancıqların sevinməsinə bayram demişlər. (75)

---

1. (83)
2. (1)
3. (83), (1), (6)
4. (2), (83), (1), (17)

Ərgənün qazancını it yer, yaqasını bit yer. (75)
Əri döymüş arvadı it də tutdu bir yandan[1]. (55)
Əri qoz qırır, arvadı fındıqça sındırır[2]. (46)
Ərik ağacından saz olmaz, gəl zurnadan xəbər al[3]. (1)
Ərik bağın yoxdu ki, biləsən bildirçin necə quşdu[4]. (1)
Ərim üçün yer saldım, gəldi qaleyçi yatdı. (46)
Ərin başı, arvadın daşı. (14)
Ərin eşi yenməz, qaşı yenür. (75)
Ərin ölümü sədaqətli qadın üçün ölümdü. (12)
Ərin öyüni ət ilə ətməkdir. (75)
Ərindiyindən ermənıyə dayı deyir[5]. (2)
Ərinə görə bağla başını, qazanına görə qaynat aşını[6]. (1)
Ərinən arvadın savaşı yay gününün yağışı[7]. (54)
Ərinən arvadın torpağı bir yerdən götürülüb[8]. (46)
Əringənə bulud yük olur. (3)
Ərişin ələyib, arğacın keçif. (12)
Əriştə bəylər aşı, dutmac onun yoldaşı. (83)
Ərki var, gücdən artuqdur. (49)
Ərlə övrət arasına girənin hörmətsizligi qalur. (75)
Ərli ağlar, ərsiz ağlar[9]. (75)
Ərli övrət, bəkli övrət. (75)
Ərligin sına, andan övrət al. (75)
Ərlik on, toquzi hiylədir. (75)
Ərlilərin əri var, dulların da Allahı. (1)
Ərsiz arvad - yurdsuz at. (14)
Ərsiz arvad yüyənsiz at kimidi. (83)

1. (46), (83)
2. (83), (1)
3. (83)
4. (6)
5. (83)
6. (15)
7. (1)
8. (83), (9), (13), (14)
9. (46), (55), (18)

Ərsiz övrət – cilovsuz at[1]. (44)
Ərsiz qız sükansız gəmidi. (12)
Ərsiz qız solan çiçəyə bənzər. (12)
Ərsizi Tanrı döyər. (9)
Ərün əri yağmurdur. (75)
Ərün var, gücdən artuqdur. (50)
Əsassız söz sahibinə üzüqaralıq gətirər. (1)
Əsəbləşən tez qocalar. (14)
Əsən külək geri qayıtmaz. (1)
Əsər Gəncə, bitər yonca, əsər Tiflis, edər müflis. (9)
Əsil azmaz, yağ yiyiməz[2]. (49)
Əsil bilən bilmədiyini biləndi. (15)
Əsil diyər "anlamadım", bedəsil diyər "görmədim". (10)
Əsil dost yaman günün dostudu. (1)
Əsil dostu qılış da ayırammaz. (9)
Əsil ilə daş daşı, bədəsil ilə yemə aşı[3]. (83)
Əsil olan əsilligini itirməz[4]. (83)
Əsilsizi dalına alsan da birdi, yerə qoysan da. (10)
Əsilzadə sözünə ağa olar. (1)
Əsilzadə sözünün üstə çıxar. (83)
Əsir geyən əsirgənçi olur. (75)
Əski düşmən dost olmaz, əski dost düşman olmaz. (75)
Əski düşmən dost olmaz, it dərisi post olmaz. (39)
Əski düşmənin dost olmağı fürsət tapmaq üçündü. (1)

---

1. (2), (46), (1), (14)
2. (46)
3. (1), (46)
4. (1)

Əski eyib İsanındır. (75)
Əski geyməyincə yeni bulunmaz. (75)
Əski pambıq bez olmaz, gəlin gəlib qız olmaz[1]. (1)
Əski tonun biti, öksüz oğlanın dili acı olur. (3)
Əski un çuvalın çırpdıqca toz qopar. (1)
Əski varlı – varlı, yeni varlı - çorlı. (75)
Əsli almaq çətindür, saxlamaq asan, bədəsli almaq asandur, saxlamaq çətin[2]. (49)
Əsli bədov olana qamçı nədi, dəh nədi[3]. (2)
Əsli qıc olanı yüz eyləyəsən, düzəlməz. (83)
Əsli olan dırnağında bildirər. (1)
Əsli olmasaydı, Kərəm dağlara düşməzdi. (1)
Əsli nədi, müamiləsi nə ola? (1)
Əsli pak olandan zərər gəlməz. (1)
Əslində şah idi, indi quşbaz olub. (1)
Əslində olan nəslində olar. (13)
Əslində olmayanı astarlamaq olmaz. (1)
Əslün itürən haramzadədür[4]. (49)
Əsnəmək əsnəmək gətürür, vay tövlədəki halına[5]. (49)
Əsnəmək, nibətlik gətirir. (83)
Əşədi nədi, əlac nə. (18)
Ət dərisinə bükülər. (18)
Ət əmanətdi, sümük daimi. (1)
Ət əppək üstə gərək. (83)
Ət gətirməyib, küftə istəyir. (1)
Ət ilə dırnağı aralamaq olmaz[6]. (2)
Ət ilə dırnaq arasına girən yeyüp çıqar[7]. (75)
Ət iylənəndə duz səpərlər, duz iylənəndə nə səpirlər? (1)

---

1. (3), (49)
2. (2), (83), (1), (15)
3. (83)
4. (83), (1), (12)
5. (81), (83), (1), (14)
6. (83)
7. (49), (46), (55), (1), (13)

Ət iylənəndə itə toydu. (1)
Ət qonaqdı, sümük möhkəm olsun. (1)
Ət nə qədər arığ isə, ətmək üstündə yaraşır[1]. (75)
Ət nə qədər arığ olsa, gönü üstə doğranar. (11)
Ət olmayan yerdə balıq da ətdi. (1)
Ət ye, at min, ət quc! (49)
Ət yedin, su işdin, gətirdin, bal yedin, su işdin, itirdin. (9)
Ət yeməz, suyuna çörək doğrar. (1)
Ət yeyən quşun əti yeyilməz. (1)
Ət yeyən quşun dimdikü əkri olur[2]. (50)
Ət yiyən quş dimdigindən bəlli olar. (83)
Ətdən olan divara etibar yoqdu[3]. (83)
Ətə baxma, dona baxma, içindəki cana bax[4]! (28)
Ətə pul verməz, küftənin böyüyünə yapışar[5]. (2)
Ətə vuran zərbə sümüyü də ağrıdar. (36)
Ətəgini qoz ilə doldurub başına qapaz vurur[6]. (83)
Ətək öpməklə ağız murdar olmaz. (1)
Ətəyin böyüklər əlindədi. (1)
Əti az alginən, küftəni yekə salginən. (14)
Əti ətdən kəsərlər, uman yerdən küsərlər[7]. (1)
Əti sənin, sümüyü mənim. (1)
Əti yeməz, suyuna əppək doğruyur[8]. (5)
Əti yeyilmir, gönü geyilmir-insan insana yağı kəsilib. (8)
Əti yiyip doymayan, sümüyünə daraşar. (18)
Ətim, çörəyim yeyildi, qonağım küsülü getdi. (1)
Ətin batmanı on manat, gördüm atın sağrısında. (83)
Ətin çiyi ət gətirər, xəmirin çiyi dərd[1]. (1)

---

1. (49)
2. (2), (64), (1), (9), (13), (14)
3. (1)
4. (29), (31), (83), (1)
5. (81), (83), (5), (45), (1)
6. (1)
7. (14)
8. (83)

Ətin üstü açıqdı, pişiyin qanacağına nə gəldi?! (1)
Ətin yaxşısını qəssab axıra saxlar. (1)
Ətinə qıysa da, sümüyünə qıymaz. (18)
Ətini yeyər, sümüyünə göz dikər. (1)
Ətirli gülün iyi uzaqdan gələr. (1)
Ətməgi yalnız yeyən dəngini dişilə tutar. (75)
Ətməgin balla yey. (75)
Ətmək kəsmək hünərdir. (75)
Əvvəl arxı tullan, sonra bərəkallah de[2]. (83)
Əvvəl danış, sonra gül. (1)
Əvvəl danışan bilsə ki, sonra danışan nə deyəcək – heç danışmaz. (1)
Əvvəl dəvəni ovsarla, sonra Haqqa ismarla[3]. (83)
Əvvəl düşün, sonra danış[4]. (1)
Əvvəl hesab, andan qəssab[5]. (75)
Əvvəl qaçan canını qurtarar. (1)
Əvvəl qapını döy, sonra qonaq ol. (1)
Əvvəl məscidin içi, sonra eşiyi[6]. (2)
Əvvəl təam, andan kəlam[7]. (75)
Əvvəl tikə, o da sümüklü. (1)
Əvvəl udan qoz udar, daldan udan toz udar. (11)
Əvvəl ustad, andan iş. (49)
Əvvəl yoldaş, andan yol[8]. (49)
Əvvəl yumruğunu düyünlə, sonra qanmaza söz çatdır. (1)
Əvvəl zəhmət çəkən sonra rahat olur. (60)
Əvvəldə axır gözləmək gərək. (49)
Əvvəldə demədi, sonda da söyləmədi. (47)

---

1. (9), (13), (14), (15)
2. (5), (1)
3. (5)
4. (12)
5. (1)
6. (83), (5), (1), (12), (14), (13)
7. (28), (29), (1)
8. (83), (37), (1)

Əvvəli meydan olanın axırı zindan olar[1]. (1)

Əvvəlində düşünməyən sonra peşiman olur. (60)

Əvvəlki baxdım qızıldı taxdım. Sonrakı baxdım qaraldı taxdım[2]. (1)

Əxi ocağı küllü olur. (75)

Əyər altında at ölür, ğeyrət altında ər ölür. (75)

Əyər varsa hünəruv, hara getsən var yaruv. (18)

Əygənci aqınçı satun almışdır. (75)

Əyilən boyunu qılınc kəsməz. (1)

Əyilən boyunu vurmazlar[3]. (1)

Əyin yamaq götürər, qarın yamaq götürməz. (1)

Əynim parıldayır, qarnım guruldayır[4]. (1)

Əynində donu yox, başına papaq axtarır. (1)

Əyninə şalvar tapmır, arvad gəzir. (9)

Əyri ağac yayımdı, hər gördüyüm dayımdı. (1)

Əyri ağac ojaqda düzələr. (12)

Əyri bacadan tüstü düz çıxar. (1)

Əyri dil baş yarar. (12)

Əyri xanım ərdədi, göy balığı yerdədi. (18)

Əyri ox mənzil almaz. (1)

Əyri ol əyriynən, düz ol düzüynən. (12)

Əyrinin heç yerdə yeri olmaz. (1)

Əyriyə əyri gərək, doğruya doğru. (1)

Əzabsız yerin adı olmaz. (1)

Əzəldən var idi hüsni-cəmali, indi olub dəli Bayramalı[5]. (83)

Əzəldən yazılmasa, qul başına qəza gəlməz. (3)

Əzgildən badam, nadannan adam. (35a)

Əziyyətsiz iş olmaz. (1)

Əziz ölür, boğaz ölmür. (14)

---

1. (15)
2. (83), (9)
3. (83)
4. (14)
5. (5)

Əzizim əzizdi, canım onnan əzizdi[1]. (46)
Əzizinə quyu qazma, özün düşərsən. (45)
Əzizlik kərəm iləndür. (49)
Əzrail gələndə soruşmaz oğul-uşağın neçədi. (83)
Əzrailə nə deyim, onu da buyuran var. (9)
Əzrayıla bir can borcum var. (1)
Əzrayılın adı bədnam. (1)
Əzrayılın danasını qurd yeməz. (1)

**F**

Fağırı kim olsa, döyər. (12)
Fağırlara verənə Allah verər. (28)
Fağırların düzgünü, bez geyinər qış günü. (10)
Fal yox, yumurta da yox. (1)
Fala inanma, falsız da qalma[2]. (49)
Falçı fala baxar, canını oda yaxar. (12)
Falçı falçıya fənd vurmaz. (83)
Farsın qəzəli, türkün məsəli. (1)
Fayda, zərər hesab başında məlum olar. (1)
Fayda zərərin qardaşıdı. (1)
Faydasız qohumdan faydalı yad yaxşıdı. (1)
Fələgin bir tabaq çörəgi var, hər zaman birinün başuna qoyar. (49)
Fələk birin qurar, birini dağıdar. (1)
Fələk güclü, mən gücsüz. (1)
Fələk heç kimin rəyincə getrməz. (49)
Fələk kiminə təbil çaldırır, kiminə dümbələk. (33)
Fələk yıxmıyanı kələk yıxar. (13)
Fələyə şıllax atır. (18)
Fələyin beylə-beylə işləri çox, aslanı ac gəzdirər, tülkünü tox. (1)
Fələyin çərxi dönər. (1)

---

1. (1), (14)
2. (2), (83)

Fələyin gözü kordu. (13)
Fələyin işinə bax, ayıya qaval çaldırır. (1)
Fələyin qaydasıdı, dağı dağ üstündən çəkər. (1)
Fələyin zoruna heç nə kar etməz. (1)
Felilə qövlü bir deyil. (83)
Fənada bəqa olmaz. (49)
Fənd edən yolda qalar. (28)
Fənd fəndi kəsər, Allah hər ikisini[1]. (2)
Fənd nə bilir, fel ilə fənddə nə var?! (1)
Fəqir əlinə baxırsa, sən cibinə bax. (1)
Fəqirə axmaq deyərlər, kasıba gic. (1)
Fəqirə həmdəm gəlməz, gələr baş ağrısı[2]. (83)
Fəqirin cibi boş, qəlbi doludu. (1)
Fəqirin təsəllisi – ölümdü. (1)
Fərə çıxdığı qabığı tanıyır. (1)
Fərəsətdi oğulun papağı şiş durar. (14)
Fərhad başına gəldügün külüng yaxşı bilür. (49)
Fərhad ölüb, gülüngünün səsi gəlür. (49)
Fərib yemək nadanluqdur. (49)
Fərli cücə yumurtadan cikkildər[3]. (14)
Fərsiz oğul atasının gözünü çıxartdı ki, adına Koroğlu desinlər, amma kor kişinin oğlu dedilər. (6)
Fərsiz oğuldan bir qara daş əfzəldi[4]. (83)
Fərsiz övlad altıncı barmaq kimidi, kəsərsən ağrıdar, saxlarsan – eybəcər göstərər. (1)
Fərz gəldi, sünnəti basdı. (49)
Fərz sünnətdən illərüdür. (75)
Fərzəndsüz adam – şaxsuz budaqdır. (49)
Fəsada övrət tez quşanır ərdən. (75)
Fındıxnan qoz, ixtilatı poz. (18)

---

1. (83), (50)
2. (1)
3. (11)
4. (1)

Fışdırıxnan donquz darıdan çıxmaz, gülləynən vurasan gərək. (18)

Fikir adamı sərgərdan eylər. (49)

Fikirsiz söz danışma. (61)

Fikri nəysə, zikri də odu. (1)

Filin gücü xortumundadı, dəvənin gücü dizində[1]. (1)

Fitnəlikdə malını saxla, salamatlıqda başını[2]. (2)

Fitnəyə çuğlaşan peşimanluq çəkər. (49)

Fürsət əldə ikən yaxşılıq eylə. (1)

Fürsət fot eyləməz, aqil məgər nadan ola[3]. (83)

Fürsət ğənimətdür. (49)

Fürsət hər zaman ələ düşməz. (1)

Fürsət qanadlı bir quşdu, əldən qaçırtmaq olmaz. (1)

Fürsəti fövt eyləyüb qoma bugüni yarına, dünyanın yoqdur vəfası, baqma şimdi varına. (75)

Füzulu atdılar cəhənnəmə, dedi: - Odunu yaşdı! (1)

**G**

Gah kəndir qurşax olursan, gah tirmə qurşax. (10)

Gah qovurt, gah qovurğa, keçirtdik ömrü belə. (1)

Gah qul olar satılar, gah çıxar taxta kosa. (1)

Gah nala döyür, gah mıxa. (33)

Gamış ola, qamış ola, otdanmamış ola?! (39)

Gamuşın balasının quyruğu ağ olar. (5)

Gavur çörəyi yiyən qovur için qılınc çalar. (83)

Gec danışsan, kəlamın gül olar. (1)

Gec-gec görünən tez sevilər. (83)

Gec gəldi, tez öyrəndi. (1)

Gec gələn qonaq olduğundan yeyər. (1)

Gec gələr, ağır gələr. (83)

Gec gəlib tez ögrənib. (83)

---

1. (9)
2. (81), (83)
3. (1)

Gec kəsir, karlı kəsir, məzlumun ahı səni[1]! (1)

Gec olar, güc olar[2]. (13)

Gecə dərd artıran olur. (14)

Gecə gedər, gündüz gələr. (1)

Gecə gəl, vecə gəl. (1)

Gecə qara, cücə qara. (1)

Gecə pişik samura oxşar. (1)

Gecə sol yatan səhər sağ oyanar. (1)

Gecənin ərzəsini Həzrəti Süleyman oxumayıb. (1)

Gecənin xeyrindən gündüzün şəri yaxşıdı. (1)

Gecəsi qarğanın bayquşa gündür, eşəgin ölüsü itə dügündür. (75)

Gecişməyən yerdən qan çıxardır. (5)

Gedəcəh qonağın getməsi yaxşıdı, dirilmiyəcəh xəstənin ölməsi. (35)

Gedən gedər, oturan yol gözlər. (1)

Gedən gələr, soruşan qalar. (83)

Gedəni saxlamaq olmaz. (1)

Gedənin dalısınca danışmazdar. (12)

Gedər aclıq, gələr bolluq, bizə qalar kömbə yanığı. (1)

Gedər qılınc yarası, getməz dil yarası. (83)

Gedirdim moruğa, düşdüm qoruğa. (9)

Gejdən durmağnan döyül, Allah vermağnandır. (11)

Gejdənnən çıxan gün gööme, bulut altınnan çıxan gün oğluma dəysin. (18)

Gejə bir, oğru bir. (9)

Gejə otağa, gündüz yatağa[3]. (9)

Gejənin işi ələ tüşməz. (9)

Gen qaz, dərin qaz, özün düşərsən[4]. (5)

Gendən baxana döyüş asan gələr. (31)

---

1. (83), (5), (10)
2. (83), (5), (10)
3. (12)
4. (83)

Geniş ev könülaçan olar. (9)
Gerçək sözün ardı tükənməz. (54)
Get çanağım, gəl çanağım, ortalıqda sın çanağım. (1)
Get naxıra, gəl axıra. (14)
Get özünə dost qazan, düşmən ocaq başındadı[1]. (2)
Getdim adına, tüpürdüm dadına. (1)
Getdim dərdli yanına, o məndən narın ağladı. (1)
Getdim gəzdim İranı, cənnət gördüm Turanı[2]. (83)
Getdim savab edəm, günaha batdım. (1)
Getdin gördün gözü qıpıq, sən də ol gözü qıpıq. (77)
Getmə gözümdən, gedərəm özümdən. (1)
Getməsin o yaman ki, yerinə yaxşı gələr[3]. (2)
Getmişdi kabab iyinə, gördü ki, eşşək dağlayırlar. (1)
Geyinərsən adın olar, yeyərsən dadın olar, yeməzsən yadın olar. (9)
Gədadan ağa, küllükdən təpə olmaz[4]. (2)
Gədadan borc alma, ya toyda istəyər, ya bayramda, ya da yasda[5]. (1)
Gədə qızdan gəlin olmaz, küldən təpəcik[6]. (55)
Gədədən bəy olmaz, dəlidən darğa. (14)
Gəl bir addım, gəlim iki addım . (1)
Gəl deməsi yaxşıdı, get deməsi pis. (1)
Gəldi hayım, getdi payım. (9)
Gəldi xəzri, ver nəzri, gəldi gilavar, onda nə var? (1)
Gəldi qaşın qayırsın, vurdu gözün çıxartdı. (1)
Gəldi-gedərdi, saqlamaq olmaz, ağzı güdəkdi, bağlamaq olmaz[7]. (83)
Gəldünsə gerü var, hər nəsnənin yeri var. (75)

---

1. (1)
2. (9), (17)
3. (83), (1)
4. (83), (1), (18)
5. (83)
6. (37)
7. (1)

Gələcək nəsnə gəlür çarü naçar, gərək könlüni sən gen dut, gərək tar. (75)

Gələcəki gəlmiş bil. (75)

Gələcəyə umudla baxallar. (12)

Gələcəyi varsa, görəcəyi də var. (1)

Gələn gedənə rəhmət oxudar. (1)

Gələn gətirər, gedən aparar. (18)

Gələn qismətini yeyər. (1)

Gələndə el götürər, yel götürər, sel götürər. (55)

Gələnə «gəlmə» deməzlər. (1)

Gələnə «xoş gəldin», gedənə «yaxşı yol» deyərlər. (1)

Gələnə yoldaş olur, gedənə qardaş. (46)

Gələnin qisməti özündən qabaq gələr. (1)

Gələr qatıq yeyərik, gəlməz süd. (83)

Gəlhagəlin gəthagedi də var. (18)

Gəlimli-gedimli dünya! Son ucu ölümlü dünya! (3)

Gəlin anasına həm ağlar, həm də «gedirəm» deyər. (1)

Gəlin aş bişirdi, gözündə yaş bişirdi, səhərdən axşamacan o da sıyık bişirdi[1]. (46)

Gəlin atda, qisməti yadda. (1)

Gəlin atlandı, gör kimə düşdü[2]? (46)

Gəlin ayağa durdu, başdı başını saxlasın[3]. (9)

Gəlin bəzənənəcən toy sovuşdu[4]. (6)

Gəlin bir il aya, bir il göyə, bir il də öyə baxar. (18)

Gəlin deyəndə quçmağım gəlir, axça diyəndə qaçmağım[5]. (46)

Gəlin evin yaraşığıdı, cəlalıdı, bəzəyidi. (1)

Gəlin gəlin deyil, gəldiyi yer gəlindi[6]. (1)

---

1. (83)
2. (83), (9)
3. (14)
4. (14)
5. (83)
6. (13), (14), (10)

Gəlin getdik, ün gətirdik, umu-küsülü gün gətirdik. (9)
Gəlin qızıl taxd gətirip, çıxıp üstündə oturup. (18)
Gəlin məndən yaşınır, səsi dağlar aşırır. (8)
Gəlin ocağa gələr[1]. (46)
Gəlin sındıran qavın səsi çıxmaz[2]. (9)
Gəlin var bir ildə, gəlin var üç ildə, gəlin var ömründə gəlin olmaz. (18)
Gəlin var gələr gətirir, gəlin var gedər itirər. (1)
Gəlin var ər ucaldar, gəlin var ər qocaldar. (23)
Gəlindən qız olmaz. (1)
Gəlinə çömçüyü yalama deyir, özü qaymağı yeyir. (9)
Gəlini evdən qoruyarsan, oğru olar. (12)
Gəlini pərdədə, uşağı bələkdə. (83)
Gəlinin dili yox, qaynanənin imanı[3]. (2)
Gəlinin yelkəni əyilib. (1)
Gəlirinə bax, xərc eylə. (1)
Gəlmək qonaqdan, yola salmaq ev yiyəsindən[4]. (1)
Gəlməkdən əvvəl gedəcəyini də düşün. (1)
Gəlmisən ayran içməyə, gəlməmisən ara açmağa[5]. (33)
Gəlmişdi bay olmağa, yan quyruğunu da qırxdılar, day oldu. (14)
Gəmidə oturuf gəmiçiynən savaşır[6]. (5)
Gəmik yeyən ət yer, ət yeyən qarnın toyurar. (75)
Gəmini qurtaran pişgahdı. (1)
Gəminin assı tapuğadəkdir, ziyanı boğazadəkdir. (75)
Gəmisini batıran çarığını axtarmaz. (1)
Gəmiyə gilə ilə verər, mövt ilə alur. (75)
Gəmiyə girməyən kişi Tanrı qorqusın bilməz. (75)

---

1. (83), (1), (14)
2. (12)
3. (83), (1)
4. (83)
5. (83)
6. (83), (1)

Gənc alan aldanmaz. (75)
Gənc viranədə olur. (49)
Gəncədən kişmiş gəlir, əppəyi pişmiş gəlir. (9)
Gənclik gözəllik deməkdi. (1)
Gənclik ömrün baharıdı. (1)
Gənclik sultanlıqdı. (12)
Gənclik təzə paltar kimi gözəldi. (12)
Gənclikdə qocalığa ömür saxla. (1)
Gəncliyin yükünü gənclikdə çəkərlər. (1)
Gəncüni qarıya dəgişmə. (75)
Gənə udan sınaxlı olar. (9)
Gənəşəkli don gen olar[1]. (1)
Gənşdiyində daş daşı, qocalıxda ye aşı. (15)
Gər dilər çanağından, yürügün də nəsibi vardır. (75)
Gərək gərəklə iş keçməz. (1)
Gərək saatla yox, vicdanla işləyəsən. (1)
Gərəkli malı gərəksiz gündə al[2]. (55)
Gərəkməzi saxla, bir gün gərək olar. (1)
Gərəyi əkiblər, bitməyib. (1)
Gərəyi əkiblər, quluncan göyərib. (1)
Gətirəndə: - El gətirər, yel gətirər, sel gətirər. Aparanda: - El aparar, yel aparar, sel aparar[3](1)
Gəvəzə adam ağzının sözünü bilməz. (12)
Gəzəcəgin min yerdə olsa, yatacağın bir yerdə olsun. (83)
Gəzəgən gəzə bilməz, gəzməsə dözə bilməz[4]. (83)
Gəzəgən iki evi viran edər. (75)
Gəzən ayağa daş dəgər[5]. (44)
Gəzən əv olsaydı, oturanın bağrı çatdardı. (22)
Gəzənin qarnı şişər, oturanın başı. (83)

---

1. (9)
2. (1)
3. (83)
4. (5), (10)
5. (2), (28), (29), (37), (5), (55), (83), (1), (82), (9), (12), (14)

Gəzənin ya başına, ya baldırına. (83)
Gəzərdə qoyun əti, onun da boyun əti. (1)
Gəzərsən xırda-xırda, bir gün uğrarsan qurda[1]. (9)
Gic doğrudan bic oğru yaxşıdı. (83)
Gic toyuq yumurta aparar. (1)
Gicin buynuzu olmaz. (1)
Gicişmiyən yerdən qan çıxardır. (83)
Gidənə yoldaş, gələnə qardaş[2]. (83)
Gidər bostan qarası, qalar üzün qarası. Gidər bağlar qorası, qalar üzlər qarası[3]. (83)
Gilas bağın olsa, bilərsən sığırçın necə quşdur[4]. (55)
Gilavar, get, xəzri gəl. (1)
Girdiyin yer qaranlıqsa, sən də gözünü yum. (1)
Girərin çoğ eşitdügün yerə səpədi küçük görür. (75)
Girmə tülkü kölgəsinə, qoy yesin aslan səni[5]. (28)
Gizli düşmən ilan kimidi, sürünə-sürünə səssiz gələr. (1)
Gomuşnan gəzən dananı qurt yiyər. (83)
Gopla plov bişsə, dəniz qədər yağı məndə. (15)
Gorda yatan gecəsi evdə yatmaq olmaz[6]. (49)
Goru var ki, kəfəni də olsun[7]?! (1)
Göç gələndə dad bacadan çıxar. (83)
Gödək adam gündə üç dəfə padşahlıq iddiasında olar. (1)
Gödək adam filman olar. (40)
Gödək adamın könlünnən üç dəfə koxalıq keçər. (12)
Gödək fitnəkar olar. (55)
Gög gurlamayınca yağmur yağmaz. (75)
Gögdən nə yağdı ki, yer anı yutmadı[8]. (75)

---

1. (13)
2. (5)
3. (2) (1)
4. (1)
5. (45)
6. (2), (83)
7. (83)
8. (83)

Gögə dirək yoq. (75)
Gökdən dört kitab endi, beşinci kötək. (75)
Göl yerində su əksik olmaz. (75)
Gölməçəyə su gəlincə qurbağanın gözləri bərələr[1]. (1)
Gölü qamış bəzəyər. (12)
Gönü suya vermə, verdin heyfslənmə. (1)
Gönünü dabbaqxanada tanıyırlar. (1)
Gör sənün içün, dilə bənüm içün al. (75)
Gördü hənək, görmədi gerçək[2]. (1)
Gördügünü qoyub, görəcəgə getmə[3]. (2)
Gördün ərin ər deyil, tərkin qılmaq ar deyil. (1)
Gördün ki, qəssab keçi verir, sən də keçi ver. (75)
Gördün ki, zaman sana uymadı, sən zəmanəyə uy. (75)
Gördün kim, buçuq mövt, bəla gəlür; sən bir mövt olup, qarşu var. (75)
Gördün yemək, daha nə demək[4]. (44)
Gördüyün küllü kömbədi, bazara çıxıb qoğal olub. (1)
Gördüyündən göz kirayəsi istəyir. (1)
Gördüyünlə nə işin var, sən bildiyindən danış. (1)
Gördüyünü qoyub, eşitdiyinə inanma. (1)
Görək lələ şələni basacaq, yoxsa şələ lələni. (14)
Görən atla, görən adama yaxın düşmə. (83)
Görən gözə yasaq olmaz. (1)
Görən gözün haqqı var, görən görüb götürər. (1)
Görər gözə kül anma[5]. (75)
Görklü zadı görkməz gündə al. (54)
Görmədiyin yükün altına girmə. (1)
Görmədügə küpə tan gəlür. (75)
Görməklə toymaq olmaz. (75)

---

1. (14)
2. (83)
3. (83)
4. (38), (1), (83)
5. (9)

Görməmiş görsə, ağıldan çıxar. (1)
Görməmişə at versən, çapıb-çapıb öldürər. (10)
Görməmişin oğlu oldu, vurdu gözün çıxartdı. (1)
Görməyə gözü var, eşitməyə qulağı. (1)
Görülmüş işdən gül iyi gəlir. (1)
Görünən dağ uzaq deyil. (1)
Görünən dağa bələdçi lazım deyil[1]. (48)
Götür əzizini, gətir əzizimi. (18)
Götürən peşiman, götürməyən də. (1)
Götürümdən aqsaq yegdir. (75)
Gövdəsi gözəli ortaya-döşəgə sor, surəti gözəli Rumdan Şama sor. (75)
Göy ağlamıyınca, yer gülməz. (15)
Göy muncuq kimdədi, mənim gözüm ondadı[2]. (46)
Göy üzünə bulud gəldi, vay sarının halına. (14)
Göyçək arvadlı ilə, yorğa atlıya yoldaş olma. (1)
Göydə axtarırdım, yerdə əlimə düşüb. (1)
Göydə duğu, yerdədü. (83)
Göydən bəla ensə, vay təkin halına. (12)
Göydən nə yağsa, yer onu qəbul edər[3]. (55)
Göydən yağmasa, yerdə bitməz. (1)
Göyə tüpürmə, üzünə tökülər. (1)
Göyənlər xardan xurma yedilər, qoruqdan səbr ilə xalva yedilər. (75)
Göynən gedən, eldən olar. (18)
Göyülsüz verilən aş, ya qarın ağrıdar, ya baş. (26)
Göz baxmaq üçündü, cibə qoymaq üçün yox. (18)
Göz bir pəncərədi, könülə baxar. (1)
Göz çıxaran tikanı məhv edəllər. (12)
Göz gördü, könül sevdi, daha mənim nə günahım[4]. (1)

---

1. (75), (83), (1)
2. (83), (1)
3. (1), (18), (13), (14)
4. (1)

Göz gördüyün danmaz. (1)
Göz gördüyündən qorxar. (1)
Göz gördüyünə inanar. (1)
Göz gördüyünü sevər. (12)
Göz görmək üçündür[1]. (12)
Göz görməsə, könül sevməz[2]. (2)
Göz görməyincə könül qatlanur. (75)
Göz görməz, könül bulanmaz[3]. (81)
Göz görməz, üz utanmaz[4]. (44)
Göz görür, könül istir. (49)
Göz gözə alışanda ayrılıq çətin olar. (1)
Göz istədiyi gözələ baxar. (1)
Göz qənimini tanır[5]. (2)
Göz qulaqdan irəlidi. (1)
Göz nə qədər uzağı görsə, ağıl qədər görə bilməz. (12)
Göz sevəni könül də sevər. (26a)
Göz tərazudur. (75)
Göz ürəyin elçisidi. (9)
Göz var görmək için, əqil var bilmək için. (83)
Göz yumulub açılınca fürsət əldən gedər. (1)
Gözdə olan, könüldə olar[6]. (5)
Gözün qaralığı naxışdı, üzün qaralığı qaxıncdı. (40)
Gözdən iraq olan könüldən də uzaq olar. Haqqı ki doğru sözdü, məhəbbət nəzərdə olar[7]. (83)
Gözə görünməyən oğru xandan, bəydən doğru. (55)
Gözəl – göz üçün, ağıllı – könül üçün[8]. (1)
Gözəl ağa gözəl idi, vurdu çiçək çıxartdı[1]. (2)

---

1. (9)
2. (28), (29), (66), (83)
3. (83)
4. (2), (83), (5), (1)
5. (81), (83), (46), (1)
6. (1)
7. (44), (48), (2), (5), (1)
8. (83)

Gözəl arvad şıltaq olar. (1)
Gözəl eyibsiz olmaz[2]. (5)
Gözəl görmək savabdı[3]. (83)
Gözəl görünər, çirkin bürünər. (1)
Gözəl gözəl deyil, könül sevən gözəldi. (1)
Gözəl güzgüdən doymaz. (18)
Gözəl kamallı gərək. (1)
Gözəl nazlu gərək. (75)
Gözəl övrətdən çirkin ər yegdir. (75)
Gözəl sevməgə tövbə olmaz. (75)
Gözəl söz dövlətdən artıqdır. (68)
Gözəldə etibar olmaz. (1)
Gözəldən göz ağrısı, çirkindən dərdi-bəla. (1)
Gözələ baxmağın könül səfası var. (1)
Gözələ baxmaq göz qaydasıdı. (1)
Gözələ göz dəyər, qəlbə söz. (1)
Gözəli səhər yuxudan duran vaxt seçmək olar. (18)
Gözəlin dərdinə az inanan olar. (9)
Gözəllər çox iş görərlər, soyarlar adamı, dərviş edərlər. (1)
Gözəllik axşama kimi, yaxşılıq ölənə kimi. (12)
Gözəllik baş tacıdı, hər adama qismət olmaz. (1)
Gözəllik ondu, doqquzu dondu. (1)
Gözəllik toy-düyündə gərək olur. (12)
Gözəllik vardan olar, olmasa hardan olar?! (1)
Gözəllikdə tayı yox, adamlıxda payı yox. (10)
Gözəlün müştərisi çoğ olur. (75)
Gözi ancaq topraq toyurar. (75)
Gözləmədiyin yerdən dovşan çıxar. (5)
Gözsizi dəvə dəpsə, sum ilə urdılar sanur. (75)
Gözsüz quşun yuvasını Allah öz əlilə tikər. (55)
Gözsüz yaşamaq olar, vətənsiz yox. (1)

---

1. (81), (83), (5), (1)
2. (1), (83), (12)
3. (5)

Gözsüznən çörək yeyəndə Tanrını arada gör. (54)
Gözsüzün gözi dəgənəkdür. (75)
Gözü ilə görən Tanrıdan yaxşı bilər. (1)
Gözü ilə görür, dili ilə istəyir. (1)
Gözü tox olanın könlü də tox olar. (1)
Gözümü sənə verdim ki, dünyaya baxasan, vermədim ki, yaşını sıxasan. (9)
Gözümün ağıcan olsun, özümün olsun. (1)
Gözümüz yollarda, qulağımız səsdə. (1)
Gözün ağını başa qaxarlar. (14)
Gözün alışmadığı işə girişmə. (10)
Gözün görür, ağlın kəsir. (9)
Gözünün qabağına baxmayanın ayağına daş dəyər. (1)
Gur gələn sel bənd uçurar. (10)
Guruldadığı qədər yağmır. (48)
Guş daşı yerdə qalmaz. (1)
Guşə dutmaq ariflıgdur. (49)
Güc birlikdədi. (1)
Güc doğana düşər. (83)
Güc gücə köti qaradır. (75)
Güc ilə qoyuna varan köpək xeyir etməz. (75)
Güc yiyəsi haqlı deyil, düz yiyəsi haqlıdı. (12)
Güclə iş olmaz. (75)
Güclü əli öp, qoy gözünün üstünə. (12)
Güclü gücsüzdən qisas almaz. (1)
Güclü günahkar olmaz. (1)
Güclü yanında gücsüz günahkardır[1]. (56)
Gücü çatana donuz güddürər[2]. (1)
Gücü gücümdən çox, ağlı ağlımdan az. (1)
Gücü var, təpəri yox. (1)
Gücün çatmayan daşı qaldırma, zərbə düşərsən. (1)
Gücün yetdüginə güc eylə. (75)

1. (1)
2. (83)

Gücün yetmədüginə toğan olma. (75)
Gücünə bax, şələni bağla[1]. (77)
Güjsüzü Allah vuruf, sən nəyini vurursan? (9)
Gül ağacınnan odun olmaz. (9)
Gül bülbüldən, insan əlindən çəkər. (1)
Gül dikənsiz olmaz. (75)
Gül əzizdirsə, gülşən ondan əzizdi. (1)
Gül getdi, xar qaldı, güldən yadigar qaldı. (1)
Gül istəyən səbr edər. (83)
Gül istəyən tikanını da istəmək gərək[2]. (30)
Gül xarsız, gözəl nazsız olmaz[3]. (2)
Gül o qədər bitib, reyhan arada itib. (1)
Gül olmayan yerdə, böyürtkən özünü gül sanar. (1)
Gül qönçədə qalmaz, söz qəlbdə. (1)
Gül solanda bülbül ağlar. (1)
Gül tikansız, dərə ilansız, səfa cəfasız olmaz[4]. (1)
Gül zivillikdə də bitər. (12)
Güldən gül iyi gələr. (1)
Güldən motal təpilməz. (9)
Gülə ki ölçəm oldı, bir pul bəhasıdır. (75)
Gülər üz, dadlı dil ilanı yuvadan çıxardar. (1)
Gülər yüzə bara baq. (75)
Güllə bir adamı, söz isə yüz adamı öldürər. (36)
Güllə mənnən süyüşdü, ya yoldaşıma dəydi, ya saman çuvalına[5]. (5)
Güllüyün gülü beş günlükdü. (1)
Gülmə gülünc olana, xəmiri linc olana, özün gülünc olarsan, xəmiri linc olarsan. (1)

---

1. (83), (1), (14)
2. (58), (59), (31), (1)
3. (44), (81), (83)
4. (83)
5. (83), (1)

Gülmə gülünc olana, aşı linc olana, gülürsən gülginən qulağı dinc olana. (83)

Gülmə qonşuna, gələr başına[1]. (5)

Gülmək ağlamaqla əkizdi. (1)

Gülü açan bülbüldü, ətrini özgə bildi. (18)

Gülü get güllükdən gətir. (1)

Gülü yad etdikcə bülbülün fəryadı artar. (1)

Gülün qədrini bülbül bilər[2]. (44)

Gülüncə güləllər. (9)

Gülünə bax, qönçəsini dər. (1)

Gülüş sağlamlıqdı. (12)

Gümüş kəmər beldə gəzər, ismətli övrət dildə. (33)

Güman gəlməyən yerdən tülkü çıxar. (1)

Gün altdan qaçmaq olmaz. (49)

Gün altında yatmayan kölgənin qədrini bilməz. (1)

Gün çıxdı, kosanı aldatmaq olmaz[3]. (1)

Gün doğuşundan bəllidi. (1)

Gün girən evə həkim girməz, gün girməyən evə həkim girər. (1)

Gün görən başdan görər. (18)

Gün görməyən günü gördü, durdu çıraq yandırdı. (1)

Gün keçər, qəza keçməz. (1)

Gün keçir, ömür gedir, dəli bəzənir ki, bayram gəlir[4]. (1)

Gün qarası gedər, söz yarası getməz. (9)

Gün o gün deyil, dünya o dünyadı. (1)

Gün öz işığını heç nədən əsirgəməz[5]. (83)

Gün var ayı bəslər, ay var günü bəslər. (38)

Gün var il dolandırar. (12)

Gün var keçib gedər, gün var yadda qalar. (1)

---

1. (83), (1)
2. (58), (1)
3. (83)
4. (28), (29), (83), (14)
5. (1)

Günah heç yerdə yox idi, ancaq şeytan hər yerdə söylü-yürdü. (47)
Günahı olanın yuxusu olmaz. (12)
Günahkar qorxulu olur. (49)
Günahkar oldu lələ, saqqalın verdi yelə[1]. (83)
Günahkarın dili qısa olar. (12)
Günahkarın qırx köynəyi olar, hərəsini birinə geydirər. (79)
Günahsız adam yoxdu. (12)
Günbəz görər, elə bilər içində imamzadə var[2]. (1)
Günbəzdə qoz qalmaz, səfehdə söz. (6)
Gündə bir dona girir, ana da deyir qızım var. (1)
Gündə bir söz eşitməsəm, qulaqlarım tutular[3]. (1)
Gündə gedən kül üstə, ayda gedən gül üstə. (14)
Gündə iki pul girə evə, ol ev yoxsulluq görməz. (75)
Gündən-günə dügün olsa, gün aşırı bayram olsa!. (75).
Gündə qazan, gündə ye. (1)
Gündoğan salamatdı, günbatan məlamətdi[4]. (83)
Gündüz çıraq yandıran, axşam qaranlıqda qalar. (1)
Gündüz gedər dar-dar eylər, gecə gələr yer dar eylər[5]. (39)
Gündüz gəzər ovanı, gecə sızıldar dabanı[6]. (55)
Gündüz şam yandıran gecə şamsız yatar. (1)
Gündüz yarasaya gecədir. (75)
Gündüzlər qarğa qovluyur, gejələr çarıx yamıyır[7]. (9)
Günəbaxan günə baxar. (1)
Günəş çıxar, aləm görər[8]. (73)
Günəş balçığ ilə tutulmaz. (75)
Günəş havanı isidər, dostluq qəlbi. (12)

---

1. (1)
2. (83)
3. (11)
4. (77), (1), (39a)
5. (1)
6. (5), (83), (1), (6)
7. (12)
8. (83), (1)

Günəş istiləşəndə yağış gətirər, qadın istiləşəndə qarğış. (8)
Günəşə tərəf getmək üçün axşamı gözlə. (39a)
Günəşin paxıllığını bulut çəkər. (18)
Günəşin üzünü örtmək olmaz. (39a)
Günəşsiz kainat zülmətdi. (12)
Günlən yatan, günlən çıxar. (83)
Günortadan sonra bal axşamacan[1]. (83)
Günortadan sonra dükan açan nə qazanar? (1)
Günsüzə gün olmaz, Ərdəbildə yer olmaz. (10)
Günü gündən günü əsirgər. (1)
Günü günə satmazlar. (1)
Günü gününün ölümünü istər. (1)
Günü ilə gün yoxdu. (1)
Günülüyə, yanı qoduqluya ruzigar haramdı. (1)
Günüm yoxdu, günüm var. (1)
Gününə görə kürkin gey. (75)
Güvəc daşa toxunsa, vay güvəcin halına, daş güvəcə toxunsa, vay güvəcin halına! (1)
Güvəc qazana dedi: - Üzün qaradı! (1)
Güvəc yumbalanar qapağın tapar[2]. (54)
Güvəcə verə-verə çıxar qazan bahası. (1)
Güvəci ya sındır, ya dağdan yuvarlat. (1)
Güvəclə qazanın nə aşnalığı?! (1)
Güvəndügüm qara dağ, sənə dəxi qar yağdı! (49)
Güvənmə varlığa, düşərsən darlığa[3]. (1)
Güyəgü eşək qoduğu kibi sevgilücə olur. (75)
Güyəgü qayınata toprağındandır. (75)
Güyəgü oğul olmaz. (75)
Güzgü əyri olsa, əksi əyri göstərər. (1)
Güzgüyə baxan öz camalını görər. (1)
Güzgüyə baxan özgəsini görməz. (1)

---

1. (5)
2. (77), (55), (1)
3. (15)

## Ğ

Ğəm səni yeyər, sən ğəmi yeyincə[1]. (49)
Ğəm yemək əbləhlikdür[2]. (49)
Ğənim ğənimdən yüz ildən sonra heyfmi alur. (49)
Ğənim ğənimi gözlətmək gərək[3]. (49)
Ğərbilcə bəri olanun, dəlügincə dərdi var. (49)
Ğərib atının quyruğı döşündə olur[4]. (49)
Ğərib kor olur[5]. (49)
Ğeyrə sirr vermək olmaz. (49)
Ğeyrət imandur. (49)
Ğeyrətli dərdli olur, ğeyrətsiz namərd. (49)
Ğeyrətlü dövlətlü olur. (49)

## H

Hacı başa geydüginin taçı qoltuğunda çıqar. (75)
Hacı yatmaz, yatarsa qalxmaz. (1)
Haça mıx yerə getməz. (49)
Hax haxdan kəsəndə, Murtuzəli hər ikisindən kəsər. (14)
Haxsız divan olmaz. (9)
Haq batil olmaz. (75)
Haq söz acı gəlür[6]. (75)
Haqq başı ağır olur[7]. (49)
Haqq deyən məhrum olmaz. (1)
Haqq dəyirmanda olur. (33)
Haqq doğruya yardır[8]. (28)
Haqq gəlsün, nahaq gəlməsün[1]. (50)

---

1. (50)
2. (50)
3. (50)
4. (50)
5. (50)
6. (49), (2), (83), (1)
7. (1)
8. (83)

Haqq-hesaba dağlar da baş əyər. (1)
Haqq-hesabı düz elə, hər yerdə yerin olsun. (1)
Haqq insaf içindədür. (50)
Haqq iş batmaz. (12)
Haqq iş gündən aydındı. (1)
Haqq kömək eyləsə qurd çoban olar. (1)
Haqq qüvvət, qüvvət haqqdı. (1)
Haqq söz axar suları saxlar. (1)
Haqq ver, haqq al. (1)
Haqq verən haqq götürər. (1)
Haqq yandıran şamı söndürmək olmaz[2]. (1)
Haqq yerin tapar, su çuxurun. (2)
Haqqa ləkə düşməz. (1)
Haqqdan keçmək olmaz. (49)
Haqqın əli olsun, batilin yaxası. (2)
Haqqın verdüginə şükr etmək nemət arturur. (49)
Haqla batilin arası dörd barmaqdı. (1)
Haqlı haqdan keçməz. (1)
Haqlı söz haqsızı Bağdaddan qaytarar. (33)
Haqlu var, haqsız çıqar; haqsız var, haqlu çıxar. (75)
Haqsızlıqla varlananlar tez yoxsullaşır. (45)
Haq-təala bəhanə Tanrısıdur, hər kişiyə layiqlü layiqin verər. (75)
Haq-təala qulını qəhr ilə daim qaramaz. (75)
Hal bilən kamildür. (49)
Hal bilənün quluyuz. (75)
Hal hala məlumdur[3]. (2)
Halal - hesab, haram - əzab. (49)
Halal artar, haram batar[4]. (1)
Halal incəli, amma üzülməz[1]. (2)

---

1. (1), (18)
2. (83), (18)
3. (83)
4. (83)

Halal mal əldən üzülməz. (12)
Halal mal heç yerə gitməz. (83)
Halal mala bir şey olmaz. (83)
Halal ye, halal danış. (1)
Halal – hesab, haram - əzab. (50)
Halalzadə baruşdurur, haramzadə vuruşdurur[2]. (49)
Halalzadə bazar edər, haramzadə bozar. (75)
Halalzadə dayıya çəkər. (49)
Halına bələd oldum, qocaldım, yaşa doldum. (18)
Halını bilmədigin atın dalına keçmə[3]. (83)
Halva bişürmək asandur, yağ ilən balı gərək. (49)
Halva demək ilən ağız şirin olmaz[4]. (49)
Halva, plov yalandı, ölüyə qalan Qurandı. (17)
Halvaçı qızı - daxi şirin[5]. (49)
Halvadan ötri tütün cəfasın çəkmək olur. (49)
Halvaya duz qatmazlar. (49)
Hamam suyu ilə dost dutmaq olmaz. (83)
Hamam suyu ilə xətir könül görür. (83)
Hamama girən tərləməyincə çıxmaz. (49)
Hamı çox yaşamaq istər, amma qocalıq istəməz. (1)
Hamı dedi, dad oldu, mən deyəndə bidad. (1)
Hamı dinəndə can oldu, mən dinəndə qan oldu. (1)
Hamı hamıynan olanda, keçəl də papağınnandı. (14)
Hamı ilə xoş görüşmək ədavəti yox eylər. (1)
Hamı istər cənnətə getsin, amma günahları qoymaz. (1)
Hamını ley vurdu, mənim kimi tükü dağılan olmadı. (1)
Hamıya aftafa-ləyən, bizə sarımsaqdöyən[6]? (1)
Hamıya ədət, oldu bizə bədət. (5)

---

1. (49), (83),(1)
2. (2), (83), (1), (18)
3. (55), (64), (2)
4. (44), (2), (58), (64), (5), (1), (12)
5. (83), (1)
6. (11)

Hamıya hörmət elə, hörmətin olar. (1)
Hansı daşı qaldırsan, altından bir əqrəb çıxar. (1)
Hansı əl ilə vermisən, o əl ilə də alarsan. (1)
Haputlu öküzü cullu çapıbdı. (83)
Harada çalğı, orada qalğı. (1)
Harada dəvənin quyruğu, orda eşşəyin qulağı. (1)
Harada gördün dərviş, orada olar nikbət iş. (1)
Harada gördün hamı kor, sən də ol kor. (1)
Harada gördün molla, qaşqabağını salla. (1)
Harada qələbə görünür, orda əsl qəhrəmanlıq etmək lazım deyil. (48)
Harada yaşasan, ora Vətəndi. (14)
Haralısan? – hələ evlənməmişəm[1]. (46)
Haram halalı aparur[2]. (49)
Haram haramı doğur. (83)
Haram harama gedər[3]. (1)
Haram malın dadı olmaz. (12)
Haram nəsnə sinməz. (75)
Haram tatlu olur[4]. (75)
Haram yeyici önməz. (75)
Harama ağzını bulaşdırdın, kəşgülünü doldur, götür[5]. (83)
Haramın bərəkəti olmaz[6]. (49)
Haramın binası olmaz. (83)
Haramzadə eyib görücüdür. (49)
Haramzadə oğuldan halalzadə qul yegdir[7]. (75)
Haraya mıx çaxıram, papağını asır. (1)
Harda aşdı, orada başdı[8]. (83)

---

1. (83), (1)
2. (83), (1)
3. (83)
4. (83)
5. (49)
6. (2), (83), (1)
7. (16)
8. (11)

Harda qamış, orda gamuş[1]. (5)
Hardan inçəlsə, ordan üzülər. (83)
Hasarsuz bağun meyvəsi qalmaz. (49)
Havadakı quşı satma. (75)
Havana nə qoyasın ki, dögülməyə? (75)
Havayı gülləyə qabırğa verir. (83)
Havayı sirkə baldan şirindi[2]. (5)
Hayıf qiyamətdə qalmaz. (1)
Haynan gələn huynan gedər, selnən gələn suynan gedər[3]. (15)
Hayqırmaq gücə yaraşar. (83)
Hayvan qatlaşar, yiyəsi qatlaşmaz. (1)
Hazıra saladır, ğaibə gülbəng[4]. (75)
Hazırın naziri, bişmiş aşın darğası[5]. (83)
Heç bilməzsən kim qazanar, kim yeyər. (77)
Heç bilmir, harada bişib, deyir: - Bir çömçə də mənə ver[6]! (1)
Heç igidin yatmasın baxtı, yanı üstə çevrilməsin taxtı. (1)
Heç kəs gözünü kor istəməz[7]. (46)
Heç kəs heç kəsin kitabını oxumur. (1)
Heç kəs qurdnan qiyamətə qalmaz. (1)
Heç kəs öz eybini bilməz[8]. (1)
Heç kəsin çırağı sabahadək yanmaz[9]. (44)
Heç kəsin çörəyi heç kəsin qarnında qalmaz[10]. (2)
Heç kim adama müftə iş tutmaz. (1)
Heç kim qabaxdan yara götürməz[1]. (2)

---

1. (83), (1), (18)
2. (1), (83) ()
3. (83), (1) (6), (13)
4. (49)
5. (5)
6. (83)
7. (83)
8. (83)
9. (83), (1)
10. (81), (83), (1)

Heç kim öz ayranına turş deməz[2]. (44)
Heçi heçə vurarsan, yenə də heç çıxar. (1)
Hesab dinar ilən, bağış xalvar ilən[3]. (49)
Hesabda doğru ol, hesabdar olma, hesab bilməyənlə durub oturma. (1)
Hesabı pak olanın üzü ağ olar[4]. (56)
Hesabı təmiz olanın üzü ağ olar. (33)
Hesabın böyük-kiçiyi olmaz. (1)
Hesabsız gələn zərərlə gedər. (1)
Hey dedi: - Malım-mülküm var! Heç demədi: - Ölüm var! (1)
Heyf ölənədir, diri dirlügin edər. (75)
Heyfi düşmənə qoymaq namərdlikdür. (75)
Heyrətdə ağıl, yolda salam, qəmdə təsəlli var. (1)
Heyvan alası tışından, adam alası içindən. (75)
Heyvan ilişə - ilişə, insan dilləşə - dilləşə. (49)
Heyvan kəsilmiyincə yağı görünməz, insan danışmıyınca – ağlı. (15)
Heyvan miskin olur. (75)
Heyvan ölür səməri qalır, insan ölür əsəri qalır. (28)
Heyvan saxlasan pişik saxla, özü tutar, özü yeyər. (1)
Heyvan yıylaşuraq, adam soruşuraq. (75)
Heyvana çuluna görə, insana geyiminə görə qiymət vermək düz deyil. (1)
Heyvanı budundan dağlarlar, insanı ürəyindən. (1)
Heyvanı buynuzunnan, adamı dilinnən. (12)
Heyvanı yularından, əri iqrarından. (75)
Heyvanın acgözlüyü onu kökəldər, insanın acgözlüyü onun başını yeyər. (1)
Heyvanın cəlladı qəssabdır. (75)
Heyvanın dişinə baxarlar, insanın işinə[1]. (1)

---

1. (81), (83), (1)
2. (2), (30), (5), (83), (1)
3. (83), (1)
4. (33), (1)

Heyvanın erkəginə pul verərlər, insanın dişisinə. (83)
Heyvası yox, narı yox, görən desin Şahbudağın bağı var[2]. (44)
Həbəçi çox olanda uşax tərsə gələr. (22)
Həblə eliyirəm, atam ölür, həblə eliyirəm, anam ölür. (18)
Həccə gedən gəldi, saca gedən gəlmədi[3]. (2)
Həddindən ötən ziyan çəkər. (49)
Həddini bilməyənə həddini qandırarlar. (1)
Həftədə bir bazar, onu da dərviş pozar. (1)
Həkim, dərman - səbəbdi. (83)
Həkim qapısı - el qapısı. (1)
Həkim məhrəmdi. (1)
Həkim oldur ki, başına gəlmiş ola. (49)
Həkimdən sorma, çəkəndən sor. (1)
Həkimə getsən, dava verər, falçıya getsən, dua. (1)
Həkimi həkim eyləyən xəstədi. (1)
Həkimin xəstəlikdən başı çıxmıyanda, səbəbi qocalıxda görər. (18)
Həkimsiz, hakimsiz şəhərdə qalma. (1)
Hələ boynu qoltuq görməyib[4]. (1)
Həliksiz divar olmaz. (75)
Həlimi içəndə ağzım elə yanıf ki, qatıxılı aşı üfürə-üfürə içirəm. (18)
Həm darımı yiyirsən, həm də üstümə xortdayırsan. (12)
Həm dayımgilə gedərəm, həm daylağımı ögrədərəm. (83)
Həm ziyarət, həm ticarət. (1)
Həmaşlıqda ölən şahiddir. (1)
Həmcinsini tanımayan ayağa düşər. (1)
Həmədan eşşəyi, güləbatın noxda. (18)
Həmi ulağ, həmi sulağ. (83)

---

1. (14)
2. (1)
3. (1), (12), (14)
4. (83), (12)

Həmişə bayram şənbəyə düşməz. (14)
Həmişə biz görürük, bir yol da sən gör. (1)
Həmişə bülbül ötməz. (1)
Həmişə Şaban, bir dəfə də Ramazan[1]. (55)
Həmişə yol bostan kənarından düşməz[2]. (2)
Həmmamda bir tas suyı bilməyən hamamı başına yıqarsan da bilməz. (75)
Həmmamda ırlamaq, ğəriblıqda ögünmək qolaydır. (75)
Həmmamə girən dərlər. (75)
Həmnişinin bab eylə, görən desin habeylə[3]. (77)
Hənək ilən ağu yalayan olmaz. (49)
Hənək, hənək – axırı dəyənək[4]. (5)
Həqiqət bir şeydi, onu hər kəs dürlü anlar. (1)
Həqiqəti danan adam əsil insan ola bilməz. (18)
Həqq gəldi şaydatdığa. (83)
Həqq sözün yoğurunca kəsəri olur. (36a)
Həqq yerini tapar, su çuquru. (83)
Həqqani iş gündən aydın edər. (83)
Həqqin əli olsun, batilin yaxası. (83)
Hər acının bir şirini var. (1)
Hər adam öz eybini bilməz[5]. (28)
Hər adam özü için fikir eylər. (83)
Hər adamın əkdiyi bitməz. (1)
Hər adamın öz yeri var, hər yerin də öz adamı. (1)
Hər ağ gün, qara gün ömürdən gedir. (1)
Hər ağac kötüyündən çürüyər. (1)
Hər ağac meyvəsi ilə tanınar. (1)
Hər ağaca söykənmək olmaz. (1)
Hər ağacda bar olmaz. (1)

---

1. (5), (83), (1)
2. (83)
3. (44), (83), (69), (1)
4. (1), (9), (13)
5. (29), (83), (1)

Hər ağacın bir yemişi olur. (75)
Hər ağacın kölgəsi olmaz. (1)
Hər ağıl bir deyil. (1)
Hər ağıl bir olsa, keçiyə çoban tapılmaz. (1)
Hər ağız bir deyil. (1)
Hər ağızda bir dua var[1]. (1)
Hər ağızdan bir söz çıxar. (1)
Hər ağlar gözlüyə aşiq deməzlər. (1)
Hər almada çiyid olur, hər çiyiddən alma olmur. (8)
Hər almağın bir qaytarmağı var. (1)
Hər anın bir hökmü var, bir məlalı var. (1)
Hər aparan su Arazdır. (39)
Hər anqırana axur bağlasan, burdan İsfahanacan töylə olar. (39)
Hər arvad öz evinin həm xanımı, həm qulluqçusudu. (1)
Hər arvadın adı bir, hər meyvənin dadı bir[2]. (46)
Hər aşığın bir dövranı var[3]. (5)
Hər atalar sözünün bir yeri var. (1)
Hər atasının gözünü çıxardana Koroğlu deməzlər[4]. (44)
Hər atılan daşın dalınca getməzlər[5]. (2)
Hər axan su içməli olmaz. (1)
Hər axan suya Araz deməzlər. (1)
Hər aydınlığın bir qaranlığı, hər qaranlığın bir aydınlığı var[6]. (83)
Hər azarlayan ölməz. (55)
Hər azarlayan qoyun ölsə, sürüdə qoyun qalmaz. (16)
Hər bağçanın öz bağbanı var. (1)
Hər başın bir dərdi var. (1)

---

1. (83)
2. (83)
3. (83), (1)
4. (1)
5. (31), (29), (83), (1)
6. (1)

Hər bığıburma meydana girə bilməz. (1)
Hər binanın bir ustadı var. (1)
Hər bir adam işi ilə tanınar. (1)
Hər bir yerün bir ərkanı olur, oduna gedənin orğanı olur. (75)
Hər buğlanan qazanda aş olmaz. (6)
Hər cırcıramanın öz cırıltısı var. (15)
Hər çağırılan yerə getməzlər. (1)
Hər çayın bir dənizə yolu vardır. (14)
Hər çərənçiyə cavab versən, boğazın yırtılar. (1)
Hər çiçəyin bir ətri var. (1)
Hər dağ olsa çəkilər, bala dərdi çəkilməz. (1)
Hər dağın öz ətəyi var. (1)
Hər daş baş yarmaz. (15)
Hər daşdan yol daşı olmaz. (18)
Hər daşın dibində bir Koroğlu var. (1)
Hər dəlinin bir ağıllısı olmalıdı. (1)
Hər dəlləyin əlinə saqqal vermək olmaz. (1)
Hər dərdin bir dərmanı var, tapanı gərək[1]. (1)
Hər dərədə bir at öldürüb baytar olub. (1)
Hər dəvə çəkənə sarvan deməzdər. (17)
Hər deyilənə qulax verməzlər. (12)
Hər divarın qulağı var. (1)
Hər enişin bir yoquşu olur, hər yoquşun bir enişi[2].(83)
Hər evin bir adəti var. (1)
Hər evin öz qivləsi var. (11)
Hər eybi üzə vurmazlar. (1)
Hər eyilik bir yerdə olmaz. (75)
Hər əlifba oxuyan qare Quran olmaz[3]. (73)
Hər əsən yellə söyüd kimi titrəsən, dağ olsan da bir saman çöpünə dəyməzsən. (33)
Hər ər sənət öyrənməz. (75)

---

1. (14)
2. (57), (1)
3. (83)

Hər fəslin bir meyvəsi var[1]. (2)
Hər gecəni qədir bil, hər gəzəni Xızır. (20)
Hər gecənin bir gündüzü var. (1)
Hər gedişin bir gəlişi var. (1)
Hər gəlirin bir çıxarı var. (1)
Hər göldən bir qurbağa, Göy göldən min qurbağa[2]. (1)
Hər gördüyünü dost sanıb, sirrini açma. (1)
Hər gözəlin bir eybi var[3]. (2)
Hər güldən gülab olmaz. (1)
Hər gülün bir qoxusu, bir ətri var. (1)
Hər gün bir olmaz. (1)
Hər gün günahkar, bir gün tövbəkar. (1)
Hər gün mənə – gücdi mənə, bir gün sənə bir gün mənə – toydu mənə. (46)
Hər gün nə tapsan, odu. (1)
Hər gün ömürdən bir kərpic düşər. (1)
Hər heyvanın balası dalınca gedər, eşşəyin balası qabağınca[4]. (1)
Hər hikmətin başı imandı. (83)
Hər hürənə daş atsan, daş daş üstə qalmaz. (1)
Hər igid öz adıyla tanınar. (1)
Hər iri gözün işığı olmaz. (1)
Hər iş tutsan insafı əldən qoyma[5]. (2)
Hər iş ustasının əlində asandı[6]. (1)
Hər iş vədəyə baxar, vədə heç şeyə baxmaz. (1)
Hər işə ki baqarsan, örnək al, şayəd sonra sana gərək ola. (75)
Hər işıldayana qızıl demərəm[7]. (81)

---

1. (28), (29), (30), (31), (1)
2. (5), (83)
3. (83), (1)
4. (55)
5. (83)
6. (83)
7. (83)

Hər işıq bir kölgə salar. (1)

Hər işin əvvəli çətindi. (1)

Hər işin sonuna baxarlar. (1)

Hər işin vaqtı vardır, eyümək olmaz. Zaman işi diləkcə yendək olmaz. (75)

Hər işşəgi bab eylə, görən desin ha belə[1]. (29)

Hər xoruz öz hinində banlar. (1)

Hər kamalın bir zavalı var[2]. (2)

Hər keçəlin baxtı bir olmaz. (14)

Hər kənddən bir dəli, Qalxanlıdan qabağına gələni. (83)

Hər kəs atdığı oxun hara dəyəcəyini bilsin gərək. (1)

Hər kəs bildiyini, dəyirman döydüyünü. (1)

Hər kəs hər şeyi öz ölçüsü ilə ölçər. (1)

Hər kəs ləmpəni özüyçün yandırar. (18)

Hər kəs necə olsa, başqasını da, özü kimi bilər. (1)

Hər kəs nə eyləsə özünə eylər[3]. (1)

Hər kəs ocağın odun, özünə sarı eşər[4]. (5)

Hər kəs öz arşınıyla ölçər. (12)

Hər kəs öz atını çapır. (1)

Hər kəs öz bildiyi oylaqda ova çıxır. (12)

Hər kəs öz dərdilə, dəyirmançı su ilə. (1)

Hər kəs öz dərdindən danışar. (1)

Hər kəs öz evinin böyügüdür. (55)

Hər kəs öz evinin qibləsini yaxşı bilir[5]. (55)

Hər kəs öz eyibini bilir. (1)

Hər kəs öz əkdiyini biçər[6]. (30)

Hər kəs öz gəlir-çıxarına baxar. (1)

Hər kəs öz kəndindən dəm vurar. (31)

---

1. (5)
2. (83)
3. (83)
4. (1)
5. (83)
6. (31), (56), (83), (1)

Hər kəs öz kisəsindən yeyər. (1)
Hər kəs öz kömbəsini gözlər. (1)
Hər kəs öz ölüsünü oxşayır. (1)
Hər kəs öz ürəyindən su içir. (1)
Hər kəs özünə cavabdehdi. (12)
Hər kəs şərarət əksə, peşimançılıq biçər. (1)
Hər kəs yeyər fətiri, gedər odun gətiri. (83)
Hər kəs yüz il yaşamasa, günah onun özündədi. (1)
Hər kəsə öz adəti xoş gələr. (1)
Hər kəsə öz vətəni əzizdi. (1)
Hər kəsə öz yükü ağır gələr. (1)
Hər kəsi el istəsə, bülənd olar, ucalar. (52a)
Hər kəsin alnında nə yazıldı, onu görər. (83)
Hər kəsin balası öz gözündə göyçəkdi. (1)
Hər kəsin başı dazdı, onun günahı azdı[1]. (46)
Hər kəsin bir dərdi var, heç kimə deməz ağlar[2]. (2)
Hər kəsin çörəyi xəmirinə görədi. (1)
Hər kəsin dəlisi evdə, dərdi qarnında. (1)
Hər kəsin dərdi özünə bir at yüküdü. (1)
Hər kəsin hörməti öz əlindədi. (1)
Hər kəsin keçəcəyi özünə görə olar. (1)
Hər kəsin qarğası özünə bir qırğıdır[3]. (2)
Hər kəsin malı özünə görə qiymətlidi. (1)
Hər kəsin uşağı özünə şirindi. (1)
Hər kətdə bi dəli, Calutda ələ düşən dəli. (18)
Hər kimin ilki dursa, mülkü də durar[4]. (83)
Hər kimin ki, bağı var, kef çəkməyə çağı var. (1)
Hər kişi gücünə görə yük tutar. (1)
Hər kişi kəndü dərdindən söylər. (75)
Hər kişi kəndü xoyına xoşnuddur. (75)

---

1. (83)
2. (83), (1)
3. (83)
4. (5)

Hər kişidə dəlülik tamarı vardır, «dəlü» dedikcə ol tamar böyür. (75)

Hər kişinin bir durlü halı var. (75)

Hər kişinin nəbzinə görə şərbət verərlər. (1)

Hər kişiyə bir tamaşa xoş gəlür. (75)

Hər kişiyə kəndü şəhəri yeg gəlür Bağdaddan. (75)

Hər kişiyi bir işə tuş eyləmiş, anun ilə könlüni xoş eyləmiş. (75)

Hər kişiyi hal ilə Tanrısı bilür. (75)

Hər kişiyi xoyilə xoş görmək gərək. (75)

Hər könülün bir yazı, bir qışı var. (1)

Hər külək dağı yerindən tərpədə bilməz. (1)

Hər qaba bir qapaq qoyarlar. (1)

Hər qanda kim dəvi var, son anda yavi var. (75)

Hər qapıya baş salannan arvat olmaz. (18)

Hər qaranlığın bir aydınlığı var. (33)

Hər qaşığın qisməti bir olmaz. (1)

Hər qazılan yerdən su çıxmaz. (1)

Hər qəbahəti üzə vurmazlar. (1)

Hər qışın bir yazı var. (1)

Hər qohuma ərk olmaz. (1)

Hər qoluna bəlgə dolayan Koroğlu olmaz. (16)

Hər quruldayan sulu qəlyan deyil. (1)

Hər quş öz dəstəsiylə uçar. (1)

Hər quş öz yuvasının ağasıdı. (1)

Hər quş şahin olmaz. (1)

Hər quşa öz yuvası, hər kəsə öz vətəni. (1)

Hər quşun əti yeyilməz. (1)

Hər meyvə öz mövsümündə yetişər[1]. (73)

Hər meyvənin bir dadı var[2]. (2)

Hər meyvənin kalı dəysə, insanın kalı dəyməz. (1)

Hər nə doğrarsan çanağına, o da çıxar qaşuğuna[1]. (29)

---

1. (1)
2. (56), (68), (83), (1), (12)

Hər nə gedər, ömürdən gedər[2]. (1)
Hər nə gedərsə bağdan gedər, bağbanın nəyi gedər. (83)
Hər nə ki başına gəlirsə, haqdan bil. (75)
Hər nə yedin dadındı, hər nə verdin adındı, hər nə qalsa yadındı, oğluna qalsa yad qızı ilə yeyəcək, qızına qalsa yad oğlu ilə. (1)
Hər nəsnə bünyadından yığılur. (75)
Hər nəsnə saatına köyər. (75)
Hər nəsnə timarla hasil olur. (75)
Hər nəsnə vaqtilə gərək. (75)
Hər nöqsanı özündə gör. (1)
Hər otun öz kökü var. (1)
Hər oxuyan Molla Pənah olmaz[3]. (44)
Hər ölümə qəhrəmanlıq deməzlər. (1)
Hər ömrün öz köçü var. (33)
Hər pərdə dalında yüz sirr var. (1)
Hər rast gələnə dost demə. (1)
Hər saatın bir hökmü var[4]. (2)
Hər saqqala salam verməzlər. (1)
Hər saqqaldan bir tük çəksək, kosa da saqqallı olar[5]. (1)
Hər saqqalı ağ olana ağsaqqal deməzlər. (1)
Hər saqqallı baba olmaz. (1)
Hər sarğı hər yaraya sarılmaz. (1)
Hər sayrulığın xoşluğı var. (75)
Hər səbrin axırı var. (1)
Hər səhəng suda sınmaz. (1)
Hər sözün bir pərsəngi var. (1)
Hər sözün öz yeri, öz məqamı var[6]. (1)

---

1. (54), (31)
2. (83)
3. (2), (5), (39), (1)
4. (83), (1)
5. (2), (29), (28), (83), (1)
6. (2), (83)

Hər su keçid verməz. (1)
Hər suda mərcan olmaz. (1)
Hər sübhün bir axşamı var. (83)
Hər sürüdə beş-altı qoyun olar, qalanı oyun. (16)
Hər şey vaxta baxar, vaxt heç nəyə baxmaz. (14)
Hər şey bitər, kosanın saqqalı bitməz. (1)
Hər şey nazikliyindən sınar, insan yoğunluğundan. (83)
Hər şey öz əslinə qayıdar. (55)
Hər şey öz vaxtında bitər[1]. (2)
Hər şey vaxta baxar, vaxt bir şeyə baxmaz[2]. (2)
Hər şeyə barmaqarası baxmazlar. (1)
Hər şeyə göz dəyər, müflisə göz dəyməz. (1)
Hər şeyi vaxtında əksən, dürr bitər. (1)
Hər şeyin çoxu zərərdi. (1)
Hər şeyin erkəgi keçər, sözün dişisi[3]. (83)
Hər şeyin əvvəli çətin olar. (1)
Hər şeyin öz vaxtı var. (1)
Hər şeyin xiridarı gərəkdi. (1)
Hər şeyin yamağı tapılar, şüşəynən qəlbin yamağı tapılmaz. (18)
Hər tullanan qoz bitsə, meymun qozsatan olar. (1)
Hər ucaboylu ağac sərvi-xuraman olmaz. (1)
Hər ulaşmağın ayrılığı var. (75)
Hər uzanan ələ halva verməzlər. (6)
Hər uzun ağaca çinar deməzlər. (1)
Hər ürəkdə bir aslan yatır. (12)
Hər üzə gülənə dost deməzlər. (1)
Hər vaxt fürsət ələ düşməz. (1)
Hər yağan qar olmaz. (83)
Hər yemişin bir dadı var. (83)
Hər yerin dovşanını o yerin tazısı tutar. (1)

---

1. (28), (29), (83), (1)
2. (83)
3. (46)

Hər yetən gözələ gözəl deməzlər. (1)
Hər yetənə ürək açma. (12)
Hər yoxuşun bir enişi olur[1]. (44)
Hər zadı qəddəsən gödəli, sözü qəddəsən uzalı. (39)
Hər zadın təzəsi, amma dostun köhnəsi[2]. (2)
Hər zamanın bir hökmü var. (1)
Hər zərər bir ağıl artırar[3]. (1)
Hər zərərdə bir xeyir var. (1)
Hərbədən qorqma, it qorqusundan hürür. (83)
Hərcayi sözün, hərcayi gələcəyi olar[4]. (55)
Hərdən ipək, hərdən köpək. (1)
Hərdən sözün mərəzi gələr. (1)
Hərə bir sap versə, çılpağa köynək olar[5]. (1)
Hərə bir tük versə, kosa da saqqallı olar[6]. (1)
Hərə öz qoturun qaşır. (39)
Hərəkət mənnən, bərəkət sənnən[7]. (5)
Hərəkət səndən, bərəkət Allahdan. (49)
Hərəkət varsa, bərəkət də var. (12)
Hərənin öz örüşü özünə xoş gələr. (14)
Hərif hərifi uzaqdan tanıyar. (1)
Hərifə saqalı düz gərək. (75)
Hərzə sözün hərzə cavabı olar[8]. (27)
Hərzə sözün mərəzi gələr[9]. (1)
Hərzə-hərzə danışma, ağzın yaman öyrənər[10]. (2)
Hərzəkar ağız başa yumruq vurdurar. (33)

---

1. (59)
2. (44), (29), (31), (72), (73), (76), (74), (83), (62), (1), (12)
3. (83)
4. (83), (14)
5. (58)
6. (14)
7. (62), (83), (1)
8. (39)
9. (6), (4)
10. (83), (1)

Həsud özgə üçün od eylər, özün yandırur. (49)
Həşəmin azdısa, xırmanın böyük tut. (1)
Həya imandandı[1]. (1)
Həyalı adam dalaşanda saralar. (55)
Həyalı qız gəzişinnən bəllidi. (18)
Həyalı qızarar, bihəya ağarar. (83)
Həyası olmayanın imanı da olmaz[2]. (28)
Həyasızda insaf olmaz, insafsızda həya[3]. (1)
Həyasızdan həyanı qoru. (1)
Həyasuza salam ver, öt[4]! (49)
Hırnan gələn zırnan gedər[5]. (83)
Hikmət sahibinə hər yarpaq bir kitabdı. (1)
Hikmətdən sual yoxdur[6]. (49)
Hikməti Loğman ağzından. (75)
Hikmətsüz heç iş olmaz. (49)
Hirs düşməndi, ağıl dost. (12)
Hirs gələndə acığını ud. (1)
Hirs gəlür göz qaralır, hirs gedər üz qaralır[7]. (2)
Hirsdi adam tez qocalar. (12)
Hiylə ilə iş görən, möhnət ilə can verər. (1)
Hiylə ilə tikilən ev, bəhanə ilə yıxılar. (1)
Hiyləbazın şamı yarıyacan yanar. (1)
Hiyləgər doqquz ocaq yıxmayınca bir ocaq tikməz. (1)
Hoha hiş, yengə düş. (18)
Hoha var dağa qaldırar, hoha var dağdan endirər. (11)
Hökm ğalibündür. (75)
Hökm qılıcı kəsgün olur. (49)
Hörmət hər kişinin öz əlindədür. (49)

---

1. (83)
2. (83), (1)
3. (83)
4. (1)
5. (13), (11)
6. (83), (1)
7. (81), (83), (1), (12), (17)

Hörmət hörmətə bağlıdı[1]. (83)
Hörməti pulnan ölçməzdər. (13)
Hörümçəkdən can dilənir. (18)
Hörüyün uzunu, sözün qısası! (15)
Höyür sürüyə qurd batmaz. (1)
Huniyan pilav olmaz yağnan düyü gərək[2]. (54)
Hünər sahibləri darda qalmaz. (1)
Hünərin bilmədiyin acizi döymə. (1)
Hünərsiz özgəyə güvənər, hünərli özünə. (83)
Hürə bilməz, itləri başa salar[3]. (1)
Hürər, tutmaz[4]. (5)
Hürmək itə qalar, karvan öz yolun gedər. (83)
Hürüşünü bilməyən köpək önünə qurd gətirir[5]. (44)

**X**

Xadim ilə ağ ata qulluq edənin yüzi ağarmaz. (75)
Xadimligi gamuşa versən, samanlığı özünə çıxar. (36a)
Xain dost, dəli düşmən, göz tikər ölən günə. (1)
Xain xəyanətinin cəzasını mütləq çəkər. (1)
Xain xofli olar, kor hürkən[6]. (83)
Xain suçlu olar. (55)
Xainə sürü göndər, yenə civin güdər. (9)
Xaxın fikrini çəkip qocalmaqdansa, öz dərdini çək, ucal. (18)
Xal üzün bəzəyidi. (1)
Xala evinə dadanan, ər evində dayanmaz. (1)
Xalam bildi – aləm bildi[7]. (1)
Xalam gəzəyən olsa idi, bizə də gələrdi. (11)
Xalam kişi olsa idi, ona dayı deyərdim. (77)

---

1. (81), (2)
2. (57)
3. (83)
4. (83), (1)
5. (2), (83), (1)
6. (2), (55), (5), (1), (12)
7. (6), (14)

Xalamdan bir dilək dilədim, versə də xalamdı, verməsə də xalamdı[1]. (55)

Xalça salan özü oturar. (1)

Xalına bax, xalı toxu. (1)

Xalını xovuna sığallarlar. (1)

Xalının tozu tükənər, dəlinin sözü tükənməz. (1)

Xalx qız verir, quda qazanır, biz qız verdik, qada qazandıq[2]. (46)

Xalxınkı ipək olur, bizimki köpək. (83)

Xallı üz göyçək olar. (1)

Xalq kəsən barmaq qanamaz[3]. (1)

Xalq necə, biz də elə. (1)

Xalqa it hürəndə, bizə çaqqal ulayar. (1)

Xalqa qarın ağrısı gələndə bunun tuman bağı əlindədi. (14)

Xalqın ağzı faldır, xorata xordur. (75)

Xalqın ağzını bağlamaq olmaz[4]. (44)

Xalqın eybini söyləyən özü eyibli olar. (1)

Xalqın qapısını el döyür, bizim qapımızı yel. (1)

Xalqın sədası – Haqqın nidasıdı[5]. (1)

Xaltanı aslan boynuna vurmazlar. (1)

Xam atı minməkdən, çullamağı çətindi. (9)

Xam dəmir döyülməz. (1)

Xam yer axtarır bostan atmağa[6]. (1)

Xamın gözü böyük olar. (83)

Xamır yeyənə eytibar yoxdu. (13)

Xan arıqlayanda rəiyyətin canı çıxar. (1)

Xan evi – bəla evi. (1)

Xan eylər xan divanı. (1)

---

1. (83), (1)
2. (83), (1), (6)
3. (15)
4. (2), (28), (83), (1)
5. (1)
6. (83)

Xan qapısında işləyənin ayağını daş aparar. (1)

Xan qulluğuna gedən atlı gedər, piyada qayıdar. (1)

Xana nökər olanın börkü haça olar. (1)

Xandan gələn nökərəm, dinmə, dişlərini tökərəm. (1)

Xanəndə məclisin bəzəyidi. (1)

Xanım-xanım didilər, axçacığım yidilər, eylə ki, axçam qurtardı, zır tut xanım, didilər[1]. (83)

Xanım qıran qabın səsi çıxmaz[2]. (2)

Xanım qırsa – qəza, nökər qırsa – cəza. (1)

Xanım qız xalasına oxşar, yaxşı oğlan – dayısına. (1)

Xanın gözü dörd olar. (1)

Xanla plov yemirəm, bığlarım yağa batar. (1)

Xaraba şəhərə qala nə lazım. (39a)

Xarabadan tüstü çıxmaz. (1)

Xasiyyətini bilmədiyin itin quyruğunu əlləmə. (44)

Xata xata üstündən gəlməsə, bir xataya nə var. (83)

Xata məndən, əta səndən[3]. (31)

Xatir qalsun, könül qalmasun. (49)

Xatun kişilər üç nəsnədən çökər: bir oğlan toğurmaqdan, bir geyəsi yumaqdan, biri un yoğurmaqdan. (75)

Xayin gözdən, mərd üzdən bilinər. (18)

Xayin iki dünyanun mərdudidür. (49)

Xeyir Allahdan, şər şeytandan[4]. (44)

Xeyir xeyri tapar, şər də şəri. (33)

Xeyir işə yaxın ol, şər işdən saqın. (1)

Xeyir işi uzatma, şərrə dönər; şər işi uzat ki, xeyrə dönər[5]. (75)

Xeyir san eşünə, xeyr gəlsün başına[6]. (75)

---

1. (49), (1)
2. (81), (83), (1), (14)
3. (28), (83), (1)
4. (83), (1)
5. (1)
6. (50), (1), (15), (41)

Xeyir ver, xeyir görəsən[1] . (2)

Xeyir verən yalannan ziyan verən doğru yaxşıdı. (12)

Xeyir vermiyən qohumnan yad yaxşıdı. (12)

Xeyirxah adam yaddan çıxmaz. (12)

Xeyirlə şər xurcun tayıdı[2]. (26a)

Xeyirsöyləməzdən xeyir olsaydı, adını Xeyrulla qoyardılar. (1)

Xeyirsöyləməzə didilər: «Xeyir söylə, səfərdən gələndə sənə sovqat gətirərəm» Didi: «Bəlkə gitdin, gəlmədin, hindidən ver»[3]. (83)

Xeyrat babamın, gərək toy özümün[4]. (83)

Xeyri yoxdu çaxırın, içmə, açar paxırın. (1)

Xeyürliyə çörək börc verürlər. (49)

Xəbər almaq eyib deyil, bilməmək eyibdi[5]. (70)

Xəbərçi dosta da böhtan atar. (12)

Xəbərçi yalançı olar. (1)

Xəbəri uşaqdan öyrən [6]. (1)

Xəlbircən evi olanın, gözləri qədər dərdi var. (1)

Xəlq dilindən qurtulmaq olmaz. (49)

Xəlvəti halva yeyənin sirrini Allah bilir[7]. (44)

Xəmir suyu çox götürər[8]. (2)

Xəmiraşı – bəylər aşı, umac onun yoldaşı[9]. (1)

Xəmiri bir yerdə yoğrulubdu. (1)

Xəncər bir nəfəri kəsər, dil min nəfəri. (12)

Xəncər çıxdı, qan çıxdı. (1)

Xəncər yarası sağalar, namus yarası sağalmaz. (1)

---

1. (83), (1), (15)
2. (1)
3. (1)
4. (5)
5. (49), (1)
6. (75)
7. (83), (1)
8. (83)
9. (14)

Xəncər yarası sağalar, dil yarası sağalmaz[1]. (28)
Xəngəl qaşıxda, xaşıl barmaxda. (9)
Xərab olmasa, abad olmaz. (49)
Xəsis acgöz olar. (1)
Xəsis bazarda vicdanını da satar. (12)
Xəsis havanı udanda da xəsislik edər. (18)
Xəsis ilə comərdin xərci birdi. (1)
Xəsis zalım olar. (1)
Xəsisdən alınan yumurtanın sarısı olmaz. (1)
Xəsisdən qışda buz almaq olmaz. (1)
Xəsisə zəhər versən, pulsuzdu deyə içər. (1)
Xəsisin barmağınnan da qan çıxmaz. (12)
Xəsisin dostu olmaz. (12)
Xəsisin malı arvadın sonku ərinə qalar. (14)
Xəsisin malı ölənnən sonra bəlli olar. (12)
Xəsisin qarnı doysa da gözü aj olar. (12)
Xəsm xəsmə qəzəl oxumaz. (1)
Xəstə başında ulu oturar. (75)
Xəstə həkimdən dərman istəməzlər. (1)
Xəstə tələsər, armud vaxtında yetişər[2]. (1)
Xəstə yat xətir üçün, nanəcibə əl uzatma, bir tikə fətir üçün. (41)
Xəstə yatan ölməz, əcəli yetən ölər. (15)
Xəstə yatmaq xəstəyə baxmaqdan yaxşıdı. (1)
Xəstəlıq şaşırar, ölüm yıqar. (75)
Xəstəlik atlı gəlir, piyada gedir. (1)
Xəstəlik putnan gələr, mısqalnan çıxar. (12)
Xəstəni döşəkdə saxlarlar, uşağı beşikdə. (1)
Xəstənin işi qalar, astanın işi qalmaz. (1)
Xəstənin könli tar olur. (75)
Xəstənin qızıl taxt nəyinə gərək?! (1)
Xəstənin qüvvəti olmaz. (75)

---

1. (83), (1), (12)
2. (83)

Xəstəyə yuxu şəfadır. (49)
Xəşil bişirmək bilmir, aşbazlıq iddiası edir. (1)
Xəta xəta üstündən gələndə bir xətaya nə var? (1)
Xətakardan xəta əskik olmaz. (1)
Xətir ucundan xəstə yatır. (14)
Xəyalsız insan meyvəsiz ağaca bənzər. (1)
Xəzan vaqtındağı düşə etibar yoqdur. (75)
Xəzinə xarabalıqda tapılar. (1)
Xəzinəyə tüpürənin tüpürcəyi öz saqqalına yapışar. (1)
Xıdır çıxdı – qış çıxdı. (1)
Xınalı əl cibə qoyulmaz. (1)
Xırçıya qarpız bağışlamazlar. (1)
Xırdavatçının andı özünə qənim olar. (1)
Xırman sonı abdallarındur. (49)
Xırmana girən porsuq yabanı özünə qəbul edər. (1)
Xırmanın axırı dərvişindi. (1)
Xırmanın tozu bərəkətli olar. (1)
Xış ilə məhsul olmaz, meydan maşın meydanıdı. (1)
Xış kötüyə dayanıb[1]. (1)
Xışa gedən öküzüm olsun, işə getməyən oğlum olmasın. (1)
Xırs ilən çuvala girmək olmaz. (49)
Xiyar pulu ilə alınan eşşəyin ölümü suda olar[2]. (2)
Xoca bizdə, xurcunu sizdə. (9)
Xocalar kağızı tərsindən oxuyar. (83)
Xoruz bannıyanda gözünü yumar. (18)
Xoruz bir kərə bəzənər[3]. (1)
Xoruz çox olan yerdə səhər tez açılar. (1)
Xoruz elə xoruzdu, nə qocası, nə cavanı?! (1)
Xoruz getdi, dava bitdi. (1)
Xoruz olmasa, səhər açılmaz[4]. (44)

---

1. (83)
2. (83), (1), (10), (14)
3. (83)
4. (2), (28), (37), (1)

Xoruz ölmüş, gözü çöplüydə qalmış. (1)
Xoruz öz küllüyündə banlar. (1)
Xoruz silkələnsə bir çəngə tük olar, dəvə silkələnsə bir ulağa yük olar. (1)
Xoruza quyruğu da yükdü. (83)
Xoruza quyruğu yük olmaz. (1)
Xoruzsuz da sabah açılar. (1)
Xoruzun saqqalı ağarsa da bahası on dörd şahıdı. (39a)
Xoruzun vəzifəsi banlamaqdı. (1)
Xoş günün sorağı uzaqlardan gələr. (1)
Xoş söz ürəyə qapıdı. (15)
Xoşrəftar ol, xoş gün görəsən. (1)
Xoyın-hünərin bilmədügün tavarın ardına dolaşma. (75)
Xörəyi doyunca yemə, gözün dalınca qalsın. (1)
Xörəyin dadı ağızdadı. (1)
Xörəyin yaxşısı – hazır olanıdı. (1)
Xublarda vəfa olmaz. (49)
Xunxa könlündən keçməyən, mehman könlündən keçər. (49)
Xunxa xunxa hesabın öz könlündə eylər. (49)
Xuryata bax, ufdanın qədrini bil. (18)
Xürəgin dadı duzdadı, dünyanın dadı güzdə. (19)

## İ

İbadət könül aydınlığıdur. (49)
İbadətdən səxavət irəlidi. (17)
İblis ilə mollanın sirri birdi. (1)
İç dedilər, çeşməni qurut demədilər. (1)
İç ədüki olanın yarı abdəsti bilədir. (75)
İçdim üzüm suyunu, tökdüm üzüm suyunu. (1)
İçərəm çaxırı, açaram baxırı. (83)
İçim əldən gedir, qırax-bucağı qoymur. (83)
İçim özümü yandırır, eşigim özgəni[1]. (54)
İçmə namərd əlindən su, abi-həyat olsa da. (1)

1. (83), (1)

İddəası tərlan, özü yapalaq[1]. (1)
İftira dağdan ağırdı. (1)
İgid arxasında igid gizlənər. (1)
İgid basdığını kəsməz. (1)
İgid canlı, kabab qanlı[2]. (1)
İgid döyüşdə bəlli olar nə ki, barışda[3]. (2)
İgid əyildi – sındı. (1)
İgid gərək ağasınun qulluğunda dosta dost, düşmənə amac ola. (49)
İgid gücüynən, nəsil giciynən tanınar. (18)
İgid igidə xor baxmaz[4]. (1)
İgid ilqarından dönməz, dəvə ovsarından. (1)
İgid qovğasız olmaz. (1)
İgid ləqəbilə tanınar. (1)
İgid meydanda bilinər[5]. (63)
İgid odur ki, apardığını gətirsin[6]. (1)
İgid odur, atdan düşüb atlana, igid odur, hər əzaba qatlana. (1)
İgid oğul cavan eylər atanı. (1)
İgid oğul düşmənə əyilməz. (1)
İgid ölər ünü qalar, öküz ölər gönü qalar. (1)
İgid ölər, adı qalar, müxənnətin nəyi qalar[7]? (1)
İgid səsinə güc verməz. (1)
İgid soy ilə, gözəl xoy ilə. (9)
İgid sözü üzə deyər. (1)
İgid ürəyi haça olar. (1)
İgid ya tər altda, ya yer altda. (1)
İgid yarasına igid qatlaşar. (1)

1. (83)
2. (83), (5)
3. (49)
4. (9)
5. (74), (1)
6. (83)
7. (49), (83)

İgid yarasız olmaz. (1)
İgid yüz yaşar, fürsət bir düşər. (1)
İgidə ehtiyat şərtdür. (49)
İgidə hünərinə görə ad verərlər. (1)
İgidə üç nəsnə hünərdür:” açub oxumaq, üzüb kecmək, atub urmaq.” (49)
İgidi ilan öldürər, dövləti yalan. (18)
İgidi qeyrət öldürür, dəvəni sərban. (49)
İgidi xamır, daşı mamır öldürər. (18)
İgidi yaxşı saxlar, yaxşı arvad, yaxşı at. (1)
İgidim igit olsun, kol dibi evim olsun. (83)
İgidin mənzili bir olar, namərdin mənzili olmaz. (1)
İgidin axmağı qılıncını dayısında sınar. (1)
İgidin başı qalda gərək[1]. (1)
İgidin başı sağ olsun, varlı da olar, varsız da. (1)
İgidin əli işdə gərək. (1)
İgidin fərsizi məqam gözlər. (83)
İgidin xəncəri qınında qalmaz. (1)
İgidin igiddən bir ehtiyatı artıqdır[2]. (55)
İgidin qapısı bağlı gərək. (83)
İgidin qılıncı, müəllimin qələmi. (9)
İgidin yaxşı dostu ömrü cavan eyləyər. (52a)
İgidliyin də yeri var. (1)
İgidün cövhəri uşaqluqda bəlli olur. (49)
İgit dögüşdə məlum olar, nə ki yarışda. (83)
İgit gərək ağasınun qulluğunda dosta dost, düşmənə amac ola. (49)
İgit iqrarından, dəvə ovşarından. (83)
İgitlik ondur, doqquzu gözə görünməmək, biri qaçmaq[3]. (83)
İgnə işin çuvalduz bilməz. (49)

---

1. (83)
2. (83), (1)
3. (5)

İgnə sapla, ucun düg, sonra peşiman olma. (49)
İgnəni özüvə, çuvalduzu yoldaşuva[1]. (83)
İl kalır, törü kalmas. (3)
İki adam bir adama qoşundu[2]. (2)
İki adam danışanda üçüncü adam danışmaz. (1)
İki ağız bir olıcaq bir ağız küt olur[3]. (75)
İki arvaddı kişinin xörəyi duzdu olar. (9)
İki arvadlı ev zibilli olar[4]. (2)
İki arvadlının ağzının dadı olmaz. (1)
İki arvadlının donu yırtıq olar. (1)
İki arvadlının qulağı, eşşək minənin də qıçı dincəlməz. (12)
İki at bir ağaca bağlanmaz[5]. (1)
İki ayaq bir başmağa yerləşməz. (1)
İki başlı heyvanlardan yox, iki dilli insandan qorx. (1)
İki butum sağ olsun, bulunmayan ər olsun. (75)
İki canbaz bir ipdə oynamaz[6]. (28)
İki çətik bir arslana tapdır. (75)
İki dalaşanın biri döyülər. (1)
İki dəvə əlləşəndə otluq xarab olar. (1)
İki dilənçi bir qapıda dilənməz[7]. (1)
İki dinnə, bir söylə. (15)
İki dişi var qabaqda, çörək qoymaz tabaqda. (1)
İki dostun arasına girməzlər. (1)
İki dovşan dalınca yüyürən heç birini tutmaz[8]. (57)
İki düşmən arasında elə söz danış ki, onlar barışanda utanma. (14)
İki düşün, bir danış. (1)

---

1. (1)
2. (81), (83), (1)
3. (1)
4. (46), (83), (1), (14)
5. (15)
6. (29), (83), (1)
7. (15)
8. (1)

İki eşit bir söylə. (28)
İki eşşəg - bir karvan, iki övrət - bir divan. (49)
İki eşşək bir axurdan arpa yeməz. (1)
İki eşşəkdən bir at yaxşıdır. (1)
İki evi bir eləmişik, düyünü batman yarım. (1)
İki evin urvasından bir fətir olar. (83)
İki əl başı saxlamayacaq?! (1)
İki əl bir baş içündür[1]. (49)
İki əli yaxasındadır. (1)
İki əlin var, öz ağzuvu dutarsan. (83)
İki fındıq bir qozu sındırar[2]. (55)
İki fındıx bir olsa bir qozun başını yarar. (83)
İki gəmi qulpın tutan tez ğərq olur. (75)
İki gəmiçi bir gəmini batırar. (28)
İki göz iki gözə baxsa, qulaq dincliyi yoxa çıxmaz. (18)
İki gözü var idi, birini də borc elədi. (1)
İki güləşənin biri yıxılar[3]. (2)
İki həkimi olan xəstə sağalmaz. (1)
İki xonaxlu naşta qalur. (49)
İki it bir aslana dov gələr[4]. (2)
İki itin arasına bir sümük atmazlar. (1)
İki keçi bir gəmini batırar[5]. (2)
İki kədbanu arasında ev süpürülməmiş qalur. (49)
İki kəsək bir daşa əvəz olmaz. (1)
İki kişi danışanda üçüncüsü sən olma. (1)
İki kişiyə bir kələçi. (75)
İki könül bir olıcaq samanlıq da saraydır. (75)
İki könüllü olma. (75)
İki qanat, bir quyruq, ana dəxi yel buyruq. (75)

---

1. (1)
2. (5), (1)
3. (28), (29), (83), (1)
4. (28), (29), (81), (83), (1)
5. (83)

İki qancıx bir qavda yal yeməz. (9)
İki qapıda gəzən köpək ac qalar. (1)
İki qarbuz bir qoltuğa sığmaz[1]. (75)
İki qardaş savaşmış, əbləh gerçək sanmış. (75)
İki qibləyə namaz olmaz. (1)
İki qılınc bir qına girməz. (83)
İki qoç başı bir qazanda qaynamaz. [2] (83)
İki qulaq iki eşitmək üçündür, bir ağız bir demək üçün[3]. (1)
İki mənə bir sənə, onun da yarısı mənə. (46)
İki nəfər desə ki, sərxoşsan, başını qoy yerə. (1)
İki nəsihətdən bir sərəncam yaxşıdı. (1)
İki ölünü bir qəbrə qoymağ olar, iki arvadı bir evdə saxlamağ olmaz. (15)
İki övrətlinin dirligi olmaz. (75)
İki padşah bir taxtda oturmaz. (9)
İki sevgi bir könüldə olmaz. (75)
İki su bir çörək yerini tutmaz. (1)
İki su bir xörəyin yerindədi[4]. (9)
İki tülki bir aslana bərabərdir. (49)
İki verməsən bir ala bilməzsən[5]. (2)
İki yabalaşanın birinin yabası sınmalıdı. (17)
İki yana baxan çaş qalar[6]. (1)
İki yumruq bir başa gücdü[7]. (2)
İkicə dişin dörd olsun, təknəmizə qurd olsun. (9)
İkinci arvad yamaqdı. (1)
İkisi birə dəyməz, biri heçə[8]. (1)
İkisinə üç lənət, hərəsinə beş lənət. (83)

---

1. (2), (61), (1)
2. (3), (81), (1)
3. (83), (15)
4. (13)
5. (1)
6. (9), (13), (14)
7. (28), (29), (83)
8. (83)

İkisininin sözüni üçünci tuyar. (75)
İkiüzlü adamdan dost olmaz. (1)
İl baharından bilinər. (1)
İl ili bilür. (75)
İl var bir günə dəyər, gün var bir ilə. (1)
İlan adamın topuğunu gözlər, adam ilanın başını[1]. (83)
İlan ağzından qurtardı, qurbağa ağzına düşdü. (1)
İlan balasını da çalar. (1)
İlan çıxdığı bacanı yaxşı tanıyar. (1)
İlan əvvəl ovsun qızdıranı sancar[2]. (1)
İlan hər yerdə əkri ketür, yuvasuna düz ketür[3]. (50)
İlan ilandı, o da toprağı bir tərəfi üstə yeyir. (7)
İlan ilandı, o da torpağı isrifnən yalayır. (14)
İlan ilanı vurmaz. (1)
İlan ilannığınnan torpağı yalar. (9)
İlan qabığını dəyişər, xasiyyətini dəyişməz. (1)
İlan qonşısına dəgməz[4]. (49)
İlan öz əgrisin görməz[5]. (49)
İlan vuran ala çatıdan qorxar[6]. (2)
İlan şəkər yisə də zəhər qusar. (18)
İlan üzdən xal-xal olur, insan içəridən. (1)
İlan vuran yatar, ac yatmaz. (1)
İlan yatar, düşmən yatmaz[7]. (1)
İlan yulduz görməyincə ölməz[8]. (49)
İlan yuvasına girəndə dəvə də çıxarda bilməz. (14)
İlana ağunu kərtənkələ verər. (1)
İlana balası qənim olar[1]. (2)

---

1. (1)
2. (83)
3. (44), (2), (37), (54), (83), (1)
4. (83), (1)
5. (83)
6. (44), (49), (54), (83), (16), (13), (1)
7. (12)
8. (44), (83), (1), (12)

İlana yaxşı deyən, cəllada fağır deyər. (9)
İlana yumşaq deyüb əl vurma! (49)
İlanı görənə lənət, görüb öldürməyənə lənət, öldürüb basdımayana lənət[2]! (1)
İlanı özgə əlilən dutmaq olmaz. (49)
İlanı sən tut, mən gözünü çıxardım. (1)
İlanı Seyyid Əhməd Əli ilə dutur. (83)
İlanı xoş dil ilən dəlükdən çıxarmaq olur. (49)
İlanı yuvasında öldür. (1)
İlanın ağına da lənət, qarasına da[3]. (49)
İlanın başını özgə əli ilə əz[4]. (1)
İlanın boğazına girən çıxmaz. (1)
İlanın dili, dəvənin kini. (14)
İlanın quyruğunu basmasan sancmaz[5]. (1)
İlanın quyruğunu yox, başını əzərlər. (1)
İlanın ölümü gələndə, çıxar yol üstündə yatar[6]. (9)
İlanın zəhərrisi daş altındadı. (18)
İlanla dostlux eləmək olmaz. (12)
İldə başa gəlməyən, dildə başa gələr. (1)
İldızı barışmayanın salamı da savaşdı. (83)
İlikli sümük ağır olar. (6)
İlxıçının qazancı havayı minməkdi[7]. (1)
İlk atılan daş uzaq gedər. (1)
İlk sonanı uçmaqda görmüşlər. (75)
İlki qız olanın mülki qızıl olar. (10)
İllər keçür, aylar dolanur, quş bir kərrə bir budağa düşür. (49)
İllər min yaşar, bəglər yüz. (49)
İllər qocaltmaz insanı, qüssə qocaldar. (1)

---

1. (83), (12), (1), (14)
2. (83), (14)
3. (2), (28), (29), (5), (83), (1)
4. (83)
5. (83)
6. (83), (1)
7. (83)

İllərü adı yaqın olur. (75)
İllətlə dirilən möhnətlə can verər. (75)
İlmənin ucunu tutanda iş yoluna düşər. (1)
İlqar imandandı. (1)
İlqarı olmayanın imanı da olmaz. (83)
İlqarından dönən namərddi[1]. (1)
İlətdügınə yayan yüridi. (75)
İmam cəmaətin qulıdır. (75)
İmam evindən aş, ölü gözündən yaş çıxmaz. (33)
İmam əzizdi, qara pul imamdan da əzizdi. (1)
İmam olan kişi cəmaətin qəhrin çəkmək gərək. (75)
İmam şaftalı ağacı deyil ki, hər yerdə bitə. (1)
İmam üçün də ağla, yezid üçün də. (9)
İmamın imam olması cəmaət əlindədir. (75)
İmamzadə piy gətirəni tanıyar. (1)
İman əziz, pul imannan da əziz[2]. (9)
İmanı satıb əppəginə qatıq eyləyir. (83)
İmanlu qullarda yatluluq yoqdur. (75)
İmtahan yerdədi, göydə degil[3]. (83)
İn dinlən, bin dinlən. (75)
İnamsız olmaq ən böyük günahdı. (12)
İnanma gəl dostuna, saman təpər püstünə. (49)
İnamı öldürmək adam öldürməyə bərabərdir. (40a)
İncələn yerdən üzülür[4]. (2)
İndi ki, nisyədi, astarını gülü-xəndan elə. (1)
İnəh duza allanar, insan – sözə. (15)
İnək elə xar oldu – eşşəyə çidar oldu. (16)
İnək göz eyləməsə, kəl sıçramaz. (83)
İnək kimi süd verməyən, öküz kimi kotan sürər[5]. (1)

---

1. (83)
2. (83)
3. (18)
4. (83)
5. (83)

İnək sağan inək sağanı alladammaz[1]. (9)
İnək su içsə süt, ilan su içsə zəhər əmələ gələr[2]. (57)
İnəyi itən soraq eylər. (1)
İnəyin buynuzuna baxarlar, qızın üzünə. (1)
İnəyin südünü əmir, buzoya arıx deyir. (9)
İnəyin üzünə bax, südünü sağ. (1)
İnsaf din yarısıdır[3]. (75)
İnsaf qanunların anasıdı. (1)
İnsafı olmayan abat olmaz. (18)
İnsafı olmayanın imanı da olmaz[4]. (2)
İnsafsız ağa, yağmursuz hava. (14)
İnsan çalışmaq içün doğmuşdur[5]. (29)
İnsan daşdan bərk, güldən zəifdi. (1)
İnsan dilindən dağlanar, heyvan belindən. (14)
İnsan dostunu, düşmənini tanımalıdı. (1)
İnsan el ilə, dəyirman yel ilə. (15)
İnsan inamnan yaşayır. (12)
İnsan xain olmasa, heyvan damğanı neylər? (1)
İnsan xoş günə dözməz[6]! (2)
İnsan qocaldıqca aynaya baxmağı az istər. (1)
İnsan məxluqatın əşrəfidi. (1)
İnsan oldur ki, kəndüyə güç gətürməyə. (75)
İnsan olmayan insanın qədrini bilməz. (1)
İnsan öz-özünə elədiyini aləm yığılıb ona eyləyə bilməz[7]. (44)
İnsan səy və qeyrəti ilə tanınar, bəzəyi ilə tanınmaz. (1)
İnsana hər nə olsa toxluqdan olar. (83)
İnsana nə gəlsə dilindən gələr. (60)

---

1. (12)
2. (1)
3. (49), (2), (83), (1)
4. (83), (1)
5. (31), (2), (51), (83)
6. (81)
7. (83)

İnsanda kərəm gərək həqiqət. (49)
İnsanı göz coşdurar, qazanı od. (45)
İnsanı qayğı qurudar, dərd qocaldar. (12)
İnsanı yaşadan arzu ilə ümiddir. (1)
İnsanın bir əvvəli, bir axırı. (83)
İnsanın bir özü, bir sözü[1]. (1)
İnsanın dəlisi daşa güc eylər, öküzün dəlisi başa[2]. (1)
İnsanın dili sandıq, dodaqları qıfıl olmalıdı. (1)
İnsanın əbləhi gəda olar, itin əbləhi tula. (37)
İnsanın əti yeyilməz, dərisi geyilməz, ancaq şirin dili gərək! (1)
İnsanın gözü topraqdan doymaz. (55)
İnsanın gözünü bir ovuc torpaq doydurar[3]. (1)
İnsanın işi yaramazlığa eyilik etməkdir; yaramazlığa yaramazlıq heyvan işidir. (75)
İnsanın qudurmuşu, itin qudurmuşunnan betərdi. (9)
İnsanın zilləti də, izzəti də öz əlindədi[4]. (1)
İnsanlar danışmaqdan qalanda, daşlar danışmağa başlar. (1)
İntizarluya söhbət haramdur[5]. (49)
İnək qanda yügürürsə-yügürsün, tək evdə buzalansın. (75)
İnək südünə görə mələr. (75)
İp nə qədər uzun olsa doğanaqdan keçəcək. (2)
İp uzun, dil gödək[6]. (9)
İpək köhnələndə eşşəyə palan olar. (6)
İpək necə xar olub, eşşəyə çuval olub! (1)
İpək yumşaq olduğundan qılınc kəsməz. (83)
İrağ yerün dögməcin hola ilən dögərlər. (49)
İrağdan tiryək gəlincə ilan vuran ölər. (83)

---

1. (15)
2. (83)
3. (12)
4. (5)
5. (2), (83)
6. (1), (12)

İrəli gedəndə burnuma, geri qayıdanda davanıma. (9)
İrəmədə yovşan da yiyəsiz bitməz. (14)
İri yağış tez kəsər. (12)
İriz eşşəyin, fel gəlinindir[1]. (81)
İrz insanın qanbahasıdı. (1)
İrz puldan qiymətlidi. (1)
İsa içün Musayı qınama. (75)
İsa öz yerində, Musa öz yerində. (1)
İsa tək kişiyə verib bir eşşək, eşşək tək bir kişiyə verib min köşək. (1)
İslanmışın yağışdan nə bakı[2]? (2)
İsmarışnan haj qavıl olmaz[3]. (9)
İssi aşdan qorqan sovuğı üfürüp yiyər. (75)
İssi-sovuq bizim içündür. (75)
İssin ağırlayan itinə gəmik verər. (75)
İssinə bənzəməyən oğurluqdur. (75)
İssiz olanın issi çoq olur. (75)
İssiz yerləri keyiklər bilür. (75)
İstədi qaşını düzəldə, vurdu gözünü çıxartdı[4]. (44)
İstədigim yar idi, yetirdi pərvərdigar[5]. (49)
İstədiyini söyləyən, istəmədiyini eşidər. (1)
İstək gözdə olur[6]. (44)
İstək olan yerdə umu-küsü də olar. (40)
İstəməgün çarəsi verməkdür. (49)
İstəmək bir eyib, verməmək bir eyib. (49)
İstərəm dosta varam, əlim boş, üzüm qara[7]. (5)
İstərsən bal-çörək, al əlinə bel-kürək[8]. (83)

---

1. (83)
2. (55), (5), (49), (83), (13)
3. (13)
4. (1)
5. (83), (1)
6. (83), (1)
7. (83), (1)
8. (2), (6)

İstəyən bulur. (49)

İstəyən Tanrısını bulur. (75)

İstəyənin bir üzü qara, verməyənin iki yüzü[1]. (2)

İstəyirsən qocalıqda hörmətin olsun, cavanlıqda hörmət elə. (1)

İsti çörək təndirdən, minnəti yox pendirdən[2]. (1)

İsti qəvir soyux yastıxdan yaxşıdı. (9)

İsti sevən tüstüsünə dözər. (1)

İş adamı bəyan eylər. (1)

İş bacaranın, aş yeyənindi[3]. (1)

İş başı sağlıqtadır. (75)

İş başından aşınca, dövlət cibindən daşar[4]. (1)

İş başqa, söz başqa. (1)

İş bilən müşküldə qalmaz. (1)

İş bir-bir olur. (75)

İş buyur tənbələ, ağıl öyrətsin sənə. (33)

İş danışıqdan keçər. (1)

İş dediyin eşşək cinsidi, bizləməsən, getməz. (12)

İş düzələndə uğur qənşər gələr. (4)

İş əldən, söz dildən, oğul beldən gəlməsə faydası yox. (39)

İş əndazədən çıxanda yazıx biçarə neyləsin. (18)

İş görənindi. (1)

İş içində iş var. (1)

İş igidlər başına gələr. (1)

İş ilə zarafat olmaz. (1)

İş insanı təmizdiyə çıxardar. (9)

İş insanın cövhəridi[5]. (83)

İş işi açar. (1)

İş işi göstərür[1]. (49)

---

1. (28), (29), (37), (5), (1), (9), (13)
2. (83)
3. (75)
4. (15)
5. (33)

İş kələfin ucunu tutmaqdadı. (1)
İş ki, düşdü sarıq başa, başım dəyər daşdan daşa. (4)
İş ki, qaldı arvada, ölən günü sal yada. (9)
İş ki, qaldı səvirə, tut yönünü qəvirə[2]. (9)
İş qıcanmağı yox, gücenmağı sevər. (10)
İş qolayın issi bilür, anunçun assı bulur. (75)
İş odur Tanrıya vara[3]. (54)
İş olan yerdə nöqsan da olar. (1)
İş olanda qız deyər: ərə gedəcəm, gəlin deyər: doğacam, qarı deyər: öləcəm. (14)
İş oldur, Allah ona rah, söz oldur yerin ala. (49)
İş onu görənnən qorxar. (9)
İş saqqala qalsa, keçiyə də axund deyərlər. (33)
İş tədbir ilən gərək. (49)
İş tərs gələndə, xəşil də diş sındırar. (14)
İş tərs gətirəndə, burunun suyu gözə damar. (14)
İş tərsə gələndə tər halva diş çıxardar. (1)
İş yuxu görəndə deyil, yuxu yozandadı. (1)
İşdə mənim üçün, öyrən özün üçün. (9)
İşdən artmaz, dişdən artar[4]. (2)
İşdən qaçan əl açar. (10)
İşdənən dəmir pasdanmaz. (13)
İşdəyənin ömrü uzun, işdəməyənin günü qısa olar. (14)
İşdi keçəl ərə gedər, pinti gözəl gora gedər[5]. (46)
İşə getmiyən oğlum olsun, vələ getmiyən öküzüm[6]. (46)
İşə xor baxma, boynuva torba taxar. (1)
İşıx gələn yerə papağını tıxayar. (12)
İşi düşəndə arar məni, aşı bişəndə qovar məni[7]. (83)

1. (2), (55), (83), (5)
2. (13)
3. (77)
4. (83)
5. (12)
6. (83), (9)
7. (1), (9), (10)

İşi əndazədə gör. (1)
İşi göz yeyər. (75)
İşi həjətlə görəllər, höjətlə yox[1]. (12)
İşi iş görənə verəllər. (12)
İşimiz düşdü qaza, qaz da özünü qoydu naza. (9)
İşin canını iş alar. (1)
İşin düşdü arvada, ölən günün sal yada[2]. (1)
İşin düşdü qazıya, özün döndün tazıya. (1)
İşin düşdü sarıq başa, başın dəyər daşdan daşa, yapışginən əyri xışa, get o başa, gəl bu başa. (1)
İşin düşdü xalıya, deynən düşdü balıya. (9)
İşin pissə şahid ol, borcun yoxsa zamin ol[3]. (2)
İşinə yaxşı baxarsan, iş də sənə yaxşı baxar. (1)
İşinin ardını bilən başayax suyu içməz. (18)
İşlə, dişlə[4]. (54)
İşlə nökər kimi, ye ağa kimi. (1)
İşləməgə ərinən yeməgə həsrət olur. (49)
İşləmək adamı sağə çıxardar[5]. (2)
İşləməyən dişləməz[6]. (76)
İşləməyən dəmiri pas tutar. (33)
İşləyən açar parıldar. (1)
İşləyən atı töylədə bağlasan, çəngi olar. (1)
İşləyən dişlər, işləməyən kişnər[7]. (1)
İşləyən inci taxar, işləməyən yandan baxar. (1)
İşləyən olsun, iş tapılar. (1)
İşləyənlə işləməyəni bir ayağa yazmazlar. (1)
İşsizlik arsızlıq gətirər. (1)
İşsizlik fəqirliyin açarıdı[1]. (2)

---

1. (10), (14)
2. (12)
3. (83), (5)
4. (1)
5. (83), (5), (1)
6. (83), (1), (9)
7. (54)

İşşəgə minmək bir eyib, düşmək iki eyib[2]. (49)
İştaha diş altında olur[3]. (44)
İştancağın yuxusuna beş arşın bez girər[4]. (83)
İştəha bəndədən, çörək səndən. (83)
İşuqlarla irişənin adıyla sanı yetər; danişməndlərlə irişənin dini ilə imanı yetər, bəglərlə irişənin başıyla malı yetər. (75)
İt ac qalanda əski küllükləri axdarar. (54)
İt acından oğurluq eylər[5]. (2)
İt ağzın gəmik dutar. (75)
İt araba kölgəsində yatar, elə bilər öz kölgəsidi[6]. (5)
İt ardına düşən leş üstünə çıxar. (1)
İt arıxlığını qurda bildirməz. (9)
İt aya hürər, başına bəla gətirər[7]. (1)
İt ayağın karvandan kim kəsər[8]. (49)
İt ayıbını bilsə, əyninə tuman geyər. (15)
İt azıydı, biri də gəmiynən keşdi. (9)
İt balası it olur. (1)
İt başınnan ayrı yatmaz. (18)
İt bilir xurcunda nə var, çoban da bilir itə nə verəcək. (1)
İt bir parça çörəyə də qane olar. (1)
İt boş yerə hürməz. (9)
İt dartdığını bilir, udduğunu bilmir. (15)
İt də duz-çörəyi itirmir. (12)
İt də getdi, ip də getdi. (1)
İt də öz qapısında ağadı. (1)
İt də öz yediyini qusar. (1)
İt də yəəsiz olmasın. (18)

---

1. (83), (1)
2. (83), (5), (13)
3. (5), (83), (1), (14)
4. (50)
5. (28), (29), (83)
6. (1), (9)
7. (83)
8. (2), (81), (83)

İt də yuxa yeyər, dürmək qayırmaq bilsə[1]. (55)
İt dəm vuran ayranı kim içəcək?! (1)
İt dəmürçi dükanından nə aparur[2]? (49)
İt dərisi kimi iylənmə. (9)
İt dərisin dabbağ götürməz. (49)
İt dəvəyə hürər, dəvə eşitməz. (1)
İt deyər: Yiyəmin yeddi oğlu olsun, qapıya çıxanda hərəsi mənə bir loxma çörək tullasın. Pişik deyər: Yiyəmin yeddi qızı olsun, özü də kor. Bir-bir yeddisinin də əlindəki kökəni qapım, yeyim. (14)
İt dişi tonquz dərisi, ov yetənəkdir. (49)
İt dişi tonuz dərisinə münasibdir. (75)
İt dişiynən, igit işiynən tanınar. (18)
İt elə bilər ki, pişik evdə yatmaqla ev yiyəsidir. (16)
İt evinnən qurut umur. (9)
İt əkməgə, uşaq məhəbbətə[3]. (49)
İt əkməkdən qaçmaz. (49)
İt əl çəkib, motal əl çəkmir[4]. (2)
İt gəldi apardı, yanda yatdı, palçığa batdı. (55)
İt getdi, ipi də getdi. (83)
İt hardan tapa iki əppəyi, birini başı altına qoya, birini yeyə. (1)
İt hürə-hürə qurt gətürür. (49)
İt hürər başına qal gətirir[5]. (54)
İt hürər, cərci gəlir, elə bilirəm, elçi gəlir[6]. (83)
İt hürər, karvan keçər, yel qayadan nə aparır[7]. (2)
İt hürməmiş, küçük hürməz. (18)
İt hürməsə də, quyruğu çömbər gərək. (1)

1. (11)
2. (54), (55), (1)
3. (1), (9), (14)
4. (83), (1), (9)
5. (83)
6. (1)
7. (49), (44), (28), (29), (54), (5), (1)

İt ilə yoldaş ol, amma ağacını əldən qoyma[1]. (44)
İt issinə ürməz. (75)
İt it ilə dalaşanda qurd körpünü aşar. (1)
İt itdigini tərk etsə, sümsüklügünü tərk etməz. (83)
İt itə buyurar, it də öz quyruğuna. (1)
İt iti görəndə quyruğunu buduna qısar. (55)
İt iti yiməz, it əti yiməz[2]. (83)
İt itilən savaşur "qurdu belə qavar". (49)
İt itin ayağını basmaz[3]. (44)
İt itin dişindən qorxar[4]. (2)
İt itin yoldaşı, şundul onun qardaşı. (18)
İt itlə boğuşar, yolçunun işi rast gələr[5]. (2)
İt itlə savaşdı, yolçuya girəvə düşdü[6]. (83)
İt itnən savaşanda bir ayağını dalda tutar. (54)
İt iyəsi qapusunda gücli olur. (50)
İt iyəsinə hürmək eyib olmaz. (50)
İt kimi nə yeyər, nə yedirdər. (1)
İt kölgəsindən qorxar. (1)
İt qorxduğu yerə hürür[7]. (2)
İt qorxusundan oğurluğa gitməz. (83)
İt qovlamır, torba götürmür. (18)
İt quduranda yiyəsini də qapar[8]. (1)
İt qulağını kəsəndən qorxar[9]. (2)
İt qursağı yağ götürməz[10]. (49)
İt nə görsün, nə də hürsün. (1)

---

1. (5)
2. (5), (28)
3. (2), (37), (48), (83), (1), (12), (13)
4. (81), (83), (12)
5. (5), (81), (83), (6), (13), (14)
6. (49), (16), (18)
7. (81), (1), (83)
8. (49), (9), (18)
9. (5), (77), (1), (18)
10. (44), (2), (74), (5), (81), (83), (1)

İt nə qanır, qayğanax nədi? (7)
İt nədi ki yunu nə ola[1]. (37)
İt oğludur qurd basır[2]. (55)
İt ola, ət ola, dayana. (6)
İt olsun, yiyəsinin qapısında olsun. (1)
İt otun üstə yatır; nə özü yeyir, nə də yeyənə verir. (9)
İt oyun ilə, qurd qoyun ilə. (1)
İt özü nədi ki, südü nə ola[3]? (1)
İt özüdü, qurdu mənə göstərir[4]. (1)
İt özündən təmizini bilməz[5]. (83)
İt pişik ilə yola getməz. (1)
İt sümsünməkdən əl çəkməz. (1)
İt sümüyü ölçüb udar. (1)
İt sümüyü sevinə-sevinə udar, tamaşadı xirtdəyinə gələndə. (1)
İt ular, payını kəsər. (1)
İt ular, üstünə qurd gətirər. (1)
İt uluya-uluya başına qal gətirər. (83)
İt yala, qız şala. (10)
İt yanına bəy kimi, bəy yanına it kimi[6]. (1)
İt yediyini qusar[7]. (44)
İt yiyəni it tükünnən sağaldallar. (9)
İt yiyəsi qapusunda gücli olur. (49)
İt yunluyanda doşan bağda şahlıx eliyir. (18)
İtçə it yalağın qorur. (75)
İtdən çox çarıx aparan olmaz, genə ayaxları yalındı[8]. (37)
İtdən küçük olar, qoyundan quzu[1]. (1)

---

1. (83), (5), (1)
2. (1)
3. (83)
4. (17)
5. (11), (14), (15)
6. (9)
7. (2), (55), (54), (83)
8. (83), (1), (14), (15), (16)

İtdən qurtardıq, qurda rast gəldik. (1)
İtə arpa atır, ata sümük. (14)
İtə atmağa daşı yoxdu. (1)
İtə bax, qarpızdan pay istəyir. (1)
İtə bir sümük versən, sülhə gələr, namərdə canını versən, vəfa etməz. (33)
İtə dedilər: - Nə üçün hürürsən? Dedi: - Qorxuduram. Dedilər: -Nə üçün quyruğunu bulayırsan? Dedi: - Qorxuram[2]. (1)
İtə də bir çörək borcludu[3]. (1)
İtə didilər: gündə neçə kərə dögülürsən? Didi: köpək oğluna rast gəlməknəndi. (83)
İtə hörmət edərlər yiyəsi xatirinə. (83)
İtə hürmək qalar[4]. (54)
İtə qoşulan it damına düşər. (14)
İtgi itirən soraq edər. (83)
İtgiçi atası qoyunun arar. (49)
İtgiçinün acısı dabandan çıxar. (49)
İti dalıma almışam – qurd qorxusundan. (1)
İti itə boğdurarlar. (1)
İti qaçan atı məhmizləməyin mənası yoxdu. (1)
İti qısqırtmasan hürməz. (1)
İti quyruğundan bağlasan durmaz. (1)
İti öldürən sürüyü bilür[5]. (75)
İti sel aparmaz. (5)
İti yiyəsinə görə tanıyəllər. (11)
İti yiyəsinə tanıtdırma. (1)
İti yuduqca mundar olar. (83)
İtik itiyi tapar. (9)
İtin acığı quyruğundan bilinər, atın acığı qulaqlarından[1]. (1)

---

1. (9), (13)
2. (83)
3. (83)
4. (1)
5. (2), (37), (39), (1), (13)

İtin adın an, ağacı əlinə al[2]. (2)
İtin axmağı qayqanaqdan da pay umar[3]. (83)
İtin axmağı tula olar, atın axmağı yorğa[4]. (1)
İtin alası çaqqalın dayısıdı. (1)
İtin ayağını basarsan, səni qapar. (1)
İtin başını xonçaya qoyanda diyirlənib düşər[5]. (44)
İtin dirisi nədi ki, ölüsü nə ola? (1)
İtin dişi, donuzun dərisi[6]. (44)
İtin dişinə it dayanar. (9)
İtin duası qəbul olsa, göydən ət yağar. (1)
İtin əbləhi qaysavadan pay umar[7]. (1)
İtin ətini yeyərəm, qəssabın minnətini çəkmərəm. (1)
İtin harınnığı ətin bolluğunnandı. (18)
İtin hürəni yox, tutanı yaxşıdı. (14)
İtin issi var isə, tovşanın Tanrısı var. (75)
İtin könlü şamdaydı, fələk də vurdu sama saldı. (83)
İtin könlünə qalsa, gündə bir leş yeyər. (1)
İtin kiçiyi olasan, qardaşın kiçiyi olmayasan. (39)
İtin qabağından qalanı aslan yeməz. (1)
İtin qohumu it olar. (1)
İtin qulağını kəsəndə qanıxar. (40)
İtin qulağın kəsərsən, sırğa olur. (49)
İtin qulağını kəsməklə tula olmaz. (55)
İtin qulağını kəssən, beşi deyər uzundu, beşi deyər gödəkdi. (14)
İtin qulağını küçük ikən kəsəllər. (9)
İtin quyruğunu kəsməknən qoyun olmaz. (18)
İtin quyruğunu qəlibə salsan, düzəlməz. (1)

---

1. (83), (15)
2. (83), (1)
3. (44), (12)
4. (55), (14)
5. (2)
6. (2), (55), (54), (83), (5)
7. (83)

İtin payını ata verməzdər. (9)
İtin payını yel gətirər[1]. (9)
İtin peşəsi hürməkdi. (1)
İtin pisdən töbə eliyəni keçəndə iyniyib keçər. (18)
İtin yanına daldan get, atın yanına qabaqdan. (83)
İtini haya öyrətmə, qonşunu paya. (1)
İtlə yoldaş ol, ağacuvu əldən qoyma. (83)
İtsiz kənddə ağaşsız gəzəllər. (9)
İy bilməyən tula olmaz, dərisini kola verməz. (1)
İydə varsa, cəhrədə də var, onu əyirən qarıda da var[2]. (1)
İydə varsa, tağalax da var. (9)
İyəsi itinə sümük atar. (49)
İyi deyənim olsun, Urumda olsun. (17)
İyid hünərdə, at minərdə. (13)
İyidin sözü bir olar. (12)
İyidin sağı-solu olmaz. (9)
İyimiş ətə milçək qonar. (1)
İyirmi mədaxili, iyirmi bir məxarici olanın vay halına. (1)
İyirmisində yel çəkən altmışında sızıldar. (1)
İylənmiş suyu içməzlər. (1)
İynə batırana çuvalduz batırarlar. (1)
İynə gözündən baxaram, cümlə-cahanı yıxaram. (1)
İynə hara, sən də ora. (1)
İynə ucu qədər bir deşik bir küpü boşaldar. (1)
İynən də itəndə gözün itikçidi. (18)
İynəni itirən dəvəni itirər. (1)
İynənin işini çuvalduz görməz. (1)
İynənin qədri düymə qırılanda bilinər. (18)
İyədən bölür, inləyən ölür. (75)
İyəvən qız ərə varmaz, varırsa da, bəxt bulmaz. (75)
İz eşşəyindi, feli gəlinin. (46)
İzzət ilən ölmək, xar dirilməkdən yegdür. (49)

1. (12)
2. (17)

**K**

Kabab iyinə getmişdi, gördü eşşək dağlayırlar. (83)
Kababı köz öldürər, igidi söz. (1)
Kafır əkməgin yeyən, kafir muzdına salavat verür. (49)
Kağız dözər, qələm yazar. (12)
Kahilliq kafırlıqdur. (49)
Kamal ata kürki deyil ki, irs ilə övlada keçə. (1)
Kamalsızın iynəsi gödək, sapı uzun olar. (18)
Kamil adam az danışar. (1)
Kamil bağban çəkər bağın səfasını. (1)
Kamil insan kəlamından bəlli olar[1]. (2)
Kamil kamili tanır[2]. (2)
Kamil ovçu boşuna güllə atmaz[3]. (1)
Kankanın vəsiyyəti qızıl öküzdü[4]. (1)
Kar eliyən ar eləməz. (13)
Kar eşitdiyini, kor tutduğunu buraxmaz. (1)
Kar eşitməz, yaraşdırar, kor görməz, quraşdırar[5]. (1)
Kar iki dəfə gülər[6]. (1)
Kar könlündəkini anlar[7]. (2)
Kar nə bilir taqqıltı hardan gəlir. (14)
Kar üçün iki dəfə azan verilməz. (1)
Karsaz pərvərdigarı bilmək gərək. (49)
Karvandan üzülən sərgərdan qalur. (49)
Kasa aşdan irəli olub[8]. (83)
Kasa kasaya girməyincə qarnı qabarmaz. (75)
Kasad bazarın gəliri olmaz. (1)
Kasıb bacını varlı qardaş istəməz. (1)

---

1. (81), (83), (1)
2. (83)
3. (12)
4. (83)
5. (83)
6. (14)
7. (28), (29), (46), (81), (83), (1)
8. (5)

Kasıb bulsa məxmər giyər. (83)

Kasıb cavan mərd olar[1]. (1)

Kasıb çıraq yandırar, dövlətlinin pulunu sayar. (1)

Kasıb ət tapanda od tapmaz, od tapanda ət[2]. (83)

Kasıb geyəndə soruşarlar: - Hardandı? Varlı geyəndə deyərlər: - Mübarəkdi. (1)

Kasıb xərcini bilsə, gündəliyinə məxmər geyər[3]. (44)

Kasıb işdiyər, ağa dişdiyər. (18)

Kasıb köçəndə varlanar. (14)

Kasıb öləndə molla xəstə olar[4]. (1)

Kasıb ölüsünə yas saxlamaz. (1)

Kasıb paççah olsa, arvadı öydən qovar. (18)

Kasıb pul tapdı, yer tapmadı[5]. (2)

Kasıb ürəkli olar. (14)

Kasıba bazarın tulası da hürər. (1)

Kasıba oğul olunca, dövlətliyə qul ol[6]. (1)

Kasıbdan Allah da bezardı[7]. (1)

Kasıbı dəvə üstündə büvə vurar[8]. (5)

Kasıbın ağzı aşa dəyəndə başı daşa dəyər. (1)

Kasıbın bir oğlu oldu, o da boynu əyri. (1)

Kasıbın dörd düşməni var: - it, bit, yasavul, molla. (1)

Kasıbın dürməyi yavan olsa, dili yağlıdı. (1)

Kasıbın gözü tox olar. (1)

Kasıbın günü – itin günü. (1)

Kasıbın halını kasıbdan sor. (1)

Kasıbın malı başının altında gərək. (83)

Kasıbın sacı çörəgi qurtaranda qızar[1]. (83)

---

1. (9), (14)
2. (5)
3. (28), (29), (2) (5), (81), (83), (1), (9)
4. (6)
5. (5), (83), (1)
6. (83)
7. (83)
8. (83), (1)

Kasıbın saxası şeytandandı. (83)
Kasıbın sözü, ulğunun közü[2]. (1)
Kasıbın toyunda gecə qısa olar[3]. (1)
Kasıblıq eyib deyil, oğurluq eyibdi[4]. (1)
Kasıf itini yallı saxlar. (9)
Kasıf varrıya çatammaz, əmə varrı kasıva çatar. (9)
Kasıv işi güc-qəvvətlə, varrı var-dövlətlə. (12)
Kasıvı atdıx öldürər, varrını qorxu görər. (12)
Kasıvın uşağı, varrının quzusu çox olar. (12)
Kasıvın bir atı var, o da ayğır. (9)
Kasıvın əli heş nəyə çatmaz. (12)
Kasıvın halın soruşan az olar. (12)
Kasıvın malını aldın, canını aldın, birdi. (9)
Kaş mal zərəri olsun, insan zərəri olmasın. (1)
Katda olma, başın ağrımasın. (9)
Kahal öküzün canı xodur. (75)
Kahal övrət beşigi yaturkən önərür. (75)
Kahala yumuş buyursan, yedi kitablik nəsihət edər. (75)
Keçəl başa dəgdi daş, axdı qan, çıxdı can[5]. (46)
Keçəl başda dəlləklik eləmə. (9)
Keçəl başından qorxar, kor gözlərindən. (1)
Keçəl başını yudu da, daradı da. (1)
Keçəl baxar güzgüyə, adını qoyar özgəyə[6]. (1)
Keçəl bəzənincə toy Karakasdan keçdi[7]. (46)
Keçəl darax gəzdirməknən başı tüklənməz. (18)
Keçəl dəva bilsə öz başına eylər[8]. (49)
Keçəl halva yeyər, puluna minnət[1]. (1)

---

1. (14), (18), (1)
2. (83), (14)
3. (14)
4. (83)
5. (83)
6. (83), (13)
7. (83), (1), (15)
8. (2), (83), (5), (1)

Keçəl hiyləbaz olar, görən fitnə. (83)
Keçəl qız bacısının saçıilə öyünər. (1)
Keçəl qız çeşmənin gözündən su içər. (1)
Keçəl qızı saçlı deyə ağlama. (1)
Keçəl qızın baxdı açılanda yel vurar, şalını açar. (18)
Keçəl qızın nəyi var? – Başın qaşımağa dırnağı. Keçəl qızın nəyi var? – Dəmirdən darağı. (1)
Keçəl suya getməz[2]. (46)
Keçəl yağ tafsa, başına yaxar. (9)
Keçəl yarar idi, öz başını darar idi[3]. (46)
Keçəli gün çıxmamış gör[4]. (1)
Keçəli papağının yanından tanıyarlar. (1)
Keçəlimə baxma, baxtıma bax[5]. (46)
Keçəlin dərdi-başı bir qazan ayran aşı[6]. (1)
Keçəlin dırnağı olsa, öz başını qaşıyar. (1)
Keçəlin güzgüdən zəhləsi gedər. (18)
Keçəlin qazandığı başının ziftinə gedər. (1)
Keçəlin papağı düşüncədi[7]. (46)
Keçəlin tükdən acığı gələr. (1)
Keçən bəla bəlürməz. (75)
Keçən görünməz. (75)
Keçən gün ömürdəndi. (1)
Keçən gün quşa bənzər, uçdu, qayıtmaz. (12)
Keçən günə gün çatmaz, calasan günü günə[8]. (2)
Keçən günə heyfsilənmə. (12)
Keçən keçdi, vay gələcək dərdidi[9]! (1)

---

1. (83), (5)
2. (1), (9)
3. (83), (1)
4. (15)
5. (83), (1)
6. (14)
7. (1)
8. (54), (83)
9. (83), (18)

Keçən zaman qayıtmaz. (1)
Keçənə güzəşt deyiblər[1]. (1)
Keçər bu dövran, sənə də qalmaz. (1)
Keçi axurda yatar. (9)
Keçi can qayğısındadı, qəssab piyin axtarır[2]. (2)
Keçi düşüf qovuna, cərmə oluf qoyuna. (9)
Keçi handa, qaya handa[3]. (83)
Keçi haramzada olur. (75)
Keçi kasıbın inəyidi. (1)
Keçi keçidi ki, yatdığı yeri dırnaxlar. (9)
Keçi keçim olsun, oturduğum yer samanlıq. (1)
Keçi qaçmaxda ceyran olmaz. (12)
Keçi öldü, qoturu qurtardı[4]. (1)
Keçi öləndə quyruğunu dik tutar. (1)
Keçi sənin qulundu[5]. (2)
Keçi sənin, biz mənim. (83)
Keçi suyı bəgiri-bəgiri keçər[6]. (75)
Keçi sürünün qabağında gəlsə də, "qoyun gəldi"deyirlər. (6)
Keçi şərab içsə, dəvəyə meydan oxuyar[7]. (1)
Keçi yatduğı yeri eşər, yatur[8]. (75)
Keçidə saqqal var, amma şeyx deyil. (1)
Keçidən qurbanlıq olmaz. (40)
Keçilər yer əkə bilsəydilər, öküzlər işsiz qalardı. (1)
Keçini dəvə adına satır. (1)
Keçini soyuf-soyuf quyruğunda qoyursan. (17)
Keçinin bəyliyi yonca qutarıncadı. (18)
Keçinin əcəli gələndə çobanın ağacına sürtüşər[1]. (2)

---

1. (83)
2. (83), (5), (1)
3. (5)
4. (9), (14)
5. (83)
6. (2), (83), (1)
7. (15)
8. (16)

Keçinin qoturu bulağın gözündən su içər[2]. (44)

Keçinin ölümü palıddan olsun[3]. (9)

Keçiyə bir sürü qoyundan bir keçi yaxşıdır[4]. (57)

Keçiyə qurd dəyməsə həccə gedər[5]. (2)

Keçmə namərd körpüsündən, qoy aparsın sel səni, yatma tülkü kölgəsində qoy yesin aslan səni[6]. (1)

Keçmiş yağmurun kəpənək kibi ardına düşmə. (75)

Keçmişi unutma, gələcəyin müəllimidi. (1)

Keçmişin arabası ilə uzaq gedə bilməzsən. (1)

Keçmişin qazancı bu günün rahatlığıdı. (1)

Keşiş həmişə kətə yeməz. (9)

Keşkə dəgənəcigümdə dişi olsa, yeyilənədək iki olurdı. (75)

Keyf qılığa baxmaz. (1)

Keyf sənin, kənd kovxanın. (1)

Kəbə yıxmaq bir evdi, köül yıxmaq yüz qandı[7]. (83)

Kəbinim halal, canım azad[8]. (46)

Kəbinsiz övrət yularsız eşək kibidir. (75)

Kədərlə sevinc qardaşdı. (12)

Kədi siçanı Tanrıyçun tutmaz. (75)

Kədinin yügrügi samanlığadəkdir. (75)

Kədiylə köpək dirilməz. (75)

Kədiylə sıçan adaş oqşamaz. (75)

Kədxudaluq çörək verməkdür. (49)

Kəfən havayı olanda adam özünü öldürməz. (1)

Kəfkir qazanın dibini deşib. (1)

Kəklik başını soxar kola, quyruğundan xəbəri olmaz. (1)

Kəklik qaqqıldamasa, qaranquş onu tapmaz. (1)

---

1. (83), (5), (1), (9), (16)
2. (2), (73), (54), (83), (5), (1), (14), (16), (18)
3. (18)
4. (1)
5. (28), (29), (83), (1)
6. (2), (29), (31), (54), (83)
7. (4)
8. (83), (1)

Kəl bulsa, kəndü başın xoş eylərdi. (75)
Kəl ilə döyüşən öküzün buynuzu olmaz. (48)
Kəl ilə kəllələşən buğa buynuzsuz qalar. (12)
Kəl qoşub cüt sürməyən çörək qədrini bilməz. (1)
Kəlam nə qədər kütah olsa, datlu olur. (49)
Kəlbəngi gəlin olmaz. (75)
Kəlbi andıqca ağacı yanına qo. (75)
Kələk ilə gələn külək ilə gedər[1]. (1)
Kəlün başı açılmasun, açılıçaq iş məlum olur. (75)
Kənardan baxan yaxşı görər. (1)
Kənardan baxana hər şey asan görünər. (1)
Kənd aşırı it hürməz[2]. (44)
Kənd girovun naxırdan tutarlar. (1)
Kənd kovxasız olmaz[3]. (44)
Kənd yıxılsa, kəlafasından bəlli olar[4]. (2)
Kəndçinin istəyi torpaqdı. (12)
Kəndə molla gəlib, kim ölür, ölsün. (1)
Kəndə təzə dəllək gəlib, kəkili yandan qoyur. (1)
Kəndi düşən ağlamaz[5]. (2)
Kəndi köpəksiz gördü, əli ağacsız girdi. (1)
Kəndin əhvalını böyükdən soruş. (12)
Kəndü düşən ağlamaza aqlamaq degil, amma gözi də çıqar. (75)
Kənəki söyləgən olur. (75)
Kənkanın vəsiyyətdəri qızıl öküzdü[6]. (5)
Kəpək altında unları var. (1)
Kərə yağından qıl çəkir. (1)
Kərə yeyən də çıxar yaza, tərə yeyən də. (1)

---

1. (12), (13), (14)
2. (2), (83), (1)
3. (28), (29), (83), (1)
4. (1)
5. (81), (83)
6. (1)

Kərəm bilsə, edər idi başına kəl, qaçan eylər sənin müşkülün həl. (75)
Kərəm ərənlərindir. (75)
Kərəm hünərlərün başıdur. (49)
Kərəm iyəsini binəvalıq gündə tanımaq olur. (49)
Kərəmə toymaq olmaz. (75)
Kərki gərəkməz ikən işlə. (75)
Kərki olub öz tərəfinə yonma, mişar ol iki tərəfə yon. (83)
Kərki özünə yonar. (10)
Kərzəyinə bax bezini al, anasına bax, qızını al. (42)
Kəs barmağını çıx bazara, əlac tapan çox olar. (1)
Kəsək atana daş atarlar. (6)
Kəsək daşın gününü düşünür. (12)
Kəsək oturub daş üçün ağlayır[1]. (1)
Kəsəmədügün əli öp, başına qo. (75)
Kəsənin üzünü tikən ağardar. (1)
Kəsər kəndü sapın yonmaz. (75)
Kəsik baş bitməz, bitsə də yiyəsinə xeyir verməz. (1)
Kəsik baş söyləməz[2]. (49)
Kəsilən başın zülfü üçün ağlamazlar. (1)
Kəsilən əl yenə bütün olmaz. (75)
Kəsilsin iki əl ki, bir başı saxlamaya[3]. (2)
Kışkı gücdü olanda tat bacadan qaçar. (5)
Kiçik açar böyük qıfılı açar. (1)
Kiçik bulaqlardan böyük nəhrlər hasil olur. (70)
Kiçikdən xəta, böyükdən əta. (1)
Kiçiklərə hörmət elə, böyüklərdən hörmət qazan. (1)
Kiçilər suç işlər, ulular bağışlar. (75)
Kiçiyi böyüyün üzünə qalxızmazlar. (1)
Kiçiyin daşı baş yarar[4]. (55)

---

1. (83)
2. (44), (2), (81), (83), (9), (13)
3. (28), (29), (83)
4. (1)

Kiçiyin kiçik yeri var, böyüyün böyük. (1)
Kifirə sabun, dəliyə öyüd neyləyər. (33)
Kilid dost üçündü. (1)
Kim eşək olursa, biz səməriyüz[1]. (75)
Kim güclüdü – haqq onundu. (1)
Kim nə dersə-desün, cəhd eylə səndən gəlməsün. (75)
Kim sənətə xor baxar, boynuna torba taxar. (15)
Kimə əmək, kimə yemək. (75)
Kimə lov, kimə plov. (18)
Kimə yaxşılıq elədin, özünü ondan qoru. (1)
Kimi əkər, kimi biçər, kimi qazanar, kimi yeyər. (1)
Kimi gülür, kimi ağlayır, hərənin bir dərdi var. (1)
Kimi yaxa cırır, kimi yuxa[2]. (9)
Kimin arabasında gedirsən, onun mahnısını oxu. (1)
Kimin kim qızı var, belində önəlməz sızı var. Həm göydə nəhs yıldızı var. (75)
Kiminə qat-qat, kiminə ac yat. (1)
Kimini asır, kimini kəsir. (12)
Kimini qaldırır, kimini endirir. (1)
Kiminin başında tac, kimi ac-yalavac[3]. (1)
Kiminin əvvəli, kiminin axırı[4]. (83)
Kiminin sacı olar, kiminin ələyi[5]. (1)
Kimisi ahıllıxda, kimisi cahıllıxda. (9)
Kimisinə tavşan yarar, kimisinə qurd yarar. (75)
Kimiyə bir eşşək, kimyə min köşək. (83)
Kimnən yeyər, onnan deyər. (9)
Kimsə kimsənin nəsibin yeməz[6]. (75)
Kimsə qoduğun kimsə bulmaz. (75)

---

1. (15), (1)
2. (12)
3. (83)
4. (5), (1)
5. (83)
6. (1)

Kimsənin sözi arasına girmə. (75)
Kimsənün kimsəsi gərək. (49)
Kini olanın dini olmaz. (18)
Kinli adamların ömrü ah-vaynan keçər. (18)
Kirəsiz kilim ağzı da tutmur. (9)
Kiri kir açar, sirri sirr. (1)
Kirpi də balasını sığallayanda elə bilir məxmər sığallıyır. (11)
Kirpik gözün açarıdı. (1)
Kişi bilmədiyini ayağı altına yığsa, başı ərşə dəyər. (1)
Kişi bir uğurdan bayımaz. (75)
Kişi çöldən gətirər, arvad içdən tikər. (12)
Kişi əyalın almaq güc olur, amma bəsləmək qolay olur, bədasılı almaq qolay olur, amma bəsləmək güc olur. (75)
Kişi fəhlədi, arvad bənna. (1)
Kişi gətirməyi bilməli, qadın yetirməyi. (14)
Kişi görmədügin görsə, əqli sevinur, geymədügin geysə, təni sevinür, yemədügin yesə, nəfsi sevinür. (75)
Kişi kəndu çörəginə kül eşər. (75)
Kişi kəndüyə etdügi işi bütün ellər dərilüb edəməz. (75)
Kişi kişidən qorxmaz, amma utanar[1]. (2)
Kişi qocalıcaq buzağu gütdurürlər. (75)
Kişi qojalar, fikri yox. (12)
Kişi öz sözünün ağası olar. (1)
Kişi öz tayı ilə gəzər[2]. (28)
Kişi seldi, arvad göl. (1)
Kişi sevdiyinin nazını çəkər. (1)
Kişi sözü üzə deyər. (1)
Kişi toq olucaq cəmi azası ölü olur, amma aç olucaq kötüri can olur. (75)
Kişi tüpürdüyünü yalamaz. (1)
Kişidə qeyrət olsa, torpağı qızıla döndərər. (1)

---

1. (81), (83), (1)
2. (29), (1)

Kişidə səbir olmalıdı. (1)
Kişiliyini sına, sonra arvad al. (9)
Kişini tez qocaldar axşamdan yatan arvad. (33)
Kişinin alnı açıq gərək. (1)
Kişinin atı başa bərabərdir, xəsmi-qövmi yanı-yancığıdur. (75)
Kişinin başına gələn ağzından çıxandı. (1)
Kişinin cibi iki olsa, arvad almaq fikrinə düşər. (1)
Kişinin dilinə qarğış gəlməz. (1)
Kişinin hörməti öz əlindədir[1]. (64)
Kişinin malı göz qabağında. (1)
Kişinin sözü ilə işi bir olar[2]. (1)
Kişinin üzünə baxma, sözünə bax[3]. (2)
Kişinin yüz pis yeyəni olsun, bir yaman deyəni olmasın. (54)
Kişinin hörməti kəndü elində azdır. (75)
Kişisi olmayan evin ruzisi olmaz. (1)
Kişiyə arvat, arvada kişi qoca vaxdı lazımdı. (18)
Kişiyə əvvəl can gərək, andan cahan gərək. (75)
Kişiyə üşüməyəcəkcə geyəcək, aç olmayacəkçə yeyəcək yetər. (75)
Kişiyə vardığı ev buyruğ olur. (75)
Kişiyi qonşıdan sor. (75)
Kitab oxumaq ilən adam adam olmaz. (49)
Kitab verənin bir əlini kəsərlər, qaytaranın iki əlini. (1)
Kitab yüzi qutlu olur. (75)
Kitabı satıb, kəncəfə alıb. (1)
Kitabın köhnəsi, libasın təzəsi. (1)
Kitabın köhnəsi, mollanın tazəsi. (83)
Kitabsız elm yoxdu. (12)
Kizlü buğa alan, aşkara doğar. (50)
Kol dibində xış yoqdu. (83)

1. (28), (29), (31), (83), (1)
2. (12)
3. (1)

Kol divində evim olsun, içində ərim olsun. (9)
Kolxoz ambarı el süfrəsidi. (1)
Kor – kor, gör – gör. (46)
Kor at gecə də otlar. (1)
Kor at üçün kor nəlbəndi gərək[1]. (44)
Kor atı minən şahlıq iddiası edər. (1)
Kor atı minif köndələn çapar. (9)
Kor atlanar, öz ölkəsini çapar[2]. (46)
Kor bazara getməsə bazar korsuz qalmaz[3]. (77)
Kor bulaqdan su gəlməz. (1)
Kor canvarınkını Allah yuvasında yetirər. (14)
Kor da bilir – balıq şordu[4]. (46)
Kor dutduğundan kəsər. (83)
Kor dutduğunu əldən qoymaz. (83)
Kor əlifə bey deməyib. (1)
Kor əsasını bir itirər. (1)
Kor gördüyünü deməz, kar eşitdiyini. (5)
Kor gözdən əsgi asır. (1)
Kor gözdən yaş ummaq olmaz. (49)
Kor gözün sahibinə nə faydası? (1)
Kor gözündən qorxar, keçəl başından. (1)
Kor günortayacan nəynəyib ki, günortadan sora neynəsin[5]. (83)
Kor hərfə ho diyə bilmir, könlünnən alimlik keçir. (18)
Kor ilə çörək yeyəndə insafı arada gör. (1)
Kor istədiyi nədir, iki göz. (28)
Kor it kölgəsindən qorxar. (1)
Kor kimdi? – Nabələd! (1)
Kor kora kor deməsə korun bağrı çattar[1]. (1)

---

1. (2), (46), (55), (81), (83), (9)
2. (83), (54)
3. (83)
4. (83)
5. (83)

Kor kora necə baxar, Allah ikisinə də öylə baxar[2]. (2)
Kor kora rişxənd eylər. (1)
Kor koru tapar, su çuxurunu[3]. (45)
Kor qoyun gecə də otlar. (16)
Kor qurdun ruzisini yetirən özü yetirər. (1)
Kor leyləyin yuvasını Allah öz əli yapar[4]. (2)
Kor nadürüst olar, keçəl əməlbaz. (9)
Kor nə istər? İki göz – biri əyri, biri düz[5]. (5)
Kor olsun o iki gözü ki, dostunu, düşmənini tanımır. (1)
Kor tutduğun bərk tutar[6]. (2)
Kor tutduğunnan kəsər[7]. (46)
Kora da versən, mənə ver, şilə də versən, mənə ver. (83)
Kora gecə-gündüz birdi[8]. (2)
Kora hər yer qarannıxdı. (9)
Kora qulluq buyursan, qayıdar sənə nəsihət verər[9]. (46)
Korrar ölkəsində çaşdar paccah olar. (15)
Koru dara qısnama[10]. (55)
Koru kor yanında həyan üçün qoyarlar[11]. (1)
Koru kora hayan qoymazdar. (9)
Korun ağacı özündən qabaq gedir. (1)
Korun gözü iməcidə açılar. (18)
Korun istədiyi bir göz, iki göz olsa – nə söz?! (1)
Korun nə borcu ki, şam bahalanıb?! (1)
Korun tutuşu, karın vuruşu. (14)

---

1. (83), (5)
2. (46), (83)
3. (37), (55), (54), (5), (77), (83), (1)
4. (83), (1)
5. (29), (83), (1)
6. (1)
7. (1)
8. (81), (83), (1)
9. (81), (83)
10. (1)
11. (81), (83)

Kosa dəlləyin düşmanıdı. (9)
Kosa getdi saqqal gətirə, bığını da üstəlik qoyub gəldi[1]. (55)
Kosa ilə dost olayım deyirsən, «saqalun gəlür»di. (75)
Kosa kəndə girməmiş yallısın başladı[2]. (2)
Kosaların öylədən sonra əqli kəm olur, hətta bir oğlancıq dəxi aldar. (75)
Kosanı gün batandan sonra aldatmaq olar[3]. (83)
Kosaya əyyarlıq ögrətmə. (75)
Kosaya hərə bir tük versə, kosa da saqqallı olar. (5)
Kosaya lağ eyləyənin top qara saqqalı gərək[4]. (2)
Kotan nə bilir öküz nə çəkir[5]. (83)
Kovxa atlanar, öz kəndini çapar. (1)
Kovxa bənəm, nobat səndədi[6]. (83)
Kovxa ilə hesaba oturan borclu olar. (1)
Kovxanı gör, kəndi çap[7]. (83)
Kovxası gülüm olanın başına külüm olar[8]. (1)
Köç başlanmamış bulağı uçurdur. (16)
Köç gələndə dad bacadan çıxar. (2)
Köç geri qayıdanda arıx axsaq qabağa düşər[9]. (2)
Köç köçər, it hürər, ikisi də mənzilə birgə yetər. (1)
Köç kömək istiyir. (9)
Köçdən azan qarıya hələ bu da azdır[10]. (2)
Köçdügün yurdun qədri qonduğun yurtda bilinər[11]. (75)
Köçə-köçdə malını saxla, qaça-qaçda başını. (5)

---

1. (54), (5), (83), (1)
2. (81), (83), (1)
3. (5), (2), (81), (83), (1), (9)
4. (81), (83), (1), (15)
5. (49), (29), (77), (2), (83), (1), (9), (14)
6. (5)
7. (9), (11), (13)
8. (83)
9. (46), (83), (1)
10. (83), (9), (1)
11. (2), (83), (1), (16)

Köçənə dad güc ilə gögçəklik olmaz. (75)
Köçün dönməsi axsaq itə xoş gələr. (1)
Köçün yaraşığı dananın soncuqlamasıdı[1]. (55)
Köçün yaraşığı düşərgədi. (40)
Köçürəm demə, yurdun eşidər. (9)
Köhlən at yeriyəndə toz qopar. (1)
Köhləni mərdə tafşır. (9)
Köhnə dərdi təzələmə. (1)
Köhnə dost yəhərri ata bənzər. (9)
Köhnə düşmən dost olmaz. (1)
Köhnə getdi, sən təzədən danış. (1)
Köhnə hamam, köhnə tas. (1)
Köhnə kəndə təzə darğa gəlib. (1)
Köhnə kəndə təzə nırx qoyma. (1)
Köhnə kilim istilik verməz. (9)
Köhnə köşgül, işim müşgül. (18)
Köhnə qapı, köhnə daban. (55)
Köhnə qar ancaq uca dağlarda qalar. (12)
Köhnə qurd yolunu azmaz. (1)
Köhnə paltar yamağından bəllidi. (1)
Köhnə pambıq bez olmaz, dul arvaddan qız olmaz. (1)
Köhnə sevgi köhnəlməz. (83)
Köhnə süpürgəni dama atarlar. (1)
Köhnə şəhərə tazə qaidə qoyur. (83)
Köhnə şəhəri çuxurda görüb. (5)
Köhnə təqvim pula getməz[2]. (1)
Köhnə tülkü hiyləbaz olar. (83)
Köhnə un çuvalıdı, vurduqca toz qopar. (1)
Köhnə yurdun qədrini təzə yurtda biləllər. (5)
Köhnəsiz təzə yoxdu. (12)
Kök arıxlayınca arığın canı çıxar[3]. (2)

---

1. (1)
2. (83)
3. (81), (83), (14), (15)

Kök arıxlıyıncan bi ömürdü, arıx arıxlıyıncan ho taylıxdı. (18)

Kökə bağlan, elə söykən. (26a)

Kökəlmiyən yerdə niyə arıxlayıram. (18)

Köksüz ağac tez yıxılar. (12)

Kölədən xeyir gəlməz. (75)

Kölənin ənsəsi tamarı qıssa olur, anun içün söz götürməz, tez qaqar. (75)

Kölənin, qaravaşın Tanrısı çomaqdır. (75)

Kölənin, qaravaşın yedügi sarımsağla soğandır. (75)

Kölənin sufisindən, türkün avamından qorqmaq gərək. (75)

Köləyə kəndü aşı tatlu gəlür. (75)

Kölgə yatanın çiyni isti olur. (54)

Kölgədə olanın kölgəsi olmaz. (1)

Kölgədən heç zaman insana arxa olmaz. (14)

Kölgəsində yatacaq ağacı budama. (75)

Köməyi igidə – sözlə, zəifə – əllə et. (1)

Kömürçünün evinə girən üzü qara çıxar. (1)

Kömürçünün qaralmaqdan nə arı? [1] (1)

Köndələn çəpərə söykənmək olmaz. (1)

Könləgin sat gürzə ver. (75)

Könlü balıq istəyən quyruğunu buza qoymalıdı[2]. (2)

Könlü balıq sevən kunasını soyuq suya qoyar, da durar. (83)

Könlü bədöy at istəyən vaxtında alar. (1)

Könlü yemiş istəyən dolanar tağ başına. (1)

Könlün yuca tutan ərdə dövlət olmaz. (3)

Könül alan güvəndi. (75)

Könül arzunun mənbəyidi. (1)

Könül bağla səbirə, onu apar qəbirə. (18)

Könül bir böyük saraydı, tikilməsi çətin, yıxılması asan. (1)

Könül bir uşağa bənzər, nə verərsən istər. (1)

Könül xoşluğu maldan əfzəldi. (1)

---

1. (83)
2. (77), (83), (1), (9)

Könül gözdən su içər. (1)
Könül kimi sevərsə, görklü oldur. (75)
Könül qocalmaz. (1)
Könül nə mey istər, nə meyxanə, könül dost istər, mey bəhanə. (1)
Könül sevən göyçək olar[1]. (2)
Könül sevən gözəlin nə ağı, nə qarası[2]. (2)
Könül soltandır. (75)
Könül tutan keçəldə ayıv olmaz. (9)
Könül umduğu yerdən küsər. (1)
Könül yapdun, əriş yapdın; könül yıqdın, əriş yıqdın. (75)
Könüldən könülə yol var. (75)
Könüllü yigit oqın illərüdə arar. (75)
Könülsüz bazara gedən, gördüyünü almamış qayıdar. (1)
Könülsüz hürən köpək, sürüyə qurd gətirər. (1)
Könülsüz köpəyin sürüyə xeyri olmaz. (1)
Könülsüz namazı Allah qəbul eləməz. (1)
Könülsüz tula ilə ova çıxmazlar. (1)
Köpəgə ümid oldun, özün də hürmədin[3]. (83)
Köpəgin ayılanı ələ düşməz. (83)
Köpəgin könli köpəklən xoş olur. (49)
Köpək dörədügi evdə fəriştə girməz. (75)
Köpək elə köpəkdi, xaltası qızıldan da olsa. (1)
Köpək ilə qardaş oquşma, oquşarsan, miçəgün hazır eylə. (75)
Köpək qaya kölgəsində yatar elə bilər ki öz kölgəsidir. (28)
Köpək qocalanda qurda gülünc olar[4]. (1)
Köpək sahibini tanıyar. (1)
Köpək üni gögə çıqmaz. (75)
Köpək yad kişiyə quyruq bulamaz. (75)

---

1. (72), (73), (83), (1)
2. (83)
3. (1), (16)
4. (83)

Köpəksiz sürüyə qurd dadanar. (1)
Köpəyin duası yerinə yetsə, göydən gündə sümük yağar. (10)
Köpəyin iyə düşəni tuladan bərk qaçar. (1)
Köpəyin qarnı tox olsa, gecə ulduza hürməz. (1)
Körpə südsüz böyüməz, pambıq susuz. (1)
Körpəcə quzu, qurdun ağzı. (18)
Kösöy yana-yana gödələr. (9)
Köşdən azanın axrı budu. (18)
Köşə daş yerdə qalmaz. (83)
Kötək aradakına çox dəyər[1]. (1)
Kötək yeyənin kisəsindən gedər. (1)
Köti, cəmri bay olmaz. (75)
Kötük üstündə çox budaqlar doğranıb[2]. (33)
Kövək kolunun kölgəsi olmaz. (1)
Köydə yoğurd bol olur. (75)
Köyilnən fel düz deyil. (83)
Köynəyin darrığı bezin qıtdığınnandı. (9)
Köyşəndə elə danış kı, xırmanda toz qofmasın. (9)
Köyül sevən ağanın nə ağı, nə qarası?! (1)
Közden yırasa könqülden yeme yırar. (3)
Kurkər uçmasa, Yasamal dolmaz. (77)
Kuruğ yıqaç eğilmes. (3)
Kuş kanatın, er atın. (3)
Kutluğqa koşa yağar. (3)
Kutsuz kuduqka kirse kum yaqar. (3)
Küçə oğrusunu tələ tutar, ev oğrusunu heç nə tuta bilməz. (36)
Küçük hürə-hürə köpək olar. (1)
Küftə atdanar, noxudu çımcıqlar. (83)
Kül başına, ay Araz, üstündən təzək atdanır[3]. (81)
Kül başına, gözəl fərə, beçə də səni bəyənmir. (1)

---

1. (83)
2. (9)
3. (83)

Kül təpəcik olmaz[1].(3)
Kül xardasız, ağa ardasız olmaz. (5)
Külək qayadan nə aparar. (9)
Külək otu qurudar, qayğı insanı. (12)
Küləkdə yatanın cin atı olar. (1)
Küləkli gündə xırman sovurmazlar. (1)
Küləş tez yanar, tez də kül olar. (1)
Küləşi külək basdı, qar basdı. (83)
Küləyi tutmax olmaz. (9)
Küləynən gələn küləynən gedər. (45)
Külü ocaqdan götürərlər. (1)
Külü küllükdən götür, külü təpəyəcən olsun[2]. (1)
Külü yeyif, küllüyü tafdalar. (9)
Külün altında köz olar. (1)
Künç viranda olur. (50)
Küpəyə verə-verə qazan bahası çıxar. (37)
Küpü sındıran da bir, suyu gətirən də bir. (1)
Kürd kürdü dəyirmanda axtarar. (1)
Kürd kürdü tanımasa, məkri məkrəni tanıyar. (1)
Kürdün adı «yedi», - yesə də, yeməsə də. (5)
Kürdün dilin kürd bilər. (1)
Kürə baxanın ağlı olmaz. (5)
Kürədən imam kimi gələr, sonra yezidə dönər[3]. (1)
Kürən adam xətakar olar. (1)
Kürən adamla, kürən ata yaxın düşmə. (1)
Kürən toyuq hindən bayıra çıxmaz. (1)
Kürəyə düşməyən dəmir yumşalmaz. (1)
Kürəyi yayda al, orağı qışda. (14)
Kürkçünün kürkü olmaz, börkçünün börkü. (83)
Kürkü əvvəl il özün geyin, ikinci il ver düşməninə. (1)
Küsənə pay düşməz. (1)

1. (75), (9), (16)
2. (9), (14)
3. (14)

Küsənin payını yeyərlər. (1)
Kütüm var, itim də var. (83)

**Q**

Qab sirkəyə görədi. (1)
Qaba başlığın malı durmaz. (75)
Qaba dülbənd edinməkdən bıçaq olub, taqınmaq yegdir. (75)
Qaba söz qaba hərəkətdən pisdi. (1)
Qaba suyu tutduğu qədər tökərlər. (1)
Qabağa düşdün – yaxşı, dala qaldın – vay halına. (1)
Qabağı yazdı, ömrü azdı[1]. (81)
Qabağım qorğa qorur, dalım saman sovurur. (54)
Qabağın fikrin eylə, çahan fikri sənə düşməz. (50)
Qabaq tağı şamama verməz. (1)
Qabaqcan deyən bilsə, axırda nə deyəcəq, heç dinməz[2]. (46)
Qabaqdakı adam arxadakına körpüdü. (48)
Qabil şagird ustasından artıq olar[3]. (64)
Qabiliyyətin məktəbi yoxdu. (1)
Qaçağa yer də var, göy də var. (1)
Qaçağan dana muzunu bərkidər[4]. (5)
Qaçağan qoyun süddü olar. (9)
Qaçağı el saxlayar. (1)
Qaçan büdrər. (1)
Qaçan canını qurtarar, tutulan aman deyər. (1)
Qaçan da Allahı çağırır, qovan da[5]. (2)
Qaçan qaçdı, mıxdakını döyərlər. (1)
Qaçan yıxılmağa baxmaz. (1)
Qaçanı qovmazlar, yıxılanı vurmazlar[6]. (2)

---

1. (83)
2. (83)
3. (1)
4. (83), (1)
5. (49), (83), (1), (9), (13)
6. (83), (1), (9)

Qaçmaq da hünərdəndir[1]. (49)
Qada cavanı tapar[2]. (83)
Qada gədiyə, mən gədiyə. (18)
Qada qadıyıp gəlməz, qarı donbalıp ölməz. (18)
Qada tükəndi, töbə tükənmədi. (83)
Qadadan çıxan peşiman olar. (28)
Qadanan oyun olmaz. (83)
Qadın ələ girməyincə qaravaş xoşdur. (75)
Qadının gücü göz yaşındadı. (11)
Qadir Tanrı verməyincə ər baymaz[3]. (3)
Qafil baş düşmənə yaraşar. (1)
Qafil quşun ovçusu çox olar. (1)
Qafil yaşamaqdansa, ölmək yaxşıdır. (1)
Qarğa haram, yumurtası halal?! (1)
Qaib ortaya gəlincə hazır haqqa irişər. (75)
Qaqımaq qavılda yoqdur. (75)
Qaqqıldayan toyuq yumurtlayan olar. (1)
Qalalı atıdır, həm axurdan yeyər, həm torbadan. (1)
Qalan işə qar yağar[4]. (1)
Qalça salan özü əglənür. (49)
Qalib gələn məğlub da ola bilər. (1)
Qalmağallı yerdə ot bitməz. (13)
Qalmışlara dayaq olmaq əmri-dövlət arturur. (50)
Qalxan öküz, yatan öküzü qavaxlar. (9)
Qalxdığın yerə bir də oturma, hər söhbətə atılma. (1)
Qamış bizim yerdə bitir, zurnanı özgə çalır[5]. (1)
Qamış ola, camış ola, özü də görməmiş ola.(6)
Qammaz boynunda borc qomaz. (75)
Qammazı qandırmax qan udmaxdan çətindi. (18)

---

1. (83), (1)
2. (5)
3. (75), (49)
4. (14)
5. (18)

Qamu quşlar uçar, nəsnə yoq; bildirçin uçıcək «havardı» derlər. (75)

Qanmaz öz-özünə edəni kimsə edə bilməz. (82)

Qanmazı buyur, dalınca yüyür. (82)

Qan bahayla miras malı tuz ilə su olur. (75)

Qan dedi qamaşmadı, qayın dedi qamaşdı. (49)

Qan eylə qanun ilə. (1)

Qan ısupassız qaynar. (75)

Qan qaraltmaq asandır, durultmaq çətin. (40)

Qan olsun, qanun olmasun. (49)

Qan sübutsuz qaynamaz. (1)

Qana qan deyiblər. (1)

Qanacaqlı adam həm qanar, həm qandırar. (1)

Qanan düşmən qanmaz dostdan yaxşıdı. (1)

Qanan it dişini göstərməz. (1)

Qanana çivin sazdı, qanmıyana zurna azdı. (11)

Qanana da qurvan, qanmıyana da, dad alayarımçıx əlinnən. (9)

Qanana işarə, qanmayana kötək. (1)

Qananın quliyem, qanmıyanın baş ağası da döyləm. (11)

Qanda isə uyur uyurı bulur. (75)

Qane həmişə toxdur. (49)

Qanğı kədiyə baqsan, sıçan ögər. (75)

Qanı qan ilə yumazlar, qanı su ilə yuyarlar[1]. (37)

Qanın diyəsi var, namusun diyəsi yoxdu. (1)

Qanqal arada bitər. (9)

Qanqala ixtiyar dedilər, hamı baş əydi. (1)

Qanlıdan qada əskik olmaz. (1)

Qanlını qan tutar, qanmaza nə demək?! (1)

Qanmazla yoldaş olma, səni də qanmaz eylər. (1)

Qantəpərdən zurna al, özgə evində çal. (9)

Qanun kasıblar üçündü. (18)

Qanun pulun qarşısında acizdi. (18)

---

1. (3), (2), (81), (83), (1)

Qanun zora tabedi. (1)
Qanundan çıxmaq olmaz. (49)
Qapan it dişini göstərməz. (16)
Qapı döyüldü, çərçi gəldi, elə bildim elçi gəldi. (1)
Qapı öz dabanı üstə dolanar[1]. (1)
Qapılan qapanın, tapılan tapanındı. (1)
Qapılar açıq olanda nəbəti yuxu basar. (83)
Qapım xan qapısıdı, güzarın düşər bir gün. (9)
Qapımın nökəri uzağın bəyindən yaxşıdı. (14)
Qapında al, qapında sat[2]. (55)
Qapını gen qoy, dəvə özü gələr (1)
Qapının itini döyərsən, zəncirini qırıb qaçar. (14)
Qapısı olmayan evə qıfıl nəyə lazım? (1)
Qapıya gələn içəri də gələr[3]. (83)
Qapıya gələni qovmazlar. (1)
Qapusız ev olmaz. (75)
Qar da əriyər, üzüqaralıq ev yiyəsinə qalar. (1)
Qar dağa çıxdı, əziz oldu. (49)
Qar nə qədər çox yağsa, yenə yaza qalmaz[4]. (75)
Qar onun içündür ki, ayağ üşüdə. (49)
Qar susuzluğu söndürməz, qovurğa qarın doydurmaz[5]. (75)
Qar suyundan qaymaq olmaz. (1)
Qar üstündə yatan ölməmiş, un üstündə yatan ölmüş. (75)
Qar yağıcaq iz örtülər. (75)
Qar yağmağınan qarğa ağarmaz. (34)
Qar yerin yorğanıdı[6]. (1)
Qara ağarmaz, su qurtarmaz. (14)
Qara atın gümüş nalı əysiyiydi. (34)

---

1. (83)
2. (5), (83)
3. (5), (9), (18)
4. (1)
5. (49), (54), (1)
6. (12)

Qara baxanın gözü qamaşar. (1)
Qara baxt ova çıxdı, dağları duman aldı. (39a)
Qara bulud yağış yağdırar. (1)
Qara çalluya sığınma. (75)
Qara çuxa yatdı, ala çuxa qalxdı. (1)
Qara dolağa qırmızı papış tikməzlər. (1)
Qara düzən ev bozmaz. (75)
Qara eşəgə yular ursan, qatır olmaz[1]. (75)
Qara eşşək qapıda bəllidi. (38)
Qara gün adamı qaraldar. (12)
Qara gün qaralıb qalmaz. (1)
Qara günün ağ günü də olar[2]. (55)
Qara günün ömrü az olar. (1)
Qara xəbər tez yayılar[3]. (1)
Qara itin balası qara olar. (83)
Qara keçənin dörd küncü var, hərəsi bir oğulun. (16)
Qara qatır, nə bilir xətir, qatırı ya döy, ya başına dön. (17)
Qara qız bəzənincə toy əldən gedər[4]. (1)
Qara qız dura-dura özünə yer eylər. (49)
Qara qız gəlməsəydi, külfəni kim otlardı. (83)
Qara qızın bəxti olsaydı, anadan ağ doğulardı. (1)
Qara qızın dərdi var[5]. (1)
Qara qoyunun südü şirin olar. (12)
Qara qul alnının yazısını görər. (1)
Qara qul özünü öldürdü, ağaya zərər olsun. (1)
Qara quşa ox öz yələgindən dəgər. (49)
Qara mal doyanda samanı başına sovurar[6]. (1)
Qara pulu qara günə saxlarlar. (1)

---

1. (49)
2. (1)
3. (75)
4. (83)
5. (83)
6. (12)

Qara səni basınca, sən qaranı bas[1]. (1)
Qara sudan qaymaq tutur[2]. (1)
Qara toyuğun yumurtasına dönüb tapılmır. (1)
Qara üzümü yeməyin düşər-düşməzi var. (1)
Qara yerə toymaq gərək. (75)
Qarabatdaq dağlara çıxma, dağları duman alar. (1)
Qaraca üzüm var, doğruca sözüm. (1)
Qaraçı koxası qaraçı olar. (83)
Qaraçıdan qohum olmaz, donuzçudan qəyyum. (9)
Qaraçının bəyi də qaraçıdı. (1)
Qaraçıya bəylik veriləndə anasının əmcəyini kəsər. (1)
Qaradan artıq boyaq olmaz[3]. (2)
Qaradan qaş olmaz, özgədən sirdaş. (1)
Qaradı, amma paradı. (1)
Qaragünnü hara gedir – gün qaraltmağa. (18)
Qarağı legləgin yuvasın haq yapar. (75)
Qarağı qutsızı bir düşdügi yerə yenə düşər. (75)
Qarağıdan şaşı yegdir. (75)
Qarakünə demək olur ki, pətəkin baş apardı! (50)
Qaraltı harada – qərarın orada. (1)
Qaranı ağa, ağı qaraya qatmazlar. (1)
Qaranı qaraya tutmazlar. (14)
Qaranı yumaqlan ağ olmaz[4]. (49)
Qaranlıqda göz qırpmaqdan nə fayda?! (49)
Qaranlıq gecənin qaraüzlü müştərisi olar. (1)
Qaranlıq qaranı udar. (1)
Qaranlıq yerə daş atma. (1)
Qaranlıqda halva yeyənin sirrini Xuda bilir[5]. (2)
Qaranquş gəldi-gedərdi, sana qalan boz sərçə olajax. (9)

---

1. (83)
2. (14)
3. (75), (83), (1), (12), (13),
4. (1)
5. (83), (1)

Qaranquş səhər müjdəsi gətirər. (1)
Qaraqız gəlin oldu, ürəyi sərin oldu. (1)
Qaraquş atdığını bilər, vurduğunu bilməz. (83)
Qaraquş deyər: Dayım sar olmasaydı, qoyunu caynağımda qaldırardım. (1)
Qaraquş milçək tutmaz. (1)
Qaraquş sümügü ölçər, udar[1]. (2)
Qaraquşa xeyir öz dimdiyindən çatar. (1)
Qaratikən nədi ki, kölgəsi nə ola. (9)
Qaravaş əlinə ciyər düşüb. (1)
Qaravaşa don geyirsən, qadın olmaz[2]. (3)
Qaravaşdan doğan xatun olmaz. (75)
Qaraya baxanın ağlı az olar[3]. (83)
Qaraya qarışmaz, duvara yapışmaz. (18)
Qaraya sabın, dəliyə öyüd neyləsin?! (1)
Qarda gəz, ləpirini göstərmə. (1)
Qardaş da dost olsa yaxşıdır. (1)
Qardaş gəlsə, yaxşı, bacı gəlsə, yaxşı, qardaşın qabağında, bacı ölsə yaxşı. (1)
Qardaş qardaş yaranıb, cibləri ayrı. (1)
Qardaş qardaşa pis gündə gərəkdi. (47)
Qardaş qardaşı bıçaqladı, sonra dönüb qucaqladı[4]. (1)
Qardaş qardaşın yoxluğun istər, ölümün istəməz[5]. (49)
Qardaş mənimdir, fərasətini, bilirəm. (1)
Qardaş oğlu qardaş olmaz, yola çıxsan yoldaş olmaz. (13)
Qardaş olaq, yarı bölək[6]. (46)
Qardaş yaxşı olseydi, Allah özünə də qardaş yaradardı[7]. (46)
Qardaşdan qarın yaqındır. (75)

---

1. (83), (5)
2. (75), (49)
3. (5), (1)
4. (15)
5. (1), (13)
6. (1)
7. (83), (1), (9)

Qardaşımın əppəyi boldu, xatını güyənsin, tumanı gendi, özü güyənsin. (10)

Qardaşın bəy olsun, arvadı güvənsin[1]. (46)

Qardaşın böyüyü, yoldaşın kiçiyi. (1)

Qardaşın qanın qardaşdan almazlar[2]. (83)

Qardaşına bax, bacısını al[3]. (46)

Qardaşının xasiyyətini bilirsənim? – Yoldaş olmamışam. (9)

Qardaşlar savaşdı, əbləhlər inandı[4]. (49)

Qardaşlıq zər deməkdir, xiridarı gərəkdi. (1)

Qardaşlu kişilər qalqar-qopar, qardaşsız kişilər bir-birinə baqar. (75)

Qarğa bülbül olmaz, tülkü aslan. (38)

Qarğa çox bildiyindən tora düşər[5]. (1)

Qarğa döşün çəkməklə qaz olmaz[6]. (55)

Qarğa gəldi kəklik yerişi yeriyə, öz yerişini də unutdu[7]. (49)

Qarğa görüb quş demə, xaşıl yiyip aş demə[8]. (18)

Qarğa qarğanı tanıyar. (47)

Qarğa qarıldar, bayquş gətirər. (18)

Qarğa leşə qonar. (12)

Qarğa məndə qoz var deyir, zəvzək[9]. (29)

Qarğa nədi qazığı nə ola, sağsağan nədi büzüyü nə ola. (17)

Qarğa özünü quş bilər, umac özünü aş bilər. (83)

Qarğa toğan olmaz. (75)

Qarğadan gözəl quş istədilər, balasını göstərdi. (1)

Qarğadan qırğı olmaz. (1)

---

1. (1)
2. (46), (1)
3. (83), (1)
4. (1)
5. (14)
6. (1)
7. (1)
8. (9), (14)
9. (83)

Qarğalar mənim tavuğumdu, yumurtasını görmərəm[1]. (83)
Qarğanı qırqovul deyə yeyir. (1)
Qarğanı yüz il bəsləsən də tərlan olmaz. (1)
Qarğanın səsi çıxanda qar gələr. (1)
Qarğışdı baş çox yaşıyar. (13)
Qarğışın iki başı var. (13)
Qarı aldandı, qapı bağlandı[2]. (1)
Qarı döyüləndən sonra ağacın zorbasından yapışar. (1)
Qarı qabağına tökməklə dəvə pambıqdan çıxmaz[3]. (2)
Qarı qarı, xeyratı olsun bir cuval darı. (83)
Qarıdan da qorxum, Tanrıdan da?! (1)
Qarılıqda yorğaluq[4]. (49)
Qarın başa bəladı. (1)
Qarın başdan aşağıdı. (9)
Qarın dağı qardaş dağından yamandı[5]. (2)
Qarın doyuran aşı göz tanur[6]. (49)
Qarın kini könüldən getməz. (49)
Qarın olmaseydi, heş bir quş tora düşməzdi, heç ovçu da tor qurmazdı. (11)
Qarın tox olanda çox şey yada düşür. (1)
Qarına gedən qazancdı[7]. (54)
Qarınafətir adam tikə dostu olar. (1)
Qarınca, qədərincə, hər kəs öz qismətincə[8]. (49)
Qarıncanın məlullügin qurbağanın şənlüginə tut. (75)
Qarında o qədər qurqu var ki, baş-başa çatmayıb. (83)
Qarındağı öc alur. (75)
Qarının saçı ağ olar, ürəyi qara. (1)

---

1. (14)
2. (9), (18)
3. (83), (1)
4. (83)
5. (83)
6. (54), (1)
7. (83), (1), (9), (14)
8. (2), (1)

Qarınınkı Qurandan keçibdi[1]. (2)
Qarının-qocanın canı bərk olur. (75)
Qarınnar doyannan sonra yetimlər yada düşər[2]. (46)
Qarınqulu yeməkdə qoçaq olar. (83)
Qarışqadan ibrət al, yaz ikən qışa hazırlaş. (1)
Qarışqanın evində şəbnəm böyük tufandı[3]. (73)
Qarışqanın ölümü yetəndə qanad gətirir[4]. (83)
Qarışqanın yığdığını heç kəs yığa bilməz. (1)
Qarışqaya şəbnəm böyük tufandı. (83)
Qarıya qız evi yaraşmaz. (83)
Qarlı qış barlı olar. (1)
Qarnı toxun qayğısı olmaz. (1)
Qarnım içün degil, qədrim içündür[5]. (49)
Qarnımda çoxdu qada, kimə gedim dada[6]?! (46)
Qarnımda ikən qanımı yeyir, çölə çıxanda – canımı. (1)
Qarnın doymadığı yerdə aclığını bildirmə[7]. (83)
Qarpız doyumluq üçün deyil, sərinlik üçündür. (1)
Qarpız kəsməklə ürək böyüməz. (1)
Qarpız-qovun yata-yata böyüyər. (1)
Qarpız yiyen qıraxda qalar, qavıx yiyeni döyəllər. (11)
Qart köpək yedəyə gəlməz. (1)
Qartal milçək tutmaz. (1)
Qartal yumurtasınnan qarğa çıxmaz. (15)
Qartal zirvədə, qarğa zivillikdə gəzər. (12)
Qartala dedilər: – Harda anadan olmusan? Dedi: – Uca dağlarda! Dedilər: – Haraya uçursan? Dedi: – Uca dağlara! (1)
Qartala oq toqunmuş, oq yelәgin göriçək «bana bәndәn oldı» demiş. (75)

---

1. (83), (1), (12)
2. (83)
3. (2), (43), (1)
4. (75)
5. (1)
6. (1)
7. (2)

Qartalı uçuşundan tanımaq olar. (1)
Qasnaqsuz ələk olmaz. (75)
Qaşığ ilə aş verüp, sapıyla gözin çıqarma. (75)
Qaşığın içini qoyup, çölünü yalıyır. (18)
Qaşıq çömçədən irəli olub[1]. (2)
Qaşıq qaşıq yığdım, kömçək ilə dağıtdım[2]. (83)
Qaşıq qayıranın öyündə qaşıq tapılmaz. (14)
Qaşımağa dırnaq istər[3]. (30)
Qaşın düzəldürkən, gözün çıxartdı[4]. (49)
Qatıq olsun, özünə qab tapar[5]. (1)
Qatıq tökülsə yeri qalar, ayran tökülsə nəyi qalar[6]. (37)
Qatıq yeməmişik, qatıq qabı görmüşük. (1)
Qatır atasını görməsəydi, özünü xanzada bilərdi. (9)
Qatır cinsinnən ayğır törəməz. (12)
Qatır issinə gündə yedi kərrə həmlə edər. (75)
Qatır nə bilir xatır? (1)
Qatıra qulun yoxdu. (9)
Qatrandan olmaz şəkər, bir damarı cinsinə çəkər. (1)
Qav düşməsə, səs çıxmaz. (9)
Qavın-qarbuz vaqtında bıçqısuz olan yanın çarbınur. (75)
Qavır boy üstdə piçilər. (9)
Qavışar adam adama, amma qavışmaz tağ tağa. (75)
Qavmaq da ərlikdür, qaçmaq da. (49)
Qavun çıxdı, tüpür xiyara. (83)
Qay könində quyruqlı inək buğasız. (75)
Qaya dağa arxalanar. (1)
Qaya uçan günü toz qopar[7]. (83)
Qaya uçmasa çuxur dolmaz[1]. (55)

---

1. (55), (9)
2. (5)
3. (2)
4. (2), (5), (38), (45), (83), (1)
5. (14)
6. (55), (83), (5), (1)
7. (1)

Qayçı gəzdirdi, iyniyi də itirdi. (9)
Qayğı ilə borc ödənməz. (1)
Qayğu çörəyə, qovun elə sudur. (54)
Qayğuluya söhbət haramdı. (83)
Qayın arvadı – xain arvadı. (1)
Qayınana bir çiçək, hər sözü gerçək. (1)
Qayınanalı gəlinin dilinin altında fənd gərək. (1)
Qayınatam dövlətli, qaynanam səxavətli[2]. (1)
Qayınxatınların çarşab-corabı boxçada dögüşər[3]. (39)
Qayidədən çıxan peşman olar[4]. (29)
Qaymağı üzdən, balı dibdən yeyərlər. (16)
Qaynamağa qarı sıgır ətı. (49)
Qaynayan qazan qapaq saxlamaz. (1)
Qaynayan yağa milçək qonmaz. (1)
Qaz lələgi qanun yazar[5]. (83)
Qaz tükündən nazbalış olar. (40)
Qaz uçdu, qarğa qondu[6]. (83)
Qaz vur qazan doldur, sərçədən nə olacaq[7]. (83)
Qaza atdım, qoza dəydi. (1)
Qazamat kişi üçün tikilib. (1)
Qazan daşanda çömçənin biri bir tümənə gedər. (1)
Qazan deyir, içim qızıldı, qaşıq deyir bulayub çıxmışam. (2)
Qazan dığırranar qapağı tapar. (17)
Qazan dibi yalayanın adaxlısı göyçək olar. (1)
Qazan qapaqsız olmaz, igid – papaqsız. (1)
Qazan qarası gedər, namus qarası getməz[8]. (2)
Qazan qazannan döyüşər, ortada güvəc sınar. (9)

---

1. (1)
2. (83)
3. (1)
4. (1), (83)
5. (11)
6. (11)
7. (2), (74), (73), (5), (1)
8. (73), (83), (1)

Qazan oddan qızar, insan sözdən. (1)
Qazan olsun, dolu olsun, yeyən tapılar. (1)
Qazana yanaşma, qarası çıxar, yamana yanaşma, qadası yıxar. (1)
Qazanan kim, yeyən kim?! (1)
Qazanan qazandığını yesə, xanlar, bəylər acından ölər. (1)
Qazanc var-dövlət gətirər, insaf şan-şöhrət. (40)
Qazanc qudurub mayanı yedi[1]. (28)
Qazancı çıxdısa, mayasına bənd olma. (9)
Qazancım ata-anamın, öyrəndiyim özümün. (1)
Qazancın çoxu, azı olmaz[2]. (55)
Qazancını itir, malını itir, duz-çörəyi itirmə. (1)
Qazanclı yük yüngül olar. (1)
Qazanda bişirir, qapağında yeyir. (1)
Qazanda nə bişirirsən, qabağına o çıxar. (1)
Qazandığını it yiyər, yaxasını pit yiyər. (83)
Qazanduğun qazana ver, artuğını çırağa[3]. (49)
Qazanlar üst örtülü qaynar. (83)
Qazanma, qarşı gəl. (18)
Qazanmağa nə var, iş onu xərcləməkdədi. (1)
Qazanmaq çətin, xərcləmək asan. (1)
Qazanmayınca qazan qaynamaz. (1)
Qazanub yedurmaq gərək. (49)
Qazı adamına baxar, hökm yazar. (1)
Qazı ağadan alacağın olsun, nə verər, nə danar. (1)
Qazı atlı, Əzrayıl piyada. (1)
Qazı biləni qəza da bilür. (50)
Qazı da bilir, quzu da[4]. (1)
Qazı evində girdəkan çoxdu, amma sayı var. (36a)
Qazı kəsən başın sorğu-sualı yoxdu. (1)

---

1. (2), (83), (5), (1), (9), (12)
2. (9), (13)
3. (1)
4. (14)

Qazı kitabdan-kitaba salar, haramı halal eylər. (1)
Qazı olma, başın ağrımasın. (1)
Qazı şikayətə gələnin bir gözünə baxar, bir də əlinə. (1)
Qazı taxtına, köpək vaxtına. (9)
Qazı tükünə görə yolallar. (9)
Qazıda insaf olmaz, tazıda mürvət. (1)
Qazıdan qardaş olmaz. (1)
Qazının şahidi ya kor olar, ya da kar. (40)
Qazının yanına tək gedən şad qayıdar. (1)
Qazıya yalquz gedən razı gələr. (83)
Qazludan tavuq (kimi) tartınma. (75)
Qeyrətlilik kişinin görkəmidir. (40a)
Qəbristana gedən ölü heç vaxt qayıtmaz[1]. (5)
Qəbrün köhnəsi, yenisi olmaz. (49)
Qəbul olmayacaq duaya amin demə. (14)
Qədəh həmişə dolı gəlməz. (49)
Qəflət gözün pərdəsidir. (33)
Qəflət yuxusu ürfan əhlinin gözünə girməz. (1)
Qəhrəman ölməz. (1)
Qəhrəman yarasız olmaz. (1)
Qəlb bir şüşədir, sındırsan – yamamaq olmaz. (1)
Qəlbi dolu olanın, dili uzun olar. (1)
Qəlblər örtülü olar. (1)
Qəlbürdə su durmaz. (75)
Qələ qapısına sığmaz, fındıq qabığına sığar. (1)
Qələbə birlikdədir. (1)
Qələbə sevinc gətirər. (1)
Qələm çalınan pozulmaz. (49)
Qələm dutan əl suala açılmaz. (83)
Qələm əyri kəsilsə də, doğru yazar[2]. (1)
Qələm fikrin tərcümanıdır. (1)
Qələm hökmdardır. (1)

1. (83), (9)
2. (83)

Qələm qılıcdan itidir. (1)
Qələm sultandır, əhl – qələmə rütbə verər[1]. (1)
Qələm tutan əl dilənməz. (1)
Qələm tutan əl sənə sarıdır – çömçə tutan əl sənə sarıdır. (1)
Qələm yazanı kağız udar. (1)
Qələm yazanı qılınc poza bilməz[2]. (73)
Qələm zalım əlində əyri yazar. (18)
Qələmə gəmirən eşşəgin qabıx gəmirən qoduğu olar. (55)
Qələmi yarmasan yazmaz. (83)
Qələmin bir nöqtəsi koru gözlü eylər[3]. (1)
Qələmin iki başını çərtməzlər, düşər – düşməzi var. (1)
Qələmin qiymətin yazıcı bilür. (75)
Qələmin ucu, qılıncın gücü[4]. (83)
Qələmin yazısı bir olsa da dili ikidi[5]. (83)
Qələndər gördügin deyər. (49)
Qəlp ağça iyəsinindür. (49)
Qəlp eşşək qayanın qırağı ilə gedər. (1)
Qəlp mal yiyəsinə qayıdar. (1)
Qəlp odur ki, qəlbindəkin deməyə[6]. (1)
Qəltəban qazanur, qəlt güvənur. (75)
Qəlyan çəkəni ilan vurmaz. (1)
Qəlyanı çəkənə ver. (1)
Qəm-qüssə adamı qocaldar, şadlıq cavanlaşdırar. (1)
Qəm adamı tez həlak edər. (75)
Qəm dağı yerindən qopardar. (1)
Qəm insanı əridər. (1)
Qəm qəm gətirər, dəm dəmi. (14)
Qəmli ürək ölməsə də dirilməz. (83)

---

1. (83)
2. (83), (1)
3. (83)
4. (76), (57), (1)
5. (1)
6. (83)

Qənaət xəzinədi. (1)
Qənaət tükənməz bir dövlətdi. (1)
Qənşərdə duran aydın görər. (9)
Qəpik-qəpik yığan manat-manat verər. (1)
Qəpik var ki, manatdan bahadı. (1)
Qərib dərdin tək ağlar[1]. (1)
Qərib – dostu olmayandı[2]. (18)
Qərib it hürəndə uzun hürər. (1)
Qərib it yeddi məhəllədən qovular. (1)
Qərib itin quyruğu dalında olar[3]. (2)
Qərib quşun yuvası çox olar. (14)
Qərib quşun yuvası olmaz. (1)
Qərib quşun yuvasını Tanrı yapar[4]. (28)
Qərib yerdə kar, kor, lal ol. (18)
Qəribə bir salam min tüməndən yaxşıdır. (1)
Qəribi baxışından tanıyarlar. (1)
Qəribi vurmuşlar, «Vah vətən!» demiş. (1)
Qəribin boynu uzun olar, dili qısa[5]. (1)
Qəribin çarəsi ağlamax, yetimin çarəsi sızdamax. (15)
Qəribin dostı olmaz[6]. (75)
Qəribin kimsəsi yoq, Allahı vardır. (75)
Qəribin sözü gerçək olar. (1)
Qəribin üzü gülməz. (12)
Qəriblik ağıl artırar. (1)
Qəriblik cənnət olsa, yenə vətən yaxşıdır. (1)
Qəriblikdə ölənin börkü nişanə gedər. (83)
Qəriblikdə sallan, miskər bazarda qışqır[7]. (5)
Qəssəb öz anasına da sümük satar. (18)

---

1. (15), (18)
2. (15)
3. (1), (9), (13), (14), (18)
4. (1)
5. (14), (15)
6. (1)
7. (83), (1)

Qəssabı yıqan qoyundur. (75)
Qeybi Allahdan ğeyri kimsə bilməz. (75)
Qeydlüyə söhbət haramdır. (75)
Qeyrə sirr vermək olmaz. (50)
Qeyrət imandur. (50)
Qeyrət ismətə qalxandı. (12)
Qeyrətlü dərdlü olur, ğeyrətsiz namərd. (50)
Qeyrətlü dövlətlü olur. (50)
Qeysəri fisir diyün yıqılmış. (75)
Qəza gəlicək göz bağlanır. (75)
Qəza görünüb gəlməz. (49)
Qəzadan qaçmaq olmaz. (49)
Qəhr ilə qazan, lütf ilə ye. (75)
Qıfıl oğru üçün deyil. (1)
Qıfıl oğru üçündür, mehr doğru üçün[1]. (73)
Qılıç qınını kəsməz[2]. (2)
Qılınc açmayan yeri pul açar. (83)
Qılınc bağlayanındı, at minənin. (1)
Qılınc iki ağızlı, qın birdir. (33)
Qılınc gücü ilə müsəlman olub. (1)
Qılınc həmin qılıncdı, qul həmin qul deyil. (1)
Qılınc kəsməyəni çörək kəsər. (1)
Qılınc kəsməyəni söz kəsər. (14)
Qılınc qında paslanar. (12)
Qılınc qınında paslanmaz. (1)
Qılıncdan qaşıq yegdir. (75)
Qılıncdar qılıncdan da ölər. (1)
Qılıncından qan damır. (1)
Qılıncının dalı da kəsir, qabağı da. (1)
Qılıncla oyun olmaz. (1)
Qılıncsız qırğına getdik[3]. (1)

---

1. (83)
2. (1)
3. (83)

Qılınç yarası önəlür, dil yarası önəlməz[1]. (75)
Qılıxlı min ev yiyir, qılıxsız bir evi yiyə bilməz[2]. (83)
Qılıxlı olan qulluxlu olar. (13)
Qır altından işimi gördüm, nahaq gitdi qara dana. (83)
Qır qırılar, qıyamat qopar. (9)
Qır satıb qazanc elədiyi olmuşdu, anbar kimi dağarcığı yırtdı[3]. (2)
Qıraxdan baxana döyüş asan gələr. (9)
Qırağın ağasına gedincək qapının nökərinə get. (9)
Qırağını yaladığı olmuşdu, içindəkini tökdü. (2)
Qırağu anun içün yağar ki, əli-ayağı üşüdə. (75)
Qıraqda qalan qotur olar. (1)
Qırğı yerində qarğa oturub. (1)
Qırğını qarğı ilə tutmazlar. (1)
Qırılan qoşunnandı, gedilən yoldan[4]. (5)
Qırıldı qohum-qardaşı, oldu cinlər yoldaşı. (1)
Qırımından dönməsə, qaçmasa, ərlik yaxşı. (3)
Qırmanı iynənin gözündən keçirdir. (1)
Qırmızı ilan dəri buraxmaz. (9)
Qırq yil öyləd olmış, əcəli gələn ölmüş. (75)
Qırq yılda öcun alan eyülən eyüdüm demiş. (75)
Qırqavul başını kola soxar, gerisindən xəbəri olmaz. (83)
Qırqınadək ögməyən qırqından son ögməz. (75)
Qırx beşə saxla saman, çəkmə aman. (1)
Qırx dayəsi olan uşaq aciz olar. (1)
Qırx əkmək borc olmaz. (49)
Qırx gün saqqal dəlisi, qırx gün daraq dəlisi, qırx gün yaraq dəlisi. (1)
Qırx gün toyuq olmaqdansa bir gün xoruz olmaq yaxşıdı. (1)
Qırx ignə bir çuvalduz olmaz. (49)

1. (49), (43), (2), (37), (76), (1)
2. (9), (14)
3. (83), (15)
4. (83), (14)

Qırx il yağış yağsa, mərmər su keçməz. (1)
Qırx ildə bir dəfə arvad sözünə baxarlar. (1)
Qırx qarğaya bir sapan daşı[1]. (55)
Qırx sərçə bir küftə olmaz. (49)
Qırx yaş cavanlığın qocası, əlli yaş qocalığın cavanı. (1)
Qırx yaşında tənbura ögrənən, axirətdə çalur. (49)
Qırxında öyrənən gorunda çalar[2]. (1)
Qırxını ormanda, əllisini xırmanda qoyuf. (12)
Qısılmaq zəbunluqdur. (49)
Qısır inəkdən yumurtdar toyuq yaxşıdı. (12)
Qısır qoyun qəssab dükanına yaraşar. (1)
Qısqanc gözə çöp düşər. (12)
Qısqı güclü olanda oğru bacadan qaçar[3]. (1)
Qısqıranı olsa, tazı da tutar. (9)
Qısqırmasan, hürməz. (12)
Qısrağa yanan canım, day da dalınca getdi[4]. (2)
Qış ac, yay yalavac[5]. (1)
Qış azlığına aldanma, buyarsan. (75)
Qış birdən-birə, yaz yavaş-yavaş gələr. (18)
Qış çıxar, üzüqaralıq kömürə qalar. (1)
Qış düşəndə qılçıqlı quyuya girər, quyruqlu töyləyə. (1)
Qış evinin bulaması, yaz evinin dələməsi. (1)
Qış fıkrin yaz görmək gərək. (49)
Qış gögdə qışlamaz. (75)
Qış güni qırq durli olur. (75)
Qış gününün yemişi oddur. (75)
Qış közi qırağı olur. (75)
Qış qılınç kibidir. (75)
Qış qışlağın eylər. (50)

---

1. (1)
2. (83)
3. (83)
4. (83)
5. (83)

Qış qışlığın bəlürdür, öykə kişiyi dəlürdur. (75)
Qış qışlığın yerdə eylər, göydə eyləməz. (1)
Qış yarağın yaydan düz. (75)
Qışa yavuğ aruq alma, yaza yavuğ yıxar. (50)
Qışa dedilər: Harada qışladın? Dedi: Yoxsulların yanında[1]. (1)
Qışda bağ ətəyi, yayda dağ ətəyi. (1)
Qışda bal qabına yer olmaz. (1)
Qışda çörəksiz, yayda köynəksiz yola çıxma. (1)
Qışda donub ölməkdən, yayda yeyib ölmək yaxşıdır. (83)
Qışda kasıbın qaçarağına ceyran da çatmaz. (18)
Qışda kürklü ilə gəzmə, yayda mülklü ilə. (1)
Qışda ocaq başında, yayda dağlar başında. (1)
Qışda yorğansız, yayda ayransız olma. (1)
Qışdan qorxma, qavaxdan yaz gəlir. (12)
Qışın çəni qar gətirər, yazın çəni bar gətirər. (79)
Qışın çırağı qurı olanın, yazın tamağı qurı olur. (75)
Qışın gözü yaman olar. (1)
Qışın günü adamı isitməz. (14)
Qışın qarı, yayın barı. (1)
Qışın oğurluğu yayda üzə çıxar[2]. (1)
Qışın souxluğunu bir pişik bilər, bir də ki, uşax. (18)
Qıvraq bədənin cıvraq da ədası olar. (40)
Qız alan alana kimi, qız verən ölənə kimi. (1)
Qız alan gözüynən baxmasın, qulağıynan eşitsin[3]. (46)
Qız alan qızara-qızara gəlmək gərək. (49)
Qız alanın ya bir çuval qızılı gərək, ya bir çuval yalanı[4]. (44)
Qız almaq hasar almaq kibidir. (75)
Qız ana kirgənəsində ip əyirür, oğul ata süfrəsinə salur. (49)
Qız anadan görməyincə ögüd almaz[1]. (3)

---

1. (14)
2. (83)
3. (83), (1)
4. (83), (79), (1)

Qız anadan olanda gözünü açar, deyər: - Bu bizim ev deyil[2]! (1)

Qız anadan öyüd alar. (1)

Qız anası elçi gözlər. (1)

Qız anasına duruş ögrədir. (75)

Qız aparanı yuxu tutmaz. (1)

Qız badamdı, balası – badam içi. (1)

Qız baxt üstündə oturar, taxt üstündə oturmaz. (14)

Qız bir yükdür. (49)

Qız dediyin ağacdakı almadı, kim salar, o da aparar[3]. (1)

Qız deyər: - qırxım çıxmayınca məni atmasalar, daha atmazlar. (1)

Qız deyər: Qarnımı doydur, qora basdır, oğlan deyər: Qarnımı doydur, qara basdır. (14)

Qız elçiliyinə gedəndə dolanışığı sənnən yaxşı olmayanın qapısına get. (18)

Qız evin qonağıdı, vaxt gələr, gedər. (1)

Qız evində toydu, oğlan evinin xəbəri yox. (1)

Qız evindən oğul bucağı yaxşıdı. (1)

Qız evi - şah evi. (49)

Qız evlərdə tanınar, ipək dəzgahda[4]. (46)

Qız əlinə qələm, oğlan əlinə qayçı yetsə, aləmi kor dutar. (50)

Qız ərə gedəndə yeddi köynək əti vardı, ər evində o qədər zingədanlıq elədi ki, bir köynək əti qaldı. (79)

Qız ərə vermək bacılar işi deyil, hacılar işidi. (1)

Qız əti hamar, oğlan əti damar. (1)

Qız gedər igid gətirər, oğlan gedər it gətirər. (9)

Qız gedəridi, oğlan ürək başıdı. (1)

Qız gələr, gəlin olar, meh əsər, sərin olar. (1)

---

1. (49), (1)
2. (14)
3. (1), (39a)
4. (83), (1)

Qız gərək, tez gərək[1]. (9)

Qız gözəl gərək, oğlan igid. (1)

Qız güldü, oğlan bülbül. (1)

Qız idim sultan idim, nişanlandım, xan oldum, gəlin oldum, qul oldum, ayağlara çul oldum[2]. (83)

Qız idim, geydirdilər əbr-vəfa köynəyini, nişanlıydım, geydirdilər zövqü-səfa köynəyini. Gəlin oldum, geydirdilər cövrü-cəfa köynəyini. (1)

Qız ilə qızıl gizlin gərək. (83)

Qız ilən əriştə, qarı ilən əriştə. (49)

Qız kəsilməmiş qarpıza bənzər. (1)

Qız köçəri quşdu. (1)

Qız qaldıqca qızıla dönər. (1)

Qız qapısı – şah qapısı, mini gələr, biri razı gedər[3]. (1)

Qız qarıyanda dayısının boynuna düşər[4]. (46)

Qız qızdığını şaha da verməz. (12)

Qız qızıldı, qədrini bilsin gərək. (1)

Qız qundaqda, cehizi sandıqda. (53)

Qız nəvəsi şirin olar. (1)

Qız oğlan qucmayan, ayğır ata binməyən yigitlik səfasın bulmaz. (75)

Qız oğlanla övrətin fərqi bir gecədir. (75)

Qız onbeş yaşında ya ərdə gərək, ya da gorda[5]. (46)

Qız oqutmaq güc olur. (75)

Qız özgə çırağını yandırar. (1)

Qız özgə əmanətidi. (1)

Qız özgə yumağı böyüdəndi, oğul yurdu güdəndi. (18)

Qız səsi, qızıl səsi. (1)

Qız uşağı evin yaraşığı[1]. (55)

---

1. (12)
2. (1)
3. (13), (14)
4. (49)
5. (83)

Qız üz qızardar. (1)
Qız var ki, qoz ağacına bənzər, hər gələn bir daş atar. (1)
Qız yükü, duz yükü[2]. (1)
Qız züryəti isdəhli olar. (18)
Qıza dedilər: – Gözəlsən? Dedi: – Hələ dayanın, əl-üzümü yuyum. (1)
Qızı ata mindirdilər, dedi: – Ya nəsib! (1)
Qızı qara quyla, oğlanı qora. (17)
Qızı otaqlıya yox, papaqlıya ver. (1)
Qızı özbaşına qoysan, ya hoqqabaza gedər, ya da aşığa[3]. (46)
Qızı verdin mala, mal getdi, qız qaldı lala. (8)
Qızı vermisən, özünə oğul qazanmısan. (1)
Qızıl açar, dəmir qapılar açar. (1)
Qızıl arvadın, qılınc ərindir. (1)
Qızıl atəşdə, insan zəhmətdə bəlli olar. (1)
Qızıl başlu girməyincə qara başlı çıqmaz. (75)
Qızıl çirkabın içində də qızıldı. (18)
Qızıl əli bıçaq kəsməz. (1)
Qızıl görəndə Qeysər də yoldan çıxar. (1)
Qızıl-gümüşü sərraf bilər. (28)
Qızıl hər yerdə qızıldı. (12)
Qızıl Xızırı oynadar. (1)
Qızıl inək qaraqabaq gəlinə süd verməz. (1)
Qızıl qızıl gətirər, xəzinə xəzinə. (1)
Qızıl ləyənin də olsa, içində qan qusandan sonra nəyə gərək?! (1)
Qızıl möhkəm qala qapılarını açar. (1)
Qızıl odla, arvad qızılla, kişi arvadla imtahan edilər. (14)
Qızıl palçıqda da parıldar[4]. (1)

---

1. (1)
2. (83)
3. (49), (83)
4. (9)

Qızıl pas tutmaz. (12)
Qızıl poladdan keçər. (1)
Qızıl taxtım olunca qızıl bəxtim olsun[1]. (1)
Qızıl toprağda qalmaq ilən qiymətdən düşməz. (50)
Qızılbaşın dilinə, qışın gününə etibar yoxdu[2]. (1)
Qızıldan balta qayırsan, axır kol dibinə düşər. (1)
Qızıldan çarıq geysən, yenə adı çarıqdır[3]. (44)
Qızılı görüf, Peyğəmbəri də yaddan çıxıf. (10)
Qızılı məhək daşı tanıyar, xəsisi dilənçi. (9)
Qızılı olan adam dinclik tapmaz. (12)
Qızılı sərrafdan sor, çənbəri quyuçudan. (1)
Qızılın qiyməti azlığındadır. (1)
Qızılın qiymətini sərraf yaxşı bilər. (63)
Qızılquş əldə gəzər, gözəl qız dildə. (1)
Qızılquşun ayağında qumro olar. (1)
Qızılquşun yuvası boş olmaz. (1)
Qızım kimi sevirsə, güyəgüm oldur. (75)
Qızım oğlan doğsun, payız günəşinin qabağında otursun, gəlinim qız doğsun, yaz günəşinin qabağında otursun. (17)
Qızım sənə deyirəm, gəlinim sən eşit[4]. (49)
Qızın dili anasındadı. (18)
Qızın isməti – atanın dövləti[5]. (46)
Qızın oldu, qırmızı donunu çıxart[6]. (1)
Qızın var, qızılın var[7]. (9)
Qızın Vətəni olmaz. (14)
Qızını dögməyən dizini dögər[8]. (83)
Qızını döydü, özünü öydü. (18)

---

1. (9), (13)
2. (83)
3. (30), (5), (83), (1), (12)
4. (54), (46), (83), (1), (15)
5. (1)
6. (83), (14)
7. (13)
8. (49), (1), (13)

Qızını qoy beşiyə, cehizini qoy eşiyə[1]. (14)
Qızınmadıq istisinə, kor olduq tüstüsünə[2]. (2)
Qızlar taxsırkar deyil, günah oğlanda olar. (1)
Qızlar tez böyür. (75)
Qızlığı nə idi ki, gəlinliyi nə ola?! (1)
Qızmış dəvəni saxlamaq olmaz. (1)
Qıznan qızıl – gizlin gərək[3]. (46)
Qızsız - ana, duzsuz ana. (14)
Qızsız ev, duzsuz ev.(6)
Qiblə pakdı. (83)
Qisas qiyamətə qalmaz[4]. (49)
Qismət də var, hümmət də var. (1)
Qismət göydən zənbil ilə enməz. (1)
Qismət olan qaşığa çıxar. (1)
Qismət olsa gəlir yetişür. (49)
Qismətdə vardısa, gələr Yəməndən, qismətdə yoxdusa, düşər dəhəndən[5]. (34)
Qismətdən artıq yemək olmaz[6]. (1)
Qismətdən qaçmaq olmaz. (49)
Qissədən hissə al. (75)
Qiyamət o gün qopar, biri yeyər, biri baxar[7]. (1)
Qiyamətdə haqqın əli olsun, batilin yaxası. (1)
Qiymətdə əvvəl qonşunu soruşarlar. (1)
Qiymətdən düşmək istəmirsənsə, heç kəsin qiymətdən düşməsinə çalışma. (1)
Qiymətli yük yüngül olar. (1)
Qoca at da arpa yeyər[8]. (6)

---

1. (1), (9)
2. (83), (54), (1), (16)
3. (1), (12)
4. (2), (83), (1)
5. (1)
6. (83)
7. (9)
8. (12)

Qoca ayrı, qocaman ayrı. (1)

Qoca çaqqal ulamaz. (1)

Qoca dünyada yenə insanın insan yeri var, tülkünün tülkü yeri, aslanın aslan yeri var. (1)

Qoca evin sütunudur. (1)

Qoca xatirələrlə yaşar, cavan ümidlə. (11)

Qoca kafir müsəlman olmaz. (75)

Qoca qoynunda çörək var, yigit qoynunda çomaq var. (75)

Qoca öküzü öldürmək olar, öyrətmək olmaz. (1)

Qoca tülkü hiyləbaz olar. (1)

Qoca tülkü tələdən qorxar. (1)

Qoca tülkü tora düşməz. (1)

Qocadan demək, cavandan kömək[1]. (1)

Qocalar uşaq təbiətli olar. (1)

Qocaları yoxsul bilmə, bay bil. (75)

Qocaların parası – iki bayram arası. (1)

Qocalıq bir köynək, çalış əyninə geymə, elə ki, geydin, çıxarda bilməzsən. (1)

Qocalıq gəldi-getməzdir, cavanlıq getdi-gəlməzdir. (1)

Qocalıq soruşmaz, gələr. (1)

Qocalmasan, qoca qədri bilməzsən. (1)

Qocanın biliyi, cavanın biləyi[2]. (6)

Qocanın gözü qazanın dibində olar[3]. (1)

Qocanın işləməyi xeyirdi, dişləməyi zərər[4]. (1)

Qocaya gedən quyruq yeyər, cavana gedən yumruq[5]. (1)

Qocaya gülən özünə gülər[6]. (1)

Qocaya hörmət elə, sən də qocalacaqsan. (1)

Qoç burnunu qoç qanadar. (9)

---

1. (83)
2. (83)
3. (83)
4. (83)
5. (14)
6. (83)

Qoç döyüşünə qoç dözər[1]. (1)
Qoç igid qurddan pəsinməz. (1)
Qoç igiddən qoç törər. (1)
Qoç quzı qurban içündur[2]. (49)
Qoç quzuluğundan məlum olar. (41)
Qoç olmamış buynuz çıxardır. (1)
Qoça öz buynuzları ağırlıq eyləməz[3]. (2)
Qoça quyruğu yük olmaz. (1)
Qodux nədi, yəhər nə? (18)
Qodux oynayan günü qar yağar. (9)
Qodux örkəndə anasından qabaq düşər. (83)
Qoduxlasan da yükün boynumdadı, qoduxlamasan da. (17)
Qoduq böyüdü, çulu böyümədi[4]. (1)
Qoduq böyüyər, eşşək olar. (1)
Qoduq üşüməsə tövlənin qədrini bilməz. (1)
Qohum gedə-gedə yad olar, yad gələ-gələ qohum[5]. (46)
Qohum qohumun ətini yesə, sümüyünü çölə atmaz[6]. (1)
Qohum var, ciyər parası, qohum var, qazan qarası. (18)
Qohuma qoltax, yada yaltax[7]. (9)
Qohum-qardaşla ye, iç, alış-veriş eyləmə. (83)
Qohumu kəssən kəsilməz, üzsən üzülməz. (9)
Qohumum qara qazan, ümidim un çuvalı. (1)
Qohumun acısı – qovunun acısı[8]. (1)
Qohumun kimdi? Yaxın qonşun[9]. (2)
Qoja atnan hündür hasardan aşammazsan[10]. (9)

---

1. (16)
2. (1)
3. (74), (77), (83), (1), (9), (13), (16)
4. (16)
5. (1), (83)
6. (14)
7. (9)
8. (6)
9. (49), (83), (1), (14)
10. (12)

Qojanın dizi ağrıyar, ağlıyanın gözü. (9)
Qol əti qolda gidər, bud əti budda. (83)
Qol qırılında boyundan asarlar. (14)
Qol salsan, yön bəllüdür. (75)
Qoltuğı altından yeyənin qarnı toymaz. (75)
Qolu bağlı olanı hər kəs döyər. (1)
Qolun sınsa, qolluqda, qıçın sınsa, balaqda. (36)
Qolun sınığı boyuna bir yükdü. (39)
Qolun var, zorun var. (1)
Qomaduğun yerdən götürmə. (75)
Qonağ nəfəs kimidür, gəlib çıxmasa xəfə olur. (49)
Qonağ umduğın yeməz. (49)
Qonağa ağzına görə aş bişirəllər. (12)
Qonağa aş verərsən, sənə baş vurar[1]. (46)
Qonağa «get» deməzlər, palazı altından çəkərlər[2]. (1)
Qonağa görə süfrə açılar. (1)
Qonağa hörmət eylə, əgərçi kafir də olsa[3]. (2)
Qonağa zaval yoxdu. (12)
Qonağı evə qoyan yoxdu, soruşur: - Paltarımı hardan asım? (1)
Qonağı evə qoyan yoxdur, şah qatarın mıxdan asır. (55)
Qonağı evə qoymazlar, oxunu gökdən asar[4]. (83)
Qonağı gəlməyən qara evlər yıxılsa yey[5]. (3)
Qonağı qonşuya tanıdarsan, hər ikisindən məhrum olarsan[6]. (1)
Qonağı öyə qoyan yox, sadağası göynən gedər. (18)
Qonağım qonağ, qonşum da qonağ. (49)
Qonağın ağzına baxarlar, atına yem verərlər. (1)

1. (83), (1)
2. (83), (14)
3. (81), (83), (1), (14)
4. (1)
5. (1)
6. (83)

Qonağın əbləhi oldur ki, ev issini ağırlaya. (75)
Qonağın gözü böyüh olar. (15)
Qonağın hörmətliliyi yola salınmaqdan bilinər. (35)
Qonağın könlünnən keçən öy yəəsinin il azuqəsidi. (18)
Qonağın payını Allah yetirər. (12)
Qonağın ruzisi özündən qabaq gələr. (83)
Qonağın tədbiri çaşanda öv yiyəsinə təklif eliyir. (10)
Qonağın üzünə baxma, izinə bax. (9)
Qonağın zorlusu özündən qabaq gələr[1]. (55)
Qonax gələr qaşına baxmaz, aşına baxar. (18)
Qonax öy yiyəsinin zurnaçısıdır. (35a)
Qonax özünə qav tapar. (9)
Qonax ya taxçaya, ya buxçaya baxar. (18)
Qonaq bərəkət gətirər. (1)
Qonaq bir gün olar. (1)
Qonaq bir olsa, ev yiyəsi öküz kəsər. (1)
Qonaq bu il burdadı, yengi il də sərbəsər[2]. (83)
Qonaq çoxdu, qazma dar[3]. (46)
Qonaq dediyin sabah gəlsin, axşam getsin. (1)
Qonaq ev yiyəsinin dəvəsidi, harda bağlasa, orda durar[4]. (46)
Qonaq ev yiyəsinin quludu. (1)
Qonaq ev yiyəsinin quzusudu. (1)
Qonaq evə girincə utanar, ev yiyəsi sonra. (1)
Qonaq evin gülüdü. (1)
Qonaq evinə motal yüklü gələn buğda yüklü gidər[5]. (83)
Qonaq gələr qonşu kimi, yenə gedər qonşu kimi. (1)
Qonaq gələr, gedər quş kimi, yoxsa oturar bayquş kimi?! (1)
Qonaq gəlməyən ev xaraba qalar. (14)
Qonaq güclü olsa, ev yiyəsini evdən qovar. (83)

---

1. (1), (14)
2. (5), (1)
3. (83)
4. (83), (5), (1)
5. (1)

Qonaq ki var, gəldi - gedərdi. (1)
Qonaq köçəri quşdu. (1)
Qonaq qonağı sevməz, ev issi ikisini də sevməz[1]. (75)
Qonaq qonağın hesabını ürəyində saxlar. (1)
Qonaq özgə evində səliqəli olar. (44)
Qonaq sevənin süfrəsi boş qalmaz[2]. (1)
Qonaq süfrənin yaraşığıdı, uşaq evin. (1)
Qonaq var ev üçün, qonaq var el üçün, qonaq var sel üçün. (41)
Qonaq umduğın yeməz, bişdügin yer[3]. (75)
Qonaq yedügin bilməzsə, ev issi xərçin bilür. (75)
Qonağın enesi endicək ev issin ağırlar. (75)
Qonaqdan saldıran yağıdan saldırıb[4]. (2)
Qonaqdan saldırılan qazancdı. (1)
Qonaqlıq yaxşı şeydi, bir gün bizdə, bir gün sizdə. (1)
Qonaqsız ev susuz dəyirman. (1)
Qonaqsız ev uğursuz olar. (1)
Qonşı aşı - könül xoşı. (49)
Qonşı qazanı almaq çanaqdan su içmək kibidir. (75)
Qonşı ölümi sənə yoldur. (49)
Qonşı qızı gülənclü olur. (75)
Qonşı qızı tar olur. (75)
Qonşı sözi qonşıya ağır gəlür. (49)
Qonşın tox, sən də tox. (49)
Qonşına danış, bildügin əldən qoyma. (49)
Qonşının eşəgin toquz istə, sənin on olsun. (75)
Qonşıyı qonşıdan sorarlar. (75)
Qonşu aşı (payı) dadlı olar. (1)
Qonşu çörəyi qonşuya borcdu[5]. (2)

---

1. (49), (2), (54), (5), (83), (83), (12)
2. (83)
3. (1)
4. (81), (83)
5. (28), (2), (81), (83)

Qonşu iti qonşuya ürməz[1]. (28)
Qonşu qarısı qız görünər. (18)
Qonşu qızı çapaqlı olur. (75)
Qonşu qızı göyçək olar. (1)
Qonşu qızı gözəl olmaz. (14)
Qonşu qonşu olsa, keçini camış qiymətinə satarsan. (16)
Qonşu qonşudan namus çəkməsə, ajınnan ölər. (9)
Qonşu qonşudan tez durmağı öyrənər. (1)
Qonşu qonşunun gülünə möhtacdı. (1)
Qonşu qonşunun itigini bayatı çağıra-çağıra tapar[2]. (83)
Qonşu qonşuya baxar, özünü oda yaxar[3]. (2)
Qonşu qonşuynan tən gərək, tən olmasa gen gərək[4]. (5)
Qonşu malı şirin olar. (17)
Qonşu muncuğunu götürən gərək gorda taxsın[5]. (83)
Qonşu oduynan çırax yanmaz. (15)
Qonşu paxıl olmasa kor qız ərə gedər[6]. (2)
Qonşu payı dolu gələr, dolu gedər. (83)
Qonşu haqqı, Tanrı haqqı[7]. (75)
Qonşuda bişər, bizə də düşər. (1)
Qonşuda ət döyülür, qonşuya müftə görünür. (1)
Qonşuda qız sevənin ürəyində yağ olmaz. (1)
Qonşuda yarı olanın evi dar olar. (40)
Qonşudan aş gəldi, gözümnən yaş gəldi. (18)
Qonşudan gələn odla isinmək olmaz. (12)
Qonşudan gələn qatıxcıx, qurtarar barmax batırcax[8]. (9)
Qonşudan gələnnən töyna olma. (83)
Qonşun kim isə, qardaşın oldur. (75)

---

1. (83)
2. (1)
3. (49), (55), (54), (83), (1), (9)
4. (54)
5. (10), (49)
6. (49), (83), (1), (13)
7. (49)
8. (17)

Qonşun pisdi, köç qurtar, dişin ağrıyır, çək qurtar, arvadın pisdi, boşa qurtar, halın pisdi, öl qurtar[1]. (1)

Qonşunu iki inəkli istə ki, özün də bir inəkli olasan[2]. (28)

Qonşunun başı şişdi, qayğısı bizə düşdü[3]. (1)

Qonşunun gəlini qız, donqarı düz görünür. (9)

Qonşunun haqqı, axirət haqqıdı. (1)

Qonşunun qaymağınnan özüün şoru yaxşıdı. (18)

Qonşunun qıyvatını qırma, ya qapıdadı, ya bajada. (9)

Qonşunun qızı idim, indi oldum ev qızı, ev gəlini. (1)

Qonşunun şamından işıx olmaz[4]. (5)

Qonşunun toyuğu qaz, özününkü az görünər. (9)

Qonşuya ağaş dəydi, elə bildik, saman çuvalına dəydi. (9)

Qonşuya gülə-gülə gedən, ağlıya-ağlıya gələr. (9)

Qonşuya umudlu olan şamsız yatar[5]. (44)

Qora ikən mövüc oldum[6]. (1)

Qora yetmək dövlət bəqasıdur. (49)

Qorğaya öyrəşən çətəsiz qalmaz. (79)

Qorx o adamdan ki, qorxmaz Allahdan[7]. (28)

Qorx payızdan – qabağınca qış gəlir, qorxma qışdan – qabağınca yaz gəlir. (1)

Qorxa-qorxa cənnətə gedincə, gülə-gülə cəhənnəmə get[8]. (1)

Qorxağın səsi gur olar. (6)

Qorxaq igidlikdən danışar. (1)

Qorxaq kölgəsindən ürkər. (1)

Qorxan gündə yüz yol ölər, qəhrəman bir yol[9]. (55)

Qorxan it uzaxdan hürər, yaxınnan quyrux buluyar. (9)

---

1. (2), (54), (5)
2. (75), (45), (54), (76), (5), (83), (1)
3. (18)
4. (1), (83)
5. (28), (29), (30), (2), (83), (5), (1)
6. (83)
7. (55), (29), (83)
8. (10)
9. (1)

Qorxanın cütə faydası yoxdur[1]. (81)
Qorxu başa bəladır. (1)
Qorxu cana kafaradı. (13)
Qorxu olmayan yerdə nizam olmaz[2]. (2)
Qorxu ölümdən nicat verməz. (1)
Qorxu ölümün qardaşıdı. (1)
Qorxu xəyanətündür. (75)
Qorxulu baş səlamət olur[3]. (49)
Qorqaq bazırgan assı etməz[4]. (75)
Qorqaq qarnın toyurmaz. (75)
Qorqunun əcələ assısı yoqdur. (75)
Qorunan gözə çöp düşməz. (82)
Qorunan heyvanı qurd yeməz. (1)
Qoruyub varını, unutma arını. (78)
Qoşa qılınc qına sığmaz. (3)
Qoşalövbər gəmini su aparmaz. (1)
Qotur qoyundan bir çəngə yun da qənimətdir. (1)
Qovanın gücü varsa, qaçanın da Allahı var. (1)
Qovqasız baş gorda. (49)
Qovlu ilə feli bir deyil. (1)
Qoy keçinin ölümü palıddan olsun. (83)
Qoyma xaldan xal olmaz, xal özü əsli gərək[5]. (83)
Qoyun ayağı incələr, quş ayağı dirçələr[6]. (1)
Qoyun az gəzər, quyruq bağlayar. (1)
Qoyun quzusunun ayağını basmaz[7]. (49)
Qoyun olmayan yerdə keçiyə Kərəməddin ağa deyərlər[8]. (49)

---

1. (83)
2. (83), (1)
3. (2), (83), (9)
4. (2), (83)
5. (83), (5), (1), (9)
6. (83)
7. (28), (57), (2), (83), (1)
8. (28), (55), (2), (74), (5), (83), (1)

Qoyun öz tüki üstə yatar. (49)

Qoyun səmirdikcə yavaş olur. (75)

Qoyun tozı qurt gözünə tütiyədir. (49)

Qoyun üç baş otlar. (16)

Qoyun yüz olunca, dərisi min olar. (1)

Qoyuna qaç deyüb, qurda qov demə. (75)

Qoyuna qırxılıq qoyulanda keçinin gözü yaşarar. (1)

Qoyuna qurt təpdi, vay "birliy" içün[1]. (49)

Qoyunlu evlər gördüm, qurulmuş yaya bənzər, qoyunsuz evlər gördüm, qurumuş çaya bənzər. (1)

Qoyunludan quzı tartınma. (75)

Qoyunu çox olanın səbri gen olar. (12)

Qoyunu köpəyə tapşıran, kababı qurda yedizdirər. (15)

Qoyunu qoyun ayağından asarlar, keçini də keçi ayağından[2]. (28)

Qoyunu olmayanın bıçağı iti olur[3]. (2)

Qoyunu qurda tapşırdı[4]. (28)

Qoyunu soyub quyruğunda bıçaq sındırır. (14)

Qoyunun quzusu bir-bir doğulur, axırda sürü düzəlir, it neçəsini küçükləyir, hamısı dağılışıb gedir. (39a)

Qoyunun mələdiyini quzu mələməz. (15)

Qoyunun oldu əlli, adın oldu bəlli, qoyunun oldu yüz, süd gölündə üz[5]. (14)

Qoyunun olmadığı yerdə keçiyə Əbdürrəhman Çələbi deyərlər. (33)

Qoyunun yaxşısı gedib, gici qalıb, adamın yaxşısı gedib, bici qalıb[6]. (5)

Qoyunun zulumu sütdən olsun. (18)

---

1. (1)
2. (49), (2), (5), (83), (5), (1)
3. (83), (1)
4. (83), (1)
5. (83)
6. (83)

Qoz ağacı, qız ağacı, sındırarsan, yox əlacı. (1)
Qoz qabığından çıxdı, qabığını bəyənmədi[1]. (1)
Qoz silkələyif, fındıx yığmazlar. (11)
Qoz var, sındırarsan, səs verər, qız var, dindirərsən, səs verər. (1)
Qozbeli qəbir düzəldər. (1)
Quda qudurar, qızını aparar[2]. (1)
Quduzun ömri qırq gündür[3]. (75)
Qul azmasa, qada yeriməz. (18)
Qul ilən quymaq yeyən qırx ildən sonra qusar. (49)
Qul qədərini görəcək, qismətini yiycək, gora sora geecək[4]. (18)
Qul qədərsiz olmaz, gor əzabsız. (18)
Qul, qulluğın andan bilə ki, kəndü dedigi olmıya. (75)
Qul qulluğunda gərək. (75)
Qul maluna güvənər, ağa ikisinə də. (49)
Qul olanın qulu olma, qul saxlıyanın qulu ol. (18)
Qul tapusı keçərgüdür. (75)
Qul xətasız olmaz, ağa kərəmsiz[5]. (28)
Qulağı kəsilən it quzuya dönər. (18)
Qulağızsız quş uçmaz. (75)
Qulaq asan öz sözünü eşidər. (83)
Qulaq başa zəkatdur. (49)
Qulaq deyir: - Gündə bir söz eşitməsəm, qalxana dönərəm. (1)
Qulaq gündə təzə söz eşitməsə kar olar. (1)
Qulaq iki, dil birdi, bir söylə, iki eşit. (1)
Qulaqda sırğa asılar, söz qalar. (1)
Qulanın quyruğunu kəsməhlə qurd olmaz. (15)

---

1. (83)
2. (83)
3. (2), (81), (83), (1)
4. (13)
5. (49), (2), (83)

Quldan xəta, ağadan əta[1]. (81)
Qulı qul duasıyla həq yarğılar. (75)
Qulluqçudan borc eləmə, ya toyda istər, ya yasda. (1)
Qulun at olunca yiyəsi mat olar[2]. (37)
Qulun yoğ isə, güyəgün də mi yoq? (75)
Qum qalur, su gedür. (49)
Qumar dağıdan evi Allah dağıtmaz. (83)
Qumar naşını sevər. (1)
Qumar pulu ilə məscid tikilməz. (1)
Qumarı oynarlar aşıqilən. (83)
Qumarın axırı yoxdu[3]. (1)
Qumlaxlının həyətində fındıx olar, Daşağlının həyətində keçi. (18)
Qumsuz bulaq, tumsuz qabaq olmaz. (40)
Quran oxumaqnan donquz darıdan çıxmaz. (83)
Quranı yarpaq-yarpaq yiyir, yalanı başdan aşır. (18)
Quraxlıxdan ajdığ olmaz, amma yağarrıxdan olar[4]. (9)
Qurbağanı suya sarı tərpətsən, iki sıçrar[5]. (49)
Qurban yeyən abdal qida qaytarmaq gərək. (49)
Qurbannıx qoçu qurd yeməz. (12)
Qurbansız bayram olmaz[6]. (55)
Qurd acgöz olar. (1)
Qurd ağzından sümük alınmaz. (1)
Qurd anarsan, qurd gəlür. (75)
Qurd balası qurd olar, eşşək balası qoduq[7]. (1)
Qurd boynuna çəkər: assın dönüb nəsnə umma. (75)
Qurd bulduğı quş ilə, quş bulduğı ağac turusında. (75)
Qurd dartdığını bilər, ovladığını bilməz[1]. (29)

---

1. (83)
2. (16)
3. (83)
4. (12)
5. (55), (1)
6. (1)
7. (75), (15), (9)

Qurd dedin, qulağı çıxdı[2]. (1)
Qurd dumanlı gün axtarar[3]. (2)
Qurd əti qurda haramdı. (1)
Qurd gəldi, oyun pozdı. (49)
Qurd xisləti dəyişməz. (13)
Qurd ilə qiyamətə qalmaz. (1)
Qurd ilə qoyun, qılıncla oyun bir yerdə olmaz[4]. (28)
Qurd ilən yeyər, iyəsi ilən şivən eylər[5]. (49)
Qurd ki qarıdı, qurbağa avlar. (49)
Qurd qaranlıq sevər[6]. (44)
Qurd qocalanda əlini qapır. (1)
Qurd qocalanda köpəyə gülünc gələr[7]. (2)
Qurd qonşusun yeməz[8]. (75)
Qurd qoyuna dəgməsə, İsfahana gedər[9]. (49)
Qurd qoyundan tamahın kəsməz[10]. (75)
Qurd qurdluğun yerə qoysa, qurd olmaz - murd olar. (16)
Qurd mirası quşunkudur. (49)
Qurd nə bilir, qatır bahadır[11]. (28)
Qurd övladığın quşnan yeyər, quş tutduğun göyə çəkər. (17)
Qurd öz örüşündə ac qalmaz[12]. (1)
Qurd sürüyə gələndə tək qoyunlunun qoyununu aparar[13]. (1)
Qurd toyduğı yeri qırq kərrə dolanur. (75)
Qurd tutduğu yerdən qane olur. (1)

---

1. (83)
2. (12)
3. (83), (1)
4. (75), (83), (1)
5. (75), (1)
6. (28), (1)
7. (54), (1), (14)
8. (49), (14)
9. (83), (1)
10. (16)
11. (2), (83), (1), (13), (17)
12. (83), (16)
13. (83)

Qurd tükünü dəgişər, xasiyyətini dəgişməz[1]. (29)
Qurd ulaya-ulaya başına qal gətirər[2]. (1)
Qurd üzi mübarəkdir. (3)
Qurd yanında quş da doyar. (75)
Qurd yuvasından sümük əskik olmaz[3]. (2)
Qurda qonaq gedən köpəyi yanıca aparmalı[4]. (2)
Qurda qoyun tapşırmaq olmaz[5]. (2)
Qurda rəhm eyləmək qoyuna zülmdür[6]. (28)
Qurda tikmək öyrət, yırtmaq ki peşəsidür[7]. (49)
Qurddan çoban olmaz[8]. (28)
Qurddan qorxan qoyun saxlamaz[9]. (2)
Qurddan olan qurd olar[10]. (73)
Qurdların səbəbinə quşlar da yem tapır. (1)
Qurdlu paxlanın kor alıcısı olar[11]. (1)
Qurdu evdə saxlamaqla, ev heyvanı olmaz. (1)
Qurdu meşədən aclıq çıxardar. (1)
Qurdun adı yavuz, arada dülkü var, baş kəsər. (75)
Qurdun ağzınnan quyrux çıxanda uluyar. (9)
Qurdun səbəbinə quş da yeyər[12]. (2)
Qurdun tövbəsi qoyunu görüncədi. (39a)
Qurdun üzü ağ olsa, abadanlığa gündüz gələr (1)
Qurdun yediyini keçiyə çıxmazdar. (9)
Quru ağacı odunluğa kəsərlər. (1)

---

1. (30), (62), (2), (1)
2. (83)
3. (74), (83), (1)
4. (28), (83), (1)
5. (83), (1)
6. (2), (83), (1)
7. (1)
8. (49), (30), (56), (55), (2), (16)
9. (1), (9), (14)
10. (2), (1)
11. (18), (83)
12. (83), (16)

Quru ağacın meyvəsi olmaz. (1)
Quru divara un yapışmaz[1]. (2)
Quru donla yaş balıq tutulmaz. (1)
Quru gön bit arturar. (75)
Quru qaşıq ağız yırtar. (1)
Quru qatında yaş da yanar[2]. (75)
Quru quyudan su çıxmaz. (14)
Quru palçıq divara yapışmaz. (1)
Quru salamı yel alur. (75)
Quru süfrəyə dua olmaz[3]. (2)
Quru torva ilə at bir gəz tutulur. (75)
Quru torva ilə at yelәgi tutulmaz. (75)
Qurudan quruya nəsnə yapışmaz. (75)
Qurunun oduna yaş da yanar[4]. (5)
Quş avladan qarımış, tazı avladan yarımış. (49)
Quş dənə yığılar, çibin şirinə[5]. (37)
Quş dimdiyindən, insan dilindən tələyə düşər. (1)
Quş gögdə qışlamaz. (49)
Quş kola sıxılar, insan insana. (21)
Quş qanadına arxalanar, uşaq atasına. (1)
Quş qanadından kirayə istəməz[6]. (49)
Quş qanat ilən, ər himmət ilən. (49)
Quş qızıl qəfəsdə olsa yenə dustaxdı[7]. (83)
Quş quş ilə tutulur[8]. (44)
Quş uçduğu yuvadan ol yuvayı gerü yapar. (75)
Quş var, ət yedirirlər, quş var, ətin yeyirlər[9]. (75)

---

1. (83)
2. (49)
3. (83), (1), (14)
4. (83), (1)
5. (1), (14)
6. (2), (54), (55), (83), (1)
7. (1)
8. (83), (1)
9. (49), (2), (12), (13)

Quşbazın evini salsal yaxar. (2)
Quşda süd yoq, qatırda qulun yoq. (75)
Quşdan qorxan darı əkməz[1]. (1)
Quşın erkəgin, dişisin bəglər tanur. (49)
Quşlara xərac gəldi, gecəquşu dişini görkəzdi[2]. (83)
Quşu cələ ilə tutallar. (9)
Quşu uçurdub, yerini axtarır. (1)
Quşu yuvadan, gülü güllükdən götür. (9)
Quşun erkək-dişisini ovçu tanıyar. (1)
Quşun qanadı özünə ağırlıq eyləməz. (83)
Qutlu gün toquşundan bəllüdür[3]. (75)
Quyruğunu kəsməklə tula köpək olmaz. (1)
Quyruqlu ulduz qırx ildə bir dəfə görünər. (1)
Quyu dərin olanda suyu sərin olar. (40)
Quyuda yatır, özünü minarədə görür. (1)
Quyunun divinnən baxanda göy balaja görünər. (9)
Quyuya girməmişdən əvvəl çıxmağı fikirləş. (14)
Quyuya su tökməklə quyu sulu olmaz[4]. (83)
Quyuya tüpürmə, vaxt olar suyunu içməli olarsan. (1)
Quyuyı boyunca qaz, şayəd kəndün düşərsən[5]. (75)
Quz qorqusuz olmaz. (75)
Quzğun balasını bülbül sanar. (1)
Quzu çoban üçün deyil, çoban quzu üçündü. (1)
Quzu qatmıyan quzuçudan küsməz. (9)
Quzu quraqda mələr. (1)
Quzunu qara quyla, çəpişi qora. (17)
Quzunun təqsiri qurdun acmasıdı[6]. (1)
Quzusın enilməyən də bulur, qatı mələyən də bulur. (75)

---

1. (83)
2. (1)
3. (49)
4. (83), (1)
5. (49), (37), (5), (1)
6. (83)

Quzusu gümrah olan çoban papağını yan qoyar. (1)
Quzusuna qıymayan kabab yeyə bilməz. (1)
Qürbət – adı bəd. (1)
Qürbət cənnət olsa yenə vətən yaxşıdı. (1)
Qürbət görməyən adam vətən qədri bilməz. (1)
Qürbət yerdən vətən olmaz. (1)
Qürbətdə keçən ömür ömür sayılmaz. (1)
Qürbətdə ölənin papağı nişanə gedər. (1)
Qürbətdə öyünmək hamamda oxumağa bənzər. (1)
Qürbətdən vətənə qayıdanda sevinmək olmasaydı, qürbət səfəri haram olardı. (1)
Qüvvə hər şeyi sındırar, ağıl - qüvvəni. (1)
Qüvvət birlikdədi. (1)
Qüvvətlü, qollu qulunla, qopuz qılınla. (75)

**L**

Laçın balasın verməz, bəlkə zorla alalar. (1)
Laçın da günəşdən yuxarı uça bilməz. (12)
Laçın qalada balalar. (1)
Laf ilə pilav bişməz yağ ilə düyü gərək[1]. (28)
Lağ eləmə atama, lağ edəllər atana. (12)
Lağ süpürgə müşgəyindədi. (18)
Lağa qatlanan yenər. (75)
Lahıcı sel aparırdı, eylə diyirdi qiblə pakı. (83)
Lalə taxıl zəmisində qanqaldır. (85)
Lalın dilini anası bilir, anandan yaxşı yavər olmaz[2]. (43a)
Lax yumurta suda batmaz. (12)
Ları xoruzlar yağ bağlar, qarışqalar bal bağlar. (39a)
Laylay bilirsən, niçin yatmayırsan. (83)
Lazımlı yerə sərf eləmir, lazımsız yerə su kimi axıdır[3]. (1)
Lələ ikinci anadı. (1)

---

1. (29), (76)
2. (2), (28), (29), (31), (30), (83), (1), (12), (13), (14)
3. (83)

Lələ köçüb, yurdu ağlayır[1]. (1)
Lənət baxıla, bərəkət taxıla. (75)
Leş olsa, qarğa tapılar. (12)
Lətifə az gərək. (75)
Ləvənd ləvəndi tapar. (1)
Ləyaqət ağıldadı, əsil-nəsəbdə deyil. (1)
Leylək gününü tak-tukla keçirdər. (1)
Leyli bazarıdı, Məcnun can satır. (1)
Loğma dağ aşırar. (1)
Loğma qarın doydurmaz, hörmət artırar. (1)
Loğma şəfqət artırar. (75)
Loğmanı az götür, çox çeynə. (1)
Loqma şahındır. (75)
Lotu lotunu aldatmaz. (1)
Lotu lotunu tapmasa, qara geyər, yaslı olar[2]. (1)
Lotu lotunun sözünə inanar[3]. (1)
Lotudan adam zərər görməz[4]. (1)
Lotunun balası lotu olur. (83)
Lotunun da Allahı var. (1)
Lotunun dilini lotu bilər[5]. (1)
Lotunun pulu qurtaranda soğan-çörək də salamətdi[6]. (1)
Lotuya bir şillə kar eləməz[7]. (1)
Lovğa nə qədər bağırdı, səsi elə çatmadı. (9)
Lut cərb gərək. (75)
Lüləyin aftava yerini tutar, girova qoyanda alan olmaz. (1)
Lüleyinə verə-verə artafa pulu çıxır. (44)
Lütlərin soltanı daneyi-birincdür. (75)
Lütün yuxusuna köynək düşər. (12)

---

1. (12)
2. (83)
3. (83)
4. (83)
5. (83)
6. (83)
7. (83)

**M**

Mağmın dost mərdimazar olar. (40)

Mal adamın düşmənidi. (1)

Mal canı qazanmaz, can malı qazanar. (1)

Mal dediyin can yonqusudu[1]. (2)

Mal gedər bir yerə, iman gedər min yerə[2]. (2)

Mal gidincə can gitsə yaxşıdı. (83)

Mal insana, insan mala əmanətdi. (1)

Mal itdi, iman itdi[3]. (1)

Mal kişiyə düşməndir[4]. (83)

Mal qalıfdı dəliyə, dəli bilmir neyliyə? (9)

Mal qatlaşar, yiyəsi qatlaşmaz. (1)

Mal qojalanda ucuz, ağıl qojalanda baha olar. (12)

Mal malı qazanar. (1)

Mal sahibindən qiymət götürər[5]. (2)

Mal sahibinə oxşamasa haramdı[6]. (2)

Mal ticarətsiz, elm mübahisəsiz, hökmdar siyasətsiz əbədi yaşamaz. (9)

Mal yeməzin malını yeyərlər[7]. (2)

Mal yığınca ağıl yığ. (1)

Malı başınnan, insanı dilinnən bağlıyallar. (9)

Malı qırov öldürər, qışın adı bədnamdı[8]. (1)

Malı mal yanında tanıyarlar. (1)

Malı malla ölçərlər, canı canla. (1)

Malı ya bavası ölmüşdən, ya da kefi gəlmişdən al. (9)

Malı yox oğru apara, imanı yox şeytan apara[1]. (2)

---

1. (1), (14)
2. (81), (83), (1), (14)
3. (83)
4. (83)
5. (83), (1)
6. (83), (1), (13), (16), (17)
7. (77)
8. (83)

Malım gitdi, pulum gitdi, qonağım bəndən gileyli gitdi[2]. (83)
Malım zay olunca, qoy canım zay olsun[3]. (1)
Malımız budu, yarısı sudu, alsan da budu, almasan da budu[4]. (1)
Malımız yoxsa, ərzimiz olsun. (28)
Malın da var, dilin də var. (9)
Malın əziz tutan canın zəlil tutub. (39)
Malın getməsinə yiyəsi səbəb olar[5]. (1)
Malın mal olunca, bazarın bazar olsun[6]. (55)
Malın şərikli olunca, arvadın şərikli olsun[7]. (2)
Malın tapıldı, yüzün qara oldu. (83)
Malına düşdü talan, sən də bir yandan tala[8]. (1)
Malını yaxşı saxla, qonşunu oğru tutma[9]. (44)
Malını yeməyənin malını yeyərlər, ölüsünü də döyərlər[10]. (1)
Maluva düşdü taraş, özün də bi tərəfdən calaş. (18)
Mamaça çox olanda uşaq tərsə gələr. (1)
Manqal maşasız olmaz. (9)
Marala buynuzu qənim. (9)
Marat girsə, tavar arnına dəd girür. (83)
Mart havası, ərnən-arvad davası. (9)
Mart havası qərarsız olar. (33)
Martda mərək, apreldə gərək, mayda bir xortum otun gərək. (8)
Martda mərək, yarı görək. (9)
Martın gözünə barmağım, yaza çıxdı oğlağım. (1)

---

1. (83), (1)
2. (1)
3. (83)
4. (83)
5. (83)
6. (83), (1), (14), (18)
7. (83)
8. (83)
9. (2), (83), (1)
10. (5)

Martın özünə lənət, aprelin on beşinəcən. (1)
Maşa var ikən əlini yandırma[1]. (1)
Maya doğar, nər doğmaz[2]. (2)
Mayan çıxdısa, qazancına bənd olma. (9)
Mayanı uduzub çuruna güvənir. (1)
Mayasında saman olmuyan palçıx tufarda duruş gətirəmməz. (9)
Mayasız fətir olar. (1)
Mayıs ayı - vayıs ayı. (8)
Mehrin yemiş önmiş övrət yoqdur. (83)
Meşə çaqqalsız olmaz[3]. (44)
Meşədə ağacın düzünü seçərlər. (1)
Meşədə çaqqal az idi, biri də gəldi[4]. (54)
Meşədə qavaxda, çayda dalda get. (9)
Meşədə yemişin yaxşısını ayı yeyər[5]. (44)
Meşəyə girən ayıdan qorxmaz. (1)
Meşiyə baltasız girən, gora imansız gedər. (9)
Meydan qalıb əyriyə, həm yeyə, həm səyriyə. (24)
Meydana girən kişi nər gərək. (1)
Meydana girən köpək kötəkdən qorxmaz. (1)
Meyxanaçıdan şahid istədilər, sərxoşu göstərdi. (1)
Meyxanada yazılan məktub cəhənnəmdə oxunar. (1)
Meyxanə el evidür. (83)
Meyi meynədən alıcı ol, yəni mehri dindən alıcı ol. (83)
Meyl vermə evliyə, evə gedər unudar. (1)
Meymun baxdı güzgüyə, adını qoydu özgüyə. (12)
Meymunun balası əvvəlcə yeriyər, sonra iməklər. (1)
Meymunun boğazına su çıxanda balasını ayağı altına alar[1]. (2)

1. (9)
2. (81), (83), (1)
3. (2), (28), (29), (33), (83), (5), (1)
4. (1), (17)
5. (83)

Meymunun xarratlıqda nə işi var? (1)
Meyvəli ağac daşlanar. (33)
Meyvəli ağaca quş qonar. (1)
Meyvənin yaxşısını ayı yiyər. (5)
Meyvəsini ye, ağacını soruşma. (64)
Meyvəsini yedin, bağbanına rəhmət oxu. (1)
Meyvəsiz ağaca daş atmazlar. (61)
Məbadə qonşuya verəsən əhtac, əhtəcə ömürlük qalarsan möhtac. (18)
Məclisdə yerini tanı, deməsinlər: - dur burdan! (1)
Məclisin dalı, qabağı olmaz. (14)
Məcnun kimi dərs oxuyan axırda «va Leyli»də qalar[2]. (83)
Mədən daşsız olmaz. (9)
Məhəbbət dostluqdan başlanır. (1)
Məhəbbət gözdə olmaz, könüldə olar. (1)
Məhəbbət iki başdan olur. (1)
Məhəbbət sönməz oddu. (12)
Məhəbbət şərikli olmaz. (1)
Məhəbbət ürəkdən silinməz. (1)
Məhəbbət və doğruluq məğlub edilməz. (1)
Məhəbbəti qorusan, onunla ucalarsan, məhəbbətli qocalsan, qoca deyil – cavansan. (1)
Məhəbbətin yaşı yoxdu. (12)
Məhəbbətsiz ailə köksüz ağaca bənzər. (12)
Məkruh yeyənə haram söz yaraşar. (1)
Mələsə, əti halaldı. (1)
Məlik - dəgirmən, tavar - qoyun, dövlət - oğul. (83)
Məliyən qoyunnan vurağan qoç yaxşıdı. (9)
Mən Allah-Allah ilən day ögrədirəm, sən papağ atıb hürküdürsən. (83)
Mən almıram, yan cibimə qoy. (1)
Mən balamı istərəm, balam da balasını[1]. (55)

---

1. (83), (1)
2. (83)

Mən belə qarğa görməmişəm, qarğada yorğa görməmişəm. (18)

Mən bu evin öküzüyəm, istər kotana qoşsunlar, istər cütə. (1)

Mən dedim daza, daz özünü qoydu naza[2]. (83)

Mən dedim eşidəsən, demədim öyrənəsən. (1)

Mən deyirəm azdı, başıma vurur ki dazdı. (55)

Mən dəliliklə verdim, sən ağıllı ol, qaytar. (1)

Mən elə keçəl deyirəm, qartmağı yerə tökülə. (1)

Mən gəldim gəlin görməyə, gəlin getdi təzək yığmağa[3]. (1)

Mən gəlmişəm aş bişirəm, aş çəkəm, gəlməmişəm yetim-yesirə baş çəkəm. (18)

Mən gətirrəm yığın-yığın, arvad paylar torba-torba. (1)

Mən habu öyün gəlini, isdiyir oğlu buyursun, isdiyir anası. (18)

Mən ölərəm - kiçik qiyamət, arvadım ölsə, böyük qiyamət. (1)

Mən ölməyim, mən öləndən sonra istərsə qiyamət olsun. (1)

Mən mürdəşirəm, yuyaram, istər cənnətə getsin, istər cəhənnəmə[4]. (83)

Mən qaçıram qadadan, qada çıqır qabaqdan[5]. (83)

Mən qurt isəm, alaram, mən çobanam, verməərəm[6]. (83)

Mən şahla pilov yemirəm ki, bığım yağa batar. (1)

Mən yatım, yaman keşsin, yaman yatsın, mən keçim. (9)

Məndən çıqdı yoldaşıma dəgdi, hələ bildim saman çuvalına dəgdi. (83)

Məndən sənə öyüt, dəni özün üyüt[7]. (2)

Məndən uzaq olsun, istər cəhənnəmə dirək olsun. (1)

---

1. (1)
2. (5), (1), (15)
3. (12)
4. (1)
5. (1)
6. (1)
7. (83), (1), (9), (14)

Mənə yaramaz iş tapşırır, adımı qoyur yarıtmaz. (1)

Mənə usta diyərlər, arvadıma ustazən[1]. (83)

Məni aparan suya Araz deyərəm[2]. (2)

Məni aranda tutdan elədi, yaylaqda qurutdan. (17)

Məni sayanın quluyam, saymayanın ağası[3]. (83)

Mənim gözüm var sənin dolu ilxında, sənin nəyin var mənim boş axurumda?! (1)

Mənim könlüm arı, Allah mənə sarı. (15)

Mənim yaram ağrayar, sənin haran ağrayar[4]?! (1)

Mənlik olan yerdə sənlik şamı yanmaz. (1)

Mənzil yaxın, kira çox, bunda bir əlamət var[5]. (2)

Mənzili uzaq, eşşəyi çolaq. (1)

Məqsədsiz iş tutma. (1)

Mərd Allahından bilər, namərd yoldaşınnan[6]. (83)

Mərd arxadan vurmaz. (1)

Mərd başa baxar, namərd ayağa. (1)

Mərd dayanar, namərd qaçar. (9)

Mərd dostluq qanar, bərkdə dayanar. (1)

Mərd düşmən namərd dostdan yaxşıdı. (12)

Mərd əli kasad olmaz. (1)

Mərd gördüyün deməz. (1)

Mərd igid tək qalmaqdan qorxmaz. (1)

Mərd igidə arxa dur. (1)

Mərd igidlər süfrə açar, ad alar. (1)

Mərd ilə daş daşı, namərd ilə bal yemə[7]. (14)

Mərd ilə gəzən mərd olar, namərd ilə gəzən biyaban-gərd! (1)

Mərd kişi çörəyini daşdan çıxardar. (1)

---

1. (1)
2. (28), (29), (62), (83), (1)
3. (1)
4. (83)
5. (83), (1)
6. (2), (1), (13)
7. (18)

Mərd mərdi kəsər, Murtuza Əli hər ikisini. (1)
Mərd sözünnən dönməz. (12)
Mərddən bir çıxar namərddən doxsan doqquz[1]. (55)
Mərdə gələn qadanı, namərdin sərinə yaz. (1)
Mərdə güllə dəyməz heç kürəyindən. (1)
Mərdə şirin ol, namərdə – acı. (1)
Mərdi qova-qova namərd eləməzlər. (1)
Mərdimazarı axtarmaqla deyil, rast gəlməklədi[2]. (1)
Mərdimazarın işi ahu-zar olar. (40)
Mərdin gözü tox olar, namərdin gözü yox. (1)
Mərdin qapısı açıq olar[3]. (2)
Mərdin sözü kəsər, namərdin gözü. (9)
Mərdin töyləsi namərdin otağından yaxşıdı. (1)
Mərəkədə ərim ola, təndirdə əppəyim[4]. (46)
Mərifət manqıra dəyməz, simuzər dövranıdı[5]. (1)
Mərmər yaxşı daşdan, yaxşılıq iki başdan. (1)
Mərmərdə ot bitməz[6]. (83)
Məscid qapısıdı, nə sındırmaq olur, nə yandırmaq. (1)
Məscid şamını yeyən pişik kor olar. (1)
Məscid yanında məscid yaraşmaz. (83)
Məscid yapılmamış kor qapını kəsdi[7]. (2)
Məsciddə yerini bil, deməsinlər dur burdan. (14)
Məscidə lazım olan mədrəsəyə haramdı[8]. (2)
Məscidin qapısı açıqdı, itin də həyası gərək[9]. (2)
Məsəl güldü, söz çiçək[10]. (1)

---

1. (1)
2. (13)
3. (81), (83), (1)
4. (83)
5. (83)
6. (1)
7. (17), (5), (83), (1)
8. (83)
9. (74), (83), (5), (1)
10. (12)

Məsəldə xəta olmaz. (1)

Məskənətdən kəl bir kişiyə «qulunam» deməklə qulı olmazsan. (83)

Məsləhət bitürici yalan, ğovqa qoparıcı gerçəkdən yegdir. (83)

Məsləhət dananı qurda verər. (12)

Məsləhətə xəyanət olmaz[1]. (1)

Məsləhətlə atılan daş uzaq gedər[2]. (1)

Məsləhətli aş dadlı olar[3]. (83)

Məsləhətli don gen olar[4]. (44)

Məsləhətsiz görülən işdən xeyir olmaz. (1)

Məsumları Tanrı söylədür. (83)

Məşuquna razın vermə, sonında gülməzsin. (83)

Mətahın atma bazara, xiridar olmayan yerdə. (1)

Mətləbi darı üstə qoyur. (1)

Mətləbi uzatmazlar. (1)

Məzad kimsəyi aldatmaz. (83)

Məzlumun ahı – devirər şahı. (15)

Mıx da əyiləndə onu düzəldirlər. (1)

Mıx iki haçalı olsa, yerə keçməz. (1)

Mıxı çıxarıb qaçanı döyə bilmir, mıxdakını döyür. (1)

Mıxı mismar eyliyən Allah var[5]. (5)

Mırığa dedilər: «çırağı pilə». (1)

Miçək qana yığışar[6]. (83)

Milçək murdar deyil, amma könül bulandırır[7]. (2)

Milçək şirəyə yığılar. (1)

Milçəkdən fil qayırır. (1)

Min atın varsa, enişdə min, bir atın varsa – yoxuşda. (15)

---

1. (83)
2. (12)
3. (1)
4. (2), (81), (83), (1), (12)
5. (83), (1)
6. (12)
7. (54), (1), (13)

Min bilən olsan bir biləndən soruş. (1)
Min bir dərdin min bir dərmanı var. (1)
Min dərədən su gətirər. (1)
Min dost az, bir düşmən çoxdur[1]. (44)
Min eşit, bir söylə[2]. (1)
Min evli Kəsəmənə bir ay oruc, yeddi evli kəndə də bir ay oruc. (1)
Min gün yaraq, bir gün gərək. (1)
Min xala yığılsa, bir ananın yerini verməz[3]. (1)
Min il keçsə, qohum sənə yad olmaz. (1)
Min il qanqal otla, ağzın dəvə ağzına oxşamasın. (1)
Min ilin ölüsündən bir ilin dirisi yaxşıdı. (1)
Min qapıda duz dadan bir qapıda bənd olmaz. (1)
Min qarğaya bir sapand daşı?! (1)
Min qoyunlunun da bir qoyunluya işi düşər. (1)
Min ulduz var, bircə ay. (1)
Min yeyənin olsun, bir deyənin olmasın. (12)
Minaraya xarcı çıxmıyan yergöbələyi bilər[4]. (18)
Minarə başında cöviz durmaz. (83)
Minarə başında girdəkan dayanmaz. (30)
Minarə başında qoz dayanmaz. (1)
Mindin atın sağrısına, qatdaş yanın ağrısına. (1)
Minə bir-bir çatallar. (13)
Minə dözən min birə də dözər. (1)
Minmə qoduq, vermə cərimə[5]. (1)
Minnət ilə behiştə getməkdənsə, minnətsiz cəhənnəmə getmək yaxşıdı. (1)
Minnət qədər ağır yük olmaz. (1)
Minnətli plovdan minnətsiz pendir-çörək yaxşıdı. (1)

1. (28), (29), (55), (83), (1)
2. (83)
3. (12), (14), (15)
4. (54), (2), (83), (1)
5. (83)

Mis düşməsə cingildəməz. (77)
Mis gəldi, saxsı qaç[1]. (83)
Mis ya sındı, ya cingildədi[2]. (1)
Miyançılıq oldur ki, el almazsa, ol ala. (83)
Miyançının kisəsi gen olar. (83)
Miyoldayan pişik siçan tutmaz. (12)
Molla acgöz olar. (1)
Molla alacağını unutmaz[3]. (1)
Molla bəyə qoşuldu, xalqın evi yıxıldı[4]. (1)
Molla çörəyi, ilan ayağı görünməz[5]. (2)
Molla duru sudan qaymaq yığar. (1)
Molla evindən aş, kor gözündən yaş çıxmaz[6]. (1)
Molla gəlmiş ikən ölən ölsün. (83)
Molla halvanı gördü, Quran yadından çıxdı[7]. (2)
Molla ilə çox oturub duran axırda mərdəstuy olar[8]. (55)
Molla kişidi, saqqalı uzun, ağlı qısa. (1)
Molla Qurandan keçər, şeytan imandan. (83)
Molla Nəsrəddinə dedilər, örkənini ver, dedi, üstə darı səpmişəm. (77)
Molla olmaq asandı, adam olmaq çətin[9]. (2)
Molla tulup zurnasına bənzər, qarnı dolmasa, səsi çıxmaz. (1)
Molla yazdığını danıf, daz qız dazdığını. (9)
Molladan adam olmaz, palıddan badam. (1)
Molladan soruşdular: - Verməklə necəsən? Dedi: - Mənimki almaqdı, iki xasiyyət bir adamda olmaz. (1)

---

1. (1)
2. (83)
3. (83)
4. (83)
5. (1), (12)
6. (17)
7. (83), (5), (1)
8. (1)
9. (83)

Molladan soruşdular: -Axund çox yeyər, seyid. Molla dedi: -Axund doyunca, seyid ölüncə. (9)

Mollanı məsciddə, sərxoşu meyxanada taparsan. (1)

Mollanı minbərdə, xanəndəni məclisdə gör. (55)

Mollanın cibi dərin olar. (1)

Mollanın evi o vaxt yıxılar ki, iki yerə qonaq çağrıla[1]. (2)

Mollanın qarnı beşdir, biri daima boşdur[2]. (37)

Mollanın nə pisi, nə yaxşısı; molla elə molladır. (1)

Mollanın ovcu həmişə gicişər. (1)

Mollaya «al molla» dimişlər, «ver molla» diməmişlər. (83)

Mollaya dedilər: - oğlun damdan yıxıldı, ağlı başından çıxdı. Dedi: - Ağlı olsaydı, dama çıxmazdı. (1)

Mollaya dedilər: - Ölüləri istəyirsən, diriləri? Dedi: - Ölüləri. Dedilər: - Nə üçün? Dedi: - Ölülərdən halva yeyirəm, dirilərdən töhmət. (1)

Mollaya pilav de, Marağa nə yoldu[3]. (2)

Motala dadanan köpək bir də gələr. (1)

Mömin bal mumı kibi olur. (83)

Mömin möminin aynasıdır. (83)

Murdar əskiyə od düşməz. (1)

Musiqi könül həmdəmidir. (1)

Musiqi ruha qidadır. (1)

Musurmanın sonqı ağlı[4]. (5)

Müdara dindəndir. (83)

Müəllim ən böyük bağbandır. (1)

Müəllim ikiqat atadır. (1)

Müəllimin çubuğu güldəndi. (12)

Müəzzin imamın qulıdır. (83)

Müəzzin oldur ki, vaqt ilə banlaya. (83)

Müft qan alıcı bulan otuz iki tamarından bilə aldurar. (83)

---

1. (83), (1)
2. (1), (12)
3. (83)
4. (83), (1)

Müftə sirkə baldan şirindi[1]. (2)
Müxənnət körpüsindən keçməkdən suya boğulmaq yegdir. (83)
Müxənnətnən ehsan yeməyə də getmə. (9)
Müjkan oxun atar, yay qaşını çəkər. (1)
Mülayim adam salamat olar. (1)
Mülayimlik həm dövlətdi, həm ləyaqət. (12)
Mülk alan qırx gün ac olar, mülk satan qırx gün tox[2]. (1)
Mülk aldın abad al, bağ aldın bərbad. (1)
Müqəssirin dili qısadır. (1)
Mürdəşir haqlıdı, ölü necə ölür-ölsün[3]. (2)
Mürvətə əndazə olmaz. (4)
Müştəridə göz olsa satan acından ölər[4]. (2)
Müştərinin ağlı gözündə olar. (1)
Müştərinin gözü satıcının əlində olar. (1)
Müzəvvir olan and içməkdən qorqmaz. (83)

**N**

Nabələdə gün də buluddur. (1)
Nacins ağac düyünlü olar[5]. (1)
Nacins qarpızın tumu çox olar. (1)
Naçar işün adı şükürdür. (75)
Nadan dostdan ağıllı düşmən yaxşıdı. (33)
Nadan əlindən su içmə, ab-həyat olsa da. (1)
Nadan özünü öyər, kor gözünü. (9)
Nadana halva acı olar. (18)
Nadanı kötək düzəldər, qozbeli qəbir. (1)
Nadanın düşməni özüdü. (1)
Nadanlıx nəsilnən, insanlıx əsilnən. (18)

---

1. (83)
2. (83)
3. (81), (83)
4. (83)
5. (9)

Nadannan yoldaş olunca, yoldaş yad eldən gedər. (54)
Nadürüst nəslinə çəkər. (18)
Nağd al-verdən ətir iyi gələr. (1)
Nağdı qoyub nisyənin dalınca düşmə. (1)
Nağıl dili yüyrək olar. (1)
Nahax qapıdan gələndə hax bacadan çıxar. (15)
Nahaq ayaq tutub yeriməz[1]. (83)
Nahaq qan yerdə qalmaz. (1)
Naxçıvanın duzu, qızı, qarpızı[2]. (1)
Naxır adını bir dana batırar. (54)
Naxır durmağınandı. (83)
Naxır gəlməsə, axşam olmaz. (18)
Naxır itib, ala dananı qovur[3]. (1)
Naxır yeri ilə gedib dana axtarır[4]. (2)
Naxıra gedirəm – çoban olmaz, axura gedirəm - saman. (1)
Naxırçı qızından xanım olmaz. (1)
Naxırçı qızını verdi, torba-dağarcığı da üstəlik. (1)
Naxırçı qızının qeyrəti naxır gələndə tutar. (1)
Naxırçının faydası havayı eşşəyə minməkdi. (1)
Naxırçının könlü naxır çörəyi istər[5]. (2)
Naxırda malın yox, növbədə başın yarılır[6]. (1)
Naxoşun ağzını könlü armud istəyəndə yoxlallar[7]. (81)
Nainsafın gülü qaçar[8]. (2)
Nakəsə borclu olma[9]. (1)
Nakəsə əl açmaqdan ac olmaq yegdir. (75)
Nakəslərə yoldaş olan xar olur. (1)

---

1. (1)
2. (27)
3. (83), (6)
4. (81), (83), (1)
5. (29), (28), (5), (83), (1), (14), (16)
6. (16)
7. (83)
8. (83)
9. (83)

Nakəslə comərdin xərci birdür[1]. (75)
Naqqa balıq tasa yerləşməz. (1)
Naqqalar olmasaydı, dünya laləzara dönərdi. (1)
Namastıqdan olan seyiddi. (46)
Namə vüsalın yarısıdı[2]. (1)
Namə yazmaq asandı, yetirmək çətin. (1)
Namərd gəlib mərd olmaz, yüz ətəklə, yüz yalvar. (1)
Namərd körpüsündən rahat keçincə, razıyam, apara o sellər məni. (1)
Namərd namərddən kəsər, Allah da hər ikisindən. (11)
Namərd yəhərdə tanınar, mərd kəhərdə. (78)
Namərdə bel bağlama. (12)
Namərdə möhtac olunca dəryada qərq ol[3]. (12)
Namərdə tuş olanın ciyəri qana dönər. (1)
Namərdə yaxa vermə, mərdə arxa ol. (1)
Namərdi bir gördün, bir də görsən namərdsən[4]. (1)
Namərdi qova-qova mərd eylərsən[5]. (2)
Namərdin adı olmaz. (1)
Namərdin çörəyi dizinin üstə olar. (1)
Namərdin gözü dar olar. (1)
Namərdin plovundan mərdin qaşıq aşı. (1)
Namərdnən aş yemişəm, aşa tova demişəm. (9)
Namus insanın cövhəridi. (12)
Namus insanın qan bahasıdı. (1)
Namussuz qohum qoltux yarasıdı, nə açıf göstərmək olur, nə qoparıf atmax. (9)
Namusu cavannıxdan qoru. (12)
Namusu itə atdılar, it yemədi[6]. (1)

---

1. (1)
2. (83)
3. (1)
4. (14)
5. (83), (12)
6. (13)

Nanəcibə salam verərsən, deyər: - «Qorxdu məndən!» (1)
Napakı hamam təmizləməz[1]. (1)
Nal tökənə mal tökməzlər. (40)
Nar ağacı - istək ağacı. (1)
Nar üstündən turp yeməzlər. (1)
Naşı bilməz xara nədi, bez nədi?! (1)
Naşı oğru özünü samanlığa vurar. (1)
Naşı ovçu dağı adlayar, ov vura bilməz. (1)
Naşıya zurna verəndə yoğun başından yapışar. (2)
Naümid şeytandı[2]. (1)
Neştərsiz əqrəb olmaz. (33)
Neylərəm qızıl teşti, içinə qan qusam[3]. (2)
Neylərsən eylə, yoldan çıqma. (75)
Neynəyirəm o imanı ki, qardaşa yanmaya. (83)
Nə ağa yarıtmaz, nə haq çıxartmaz. (83)
Nə ağacı tulla, nə iti hürüt[4]. (2)
Nə ağız yandıran aşdı, nə baş sındıran daş. (1)
Nə altda undu, nə üstdə kəpək[5]. (1)
Nə artsa, çiydən artar, bişmişdən heş nə artmaz. (10)
Nə atı yorğalıyana, nə arvadı göyçəyə yoldaş olma. (5)
Nə balını istəyirəm, nə bəlasını[6]. (2)
Nə belə vəslin olaydı, nə elə hicranın. (1)
Nə biçinini biçirəm, nə də ayranını içirəm. (1)
Nə coraba yamaqdı, nə tumana bağ. (1)
Nə çəkərsə öküz çəkər, araba yolu ilə gedər. (1)
Nə çig yi, nə qarnın aqrısın. (75)
Nə dəlini işlət, nə də dəli üçün işlə. (1)
Nə dəvəni görmüşəm, nə də ləpirini. (1)

---

1. (83)
2. (83)
3. (43), (5), (1)
4. (83), (1)
5. (14)
6. (81), (83), (1)

Nə dəvənin südünü istə, nə ərəbin üzünü gör[1]. (2)
Nə əkdim, nə biçdim, hazırca kökə tapdım[2]. (83)
Nə əkərsən, onu biçərsən[3]. (44)
Nə ərəbin üzün gör, nə şamın şəkərin. (9)
Nə gələnə üz göstər, nə gedəni qovan ol. (1)
Nə xalqa dayaxdı, nə palaza yamax. (12)
Nə ikən yavuz ol kim, asılasan, nə ikən yavaş ol kim, basılasan. (75)
Nə ilə ölərsən, onunla da ölçülərsən. (1)
Nə işim var bayırda, çaqqal məni çığırda. (1)
Nə işin var dərin yerdə, çağırasan Həzrət İlyas[4]. (2)
Nə it yiyəsidi, nə gön yiyəsi. (1)
Nə itələ yıx, nə çək, durğuz[5]. (2)
Nə kor bazara varsın, nə bazar korsuz qalsın. (83)
Nə qaldırsa üzünə, o görünər gözünə. (1)
Nə qədər dərin olsa quyu, bir o qədər sərin saxlar suyu. (17)
Nə qədər eşşəgi var idi, palan axtarırdı, palanı tapan kimi eşşəgi qurt yedi. (83)
Nə qədər qoca olsa, min cavana dəyər. (1)
Nə qədər uzaq olsa, yol yaxşıdı, nə qədər yaman olsa el yaxşıdı. (1)
Nə qədər uzun olsa lülə, bir o qədər uzun gedər güllə. (17)
Nə qədər yuca isən, düşmənin alu görmə. (75)
Nə qoyun oluf otdan doydum, nə quzu oluf süddən. (11)
Nə qoyuna gedir, nə qapıda durur[6]. (5)
Nə qulağı var, nə quyruğu, batıp palçığa, hindi honu dart çıxart. (18)
Nə olsa olsun, Kür keçmək içində olsun. (5)

---

1. (83)
2. (5)
3. (48), (31), (61), (5), (2), (83), (28), (29), (56), (1)
4. (39), (83), (1), (11), (18)
5. (83)
6. (83), (1)

Nə ölən kimi ölür, nə qalan kimi qalır. (1)
Nə ölən var, nə göruna gömən. (83)
Nə sal ilədi, nə mal ilədi, ululuq kamal ilədi. (1)
Nə sən gələsən, nə səfər ayının axır çərşənbəsi[1]. (83)
Nə sərvətə bel bağla, nə fələyə güvən gəz. (1)
Nə şaha baxır, nə xotkara[2]. (83)
Nə titrərsən əllərim, verməyincə ala bilməzsən. (2)
Nə titrərsən əllərim, verincə almazsan. (83)
Nə tiyanda barama var, nə çarxda ipək[3]. (55)
Nə tökərsən aşına, o çıxar qaşığına[4]. (2)
Nə tüfəngə çaxmaqdı, nə sümbəyə toxmaq. (84)
Nə üstündə un oldum, nə altında kəpək[5]. (83)
Nə varlıya borclu ol, nə yoxsuldan alacaqlı. (1)
Nə vaxt tülkü olsan, çarığımı çeynərsən. (1)
Nə vurulduğ isə, vurulduq, tavul ününə güvəndük. (75)
Nə yada sirrini ver, nə namərdə bel bağla. (1)
Nə yağ var, nə düyü, vay odun dərdi. (83)
Nə yaraşır arığa, gedə girə qoruğa[6]. (2)
Nə yardan doymaq olmaz, nə əldən qoymaq olmaz. (83)
Nə yazılıb, o da olacaq. (1)
Nə yerdə ki var qadı, Tanrı buyruğın qodı. Nə yerdə ki var qoca, nə Quran bilür, nə heca. (75)
Nə yoğurdum, nə yapdım, hazırca kökə tapdım[7]. (1)
Nə zalım ol asıl, nə fağır ol basıl[8]. (24)
Nəbatatın atası-anası yağmurdur. (75)
Nəcabət adamın zatında olar[9]. (1)

---

1. (5)
2. (5)
3. (1), (10)
4. (44), (37), (5), (83), (1)
5. (5)
6. (81), (83), (1)
7. (83)
8. (1)
9. (83)

Nəcabət ata-ana ilə ölçülməz. (1)
Nəciblik canda deyil, qandadı. (12)
Nəfəs haqdandı. (1)
Nəfəs nəfəsdi, bədnəfəsin adı bədnamdı. (1)
Nəfəs tut ki, nəfəsün tutıla. (75)
Nəfəsün canı var, tutmayanın ziyanı var. (75)
Nəğdi qoyub, nisyə dalınca düşmə. (83)
Nəhəng dəryada olar[1]. (2)
Nəhs adamla dost olma. (12)
Nəxunəkçi sahibi-səliqə olar[2]. (2)
Nəməgi yedin, nəməkdanı sındırma. (83)
Nənə evin kötüyüdü. (1)
Nənə nəvənin oyuncağıdı. (12)
Nəpəyin nəxunəkliyinnən ala qarğa bala çıxartmaz. (18)
Nər yükünü nər çəkər. (1)
Nərdiban ayaq-ayaq çıqılur. (75)
Nərdivana ilk pillədən çıxarlar. (1)
Nərdiyan olsa, arvatdar aya da qonax gedər. (18)
Nərdübanı tam üstinə çəkmə, aqibət sarqup enərsən. (75)
Nərin dizi bağlı gərək[3]. (1)
Nəsib olmayınca basub ölməz. (75)
Nəsibə taqsırlıq olur. (75)
Nəsibə zaval yoqdur. (75)
Nəsibində var isə, qaşığında çığa gələ. (75)
Nəsihət ajıdı, meyvəsi şirin. (9)
Nəslində olan dırnağında bildirər. (14)
Nəvə pul sələmidi. (12)
Nəzir seyidə düşər, fitrə yoxsula. (1)
Nığ-nığ qardaşı qardaşdan eylər. (83)
Nisyə baldan nəğd sirkə yaxşıdı. (55)
Nisyə, girməz kisəyə[1]. (83)

---

1. (1)
2. (1)
3. (83), (1)

Nisyə içən iki dəfə keflənir[2]. (44)
Nisyə quyruxdan nağdı yumrux yaxşıdı. (18)
Nisyə vermərém, dalınca da getmərəm. (1)
Niyə dənizə girirsən ki, sonra da xilas olmaq üçün Allaha yalvarasan. (45)
Niyyət hara, mənzil ora[3]. (2)
Noxsansız dost axtaran dossuz qalar. (10)
Novruzdan sonra qırx gün kötük yanar. (1)
Novruzgülü ilə bənövşə bir-birini görməzlər. (1)
Nökər ağa dərdi bilsəydi, özü də ağa olardı. (83)
Nökərsən, niyə bekarsan, aç qapını, ört qapını. (1)
Növbə bizə gələndə çırağın yağı qurtarar. (1)
Növbə yetimə çatanda qaşığın dəstəsi sınar. (1)
Nuh deyər, peyğəmbər deməz. (1)
Nur gözdə olar. (1)

**O**

O adam ki, səhər yalan danışdı, axşamacan yalan danışar. (1)
O baş qorxsun ki, dost yolunda dayanmaz. (1)
O qədər dərd çəkib, qarnı dumbula dönüb. (1)
O qədər dövlətli deyiləm ki, ucuz şey alım. (1)
O qədər pulu var ki, toyuq dənləsə qurtarmaz. (1)
O ocaxdı, köz döylü, bu sən sındıran qoz döylü. (10)
O olmasın, bu olsun. (1)
O pisə qurban olum ki, gedə, yaxşı gələ. (17)
O sizin şıxlar, bu bizim şıxlar, qonaq qonağa hesabın könlündə saxlar[4]. (83)
O su kı səni aparır, ona dərya de. (18)
O vaxt ki, varımdı, keçə qılı şalvarımdı. (1)
O yağış olanda, sən torpaq ol. (1)

---

1. (13)
2. (2), (5), (83), (1)
3. (72), (73), (83), (1)
4. (83)

O yerdə ki, ləyaqətsizlərə hörmət, ləyaqətlilərə nifrət edirlər, orada üç bəla: qorxu, aclıq və ölüm yuva salar. (18)

Oba bizdə, biz obada. (1)

Oba köçüb, yurt ağlayır. (2)

Oba köçüb, yurd qalıf[1]. (5)

Oba köpəksiz olmaz[2]. (1)

Oba yox, qara yox, sənnən başqa çarə yox. (10)

Obalarda yalquz qalan igit basıncaq olur. (49)

Obası Padarsa, özü də çodar olar. (16)

Ocağa salsan, tüstüsü çıxmaz, ağac vursan tozu[3]. (1)

Ocax dul arvadın toyu kimi yandı, söndü. (18)

Ocaq anamızdır, müqəddəsdir. (12)

Ocaq içindən tutuşar. (1)

Ocaq keçər, közü qalar. (1)

Ocaq yeri külündən məlum olar. (1)

Ocaqda bişir, bucaqda tüşür. (83)

Ocaqdan getsə də bucaqdan getməz. (1)

Ocaqdan kül əskik olmaz. (1)

Ocaqdan qarşıla, ocaqdan da yola sal. (1)

Od deməklə ağız yanmaz. (3)

Od düşdüyü yeri yandırar[4]. (2)

Od eləyib oda düşmüşük. (1)

Od görsən, varma; köpək ünin eşitsən, var. (75)

Od hər yerə düşsə özünə bir yer açar. (54)

Od ilən oyun olmaz[5]. (49)

Od ilən suya qarşu durmaq olmaz. (49)

Od ilə pambuğun nə oyunı var, ət ilə bıçağın nə oyunı vardır[6]? (75)

---

1. (83), (1)
2. (15)
3. (83)
4. (83), (1)
5. (2), (1)
6. (83), (1), (12)

Od imandandır. (75)
Od insanı həm qızdırır, həm də yandırır. (1)
Od küllə saqlanur. (75)
Od qalar – köz olar, qız qalar söz olar. (1)
Od qoyup otluğa, Allah- Allah dimə. (75)
Od ocaqda yanar. (1)
Od olan yerdən tüstü çıxar[1]. (1)
Od olub aləmi yandırmayacaqsan ki[2]?! (1)
Od sönər, ad yox[3]. (12)
Od tüstüsüz, gənc günahsız olmaz. (3)
Od yanmasa tüstüsü çıxmaz[4]. (2)
Oda su tökməzdər. (12)
Oda yanmayan balasına da yanmaz. (39)
Oddan kül törər, küldən od törəməz. (55)
Oddan kül, küldən od[5]. (44)
Oddan, sudan qar amannıdı. (13)
Odla, suyla, yağışla dostluq eləmək olmaz. (12)
Odu çək, külünə bax. (1)
Odu iki yerə bölmək olar, suyu yox. (12)
Odu odla söndürmək olmaz. (12)
Odu söndürüb külü ilə oynayır[6]. (1)
Odu suyun yanında qoymazlar. (83)
Odu elə söndürkün, tüstüsü çıxmasın. (12)
Oduna gedənin baltası iti olar. (1)
Odunu beş qoy, gözünü deş qoy[7]. (8)
Odunçı gözü kumçuda olur. (49)
Odunsuz ocaq olur, külsüz oçaq olmaz. (75)
Oğlağsuz tutmaç olmaz. (75)

---

1. (12)
2. (83)
3. (15)
4. (83), (1)
5. (2), (81), (83), (5), (13)
6. (83)
7. (83)

Oğlan adamı - sındırar badamı, qız adamı – sındırar adamı. (1)

Oğlan anası – təməl binası. (1)

Oğlan bayramı sevər, övrət dügini sevər. (75)

Oğlan dayıya çəkər, qız xalaya. (1)

Oğlan doğdum, oydu məni, qız doğdum, soydu məni[1]. (12)

Oğlan evi alınca, qız evi ölüncə. (14)

Oğlan evində toydur, qızın evində xəbər yox[2]. (49)

Oğlan qoralıqda mövüc olub. (1)

Oğlan olduğu yerdə oğurluq saqlanmaz, qız olduğu yerdə ignə gizlənməz. (75)

Oğlan süfrə açmağı atadan öyrənər, qız anadan öyrənər paltar biçməyi. (1)

Oğlan yedi, oyuna getdi, çoban yedi, qoyuna getdi. (1)

Oğlan yetir, qız yetir, yükü yenə sən gətir. (1)

Oğlana balacalıqda qız verən çox olar. (1)

Oğlana, dəlüyə, köləyə ulaşma. (75)

Oğlana, övrətə olan qulluq yabana gedər. (75)

Oğlana uyan qoca olmuş. (75)

Oğlana üz versən, başdan aşar. (75)

Oğlanda təşviş olmaz. (75)

Oğlanı qara bələ, qızı qora. (8)

Oğlanı kamal ilə, qızı camal ilə[3]. (1)

Oğlanı yumuşa göndər, ardınca sən var. (75)

Oğlanın dərdi oyundur. (75)

Oğlanın qüvvəti dilindədir. (75)

Oğlanın oğlan oyunu var, qızın qız oyunu. (1)

Oğlanın tüyi üşür, yigidin təni üşür, qocanın iligi üşür. (75)

Oğlı ölən ağlar, oğlı olmayan ağlar. (75)

Oğlı-qızı olan ev yıqılmaz. (75)

Oğlı-qızı olmaz övrətdən əski xasır yegdir. (75)

---

1. (15)
2. (5)
3. (10)

Oğlum ağlamır, qızım çatdamır[1]. (46)
Oğlum kimi sevsə, gəlünim oldur. (75)
Oğlum oğul olsun, kol dibi evim. (1)
Oğlum öylük, qızım göylük[2]. (9)
Oğlun oldu adın qoy Ağanəzər, xeyri olmasa nə zərər? (1)
Oğlun olsun, diri olsun, çörək olsun, quru olsun. (1)
Oğluna qız axtarınca qızına oğul axtar[3]. (2)
Oğlunu sevən gəlnin sevər, qızını sevən kürəkənini. (1)
Oğrı anası gah döşün yayar, gah döşünə urar. (49)
Oğrı evdən olıcaq müşküldür. (75)
Oğrı güclü olsa ev yiyəsin dutar. (49)
Oğrı haramdan saqınmaz. (75)
Oğrı it oğrıluğun tərk etsə, sümsüklügün tərk etməz. (49)
Oğrı kəndü rizqin yeyər, bazırgan el rizqin yeyər. (75)
Oğrı olan öz evin yıxar. (49)
Oğrı-oğrı, yoldaşilən dost-doğrı. (49)
Oğru ol, insafı əldən qoyma. (83)
Oğru doğruluqdan danışar. (1)
Oğru elə bağırdı, doğrunun bağrı yarıldı[4]. (1)
Oğru elə bilir, hamı oğrudu, doğru elə bilir, hamı doğrudu[5]. (5)
Oğru ev olmaz, ev sahibini evlikdən salar[6]. (2)
Oğru gedər Şiraza, görənə verərlər cəza. (1)
Oğru hamını oğru bilər[7]. (44)
Oğru işıxdan qorxar. (12)
Oğru it özünü bildirər. (1)
Oğru it xəfli olar[8]. (83)

---

1. (83)
2. (12)
3. (83), (81), (1)
4. (37), (12)
5. (49)
6. (1), (83)
7. (28), (29), (83)
8. (5)

Oğru kölgəsindən qorxar. (1)
Oğru qaçıb əkildi, doğru dara çəkildi. (18)
Oğru qalana yanar, mal sahibi gedənə[1]. (2)
Oğru oğrunu tez tanıyar[2]. (1)
Oğru ol, imanını əldən qoyma[3]. (83)
Oğru öz yatağında ölməz. (12)
Oğru özü varranmaz, özgəni vardan çıxardar. (12)
Oğru özünü nə qədər gizli etsə, yenə də açılar. (12)
Oğru papağınnan da qorxar. (12)
Oğru tülküdən şir olmaz. (14)
Oğrudan oğruya halaldı[4]. (83)
Oğrudan qalanı rəmmal aparar[5]. (2)
Oğruluq ilə çəngilik qırq gün gedər. (83)
Oğruləyin dustdan aşkarə yegdir düşmən. (75)
Oğrunu oğru ilə tutarlar. (1)
Oğrunun yadına daş salma[6]. (5)
Oğruya and buyurdular, evinə muştuluqçu göndərdi[7]. (50)
Oğruya bəgün də borcu var. (75)
Oğruya çəpər yoxdu. (18)
Oğruya-həramiyə həq et, başı siniyə girməz, girürsə də, ərənlər öginə gəlməz. (75)
Oğruya gülmə, oğlun var isə. (75)
Oğul atadan görməyincə süfrə yaymaz[8]. (3)
Oğul arxadı, qız yaraşıqdı. (1)
Oğul ata olmayınca ata qədrin bilməz. (49)
Oğul atanın kövşənin əkər. (1)
Oğul atanındı, qız ananın. (55)

---

1. (5), (83), (1)
2. (12)
3. (5)
4. (5)
5. (28), (29), (5), (83), (1)
6. (75), (83), (1)
7. (83), (1)
8. (75), (49)

Oğul bəd övlad olsa, öldürər dərd atanı. (1)
Oğul beldən, ər eldən. (1)
Oğul beldən, kömək eldən. (55)
Oğul bığdan tutmax gərəkdi, sakqaldan tutmax yox. (18)
Oğul böyütdüm, nər böyütdüm, yad qızına ər böyütdüm. (9)
Oğul da bir ev tikir, qız da. (14)
Oğul dayıya, qız bibiyə çəkər. (13)
Oğul dəxi neyləsin, baba ölüb mal qalmasa, baba malından nə fayda, başda ağıl olmasa[1]?(3)
Oğul doğulan günnən oğuldu. (46)
Oğul dövlətdi, mülk dəyirman. (1)
Oğul düşmən çəpəridi. (12)
Oğul düşmən qapısına aparar. (1)
Oğul el yaraşığı, qız dil yaraşığı. (9)
Oğul evləndi, qonşudu. (55)
Oğul ələ düşər, qardaş yox. (1)
Oğul fər olar, ata malun neylər. (49)
Oğul günahsız olmaz, ata mərhəmətsiz. (1)
Oğul xırdası, noğul xırdası. (1)
Oğul-qız evin çanağı-çölməyi kibidür. (75)
Oğul mənimdi, qabiliyyətini bilirəm. (1)
Oğul meyvədi, ata bağban. (1)
Oğul on iki yaşında ya yəhər altda, ya da yer altda[2]. (46)
Oğul ölsə ciyərim yanar, qardaş ölsə belim bükülər[3]. (1)
Oğul sevən qucaxda, ana sevən bucaxda. (12)
Oğul şüurlu olsa neylər ata malını, bişüur olsa neylər ata malını[4]. (32)
Oğul ümüt çırağı, qız bezin qırağı. (18)
Oğula görə atanı tanıyarrar. (12)
Oğullu evin yoxsulluğu yurd arığı kibidir. (75)

---

1. (1)
2. (83), (1)
3. (83)
4. (46), (2), (83), (1)

Oğulu qızdan əstən tutma. (12)
Oğulun əfəli qohumnan qız alar[1]. (13)
Oğulun igidliyi ananı cavannaşdırar. (12)
Oğulunku öy, qızınkı göy. (40)
Oğurlayın yügürən aşkarə puzalar. (75)
Oğurluq çörəyin dadı olmaz. (12)
Oğurluq eylə, insafın əldən qoyma[2]. (49)
Oğurluq yeyən gah dizinə çəkər, gah başına. (1)
Oğuz yumundan baymışdır. (75)
Oha var dağa mindirür, oha var dağdan endürür[3]. (50)
Ox bədəni, dil ürəyi yandırar. (12)
Ox kimi doğru olsan, əldə tutarlar səni, yay kimi əyri olsan, çölə atarlar səni. (1)
Ox yaradan çıxar, ədavət ürəkdən çıxmaz. (1)
Ox yaydan çıxandan sonra, peşimanlıq nə fayda. (49)
Oxu atar, yayı gizlər[4]. (49)
Oxuduğunu demə, anladığını de[5]. (28)
Oxumamışdan əvvəl yırğalanmağı öyrənir. (83)
Oxuyan yaşa baxmaz. (1)
Ojax deyər, qarın üstə yanaram, əmə külün üstə yanmaram. (9)
Oq atanın gündə buçuq ziyanı olur. (75)
Oq atmaq, yazu yazmaq, suda üzmək. Gərəkdir bu üçi hər şəxsə düzmək. (75)
Oqı at, dəxi çıqışına baq. (75)
Oqumuşlar könüllü olur. (75)
Ol evdə ki un ola, odun ola. Ya dəxi ol evün odı nə ola. (75)
Ol verə ki, bol verə, qalmışlara yol verə. (75)
Olacağa çarə yoxdu[1]. (2)

---

1. (9)
2. (55)
3. (83)
4. (2), (5), (33), (1), (12)
5. (29), (31), (30), (66), (74), (83)

Olan dörd bağlar, olmayan dərd bağlar. (1)
Olan oldu, torba doldu[2]. (5)
Olan yarma qaynadar, olmayan əlin oynadar. (1)
Olan yerdən öləcək[3]. (2)
Olanda göz qızarır, olmayanda üz[4]. (1)
Olanı dilə gətirməzdər. (12)
Olar başım suyu, olmaz aşım suyu. (1)
Oldu ilə öldüyə çarə yoxdu. (83)
Olmadı qurutdan, qarnını doydur tutdan[5]. (1)
Olmayanın bir dərdi var, olanın on bir. (1)
Olmuş olacaqdan iyidi[6]. (2)
On bir gətürən on iki də gətürür. (75)
On dəfə eşitməkdən bir dəfə görmək məsləhətdi. (33)
On dəfə ölç, bir dəfə biç[7]. (44)
On gün ov, bir gün ov[8]. (1)
On iki imama yalvarınca, bir Allaha yalvar[9]. (5)
On iki imami yiyib, gözünü axırızamana tikib[10]. (83)
On paralıq pambıq, iyirmi paralıq gömrük. (1)
On tamla, bir biç. (49)
On yaşında ata oğlunu bindir. (75)
Ona dözən on beşə də dözər[11]. (1)
Ona söz dedin, elə bil daşa-divara dedin. (1)
Ondan keç, toquzı qalsun. (75)
Onu - bunu hirsləndirənin özü də rahat olmaz. (71)

---

1. (83), (1)
2. (1), (12), (14)
3. (83), (1)
4. (83)
5. (83)
6. (83)
7. (67), (5), (1)
8. (15)
9. (83)
10. (5), (1)
11. (83)

Onun ayağı altı biləni, bunun başı bilməz. (1)
Onun ipi ilə quyuya düşmək olmaz. (1)
Opa görsən, qaşan; yağı görsən, quşan. (75)
Orağı kürk vaxtı, kürkü orax vaxtı alarlar. (6)
Orddan çıxıf, orda yapışar. (12)
Ordunda yaxşı yer eyliyübsən, baqqal armud versə. (5)
Ordubad Təbrizin gül bağıdır. (25)
Ordubad torpağı behişt, Ordubad əhli behişt yaradandır. (25)
Orta oyunu orta yerdə oynanar. (1)
Ortada yeyir, qıraqda gəzir[1]. (1)
Ortaq çox olduqca ziyan az olar. (1)
Ortaqlı darını donuz yeyər. (11)
Ortaqlı malı xalq yeyər. (2)
Ortaqlı toyuqdan yalnız yumurta yaxşıdı[2]. (46)
Ortaqlıq öküzdən pışqa buzağı yegdir. (75)
Ortaqlu qazan qaynamaz[3]. (49)
Oruc tutma, namaz qılma, işin belə rast gəlsin?! (1)
Oruc tutmayanın oğluna Ramazan adı qoyarlar. (1)
Oruc yediyini görmüşəm, namaz qıldığını görməmişəm. (18)
Orucumdan çox razıyam, şənbəsini də tuturam[4]. (1)
Orucun onı qalansa, adamın göni qalur. (75)
Ot çox olanda öküz kökələr, ölü çox olanda molla. (12)
Ot gedür bayır qalur, su gedir qayır qalur. (49)
Ot köki üstə bitər[5]. (49)
Ot sərpədə qalur, mal bərkdə. (49)
Ot tayası eşşəyin yanına gəlməz, eşşək onun yanına gedər. (36)
Ota qatsan, at yeməz, ətə qatsan, it. (1)
Otlayan bilməzsə, gödən bilür. (75)

---

1. (83)
2. (28), (29)
3. (11)
4. (83)
5. (44), (45), (2), (37), (58), (5), (83), (1)

Otura-otura ozanın evi yıxılar, gəzə-gəzə culfanın. (39)
Oturan adamdan yalar köpək yegdir. (75)
Oturandan yatan yeg, əski bezdən kətan yeg. (75)
Oturduğum yerdə oyuna düşdüm, güldügüm yerdə gürşada[1]. (83)
Oturdun, yoldaşdan qaldın, yatdın evin yıxıldı. (1)
Otuz iki dişdən çıqan ordaya yayılur[2]. (75)
Otuz ilə yelinlədi, qırx ilə qulunladı. (14)
Ov alan tazı burnundan bəllidi[3]. (33)
Ov danasınnan öküz olmaz. (5)
Ov itə nikdür. (50)
Ov marıxdan qorxar. (6)
Ov vuranın deyil, yetirənindi[4]. (2)
Ovalar aşırı it hürməz. (5)
Ovçu neçə hiylə bilsə, ayı da o qədər yol bilir[5]. (3)
Ovçu ovunda, yolçu yolunda gərək. (1)
Ovçu ovunu ləpirindən tanıyar. (1)
Ovçu ovunun izini gözlər. (1)
Ovçuya bir göz də kifayətdi. (1)
Ovçuya dağı nişan verərlər, ovu nişan verməzlər. (1)
Ovlanmıyan quş olmaz, başa gəlmiyən iş olmaz. (15)
Ovu gərək bərədə vurasan. (1)
Oynamıyan qız yerim tardur deyər[6]. (75)
Oyunda ağlayanın başı kəl olur. (75)

**Ö**

Ödünc gülə-gülə gedir, ağlayu-ağlayu gəlur. (75)
Ögdügün eşəgi atdan keçirmə. (75)

---

1. (77), (1)
2. (49), (1)
3. (1)
4. (1)
5. (1)
6. (3), (83), (1)

Ögeyi əkilməsin, əkilsə də bitməsin, bitsə də göyərməsin. (18)

Ögeyk dövlətli olsa, öz evin abad eylər. (49)

Ögümə aş qo, iki əlim boş qo; yeməz isəm, başıma taş qo. (75)

Ögəy ana, ocağa yana. (75)

Öksüzün qarnı toymaz. (75)

Öksüz oğlan göbəgin kəndü kəsər. (75)

Öküz aytmış: «Bən ölicək gönümi inək üstünə sərün». (75)

Öküz bilir, qayış nə çəkir. (16)

Öküz buynuzlu inək südsüz olur, inək buynuzlu öküz gücsüz olur. (75)

Öküz deyər: -Mən ağama nökərəm. (1)

Öküz dəvəcən olanda dəvə dağcan olar. (1)

Öküz əhildəməkdən boyunduruq əhildəyir[1]. (1)

Öküz gərək cüt ola. (1)

Öküz nalə çəkməkdən, qamçu sızıldar. (49)

Öküz olacaq dana bugündən bilinər. (1)

Öküz öldü, ortaq ayrıldı[2]. (1)

Öküz öldürüb adını üstümdən götürə bilmərəm[3]. (1)

Öküz ölməyincə inəyə qiymət olmaz. (1)

Öküz özünə yonca əkəndə başı ağrıyar. (1)

Öküz yüzülməyincə qarnı çıqmaz. (75)

Öküzdən utammırsan, öküzə vurulan çubuxdan utan. (18)

Öküzü durğuzub altından buzov istəyir[4]. (83)

Öküzü olana gön borc verərlər[5]. (49)

Öküzü öldürüb qumuzunda bıçağı sındırdı[6]. (1)

Öküzü ölənə yol göstərən çox olar. (1)

---

1. (83)
2. (83), (16), (19)
3. (83)
4. (1)
5. (2), (83), (1)
6. (9), (12)

Öküzü taya tərəf çəkə bilməyəndə, tayı öküzə tərəf çək. (16)

Öküzü tayıynan qoşarlar. (16)

Öküzün böyüyü pəyədə qalıb[1]. (83)

Öküzün cütdü, işin bitdi; öküzün taydı, işin zaydı[2]. (5)

Öküzün cütə getməyənini ətlik adına satarlar[3]. (1)

Öküzün qaşqasına dögərlər[4]. (55)

Öküzün qocalanı dana-buzova qoşular. (1)

Öküzün quyruğu öz-özünə gərək olmasa da, ancaq başqasına milçək qovdu. (48)

Öküzün yönsüzi kotan arzular, igidin yönsüzü Vətən azular[5]. (49)

Ölçməmiş, biçmə. (1)

Ölçülməyən arpa, ac eşşək. (18)

Öldügün yetməz, qoz ağacından tabut istərsən. (75)

Öldügünə baqma, gözün bələrtdügün qoma. (75)

Öldürən ox, günahkar ox atan[6]. (1)

«Öldürrəm» deyəndən qorxma, «ölləm» deyəndən qorx[7]. (1)

Öləcək cana yatacaq yer gərək. (75)

Ölən adam dirilməz.(3)

Ölən canını qurtarır, yazıq qalanın gününə[8]. (2)

Ölən görməyəcək, qalan görəcək. (1)

Ölən inək südlü olur[9]. (49)

Ölən öldü, borcun uddu, vay qalanın halına. (1)

Ölən öldü, diriyə dirilik gərək. (1)

Ölənə şahid gətirməzdər. (12)

Ölənin borcunu baqqal dirilərə yüklər. (1)

---

1. (5), (1)
2. (83)
3. (83)
4. (5), (83), (1)
5. (17)
6. (83)
7. (83)
8. (83), (1)
9. (44), (2), (55), (54), (81), (83), (5), (1), (14)

Ölkə sahibsiz olmaz[1]. (2)
Ölkə yansa, canı yanmaz[2]. (1)
Ölmək ölməkdür, xırıllamaq nədür[3]? (49)
Ölmək var, dönmək yoxdur[4]. (49)
Ölməsən qocalursan. (49)
Ölmüş aslana dovşanlar da hücum eylər. (1)
Ölmüş aslandan diri köpək yaxşıdı. (1)
Ölmüş ata yük çatmazlar. (1)
Ölmüş dəvənin dərisi də eşşəyə yükdü[5]. (5)
Ölmüş evin rızğı öləçək evə qoyulur. (75)
Ölmüş eşşək axtarır nalini çəksin[6]. (2)
Ölmə eşəcigüm, yonca bitə, yeyəsən[7]. (75)
Ölü bir gün, şivəni bir gün. (49)
Ölü dərdi dərd olmaz, haray dirinin dərdidi. (13)
Ölü gör necə ölüdü, əzrayıl da halına ağlayır. (1)
Ölü xalvasıyla oğlan sevmə. (75)
Ölü ilə ölmək olmaz[8]. (2)
Ölü kişi köprü olsa, üzərindən keçmə. (75)
Ölü qəbirdən geri qayıtmaz[9]. (49)
Ölü malını örkənləsən durmaz. (49)
Ölü vəsiyyəti dutulmaz, dedugi özünə qalur. (49)
Ölü yerdə qalmaz, xana darda[10]. (8)
Ölü yüzi bərk olur. (75)
Ölüdən şeytan da əl çəkib[11]. (2)

---

1. (1)
2. (83)
3. (83), (1)
4. (83), (1)
5. (83), (1)
6. (5)
7. (28), (29), (30) (31), (2), (1)
8. (83), (13)
9. (1)
10. (1)
11. (83), (1)

Ölülər eylə bilir ki, dirilər halva yeyirlər[1]. (2)
Ölüm ahıla, cahıla baxmır. (12)
Ölüm-dirim bizimçündur[2]. (75)
Ölüm fərzdür qonşulara. (49)
Ölüm haqdan, kəfən Məmməd Cəfər bəydən. (1)
Ölüm haqq işidir[3]. (75)
Ölüm haqq, miras halal[4]. (2)
Ölüm köhnə şeydi, amma həmişə təzə görünər. (12)
Ölüm qaş ilən göz arasındadur[5]. (49)
Ölüm olmasa, kişi bildügin edərdi. (75)
Ölüm - ömrün hesabatı, qəbir - sonsuzluğun qapısı. (12)
Ölüm var ki, həyat qədər dəyərli, həyat var ki, ölümdən də bətərdi. (1)
Ölüm var ölüm kimi, ölüm var zülüm kimi[6]. (1)
Ölüm yuxunun qardaşıdır. (55)
Ölümdən başqa hər şeyə çarə var. (1)
Ölünü özbaşına qoysan, şıllaq atar, kəfəni cırar[7]. (1)
Ölünü qoyub dirini ağlamazlar. (14)
Ölünün atı yüyrək olar. (12)
Ölünün böyügü, kiçigi olmaz[8]. (55)
Ölünün dalınca danışmazlar. (1)
Ölünün dalınca salat çəkir. (1)
Ölünün dirisi gərək. (49)
Ölünün dostı olmaz. (75)
Ölünün əli daş altındadı. (12)
Ölürsə yer bəyənsin, qalırsa el bəyənsin. (1)
Ölüsü ölən bir gün ağlar, dəlisi olan hər gün[1]. (1)

1. (83), (1)
2. (1)
3. (1)
4. (81), (83)
5. (1)
6. (13)
7. (83), (12)
8. (13)

Ölüsü ölən kiridi, yasa gedən kirimədi[2]! (2)
Ölüsündən könlək tartınandan nə xeyr umarsan? (75)
Ölüyə də yiyə lazımdı, diriyə də. (1)
Ölüyi ayıt, diriyi dart. (75)
Ömrün bərəkəti yaxşı əməl ilədi. (1)
Ömür bir iynədi, sapı çox qısa. (1)
Ömür çatsa, kasıb da paççah olar. (18)
Ömür edən yaşa dolar. (1)
Ömür qarısa da, könül qarımaz. (1)
Ömür vəfasızdı, bizi tərk edir. (1)
Önməzsən, önmə; tək bal mumları yeyinsün. (75)
Öpüb-qucmaqla oğul qız olmaz. (75)
Ördək ətin, qaz ətin, yeyən bilər ləzzətin. (1)
Ördək gəlib qaz olmaz, gəlin gəlib qız olmaz. (1)
Ördək istər qaz yerişi yerisin, vurar pətənəgini yırtar[3]. (83)
Ördəyi su ilə qorxutmazlar. (1)
Örəpə qoyunun nə əti olar, nə yunu. (1)
Örkən nə qədər uzun olsa doğanaqdan keçər[4]. (49)
Örtülü bazar, dostluğu pozar[5]. (2)
Öskürənin yanında asqırmasan, deyər ağzı yoxdu. (9)
Ötən qüdrət oyunıdır, bilməyənə qaz gəlür, Tanrının nəiməti çoq, bilməyən az gəlür. (75)
Övlad borcu ödənilməz. (12)
Övlad can yanğısıdı. (1)
Övlad insanın məbədidi. (1)
Övlad könül meyvəsidi. (1)
Övlad pəncərədən düşən işıqdı. (1)
Övlad tapılar, ata-ana tapılmaz. (1)

---

1. (33), (41)
2. (83), (1)
3. (55)
4. (54), (5), (1), (16)
5. (58), (83), (1), (13)

Övlad turşudu, yeyənin dişi qamaşar, yeməyənin ağzı sulanar[1]. (41)

Övladda atadan nişanə olmalıdı[2]. (1)

Övladda nəvə, dövlətdə dəvə. (1)

Övladına cəza vermiyən, özü cəza alar. (12)

Övrət kişiyi atadan-anadan ayırar, eşindən-dostundan kəsər. (75)

Övrət ölmək ev yıqılmaqdır. (75)

Övrət ünlü, ər qutsuz olur. (75)

Övrət yapduğı ev yıqılmaz; övrət yıqdığı ev yapılmaz. (75)

Övrətdən vəfa gəlməz. (75)

Övrətdən ərün əqli artıqdır. (75)

Övrətə bir ətək aqçadan bir tatlu dil yegdir. (75)

Övrətə inanma, suya tayanma. (75)

Övrətin əri ilk əridir, ğeyrisi yamadur. (75)

Öy qalıtdı əyriyə, başdan-başa səyriyə. (10)

Öydə söz düz gəlmiyənədə xiyar əyri bitər. (18)

Öylə ye, həmişə yeyəsən[3]. (81)

Öylədən sonra hər nə ucuzdur. (75)

Öylüyü olanın çöllüyü olmaz, çöllüyü olanın öylüyü. (10)

Öyrənməyə ar olmaz. (1)

Öyüd batmayana söyüd batmaz. (18)

Öyüdü anlayana verərlər. (1)

Öyüdü özünə ver, arpanı öküzünə. (41)

Öyüdü ver alana, qulağında qalana. (18)

Öyündə yox darı, hamıdan oturub yuxarı. (18)

Öz anasını sevən, özgə anasını söyməz[4]. (46)

Öz çörəyini özgə süfrəsində yemə. (1)

Öz dilinə nəzarət eliyə bilməyən doğruçu ola bilməz. (18)

Öz doşabına qənaət eyləmək özgənin balından yaxşıdır. (28)

---

1. (1)
2. (83)
3. (83)
4. (83), (1), (12)

Öz evimin nökəriyəm, özgə evinin – ağası. (1)

Öz eybini görən, özgəyə tənə urnaz. (49)

Öz eylədüğun gör, özgə eybinə baxıcı olma. (49)

Öz gözündə bayquşun balası tovus quşundan da gözəldi[1]. (1)

Öz gözündə tiri görməz, özgə gözündə çöpi görər[2]. (49)

Öz kövşənində otlayan mal ac qalmaz[3]. (1)

Öz qədrini bilməyən özgə qədrini heç bilməz[4]. (5)

Öz quru çörəyim özgənin plovundan yaxşıdı. (1)

Öz ocağında başını bağlaya bilməz, özgə ocağında gəlin başı bağlar[5]. (46)

Öz sirrin özünə saxla ki, özgə saxlamaz. (49)

Öz sözünü özgənin ağzından danışma (1)

Özgə ağzına baxan ac qalar. (1)

Özgə atına minən tez düşər[6]. (49)

Özgə bağından gül dərməzlər. (1)

Özgə buzovı çatı qırar. (83)

Özgə danasın bağlayanın çatısı əlində qalar[7]. (55)

Özgə evində koxalıq eləməzlər. (33)

Özgə evində qonaqdan borc istəməzlər. (1)

Özgə əli ilə ilan tutur[8]. (1)

Özgə əlində kömbə böyük görünər. (1)

Özgə fikrini çəkib qocalmaqdansa, öz dərdini çək, ucal. (18)

Özgə gözü yaxşı görər. (1)

Özgə ğəminə şad olmamaq gərək. (49)

Özgə kisəsindən pul bağışlamazlar. (1)

Özgə qapusun bağlı istəyənin öz qapusu bağlı qalar[9]. (54)

---

1. (83)
2. (2), (28), (54), (76), (5), (83), (1)
3. (83)
4. (1), (12)
5. (83), (1)
6. (2), (28), (29), (37), (66), (54), (5), (83), (1), (13)
7. (83), (5), (14), (16)
8. (83)
9. (55), (1)

Özgə quşu ilə ova getmə. (55)
Özgə malına dəymə, özününkünü bərk saxla[1]. (1)
Özgə malına göz tikən, malsız, davarsız qalar[2]. (1)
Özgə oğlı kimsəyə oğul olmaz[3]. (49)
Özgə öyüdünə qulaq asan dəli, ipləmə olar. (18)
Özgə özgə canından ox çəkəndə, sayar ki, palçıqdan çəkdi. (49)
Özgə özgənin işini Bayatı-Şiraznan görər. (18)
Özgə özgənin itgisint lillah bəhanəsi ilə axtarar[4]. (2)
Özgə özgənin itini bayatı ilə çağırar[5]. (55)
Özgə özgənin ölüsünü "Hololay”nan ağlar. (12)
Özgə tikəsi qarın doydurmaz, hörmət artırar. (18)
Özgə torpaq cənnət olsa da, vətəndən yaxşı deyil. (45)
Özgə yerin halvasını hövla ilə çalarlar. (1)
Özgələrinki gedə-gedə ipək olur, bizimki köpək[6]. (5)
Özgənin atına minən tez düşər. (56)
Özgənin kaşanəsindən bizim viranəmiz yaxşıdı[7] (1)
Özgənin qarğası özgəyə qırqı gəlir[8]. (2)
Özgənin müsibətinə gülmə, başına gələr. (55)
Özgənin namusuna dolaşan öz qanına bulaşar. (55)
Özgənin sözünü özgənin evində danışma. (1)
Özgənin sözünü sənə deyən, sənin də sözünü özgəyə deyər. (14)
Özgənin yaman gününə gülən öz gününə ağlayar. (1)
Özgənin yaxşısından öz pisimiz yaxşıdı. (1)
Özgəyə inahat eləmə, başına gələr. (18)
Özgəyə kömək et ki, sənə də kömək etsinlər[1]. (57)

---

1. (83)
2. (12)
3. (83), (1)
4. (49), (83), (6)
5. (14)
6. (1)
7. (39a)
8. (81), (83), (1)

Özgəyə quyu qazan özü düşər[2]. (28)
Özgəyə yamanlıq edən, özünə edir. (67)
Özü düşən ağlamaz[3]. (49)
Özü eyləyənə çarə yoxdu. (83)
Özü eşşək, çulu məxmər[4]. (5)
Özü ədalətli olanın, qazıya ehtiyacı olmaz. (1)
Özü getdi, sözü qaldı. (1)
Özü qazanmayan mal qədri bilməz. (1)
Özü özünə elədiyini el yığılsa eyləyə bilməz[5]. (2)
Özü üçün yatır, özgələrə yuxu görür[6]. (1)
Özü yeməz, özgəyə də verməz. (1)
Özüm özümə elədim, külü gözümə elədim[7]. (1)
Özümüz bir şey deyilik, adımız təbildə döyülür. (1)
Özün fil olsan da, qarışqanı yaddan çıxartma. (1)
Özün özünü tərifləmə, qoy başqası tərifləsin. (12)
Özün tüləyə qoymayırlar, şal-qaşov oğrar. (83)
Özündən yuxarı baxanda, özündən aşağı da bax. (1)
Özünə azar, özgəyə rahat yetürən ol. (49)
Özünə baxma, sözünə bax. (1)
Özünə düşmən öz dostunu itirəndi. (1)
Özünə hörmət qoymayan özgəyə də hörmət qoymaz. (1)
Özünə istəməyəni, özgəyə istəmə[8]! (49)
Özünə umac ova bilməz, özgəyə əriştə kəsər[9]. (44)
Özünə yeyər, özgəyə minnət qoyar. (83)
Özünü alim istəyən cahildən uzaq olar. (1)
Özünü atan da birdi, özünü dartan da . (1)

---

1. (1)
2. (29), (37), (67), (83)
3. (54), (1), (12)
4. (1)
5. (2), (81), (83), (1), (12)
6. (14)
7. (11), (12)
8. (71), (1)
9. (49), (51), (2), (1), (12)

Özünü böyük göstərmək kiçikliyin ən kiçiyidi. (1)
Özünü ələ ala bilməyən adam başqalarını ələ ala bilməz. (18)
Özünü tanımayan Allahını da tanımaz[1]. (1)
Özünün yavan çörəyi özgənin plovundan yaxşıdı[2]. (1)
Özüvi yorulmuş bilsən, yoldaşıvı ölmüş bil[3]. (46)

**P**

Padşah boşdux eyləsə, bazarda ocax yanar. (9)
Padşah xəzinəsi də altı şahılıq qıfıla möhtacdı. (1)
Padşahda qırx adamın ağlı olmasa, padşah olmaz. (83)
Padşahın da dalınca danışarlar. (1)
Padşahın da rəiyyətə işi düşər. (1)
Padşahın söhbətinin əvvəli dirilik, axırı ölüm. (1)
Padşahlarun basduğı yerdə ot bitənməz[4]. (75)
Paxıl adam ac canavardan pisdi. (1)
Paxıl adam cənnət görməz. (41b)
Paxıl artmaz. (14)
Paxıl artsa, qurd artar[5]. (2)
Paxıl çörəgin yemək ğəm gətürür. (49)
Paxıl həmişə diyər, mənim ürəymimnən olmaz. (18)
Paxıl xoflu olar. (12)
Paxıl olma, qüssən olmasın. (1)
Paxıla Tanrı verməz, versə də qarnı doymaz[6]. (1)
Paxılın axırı olmaz. (1)
Paxılın bağı göyərməz. (12)
Paxılın dərdinə dərman qara torpaxdı. (18)
Paxılın goru cəhənnəmdi[7]. (1)
Paxılın gözü doymaz. (1)

---

1. (83)
2. (83)
3. (54)
4. (1)
5. (81), (83), (1), (12)
6. (11), (12)
7. (1)

Paxılın qapısı həmişə bağlı olar. (12)
Paxır qazanda xörək bişməz. (12)
Palan qızıldan olsa da, adı palandı. (12)
Palaza bürün, el ilə sürün[1]. (2)
Palçığa batan arabanı öküz çıxardar. (1)
Paltar boya biçilər, boy paltara yox. (8)
Paltarı zinətləndirməkdən ağılı zinətləndirmək faydalıdır. (67)
Paltarın kirini yumax olar, ürəyin kirini yumax olmaz. (12)
Paltarın yaxcısını özünə götür, aşın ləzzətdisini qonağa ötür. (15)
Panbuqcunun itdən acığı gəlir. (54)
Papağı isti-soyuq üçün qoymazlar[2]. (55)
Papağı tülkü dərisindən, xəbəri yox gerisindən[3]. (1)
Papağımız günə yandı. (1)
Papax başda yırtılar, başmax ayaxda. (15)
Papaq altında igidlər yatar. (1)
Papaqçının papağı olmaz, çuxaçının çuxası[4]. (83)
Papaqçının qaçağı papaqçı dükanıdı. (83)
Para qurtardı, dükan bağlandı. (1)
Paran ucuz isə, özün bahalı ol. (1)
Paran vardır – cümlə-aləm qulundu, paran yoxdu – dar küçələr yolundu. (1)
Pas dəmirdən qılınc olmaz[5]. (28)
Pasdı tüfəng, inad arvad, tənbəl at. (9)
Pay bölən ya payınnandı, ya imanınnan. (13)
Pay bölənə pay qalmaz[6]. (1)
Pay bölənin yüzdə biri cənnətə gedər. (1)

---

1. (5), (83), (1), (12)
2. (83), (1)
3. (83)
4. (1), (5)
5. (1)
6. (12)

Paydan pay ummazlar. (1)
Paydan uman pay verməz. (1)
Payını yalqız yeyən tayın dişi ilə tutar[1]. (55)
Payız cücəsinnən xoruz olmaz. (12)
Payızın suyu kasıbın boğazına təngdi. (1)
Pendir-çörək salamatdı[2]. (1)
Pendir yeyən su axtarar. (1)
Pendirdən təkə qayırar, könlünnən olsa, bir az da yekə qayırar. (18)
Pendiri yaxşı pendirdi, hayıf ki, it dərisindədi. (18)
Pesər mənimdür, məfxərini bilürəm. (49)
Peşkəşin axırı dərvişə çatar. (1)
Peyğəmbər əvvəl öz canına dua edib[3]. (1)
Peyininə bax bostan ək[4]. (55)
Pəhrizini gözləməyən azarını uzadar. (1)
Pələng meşənin qoruqçusudu. (12)
Pələng olmayan meşədə dovşan da şahdı. (12)
Pələng qəfəsdə də pələngdi. (12)
Pələngə ət yeməyi, keçiyə ot yeməyi öyrətməzlər. (1)
Pələngi qılıqla öyrədəllər, qılıncla yox. (12)
Pəncşənbənin gəlişi, çərşənbədən bəllidi. (1)
Pəzəvəngin axırı dərviş olar. (1)
Pıç-pıç ev yıxar[5]. (83)
Pilovun alçaq yanında otur. (75)
Pilləkanı bir-bir çıx. (49)
Pinəçinin mayası iynə və bizdir[6]. (44)
Pir mənimsə, kəramətini mən bilirəm[7]. (5)
Pirini tanımayanın aqibəti pis olar. (1)

---

1. (1), (18)
2. (83)
3. (83)
4. (1)
5. (14)
6. (83), (1)
7. (83), (1)

Pirlərə ölmək bayramdır. (75)
Pis adamnan borc alma, toyda da, vayda da istəyər. (12)
Pis bildigini özgəyə rəva görmə. (83)
Pis gün yaxşı olar, pis adam yaxşı olmaz[1]. (12)
Pis günün ömrü gödək olar[2]. (83)
Pis işçinin əlində dəzgah da pisdi. (12)
Pis mal yenə sənindir[3]. (55)
Pis odur ki, yoxdu. (12)
Pis olmasa yaxşının qədri bilinməz[4]. (83)
Pis söz yiyəsinə qayıdar[5]. (37)
Pis sözü zarafatla deyərlər. (45)
Pis yalanın olsun, pis deyənin olmasın. (5)
Pişigin ağzı ətə çatmaz, deyər: mundardu[6]. (83)
Pişigin arxası yerə dəgməz. (83)
Pişik balası özünü anasının döşündə gizlədər. (1)
Pişik balasını çox istədiyindən yeyər[7]. (2)
Pişik bərkə düşəndə, dırnağı ilə pələng gözü çıxardar. (1)
Pişik olmayan yerdə siçanlar baş qaldırar[8]. (2)
Pişik ölüb, siçanların bayramıdı. (1)
Pişik yeyəni aslan qusdura bilməz. (1)
Pişiyi dara qısnayanda dönər üzünü cırmaqlar[9]. (2)
Pişiyin gözü siçan deşiyində olar. (1)
Pişiyin könlü samanlıqda idi, tazı da qovdu, samanlığa saldı. (1)
Pişiyin qanadı olsa, quşların üzər[10]. (77)

---

1. (15)
2. (5)
3. (18)
4. (12)
5. (15), (18) .
6. (75), (44), (45), (49), (5), (33), (2)
7. (5), (83), (1)
8. (29), (31), (83), (1)
9. (1), (14)
10. (1)

Pişiyin oyunu – siçanın ölümü. (45)
Pişiyin yüyürməyi samanlığa qədərdi[1]. (1)
Pitiknən donuz darıdan çıxmaz. (54)
Piyadanı at almağa, oğlanı qız almağa göndərməzdər. (18)
Piyadanın qaydasıdı, atlıya gülər[2]. (2)
Plov işgənədən yaxşıdur. (49)
Plovu yeyənə ver, sözü deyənə! (15)
Polad poladı, almaz almazı kəsməz. (12)
Polad sınar, əyilməz. (12)
Pul açan işi qılınc açmaz. (49)
Pul can yonğarıdır. (55)
Pul dağı da yerinnən oynadar. (12)
Pul daş arasındadur. (49)
Pul doğrunu da susdurur. (12)
Pul əl kiridi, yuyarsan gedər. (83)
Pul girməyən yer yoxdu. (12)
Pul haramisi ol, yoldaş haramisi olma. (83)
Pul hər şeyi həll edir. (12)
Pul qazanmaq asandı, xərcləmək çətin. (83)
Pul olmayan yerdə qəpik də puldu, ver ayrana, tök qarnına. (18)
Pul verəndə mollanı məçitdə alladarlar. (83)
Pulda vəfa olsaydı, əldən-ələ keşməzdi. (15)
Puldan pay olmaz[3]. (2)
Pulsuz bazara gedən imansız gora gedər[4]. (37)
Pulsuz ol, namussuz olma. (12)
Pulsuzu pula tapşır. (77)
Pulu az olanın qüssəsi də az olar[5]. (2)
Pulu çox olana dünya darrıx eyliyir. (18)

---

1. (18)
2. (45), (47), (81), (83), (5), (1), (12)
3. (55), (83), (5)
4. (18)
5. (28), (29), (83), (12)

Pulu pul qazanar, yaxşı igid palçıq tapdar[1]. (55)
Pulu yox oğru apara, imanı yox şeytan apara. (83)
Pulun gözü yoxdu. (12)
Pulun getdiyinə baxma, işin bitdiyinə bax[2]. (2)
Pulun oldu yüz, gir içində üz. (83)
Pulunu əziz edən, özünü zəlil edər[3]. (2)
Pulunu ver inəgə, bağla dirəgə. (83)
Pulunu verən mal alar, heç verməyən nə alar[4]? (2)
Pusquda oturan yatmaz. (83)
Puştısız papuç olmaz. (75)

**R**

Rahat oturana nə vali gələr, nə hakim. (1)
Rahatlıq istəyən adam: - kar, kor, lal gərək. (1)
Rast gəlməyən işə peşman olma[5]. (1)
Rayic ağcasın sınağında ğəmi olmaz. (49)
Razı olan ğəm yeməz. (49)
Razını kimsəyə demə. (75)
Rəhbərə yol görsətmə. (83)
Rəhmət düzənə, lənət pozana[6]. (83)
Rəncbərin öküzi semüz olur, amma öküzi semüz olsa, kəndüsi arıq olur. (75)
Rəncbərin ümidi əkinədi. (1)
Rəşbərin qırx ildə tapmadığını tacir qırx gündə tapar. (26)
Rəva görəndə mətaı satmaq gərək. (49)
Rig bağlamaq - düşmən qazanmaqdur. (49)
Rişxənd etmə qonşuna, gələr bir gün başına. (1)
Rişxəndlik ağlın zəifliyindən doğar. (1)

---

1. (49), (83)
2. (28), (83)
3. (28), (83)
4. (83)
5. (83)
6. (15)

Rizq artmaz, möhnət artar. (83)
Rum övrəti tatlu olur. (75)
Ruzi olsun, ocaqda olsun. (1)
Ruzi həllacbazarda gəzir. (1)
Ruzigar əsicək düz əsər. (75)
Ruzigar intiqam evidür. (49)
Ruzisi gələn zaman köpəyi yuxu tutar. (1)
Rüstəmi-zaman olsan, düşməni həqir sanma. (49)
Rüsvayçılıq ömürdən uzun olur. (40a)
Rüşvət cəhənnəmin açarıdı. (1)
Rüşvət haramdı. (1)
Rüşvət iş qayırandur. (49)
Rüşvət qapıdan girərsə, iman bacadan çıxar. (1)
Rüşvətxorun aqibəti yoxdu. (1)
Rzasuz loğma boğazda qalur. (49)

**S**

Sabah uyxusı quzı ətidir, öylə uyxusı qoyun ətidir; axşam uyxusı sığır əti. (75)
Sabahdan buçuqa qıymayan birərdən ikili olmaz. (75)
Sabahın da sabahı var. (1)
Sabahın naharı bədənin mismarıdır[1]. (44)
Sabahın şəri axşamın xeyrinnən yaxşıdı[2]. (5)
Sabahın şirin yuxusu yolçunu yoldan eylər. (1)
Sabahın yaloyu, axşamın plovu. (5)
Sabahun fikrin bu gün çək. (49)
Sabun qara palazı ağartmaz. (1)
Sabur-sabur, axırda sınıx qabur. (18)
Sacayaq ərgən burnunadur. (75)
Sacı soyuq olanın kündəsi küt gedər. (1)
Saç səfadan uzanar, dırnaq cəfadan[3]. (1)

---

1. (83), (1)
2. (1)
3. (15)

Saç ürəkdən su içər[1]. (1)
Saçı borc almaq mümkün olsaydı, keçəlin nə dərdi vardı?! (1)
Saçı ölü üstə kəsərlər. (49)
Saçmayınca dərmək olmaz. (49)
Sadağa qada qaytarar[2]. (1)
Sadağa saraydan çıxmaz[3]. (5)
Sadə yaşasan – yüz yaşaya bilərsən. (1)
Sadəlik də abadlığın bir növüdü. (1)
Sadiq Allah yarıdur. (49)
Saf armud sapdan düşməz.[4] (2)
Sağ baş yasduq istəməz[5]. (75)
Sağ əl verəni sol əl gərək bilməsin. (1)
Sağ gözün sol gözə etibarı yoxdu[6]. (1)
Sağ olan başa börk əksi olmaz. (75)
Sağ olana hər gün bayramdır. (75)
Sağ yeri qarnı altındadı, onu da örkən kəsib. (1)
Sağır sığırdır. (75)
Sağır yanşağ olur. (75)
Sağırla söyləşmək güc olur. (75)
Sağlam otağı, xəsdə yatağı sevər. (18)
Sağlam ruh sağlam bədəndə olar. (1)
Sağlamlığın qədrini xəstələr bilər. (1)
Sağlamlıq bir cür, xəsdəlik min cürdü. (18)
Sağlıq bəglikdir. (75)
Sağlıq ən böyük dövlətdi, qədrini bilmək gərək. (83)
Sağlıq sultanlıqdı, demə yoqsulam mən[7]. (83)
Sağsağan kəkliyə baxar, öz yerişini itirər. (1)

---

1. (14)
2. (1)
3. (83), (1)
4. (83), (1)
5. (49), (1)
6. (13)
7. (50), (1)

Sahibinin yanında pişik də it basar. (1)
Sahibsiz ev xarabadı. (1)
Sahibsiz kəndə vəhşi donuz yol açar. (36)
Sahibsiz mal yetimdi. (1)
Sahibsiz qoyunu qurd yeyər. (1)
Saxla gönü, gələr günü[1]. (1)
Saxla samanı, gəlir zamanı[2]. (2)
Saxsıya verə-verə çıxar misin bahası. (1)
Sakit olan salamat olar[3]. (2)
Sakit quzu iki ana əmər. (18)
Saqal kişiyi çoq işdən qor. (75)
Saqalı qaba olanın əqli kəm olur. (75)
Saqalı təkə də götürər. (75)
Saqallu güyəgü dügür kibidir. (75)
Saqındıq gözə çöp düşər[4]. (75)
Saqqal ağluğı ölüm bişirübdür. (49)
Saqqal başa sədəgədir[5]. (55)
Saqqal dalınca getmişdi, bığı da qoyub gəldi. (45)
Saqqal qəbası neyləsün, başda əqli olmayana. (49)
Saqqal uzatmağ ilən kimsə şeyx olmaz[6]. (49)
Saqqal yox ikən bığ vardı[7]. (46)
Saqqal yoxdur, söz ötməz[8]. (49)
Saqqala xal düşdü, ürəyə xal düşdü. (1)
Saqqalda feyz olsa idi, keçi şeyxliq edərdi. (83)
Saqqalda kərəm olsaydı, keçiyə Kəraməddin ağa deyərdilər. (1)
Saqqalı ağarıb, ağlı ağarmayıb. (1)

---

1. (83), (11)
2. (83), (1)
3. (31), (83), (1)
4. (49), (28), (2), (83), (1), (14)
5. (1)
6. (1)
7. (83), (1)
8. (46), (83), (1), (12), (14)

Saqqalı hər dəlləyin əlinə verməzlər. (1)
Saqqız çeynənəndə çürüyər[1]. (44)
Salamatlıq - dil saxlanmaqdadur. (49)
Salavat gücə bağlıdı[2]. (49)
Sallaqxana köpəyi arsız olar. (1)
Saman altından su yeridir[3]. (2)
Saman qala-qala qızıla dönər, qızıl qala-qala samana dönər. (1)
Saman sənin deyil, samanlıq sənindi[4]. (54)
Saman yeyən eşşək torbasını özü daşıyar. (1)
Samana qatsan at yeməz, kəpəyə qatsan it. (9)
Samanı olanın samanlığı da olar. (40)
Samanın tüstüsü göz çıxarır[5]. (44)
Sanılı pulun bərəkəti olmaz[6]. (55)
Sap üzülən yerdən qırılar. (1)
Sapında durmayan dəhrənin ağzı daşa dəyər. (18)
Sarala-sarala yaşamaqdansa, mərd-mərdanə ölmək yaxşıdı. (1)
Sarb sirkə kəndu qabına ziyan edər. (75)
Sarbanla qonaq olanın darvazası gen gərək[7]. (1)
Sarıcada eşşək tapdın, nə baxırsan ərkək-dişiliyinə, min belinə get. (18)
Sarsaqlar olmasaydı, yaltaqlar acından ölərdi. (1)
Satın alınmış sarımsaq sapınadək tatlu olur. (75)
Savad adamı dilli eylər. (1)
Savaş gendən baxana asan gəlür. (49)
Savaşda barışıq yeri qoymaq gərək. (49)
Savaşda dilün saqın, dərnəkdə əlün saqın. (75)

---

1. (83), (1)
2. (55), (83), (1)
3. (83), (1), (6)
4. (49), (1), (13)
5. (83), (1), (15)
6. (1)
7. (83)

Savaşda qılıc, müamilədə ağça. (50)
Savaşmaq itə yaraşur. (49)
Savır gennikdə, qavır sərinnikdə. (9)
Savuğ ilən oyun olmaz. (49)
Sayan bahadur olmaz. (49)
Sayanın quluyam, saymayanın ağası. (1)
Sayılan gün tez keçər. (1)
Saymadığın deşikdən tülkü çıxar. (1)
Saymaz it adam qapar. (1)
Sayru halın sağ bilməz. (75)
Saz olan yerdə sözü saza verərlər. (1)
Saz şadlıq gətirər. (1)
Saza söyməzdər. (12)
Sazanun başını yeyənin quyruğı ğayət tatlu olur. (75)
Sel həmişə kötük gətirməz. (18)
Sel yüz gündə ovanı, dərd bir gündə ovar. (1)
Semizlik adamın yaraşığıdır. (75)
Sevda arasında nırx qoymazlar. (1)
Sevdügini güllə də urma. (75)
Sevən sevəni tapar. (49)
Sevən sevilur, keçi bəgirur. (75)
Sevəni sevənə ver. (1)
Sevəni sevərlər, sevən sevilür. (75)
Sevənin gözündə pərdə olar. (1)
Sevərəm məni sevəni, keçəl ola, daz ola, sevmərəm məni sevməyəni, şah ola, şahbaz ola. (1)
Sevgi adamı selə verər. (1)
Sevgi adamı yandırar. (1)
Sevgi od deyil, amma oddan yamandı[1]. (1)
Sevgi sönməz atəşdi. (12)
Sevinc sevinc gətirər. (1)
Sevindim quşum var, quşum var, aralığa çıxdı sərçə balası. (1)

---

1. (83)

Seyid ağzından çözülür. (75)
Seyid cəddinə arxalanar. (1)
Seyid Əhməd əliynən ilan tutur, onu da yalan tutur. (15)
Seyidin duası tutmaz, ancaq qarğışı tutar. (12)
Səbət sökülәndən sonra fayda verməz. (49)
Səbir acıdı, meyvəsi şirin[1]. (1)
Səbir ağacı hər bağda göyərməz. (1)
Səbir Allahın adıdı. (14)
Səbir bir ömürlük xəzinədi. (12)
Səbir cənnət acarıdır[2]. (28)
Səbir edən muradına yetişər[3]. (1)
Səbir edən salamat olar. (1)
Səbir eylə işinə, xeyir gələr başına. (1)
Səbir eyləyən çox yaşar[4]. (83)
Səbir eyləyən fərac tapar[5]. (1)
Səbir eyləyənləri Tanrı dost tutar[6]. (28)
Səbir ilə halva bişər ey qora səndən. Saxlasan atlas olar tut yarpağından[7]. (29)
Səbir muradlarun kilididür. (49)
Səbirli olmax ağıllı olmağa bərabərdi. (18)
Səfa safluqdadur. (49)
Səfalət çalışqan adamın qapısından baxar. (1)
Səfeh baş ağılın düşmənidi. (12)
Səfər adama çoq nəsnə ögrədür. (75)
Səfər faydası sağlıqdur. (50)
Səfərə çıqanun işini Allah bilür. (75)
Səfərə gedən su götürər. (83)
Səfil basulur, zalım asulur. (49)

---

1. (15)
2. (83), (1)
3. (83)
4. (12), (1)
5. (83)
6. (83)
7. (75), (49), (28), (5), (83), (1)

Səhər gedər naxıra, axşam gələr axura[1]. (1)
Səhər gününə qızmayan axşam gününə heç qızmaz. (1)
Səhər yeməyini özün ye, günorta yeməyini yoldaşına, axşam yeməyini düşməninə ver. (1)
Səhərin işini səhər gör. (1)
Səhərxizlik dövlət nişanıdur. (49)
Səhil nəsnədən at yağır olur. (75)
Səhrada gül bitməz, cahilə söz yetməz. (1)
Səhvi dəyirmançı eylər, buğda aparar, un gətirər. (1)
Səhvini göstərənlərə hörmət et. (67)
Səxavət dövlətdən deyil, təbiətdəndi. (1)
Səkil keçiyə doqquz çoban gərək[2]. (75)
Səkkiz gün ömürə, doqquz gün çalışmaq lazımdı. (1)
Səkkiz mıxa doqquz at bağlamazlar. (1)
Səksən, doxsan, bir gün varsan, bir gün yoxsan[3]! (1)
Səksənində yaşayır, indi belin qurşayır[4]. (1)
Sən ağa, mən ağa, inəkləri kim sağa[5]. (54)
Sən ağacı götür, suçlu özün bildirər[6]. (2)
Sən bağınun divarın çək, qarğa abadan eylər. (49)
Sən bizim nəhrəmizi çalxa, mən qedim bəylik evinin nəhrəsini çalxamağa[7]. (5)
Sən doğru ol, əyri bəlasını tapar. (1)
Sən el ögünə yat, el sənin boyuna qaftan biçə bilür. (75)
Sən get özünə dost qazan, düşmən ocaq başında. (1)
Sən görən ağacı kəsdilər[8]. (54)
Sən görən göy əkin göyərməz. (18)
Sən haqq ol, haqq da səninlə olar. (1)

---

1. (83)
2. (16)
3. (83)
4. (83)
5. (49), (83), (1)
6. (83), (1)
7. (83)
8. (1)

Sən ki oldun tülüngü, xub verginən şilingi. (83)
Sən ki qorxursan pişikdən, niyə çıxırsan deşikdən. (55)
Sən kosa ilən, dağallıq mənə dəgdi. (49)
Sən saydığını say, gör fələk nə sayır. (1)
Sən sözü at, yiyəsi özü götürər. (1)
Sən yediyin bilməsən də, mən doğradığımı billəm[1]. (49)
Səndən hərəkət, məndən bərəkət[2]. (1)
Səndən xeyir görən Allahdan bala çəkər. (83)
Səndən mənə yar olmaz. (1)
Səndən ötrü sayru olançun, sən öl. (75)
Səndən uluya qız ver, səndən alçaqdan qız al. (75)
Səndən yumurta alan sarısın içində görməz. (83)
Sənə bir kəlmə söz, mənə bir illik yol. (1)
Sənə bir toy tutaram ki, it əlindən əppəyini alar!.. (1)
Sənə ehtiyacı olanı, başqasına möhtac eləmə. (1)
Sənə güvəndiyim dağlar, sənə də qar yağdı[3]. (5)
Sənə hər kim daş atsa, sən ona çörək at[4]. (1)
Sənə it saxlayanın, bir tikə artıq çörəyi gərək. (1)
Sənə vur dedilər, öldür demədilər. (10)
Sənət ayrı, vərdiş ayrı. (1)
Sənət insanın xəzinəsidir[5]. (74)
Sənət issindən qorqar. (75)
Sənət qanaddı. (12)
Sənət qızıldır. (49)
Sənət qolda qızıl bilərzikdi. (1)
Sənəti ustaddan görməyən önməz. (75)
Sənətin pisi olmaz. (1)
Sənətkar günortaya kimi ac qalar. (14)
Sənətkarın oğurluğun tutmaq olmaz. (1)

---

1. (1)
2. (83)
3. (83), (1)
4. (12)
5. (83), (1)

Sənətsiz kişi, qanadsız quş. (12)
Səni bir sevməyəni sən iki sevmə. (75)
Səni istərəm, çox istərəm, bir gözümü yox istərəm! (1)
Səni istəyirəm, özümü səndən artıq istəyirəm. (1)
Səni itirən axtarmaz, tapan söyümməz[1]. (18)
Səni tərifləyənə çox etibar eləmə. (12)
Sənin atın mənim arpamın gücünə yorğa gedər. (1)
Sənin həftəndən motal olmaz. (83)
Sənin ipin ilə şələ bağlamaq olmaz. (1)
Sənin üzün, dəvəmin dizi[2]. (54)
Səninki nəqddir, sən apardın. (1)
Səninki səndə, mənimki məndə[3]. (49)
Sənsiz bir günümüz olmasın. (1)
Səpilməyən buğda göyərməz. (1)
Sərçə anasından haçan süd görüb. (77)
Sərçə bülbül sədasın verməz. (49)
Sərçə deyil, budunu verim, bir dəvənin nəyini verim?! (1)
Sərçə qazan doldurmaz, qaz vur, qazan dolsun. (1)
Sərçə nədir, bozbaşı nə olsun[4]. (55)
Sərçə olsun, əlimdə olsun, göydə uçan qazı neylərəm?! (1)
Sərçədən qorxan darı əkməz[5]. (75)
Sərçənin cib-cibindən, toyuğun qaqqıldaması yaxşıdı. (1)
Sərçəyə civ-civ ögrətmə[6]. (75)
Sərdarsuz leşkər basılqan olur. (49)
Sərxoş biri iki görər. (1)
Sərxoş gördügünə ulaşur, oda düşən buruşur. (75)
Sərxoş sərxoşu meyxanada görər. (1)
Sərxoşa məktub yazma, ya oxuyar, ya oxumaz. (1)

---

1. (1)
2. (1)
3. (1)
4. (1)
5. (2), (28), (5), (1)
6. (1)

Sərxoşdan dəli də qorxar. (1)

Sərxoşu meyxanada, mollanı məsciddə, dərvişi təkyədə tapmaq olar. (1)

Sərxoşu it də tutmaz. (1)

Sərxoşun ağlı kor olar. (12)

Sərxoşun məktubu meyxanada oxunar[1]. (1)

Sərxoşun nə vecinə, aləmi su aparsın. (1)

Sərnic gətir, süd axtar. (1)

Sərt olma, mərd ol. (1)

Sərv ağacı nə qədər uca olsa, əsli yoxdu, budağında bar olmaz. (1)

Sərvaxt çobanın sürüsü salamat olar. (40)

Sərvət arvad əlində məhv olar. (12)

Sərvəti insan yaradır. (12)

Sərvətli olub qəm-qüssə ilə yaşamaqdan isə fəqir olub şad və məsrur yaşamaq faydalıdır. (71)

Səs-küy ilə iş aşmaz. (1)

Səs ver, sirr vermə. (1)

Səy zayi olmaz. (49)

Səy zayidür, bəxt yar olmasa. (49)

Sıxıla-sıxıla behiştə getməkdənsə, oynaya-oynaya cəhənnəmə get. (1)

Sınan qol sağalar, sınan qəlb sağalmaz. (1)

Sınan sınıp əyri bitməyə. (18)

Sınanmamış atın dal-qabağına keçməzlər[2]. (1)

Sınanmamışa könül vermək olmaz. (49)

Sınıq əl boyuna yükdür[3]. (49)

Sınıq əldən pərhiz gərək. (49)

Sınıq qabda su qalmaz. (1)

Sınsın o baş ki, dost yolunda gərək olmaz. (1)

---

1. (83)
2. (18)
3. (83)

Sırkosu deyir ki, alçax dağı mən yaratdım, yoxardakına da torpax atdım. (18)

Sıtma qutlu xəstəlıqdır. (75)

Sıyığa nə bismilla. (18)

Sıyıq ilə yıxılan ev, aş bişir, viran olsun. (1)

Sızanağı qaşıma, çiban edərsən. (1)

Sicim nə qədər uzun olsa genə doğanaqdan keçəcəkdir. (37)

Siçan deşiyini satın alır. (1)

Siçan görəndə pələngə dönən pişik, pələng görəndə siçana dönər. (1)

Siçan olmamış dağarcıq dəlir. (1)

Siçandan olanlar torba kəsən olur[1]. (44)

Siçanı öldürmək pişiyə oyundu. (1)

Siçanın ağlı çaşanda pişiyin ayağına dolaşar. (18)

Siçanın anbara girməsinə yanmıram, başqasına yol göstərməsi məni yandırır. (1)

Siçanın aslanı pişikdir. (43a)

Siçanın kediylə nə oyunı var? (75)

Siçanın toyı bitdükcə üşür. (75)

Siçanlara xərac gələndə gecə quşu dişini görkəzdi. (83)

Sidq dürüst gərək. (49)

Sidq saraydan çıqmasun. (75)

Sidq ilə qara daşdan mətləb almaq olar. (39a)

Sidqnən qardaşdan mətləb almaq olmaz. (1)

Sidr-kafuru müftə görsə uzanıb ölər. (1)

Sifariş ilə həcc qəbul olmaz[2]. (1)

Silah sahibinə də düşməndi. (1)

Silahla oynamaq olmaz. (1)

Sinə dağlı gərək, sərdar tədbirli. (49)

Sinirəmədügün aşı yimə. (75)

Sirət surətə üstündür. (49)

Sirkə elə tünd idi ki ona su qatdılar. (48)

---

1. (83), (1), (14)
2. (83)

Sirkə tünd olsa, öz qabını çatdadar[1]. (83)
Sirr açandan el qaçar[2]. (1)
Sirr saxlamaq ərlikdür[3]. (49)
Sirri açandan el qaçar. (21)
Sirri faş eyləyən başınun düşmənidür. (49)
Sirri sirr açar, kiri kir[4]. (1)
Sirrindən keçməyən sirdar olmaz. (50)
Sirrini dostuna demə, o da öz dostuna deyər[5]. (44)
Sitəmkarın çırağı həmişə yammaz. (12)
Siyasət nənə-bacı bilməz. (1)
Siyavuş qanıdı, batmaz. (83)
Sözün yalnışı olur, yalanı olmaz. (49)
Soğan acı olsa da süfrədə öz yeri var. (1)
Soğan eyib açandı[6]. (1)
Soğan göyərdi, dedi: mən də güləm[7]. (83)
Soğan olsun, nağd olsun! (1)
Soğan seyrək olduqca, başı ayrı olar. (83)
Soğan yeməmişəm, içim nə üçün göynər[8]. (54)
Soğansız bişən xörəyin ləzzəti olmaz. (83)
Solaxay bərk vurar. (1)
Son peşimanlıq assı qılmaz[9]. (75)
Son sözünü əvvəl demə. (14)
Sona qalan dala qalar, dala qalan dana qovar. (1)
Sona qalan ögünsün. (49)
Sonın gözləməyən peşimanluq çəkər. (49)
Sonlayan sonda qalar. (14)

---

1. (5), (28), (2), (1)
2. (1), (12), (15)
3. (1)
4. (14)
5. (37), (83), (1)
6. (83)
7. (1)
8. (49), (83), (1)
9. (49), (1)

Sonsuz adam dövləti çoq istər. (83)
Sonulayan ya kora, ya keçələ. (12)
Sora-sora Kəbəyə varırlar[1]. (75)
Soradan günə çıxan günüz ləmpə yandırar. (18)
Sorğu-sual göydə deyil, yerdədi[2]. (1)
Sorucu ol, bilici olma. (38)
Soruşan dağlar aşar, soruşmayan düzdə çaşar[3]. (1)
Soruşannan soruşmuyan tez dənini üyüdüp gələr. (18)
Sovqatın adı birdi[4]. (1)
Sovuq aşı buza döndərmə. (75)
Sovuq peyğəmbərə hörmət etməmişdir. (75)
Soyub-soyub quyruğunda bıçaq sındırma[5]. (55)
Soyuq dəmir döyülməz. (1)
Söhbət darı torbasıdı, deşildi, dağılacaq[6]. (1)
Söhbət üçün çənə, saqqal üçün həna. (1)
Söhbət yarsuz haramdur. (49)
Söhbəti baqiyə salan ər degül. (49)
Söndü bizim çırağımız, yandı sizin çırağınız[7]. (1)
Sövdanı pul eylər, davanı qılınc[8]. (55)
Söydəgar ildə təzə, iynə-sap gündə təzə. (18)
Söyləmək gümüş isə, söyləməmək altundur[9]. (75)
Söyləyənə baxma, söylədənə bax[10]. (1)
Söyləyənə dinləyici gərək. (75)
Söymə nökər atamı, söyməyim bəy atanı[11]. (1)

---

1. (1)
2. (12)
3. (14)
4. (83)
5. (83), (1), (18)
6. (83)
7. (83)
8. (83), (1)
9. (49), (83), (1)
10. (15)
11. (83), (10), (14), (13)

Söyüd bar verməz. (12)
Söyüş qəlp puldu, yiyəsinə qayıdar[1]. (1)
Söyüşə adət edən ağızı yummax olmaz. (12)
Söyütdə bar olsa, arsızda ar olar. (10)
Söz adama, çubux heyvana. (18)
Söz ağızdan çıxar. (1)
Söz bir olsa zərbi kərən sındırar[2]. (2)
Söz bir – Allah bir. (60)
Söz böyüyün, su kiçiyin. (1)
Söz çox olan yerdə yalan çox olar. (1)
Söz danış, söz eşit. (1)
Söz danış, söz olsun. (1)
Söz danışıqdan keçər. (1)
Söz dediyin dəmirdi, döydükcə uzanar. (1)
Söz deyən azdı, söz çeynəyən çox. (1)
Söz deyilməyibsə – sənindi, ağzından çıxıfsa – sənin deyil. (12)
Söz dünyanın bəzəyidir. (12)
Söz eşidildügi kibi olmaz. (75)
Söz gəldi, məqamında de gəlsin[3]. (1)
Söz gəzdirən adamdan qorx. (1)
Söz haqdan gəlür. (49)
Söz həm məlhəmdi, həm də yara. (12)
Söz xalqın xəzinəsidi. (12)
Söz ilən pilov olmaz, aralıqda yağ, düyü gərək[4]. (83)
Söz qılınc yarasından pis kar eylər[5]. (29)
Söz qılıncdan kəskindi[6]. (2)
Söz quşdu, buraxarsan, uçar, gedər. (1)

---

1. (41)
2. (83), (1)
3. (83)
4. (49), (83)
5. (83)
6. (83), (1)

Söz olmasa, dünya kasıv olar. (12)
Söz sahibi ölsə də söz qalar. (1)
Söz sahibinin dustağıdı, sahibi sözün dustağı. (1)
Söz sandığa girməz. (1)
Söz söylədiyin adamı tanı, sonra ona söz söylə. (1)
Söz sözdən açılur[1]. (75)
Söz sözü gətirər, arşın bezi[2]. (2)
Söz sözü kəsər. (14)
Söz sözün söykəyidi. (14)
Söz tez yayılar. (1)
Söz torpaq kibidir, eşdükcə törər. (75)
Söz ulunun, suç kiçinin[3]. (75)
Söz üçün əlini cibinə salmır. (1)
Söz üçün usta, iş üçün xəstə. (1)
Söz var adamı məst eylər, söz var məsti ayıldar. (1)
Söz var aş bitürür, söz var, baş yetürür. (75)
Söz var el içində, söz var ev içində[4]. (2)
Söz var xəstəni sağaldar, söz var adamı yaralar. (1)
Söz var iş bitirər, söz var baş itirər. (15)
Söz var ki, kəsdirir başı, söz var ki, kəsər savaşı. (12)
Söz var şəkər-şirin bal kimi, söz var ki, zəhərdən də betərdi. (1)
Söz vaxtına çəkər[5]. (49)
Söz verən bez verməz. (18)
Söz vermək asandı, yerinə yetirmək çətin. (1)
Söz yaş dəridi, haraya çəksən, oraya gedər. (1)
Söz yerində işlənməsə, qiymətdən düşər. (12)
Sözdən söz çıxar, ocaqdan köz. (6)
Sözə usta, işə xəstə. (12)

---

1. (46), (83)
2. (81), (83), (1), (14), (12)
3. (49), (1)
4. (50), (83), (1), (41b)
5. (83), (46), (1), (13), (14)

Sözi keçənin sözi kəskin qılınç kibidir. (75)
Sözi verəndən alan uslu gərək. (75)
Sözlər bir-birinə calanıb gedər. (1)
Sözsüz ev olmaz, əzabsız gor. (11)
Sözü acı olanın, dostu az olar. (14)
Sözü ağzında bişirip söylə[1]. (75)
Sözü ahəstə, ürəyi tasvasta [2]. (46)
Sözü at, yiyəsi götürər[3]. (1)
Sözü çox desən, qiymətdən düşər. (12)
Sözü deynən alana, qulağında qalana. (34)
Sözü heç bir qiymətdi şey əvəz edə bilməz. (12)
Sözü xiridarı olana deyərlər[4]. (1)
Sözü məqamında de. (1)
Sözün atası-ağıl, anası-dildi. (12)
Sözün ayağı yoxdur, amma gəzir hər yanı. (12)
Sözün başı axırından anlanar. (83)
Sözün cavabı söz olar. (1)
Sözün damarı olar, çəkdikcə uzanar[5]. (55)
Sözün doğrusu dəmiri dələr[6]. (2)
Sözün düzünü de, atı min çap. (1)
Sözün düzünü uşaqdan xəbər al[7]. (1)
Sözün düzünü zarafata salıb deyərlər. (1)
Sözün ilə işin bir olsun. (1)
Sözün qanadı var. (83)
Sözün qədəmi yeyin olar. (1)
Sözün qısası, hörüyün uzunu. (1)
Sözün sərhədi yoxdu. (12)
Sözün yalanı olmaz, yanlışı olar[1]. (2)

---

1. (49), (1)
2. (83)
3. (83)
4. (12)
5. (1)
6. (83), (1), (18)
7. (83), (11)

Sözün yaxşısı qısa olar, işin yaxşısı – uzun. (15)
Sözün yaxşısı baldan dadlıdı[2]. (2)
Sözün zahiri zərif, batini lətif olmalıdı. (1)
Sözünü bilməyən ağız başa toxmaq vurdurar. (1)
Sözünü bilməyəni bayıra atarlar[3]. (1)
Söhbət baltası olma. (75)
Söhbətə-sana gələn sanıdaqdur. (75)
Su axar, çuxurunu tapar[4]. (28)
Su axar, arxa gələr. (1)
Su axar, dəli durub baxar. (1)
Su aqduğı yerə yenə aqar[5]. (75)
Su alçaqdan axar. (49)
Su aşağı axıdır, su yuxarı axtarır. (1)
Su aydınlıqdı, cala öz bağına. (1)
Su bədəni təmizdər, göz yaşı ürəyi[6]. (12)
Su bərk yerdə dayanır. (83)
Su bir yerdə qalanda iylənər[7]. (28)
Su bulanmayınca durulmaz[8]. (75)
Su çəkən də mən oldum, bərə gəzdirən də?! (1)
Su çox olsa, daşı da oyar. (12)
Su çuxurda qalır. (49)
Su dama-dama daşı dələr. (12)
Su daşı quma döndərər, arvad kişini muma. (1)
Su dayanar, düşmən dayanmaz. (1)
Su dirilikdi. (1)
Su gələr lilləndirər, bağçanı gülləndirər. (1)

---

1. (50), (46), (83), (1)
2. (81), (83), (1)
3. (83)
4. (83), (1), (17)
5. (28), (57), (1)
6. (11)
7. (5), (77), (1)
8. (1), (13)

Su gərək quyunun dibindən çıxsın, quyuya su tökməklə quyu sulu olmaz. (1)
Su girdi qaba, oldu içməli[1]. (83)
Su görəndə balıqdı, qaya görəndə keçi. (1)
Su görər, suzuyar, at görər, axsayar. (83)
Su götürməklə dəryadan su əskik olmaz. (1)
Su Haqq didarın görmüşdür.(3)
Su harada – dirilik orada. (1)
Su hər şeyi təmizlər, yalnız üz qarasını təmizləməz[2]. (28)
Su içən quyuya daş salmaq olmaz. (49)
Su içinə ilan dəgməz. (49)
Su ilə odun nə oyunı var[3]? (75)
Su inəyə süd gətirir, ilana zəhər. (12)
Su istəyənindir. (75)
Su ki, başdan aşdı, istər bir qarış olsun, istər min arşın. (1)
Su kiçiyindi, yol böyüyün. (1)
Su kimi əziz ol. (1)
Su murdarı pak eylər. (1)
Su murdarlıq götürməz[4]. (81)
Su olan yerdə abadlıq olar. (1)
Su olan yerdə təyəmmüm lazım deyil[5]. (2)
Su səmtinə axar. (1)
Su sənəyi suda sınar[6]. (2)
Su sənin dalınca gəlməsə, sən suyun dalınca get[7]. (1)
Su sərçeşmədən bulanır[8]. (49)
Su suya qarışanda güclü olar[9]. (1)`

---

1. (1)
2. (1)
3. (1)
4. (83)
5. (55), (83)
6. (28), (83), (5), (12)
7. (83)
8. (1), (12)
9. (12)

Su suya qarışar, yağ yağa. (12)
Su təzə, bardaq təzə, içərlər məzə-məzə. (34)
Su yaranıb axmağa, göz yaranıb baxmağa. (1)
Subay adamın yaxasını bit yeyər, çörəyini –it. (1)
Subay adamın gözü ilə qız alma, gəlin gözü ilə bez. (26)
Subay idim, sultan idim, adaxlandım, xan oldum, evləndim, xəndan oldum[1]. (83)
Subaylıq soltanlıqdır[2]. (5)
Suç ölənindir, öldürənin degildir. (75)
Suda balığı qiymətləndirə bilməzsən. (47)
Suda boğulan ilana sarılır[3]. (2)
Suda boğulan saman çöpündən yapışar. (1)
Sudan ayrılan balığın oddan qorxusu olmaz. (1)
Sudan xeyir olsa, qurbağa əjdahaya dönər. (1)
Sufi sarımsaq yeməz, bulsa sapın da qomazdı[4]. (75)
Sulu sulu yudum, çamırlı, kirli sərdim[5]. (81)
Sumunı böyük istəyən evinə qabmaq gərək. (75)
Surfa duası hər duadan əfzəldi. (14)
Susadım su istədim, suyun da yandırdı məni. (1)
Susamışam su istərəm, arxın qulağını göstərir. Acmışam yemək istərəm, təhnə-tavağını göstərir. (8)
Susuz ağac meyvə verməz. (1)
Susuz aparıb, susuz gətirər. (1)
Susuz it kəhrizə baxar[6]. (44)
Susuz yerdə ördək olmaz, qaz olmaz. (1)
Suya batanun yağışdan nə dərdi. (49)
Suya tüpürməzdər. (12)
Suyı - susuza, ekməgi aca. (49)

---

1. (5)
2. (83)
3. (81), (83), (1)
4. (55), (83), (1)
5. (83), (1)
6. (83), (1)

Suyu ağaşlı yerdən, qızı qardaşlı yerdən. (34)
Suyu çirkləndirənin günahını yumağa su tapılmaz. (39a)
Suyu qabda görüb, günü bacada. (1)
Suyu püfləyə-püfləyə içir. (1)
Suyu ver susuyana, içsin qana-qana[1]. (39a)
Suyun dərinniyini bilmək olar, ancaq insanın ürəyini bilmək olmaz. (12)
Suyun dibində görünməyən daşın sahibi olmur. (36)
Suyun əvvəli bulantı gələr. (1)
Suyun qədrini susuzlar bilər. (12)
Suyun lal axanı, adamın yerə baxanı[2]. (2)
Suyun şırıltısından, arvadın zırıltısından qorxmaq gərək. (1)
Suyun üstə gəmi var, hər bir işin çəmi var. (1)
Suyun üzərində naxış dayanmaz. (36)
Sübaşı ilə irişən yurtdan çıqar. (75)
Süci içmək ğəm gedirər. (75)
Süci üçün ellərə bıçaq çəkməkdən sasılıq yeyüp kafirə hacı başa demək yegdir. (75)
Süd dadın tana bilür. (75)
Süd igidə halaldı. (1)
Süd ilə girən can ilə çıxar[3]. (44)
Süd ilən gələn sümük ilən çıxar[4]. (37)
Süd verən inəyi kəsməzlər. (1)
Süddən ağzı yanan, qatığı üfləyə-üfləyə yeyər[5]. (2)
Südə gəldigi yetməz, sərinci də dalında tutur[6]. (83)
Südlü aş dadlı olar, bir gün sizdə, bir gün bizdə. (1)
Südlü aş dəmdə gərək, həm səndə, həm məndə gərək. (10)
Südlü inək ol, vur badyanı dağıt[7]. (72)

---

1. (1)
2. (5), (83), (1), (13)
3. (83), (1)
4. (49), (1), (15)
5. (83), (1), (6)
6. (5)
7. (83), (1), (73)

Südlü qoyun sürüdən ayrılmaz[1]. (2)
Südnən girən sümüknən də çıxmaz. (5)
Südsüz inək mələyən, hənirsiz arvad söyləyən olar. (12)
Südü süd olsun, atası it olsun[2]. (11)
Südün dadını qısır əmən dana bilər[3]. (2)
Südündə də var, sümüyündə də. (18)
Südünə görə mələ[4]. (12)
Süfrə dolı gərək. (49)
Süfrədə əlini saxla, məclisdə dilini. (1)
Süfrədən qalanı itə atarlar. (1)
Süfrəni yuxarı başdan düzərlər, aşağı başdan yığarlar. (1)
Süfrənin başı-ayağı olmaz. (1)
Süfrənin böyüyü oluncax, donuzun kicciyi ol. (9)
Süftə səndən, bərəkət Allahdan. (83)
Sükut edən salamat olar. (1)
Sükut ixtiyardadı[5]. (1)
Sükutla görülən iş qışqırıqla başa gəlməz. (1)
Süleymana qalmayan dünya heç kəsə qalmaz[6]. (1)
Sümbüləm, suyam, durmuşam, buyam. (18)
Sümük sınduran əti doyunca yeyər. (49)
Sümük Süleyman olsa, süttə bahadır gərək. (83)
Sümüksüz ət olmaz. (14)
Sümüyünü it sümüyünə qatma. (1)
Sünü çuvala sığmaz. (75)
Sür get deməmişlər, gör get demişlər. (1)
Sürmə ki çox olsa, həm qaşa, həm gözə[7]. (49)
Sürməni Allah aparıb paxlanın gözünə çəkib[8]. (1)

---

1. (81), (83), (1), (14)
2. (18)
3. (81), (83), (1)
4. (17)
5. (83)
6. (83)
7. (18)
8. (83)

Sürməni gözə çəkərlər. (1)
Sürü axsaqsız olmaz. (1)
Sürü çobansız olmaz[1]. (44)
Sürü qayıdanda axsax keçi qabağa düşər. (18)
Sürü qotursuz olmaz. (1)
Sürüdən ayrılan qoyunu qurd yeyər[2]. (60)
Sürünü hürküt, sonra say. (1)
Sürünü ürküt, axsağı tut. (36)
Sürüyə ki düşdün, qapmasan da, gərək hürəsən. (1)
Sürüyə qurd düşəndə, vay bir qoyunlunun halına! (1)
Sürüyə qurd gələndə, köpəyi yuxu tutar. (1)
Süttü aş o qədər ağzımı yandırıb, doğramacı da piliyə-piliyə yeyirəm. (83)
Sinək nə ola, yağı nə ola. (75)

## Ş

Şad olan qurdın ağzı açılmaz. (49)
Şaddığa gejik, ehtiyaca yox. (12)
Şadıluqda yeləkmə, qəmdə məlul olma. (75)
Şaftalı gəlməmiş tabağı gəldi. (1)
Şah Abbasa yaradı, Keçəl Abbasa yaramadı?! (1)
Şah bilər, şahivən bilər. (1)
Şah da bilir Şirvan çuxurdadı. (1)
Şah ilə şilə pilav yemirəm bığlarım yağa batar[3]. (81)
Şah qapısı şaxtalı olar. (1)
Şah vəzir ağlı ilə oturub-durar. (1)
Şahbalutdan yağ düşməz[4]. (83)
Şahbudağın bağı var, bağının baratı var. (1)
Şahbudağın bağı var, Baratın dəgirmanı[5]. (83)

1. (83), (76), (1)
2. (1), (12), (16), (14)
3. (83), (1)
4. (14), (1)
5. (5)

Şahı nədi, Şahbeçəsi nə ola? (18)
Şahın da dəvələri ayaqyalın gəzir. (1)
Şahın da qaraçıya işi düşər[1]. (83)
Şahın yürəgi Allahın əlindədi. (83)
Şahidin qazancı söyüşdü. (12)
Şahidini yalançı İraqda istər. (49)
Şahin ilə dəvə ovlanmaz[2]. (60)
Şahin kiçikdir, ət yeyir, dəvə böyükdür, ot yeyir. (39a)
Şahsənəm oğlan doğub. (83)
Şah-şah dediyim öz canım üçündür[3]. (49)
Şair sözsüz olmaz. (1)
Şalbanın bir ucu sənin çiynindədi. (1)
Şalı geydi şallandı, alı geydi sallandı. (18)
Şalvarı təzə, köynəyi təzə, yırtılsın, görək nə diyər bizə. (18)
Şam bahadı – korun nə vecinə. (34)
Şam başından yanar. (1)
Şam dibinə işıq salmaz. (1)
Şam özü gər yanmasa pərvanəni yandırmaz. (83)
Şam yanar, şölə çəkər. (1)
Şam yanmasa, başına pərvanə dolanmaz. (1)
Şamdan soruşdular: -İplik yanır, sən niyə əriyirsən? Şam dedi: -Dad rəfiq əlindən! Rəfiqim yanır, mən də əriyirəm! (1)
Şamın həyatı onun yanmağındadı. (12)
Şapalaq ilə üz qızardır[4]. (2)
Şaşıya yol sorsan, gözi toğruluğuna getmə, yara düşərsən. (75)
Şayiə hər yanı gəzər. (1)
Şayir oldun, dildə, sözdə, gözdə xəsis ol. (18)
Şaylığına malun yedürməyən, korluğuna yemək gərək. (49)

---

1. (5), (1)
2. (1)
3. (1)
4. (49), (54), (83), (1)

Şəbpərə gecə gəzər, gündüz gəzməz, elə bilər –özü bilər, özgə bilməz. (1)
Şəfa piyalənün dibində olur[1]. (49)
Şəfa verən ağudan da verə bilər. (1)
Şəfqət böyüklərdəndür. (49)
Şəhər bürclü, qalalı gərək. (1)
Şəhər hər kimsənin öz evidür. (49)
Şəhərin böyüyü, kəndin kiçiyi. (13)
Şəkər dadın yeyən bilür. (75)
Şəkər əkirəm, duz çıxır, hamama gedirəm, buz çıxır. (9)
Şəkərsiz qamış, mənasız adama bənzər. (49)
Şəki küləyi açar, Şirvan küləyi batırar. (18)
Şələ lələni basdı. (12)
Şələni elə bağla, götürəndə gücün çatsın[2]. (81)
Şələşur adam qarışıx yuxular görər. (18)
Şəmin yüzi, ardı olmaz. (49)
Şən qonax heş kəsə yük olmaz. (12)
Şər batini qılıcdan kəsgün olur. (49)
Şər diməsən xeyir olmaz[3]. (83)
Şər həmişə xeyrin dalınca gəzər. (1)
Şər iş qala-qala xeyrə dönər. (49)
Şər sevən – yalan, şər gətirən – gerçək. (1)
Şər yaşamır, xeyir ölmür. (12)
Şər zahirə hökm eylər[4]. (1)
Şərab ağlı da alır, hörməti də. (12)
Şərabın kədəri nəşəsindən artıqdı. (1)
Şərdən ayağ dışra qoyan özüni damuda görsün. (49)
Şərə qarışdı, ağlı çaşdı. (18)
Şərəf, şöhrət puldan şirindi. (12)
Şərəfsiz yaşamaq ölümdən betərdir. (12)

---

1. (1)
2. (83), (1)
3. (5), (1)
4. (83)

Şəri-şeytandan, məkri-zənandan, quru böhtandan, bəylər qəzəbindən özünü qoru. (1)

Şəriət kəsdügi barmaq ağrımaz[1]. (75)

Şəriət zahirinə hökm edər. (75)

Şəriətdə şırım olmaz. (49)

Şəriətə ud yoq, bizdə hiç yoq. (75)

Şəriəti mürüvvət yenmişdir. (75)

Şəriəti xor görən xor olur. (75)

Şərikli əti it yeməz. (1)

Şərlü dostluğı çam kölgəsi kibidir. (75)

Şərsadan yalan, şərr gətürici gərçəkdən yegdür. (49)

Şərti şumda kəs, xırmanda şana kürək sınmasın[2]. (2)

Şey qurtdayar duz səpilər, duz qurtdasa nə səpilər. (83)

Şeytan əzabda gərək[3]. (1)

Şeytan gah məléhdi, gah kələk. (18)

Şeytan gitdi, meydan bizə qaldı. (83)

Şeytan karxanası boş qalmaz[4]. (1)

Şeytan olmasa, qurd qoyunla gəzər. (1)

Şeytan şeytannığında qalır. (12)

Şeytana papış tikər[5]. (1)

Şeytanan min donu var. (18)

Şeytanı tutmağa noxtasız gedir. (1)

Şeytanın ayağını sındırır[6]. (1)

Şeytanın dostluğu dar günlərə qədərdi. (1)

Şeytanın evi xəbis adamların ürəyindədi. (18)

Şeytanla ortaq olan buğda əkər, saman biçər. (1)

Şeyx uçmaz, müridlər uçurur. (49)

Şəyirdimin şəyirdi, ayran işdi gəyirdi. (18)

---

1. (49), (2), (83), (1)
2. (1)
3. (83)
4. (83)
5. (12)
6. (83)

Şıqqıldatmağa qozum var, cırıldatmağa bezim. (6)
Şikayət acizlik əlamətidi. (1)
Şilə ilə yıxılan ev, pilov bişir, qoy dağılsın[1]. (2)
Şillə yeməmiş yanaq qızarmaz[2]. (1)
Şimdiki zamanda asıl anılmaz, altun-incü anılur. (75)
Şimdiki zamanda danişməndin dedügin tut, amma işlədügin işləmə. (75)
Şimdiki zamanda şərrə uğramayım, deyirsən, xeyirdən qaç. (75)
Şir gərək pəncə vura şir ilə. (1)
Şir öz dişini heç kəsə borc verməz. (1)
Şir qəfəsdə də şirdi. (12)
Şir qocalanda özünə gülməyi gələr. (1)
Şiri caynağından tanıyallar. (12)
Şiri şiranə tutarlar. (1)
Şirin de, şirin eşit. (49)
Şirin dil adama dost qazandırar. (1)
Şirin dil dəmir qapını da açar. (12)
Şirin dil ilanı yuvasından çıxardar[3]. (1)
Şirin ömri acılıq ilən keçürmək olmaz. (49)
Şirin söz baldan şirindi. (1)
Şirin-şirin öpmürsən, acı-acı niyə dişdiyirsən. (18)
Şirin-şirin yeməyin acı qusmağı var[4]. (83)
Şirin yalannan acı həqiqət yaxşıdı. (12)
Şirinliyi şirinlik, şaqqıldaması daha artıq. (83)
Şirvanda qurt az idi, biri də gəmidən çıxdı. (49)
Şol kişi neyləsün ki, yuqarı asarsa is olur, aşağı qoursa, pas olur, urup öldürürsə, yas? (75)
Şor yağdan baha olub. (14)
Şor yer sünbül gətirməz[1]. (2)

---

1. (83), (1)
2. (15)
3. (83), (12)
4. (18)

Şor yeyən adam bulağa tez-tez gedər. (12)
Şorbanın imanı ətdür. (75)
Şorbanın sıyıqlığı düyünün azlığındandı. (83)
Şöhrətə uyan çörəksiz qalar, çörəyə xəyanət edən köynəksiz. (80)
Şum xəbəri yalquya buraxmaq gərək. (49)
Şunun ki gözi aya ögrənmişdir, yıldıza nə tanı vardır? (75)
Şux tərlan yerinə cürə bağlanıb. (83)
Şükür nemət arturur. (49)
Şüurlu uşaq hər işdə məlum olar[2]. (2)
Şüurru uşax qırx günnükdən manşırdı. (9)

**T**

Tabanı giciyən köpək yolçıya uyar. (75)
Tabutun özgə çignində görməyən ölümünə inanmaz. (49)
Tağ füzulluq etdügiçün başından tufan əksik degil. (75)
Tağ ilə erişən tavardan çıqar. (75)
Tağ nə qədər yuca isə, üzərindən yol aşar. (75)
Tağarın qırağını süpürəllər, çanağın yox. (18)
Tale insanla oynayır. (1)
Taleyi yar olanın yar sarar yarasını. (1)
Talib olan tapar. (49)
Tama olmasa, olmazdı tamu. (75)
Tamah ağacınun barı xarlıqdur. (49)
Tamah yüzdü, doxsan doqquzu mollada, biri camaatda, ona da molla deyər: -Şərikəm! (1)
Tamahgirrix insanın düşmənidi. (18)
Tamahkar dünyada olduqca önməz. (75)
Tamahkar öz nəfsinin quludu. (1)
Tamahkarı yalançı aldadar[3]. (83)
Tamahkarın gözü kor olar[1]. (62)

---

1. (81), (83), (1)
2. (83)
3. (55), (5), (1), (12)

Tamahkarın gözünü torpaq doldurar[2]. (1)
Tamahkarın imanı olmaz. (14)
Tamahkarlıq başa bəladı. (1)
Tamarzıdan al, dadamala ver[3]. (2)
Tanaludan yoğurd saqınma. (75)
Tanayı bökələk tutsa, öküzi dögmək gərək. (75)
Tanıdığın şeytan tanımadığın adamdan yaxşıdı" (3)
Tanımadığın adamı evinə buraxma[4]. (1)
Tanımadığın adamnan zarafat eləmə. (12)
Tanınmaq afətdür. (49)
Tanış, tanış, amma bildügin işlə. (75)
Tanışacağun yoğ isə börkün yanına qo. (75)
Tanışıqlu tağ aşar. (75)
Tanişməndlər ğulamı bara olur. (75)
Tanişməndsiz el bıçaqsız çoban kibidir. (75)
Tanrı ac edəni bəndə doyura bilməz. (49)
Tanrı bilir, kim qazanıb kim yeyə. (55)
Tanrı bilir, günahkar kimdi. (1)
Tanrı bilir, eşşəyə buynuz verməz[5]. (54)
Tanrı bir yandan bağlasa, bir yandan açar[6]. (54)
Tanrı bir, iş iki. (75)
Tanrı böyük, altı gen. (1)
Tanrı dərgahında adamun adamı gərək. (49)
Tanrı qağrıyanı peyğəmbər əsa ilən dökər. (50)
Tanrı qoruyanı qurd yeməz. (1)
Tanrı nişan urduğı quldan qorqmaq gərək. (75)
Tanrı təqdirin bəndə poza bilməz. (49)
Tanrı verən dövləti bəndə ala bilməz[7]. (50)

---

1. (83), (1)
2. (83), (15)
3. (83), (1), (9), (13), (14)
4. (14)
5. (1)
6. (49), (1)
7. (49), (1)

Tanrı vuran ağacın səsi çıxmaz. (1)
Tanrı yeddi yaşara verdükini, yetmiş yaşara verməyüpdür. (50)
Tanrıdan gəlməsə, bəndədən nə gələr? (1)
Tanrının birliginə yoxdur güman.(3)
Tanrının günü bir çuval darıdan çoqdu. (83)
Tanrının sabahı qurtarmaz. (1)
Tanrının təqdirini bəndə poza bilməz. (1)
Tanrısın tanımayandan nə umursan?! (1)
Tanrıyı göz ilə görmüş kimsə yoq, əqllə bulurlar. (75)
Tapan tapanın olsa naxırçı bir bəy olar[1]. (2)
Tapanda ye, tapmayanda ac qal. (1)
Tapdanmış yerdə ot bitməz. (12)
Tapılan tapanın olsa, qoyun çobanın olar. (1)
Taqqıltısını eşidirəm, üzünü görmürəm. (14)
Tar çalan simi gözlər. (1)
Taraqsız saqal olmaz. (75)
Tarı mənəm, yağmaram[2]. (83)
Tarlada izi olmayanın süfrədə üzü olmaz. (1)
Tarlasında darısı yox, damında qarı. (1)
Tas düşdi, yastulandı. (49)
Tas ki, girdi başa, bil ki, hamam vaxtıdı. (1)
Tas sınsa yegdür, səsi çıxınca. (49)
Tasa kişiyə xeyr etməz. (75)
Taş qopduq yerdə ağır olur. (75)
Tat ata mindi, şakərisin unutdı. (49)
Tat ata mindi, Tanrısını tanımadı[3]. (83)
Tat ildə bir pud qurd yeyər, tərəkəmə ildə bir pud tük. (16)
Tatın dovğası, tərəkəmənin lovğası. (16)
Tatın gəlişi, kürdün görüşü[4]. (50)

1. (81), (83), (5), (1), (16)
2. (55), (5), (1), (12)
3. (5)
4. (83), (14), (17)

Tatın on iki uşağı olar, tərəkəmənin on iki dəvəsi. (16)
Tatın öküzü kök olar, özü arıq. (16)
Tatlu suyi kim içməz. (75)
Tatlu yeyəyin dersən, dəgirməndə yayı gör. (75)
Tatluyı tatlu söylə. (75)
Tava dəlik, tas dəlik, boş da qoydu üstəlik. (1)
Tava dəlik, yağ tutmaz, taxta çürük, mıx tutmaz. (1)
Tava dəlik, tas dəlik bu da gəldi üstəlik. (55)
Tavar ilə issi arasına girə gör, sonı qolay olur. (75)
Tavar qalba əksik degil. (75)
Tavşan tutan it dişin göstərməz. (75)
Tavşanın qaçışına baqdum da, ətindən igrəndim. (75)
Tavuğun döşü, balığın başı. (83)
Tavus bəzənər, qaqqıldar, əyilib ayaqlarına baxanda sustalar, oturar. (1)
Taxça tapanda boğça tapmıram, boğça tapanda taxça tapmıram. (79)
Taxçadakı qarnımda, boxçadakı əynimdə[1]. (1)
Taxt mənimdi, özüm bilərəm, altında yataram, üstündə yataram, özüm bilərəm. (1)
Taxt yaratmaq olar, bəxt yaratmaq olmaz[2]. (1)
Taxta nazikdi, mismar götürməz[3]. (2)
Taxtanı rəndə hamarlar, bəndəni bəndə. (1)
Taxtına nə baxırsan, baxtına bax. (1)
Tavul üni iraqdan xoşdur. (75)
Tayamasun bilməzsən. (83)
Tayını bil, tuşunu tanı[4]. (55)
Taylı tayın tapmasa, günü ah-vay ilə keçər[5]. (44)
Taz mazlayan taza uğrar. (75)

---

1. (83)
2. (83)
3. (83)
4. (1)
5. (83), (1)

Tazını xaltası ilə tanıyarlar. (1)
Tazının heyzliyidi, dovşan tayada balalayır[1]. (2)
Tazının iyəsi var isə, dovşanun da Tanrısı var[2]. (49)
Tazının topal olduğu dovşanın qulağına yetişib. (1)
Tazısız ova gedən evə dovşansız qayıdar. (1)
Tazıya “dut” deyir, “dovşana qaç[3]!” (83)
Taziylə tavışanın nə oyunı vardır. (75)
Tehrannan Yevlaxda dolananmıyan heş yerdə dolanammaz. (18)
Tez duranla tez evlənən uduzmaz. (33)
Tez aşina tez kəsilən olur. (49)
Tez bitər, tez yetər. (1)
Tez çörək yeyənnən, tez evlənən peşman olmaz[4]. (46)
Tez dövlət başa getməz. (49)
Tez ələ gələn tez də ayağa düşər. (1)
Tez parıldayan tez də sönər. (1)
Tez qaçan tez yorular. (1)
Tez tündləşən, tez də yumşalar. (1)
Tez yeriyən tez yıxılar. (50)
Tez yuxudan duran, tez ocax qalıyan, tez öylənən peşman olmaz. (18)
Tezdən yandıran ocağın külü çox olar. (36)
Təbibin səhəri mənfəətli olur. (58)
Tək ağacdan bağ olmaz. (1)
Tək ağacı külək tez yıxar. (12)
Tək Allahın adıdı. (12)
Tək ayranın olsun, sinək Bağdaddan gəlür qonar. (75)
Tək daşdan divar olmaz. (1)
Tək duran təknəsilə qalar. (1)
Tək əl ilə düyün düyünlənməz[1]. (1)

---

1. (83), (1)
2. (83), (1)
3. (5)
4. (83), (5), (1)

Tək gəldi, səbr eylə, cüt gəldi, xeyirdi[2]. (1)
Tək gəzən dananı qurd yeyər. (1)
Tək xoruzdu, əlli yerdə hini var. (1)
Tək qoyundan sürü olmaz[3]. (1)
Tək odun ojaxda da yammaz, qoşa odun çöldə də sömməz[4]. (18)
Təkə sürüyə böyük olmazdı, qoyunlar qoyun olsaydı. (1)
Təkəbbür tarcuq olmaz. (49)
Təkəbbürlük eyləyəni Tanrı sevməz. (3)
Təkədən çovan olmaz. (12)
Təkədən qoç olmaz, paxıldan ağa! [5] (39)
Təkədən pendir tutmaq olmaz. (1)
Təkərin başı-ayağı yoxdu. (1)
Təkəyə dedilər: - Buynuzların niyə haçadı? Dedi: -Arasında iş var! (1)
Təki ayranım olsun, qab tapılmasın. (16)
Təki bağın olsun, bar özü gələjək. (12)
Təki çalan olsun, oynayan tapılar. (1)
Təkkədən murad təknədir. (75)
Təkləməsən - döyməzsən. (1)
Təklik Allaha yaraşar. (1)
Təknədən əppək qurtardı, vay qaranın halına. (14)
Təkrar biliyin anasıdı. (1)
Tələb yüzi savuq olur. (49)
Tələsən bir yerinə iki verər. (1)
Tələsən gecəyə düşər. (1)
Tələsən köpək süpürülmüş yerə batırar[6]. (2)
Tələsən təndirə düşər. (83)

---

1. (83)
2. (83)
3. (83)
4. (12)
5. (1)
6. (55), (1)

Tələsən yolda qalar. (1)
Tələsənin kündəsi küt gedər. (1)
Tələsiyən peşimanluq çəkər. (49)
Tələsip dünyaya gələn vaxtsız dünyadan gedər. (18)
Tələsmək şeytandandur[1]. (49)
Təmiz hava girməyən evə həkim girər. (1)
Tənbəl adam bədbəxt olar. (61)
Tənbəl arvad suyu dağıdar, deyər: -Aydınlıqdı! [2] (1)
Tənbəl badam istər, sındırmağının zəhmətindən qaçar. (1)
Tənbəl bir işi iki dəfə görər. (12)
Tənbəl çörəksiz qalar. (12)
Tənbəl dağda qar gördü, yorğanına büründü. (1)
Tənbəl deyər: - Ver yeyim, ört yatım, gözlə canım çıxmasın! (1)
Tənbəl diləncinin qardaşıdı. (1)
Tənbəl həmişə «xəstəyəm» deyər. (1)
Tənbəl kimsəni Tanrı sevməz. (51)
Tənbəl öküzün "hoha" canınnandı. (35a)
Tənbəl yatağan olar. (1)
Tənbəldən cəmiyyətə xeyir olmaz. (1)
Tənbələ həftənin hər günü cümədi. (1)
Tənbələ iş buyur, sənə ağıl ögrətsin[3]. (2)
Tənbəlin işi bitməz. (12)
Tənbəllik azar törədər, işləmək canı safa çıxardar[4]. (28)
Tənbəllik sağalmaz xəstəlikdi. (12)
Təndir çörəyi şirin olar. (12)
Təndür qızğın ikən çörəgi yapmaq gərək. (49)
Təni təndən ayırmaq olur, könli könüldən ayırmaq olmaz. (49)
Təpə dağı bəyəmməz. (18)

---

1. (1)
2. (15)
3. (81), (83), (1), (15)
4. (51), (83), (1)

Təpədə oturuf dənizdən balıx istiyir. (9)
Təpələrcən ərim olsa, dağlarcan hökm elərəm[1]. (46)
Təpəri var, hünəri yox. (1)
Təpəsini gün yandırdı, ayağını çarıq dağıtdı. (1)
Təpik döyüşündə oynar, təpik altında ölər. (1)
Təqdir ilə yazılan tədbir ilə pozulmaz. (1)
Təqdir təğəyyür tapmaz. (49)
Təqdirə tədbir olmaz[2]. (49)
Təqsir öldürəndə yox, öləndə olar[3]. (1)
Təqsiri bağışlamaq qüdrətin bəzəyidi[4]. (1)
Təqsirim olsa, boynum tükdən nazikdi. (1)
Tərəkəmə alaşanı külaşa qoşar. (16)
Tərəkəmə arvadı cırığı elə düyünləyər – yamaqdan artıq, qabı elə yalar – yumaqdan artıq. (16)
Tərəkəmə arvadı yas yerində yetim quzularım deyib ağlar. (16)
Tərəkəmə bir yerə gedəndə atı itə tapşırar. (16)
Tərəkəmə çomağı başa bərk vurar, daşa yavaş. (16)
Tərəkəmə haram yeməz. (16)
Tərəkəmə köpəyi qonağa quyruq bulamaz. (16)
Tərəkəmə nökərə bir verər, itə iki. (16)
Tərəkəmə öz obasını Bağdaddan böyük bilər. (16)
Tərəkəmə özünü Koroğlu bilər, eşşəyini Qırat. (16)
Tərəkəmə pendirində qurdu görməz. (16)
Tərəkəmə tazını gördü dedi: “Yiyəsi ac saxlayıb“. (16)
Tərəkəmə toy bilməz, loy bilməz; daş bilər, baş bilər. (16)
Tərəkəmə yaxşılıq bilən olsa, gərək heyvan kəsməyə. (16)
Tərəkəmə yaylaqda adam tanımaz. (16)
Tərəkəmə yeddi oğula dedi: “Yoxdu“, bir qıza dedi: “Çox-du“. (16)

---

1. (83)
2. (83)
3. (83), (14)
4. (15)

Tərəkəmədə oğru da çoxdur, doğru da. (16)
Tərəkəmədən qız almaq asan, quzu almaq çətindir. (16)
Tərəkəmənin atasını döy, atını döymə. (16)
Tərəkəmənin atı öldü, dedi: "Atam ölseydi, belə ağrımazdım". (16)
Tərəkəmənin çobanı – qamışlığın qabanı. (16)
Tərəkəmənin dostu it, düşmanı qurd olar. (16)
Tərəkəmənin gəlişi, tatın görüşü. (83)
Tərəkəmənin gərək pişiyi də doğar ola. (16)
Tərəkəmənin özünü öyməyi də var, söyməyi də. (16)
Tərəkəmənin qoyun-quzuycan oğlu-qızı olmasa, razı olmaz. (16)
Tərəkəmənin sözü - yulğunun gözü. (16)
Tərəzi çəkənin yüzdə biri cənnətə gedər. (14)
Tərəzidə qalan boyun əti döyüləm. (18)
Tərəzünün başı ağır tərəfə meyl eylər. (49)
Tərifli söz kifli olar. (12)
Tərlan yerində çəçələ-çərkəz əyləşib. (1)
Tərlan yerini sar tutmaz[1]. (2)
Tərziyə köç demişlər, sındusın belinə soqmuş, arşının əlinə almış. (75)
Təsəlli insan ömrünün çırağıdı. (12)
Təvvəkkül rahatluqdur. (49)
Təvazökar olmadan müdrik olmaq olmaz. (40a)
Təzə ay çıxanda köhnə ayı doğrayıb ulduz qayırarlar. (1)
Təzə bardağın suyu sərin olar. (14)
Təzə bardaq, təzə su. (1)
Təzə bəydən köhnə bəyə bir xələt. (1)
Təzə çıxan daylaqlar, çuluna görə oynaqlar. (1)
Təzə evə köçəndə, köhnə evin ocağından kül götürərlər. (1)
Təzə gəldi bazardan, köhnə düşdü nəzərdən. (1)
Təzə kuzə suyu sərin saxlar[2]. (2)

1. (29), (30), (5), (83), (1)
2. (1)

Təzə süpürgə gələndə, köhnə süpürgəni dama atarlar. (1)
Təzəcə çıxıb təndirdən, minnəti yox pendirdən[1]. (83)
Təzək yığan əlləri ipək gördü dolaşdı[2]. (54)
Tısbağa özü yeriyə bilməz, damını dalına götürər[3]. (5)
Tısbağa qınından çıxdı da, qınını bəgənmədi[4]. (83)
Tısbağanı ya öldürün, ya arxası üstə çevirin[5]. (28)
Tısbağaya xalası, hər kəsə öz balası[6]. (28)
Ticarət dostluq körpüsüdü. (1)
Ticarətin əsası – insaf, sonrası da insafdı. (1)
Tikan əkən gül dərməz[7]. (58)
Tikan olub ayağa batınca gül ol yaxaya sancıl[8]. (73)
Tikana qarşu neçün axsarsan. (49)
Tikə ağızdan ətəgə düşər. (49)
Tikə ilə dost olan, illər ilə küsülü qalar[9]. (5)
Tikə qarın doyurmaz, məhəbbət artırır[10]. (49)
Tikə tikəyə borcdu. (1)
Tikəni qaytarmazlar. (1)
Tikəpərəstdən daima adama azar gələr. (22)
Tikəsin yalquz yeyən, tayın dişi ilən dutar. (49)
Tikili don gen olar. (1)
Tikmək ərlikdir. (49)
Tikmək güc aparır, yıxmaq asandı. (1)
Tilkinin hər bildügi axır dərilür, başına gəlür. (75)
Tirmənün nə köhnə, nə təzəsi. (49)
Toğana ət əksik olmaz. (75)

---

1. (1)
2. (1)
3. (39a)
4. (5)
5. (5), (83), (1)
6. (1)
7. (49), (1)
8. (76), (37), (1)
9. (49), (83), (1)
10. (83), (1)

Toğmadıq oğlana ad qoma. (75)
Toğmaqdan qalmayan ölməkdən qalmaz. (75)
Toğrayana köymək yoq, yeyənə rəhmət yoq. (75)
Toğrılıq iki cahana yarar. (75)
Toğru derlər: "İttifaq etsə kişi aləmi dutar". (75)
Toğru gələn tolaşmaz. (75)
Toğru olan hər kişiyi toğru sanar. (75)
Toğru söyləyəni toquz para şərdən qovmuşlar. (75)
Toğru tutulmayınca əgri bulunmaz. (75)
Toğrudan gedən gec gəlür, tolamçadan tez gəlür. (75)
Toğrunun andı təsbeh yerinə keçər. (75)
Toğruya Allah yardımçı[1]. (75)
Tox elə bilir ki, heç acmaz, ac elə bilər ki, heç doymaz[2]. (1)
Tox gedər, ac qayıdar. (1)
Tox ikən yeyən qəbrin dişlə qazar[3]. (28)
Tox it ac bəkdən yaxşıdı[4]. (83)
Tox nə bilir, ac nə çəkir?! (1)
Tox toxluxdan olar, üz-göz yoxluxdan olar. (13)
Tox toyuğu ilə, ac soyuğu ilə. (1)
Toxum at, toxum götür. (1)
Toxum götür, yer axtar[5]. (44)
Toxumu gətir, xirməni axtar. (83)
Toxun acdan nə xəbəri[6]. (2)
Toxun imanı olmaz, acın gümanı. (13)
Tonuz gördügin çalar. (75)
Tonuz qurbana yaramaz. (75)
Tonuz tobalaq yeməgə tövbə etməz. (75)
Tonuza çələbi demə, çalıyı tolaş. (75)

---

1. (56)
2. (13), (14)
3. (83), (1)
4. (5), (1)
5. (83)
6. (49), (31), (76), (5), (83), (1), (13), (12)

Tonuzdan bir qıl çəkmək assıdır[1]. (75)
Tonuzdan oq tartınma. (75)
Top yoqdan torlaq yegdir. (75)
Topal ayağa daş dəyər. (55)
Topal eşşəklə karvana qoşulma. (1)
Topal ilə gəzən axsamaq öyrənər. (1)
Toq ağırlamaq güc olur. (75)
Toq su içicək yenə aç olur. (75)
Toqla yemək haramdır. (75)
Toqun öninə aş qosan, bin dürlü bəhanə bular. (75)
Toquz bacanaq bir xorus əyərləyüməmiş. (75)
Toquz qaftan bir kürk, toquz şərlü bir türk. (75)
Toquz qurda key eşək. (75)
Tora düşən səbr eyləməsə özünü fəlakətə salar. (1)
Tordan ürkən quş dən ilən yuvaşmaz. (49)
Torpağa dən atmasan, götürməzsən. (12)
Torpağa hamı borcludu. (12)
Toprağa xor baxsan, o sənə kor baxar. (39a)
Torpağa pis deməzlər. (12)
Torpağı bir yerdən götürülüb. (1)
Torpağı daşdı yerdən, qızı qardaşdı yerdən. (14)
Torpağı ələ, toxumu çilə. (18)
Torpağı qorumursansa, əkmə. (12)
Torpağın qarası üz ağardar. (1)
Torpağın sahibi insandı. (12)
Torpağın sirrini əli torpaqda olandan sor. (1)
Torpax öz varını çölə verər. (9)
Torpaq çiçək də bitirər, zəhər də. (12)
Torpaq deyər: -Öldür məni, dirildim səni! (1)
Torpaq deyər: -Sən mənə tər ver, mən sənə zər verim! (1)
Torpaq ovuclayan qızıl ovuclayar. (1)
Torpaq qızıl quşdu, əldən buraxdın, uçar gedər. (1)
Torpaqdan pay olmaz. (12)

---

1. (1)

Torpaqnan oynayan ac qalmaz. (1)
Tosbağa qınından çıxdı, daha qınını bəyənmədi. (2)
Tovuq qaz yerişi yerisə, çiçingi çatdar[1]. (83)
Tovus quşunu tükünə görə kəsərlər. (1)
Toy bəzəyi gəlindi. (1)
Toy borcu ilə ev almaq olmaz. (1)
Toy da olsa toyuğun vayıdı, vay da olsa toyuğun vayıdı[2]. (1)
Toy gedər, tövlə qalar. (14)
Toy gününü qoyub vay gününü oynayır[3]. (1)
Toy mənim gərək, xeyrat babamın[4]. (77)
Toya getməsən eyib etməz, yasa getmək vacibdi. (1)
Toyanı dört kişi götürər. (75)
Toydan sonra hənanı itə yaxarlar[5]. (77)
Toydan toy törər. (83)
Toysuz ev tapılar, vaysız ev tapılmaz. (1)
Toyuğu bir xalvar buğdanın içinə salsan, yenə eşələnməyindən qalmaz. (1)
Toyuğun başı kəsiləndə də gözü eşənəkdə olar[6]. (55)
Toyuğun cəriməsi bir yumurtadı[7]. (1)
Toyuğun uçuşu zibilliyə qədər olar. (14)
Toyux hininə dadanan tülkünün dərisi boğazınnan çıxar. (18)
Toyux yumurtduyanda ayıbsız, xoruz yumurtduyanda dəvədə buynuz. (18)
Toyuq anasından süd görməyib. (83)
Toyuq banlamasının düşər-düşməzi var. (1)
Toyuq bir su içir, bir də Allaha baxır[8]. (44)

---

1. (44), (2), (1)
2. (83)
3. (83)
4. (83)
5. (1)
6. (1)
7. (83), (18)
8. (2), (28), (29), (83), (1), (14), (13), (15)

Toyuq bir yumurtlasa xəbəri yüz evə çatar, camış doğsa – səsi çıxmaz[1]. (1)
Toyuq eşələnib, özünə bıçaq qazanar. (14)
Toyuq ki, yumurta üstə oturdu, ona bıçaq yoxdu. (1)
Toyuq yumurtasına görə qaqqıldar. (1)
Toyun yaraşığı oynamaq, təziyəninki ağlamaqdı[2]. (44)
Toz ayrı, duman ayrı. (1)
Tök ortaya xəngəli, artsın onun əngəli. (14)
Tökmə sudan bulağ olmaz, qoyma ağıldan ağıl. (9)
Tökülən çanaq daha dolmaz[3]. (2)
Törüyən dana quyruğunnan bəllidi. (18)
Tövbə – toxluqdan, qovğa aclıqdan. (1)
Tövbə – toxluqdan, üz-göz yoxluqdan. (14)
Tövbəsi töyləyəcəndi. (1)
Tövləyə buraxmırlar ki, quşqun oğrayar. (1)
Tula itdən murdardı. (1)
Tulanın quyruğunu kəsməklə köpək olmaz[4]. (1)
Tulanun əbləhi oldur ki, dutduğun qoya, qaçana yügürə. (50)
Tullana-tullana ehmağın, opbana-opbana bişmağı olar. (10)
Turna gördügi baqla bitməz. (75)
Turp əkdim, şəlqəm çıxdı. (1)
Turpun sıqlıqından seyrəkligi yaqşıdı[5]. (83)
Turş alma ağız sulandırar. (55)
Turşu küpündən bal sıza bilməz. (57)
Tut ağacı əkən ipək dərər. (1)
Tutdu qatıq, tutmadı ayran. (1)
Tutmusan ucundan, gedirsən ucuzluğuna. (1)
Tutulmayan oğrı - bəgdən toğrı. (75)
Tutulmuş işdən gül iyi gələr[1]. (83)

---

1. (83)
2. (83), (1)
3. (49), (28)
4. (83)
5. (14)

Tutuquşu danışar, amma insan olmaz. (1)
Tuz-ətmək bilməzdən it yegdir. (75)
Tuzsız aşa şəkər də qosan, tadı gəlməz. (75)
Tüfəngin dolusundan bir adam qorxar, boşundan iki[2]. (2)
Tük var atallar, tük var satallar. (18)
Tüklü motal pendiri yaxşı saxlar[3]. (5)
Tükü yönünə sığa. (18)
Tülki tülkiyə buyurdi, tülki də quyruğuna buyurdı. (49)
Tülkini dərisi içün qovarlar. (49)
Tülkü çox bildiyindən tələyə düşər[4]. (2)
Tülkü dəliyə girə bilmir, quyruğuna süpürgə bağlayır[5]. (2)
Tülkü hara, quyruğu da ora. (83)
Tülkü iki dəfə tələyə düşməz. (39a)
Tülkü suvaxlı bağa girməz[6]. (2)
Tülkü tülkiligini sabit elincə dərisi boğazına yığılur. (49)
Tülkü tülküyə buyurdu, tülkü də quyruğuna. (83)
Tülkü var ki, baş kəsər, qurdun adı bədnamdı[7]. (2)
Tülkü vaxtlı bağa girməz. (2)
Tülkü yeyəni aslan qusdura bilməz[8]. (2)
Tülkü yuxusunda da toyuq görər. (12)
Tülkünü hiyləsi dolandırar. (12)
Tülkünü quyruğuna görə tanıyallar. (12)
Tülkünün bəxti gətirsə, bəxti yatmış aslana qələbə çalar. (39)
Tülkünün dərisi özünə düşməndi. (12)
Tülkünün meydanda nə işi var ki, dərisinə qiymət qoysunlar. (83)
Tülkünün şirəngi iki ayağından tələyə düşər. (83)

---

1. (14)
2. (83)
3. (16)
4. (83)
5. (83)
6. (83)
7. (57), (83)
8. (83)

Tülküyə dedilər: - “Şahidin kimdi?” Dedi: - “Quyruğum”. (39a)
Tülküylə tovuğun nə oyunu var? (75)
Tünd gedən tez yorular. (83)
Tünd su körpi yıxar, tünd xasiyyət öy yıxar[1] (35a)
Tüpürdügün kimsə yalamaz. (49)
Türk atınun samanı bol gərək. (75)
Türk bilir, dağarda nə var. (83)
Türk doşanı araba ilə tutar. (55)
Türk şərlünün qulıdır. (75)
Türk ucuz bulduğun murdar sanır. (75)
Türkün uşta turur dedügi bir. (75)
Tüstü kötükdən çıqar, budaqdan çıxmaz. (83)
Tüstüsü qurtulub qor atır. (2)
Tütünlü ev tonmaz. (75)

**U**

Uc ev köçəndə, orta ev uc olur[2]. (49)
Uca dağ başına qar yağar. (12)
Ucada yer yoxdu, alçaqda da oturmur. (2)
Ucalıq alçaqlıqdadır[3]. (49)
Ucuz alan aldanır. (1)
Ucuz aldın, quyruğunu düyünlə[4]. (1)
Ucuz ətin şorbası olmaz[5]. (44)
Ucuz illətsiz, baha hikmətsiz deyil[6]. (83)
Ucuz verən tez satar[7]. (75)
Ucuzdan baha zad olmaz[8]. (44)

---

1. (49)
2. (75)
3. (76)
4. (83)
5. (49), (2), (5), (83), (1), (13), (15)
6. (1)
7. (1)
8. (28), (2), (5), (83)

Ucuzluq qazanılmış kəsirdir. (75)
Ucuzluq səndən, bərəkət Allahdan. (75)
Ucuzluqda alıcının, bahalıqda satıcının üzünü görmə[1]. (2)
Ucuzluqda o qədər yemişəm ki, bahalıqda yadıma düşmür[2]. (1)
Uçan damın böyüklüyü bünövrəsindən bilinər. (33)
Uçan quşa da borcu var. (1)
Uçan quşu tutmaq olar, uçan sözü yox. (33)
Uçan quşun dalınca getməzdər. (15)
Udsuz ev, qutsuz ev. (75)
Uduzmuş qumarbaz yüzü üstə yatar. (83)
Uğuzun aşı yağlı, canı torpağa bağlı. (18)
Ulamağını bilməyən köpək, sürüyə qurd gətirər. (1)
Ulaya-ulaya it öz başına qal gətirər. (1)
Ulduz ayın kənizidir. (40)
Ulduz çoxsa, ay birdi. (1)
Ulduz hesabı ilə gəmiçi yol aparır. (1)
Ulduzu barışmayan gəlinin salamı da savaşdı. (1)
Ulu bayramda yeməkdən saqın, Kiçi bayramda ətdən saqın. (75)
Ulu gözilə qız al, ərgən gözilə at al. (75)
Ulu sevilmə adam adama gərək olur. (75)
Ulu sözünə baxmayan uluya-uluya qalar[3]. (54)
Ulu şəhərlər dəmür ağızdır. (7 5)
Ulu-ulu tağları keyiklər bilür. (75)
Ulusın bəgənməyən evinə boş varır. (75)
Umac – burdan ye, ordan – ac. (1)
Uman yerdən küsərlər[4]. (2)
Umudunu kəsən şeytandı. (18)

---

1. (83), (1)
2. (83), (12)
3. (75), (49), (1), (17)
4. (49), (83), (1), (12), (13)

Ununda da var, urvasında da var, bişirən köpək qızında da. (18)

Unutqannıq faciədi. (12)

Unutsan, unudulajaxsan. (12)

Uruş, dögüş, urun uçından ayrılma. (75)

Urvası olmayanın kündəsi küt düşər. (12)

Usan baş tərgit der. (75)

Uslu sanur sanınca dəlü oğlın evərür. (75)

Uslular ilə savaşmaq cahillər ilə halva yeməkdən yegdir. (75)

Usta əli dəyməyən iş haramdı. (1)

Usta görən şagird, hər məqamda yorğalar, usta görməyən şagird ondan-bundan qarmalar. (1)

Usta meymun qamçısız oynar. (1)

Usta oğlundan şagird olmaz. (1)

Ustad görmüyənin işi xam qalar. (12)

Ustad öyüdü ata məhəbbətinnən qiymətlidi. (12)

Ustad şilləsi şirin olar. (12)

Ustad ustadın pisliyini istəməz. (12)

Ustadına kəc baxanın gözlərinə qan damar[1]. (2)

Ustadına kəm baxan ruzusunu az görər. (1)

Ustakarın oğurluğun tutmaq olmaz[2]. (1)

Ustakarın qapısı qırıq olar. (1)

Uşağa qundaq çağında məhək daşı deyərlər. (1)

Uşağa yoldaş olma, sən yıxılsan gülər, özü yıxılsa ağlar. (49)

Uşağı buyur, dalıca yüyür[3]. (2)

Uşağı ərköyün böyütməh onu atmağa bərabərdi. (15)

Uşağı oxudar atanın kisəsi, ananın kasəsi[4]. (83)

Uşağı yemək böyütməz, sevinc, fərəh böyüdər. (1)

Uşağın bişüuru gedər yol üstə oturar[5]. (2)

---

1. (76), (5), (83), (1)
2. (83)
3. (54), (5), (49), (83), (1), (13)
4. (5)
5. (83), (1)

Uşağın şüurlusu bələkdə özünü görkəzər. (83)
Uşağın vurmamağına baxma, daşın böyüyündən yapışar. (1)
Uşağın yediyi halal, geydiyi haramdı. (15)
Uşaq adamı qanlı qapısına aparar. (1)
Uşaq ağlamayınca, süd verməzlər. (49)
Uşaq ağlaya-ağlaya böyüyər. (1)
Uşaq anadan yetim qalar. (14)
Uşaq arasına girməzlər. (1)
Uşaq atasından güclüsünü bilməz[1].(5)
Uşaq böyüklərindən öyrənər. (1)
Uşaq evdə böyüyər, balıq – göldə. (1)
Uşaq əzizdür, tərbiyə ondan əziz. (49)
Uşaq gördüyün götürər, eşitdiyini deyər[2]. (33)
Uşaq sirr saxlamaz. (12)
Uşaq sözü şah sözündən hökmlüdü. (1)
Uşaq sözün düzünü deyər. (1)
Uşaq vardır-yoxdur bilməz. (1)
Uşaq yeməyini bilməz. (1)
Uşaq yıxıla-yıxıla böyür[3]. (2)
Uşaq yıxıldığı yerə baxar. (1)
Uşaqlar tələsir, amma tut öz vaxtında yetişir. (55)
Uşaqları sevməyən heç kəsi sevməz. (12)
Uşaqlı evdə həvəngdəstəni göydən asarlar. (1)
Uşaqlı evdə qiybət olmaz. (1)
Uşaqlıq ömrün baharıdı. (1)
Uşaqlıqda zəhmət çəkən, böyük olanda rahat yaşar. (68)
Uşaqsız ev - məzar, uşaqlı ev - bazar. (12)
Uşax olan öydə şeytan olmaz. (18)
Utan utanmazdan, qorx qorxmazdan[4]. (2)
Utananın oğlu-qızı olmaz[1]. (75)

---

1. (83), (1), (14)
2. (2), (83), (1), (14)
3. (83)
4. (83), (1), (9), (12), (13)

Utancağın eşşəyini qurd yeyər. (1)
Utanmasan, oynamağa nə var[2]. (44)
Utanmaz üzdən qara nə var? (49)
Uyansız ata binmə. (75)
Uyur ardınca oyanuq olur. (75)
Uyur yılanın quyruğın basma. (75)
Uyuşar – qatıq yeyərik, uyuşmaz – süd içərik. (1)
Uyxu yasdıq istəməz. (75)
Uzağın salamatı yaxının malamatından yaxşıdı. (6)
Uzaxdan gəti nöyütü, duzu, yaxınnan gəti arvadı, qızı. (18)
Uzaq mənzilə yetişmək üçün atı yavaş sürməli[3]. (2)
Uzaq yeri orğanla ölçmə. (75)
Uzaq yerin arpasından yaxın yerin samanı yaxşıdı. (1)
Uzaq yerin bir parça kağızı, yaxın yerin bir kəlmə sözü. (1)
Uzaq yerin dükməngini qənd ilə dögərlər. (55)
Uzaq yerin halvasını hovla ilə döyərlər[4]. (2)
Uzaq yerin qonağı şirin olar. (12)
Uzaq yoquşı yorğun bilür. (75)
Uzaqdan döyüş asan gəlir[5]. (2)
Uzaqlaşmaq yaxınlaşmaq üçün vasitədi. (1)
Uzun adamın ağlı olsa, quli-biyabanı peyğəmbər olu. (36a)
Uzun adamın ağlı topuğunda olar[6]. (2)
Uzun axmaq olar, gödək çaxmaq olar[7]. (83)
Uzun danışanın ömrü az olar. (1)
Uzun kösöv əl yandırmaz[8]. (1)
Uzun olan sırıq kibi, əkşi olur qoruq kibi. (75)
Uzun saçlının ahı yerdə qalmaz[1]. (13)

---

1. (49), (2), (5), (83), (1), (13)
2. (5), (1)
3. (83)
4. (83), (1), (9), (12)
5. (83), (1)
6. (5), (83), (1)
7. (46)
8. (12), (18)

Uzun saqqal axmaq olar. (83)
Uzun yaşın ucı ölümdür. (75)
Uzun yolun bu başında yalan danışan, o başında özü də inanar. (1)
Uzunayaqluya inanmaq olmaz. (75)
Uzunun ucu olar, dərinin dibi. (15)

**Ü**

Üç eşşək bir axurdan arpa yeməz. (1)
Üç gün səhər tezdən qalxan bir gün qazanar. (80)
Üç nəsnə adamı arıqladır: sini çınğırdısı, övrət yavuzlığı, intizar çəkmək. (75)
Üç şahını bəyənməyən bir abbası çıxarsın. (55)
Üç şey xoşdur: pul səsi, zənən gülüşü, bulaq zümzüməsi. (12)
Üç şeydə vəfa yoxdur: atda, padşahda, tacirdə. (39a)
Üç tümənlik eşşəyin on beş qranlıq qoduğu olar. (1)
Ülkər düşsə, qış olur. (75)
Ümid həyatın sərmayəsidi. (1)
Ümməti-Məhəmmədin qonuğu sapmasun. (75)
Ümməti-Məhəmmədin sözi kəsadlığa düşməsin. (75)
Ürək canın işlək saatıdı. (12)
Ürək dənizdən dərindi. (1)
Ürək götürməyəni əl götürməz. (33)
Ürək ki var, şüşədi, sındırarsan, kim yamar?! (1)
Ürək qulaq deyil ki, barmaqla qurdalayasan. (1)
Ürək öz dostunu tanır[2]. (2)
Ürək süfrə deyil, hər yetənə açasan[3]. (14)
Ürək yanmasa, gözdən yaş çıqmaz. (83)
Ürəyi yanan yaxşı fatihə verər! (2)
Ürəyimə çıxıb yara, bilmirəm gedim hara. (18)

---

1. (14)
2. (81), (83), (1)
3. (12)

Ürəyin daşqınını ağız deyər. (1)
Ürəyini yırtsa da, özgə sirrini heç kəsə demə. (45)
Ürkütməsən, sanamaq olmaz. (83)
Üstümü unlu görüb, adımı dəyirmançı çağırma. (1)
Üşümiş yılanı qoynuna qoyma, isincaq səni soqar. (75)
Üz döndü, göz döndü[1]. (46)
Üz döndü, könül dolandı. (46)
Üz götürüb gedəni zəncir ilə saxlamaq olmaz. (1)
Üz qarası könülə də qara salır. (12)
Üz ki var ətdəndi[2]. (46)
Üz tanınar qaşı ilə, qız qardaşı ilə. (14)
Üz üzdən utanar[3]. (2)
Üz verdik dəliyə, palçıqlı çıxdı xalıya. (1)
Üz verilən yerdə ərinmə, üz verilməyən yerdə görünmə. (1)
Üz vermə – arsız olar, az vermə – xırsız olar. (15)
Üz vermə, astar da istər[4]. (1)
Üz yürəgin güzgüsüdu[5]. (83)
Üzdə gəzən üzdənər, düzdə gəzən düzdənər. (18)
Üzgörənlik ən böyük ğünahdı. (12)
Üzlü daş yerdə qalmaz. (39)
Üzlü qonax, qəlbə yamax. (18)
Üzü necədi, ürəyi də elədi. (1)
Üzü öpülənin əli öpülməz. (14)
Üzü üstə gələni arxası üstə çevirməzlər. (1)
Üzük iki qəlbin qıfılıdı. (12)
Üzük ismətdi, nişan qismət. (40)
Üzük tanınar qaşı ilə, qız qardaşı ilə. (1)
Üzük-üzük oynayan gecələr yatmaz. (1)
Üzülməyincə düzülməz. (49)

---

1. (1)
2. (83), (1)
3. (49), (46), (83), (1), (12), (13)
4. (83)
5. (1), (12)

Üzüm üzümə görə qaralar[1]. (75)
Üzümü əldə gör, çöpünü yerdə. (1)
Üzün qaralığı yaman deyil, qəlbin qaralığı yamandı. (1)
Üzünü xalqa çevirənin arxası möhkəm olar. (1)

**V**

Vacivin dalınnan get, ağladanın yanınnan. (9)
Vaxt atlı, biz piyada. (1)
Vaxt insana hər şeyi öyrədər. (1)
Vaxt qənimətdi. (1)
Vaxt qızıldan qiymətlidi. (12)
Vaxt olar qoyunun ayağı uzanar, vaxt olar keçinin. (12)
Vaxtdan gileylənmə, vaxtın gedər. (1)
Vaxtı boş olanın sözü çox olar[2]. (1)
Vaxtı itirsən hədər, görərsən böyük zərər. (1)
Vaxtıilə görülməyən iş, çox dəfə görülməmiş qalar[3]. (2)
Vaxtın qiiyməti puldan artıqdır[4]. (70)
Vaxtında atılan tüfəngin səsi vaxtsız atılan topun səsindən üstündü. (1)
Vaxtını itirən bəxtini itirər. (1)
Vaxtsız açılan gül tez solar. (1)
Vaxtsız banlayan xoruzun başını kəsərlər[5]. (1)
Vaxtsız bannıyan xoruz bədbəxtlik gətirər. (9)
Vaxtsız qonaq öz kisəsindən yeyər[6]. (1)
Vaqtında qoruq xalva olur. (75)
Var adama oyun öyrədər. (1)
Var adamın gözünü açar. (14)
Var axar, yox baxar. (1)

---

1. (1)
2. (15)
3. (83), (1)
4. (1)
5. (12)
6. (83)

Var evi kərəm evi, yox evi vərəm evi[1]. (2)
Var göz açar. (9)
Var göz işığıdı. (9)
Var günün dostu çox olar[2]. (1)
Var var üstündən gələr. (1)
Var vara söykənər, kasıf dağa söykənər. (12)
Var vaxdı coşma, yox vaxdı çaşma[3]. (18)
Var yüzi barcınıdur, yoq yüzi yonğadır. (75)
Vara var deyərlər, yoxa yox. (1)
Vardır pulun – hamı qulun, yoxdur pulun – açıqdır yolun. (1)
Var-dövlət tükənər, elm tükənməz. (12)
Var-dövlətin tacı sağlıqdı. (12)
Varduğun evdəkilər əgər qarağuysa, sən də bir gözün qıpa qo. (75)
Varı olan taxar, varı olmayan baxar. (1)
Varın var ikən işini gör. (12)
Varın verən utanmaz, yoxdan verən axmaxdı[4]. (83)
Varın verən yad olmamışdır. (75)
Varını itirən az şey itirər, namusunu itirən - çox şey. (1)
Varını özünə çəpər eləmə, xərcdə. (12)
Varlı ağlar, yoqlı ağlar. (75)
Varlı arabasını dağdan aşırar, yoxsul düz yerdə yolunu çaşar. (1)
Varlı arvadın cehizi sonra gələr. (14)
Varlı borcuna mal verər, kasıf tər. (12)
Varlı kisəsini döyər, kasıb dizini. (1)
Varlı qu tükündə yatammaz, ancax kasıf saman üstündə də yatar. (12)
Varlı olub qəm–qüssə ilə yaşamaqdansa, kasıb olub şad–xürrəm yaşamaq yaxşıdı. (1)

---

1. (83), (1), (14), (35a)
2. (13)
3. (12)
4. (2), (1), (12), (13)

Varlı umduğunu yeyər, kasıb olduğunu. (1)
Varlı vardan danışar, kasıf ehtiyacdan. (12)
Varlı varından pay versə, varsız da varlı olar. (1)
Varlı yoxsula gülər. (12)
Varlı yoxsullaşanda əlli il dəstgahını pozmaz. (1)
Varlığa güvənməzlər. (1)
Varlığa nə darlıq[1].?! (1)
Varlığa tələsən yoxsulluğa tez düşər[2]. (2)
Varlığın sonu ilə yoxluğun sonu birdi. (1)
Varlının arvadı öləndə yorğan-döşəyi təzələnər, kasıbın arvadı öləndə yorğan-döşəksiz qalar. (1)
Varlının çörəyi kasıbın çənəsini yorar. (1)
Varlının əlini bıçaq kəsəndə yoxsul köynəyini parçalar[3]. (1)
Varlının eşşəyi də yeyin gedər[4]. (1)
Varlının xoruzu da yumurtlayar. (1)
Varlının iti harın olar. (1)
Varlının könlü oluncaya qədər kasıbın canı çıxar. (1)
Varlının malı, kasıbın övladı. (1)
Varlının torpağından çay keçər, kasıbınkından yol. (1)
Varlının varı gedər, muzdurun canı. (1)
Varlıya bəli deyərlr, yoxsula dəli. (14)
Varlıya mal, kasıva uşax əzizdi. (12)
Varlıya toxun keç, yoxsuldan qorun, keç. (1)
Varmaq iradə ilə olur, getmək icazə ilə olur. (75)
Varrı namərtlihnən, kasıp comərtlihnən. (18)
Varrı pulu qatdadı, kasıp borcun atdadı. (18)
Varrı yanını qaşıyanda kasıb elə bilər pul çıxarır. (18)
Varrının əli qaşınar, kasıbın beli. (18)
Varrının qapısınnan var əksilməz, yoxsulun qapısınnan qar. (9)

---

1. (83)
2. (83), (1), (14), (15)
3. (14)
4. (15)

Varrıya baş əyəllər, kasıba ayama diyəllər. (18)
Varsa əgər hünərin, hara getsən var yerin[1]. (1)
Vay o gündən ki, adamın öz iti özünü qapa[2]. (1)
Vay o gündən ki, çörəkçi çəkmə tikə, çəkməçi də çörək yapa. (1)
Vay o gündən ki, varlı adam yoxsulun əlinə düşsün. (1)
Vay ol kişiyə kim, Allahdan inayət olmaya. (75)
Vay ol kişiyə kim, günahın bilməyə. (75)
Vay ol kişiyə kim, Tanrıdan qorqmaya. (75)
Vay ondadır ki, varlı evinə yoxsul girə. (1)
Vayıs etdiyi vayıslığınnan utanar. (12)
Vayısa bel bağlama, sonra şamsız qalarsan. (12)
Vayısın qapısı bağlı, başı boş olar. (12)
Ver abbasını, ye halvasını. (1)
Ver abbasını, vur babasını. (18)
Ver inəyə, bağla dirəyə. (9)
Ver qırxı, çəkmə qorxu. (14)
Ver yeyim, ört yatım, gözlə canım çıxmasın. (83)
Verdigi anda bax, kəsdigi qulluğa. (83)
Verdin - doydur, vurdun – yıx. (1)
Verdiyin sənindi, vermədiyin özgənin. (1)
Verəcək ucundan alacaq bulmadım. (75)
Verən əl ac qalmaz. (1)
Verən əl alanın üstündə olar[3]. (66)
Verən əl bilər, yiyən qarın yox. (18)
Verən əldən Allah kəsməz. (12)
Verən əli də var, vuran əli də. (1)
Verən əli hər kəs öpər. (1)
Verən əli kəsməzlər[4]. (1)
Verəndə elə verər, alanda belə alar. (1)

---

1. (12)
2. (14)
3. (83), (43a), (1)
4. (12), (14)

Verəndə imam olur, alanda şümür. (1)
Verənin üzü ağ olar, verməyəninki qara. (12)
Verərsən, adındı, yeyərsən, dadındı. (83)
Verərsən aş, olarsan baş, verərsən şor, olarsan kor. (78)
Verəsiyə içənin iki kərrə əsriməsi olur. (75)
Verəsiyi verənin qoynı boşdur. (75)
Verib yaman olunca, verməyib yaman ol[1]. (1)
Verim əli hamı əldən ucadı. (1)
Verim vara baxmaz[2]. (55)
Vermə nisyə, girməz kisəyə. (1)
Vermək Tanrı verməsidir. (75)
Vədə vədiyə baxmaz, vədə heş şeyə baxmaz. (9)
Vədəsi bitmiş nökərin əcəli yetən ağası gərək[3]. (1)
Vəfalı at, vəfasız dostdan yaxşıdı. (9)
Vəfalı dost yad olmaz, görməsə yüz il səni. (1)
Vəfasız dost, kölgəsiz ağacdı. (18)
Vəfasızda həya, həyasızda vəfa olmaz. (12)
Vələ gedən öküzün olsun, işə getməyən oğlun olmasın. (1)
Vəsiyyət yüngüllükdü. (1)
Vəsmə bol olanda qaşa da çəkərlər, gözə də. (1)
Vətən atanı el də atar. (40)
Vətən elin evidi. (1)
Vətən həsrəti çəkdim, gözlərimə qan gəldi. (39a)
Vətən mülkü doğmadı, özgə diyar ögey. (1)
Vətən sevmək imandandır, vay ana kim, içində olmaya. (75)
Vətən şirin olar. (55)
Vətən viranə də olsa, cənnətdi. (1)
Vətənə ağ olanın gözlərinə ağ gələr. (12)
Vətənə arxa olmayan, evinə dayaq olmaz. (14)
Vətənə gəldim, imana gəldim[4]. (63)

---

1. (83)
2. (1)
3. (83)
4. (46), (83), (1)

Vətəni sevməyənin imanı olmaz[1]. (39a)
Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdı. (1)
Vətənsiz olan kəfənsiz qalar. (10)
Vətənsiz yaşamax ölümə bərabərdi. (12)
Vətənsiz yaşıyan imansız ölər. (9)
Vəzifə bir qızıl üzükdü, o da hamının barmağına keşməz. (9)
Vəziri qarğa olanın ağzı zibillikdə olar. (1)
Vəzndə yüngül, qiymətdə ağır. (1)
Vicdan əzabı qamçıdan güclüdür. (12)
Vicdanı olmayanın imanı da olmaz[2]. (65)
Vicdanla işləyən gözükölgəli olmaz. (1)
Vijdan insanın cövhəridi. (12)
Vur dedim, öldür demədim ki?! (1)
Vur deyənlə vuran şərikdi. (1)
Vur deyirsən vurmur, burax deyirsən buraxmır. (12)
Vura bilməyən daşın böyüyündən yapışar[3]. (1)
Vurağan inəyin südü qalmağallı olar. (12)
Vuran elin dirəyidi. (1)
Vuran inəgə Allah buynuz verməz[4]. (83)
Vuran oğul ataya baxmaz[5]. (2)
Vurduğun meydanda yatır. (9)
Vurmaq legləк qaqasıdır, hünər atmaqdadır. (75)
Vurum uşağım öldürüm, qonşuya ad qazanım. (83)
Vurur daşa, çıxır başa. (1)

## Y

Ya Allah əmrinnən, ya yan dəmirinnən. (14)
Ya bu dəvəni güd, ya bu diyardan get[6]. (2)

---

1. (1)
2. (76)
3. (83), (18)
4. (12), (1)
5. (49), (46), (5), (83), (1) (9), (17), (18)
6. (1)

Ya dağın ətəyində, ya bəy ətəyində[1]. (44)
Ya dalına min, ya dalına mindir. (1)
Ya dəvə ölər, ya dəvəçi, ya da üstündəki hacı[2]. (1)
Ya dövlət başadı, ya quzğun leşə[3]. (2)
Ya eşün çanağına üyüdər, ya çanağın eşünə üyüdər. (75)
Ya qədəm əri ol, ya qədəm ərinə yoldaş ol. (75)
Ya malından, ya balından yenədək keşiş kətə yeməz. (75)
Ya sınar şiş, ya çıxar morçalıq. (2)
Ya tələf ollam, ya xələf. (1)
Ya tək tur, ya pərk tur. (75)
Ya torba yırtılar, ya dağarcıq. (1)
Ya unçu ölər, ya dəyirmançı. (1)
Ya vəlvələdən, ya zəlzələdən[4]. (1)
Ya zor, ya zər, ya şəhərdən səfər. (1)
Yabılarda qotur yabı mərd olar, yorulanda yiyəsinə dərd olar[5]. (1)
Yabıya rəhm edən piyada qalar. (55)
Yabıya rəhm etməyən piyada qalar. (1)
Yad fəriştədən biliş albız yegdür. (75)
Yad gəlib aşna olunca aşna yar əldən gedər[6]. (2)
Yad itin quyruğu kıslı olar. (5)
Yad qızına güvənmə, xətakar olar. (1)
Yad qızına uymazlar, yad qızı zavallı olar. (1)
Yad qohum ölənəcən yad olar. (1)
Yad oğulu saxlamaqla oğul olmaz, böyüyəndə salır gedər, gördüm deməz. (3)
Yad varı-gəli biliş olur, biliş varmayu-varmayu yad olur[7]. (75)

---

1. (83)
2. (83)
3. (5), (83), (1)
4. (83)
5. (83)
6. (83), (1)
7. (14)

Yada əppək verdik – balığımıza balıqçı, balağımıza balaqçı oldu. (8)

Yada yalax, qohuma dolax. (12)

Yaddan yoldaş olunca, yoldaş əldən gedər. (1)

Yadı yağı doğrasın. (9)

Yağ acı olanda, plov da acı olar. (1)

Yağ da yesə dirilməz, bal da yesə dirilməz[1]. (1)

Yağ mənimdi, əritmərəm, kərə yeyərəm. (9)

Yağ tapsa başına yaxar. (1)

Yağ yağ ilə axar, yarma yavan qalar[2]. (2)

Yağ yağ üstünə gedər. (55)

Yağ yağa qavuşdu, yarmalar yavan qaldı[3]. (83)

Yağ ye, yaxada gəz[4]. (1)

Yağ yesə də dirilməz. (55)

Yağ yeyən itin tükündən bəlli olur[5]. (55)

Yağar yağış, bitər qamış. (12)

Yağı od əridir, qarı gün. (1)

Yağı olan bayram eylər. (75)

Yağı yalan, qış gerçək. (75)

Yağı yerdə yapıncaqsuz yatma. (75)

Yağın şora ziyanı yoxdu. (14)

Yağın şorunu çıxardır, sözün şəkərini[6]. (1)

Yağış damcı-damcı buluddan törüyər. (9)

Yağış ilə yer göyərər, alqış ilə ər öyünər. (1)

Yağış isladar, gün qurudar. (1)

Yağış vurmuşun damcıdan nə qorxusu? (1)

Yağış yağanda toyuğa su verməzlər. (1)

Yağış yağar, yer doymaz. (1)

---

1. (83)
2. (5), (37), (54), (1), (6), (16)
3. (37), (1), (9)
4. (83)
5. (83)
6. (39a)

Yağış yağar, gül bitər. (9)
Yağışdan çıxdıq yağmura düşdük[1]. (2)
Yağışdan götürüb novdan altına qoydu[2]. (44)
Yağışdan qalanı, yağmur apardı[3]. (81)
Yağla yağlayır, sarımsaqla dağlayır. (1)
Yağla yarma qovuşar, arada soğan büzüşər. (1)
Yağla yovşan da yeyilər. (1)
Yağlı çörəyin yoxdu, yağlı dilinə nə oluf? (9)
Yağlı əlin var, sürt öz başına, başın yağlısa sox ocağa[4]. (81)
Yağlı qazan yağlı qazana girür. (75)
Yağmadı yağış, bitmədi qamış[5]. (1)
Yağmasa da guruldar[6]. (1)
Yağmur yağsun, qar yağsun, tək qış olmasun. (75)
Yağmurdan qaçup toluya uğrama. (75)
Yağmurdan uluyan sudan uyurtmaz. (75)
Yağmurlıca yazın olsun, tumanlıca qışın olsun. (75)
Yağmurlu günündə dostunun atı satılsun, düşməninün qoyunı satılsun[7]. (75)
Yaxın qonşuya yaman söz demə. (12)
Yaxın yerə bir kəlmə söz, uzax yerə bir barmax kağız[8]. (9)
Yaxın yerə yük daşıyır. (1)
Yaxına ərinir, uzağa yüyürür[9]. (1)
Yaxını qoyub, uzaqdan danışma. (1)
Yaxşı ad dövlətdi. (1)
Yaxşı adam yavan çörəyə dözər, yaman adamı yağlı çörək də üzər. (1)

---

1. (83), (5), (1)
2. (83)
3. (83), (1)
4. (2), (83)
5. (83), (5), (12)
6. (83), (14), (17)
7. (1)
8. (12)
9. (83)

Yaxşı adamın yaxşılığı dəyər dar gündə, yaman adamın yamanlığı, dəyər hər gündə. (1)

Yaxşı adamnan savaşma, pis adama – yanaşma. (15)

Yaxşı arvad ərini bəy eylər, yaman arvad – zay. (1)

Yaxşı arvad pis kişini ər eylər, ortababı şir ürəhli nər eylər, yaxşı əri dillərdə əzbər eylər. (15)

Yaxşı arvad üz ağardar. (12)

Yaxşı arvadlı ev cənnətdi. (1)

Yaxşı aş qalınca, yaman qarnı yırtılsun. (75)

Yaxşı at, bez-arşınsız da satılar. (27)

Yaxşı at igidin yoldaşıdı. (9)

Yaxşı at köhnə çulun altında da bilinər. (1)

Yaxşı at qamçı yeməz. (6)

Yaxşı at yemini artırar, yaman at qamçısını[1]. (1)

Yaxşı ata bir qamçı, yaman ata – min qamçı. (1)

Yaxşı atadan pis oğul?! (1)

Yaxşı çobanın dörd gözü olar. (12)

Yaxşı davadan pis barışıq yaxşıdır. (55)

Yaxşı dost qara gündə məlum olur. (60)

Yaxşı dost qardaşdan əzəldi. (1)

Yaxşı dost yaman gündə məlum olar[2]. (1)

Yaxşı dostları qılıncla da ayırmaq olmaz. (1)

Yaxşı elə yaxşıdı, çalış yamanı yaxşı elə. (1)

Yaxşı əkinçi xərcini yerdən çıxardar. (1)

Yaxşı getməyincə qədri bilinməz. (1)

Yaxşı gün cənnətdi, yaman gün cəhənnəm. (1)

Yaxşı gündə yad yaxşı, yaman gündə vay qardaş![3] (2)

Yaxşı gündə yağlı çörəyi bəyənməyən yaman gündə quru çörəyə salam verər. (1)

Yaxşı günə dözməyən yaman günə heç dözməz[4]. (2)

---

1. (83)
2. (1)
3. (37), (5), (83), (1), (11)
4. (28), (37), (5), (81), (83), (1)

Yaxşı günün döş ağrısı, yaman günün diş ağrısı? (1)
Yaxşı günün yoldaşı, yaman günə düşdüm, gəl! (1)
Yaxşı hörmət dövlətdən yaxşıdır[1]. (57)
Yaxşı igid dalı gözlər, yaxşı at qabağı[2]. (2)
Yaxşı igidin adını eşit, özünü görmə[3]. (2)
Yaxşı igid dayısına çəkər, xatın qız xalasına[4]. (33)
Yaxşı iş heykəl kimidi, hər yerdən görünər. (1)
Yaxşı işçi səliqəsindən bilinər. (1)
Yaxşı işə Allah zamindi. (1)
Yaxşı keçi otaransansa, biri də özünün olsun. (9)
Yaxşı kəslər yol çəkər, bedasıllar qan tökər. (18)
Yaxşı ki, dünyada yaxşı varmış, yoxsa dünya tərk olardı yaman əlindən. (1)
Yaxşı ki var, yavan çörəyə dözər, yamanı yağlı xörək də üzər. (1)
Yaxşı qəssab ətin yaxşısını axıra saxlar. (1)
Yaxşı qızdan yaxşı gəlin olar. (1)
Yaxşı qızı vermə heyifdi, yaman qızı vermə eyibdi[5]. (26a)
Yaxşı qızımdan pis gəlinim yaxşıdı[6]. (46)
Yaxşı qoja olmuyan yerdə yaxşı cavan da olmaz. (12)
Yaxşı qonşu qardaşdan irəlidi. (12)
Yaxşı qonşudan adama ziyan gəlməz. (9)
Yaxşı mal öz-özünü işə verər. (1)
Yaxşı mal yerdə qalmaz. (1)
Yaxşı məsəl gözə girər. (1)
Yaxşı məsləhət hər şeydən yaxşıdı[7]. (1)
Yaxşı oğul neynər ata malını, pis oğul neynər ata malını[8]. (5)

---

1. (1)
2. (81), (83), (1), (9)
3. (83), (1)
4. (83), (5)
5. (1), (6), (12)
6. (83)
7. (83)
8. (1)

Yaxşı olanda – xanımdan, pis olanda – kənizdən. (1)
Yaxşı otağım oluncax, yaxşı yarım olsun. (9)
Yaxşı ovçunun toruna ov öz ayağı ilə gələr[1]. (1)
Yaxşı ovçunun tüfəngi pas tutmaz. (12)
Yaxşı övlad ata-ananın fərəhidi. (1)
Yaxşı rəncbər çörəyi daşdan da çıxarar. (40)
Yaxşı saxla adını, bədnamçılıq el gəzər. (1)
Yaxşı söylə, yaxşı eşit. (1)
Yaxşı söz ilə yılan indən çıqar. (75)
Yaxşı şeyə gül ki, başına gəlsin. (1)
Yaxşı şeylərin yolu tapdaq olar. (1)
Yaxşı tacir malın hamısını birdən bazara çıxartmaz. (1)
Yaxşı timsal yüz yönsüz sözdən yaxşıdı. (1)
Yaxşı toxum gec cücərər, pis toxum tez cücərər. (18)
Yaxşı yoldaş gec tapılar. (1)
Yaxşı yoldaş uzun yolu qısaldır. (1)
Yaxşı yoldaş yaman gündə tanınar. (1)
Yaxşı yoldaş, yaxşı at, yaxşı arvad igidin başını ucaldar. (12)
Yaxşı, yaxşılığın deyilir, yaman, nəyin deyilir? (1)
Yaxşılığa yamanlıq olmasaydı, qara öküzə bıçaq olmazdı. (1)
Yaxşılığa yaxşılıq elə, pisliyə pislik eləmə. (1)
Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığıa yaxşılıq ər kişinin işidir[2]. (31)
Yaxşılığı bilməyənə yaxşılıq etmə. (1)
Yaxşılığın axırını Allahdan istə. (83)
Yaxşılığın əcri gələr. (1)
Yaxşılıx da, yamannıx da yaddan çıxmaz. (9)
Yaxşılıxdan inciyən yaman günə düşər. (18)
Yaxşılıq ayaq açıb gəzəndi. (1)
Yaxşılıq bilməyən adam adam sayılmaz[3]. (28)
Yaxşılıq edən yaxşılıq görər. (1)

---

1. (15)
2. (76), (5), (83), (1), (9), (14)
3. (83), (1)

Yaxşılıq edəni Allah unutmaz. (71)
Yaxşılıq elə ki, başına gəlsin. (1)
Yaxşılıq elə, minnət qoyma[1]. (1)
Yaxşılıq eləyib bir şey umursansa, etməsən yaxşıdı. (1)
Yaxşılıq eylə at dəryaya, balıq bilməsə, xaliq bilər[2]. (2)
Yaxşılıq iki başdan olar[3]. (2)
Yaxşılıq istəyən qabaqca behin verər[4]. (1)
Yaxşılıq itməz. (1)
Yaxşılıq qapı açar, məhəbbət bu qapıdan içəri girər. (1)
Yaxşılıq qəribdi – tanınmaz. (1)
Yaxşılıq və doğruluq, hər ikisi birdi. (1)
Yaxşılıq yaxşılıq gətirər, yamanlıq nəyə gərəkdi? (1)
Yaxşılıq yerdə qalmaz. (1)
Yaxşılıq yolunu göstərən adam yaxşılıq edən adama bərabərdi. (1)
Yaxşılıqsız pislik yoxdu. (12)
Yaxşını qıraxda gəz, pis böyründədi. (9)
Yaxşının istər özünü gör, istər işini. (9)
Yaxşıya yaxşı de, yaxşılığı artsın, yamana yaxşı de, yamanlığı qayıtsın. (1)
Yaqın nişan kor olur, anı vuran ər olur. (75)
Yaqşı yerdə dükan açmış, Allah verə bazar ola. (83)
Yalamaxnan doymax olmaz. (9)
Yalamasan doymazsan, yamamasan geyməzsən. (14)
Yalan ayaq tutar, doğru bir yanda qalar. (1)
Yalan ayaq tutar, yeriməz[5]. (54)
Yalan cücərər, amma bitməz. (1)
Yalan danışan yanındakını qanmaz yerinə qoyar. (1)
Yalan dildən lal dil yaxşıdı. (9)

---

1. (83)
2. (64), (28), (31), (83), (1)
3. (83), (1)
4. (83)
5. (83)

Yalan ilə dünyanı gəzmək olar, amma qayıtmaq olmaz[1]. (1)
Yalan ki, var doğrunun şatırıdı. (83)
Yalan olmasa doğru yeriməz[2]. (1)
Yalan üz qaraldar[3]. (1)
Yalançı Allahın düşmənidi. (12)
Yalançı çox and içər. (1)
Yalançı dəyirmannan başı unnu da gəlsə, heş kəs ona inanmaz. (9)
Yalançı kimdi, hər eşitdiyini danışan. (1)
Yalançı özünün düşmənidi. (1)
Yalançı şahidi uzaqda istər. (1)
Yalançıdan it yegdir. (75)
Yalançılıq kökün bərabərlıq kəsər. (75)
Yalançılıq üz qızardar[4]. (2)
Yalançını mənzilinə kimi qovarlar. (2)
Yalançını öz evindən də qovarlar. (1)
Yalançının evi yandı, heç kim inanmadı[5]. (2)
Yalançının ipiylə quyuya düşən quyuda qalar. (1)
Yalançının işığı yassıya qədər yanar[6]. (83)
Yalançının mənzili olmaz. (1)
Yalançının yaddaşı olmaz[7]. (1)
Yalançının yanında doğru yalançı olar. (18)
Yalançının yanında oturma. (45)
Yalanın axırı yoxdu. (1)
Yalanın ayaqları qısa olar. (47)
Yalanın da əndazəsi var. (1)
Yalanın dibi yaqın olur. (75)
Yalanın kökü çərəkdə. (12)

---

1. (83), (15)
2. (83)
3. (12)
4. (83), (1), (18)
5. (5), (67), (83), (1)
6. (1)
7. (83), (6)

Yalanın ömrü az olar. (1)
Yalanla plov bişsə, dəniz qədər yağı məndən. (1)
Yalavac için yayda borandı. (83)
Yaldan tuta bilməyən quyruqdan heç tuta bilməz. (1)
Yalı içər yalavac, bir qarnı tox, biri ac. (18)
Yalın əlnən od götürməzdər. (18)
Yalın qatına tay axtarır. (83)
Yalqız qazıya gedən razı gəlir[1]. (54)
Yalqız quş yuva salmaz. (1)
Yalqız yeyən süfrəsini özü yığar. (1)
Yalnız əlün avazəsi olmaz[2]. (75)
Yalnız igit alp olmaz. (3)
Yalnız taş divar olmaz. (75)
Yalnız yatanın işi önməz. (75)
Yalnız yerdə bögürtlən kəndüzini tağ sanur. (75)
Yalnuz dəvaçı saqalın sığar. (75)
Yalnızlıq bir Allaha yaraşır. (75)
Yaltax it quyrux bular. (18)
Yalvarmaq ilə donuz darıdan çıxmaz[3]. (2)
Yalvarmaqdan sözdən olduq, ağlamaqdan gözdən. (6)
Yaman adama heç nə olmaz[4]. (1)
Yaman adamın başına daş salsan, çiyninə düşər. (1)
Yaman arvad çox danışar, danışmasa savaşar[5]. (46)
Yaman arvad deyingən olar. (1)
Yaman arvad, yaman qonşu, yaman at - birin boşla, birindən köç, birin sat. (83)
Yaman arvadın evi cəhənnəmdi. (1)
Yaman baş yiyəsinə donuz qırxdırar[6]. (46)

---

1. (1)
2. (28), (56), (76), (37), (2), (32), (83), (5), (1)
3. (83), (1), (12), (18)
4. (83)
5. (83), (1)
6. (83), (1)

Yaman dil başa bəladır. (55)
Yaman dirilikdən ölüm yaxşıdı[1]. (1)
Yaman günə səbr edən yaxşı günə tez düşər[2]. (2)
Yaman günün ömrü az olar[3]. (28)
Yaman külahduzdan yaxşı palanduz yaxşıdı. (1)
Yaman qonşu adamı rüsvay eylər. (1)
Yaman olan arvad, ev-eşiyini qoyar gedər. (1)
Yaman olmasa, yaxşılığın qiyməti bilinməz. (1)
Yaman yeyənin olsun, yaman deyənin olmasın[4]. (2)
Yaman yoldaş ilandan betərdi. (83)
Yamanlığa yamanlıq eləmə. (1)
Yamanlıq edibsənsə, yaxşılıq gözləmə. (12)
Yamanlıq yolları yüngül, yaxşılıq yolları ağrıdır. (67)
Yanan öz dərdinə yanar. (1)
Yanan yer gögərər. (55)
Yanan yerdən tüstü çıxar[5]. (2)
Yanda yatdı, palçığa batdı[6]. (55)
Yandırdığın şamı söndürmə. (1)
Yanğına körüklə getməzlər. (1)
Yanğından çıxdım, yalova düşdüm[7]. (2)
Yanğudan qaya yıqılur. (75)
Yanığın nəyi var, yoluğa versin[8]. (5)
Yanımdağı yanumda, qarşumdağı canımda. (75)
Yanındakı ələf uzaqdakı arpadan yaxşıdı. (1)
Yanlış hesab Bağdaddan dönər[9]. (75)
Yanlış da bir naxışdır[1]. (5)

---

1. (9)
2. (83), (1)
3. (76), (83), (1)
4. (83), (1), (6), (9), (14)
5. (62), (76), (83), (1)
6. (83), (1), (5)
7. (1)
8. (83), (1)
9. (1)

Yanmayanda yanmaz, ha yellə, ha ətəklə. (1)
Yansın çırağı, gəlsin işığı. (1)
Yanşağı cəhənnəmə atdılar, dedi: - odunun yaşdı[2]. (1)
Yapı taşı yapıdan qalmaz. (75)
Yapmaq güçdür, yıqmaq qolaydır. (75)
Yar dərdini yar çəkər. (1)
Yar getdi, yeri qaldı[3]. (1)
Yar qadasın yar alar. (1)
Yar mənimlə yar olsun, kol dibi diyar olsun[4]. (1)
Yar yarı görər, ürəyi odlanar. (1)
Yar yarnan qaşqalaşdı, onun ləzzəti qaşdı[5]. (9)
Yar yıqıldığı gün turar. (75)
Yara sağalar, yeri qalar. (1)
Yara var bağlarlar, yara var dağlarlar[6]. (1)
Yara yetişəndə deşilər. (14)
Yaralı barmağa yağ sürt. (9)
Yaralı quşa daş atmazlar. (1)
Yaralı yatar, ac yatmaz. (12)
Yaraqsız igid, buynuzsuz qoç kimidi. (1)
Yaramaz işün sonı pəşimanlığdır. (75)
Yaramazdan eyilik gəlməz. (75)
Yarası avand olanın təbibi qabağına çıxar[7]. (1)
Yaraşıqlının yaraşığı bəzəkinədi. (83)
Yarı gör özün danış, ev yıxar ara sözü[8]. (2)
Yarı hənək, yarı gerçək. (83)
Yarımçıq bilməkdən, heç bilməmək yaxşıdı. (1)
Yarın qədrini yar bilər, nə bilər hər divanə. (1)

---

1. (83), (9), (13), (12)
2. (83)
3. (83)
4. (83)
5. (12)
6. (12), (15)
7. (83), (9)
8. (1)

Yarın yara sovqatı, bir dəstə bulaq otu[1]. (1)
Yarınkı yağdan bugünki öynən yegdir. (75)
Yarıyan başdan yarıyar, kirpikdən, qaşdan yarıyar. (11)
Yas yiyəsi kiridi, yasa gələn kiriмədi. (83)
Yaş ağac tez əyilər. (1)
Yaş boyun sınmaz, quru boyun ələ düşməz. (2)
Yaş kəssən, baş kəssən, quru yaşar. (1)
Yaş taxıldan taşlu taxıl yegdir. (75)
Yaşamağa uzun yol, getməyə yaxın yol. (18)
Yaşayışı pis olanın ölümü də pis olar. (12)
Yaşı eşəgün bazarında sorılur. (75)
Yaşın oduna quru da yanar[2]. (2)
Yaşına baxma, başına bax[3]. (1)
Yaşına yaşına, çıxdı ocaq başına[4]. (54)
Yaşına yox, başına bax. (9)
Yat, qara öküzüm, yat, borc verən gələr, ya səni aparar, ya məni. (1)
Yat yatdığın yerdə, karvan vurmağın özünə qalsın. (9)
Yatağan aslandan gəzəyən pişik yaxşıdı. (1)
Yatağan gəlinin adı yeddi kəndə səs salar. (9)
Yatan aslan olsa da, fürsət oyağındı. (1)
Yatan daşın altına su keçməz[5]. (83)
Yatan ilanın quyruğunu basma[6]. (2)
Yatan iti oyatma[7]. (2)
Yatan öküzə yem yoxdu. (1)
Yatan öküzün başına duran öküz batırar. (2)
Yatan ölməz, yetən ölər[8]. (14)

---

1. (83), (14)
2. (28), (83)
3. (9)
4. (1)
5. (1), (9)
6. (31), (83), (1)
7. (1)
8. (11)

Yatan pişiyin üstünnən siçan keçər. (9)
Yatan üyütməz, yetən üyüdər. (9)
Yatanı ilan çalmaz. (12)
Yatanın ayıqdan xəbəri olmaz. (1)
Yatanın dalıca oyax olmasın[1]. (2)
Yatanın gözü şişər, duranın qarnı. (18)
Yatanın oyaxdan xəbəri olmaz[2]. (81)
Yatanın payını yeyəllər. (9)
Yatma tülkü kölgəsində, qoy yesin aslan səni[3]. (2)
Yatmağa qaya kölgəsi, əgər ki, marı olmasa... (1)
Yatmağına baxanda gördüyü yuxuya min şükür. (34)
Yatmaqnan deyil, yetməknəndi. (14)
Yatmışı yatmış oyada bilməz. (1)
Yava at saxlayanın bir təknə əppəyi gərək. (9)
Yava itin yava da küçüyü olar[4]. (1)
Yavan ətin şorbası olmaz. (1)
Yavaş biləgü sarb olur. (75)
Yavaş eşşəyi cüt-cüt minəllər. (9)
Yavaş gedən çox gedər[5]. (2)
Yavaş gedən yorulmaz[6]. (44)
Yavaş sənətkardan yeyin dilənçi yaxşıdır. (55)
Yavuq bürcin yaradan udar. (75)
Yavuq yolduğı saqal bitməz. (75)
Yavuqladuğun nəsnəyi qonşun tanası kibi arama. (75)
Yavuz baş issinə tonuz kütdürür. (75)
Yavuz gün eyü olur, yavuz adam eyü olmaz. (75)
Yavuz olan at ət tutmaz. (75)
Yavuz qadı yarı buyurur. (75)

---

1. (54)
2. (28), (83)
3. (54)
4. (83)
5. (83), (1)
6. (37), (30), (56), (83), (1), (9)

Yavuz qardaş yağıdan assıdır. (75)
Yavuza bəla əskik deyildir. (75)
Yay aparan, çay aparan. (18)
Yay əkinçi, qış dilənçi. (5)
Yay gününün yağışı, qış gününün yavanlığıdı. (1)
Yay gününün yağışı, ər-arvadın savaşı[1]. (83)
Yay işini qışda gör, qış işini yayda. (1)
Yay kasıbın həm atasıdı, həm də anası[2]. (1)
Yayanın atı ətməkdir. (75)
Yayanın gögdə yıldızı yoqdur. (75)
Yayda ayran tapmayan qışda yorğan tapmaz. (1)
Yayda başı bişənin, qışda aşı bişər. (12)
Yayda hər divarın dibi evdi. (1)
Yayda ilan görən qışda sıcımdan qorxar[3]. (36)
Yayda işləyən, qışda dişlər. (1)
Yayda kölgədə yatan qışda qar üstə yatar. (1)
Yayda səfərə çıxanda kürk götür. (1)
Yayda yatan qışda dilənçilik eylər. (1)
Yayda yapınçını götür, qışda özün bilərsən. (17)
Yayı çox çəkmə, qırılar. (1)
Yayın öz sözü var, qışın öz sözü. (1)
Yaylağın dağı sağ olsun, qarlı da olur qarsız da, igidin başı sağ olsun varlı da olur, varsız da[4]. (37)
Yaylaq yolunun yoxuşu varsa, enişi də var. (16)
Yaz bitirir, yay yetirir, payız gətirir, qış itirir. (1)
Yaz əkinçi, qış dilənçi[5]. (2)
Yaz gətirər, qış aparar. (1)
Yaz günü kölgədə yatanın qış günü çörəyi qapılardan gələr. (39a)

---

1. (5), (37)
2. (5)
3. (1)
4. (1)
5. (30), (83), (1)

Yaz günündə tərləməyən qış günündə titrəyər. (1)
Yaz günündə yola çıxsan, qış gününü gözünün qabağına al. (1)
Yaz inəksizin, qış inəklinin halına. (9)
Yaz kasıbın yorğan-döşəyidi. (1)
Yaz qışından bəlli edər, qız qardaşından[1]! (2)
Yaz souğı yancığ ətidür. (75)
Yaz üyündüsi qışa qatıqdır[2]. (75)
Yaz var, qış var, nə tələsik iş var[3]. (1)
Yaz yağışı tez keçər. (1)
Yaz yağışından, analıq qarğışından bəllidi. (40)
Yaza çıxartdıq dananı, bəyənməz oldu ananı. (1)
Yaza qarşı yağırdan saqın, qışa qarşı arıqdan saqın. (75)
Yazan əl boş qalmaz. (54)
Yazana baxma, yazdığına bax. (1)
Yazda arpa yeyən at, qışda ətini tökməz. (1)
Yazda buza yerikləyən, qışda göbələyə yeriklər. (1)
Yazda çalan, qışda oynar. (1)
Yazda işləməyənin qışı sərt gələr. (1)
Yazda oynayar, gülər, qışda acından ölər. (1)
Yazıdan qaçmaq olmaz[4]. (1)
Yazılan pozulmaz. (1)
Yazılmayan kitabı vərəqləməzlər. (1)
Yazılmış da, yuyulmuş yoq. (75)
Yazın hərəkəti, payızın bərəkəti. (1)
Yazın kölgə bəkləyənin qışın unı qar olur. (75)
Yazıq o adama ki, yaxşılıq etmir[5]. (70)
Yeddi fərsiz oğuldan bir fərli qız yaxşıdı[6]. (46)

---

1. (1), (83)
2. (1), (14), (16)
3. (55), (83), (9)
4. (83)
5. (1)
6. (83), (1)

Yeddi kərrə həcc edənin hacı qoltuğundan çıqmışdır. (75)
Yeddisində «Gülüstan»ı oxuyan, yetmişində başa düşər. (1)
Yeddisində nə idisə, yetmişində də odu. (1)
Yeddisində oxumayan yetmişində başa düşər. (55)
Yedi dəfə ölç, bir dəfə biç. (83)
Yedin tut, yegin tut. (75)
Yediyin özün üçün qalsın, gördüyündən danış. (1)
Yedəgün yoğ isə, təklətün də mi yoq? (75)
Yegin at özünə qamçı vurdurmaz. (29)
Yekə başın faydası yoxdu, içində beyin gərək[1]. (44)
Yel aparan yelinki, yerdə qalan mənimki. (1)
Yel əsəndə yellənər, yol görəndə yollanar. (1)
Yel ilə gələn sel ilə gedər. (1)
Yel mərəyə deyir: ağzını aç, sənə saman gətimişəm. (9)
Yel qayadan nə aparar[2]. (28)
Yel üfürdü, su köpürdü. (1)
Yel vurur, çalır, yengələr oynayır. (1)
Yel yelpərüp keçər. (75)
Yel əsməyincə çöp dəprənməz. (75)
Yeli tutmaq olmaz[3]. (28)
Yelə qarşu tükürmə ki, yenə surətinə gəlür[4]. (75)
Yeməgin qulu işləməyin xəstəsi[5]. (28)
Yemək adamı iki eləməz, yekə eliyər[6]. (9)
Yeməkdənsə ümidli olmaq yeydi[7]. (2)
Yeməklə doymayan, yalamaqla doyacaqsan? [8] (1)
Yeməknən dost olan illərnən düşman olar. (9)
Yeməyən qurd barama sarımaz. (10)

---

1. (83), (1)
2. (1)
3. (83)
4. (1)
5. (83)
6. (12)
7. (9), (13)
8. (13), (14)

Yeməyənin malını yeyərlər, ölüsünü də söyərlər. (1)
Yeməyin dadı duzdadı, dünyanın dadı gözdə. (1)
Yeməyin qulu, işləməyin xəstəsi[1]. (29)
Yeməyini yalnız yeyən yükünü özü qaldırar. (1)
Yemiş vaxtı xırçının qulaqları kar olar. (1)
Yemişin eyüsin tonuz yer. (75)
Yemişini yi, ağacını sorma. (75)
Yemsiz torbaya at gəlməz. (1)
Yemişənin yaxşısını meşədə çaqqal yeyər. (54)
Yemək əli uzun olur. (75)
Yeməyən nəsnə ölür. (75)
Yengəm ölüb, yeri mənə qalıb. (83)
Yenilə bay olan salam almaz. (75)
Yenilə evlənənin gündə buçuğı hammama gedər. (75)
Yenilən oyuna toymaz. (75)
Yenmədik aşa dua qılınmaz. (75)
Yer bərk olanda, öküz öküzdən görər. (18)
Yer doydu, el doydu. (18)
Yer gedügin yel bilür. (75)
Yer oturan kişi ilə şərəflənər. (1)
Yer oturanındı, söz götürənin. (12)
Yer qatı, göy irağ[2]. (5)
Yer qolayın yerlü bilür. (75)
Yer var, danışarlar, yer var sözü udarlar. (1)
Yerdə yatan yumurta, göydə uçan quş olar[3]. (1)
Yerdəki yüzi kimsə basmaz. (75)
Yerə düşməklə gövhər qiymətdən düşməz. (1)
Yerimiyən ayağa daş dəyməz. (9)
Yerin alçağın su bilür. (75)
Yerini bilmiyən yersiz qalar. (9)
Yerindən qara ağarmaz, yalama dodaq sağalmaz. (41)

---

1. (1)
2. (83), (1)
3. (83)

Yeriyən at yemini özü artırar. (1)
Yeriyif oturmax, qaçıf yıxılmaxdan yaxşıdı. (9)
Yersiz gəldi, yerli qaç[1]. (1)
Yersiz gülməyin axırı ağlamaqdı. (12)
Yeruva gəldi kalış, axvay yerə çalış, yeruva gəldi çayır, dur çardağı qayır. (18)
Yerü gög götürməz anı ki, insan götürər. (75)
Yerün də qulağı vardır[2]. (75)
Yetənə yetir, yetməyənə daş atır[3]. (1)
Yetim ağlağan olar. (1)
Yetim dirilər, yamanlıq Əzrayıla qalar. (22)
Yetim kimə zərər verərsən? – Mənə çörək verənə[4]. (46)
Yetim malı oddan yaman yandırar. (1)
Yetim qızın daşı ağır olar, ögey ananın sözü. (18)
Yetim yarımaz, yarısa da qarımaz[5]. (83)
Yetim yerə baxar, ürək yaxar. (1)
Yetimə öyüd verən çox olar, amma çörək verən az olar[6]. (2)
Yetimi doydur, nə olacağını düşünmə. (1)
Yetimi nə dög, nə sög, başına vur, çörəgin al əlindən[7]. (44)
Yetimin ağzı aşa yetəndə başı daşa dəyər[8]. (2)
Yetimin hamamda anası çox olar. (1)
Yetimin yetməsin, kol dibində bitməsin. (18)
Yetişmiş alma budaxda durmaz[9]. (9)
Yetkin armuda daş atallar. (9)
Yetmişində zurnaçılıq öyrənən axirətdə çalar[10]. (37)

---

1. (83), (41)
2. (2), (5), (83), (1)
3. (83), (12)
4. (83)
5. (15), (14)
6. (46), (83), (1), (9)
7. (83)
8. (1)
9. (14)
10. (55)

Yeyən bilməz, doğrayan bilər[1]. (2)
Yeyən içər, qonan köçər. (75)
Yeyən qurtardı, yalayan qurtarmadı[2]. (1)
Yeyəndə çeynə, danışanda fikirləş. (1)
Yeyər doymaz, yatar durmaz. (9)
Yeyərsən qaz ətini, görərsən ləzzətini[3]. (5)
Yeyərsən qüvvətin artar, verərsən hörmətin. (1)
Yeyəsini sevən itinə çörək doğrar. (83)
Yeyəsinin yanında pişik də it basar. (83)
Yeyici için Allah yetirər. (83)
Yeyilən maldı, qalan qəmdi. (83)
Yeyiləni yeyilir, qonağım küsülü gedir[4]. (1)
Yeyin at özünə qamçı vurdurmaz[5]. (2)
Yeyin gedən yol kəsməz. (1)
Yeyin yeriyirəm, "dəli" deyillər, asda yeriyirəm, "ölü" deyillər[6]. (9)
Yeyənədək söhbətin dadı olmaz. (75)
Yeznən yaxşı çıxsa, bir oğlun artdı, yeznən pis çıxdısa, qızın da dartdı. (11)
Yəəsiz it sərçədən qorxar. (18)
Yəəsiz itə daş atallar. (18)
Yəhər ata yük olmaz. (1)
Yəhər atın belində həmişə qalmaz. (1)
Yəhər gah atın belində gəzər, gah at yiyəsinin. (1)
Yığıf yemiyənnən, bilif demiyən havayı zəhmət çəkər. (9)
Yığıntı daşdan qalaq olmaz. (26)
Yığma dən üçün xırman açılmaz. (1)

---

1. (75), (28), (83), (1)
2. (83)
3. (83), (1)
4. (83)
5. (75), (28), (81), (83), (5), (1), (9)
6. (12)

Yıxarsız yıxılmışuuzda oturarsız, tikərsiz tikilmişuuzda oturarsız. (18)

Yıxılan yıxılana yoldaş olar. (1)

Yıxılana balta çalan çox olar[1]. (54)

Yıxılana xəncər qaldırmaq namərdlikdi. (1)

Yıxılana gülməzdər. (9)

Yıxılanın dostu olmaz. (1)

Yıxılmasa dikəlməz[2]. (55)

Yıxmasan, nallıya bilməzsən. (9)

Yılan kendü egrisin bilməs, tevəyə boynın egri ter. (3)

Yılan nə dənlü əgri bögri yürürsə, ini qapusına gəlicək toğrulur. (75)

Yılanı birəgü əlilə tut. (75)

Yılanın ayağını, qarışqanın gözünü, mollanın çörəgini hiç kim görməyib. (83)

Yılanın öcin kərtənkələdən alma. (75)

Yılanın sevmədigi yarbuzdur, ol dəxi ini qapusında bitər[3]. (75)

Yıqılan yıqılanı sevər. (75)

Yırtıcı aslan zülmkar şahdan yaxşıdı. (1)

Yırtıcı quşun ətin yeməzlər. (1)

Yırtıcı quşun ömrü az olar[4]. (14)

Yırtılmışca qarın olmasaydı, qurul-qurul pul qazanardım. (83)

Yırtıq böyük, yamaq kiçik. (1)

Yidim yandıranı, işdim söndürəni. (18)

Yigidin yorğunluğı qarnı toyuncadır. (75)

Yigidüm sağ olsun, bulunmayan qız olsun. (75)

Yigidün bəxtindən qocaların fikri yegdir. (75)

Yigidün rizqi yenindədür, salar avçına gətürər. (75)

---

1. (28), (5), (83), (1)
2. (1)
3. (1)
4. (1)

Yigit başından dövlət, tağ başından tuman irağ degildir. (75)
Yigit belin yoquş üzər, yoquş belin qoca üzər. (75)
Yigit necə yürürsə, yaraşır, yigit nə geyərsə, yaraşır. (75)
Yigit ögsüz olmaz. (75)
Yigit övrəti çirkin gərək. (75)
Yigit turduğu evə bunalmaz. (75)
Yigit, qız qiymətlü gərək; qız, altun qiymətlü gərək. (75)
Yigitlik eşək alığı kibi qat-qat olur. (75)
Yil yildən kəmdür. (75)
Yil yildən qutludur. (75)
Yilin on iki ayı qarıdan qaç. (75)
Yitiklü anası qoynun da arar. (75)
Yiyə gözü həkim gözü. (17)
Yiyən maldı, qalan miras, dala qoyanı it yiyər. (83)
Yiyənnən yimiyən duruşdu, yiyənin üzü qırışdı. (18)
Yiyəsi ölən eşşəyi qurd yeyər. (1)
Yiyəsinə baxarlar, atını nallarlar. (1)
Yiyəsiz ölü olmaz. (55)
Yiyəsiz öyə it girər[1]. (9)
Yolçudan yolçuya pay düşməz. (73)
Yoğun, incə ölüncə üzülür. (75)
Yoğun kərən gödək görünür, nazik quyu dərin görünür. (23)
Yoğurd tökülsə yeri qalar, ayran tökülsə nəyi qalar? (39)
Yoğurda ilk sunma, suyi səndən yana gəlür. (75)
Yoğurdın saqınan boranı yeməz. (75)
Yoğurdum əkşidür demiş qarı yoq. (75)
Yol bilməzsən, yola get[2]. (75)
Yol böyüyündü, su kiçiyin[3]. (1)
Yol əri yolda gərək. (75)
Yol haramisi ol, yoldaş haramisi olma[4]. (2)

---

1. (17)
2. (1)
3. (83)
4. (1)

Yol həmişə bostan kənarından düşməz. (1)
Yol ilə gedən yorulmaz[1]. (73)
Yol quzulayıcı olur. (75)
Yol üstə oturmazlar. (1)
Yol yeriməklə alınar. (1)
Yol adamı yular. (75)
Yola bələd olan büdrəməz. (1)
Yola çıxan yolda qalmaz. (1)
Yolçıdan xeyir gəlməz. (75)
Yolçının aqçası buçuğa keçər. (75)
Yolçının ziyanına dəgməz. (75)
Yolçu yolda gərək[2]. (2)
Yolçudan yolçuya pay düşməz[3]. (1)
Yolçuluğa gedən torbasını çiyninə atar. (1)
Yolçunu yoldan eləməzlər. (1)
Yolçunun torbasından tutmasan, ağacını əldən qoymaz. (83)
Yolçuya yol gərək, qurbağaya – göl. (1)
Yolda yoldaş, evdə qardaş. (1)
Yoldan çıxanı yol vurar[4]. (2)
Yoldan çıxır, yolunu azmır. (1)
Yoldan çıxmaq eyib deyil, yola gəlməmək eyibdi[5]. (44)
Yoldan irəli yoldaş, eldən irəli qardaş[6]. (5)
Yoldan keçənə yumaq sarıtdırır. (1)
Yoldan qal, yoldaşdan qalma[7]. (1)
Yoldaş yoldaşa baxar, canını oda yaxar[8]. (46)
Yoldaşı evdən götür, quşu yuvadan[9]. (46)

---

1. (83), (1)
2. (5), (83), (1)
3. (83)
4. (54), (83)
5. (2), (28), (83), (1)
6. (83), (1)
7. (9), (13)
8. (83)
9. (83), (1)

Yoldaşı yolda tanı. (1)
Yoldaşıma ağac dəydi, elə bildim saman çuvalına dəydi[1]. (2)
Yoldaşın olduğun adın sor. (75)
Yoldaşın sözünə inan, özünkündə dayan. (1)
Yoldaşın yaxşı olsa, uzun yol yaxın olar. (1)
Yoldaşını mənə de, sənin kim olduğunu deyim. (1)
Yoldaşuva gəyiş, bildigivi əldən qoyma[2]. (46)
Yolsuzu yola tapşır. (1)
Yolu azana it səsi xoş gələr. (14)
Yolu azanda dala qayıdallar. (18)
Yolu qardaşla kəsərlər, meşəni – mişarla. (1)
Yolunnan düz getmiyənin qabağına çakqal çıxar. (18)
Yoluxda nə var, qırığa nə versin. (1)
Yoq taşdan qatıdır. (75)
Yoqdan Tanrı da bezər. (75)
Yoqludan Tanrı da almaz. (75)
Yoqsul-yoqsul, oduna, suya da yoqsul? (83)
Yorğa at da hərdən büdrər. (1)
Yorğa yolda qalur, yeləgən mənzil alur[3]. (75)
Yorğan-döşək sözü, yorğan-döşəkdə qalar. (1)
Yorğanına görə ayağını uzat[4]. (2)
Yorğun döşək istəməz, aç qatıq istəməz. (75)
Yorğun eşşəyə «hoşa» xoş gələr. (1)
Yoruldun sarvana, acdın çobana[5]. (2)
Yorulmuş ata qamçı vurarsan, şıllaq atar. (1)
Yorulmuş eşşək mənzili yaxın istər. (1)
Yorulmuş öküz «oho»nu Allahdan istər[6]. (1)
Yovaya könül vermə. (75)

---

1. (9)
2. (83)
3. (16)
4. (28), (59), (1)
5. (83)
6. (83)

Yovşan bəsləməklə çəmənzar olmaz[1]. (1)
Yox yerdən istəməzlər. (1)
Yoxa çarə yoxdu. (1)
Yoxa qələm işləməz. (1)
Yoxdan bir şey çıxmaz. (1)
Yoxsul axça tapar, yer tapmaz[2]. (54)
Yoxsul bayın gəlincikidir. (75)
Yoxsul bir nəsnəyə möhtac degildir. (75)
Yoxsul cirə satıçaq ay axşamın toğar. (75)
Yoxsul öz vilayətində qəribdi. (1)
Yoxsul tanişməndin sözi keçməz, məgər övrəti gözəl ola. (75)
Yoxsul əgər bayırsa, çanağı bayımaz. (75)
Yoxsul, bayun nə qartaşı, eşək atun nə yoldaşı. (75)
Yoxsulluq eyib deyil, tənbəllik eyibdi. (33)
Yoxsulluğa düşməyən varlığın qədrini bilməz[3]. (2)
Yoxsulluğun üzü qaradı. (83)
Yoxsulluq varlılıqdan yaxşıdı. (1)
Yoxsullux adamı dostun da, düşmanın da qapısına aparar. (9)
Yoxsulun bini yüz qədərdür, yanlışın ər olur. (75)
Yoxsulun birinci bolğurdur. (75)
Yoxsulun çəkindügi kürkinə ziyandur. (75)
Yoxsulun dili gödək olar. (1)
Yoxsulun evində dəmir tapılmaz, itinin adını gümüş qoyar. (1)
Yoxsulun qoyunı tavuqdur. (75)
Yoxsulun üzü qaradu[4]. (1)
Yönsüz qoşu qonşunu xəcalətdi edər. (18)
Yönsüz zürgətdən keçəl yaxşıdı. (18)
Yuma-səmə inanma, yumsuz-səmsiz də qalma. (75)

1. (9)
2. (49), (1)
3. (83), (1)
4. (5), (6), (9)

Yumaxnan su qurtarmaz, qara da ağ olmaz. (9)
Yumrux çəkənə çomax çəkəllər. (9)
Yumşaq döşək salan, axırda quru yerdə yatar. (1)
Yumurta gətirmir, qayğanaq istəyir. (1)
Yumurtada tük bitməz. (1)
Yumurtadan yun qırxar[1]. (5)
Yumurtana görə qaqqılda. (1)
Yumurtası tərs düşüb. (1)
Yumuş oğlanın əgləndügi xeyirdür. (75)
Yun dararam, kələf olar, qız doğaram, mələk olar, xana toxuram, qıl olar, oğul doğaram pul olar[2]. (83)
Yunluyı basarlar, yunsuzı qoyu verirlər. (75)
Yunu var, ünü yox. (1)
Yurd tutma, su tut. (75)
Yurd yersiz qalanda donuz təpəyə çıxar[3]. (54)
Yurddan çıxsan da, eldən çıxma. (1)
Yurdu yurd edən kişidi. (12)
Yurdundan sürülən yurdına varınca ağlar. (75)
Yurt yurtdan qutludur. (75)
Yuvalanan taşa yosun yapışmaz. (75)
Yuxarı baxıb qəm eləyincə, aşağı baxıb dəm eylə. (1)
Yuxarı evdən baxıb, aşağı evi yıxma[4]. (55)
Yuxu ölümün qardaşıdı[5]. (1)
Yuxu var ürəkdə yurd salar, yuxu var qurd. (23)
Yuxu yuxu gətirər. (1)
Yuxuda balıq görən yastığının altını yoxlar. (1)
Yuxuda gözəl görmək yaxşıdı, oyanmaq olmasaydı. (1)
Yuxunun yanlışı olar, yalanı olmaz[6]. (83)

---

1. (1)
2. (1)
3. (5), (83), (1)
4. (1)
5. (12)
6. (9)

Yügrək at yemin kəndü artırar[1]. (75)
Yügrək atı başıra vurma. (75)
Yügrək bin, yüzsüzdən qaç. (75)
Yügrük meydana gəlicək dinsüzə dinin bildurər. (75)
Yügürən yıxıldığına baxmaz. (83)
Yük ağır olanda öküz öküzdən görər. (2)
Yük altında eşşək anqırmaz. (55)
Yük bacından ağrımaz[2]. (75)
Yük daşıyan eşşək adam öldürən şirdən yaxşıdı. (9)
Yük əyməsə, daş qəribliyə düşməz[3]. (44)
Yüknən gələn, taynan gidər, taynan gələn daynan gidər. (83)
Yüksək olma, dəpə-dəpə yerə endirərlər, alçağ olma, basa-basa yerə keçürürlər. (75)
Yüksək dəpəyə çıqmaq zəhmətdir, amma çoq tamaşası var. (75)
Yüksəkdən baqan alçağa tez enər. (75)
Yükün ağırlığını nər çəkər, dərdin ağırlığını ər. (33)
Yükünü yığdı təpəyə, elə arxa çevirdi. (33)
Yürəkdən yürəgə yol var. (83)
Yürüş vardır ki, turuşdan betərdür. (75)
Yürüyənə quş yetməz. (75)
Yüyürən büdrər. (1)
Yüyürən yıxılmağına baxmaz[4]. (55)
Yüz «vur» deyəndən bir vuran yaxşıdı. (1)
Yüz ağac sağrıya, sağrı bir yol ağrıya[5]. (46)
Yüz aşığın bir saqqası olar[6]. (2)
Yüz bilici olsan, yenə də bilməzlə danış[7]. (2)
Yüz birə qoşulmaz, bir yüzə qoşular. (1)

---

1. (55)
2. (2), (1)
3. (2), (55), (81), (5), (83), (1), (18)
4. (1), (14), (12)
5. (83)
6. (83)
7. (81), (83), (1)

Yüz dəfə ölç, bir dəfə biç. (48)
Yüz dərənin qabağını bir təpə kəsər[1]. (39a)
Yüz döndü, göz döndü. (83)
Yüz eşitməkdən bir görmək yaxşıdı. (1)
Yüz görən iman görməyib. (83)
Yüz gün sel oya bilməyən yeri bir gün dərd oydu[2]. (29)
Yüz gün yaraq, bir gün gərək[3]. (2)
Yüz xəlbirlənib bir əldən çıxacaq. (1)
Yüz il gərək qanqal otlayasan ki, ağzın dəvə ağzına oxşasın. (1)
Yüz il quraqlıq oldu, aclıq olmadı, bir il yağınlıq oldu, aclıq oldu. (14)
Yüz ilin ibadətindən bir günün səxavəti. (1)
Yüz iyirmi dörd min peyğəmbərə yalvarınca, bir Allaha yalvar. (14)
Yüz iynə yığsan, bir çuvalduz olmaz. (1)
Yüz qayğı bir borcu ödəməz[4]. (2)
Yüz qızılın oluncax, yüz dostun olsun. (9)
Yüz qoyun, yüz dəri. (75)
Yüz qoyuna da tiri hu, bir qoyuna da tiri hu. (83)
Yüz mamaça yığılsa, güc doğana düşər[5]. (2)
Yüz min təbib neyləsin, bir fələk qarğayana. (77)
Yüz namərd bir mərdi əvəz etməz. (1)
Yüz namərdin çörəyini doğrasan, kasa dolmaz. (1)
Yüz ölç, bir biç[6]. (2)
Yüz tülkü bir aslan yerini, yeddi oğul bir dədə yerini verməz. (1)
Yüz yeyənin olsun, bir deyənin olmasın[7]. (17)

---

1. (14), (41a)
2. (83), (1)
3. (37), (58), (1)
4. (81), (83), (1), (9), (11), (13)
5. (46), (83), (1), (14)
6. (1)
7. (15)

Yüz yüzdən utanur[1]. (75)
Yüzbaşının şahidi çavuş olar. (83)
Yüzə dözən, yüz birə də dözər. (9)
Yüzinə baq, andan sud um. (75)
Yüzü bəzək, içi təzək. (83)
Yüzü üstə gələni arxası üstə çevirməzlər. (83)

**Z**

Zahirdən batinə bir yol var. (1)
Zalım adam bayramda da zalımdı. (47)
Zalım görər, zorla alar, fağır görər, yalvarıb alar. (14)
Zalıma Allah bəla verər. (83)
Zalıma rəhm etmək məzluma zülm etməkdi[2]. (1)
Zalımın ömrü az olar. (1)
Zalımın qılıncınnan kasıbın ahı pisdi. (10)
Zalımın tamahı artıq, papağı yırtıq olar. (18)
Zalımın zülmü yadında qalmaz. (1)
Zalımun çörəgi dizi üstə olur. (49)
Zalımun hünəri olmaz. (49)
Zaman axıb gedir, amma hər işini qurtarıb getmir. (1)
Zaman bir nəhrdi, axar, durmaz. (1)
Zaman hər cür yalanın üstünü açır. (12)
Zaman ilə hesablaşmaq gərək. (1)
Zaman keçər, söz qalar. (1)
Zaman pul deyil, onu qaytarmaq olmaz. (1)
Zaman sənə saz olmasa, sən zamana saz ol. (2)
Zaman zamana uymaz. (1)
Zamana uymaq gərək[3]. (64)
Zamin əl kisə olur. (49)
Zaminlığun axırı peşimanluqdur. (49)
Zarafat axırı incikə yetür. (49)

---

1. (83)
2. (15)
3. (49), (1)

Zarafat həqiqətin yarısıdı. (12)
Zarafat məhəbbətin qayçıçısıdı, kəsif aradan çıxarar[1]. (9)
Zarafata zarafatnan cavaf verəllər. (9)
Zarafatın axırı xeyir olmur. (12)
Zarafatın da sərhəddi var. (12)
Zarlıq həqq dərgahında gərək. (49)
Zatı qırığın ipi qırıq olar. (26a)
Zatı söyüd olanın barını gözləmə. (80)
Zəhər dost əlindən şərbətdür. (49)
Zəhər gələndə acı qaçar. (1)
Zəhər zəhəri öldürər[2]. (1)
Zəhəri göz görə yemək olmaz. (49)
Zəhmət torpaqda, nemət süfrədə. (1)
Zəhmət çəkən bal yeyər. (1)
Zəhmət çəkməyən rahat görməz[3]. (49)
Zəhmət dost gətirər, qeybət düşmən. (12)
Zəhmət olan yerdə qeybət olmaz. (1)
Zəhmət yemək istəmir, amma özü yedirdir. (1)
Zəhmətdən qorxma, minnətdən qorx. (12)
Zəhməti məşşatə çəkər, ləzzəti damad aparar. (1)
Zəhməti sevəni hamı sevər. (12)
Zəhmətin axırı rahatdıxdı. (12)
Zəhmətlə yeyilən acı soğan, minnətlə yeyilən baldan şirindi. (1)
Zəhmətnən yaşa, zillət görmə. (9)
Zəhmətsiz bal yeməzlər[4]. (2)
Zəhmətsiz iş olmaz. (1)
Zəxirəsin fikr eyləyən peşimanlıq çəkməz[5]. (49)
Zəkat malun hasarıdur. (49)

---

1. (83), (12)
2. (12)
3. (49), (1)
4. (28), (31), (56), (83)
5. (1)

Zəlzələni görən yanğına razı olar. (1)
Zəman şimdi yüzsüzündür. (75)
Zəmanə adamı öyrədir. (1)
Zəmanə ilən düzəlişən həmişə rahətdəndür. (50)
Zəncini yumaqla ağarmaz. (83)
Zəncir aslan içündür. (50)
Zənn eyləmədiyin yerdən tülkü çıxar[1]. (28)
Zər ilə olan, zor ilə olmaz. (1)
Zər qədrini zərgər bilər, nə bilir hər divanə[2]. (83)
Zərbə həmişə ağrıyan yerə dəyər. (12)
Zəri zərgərdən, sazı sazbənddən sorarlar. (40)
Zərər görməyən xeyir görə bilməz[3]. (55)
Zərər oddan yamandı. (1)
Zərər verən qardaşdan xeyir verən yoldaş yaxşıdır. (55)
Zərər zəhərdən acı olar. (1)
Zərərin bir başı var. (1)
Zərgər dükanının tozu da qızıl olar. (1)
Zəri də var, zoru da[4]. (1)
Zərlə gözəllik almaq olmaz. (1)
Zərli palan qoysan, eşşək yenə eşşəkdir. (55)
Zərrə qədər iman, dünya qədər günah. (1)
Zərrəcə eşqi olanın dəryaca tabı gərək. (1)
Zərur nəsnə zərursuz gündə almaq gərək. (49)
Zınqırovlu dəvə itməz. (1)
Zimistan çəkməyən bülbül, baharın qədrini bilməz[5]. (72)
Zindan olub altda qalmaqdansa, çəkic ol, üstdə ol. (1)
Zindana səbr eyləyən, axır taxta çıxar[6]. (49)
Zinhar aləmdə tabe olur. (75)

---

1. (30), (59)
2. (28), (2), (1)
3. (1)
4. (6)
5. (1)
6. (1), (40a)

Zirək arvad dəvə üstündə patava toxuyar. (16)
Zirək quş dimdiyindən cələyə düşər[1]. (73)
Zirəklik comərdlik gətirir[2]. (2)
Zirəyə getdin çörək götür, Zirədən çıxdın ayaq götür. (1)
Zivildən təpə olmaz. (12)
Ziyan ağudan acıdı[3]. (2)
Ziyanlığın yarısından dönmək hələ qazancdı[4]. (83)
Zoğal dərənimiz də var, səbət hörənimiz də[5]. (9)
Zopa doğrusunu dedirdər. (1)
Zor gələndə qanun qaçar. (1)
Zor ilə gözəllik olmaz. (1)
Zor qapıdan girəndə, dad bacadan çıxar[6]. (1)
Zor oyunu pozur. (1)
Zor yarım şəriətdi. (9)
Zora dağlar dayanmaz. (1)
Zorən təbib olmaz. (1)
Zorla iş görmək olmaz. (12)
Zorla açılan gülün ətri olmaz. (12)
Zorla gedən köpək qoyuna fayda verməz. (1)
Zoruna güvənmə, ağlına güvən. (12)
Zövqsüz taət - barsuz ağacdur. (49)
Zulumnan abat olan ahnan bərbad olar. (18)
Zurnaçı dalını-başını oynadar, zilçinin gözü çıxar. (18)
Zurnaçı oğlu zurnaçı olar. (1)
Zurnaçı zorunu püfünə verər. (1)
Zurnaçı zurnaçı olsa, gəlini oynadar. (9)
Zurnaçının göz nəyinə lazımdır[7]. (37)
Zurnaçının yığdığı pul oyunçunun maaşıdı. (18)

---

1. (5), (83), (1)
2. (81), (83), (1)
3. (83), (1), (19)
4. (2), (1), (13), (14)
5. (12)
6. (9)
7. (1)

Zurnanı versən naşı əlinə, gen tərəfdən püfləyər. (1)
Zurnanın səsi uzaqdan xoş gələr[1]. (1)
Zülm ilən yapulan yapu tez xarab olur. (49)
Zülm ilə abad olan, bir gün gələr bərbad olar. (1)
Zülm ilə bərbad olan, ədl ilə abad olar. (1)
Zülm yerdə qalmaz[2]. (1)
Zülmət daşıdı: götürən də peşmandı, götürməyən də. (1)
Zülmün axırı aydınluqdur. (49)
Zülmün axırı olmaz. (1)
Zülmün bünyadı olmaz. (49)

---

1. (83)
2. (83)

## LÜĞƏT*

**A**

Afət – dərd, bəla, xəstəlik
Ağırlamaq – qonaq etmək, hörmət etmək
Ağrımaz – burada: qiymət qazanmaz
Aqıncı – hücum edən, talançı
Alaca – qırmızı
Albız – al arvadı, albasdı, şər ruh
Alu – alaq, zəif, köməksiz
Amac – hədəf, nişangah
Anda – orada
Anı – onu
Anıq – düzgün, doğru; xatırlayan, yadda saxlayan
Anız – saman, biçilmiş sahə
Ar – utanmaq
Ardasız – xətasız
Arğ – arx
Arınmaq – təmizlənmək, saflaşmaq
Armaq – genəltmək
Assı – xeyir, fayda
Aşırı – keçdikdə, aşdıqda; bəzən: kənarda mənasında
Aşina – tanış, dost
Avaz – nəfəs
Aydır – demək, söyləmək
Ayıtmaq – demək, söyləmək

**B**

Bac – xərac, vergi
Bad – təndirin divarları; bəd, pis; zərər ziyan
Badax – badalaq
Bağır – ciyər
Baxıl – paxıl
Bak – qorxu

Baqi – axmaq
Balağ – camış balası
Ban – arabanın üst ağacı; evin yuxarı hissəsi; səs, avaz
Bar – məhsul
Basılan - uduzan
Başaq – sünbül
Başıra – başına
Batil – boş, yalan, saxta
Bay – var-dövlətli
Baymaq (bayırmaq) – varlanmaq, sevinmək; məst olmaq
Bazırgan – tacir
Bədrəng – pis rəng
Bəlgilü – tamahkar
Bəri – burada: barı, məhsulu
Bilə – birlikdə, bir yerdə
Bilişmək – tanış olmaq
Bimar – xəstə, naxoş
Bişmağ – biçmək
Bitiy – yazı, məktub
Bolmaq – olmaq
Bögürtlən – böyürtkən
Börk – papaq
Buçuq – yarı, yarım
Budala – axmaq, sərsəri
Buqçu – burada: zurnaçı
Bulunmaq – tapılmaq
Bun – dərd, müsibət, kədər, qayğı
Bunalmaq – müsibətə düçar olmaq, fəlakətə düşmək
Buraq – Məhəmməd peyğəmbərin əfsanəvi atının adı
Bustan – güllük, bağça
But – büt, gözəl
Butraq (pıtraq) – alaq otu
Buymaq – donmaq, buzlamaq
Buzağu – buzovu

Buzalanmaq – buzovlamaq, balalamaq
Bünyad – özül, əsas, bünövrə

**C**

Canib – yan, tərəf, cəhət
Cəbbə – cövşən – zireh, zirehli paltar
Cəmiri (cimri) – xəsis
Cərahət – yara
Cərb (cərib) – ölçü, miqdar
Cida (cüba) – süngü, mizraq
Cidil (cidal) – mübahisə, silah
Comərd – mərd, səxavətli, hünərli
Cövşən – zireh, zirehli paltar
Cür – tay, tuş
Cürə – ley
Cürm – günah

**Ç**

Çağlı – sağlam, gümrah; böyüklükdə, qədər
Çalu (çalı) – tikan, çör-çöp, kol-kos
Çam – şam ağacı, sərv
Çapalaq – çapalayan
Çapuk – cəld, zirək
Çar – dörd
Çarbınmaq – çarpmaq, vurmaq, heyfslənmək
Çarü-naçar – istər-istəməz
Çayan – əqrəb
Çərək – batmanın dörddə biri; yara (qılınc)
Çətik – pişik
Çık – hasar
Çıra – çıraq, lampa
Çiçing (çəcənək) – toyuğun dənliyi
Çilov – yemək növü
Çorlu – xəstə, azarlı
Çoturru – nahamar

Çölmək – xörək bişirmək üçün saxsı qab
Çömbər – dairəvi şəklində
Çözülmək – açılmaq
Çur – səhv
Çuvalduz – iri iynə

**D**

Daxi – daha da
Dambat – lovğa
Dambul – meyvə
Damı (damu) – cəhənnəm
Damәndә – ümidsiz, köməksiz
Dan, danla – sabah, ertəsi gün
Dana – alim
Danişmənd – alim, bilikli
Dəgmə – hər yetən şəxs, kimsə, hər cür adam
Dəhən (dəhan) – ağız
Dək – tək, təki
Dəm – vaxt, nəfəs
Dəng – ölçü və çəki vahidi; pul; düyü dənini qabıqdan çıxaran alət; ağılsız; müqabil, bərabər
Dənlü (dəklü) – təhər, cür, növ
Dəpişmək – vuruşmaq, əlləşmək
Dəpmək – vurmaq
Dərdəcər – dərdli
Dəst – əl
Dəvaçı – iddiaçı
Dəvat – mürəkkəbqabı
Dəvazda (dəvazdəh) – on iki
Dəvi – iddia
Dəmgil-dəmgil – seyrək-seyrək, fasilələrlə
Dərdəqayım – dözümlü
Dıbır – erkək və cavan keçi
Dıcıq etmək – küsmək

Dışra – kənar, bayır, xaric
Dibə, dibbə – zirək, it oynadan
Dibək – yarma döymək üçün istifadə olunan içi oyulmuş göy daş; pota, qısa adam
Didar – yar, istəkli, sevgili
Dikən – tikan
Diləkcə – ərizə
Dilriş – dərdli
Dingə – baş geyimi (gümüş və qızıldan hazırlanırdı)
Dirlik (dirlük) – həyat, güzəran
Diyəsi – bahası
Domrov (dombra) – musiqi aləti
Donanmaq – geyinmək
Dorbiye – torbaya
Dov gəlmək – üstün gəlmək
Döləngic – doğar
Dörədügi – törədiyi
Döşurüf – yığıb
Döyə – düyə
Duruş – dözüm
Duş (düş)– yuxu
Duzağ – cələ, tor, tələ
Dügimək – dayanmaq; yığılmaq, toxdamaq
Dügün – toy, şənlik
Dügür – kələ-kötür, nahamar
Dülbənd – arzu edilən, sevilən, ürəyəyatan
Dün – dünən
Dürər – sarıyar, bükər
Dürləmək – seçmək
Dürlük – dirilik
Düzdənmək – burada: var-yoxdan çıxmaq
Düzmək – düzəltmək

**E**

Eğilmes - əyilməz
Ehmağ – əkmək
Endirmək – adam yerinə qoymaq, layiq bilmək
Eş – dost, yoldaş, şərik
Ekmək (etmek, əkmək, ətmək) – çörək, yemək
Evərmək–evləndirmək
Eyməçi – qatıqçı
Eyü – yaxşı
Eyümək – yaxşılaşmaq, öyünmək

**Ə**

Əbləh – axmaq, ağılsız, sarsaq
Əcir (əcr) – qarşılıq, mükafat, əvəz
Əglənmək – əylənmək, qalmaq, durmaq
Əgi – əyninə
Əğınnan – ayağı ilə
Əhədi alınmaq – haldan düşmək, var-yoxdan olmaq
Əhkam – hökmün cəmi: hökm, fikir
Əhl-əyal – ailə, ailə üzvləri
Əhlət – qəbir daşı
Əxi – qardaş; comərd
Əkmək (etmək, ekmek) – çörək, yemək
Əkrək – əkin
Əkşi – turş
Əm (əm-səm) – dərman
Əndək-döndək – sözünün üstündə durmayan
Ənig, ənik (ənicik) – bala, körpə
Ər – kişi, igid, qəhrəman
Əriş, arğac – xalçanın üfiqi və şaquli ipləri
Ərən – igid, qəhrəman
Ərgən – evlənmək vaxtı çatmış, nişanlı oğlan
Ərkan – qayda-qanun
Ərlik – igidlik

Əsən – sağ-salamat
Əstən – üstün
Əsvab – paltar
Ətmək (ekmek, əkmək) – çörək, yemək
Əyər – yəhər
Əyərləmək (ayarlamaq) – tədarük etmək
Əyrət – kişilik
Əygənci – kələkbaz, yoldan çıxaran
Əyyarlıq – oğurluq

**F**

Fel – əməl
Fəda – qurban, bədbəxtlik
Fəna – pis, puç
Fənn – fənd, aldatma, kələk
Fər – fərasətli
Fərib yemək – aldanmaq
Fəriştə – mələk, məlaikə
Fərz – vacib, zəruri
Fövt – əldən çıxma, yox olma, ölüm
Füzulluq – boşboğazlıq

**G**

Gap etmək – söhbət etmək, laqqırtı vurmaq
Gejdən – erkəndən
Geyəsi – paltar, geyim
Gəmik (kəmik) – sümük
Gəyiş (gənəş) – məsləhətləş
Gimrik – iri, narın olmayan
Gir – təpər, qüvvə
Girdəkan – qoz
Girdu – heykəl, büt
Gödən – qarın
Gög – yaşıl, göy; səma; kürəkən

Gömən (gömmək) – basdıran
Göpənək – biabırçı, rüsvayçı
Görklü – əziz, gözəl, göyçək
Göv – kürəkən
Göymək – halına yanmaq
Göyülsüz – könülsüz
Guş - qulaq
Güc – çətin
Gülbəng (gülbang) – nəğmə, azan, çadırış, dəvət
Günlük – çadır, kölgəlik
Güyəgü – kürəkəni, yeznəsi
Güz - payız

**Ğ**

Ğaibə – qaib, gözdən uzaq olan
Ğayət (qayət) – çox, olduqca
Ğeyr – özgə, başqa
Ğəni – varlı adam
Ğərbil – xəlbir
Ğərbilcə – xəlbir qədər

**H**

Haqq – Allah, ədalət, haqq
Havan – həvəngdəstə
Havar – kömək, havadar
Heyz – tənbəl, şil, topal
Həbəçi – mamaça
Həblə – belə
Həqir – alçaq, aciz, rəzil
Həlik – palçıq
Həmaşlıq – ortalıq
Həmavarlıq – birlik, yoldaşlıq
Həmlə – hücum
Hənək – oyun, zarafat, şuxluq

Həsud – paxıllıq çəkən, həsəd aparan
Həşəm – dərz (döymək üçün xırmana tökülən taxıl dərzi)
Həzar – min
Hilal – bir neçə gecəlik təzə ay
Hola – xırmanlarda əski buğda döymək üsullarından biri
Hoqqa – gərəksiz iş
Höcət – mübahisə
Höyür – diribaş, sağlam
Hummət – çalışma, səy, cəhd
Hülq – hülqum
Hünəruv – hünərin
Huniyan – boş qab, boş səs-küy

**X**

Xalıq – Allah, yaradan
Xar – zəlil, carəsiz, risvay
Xas – yaxşı, əsilzadə; məxsus
Xasır – həsir
Xay – özül, bünövrə
Xəfə – bürkü, havası boğuq yer
Xəkə qoymaq – əl çəkmək, tərgini vermək, susmaq
Xəsm – düşmən
Xəşm –acıq, qəzəb
Xırçı – bostançı
Xırs – ayı
Xiştək – köynək; köbə (köynəkdə)
Xonax – qonaq
Xo – ho
Xor – alçaq, həqarətlə
Xorat – zarafat, zarafatcıl adam
Xorluq – pislik, alçaqlıq
Xoşnud – sevincək
Xoy – xasiyyət
Xublar – gözəllər

Xunxa – qantökən, qanistəyən, qəssab
Xuryat – çirkin, kifir

**I**

Irqaş – yəhərin qaşı
Irlamaq (yıramaq) – nəğmə oxumaq, zümzümə etmək
Ismarlamaq – tapşırmaq

**İ**

İcabət – zərurət
İqrar – vəd, söz vermək
İl – el
İlərüdə – irəlidə
İlətmək – söyləmək, çatdırmaq, aparmaq
İllət – xəstəlik, nöqsan
İməci – iməcilik
İn – hin, yuva
İnahat – rişxənd, kinayə
İnayət – qayğı, kömək; yaxşılıq
İradət – iradə
İraq – uzaq
İrişmək (ərişmək) – qovuşmaq, üz-üzə gəlmək
İrəmə – çöllük, biyabanlıq
İrmək (ərmək) – çatmaq, qovuşmaq, yetmək
İrz – ismət
İs – his
İss – yiyə, sahib
İsrif – qənaət
İşdi – işləyən
İşgənə – xaş, ət suyu
İştan – şalvar
İv – bədənin oynaqları
İy – toxuculuq aləti
İyə – sahib, yiyə

İyəvən – həvəsli, meylli
İyvallah – xudahafizləşmə
İyümək – yaxşılaşmaq

**K**

Kahal – qoyunların dərisini qurudan xəstəlik
Kahil – tənbəl
Kahillik – tənbəllik
Kamandar – sərrast ox atan
Karsaz – işdüzəldən
Keşkə – kaş ki
Keyik – ceyran, dağ keçisi
Kədbanu – ev qadını
Kədu (kədi) – pişik
Kəl –keçəl
Kəlam – söz, danışıq
Kəlb – it
Kəlbəngi – vəhşi arı
Kəlik - əyri xiyar
Kəm – az
Kəndözi (kəndüzü) – özü
Kəndü – öz
Kərəm – alicənablıq, lütf, əliaçıqlıq, səxavət
Kərki – ağac yonmaq üçün alət
Kərzək – parçanın kənarı
Kəsər – balta növü
Kəşkül – dərvişlərdə xüsusi su qabı
Kıslı – qısılmış, burulub bükülmüş
Kibi – kimi
Kiçi bayram – Qurban bayramı
Kilid – cəftə, açar
Kirgənə – cəhrə
Kişi – adam
Kömçək – çömçə

Köməmək – kömək etmək, yardım etmək
Kömmə – kömbə, çörək növü
Könlək – köynək
Kösək – kösöv
Köşək – dəvə balası
Köti (kötü) – pis
Kötüri – tənbəl
Kövək – ağac növü
Köy – kənd
Köz – göz
Kuduk – quyu
Kuf – kif
Kumçu – alverçi
Kuna – quyruq
Kuruğ – quru
Kutah – qısa, gödək
Kutluğ – xoşbəxtlik
Kuz (güz) – payız
Külahduz – papaq tikən usta
Külbə (klubə) – koma; nehrə dəliyi, təndirin alt hissəsində qoyulan nəfəslik
Külfə – təndir növü
Kümçi – barama qurdu saxlayan
Kündə – dustaqların əl-ayağına vurulan zəncir, yaxud buxov
Kürəş – güləş
Kürsək – itin döllənmə zamanı
Küvəc – qazança

**Q**

Qab – qabıq
Qabaq – süpürgə; örtük
Qabmaq – qapamaq, örtmək
Qaç (kaç)– neçə
Qaçan – haçan

Qadanan – yazılan
Qadı – qazı, sərkərdə, qəhrəman
Qaftan – üst geyim
Qağırmaq (qığırmaq) – çağırmaq
Qaqımaq – qəzəblənmək, acıqlanmaq
Qal – söz, danışıq, səs-küy, dava-dalaş
Qalaq – hörük, divar
Qalb (qəlp) – saxta
Qalça – xalça
Qalğan – qalxan
Qanda – harada
Qandırmaq – susuzluğu yatırmaq, doyuzdurmaq; aldatmaq
Qanıx – ayıq
Qanğı – hansı
Qarağu (qarağı) – kor, qözü qıyıq
Qaraqac – qara ağac
Qaramaq – baxmaq, gözləmək
Qaranqu - qaranlıq
Qararmaz – qaralmaz
Qare – oxucu
Qarıca (karınca) – qarışqa
Qarıxmaq – çaşmaq
Qasnaq – tor şəkilli tikiş, yamaq
Qaşanmaq – coşmaq
Qatı – sərt
Qatında – yanında
Qatlanmaq – dözmək
Qavıl – qəbul, istək, razılıq
Qay – ayaqqabı (Çin dilində)
Qayır – suyun açdığı şırım, arx
Qayimlik (qayımlıq) – möhkəmlik, bərklik
Qayramaq – fikir çəkmək, qayğıya düşmək; burada: peşman olmaq
Qaysava – yağda bişirilmiş qaysı və ya kişmiş

Qazma – külüng; yerdən qazma ev
Qazux – mıx, çarmıx, paz
Qeydlü – qayğılı, fikirli; bağlı
Qəcələ – sağsağan
Qəddəmək – biçmək
Qəhr – qəzəb, hirs; tabe olma, məcburiyyət
Qəlt – namus
Qəltəban – namuslu
Qətra (qətrə) – damcı
Qılmaq – etmək
Qıpmaq – qapamaq, göz qırpmaq, örtmək
Qırağu – qırov
Qırav – qırpım, dişdəm
Qırqıl – qırqovul
Qısıraq (qısrağ)–qısır qalan heyvan
Qısqı – təzyiq; paz; əkin sahəsi; xiştək (paltarda); zolaq
Qıyı – əyri, kənar
Qıyısın – kənarın, qırağın
Qıyu – səs, hay-küy
Qız oğlan – qız uşağı
Qızıl – qırmızı
Qızlıq – burada: qəhətlik, aclıq
Qızmaq – qızarmaq, qəzəblənmək
Qissə – hekayət, rəvayət
Qissəxon – hekayəçi, hekayə danışan, nağıl danışan
Qiyas (kıyas)– ölçü; müqayisə
Qolay (kolay) – asan
Qomaz – qoymaz
Qonmaq – müvəqqəti yurd (düşərgə) salmaq
Qopmaq – ayrılmaq, qalxmaq, yerindən durmaq
Qopuz – musiqi aləti
Qoruq (qoraq) – qora
Qoşmaq (koşmaq) – qaçmaq, yüyürmək
Qovğa – macəra, əhvalat, iş

Qovm (qövm) – tayfa, qəbilə, qohum-qardaş
Qu – səs, dedi-qodu
Qulağız (klavuz, kulabuz) – bələdçi
Quli-biyaban – qulyabanı
Qulun – bala
Qumuz (qumbuc) – burada: kürək, bel
Quşanmaq – qurşanmaq
Quşqun – atın, öküzün bel ipi
Quşluğun – səhərdən günortaya qədərki vaxt
Qutlu (kutlu) – mübarək, uğurlu

**L**

Leşgər – ordu
Ləvənd – uca boylu
Linc – əzilmiş aş; küt
Lut – yemək
Lüleyin – gildən düzəlmiş avtaba

**M**

Manşır – bəlli
Marıx – pusqu
Mehman – qonaq
Mehr – möhür, başlıq
Məfxər – qürür
Məlamət – bəla, məzəmmət
Məlul – kədərli, qüssəli
Mərdud – məsul, rədd olunmuş
Məskənət – acizlik, çarəsizlik
Məsrur – şad, sevinc, şən
Məşşatə – gəlini bəzəyən qadın, yengə
Məzad – hərrac, satılmaq üçün qiymət qoyulma
Miqras (miqraz) – qayçı
Miyançılıq – vasitəçi
Mövt – ölü

Mövüc – kişmiş
Munculu – bər-bəzəkli
Muz – mıx (yerə vurularaq dana bağlanır)
Müamilə – rəftar; alış-veriş, faizlə borc pul vermə
Müdara – zahirdə dostluq göstərmək, yola getmək
Müəzzin – azançı, azan verən
Müxənnət – yava, ədəbsiz, alçaq, namərd
Münafiq – ikiüzlü, riyakar; nifaq salan
Müşgək – künc
Müzəvvir – hiyləgər, saxtakar, riyakar adam

**N**

Namastıq – şəriklikdən
Naşta – burada: ac
Nəimət – nemətlər
Nəxunək – görməmiş
Nəkat – məsləhət, götür-qoy
Nəqabət – bədbəxtlik, neybət
Nəməg (nemek) – duz
Nəpək – görməmiş
Nəsi – nəyi
Nəsnə – şey
Nırx – qayda; qiymət
Nik (dür) – yaraşır, xoşdur, yaxşıdır
Nikbət – neybət, eybəcərlik

**O**

Od – burada: ot mənasındadır
Oqın – oxunu
Oqumaq (oqutmaq) – çağırmaq, dəvət etmək
Onmaq (önmək) – düzəlmək, sağalmaq
Opa – oba, yurd
Orda – tayfa, el, oymaq; düşərgə
Orğan – örkən
Ot – burada: od mənasındadır

**Ö**

Öc – intiqam
Ödünc – borc, ödənilən şey
Ög – ön, qabaq tərəf
Ögdül – tərif, tərifəlayiq, şan – şövkət
Ögeyk – öyünən
Öksüz – yetim
Ölçəm – ölçü, qiymət
Önəlmək (önərmək) – sağalmaq, düzəlmək
Önməz – yüksəlməz, irəli getməz
Önmiş – burada: ağ günə çıxan
Ör (ur) – əcdad, əsil – nəsil; el, tayfa
Örəpə – zəif
Örmək – artmaq, törəmək
Öyəc - qoç
Öykə – acıq, hirs
Öylə – günorta yeməyi
Öyləd – sağalmaz xəstəlik, epidemiya
Öyün – bax: öylə

**P**

Pa – ayaq
Palanduz – palan tikən usta
Pasiban – gözətçi
Patava – ayağa dolanan parça, sarğı, dolaq
Payidar (paydar)– daimi, uzun sürən
Pazlamac – bozlamac
Pənc – beş
Pərhiz – pəhriz
Pesər – oğul
Peyğam–xəbər, sifariş, xahiş
Peynir – pendir
Pişgah – ön, qarşı
Puşt (puşt, püşt) – çiyin, arxa, dəri

**R**

Rah – yol, məslək, razılıq

Rayic – işə gedən, tez satılan (mal)

Raz – sirr

Rənc – zəhmət, əziyyət

Rəncbər – əkinçi, zəhmətkeş

Rizq (rızq, ruzi) – azuqə, qida şeyləri; yemək

Rza – razılıq

Rövzə - burada: oruc

**S**

Sağır – yetim

Sağışlu – saylı-hesablı

Sağnamaq – salmaq, dürtmək

Saxa – boşboğazlıq, deyingənlik

Saqınmaq (saqlanmaq) – çəkinmək, ehtiyat etmək; qorumaq, mühafizə etmək; saxlamaq; gizlətmək

Sala – birgə oxunan dua

Salavat – namaz duaları, dualar

Salsal – tərlan cinsli quş

Sapmaq – azmaq

San – şöhrət, şan

Sarb – tünd

Sarban – dəvəni sürən, karvanbaşı

Sarp – çətin, sərt

Sasılıq – kafir yeməyi, müsəlmanların yemədiyi qida şeyləri

Satu – alış-veriş

Savuq – soyuq

Sayru – xəstə

Semiz (səmiz) – kök, yağlı

Səgrəmək – tənbəlləşmək

Səhərxizlik – səhər tezdən yuxudan durmaq

Səkil – səkən, sıçrayan

Səlamət – sağlıq, dinclik

Səmər – fayda, nəticə, meyvə; palan
Səmirmək – kökəlmək
Sər – baş
Sərçeşmə – bulağın çeşməsi, gözü
Sərdar – ordu başçısı
Sərmayə – maya, pul; mənbə
Sərpə (serp) – su dəyirmanının dənliyi
Sərraf – zərgər
Sığamaq – sığallamaq
Sığır – inək, öküz
Sındu – qayçı
Sırko – əda
Sıtma – qızdırma, titrətmə
Sızı – çiban, yara
Sicim – kəndir
Simiz – bax: semiz
Sinək – milçək
Sinmək – gizlənmək
Sirdar – sirr sahibi, sirr saxlayan
Sirət – əxlaq, xasiyyət, davranış
Sitəmkar – əzabverən
Soqmaq – sancmaq
Son – burada: sonra
Sonulamazdar – seçməzlər
Suç – günah
Sud – fayda, xeyir
Sulağ – təknə, su qabı
Sum – pul vahidi
Sunmaq – uzatmaq, təqdim etmək
Sübaşı – qoşun başçısı
Süci – şərab, içki növü
Sünnət – qayda-qanun, vacibin əksi, zəruri olmayan
Sünü – süngü, nizə
Sürçən – sürüşən

Sürmək – burada: sürtmək
Sürülən – sürgün edilən

**Ş**

Şaşı – çaşqın, yol bilməyən
Şatir (şatur, satir, şatır) – xəbərgətirən
Şaydatdığ – şahidlik
Şayəd (şayədə) – birdən, əgər, bəlkə
Şəbpərə – gecəquşu, yarasa
Şər – şəriət qayası ilə mühakimə
Şərarət – pislik
Şərsa – pis adam, şər adam
Şil – şikəst
Şilə – xörək; qırmızı parça
Şimdiki – indiki
Şiti (siti) – sehr
Şum – pis, bəd
Şükri – Allah, şükür olunan şəxs

**T**

Tab – dözüm, taqət
Taət – itaət, tabe olmaq
Talib – tələb edən, istəyən, arzusunda olan; tələbə olan adam
Tama – tamah
Tamla (maq) – tamamlamaq
Tamu – cəhənnəm
Tan – heyrət, təəccüb
Tan gəlmək – heyrətlənmək, təəccüblənmək
Tanıq – şahid
Tanişmənd – bax: danişmənd
Tanışır – tanınır
Tap – tay, bərabər
Tapu – ibadət
Tar – tündxasiyyət, qaraqabaq, qısqanc
Tarcuq (tarcığ) – hədsiz istək

Tasa – qəm-qüssə, səbirsizlik
Tasvasta – təşvişdə
Taş (dış) – xarici, xarici görkəm
Tatlu – şirin
Tavar – mal-mülk, mal-qara
Tavul – təbil
Tayanmaq – dayanmaq, dözmək
Təğəyyür – dəyişmə, burada: dəyişkənlik
Təqdir – Allah, alına yazılan, qismət
Təməvvüc – dalğalanma, ləpələnmə, çalxalanma
Tən – bədən, cism
Tənə – firlama kabab
Təng – burada: zərər
Təyəmmüm – su olmayan yerdə torpaqla dəstamaz almaq
Təzənə – mizrab
Tıqmaq – tıxamaq
Tışra – bayır, çöl
Timar (tumar) – baxma, qulluq etmə
Tobalaq – yumru kökləri olan yabanı bitki növü
Toğan – şahin, qızılquş
Toğrulmaq – düzəlmək
Ton – bax: don
Tonmaz – donmaz
Toyı bitdikdə – acanda
Törə (törü) – törəmə, nəsil, artma; adət-ənənə
Töyvə – tövbə
Tufaq – burada: mərasim
Tutmac (tutmaç) – xəngəl, əriştə
Turuş – dözüm, davamlılıq; yarışmaq
Tükürmək – tüpürmək
Tülə – tövlə
Tütün – tüstü
Tüy – iç, içəri

**U**

Uc – son, axır
Uçmaq – cənnət, cənnətə getmək
Uğramaq – rast gəlmək
Uğur – təsadüf
Ulaşmaq – dolaşmaq, rast gəlmək, sataşmaq, birləşmək
Ulu – böyük
Ulu bayram – Orucluq bayramı
Ulus – el, tayfa
Ur – əsil-nəsil
Ur (bostan uru) – bostan yolma
Urcasına – tərsinə
Urmaq – vurmaq
Uruşmaq – vuruşmaq, savaşmaq
Us – ağıl, huş
Usatmaq – yormaq, bezikdirmək
Usladur – ağıllndırır
Uslu – ağıllı
Uşta – budur
Uyan – yüyən
Uymaq – uyğunlaşmaq
Uyur – yatan
Uz – yaxşı, kəsərli, təsirli
Uzalmaq - qızarmaq
Uzamaq – yaxşılaşmaq

**Ü**

Ün – səs
Ünlü – səsli, səs-sədalı
Üşmək – yığılmaq, qıvrılmaq

**V**

Varmaq – getmək
Verəsi – borc, verilməli şey

**Y**

Yaban – çöl, səhra
Yağı – düşmən
Yağır – at belində yəhərdən əmələ gələn yara
Yaqın – yaxın
Yalıncıq – dilənçi, çılpaq
Yalqu – yalqız, tənha
Yanğu – əks-səda
Yanşaq – aşıq, burada: çox danışan
Yapı – tikinti
Yapıncaq – yapıncı
Yapış – güləş, qurşaq
Yapmaq – qurmaq, tikmək
Yaraq – hazırlıq, silah
Yarğılamaq – mühakimə etmək
Yarıcı – köməkçi
Yarın – sabah
Yaruv – yarın, sevgilin
Yaşar – yaşlı
Yatlu – pislik, tənbəllik
Yava – pis, acıqlı
Yavi – yavaş, ahəstə
Yavrı – quzu, körpə
Yavuq – yaxın, yaxın adam
Yavuz – pis adam, acıqlı
Yayan – piyada
Yek – bir, tək
Yeləkmək – şişmək, özündən çıxmaq
Yelimlü – yapışqanlı
Yemiş – meyvə
Yeng – paltarda qolun ələ yaxın hissəsi, qolçaq
Yenilə – təzəliklə, yenicə
Yenmək – üstün gəlmək, məğlub olmaq
Yeyni – cəld, tez

Yıqaç – ağac
Yıprağ – əzik, yayğın, gen
Yılmaq (yıldi) – yorulmaq (yoruldu)
Yıylaşuraq – iyləməklə, qoxulaşmaqla
Yitiklü – bir şeyi itirən adam
Yiyiməz – iylənməz, xarab olmaz
Yoğurd – qatıq
Yonğa – yonqar, sərt
Yova – yava, pis adam
Yu – yüyən
Yulamaq – yedəkləmək, yüyənləmək, çəkib aparmaq
Yum – xeyir, bərəkət, fayda; dua, fal
Yund – qulan, vəhşi at
Yutmaq – udmaq
Yuvalanmaq – yumbalanmaq
Yuvaşmaq – yaxınlaşmaq
Yügrək – cəld, sürətli, iti, yaxşı çapan at
Yügrük – cəld qaçan
Yürügən – qaçmağa həvəsli
Yüzülmək – kəsilmək, yorulmaq, əldən düşmək

**Z**

Zarlıq – ağlamaq, nalə çəkmək, yalvarmaq
Zayi – itmiş, zay, hədər
Zəbunluq – zəiflik, acizlik
Zəxirə – ərzaq, azuqə; döyüş sürsatı
Zəkat – malın onda biri qədərində verilən dini vergi
Zər – qızıl, cəvahirat
Zəngənə – qara dərili, zənci
Zərur – vacib, zəruri
Zılx – çuğundur
Zift – qartmaq
Zinhar – müdafiə, təhlükəsizlik

## * Lüğətin tərtibində istifadə edilən mənbələr:


1) Azərbaycan dialektoloji lüğəti. I cild. A-L. Ankara-1999

2) Devellioğlu F. Osmanlıca – Türkçe Ansiklopedik luğat. “Aydın kitabevi”, Ankara – 2004

3) Ərəb və fars sözləri lüğəti. Bakı-“Yazıçı”-1985

4) Rəcəbli Ə. Qədim türkcə-azərbaycanca lüğət. Bakı - “Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı” – 2001

5) Будагов Л. Сравнительный словарь турецко-татарских наречий; в 2-х томах, Санкт-Петербург – 1869 -1871

6) Kaşğari M. Divani Lüğat-it-Türk; 4 cilddə, Bakı – «Ozan» - 2006

7) Kitabi-Dədə Qorqud ensiklopediyası; 2 cilddə, Bakı – Yeni Nəşrlər evi - 2000

8) Радлов В.В. Опыт словаря тяркских наречий; в 8-и томах, Санкт-Петербург – 1893 -1911

9) www.nedirnedemek.com internet saytı

## QAYNAQLAR

1. Atalar sözü. Toplayanı: Əməkdar mədəniyyət işçisi Əbülqasım Hüseynzadə. Tərtib edəni: f.e.n. Hamid Qasımzadə. Elmi redaktoru: f.e.d. Bayram Tahirbəyov. Bakı - "Yazıçı" – 1985

1a. Atalar sözü. Toplayanı, tərtib edəni və nəşrə hazırlayanı: əməkdar mədəniyyət işçisi Əbülqasım Hüseynzadə. Ön sözün müəllifi: f.e.d. Bayram Tahirbəyov. Bakı-"Yazıçı"-1981

1b. Atalar sözü. Toplayanı: Əbülqasım Hüseynzadə. Ön sözün müəllifi: Həmid Araslı. Redaktor: M. Arif. Bakı-"Azərnəşr"-1938

1c. Atalar sözü. Toplayanı: Əbülqasım Hüseynzadə. Ön sözün müəllifi: f.e.n. Həsən Qasımov. Redaktor: Ələkbər Ziyatay. Bakı-"Azərnəşr"- 1956

2. Atalar sözü. Azərbaycan folklorunun ilkin nəşrləri seriyası. Tərtib edəni: Məmmədvəli Qəmərli. Transfonoliterasiya və sözlüyün müəllifi: f.ü.f.d. R. Xəlilov. Ön sözün müəllifi: f.e.d. İ. Abbaslı. Elmi redaktoru: f.e.d. Hüseyn İsmayılov. Bakı - "Səda" - 2003

3. Atalar sözü. Tərtib və ön sözün müəllifi: f.e.n. Cəlal Bəydili (Məmmədov). Elmi redaktor: prof. İsrafil Abbaslı. Bakı – "Öndər"-2004, səh: 248 - 252

3a. Atalar sözü. Tərtibçilər: Teymur Əhmədov. Allahşükür Qurbanov. Redaktor: Nərgiz Rüstəmli. Bakı-"Nurlar Nəşriyyat Poliqrafiya Mərkəzi"-2007

4. Atalar sözü və məsəllər. Toplayanı və tərtib edəni: Aslan Əsədov. Redaktor: AMEA Folklor İnstitutunun elmi işçisi A. Əhmədli. Rəy verənlər: AMEA Folklor İnstitutu f.e.n. R. Əliyev, AMEA Folklor İnstitutunun elmi işçisı Q. Sailov. Bakı-"Təhsil"NPM-2008

5. Atalar sözləri. Toplayanı: Kəlvin kənd məktəbinin müəllimi Mahmudbəy Mahmudbəyov. Transfonoliterasiya edən: AMEA Folklor İnstitutunun böyük elmi işçisi f.e.n. Rza Xəlil

6. Azərbaycan folkloru antologiyası. I cild. Naxçıvan folkloru. Tərtib edənlər: Təhmasib Fərzəliyev. Məhərrəm Qasımlı. Elmi redaktor: İsrafil Abbasov. Rəyçilər: Vəli Əliyev, Bəhlul Abdulla. Bakı – “Sabah” – 1994, səh: 219-226

7. Azərbaycan folkloru antologiyası. I cild. Naxçıvan folkloru. Baş məsləhətçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov. Rəyçilər: AMEA-nın həqiqi üzvü İsa Həbibbəyli; AMEA-nın həqiqi üzvü İsmayıl Hacıyev. Tərtib edənlər: f.e.d., prof. Məhərrəm Cəfərli, Rafiq Babayev. Redaktoru: f.e.d., prof. M. Cəfərli. Dialektoloji sözlüyü hazırlayan: AMEA-nın müxbir üzvü Ə.A.Quliyev. Naxçıvan-“Əcəmi”-2010, səh: 275-283

8. Azərbaycan folkloru antologiyası. II cild. Borçalı folkloru. Toplayanı: f.e.d., prof. Valeh Hacıyev. Tərtib edəni: f.e.d. İsrafil Abbasov. Redaktoru: Əlövsət Ağalarov. Bakı–“Azərbaycan Dövlət Nəşriyyatı”–1996, səh: 127-129

9. Azərbaycan folkloru antologiyası. III cild. Göyçə folkloru. Toplayıb tərtib edən və ön sözün müəllifi: Hüseyn İsmayılov. Elmi redaktoru: f.e.d., prof. Yaşar Qarayev. Rəyçilər: f.e.d., prof. Mürsəl Həkimov, f.e.d., prof. Qara Namazov, f.e.n. Oruc Əliyev. Bakı–“Səda”–2000, səh: 305-320

10. Azərbaycan folkloru antologiyası. IV kitab. Şəki folkloru. I cild. Tərtib edənlər: Hikmət Əbdülhəlimov, f.e.n. Ramazan Qafarlı, f.e.n. Oruc Əliyev, Vaqif Aslan. Redaktoru: f.e.d., prof., əməkdar elm xadimi Yaşar Qarayev, rəyçilər: f.e.n. Hüseyn İsmayılov, sən.n. Faiq Çələbiyev. Bakı–“Səda”–2000, səh: 314-326.

11. Azərbaycan folkloru antologiyası. VI kitab. Şəki folkloru. II cild. Toplayanı, tərtib edəni, toplayıcılar, qaynaqlar haqqında məlumatın, qeyd və şərhlərin müəllifi: Hikmət Əbdülhəlimov. Ön sözün müəllifi: sənətşünaslıq namizədi, A.İ.Gertsen adına Rusiya Dövlət Pedaqoji İnstitutunun Etnokulturologiya kafedrasının dosenti Faiq Çələbi. Redaktoru AMEA müxbir

üzvü Yaşar Qarayev, rəyçi: f.e.d., dos. Hüseyn İsmayılov. Bakı–“Səda”–2002, səh: 47-66.

12. Azərbaycan folkloru antologiyası. VII cild. Qaraqoyunlu folkloru. Tərtib edənlər: f.e.n. Hüseyn İsmayılov, Qurban Süleymanov. Elmi redaktoru prof. Qara Namazov. Rəyçilər: f.e.d. İsrafil Abbaslı, f.e.n. Oruc Əliyev. Bakı–“Səda”–2002, səh: 192-220

13. Azərbaycan folkloru antologiyası. VIII cild. Ağbaba folkloru Toplayıb tərtib edənlər: f.e.n. Hüseyn İsmayılov, Tacir Qurbanov. Elmi redaktoru: prof. İsrafil Abbaslı. Rəyçi: f.e.n. Əziz Ələkbərli. Bakı–“Səda”–2003, səh: 211-217

14. Azərbaycan folkloru antologiyası. IX cild. Gəncəbasar folkloru. Toplayıb tərtib edənlər: f.e.n. Hüseyn İsmayılov, Raziyə Quliyeva. Elmi redaktoru: prof. İsrafil Abbaslı. Rəyçilər: f.e.n. Sərxan Xavəri, Ağaverdi Xəlil. Bakı–“Səda”–2004, səh: 275-297

15. Azərbaycan folkloru antologiyası. X cild. İrəvan folkloru. Toplayıb tərtib edənlər: f.e.n. Hüseyn İsmayılov, f.e.n. Əziz Ələkbərli. Elmi redaktoru: prof. İsrafil Abbaslı. Rəyçilər: AMEA-nın müxbir üzvü Teymur Bünyadov, prof. Qara Namazov. Bakı–“Səda”–2004, səh: 259-268

16. Azərbaycan folkloru antologiyası. XI cild. Şirvan folkloru. Toplayıb tərtib edənlər: f.e.d. Hüseyn İsmayılov, f.e.d. Seyfəddin Qəniyev. Elmi redaktoru: f.e.d. Hüseyn İsmayılov. Rəyçilər: f.e.n. Oruc Əliyev, Ağaverdi Xəlil. Bakı–“Səda”–2005, səh: 262-266

17. Azərbaycan folkloru antologiyası. XII cild. Zəngəzur folkloru. Toplayıb tərtib edənlər: f.e.d. Vəli Nəbioğlu, f.e.n. Muxtar Kazımoğlu, f.e.n. Əfzələddin Əsgər. Elmi redaktoru: f.e.d. Hüseyn İsmayılov. Rəyçilər: f.e.n. Təhmasib Fərzəliyev, f.e.n. Oruc Əliyev. Bakı–“Səda”–2005, səh: 364-367

18. Azərbaycan folkloru antologiyası. XIII cild. Şəki-Zaqatala folkloru. Toplayıb tərtib edənlər: prof. İsrafil Abbaslı, f.e.n. Oruc Əliyev, f.e.n Mətanət Abdullayeva. Elmi redaktoru:

f.e.d. Hüseyn İsmayılov. Rəyçilər: f.e.n. Təhmasib Fərzəliyev, f.e.n. Ramil Əliyev. Bakı–"Səda"–2005, səh: 305-320

19. Azərbaycan folkloru antologiyası. XIV cild. Dərbənd folkloru. Toplayıcılar: f.e.d. Hüseyn İsmayılov, f.e.n. Samilə Xurdamiyeva. Tərtib edən: f.e.d. Hüseyn İsmayılov, Tahir Orucov. Ön sözün müəllifləri: f.e.d. Hüseyn İsmayılov, Tahir Orucov. Redaktoru: f.e.d. Hüseyn İsmayılov. Rəyçilər: f.e.n. Sərxan Xavəri, f.e.n. Ağaverdi Xəlil. Bakı – "Səda"–2006, səh: 210-245

20. Azərbaycan folkloru antologiyası. XVI cild. Ağdaş folkloru. Toplayıb tərtib edən: İlkin Rüstəmzadə. Redaktor və ön sözün müəllifi: f.e.d. Hüseyn İsmayılov. Rəyçilər: f.e.n. Əfzələddin Əsgər, f.e.n. Muxtar İmanov. Bakı – "Səda"–2006, səh: 455-459

21. Azərbaycan folkloru antologiyası. XVII cild. Muğan folkloru (Alarların arasından toplanmış folklor nümunələri) Toplayan: Bilal Hüseynov. Tərtib edəni, redaktoru və ön sözün müəllifi: f.e.d. Hüseyn İsmayılov. Rəyçilər: f.e.n. Seyfəddin Rzasoy; f.e.n. Ağaverdi Xəlilov. Bakı–"Nurlan"–2008, səh: 134-138

22. Azərbaycan folkloru antologiyası. XIX cild. Zəngəzur folkloru – II kitab. Toplayanı və ön sözün müəllifi: f.ü.f.d. Rəşid Təhməzoğlu. Tərtib edən: f.e.d., prof. Hüseyn İsmayılov, f.ü.f.d. Rəşid Təhməzoğlu, f.ü.f.d. Əziz Ələkbərli. Redaktoru: f.e.d., prof. Hüseyn İsmayılov. Rəyçilər: f.e.d., prof. İsrafil Abbaslı, f.e.d., prof. Qara Namazov. Bakı–"Nurlan"–2009, səh: 11-50

23. Azərbaycan folkloru antologiyası. XX cild. Loru – Pəmbək folkloru. Toplayıb tərtib edənlər: f.e.d., prof. Hüseyn İsmayılov, f.e.n. Əziz Ələkbərli. Redaktoru: f.e.d., prof. İsrafil Abbaslı. Rəyçilər: f.e.d., prof. Qara Namazov, f.e.d., prof. Məhərrəm Cəfərli. Bakı – "Nurlan" – 2011, səh: 257-261

24. Azərbaycan folkloru antologiyası. XXII cild. Borçalı - Qarapapaq folkloru. Toplayıb tərtib edən və ön sözün müəllifi: Gürcüstan Ədəbiyyatşünaslıq Akademiyasının həqiqi üzvü, f.e.d., prof. Valeh Hacılar. Redaktoru: f.e.d., prof. Hüseyn İsma-

yılov. Rəyçilər: f.e.d., prof. İsrafil Abbaslı, f.e.d., prof. Qara Namazov, f.e.n. Əziz Ələkbərli. Bakı–"Nurlan"–2011, səh: 67-75

25. Azərbaycan folkloru antologiyası. XXIII cild. Naxçıvan örnəkləri – II kitab Toplayan: Aytən Cəfərova. Tərtib edənlər: f.ü.f.d. Əziz Ələkbərli. Aytən Cəfərova. Redaktor: f.e.d. Muxtar Kazımoğlu. Rəyçilər: f.e.d., prof. İsrafil Abbaslı, f.e.d., prof. Məhərrəm Cəfərli. Bakı–"Elm və təhsil"–2012, səh: 111-119

26. Azərbaycan folkloru-Güney Azərbaycan folkloru. I kitab. (Təbriz, Yekanat və Həmədan ərazilərindən toplanmış folklor örnəkləri). Toplayan: Məmmədəli Fərzanə. Elmi redaktoru və ön sözün müəllifi: f.e.d., prof. İsrafil Abbaslı. Tərtib edən: f.ü.f.d. Sönməz Abbaslı. Rəyçilər: fil.ü.f.d., dos. Rza Xəlilov, fil.ü.f.d., dos. Əziz Ələkbərli. Bakı-"Elm və təhsil"-2013, səh:120-145

26a. Bünyadov Teymur. Başı çalmalı dağlar. III kitab. Tərtib edəni və redaktoru: Hüseynova Zivər Mehdi qızı. Bakı-"Nurlan"-2010, səh:325-335

27. Caferli Muharrem. Nahçıvan atasözleri üzerine. Yol Bilim Kültür Araşdırma Dergisi. Ankara – "BRC Basım", 2008, sayı 29, sayfa 51-60.

28. Çernyayevski A.O. və Vəlibəyov. Vətən dili. II cild - Tiflis - 1888 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

29. Çernyayeski A.O. və Vəlibəyov. 1888/1 Vətən dili. II cild - Tiflis – 1888. 1305 h. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

30. Çernyayeviski A.O. Vətən dili. əvvəlimci cild - Tiflis - 1898 Atalar sözü. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

31. Çernyayeviski A.O. və Vəlibəyov. Məsəllər (I). Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

32. Doktor Səlamullah Cavid. Nümunəhayi folklori Azərbaycan. Tehran-1334 (hicri-qəməri), -1965 (miladi), - çapxaneyi "İttihad", səh: 11-13. Atalar sözü. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

33. El çələngi. DUƏK seriyasından. III cild, Toplayıb tərtib edənləri: F.e.n. Təhmasib Fərzəliyev, f.e.n. İsrafil Abbasov. Redaktoru: f.e.d., prof. Kamran Məmmədov. Bakı-"Gənclik"-1993, səh:113-138

34. El düzgüləri, elat söyləmələri. Toplayıb tərtib edəni: Məhərrəm Qasımlı. Redaktoru: Çingiz Ələkbərzadə. Bakı-"Azərnəşr"-1993, səh: 67-73

35. El sözü, yurd yaddaşı. Folklor toplusu. Toplayıb tərtib edəni və çapa hazırlayanı: f.e.n. Məhsəti Rüstəm qızı İsmayıl, Redaktoru: f.e.n. Fərqanə Kazımova. Rəyçilər: akad. İsa Həbibbəyli, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə. Bakı-"Elm"-2010, səh: 114-116

35a. Əbdülhəlimov Hikmət. Daşdan su çıxan kimi... (Xatirələrim, düşüncələrim...). Redaktor: Ədalət Tahirzadə. Ön sözün müəllifi: Qüdrət Əbdülsəlimzadə. Naşiri: Akif Dənizizadə. Bakı-"Apostrof MMC"-2012, səh: 195-310

36. Əli Süleymanov. Babaların hikmət xəzinəsi. Milli azlıqların folkloru. Şəki-Balakən bölgəsi. Toplayan, tərtib edən, nəşrə hazırlayan və ön sözün müəllifi pedaqoji elmlər üzrə fəlsəfə doktoru Əli Süleymanov. Redaktorlar: filologiya elmləri doktoru Məhərrəm Qasımlı, geologiya-minerologiya elmləri doktoru, professor Zəkəriyyə Əlizadə. Rəyçilər: filologiya elmləri üzrə fəlsəfə doktoru Əhməd Qurbanov, Əhməd Boroyev, tarix elmləri üzrə fəlsəfə doktoru Şirinbəy Hacıəli. Bakı-"Apostrof MMC"-2001, səh:76-83

36a. Əmsal və nəsayehi-türki (Türk misal və nəsihətləri). Mətni transfonoliterasiya edib nəşrə hazırlayan və ön sözün müəllifi: f.ü.f.d. Əli Məmməd Bağıroğlu. Redaktoru: b.e.i. Arif Ramazanov. Bakı-"Elm və təhsil"-20012

37. Əfəndizadə Rəşidbəy. Bəsirətul–Ətfal. 1901/2-Bakı-1901. Durubul-əmsal. s. 141. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

38. Folklor çələngi. Azərbaycan folklorunun ilkin nəşrləri seriyası. XVII-XIX əsrlər əlyazmalarından seçmələr. Translite-

rasiya edən, mətnlərin hazırlanması, tərtib və ön sözün müəllifi: İsrafil Abbaslı. Elmi redaktorları: Hüseyn İsmayılov, Rza Xəlilov. Bakı-"Nurlan"–2008. PXYE iş N 99, səh: 25

38a. Fərzəliyev Təhmasib. Azərbaycan xalqının öyüd-nəsihətləri, tövsiyə və məsləhətləri. Elmi redaktoru: f.e.d. Hüseyn İsmayılov, f.e.d., prof.İsrafil Abbaslı. Bakı-"Səda"-2005

39. Güney Azərbaycan folklor materialları (Atalar sözü və hikmətli sözlər). Tərtib edən: Əli Əsgər Müctəhidi. Tehran-1954. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil. Inv. 2259

39a. Həsənov Xudaverdi. Təbiət ülviyyəti və söz sərraflığı. Redaktoru: Tamilla Rüstəmova. Bakı-"Gənclik"-1994

40. Xalqımızın deyimləri və duyumları. Toplayıb yazıya alanı və tərtib edəni: f.e.d. M. İ. Həkimov. İkinci nəşri. Elmi redaktoru: f.e.d., prof. P. Ş. Əfəndiyev. Rəyçi: f.e.d., prof. A. M. Nəbiyev. Bakı-"Maarif"-1988, səh:118-142

40a. İpə-sapa düzülməmiş incilər. Tərtib edəni: f.e.n. B.Çərkəsov. Elmi redaktoru: f.e.d. K.Məmmədov. Rəyçilər: f.e.d., prof. Əkrəm Cəfər, f.e.d., prof. M.H. Təhmasib, f.e.n. A. Dadaşzadə. Bakı-"Azərnəşr"-1981

41. Qarabulaq (Füzuli) folkloru antologiyası. Toplayanı, tərtib edəni və ön sözün müəllifi: Faiq Şükürbəyli. Redaktor: f.e.d., prof. Qəzənfər Paşayev. Bakı-"Zərdabi LTD MMC"-2010, səh:191-206

41a. Qarabağ: Folklor bir tarixdir. I kitab (Ağdam, Füzuli, Ağcabədi, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından toplanmış folklor örnəkləri). Layihənin rəhbəri: fil. ü. e.d. Muxtar Kazımoğlu (İmanov). Toplayıcılar: fil.ü. f.d. İlkin Rüstəmzadə. Zəfər Fərhadov. Tərtib edənlər: fil.ü.f.d. İlkin Rüstəmzadə, Zəfər Fərhadov. Redaktor: fil.ü.f.d. Ləman Süleymanova. Bakı-"Elm və təhsil"-2012, səh: 379-393

41b. Qarabağ: Folklor bir tarixdir. II kitab (Bərdə və Ağcabədi rayonlarından toplanmış folklor örnəkləri). Layihənin rəhbəri: fil. ü. e.d. Muxtar Kazımoğlu (İmanov). Toplayıcılar: fil.ü.f.d. Əfzələddin Əsgər, fil.ü. f.d. İlkin Rüstəmzadə fil.ü.f.d.

Tahir Orucov, Zəfər Fərhadov. Tərtib edən: fil.ü.f.d. İlkin Rüstəmzadə. Redaktor: fil.ü.f.d. Elçin Abbasov. Bakı-“Elm və təhsil”-2012, səh: 443-447

41c. Qarabağ: Folklor bir tarixdir. III kitab (Ağdam, Füzuli, Cəbrayıl, Tərtər, Qubadlı, Zəngilan, Kəlbəcər, Laçın və Şuşa rayonlarından toplanmış folklor örnəkləri). Layihənin rəhbəri: fil. ü. e.d. Muxtar Kazımoğlu (İmanov). Toplayıcılar: fil.ü. f.d. İlkin Rüstəmzadə. Zəfər Fərhadov. Tərtib edən: fil.ü.f.d. İlkin Rüstəmzadə. Redaktor: fil.ü.f.d. Mətanət Abbasova. Bakı-“Elm və təhsil”-2012, səh: 364-367

42. Qazıyev Saleh. “İki küp və katakomba qəbri” Azərbaycan SSREA Tarix və Fəlsəfə İnstitutu, AMM IIIc. Bakı-“Azərbaycan EA nəşriyyatı”-1953, səh:5-35

43. Qəmərli Məmmədvəli. Ana dili. I kitab. 1911/2 - 1911/38 Sofi Şeyda. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

43a. Qənizadə Soltan Məcid. Sofu (Sufi) Şeyda. Bakı-“Mirzəzadə nəşriyyatı” - ili göstərilməyib. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

44. QƏXTMT-ın (СМОМПК) I cildindən seçmələr. Tatar atalar sözləri və məsəllər - XXIV +124+62 səhifə, Tiflis-1881

45. QƏXTMT-ın (СМОМПК) IV cildindən seçmələr. Atalar sözləri və məsəllər – 326+178səhifə, Tiflis-1884

46. QƏXTMT-ın (СМОМПК) XXIV cildindən seçmələr. Şirvan tatarlarının atalar sözləri və məsəllər – VI+72+126+XLIV+279+211 səhifə, Tiflis-1898

47. QƏXTMT-ın (СМОМПК) XXVII cildindən seçmələr. Atalar sözləri və məsəllər – XVI+64+158+XI+201+128+62+38 səhifə, Tiflis-1900

48. QƏXTMT-ın (СМОМПК) XXVIII cildindən seçmələr. Atalar sözləri və məsəllər – XII+126+197+167+40 səhifə, Tiflis-1900

49. Marağayi Abbasqulu. Əmsali – Türkanə (Atalar sözləri və xalq məsəlləri). Çapa hazırlayanı: Müqəddəs Payızov. Bakı–“Yazıçı”-1992

50. Marağayi Abbasqulu. Əmsali – Türkanə (Türk atalar sözləri). Köçürən və tənzim edən Böyük Rəsul oğlu (Rəsulvənd). Bakı–"Qartal"-1996

51. Mollazadə Abbas. Türk dili, yaxud türkcə qiraət. Gəncə - 1907 - Əsgər Hacızadənin mətbəəsi. Mollazadə Abbas – Bağbanlarda Rus-müsəlman məktəbinin müəllimi. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

52. Müdrik sinədəftər. Toplayanı, tərtib edəni, tərtibçi sözü və elegiyanın müəllifi: Hikmət Əbdülhəlimov. Ön sözün müəllifi: sənətşünaslıq doktoru Faiq Çələbi. Rəyçi: f.e.d., prof. İsrafil Abbaslı. Bakı-"Nurlan"–2009, səh: 23-36

52a. Müdrik sözlər. Tərtibçilər: Q. Beqdeli, Q.Süleymanzadə, Ç. Sasani. Redaktoru: Ə.Mirəhmədov. Bakı-"Yazıçı"-1979

53. Mürsəl Həkimov. Padar Yusifin məzəli-məzəmləri. Ədəbi portret, lətifə, baməzə. Toplayıb tərtib edən və yazıya alan: prof. Mürsəl Həkimov. Redaktorlar: Nübar Əhmədova və Sənubər İlyas qızı. Rəyçi: f.e.n. Mahmud Allahmanov. Bakı-2000, səh: 144-145

54. Mümtaz Salman. Türk məsəlləri. F-24 - s. v. 421 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

55. Mümtaz Salman. Atalar sözü və məsəllər. F 24/s. v. 80 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

56. Məktəb jurnalı 1912 № 10 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

57. Məktəb jurnalı 1912 №19 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

58. Məktəb jurnalı 1913 № 3 Transfonoliterasiya edən: f.e.n.Rza Xəlil

59. Məktəb jurnalı 1913 № 14 Transfonoliterasiya edən: f.e.n.Rza Xəlil

60. Məktəb jurnalı 1913 №16 Transfonoliterasiya edən: f.e.n.Rza Xəlil

61. Məktəb jurnalı 1913 № 21 Transfonoliterasiya edən: f.e.n.Rza Xəlil

62. Məktəb jurnalı 1914 № 2 s.24 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
63. Məktəb jurnalı 1914 № 3 s. 37-38 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
64. Məktəb jurnalı 1914 № 7 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
65. Məktəb jurnalı 1914 № 2 s.24 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
66. Məktəb jurnalı 1914 № 3 s. 37-38 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
67. Məktəb jurnalı 1914 № 9 Transfonoliterasiya edən: f.e.n.Rza Xəlil
68. Məktəb jurnalı 1914 № 13 Transfonoliterasiya edən: f.e.n.Rza Xəlil
69. Məktəb jurnalı 1915 № 1 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
70. Məktəb jurnalı 1915 № 10 Transfonoliterasiya edən: f.e.n.Rza Xəlil
71. Məktəb jurnalı 1915 № 11 Transfonoliterasiya edən: f.e.n.Rza Xəlil
72. Məktəb jurnalı 1918 № 1 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
73. Məktəb jurnalı 1918 № 2 Transfonoliterasiya edən: f.e.n.Rza Xəlil
74. Məktəb jurnalı 1925 № 1 Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
75. Oğuznamə. Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi: Samət Əlizadə. Elmi redaktoru: Mirzə Rəhimov. Rəyçi: f.e.n. Kamil Vəliyev. Bakı-"Yazıçı"-1987
76. Rəhbər jurnalı. 1922 № 1. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil
76 a. Xaliq Ağa Həsənoğlu Rzayev. Atalar sözü, Bakı, BDU, 2003.
77. Sarabski fondu. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

78. Sədnik Paşa Pirsultanlı. Heca vəznli şeir və mənzum ata sözləri. Rəyçi: f.ed. Bəhlul Abdulla. Elmi redaktor: f.e.d. Məhərrəm Qasımlı. Redaktor: Aydın Murovdağlı. Gəncə-"Əsgəroğlu"-2001

78a. Səyyarə Qasımovanın şəxsi arxivindən

78b. Səlimov-Şağani T.Q. Abşeron folklorundan seçmələr. Redaktor: t.e.d., prof. H.A. Quliyev. Bakı-"Elm"-1994, səh:55-71

79. Sözlü-nağıllı gecələr. Toplayıb tərtib edəni: Loğman Ağalı. Redaktoru: E. Əliyev. Rəyçilər: f.e.d., prof. A. Nəbiyev, f.e.n. İ. Məmmədov. Bakı-"İşıq"-1991, səh:111-115

80. Təqvim (illik). Bakı-"İpəkyolu nəşriyyatı"-2011, 11-31 oktyabr

81. Tuti jurnalı. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

82. Ulduz Mürşüdova. Rəşidbəy Əfəndizadə və folklor. Elmi redaktoru və rəyçi: filologiya elmləri doktoru və professor İsrafil Abbaslı. Bakı-"Kooperasiya"-2004, səh:14; 58-59

83. Zeynallı Hənəfi. Azərbaycan atalar sözü. Bakı-1926. Transfonoliterasiya edən: f.e.n. Rza Xəlil

84. Ziynət Əlizadə. Azərbaycan atalar sözlərinin həyatı (atalar sözlərinin yaranması, təkamülü və dil xüsusiyyətləri). Redaktoru: Azərb. EA-nın müxbir üzvü Zərifə Budaqova. Rəyçi: f.e.d., prof. Ağamusa Axundov. Bakı-"Yazıçı"-1985

## MÜNDƏRİCAT

**Milli paremioloji fondun yeni təqdimat səviyyəsi (S.Rzasoy)....3**
**Etik sərhəd (Ön söz) ....8**
**A ....18**
**B ....63**
**C ....98**
**Ç ....104**
**D ....113**
**E ....150**
**Ə ....166**
**F....183**
**G ....185**
**Ğ....201**
**H....201**
**X ....219**
**İ....225**
**K....247**
**Q....266**
**L ....306**
**M ....308**
**N ....320**
**O ....326**
**Ö....337**
**P....346**
**R ....351**
**S....352**
**Ş....373**
**T ....378**

**U** .......................................................................... **393**
**Ü** .......................................................................... **398**
**V** .......................................................................... **400**
**Y** .......................................................................... **406**
**Z** .......................................................................... **433**
**Lüğət** ...................................................................... **438**
**Lüğətin tərtibində istifadə olunan mənbələr** ............ **462**
**Qaynaqlar** ................................................................ **463**

**Atalar sözləri**
Bakı, “Nurlan” nəşriyyatı, 2013

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompyuterdə yığdı:
**Ülviyyə Əliyeva**

Korrektor:
**Aynur Hüseynova**

Kompyuter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 476 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompyuter Mərkəzində yığılmış, “Nurlan” NPM-də
ofset üsulu ilə hazır diapozitivlərdən nəşr olunmuşdur.